AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU

ƏDƏBİ PROSES – 2017

V

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının
16 iyul 2018-ci il tarixli qərarı ilə çap olunur.

“Hədəf” nəşrləri

BAKI-2018

Ədəbi proses–2017

Redaksiya heyəti:

İsa HƏBİBBƏYLİ
Tehran ƏLİŞANOĞLU
Əlizadə ƏSGƏRLİ
Aygün BAĞIRLI
Vaqif YUSİFLİ (məsul redaktor)
Mehman HƏSƏNOV
Elnarə AKİMOVA
Nərgiz CABBARLI

"Ədəbi proses–2017" kitabındakı ön sözdə akademik İsa Həbibbəylinin XX əsr ədəbi prosesinə, onun XXI əsrdəki beşillik fəaliyyətinə elmi-nəzəri baxışı ifadə olunmuş, ədəbi yekunlar nəzərdən keçirilmiş, bu sahədə elmi-təşkilati təcrübə ümumiləşdirilmiş, problemin təkamül xüsusiyyətləri analiz edilmiş və cari vəzifələr müəyyənləşdirilmişdir.

"Ədəbi proses–2017" daha konkret məcrada analitik təhlilini tapmış, buraya ilk dəfə ədəbi gəncliyin dəyərləndirilməsi də aid edilmişdir.

Topludan bakalavr və magistrlər, doktorant və müəllimlər, habelə, humanitar sahələrin elm və təhsil mütəxəssisləri faydalana bilər.

Kitabda 2017-ci ilin ədəbi prosesi aşağıdakı
istiqamətlər üzrə təhlil olunur.

Poeziya
Bədii nəsr
Dramaturgiya
Tənqid və ədəbiyyatşünaslıq
Publisistika
Ədəbi əlaqələr
Bədii tərcümə
Uşaq ədəbiyyatı
Ədəbi gənclik

ISBN: 9001020800176

© AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

İsa HƏBİBBƏYLİ
Azərbaycan Milli Elmlər Akademiyasının
vitse-prezidenti, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun direktoru, akademik

ƏDƏBİ PROSES HƏRƏKATI İCMAL TƏNQİDİNDƏN MONOQRAFİK DƏRİNLİYƏ

Ədəbi proses dedikdə ilk növbədə müəyyən olunmuş ilin və ya illərin ədəbi mənzərəsi təsəvvür olunur. Ona görə də "Ədəbi proses" yaradıcılıq müşavirələri "İlin ədəbi mənzərəsi" adlı ümumiləşdirilmiş elmi məruzələrlə başlanır. Sovet hakimiyyəti illərindəki "Ədəbi proses"lərdə "Ön söz"lər müstəqillik dövründəki "İlin ədəbi mənəzrələri"nin mahiyyətini ifadə etmişdir. Doğrudur, "Ön söz"lər və "İlin ədəbi mənzərəsi"ndə yalnız ədəbi prosesin mövcud vəziyyətindən bəhs edilməklə kifayətlənilməmiş, ədəbi prosesin gedişatından, vəzifələrindən də söz açılmışdır. Bu mənada ədəbiyyatda gedən proseslərin mövcud vəziyyəti, inkişaf meyilləri, yüksəliş ritmləri və çətinlikləri ədəbi prosesin real mahiyyətini ifadə edir. Ədəbi proses – ədəbi həyatın inkişafda olan mənzərəsini təqdim edir. Ədəbi proses – hərəkətdə olan yaradıcılıq prosesi deməkdir. Bu mənada "Ədəbi proses–2013" sonrakı "Ədəbi proses–2014"ün start nöqtəsidir. Yaxud "Ədəbi proses–2016" özündən əvvəlki "Ədəbi proses–2015"in davamıdır. Ədəbi prosesin illəri və gedişatı arasında daxili bağlılıq mövcud olur. Ədəbi proses ədəbiyyatdakı yaradıcılıq təkamülü proseslərinin gedişatının mühitdəki əks-sədasıdır. Deməli, ədəbi

proses – hərəkətdə və inkişafda olan davamlı bədii yaradıcılıq prosesləri deməkdir. Ona görə də ən yaxşı halda ədəbi prosesin illər üzrə təqdimatında bir əvvəlki il başlanğıc, mövcud vəziyyət hərəkət prosesi, sonrakı il isə ümumiləşmiş nəticə ola bilər. Lakin "sonrakı il" özü də daha sonrakı ilin start vəziyyətini əks etdirdiyi üçün ədəbi proses anlayışı şərtidir. Buna görə də şərti də olsa, ədəbi prosesi müəyyən ədəbi-tarixi hadisələr əsasında mərhələlər üzrə ümumiləşdirmək mümkündür. Belə olduqda ədəbi proses ədəbiyyatın bir inkişaf mərhələsi ilə sonrakı başqa bir yüksəliş dövrü arasındakı ideya-mənəvi bağlılığı, yaradıcılıq təkamülü proseslərinin varisliyini, nəticə etibarilə ədəbiyyatda başlanan, sönən və ya yaşamaqda davam edən proseslərin elmi cəhətdən real qiymətləndirilməsini tələb edir. Bu mənada Ədəbi proses həm də məhək daşı funksiyasını həyata keçirir. Ədəbi proses – ələk rolunu yerinə yetirir. Ədəbi prosesin ələyindən, süzgəcindən keçib, yaradıcılıq dalğası kimi yaşamaqda davam edən proseslər böyük ədəbiyyatı yaradan və daha da inkişaf etdirən proseslərdir.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda müxtəlif tarixi mərhələlərdə iki dəfə təşkil olunmuş ədəbi proses yaradıcılıq sessiyası konkret olaraq ayrı-ayrı ədəbi dövrlərin mahiyyətini və gedişatını əks etdirir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçmiş Sovet hakimiyyəti illərində 1976-cı ildən başlanan, 1984-cü ildə başa çatan Ədəbi proses tədbirlərinin başlanğıcı və bünövrəsidir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri, akademik Məmməd Cəfər Cəfərovun rəhbərliyi və institutun "Müasir ədəbi proses" şöbəsinin müdiri Yaşar

Ədəbi proses–2017

Qarayevin təşəbbüsü ilə keçirilmiş "Ədəbi proses–1976-1984" elmi sessiyaları və həmin elmi sessiyaların materiallarından ibarət olan kitablar qeyd olunan dövrün ədəbiyyatının janrlar üzrə inkişafını, əsas problemlərini və çatışmazlıqlarını, habelə vəzifələrini tam halda, sistemli şəkildə əks etdirmişdir. 1976-1984-cü illərdə keçirilmiş Ədəbi proses sessiyaları Azərbaycan ədəbi tənqidinin oçerkləri kimi mühüm əhəmiyyətə malikdir. "Azərbaycan ədəbiyyatı tarixi" kitablarına yazılmış xronoloji inkişafı göstərən icmallardan sonra bu elmi sessiyaların məruzələrinin icmalları dövrün ədəbi prosesinin vəziyyətini və vəzifələrini işıqlandıran ciddi elmi-nəzəri tezislərdən ibarətdir. Bunlar Azərbaycan ədəbiyyatşünaslıq elmində icmal tənqidinin mükəmməl nümunələridir. Yazıçılar İttifaqının qurultaylarında səslənən hesabat xarakterli məruzələrdən fərqli olaraq, "Ədəbi proses" sessiyalarının icmallarında ayrı-ayrı aparıcı ədəbi növlər və janrlar əsasında dövrün ədəbi prosesi bütün yönləri ilə təsvir və təhlil olunmuşdur. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayevin "Ədəbi proses" icmallarının kitab variantlarına yazdığı "Ön söz"lər həmin icmalların mükəmməl elmi-nəzəri müqəddiməsidir. Yaşar Qarayevin "Ədəbi proses" icmallarındakı "Ön söz"ləri dövrün ədəbiyyatı və ədəbiyyatşünaslıq elmi haqqında mənalı bir monoloqdur. Yaşar Qarayevin təqdimatında həmin illərin ədəbiyyatının və ədəbiyyatşünaslıq elminin ayrı-ayrı istiqamətlərinin obyektiv elmi qiyməti verilmişdir: "Bütünlükdə ədəbi ilin janr və üslub tendensiyalarını indi lirika daha qabarıq ifadə etməyə başlayıb: həm şeirin və nəsrin, həm də dramatik formaların estetik strukturunda lirik ünsürün rolu daha da artıb. Realist psixologizmə, konkret

fəlsəfi ümumiləşdirməyə, təbii monumentalizmə meyil qüvvətlənib. Ritorik təhkiyə ilə analitik təhlilin nisbəti bunlardan ikincisinin xeyrinə xeyli dəyişib" (1976).[1] Müasir, inkişaf etmiş "insan konsepsiyası ədəbi-bədii janrlara özü ilə birlikdə həyatın, ömrün və əbədiyyətin mənası, məhəbbət və şəxsiyyət, fəfakarlıq, ölüm və mübarizə haqqında fəlsəfi düşüncələr axarı gətirib gəlir" (1977);[2] "Poeziya, dünya və şəxsiyyət" – bu üç qütb və onlar arasında əlaqələr bu günkü bədii və estetik fikirdə aktual ədəbi problem kimi qaldırılır" (1979).[3] "İlin janrlar sistemində tənqid və ədəbiyyatşünaslıq sahələri də mühüm və görkəmli yerlərdən birini tutmuşdur" (1981-1982).[4] Beləliklə, Yaşar Qarayevin "Ön söz" formatında icmalları tam mənası ilə "Ədəbi proses"lərin proqram xarakterli proloqu funksiyasını yerinə yetirmişdir. Ümumiyyətlə, Yaşar Qarayev XX əsr Azərbaycan "Ədəbi proses" hərəkatının favoritidir.

"Ədəbi proses–1976-1984" yaradıcılıq sessiyaları Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında mühüm mərhələ olmuş XX əsrin həmin illərinin əhəmiyyətli ədəbi hadisələridir. "Ədəbi proses" sessiyalarında ardıcıl olaraq ədəbi növlər üzrə çıxış etmiş elm adamları ölkə ədəbiyyatında gedən proseslərə təkan verə bilən mütəxəssislər kimi qəbul olunmuşlar. Yaşar Qarayev ədəbi tənqid, Şamil Salmanov, Şirindil Alışanlı poeziya, Akif Hüseynov, Vaqif Yusifli və Vilayət Quliyev nəsr, Arif Səfiyev dramaturgiya sahəsində tanınmış mütəxəssislər kimi ixtisaslaşmışlar.

[1] Ədəbi proses–1976. Bakı, "Elm", 1977, səh.7.
[2] Ədəbi proses–1977. Bakı, "Elm", 1978, səh.8.
[3] Ədəbi proses–1979. Bakı, "Elm", 1983, səh.4.
[4] Ədəbi proses–1981-82. Bakı, "Elm", 1987, səh.12.

Azərbaycan ədəbiyyatında bütün ədəbi növlər üzrə baş vermiş inkişaf prosesləri əsas müddəaları və perspektivləri ilə "Ədəbi proses" kitablarında öz əksini tapmışdır. Dövrün (hətta sonrakı mərhələlərin də) heç bir nəşrində 1976-1984-cü illərin ədəbi prosesi həmin illərin ədəbi gedişatına həsr olunmuş ədəbi növlər üzrə icmallarda olduğu qədər özünün real, geniş və sistemli əksini tapa bilməmişdir. "Ədəbi proses–1976-1984" tənqid icmalları Azərbaycan ədəbiyyatşünaslıq elminin orijinal elmi-nəzəri mətnləri və mühüm yaradıcılıq nailiyyətidir.

Heç şübhəsiz, sovet dövrü ədəbi proses konfranslarında, yaxud nəşrlərində reallıqların təqdim olunması ilə yanaşı, hakim ideologiyanın tələbləri də nəzərə alınmışdır. Dövrün prinsiplərinə uyğun olaraq "Ədəbi proses" icmallarında istər-istəməz partiyanın ədəbiyyatın inkişafına qayğısından, yazıçıların mövcud ideologiyanın inkişaf etdirilməsindəki rolundan da söz açmalı olmuşlar. Məsələn, 1976-cı ilin Ədəbi prosesinə həsr olunmuş yaradıcılıq sessiyasının materiallarında ədəbiyyatda hər iki istiqamətin – bədii təcrübənin və ideologiyanın yeri və mövqeyi aydın surətdə görünməkdədir: "Ədəbi proses kitabının və bu silsilədən davam etdiriləcək gələcək kitabların qarşısında duran əsas məqsəd də diqqəti ən vacib məsələlərə – ədəbiyyatda kommunist obrazına, fəhlə mövzusuna, müasir ədəbi hərəkatın milli və beynəlmiləl təbiətinə, sosialist millətləri arasında qarşılıqlı bədii təsir və əlaqələrə, həyat və ədəbiyyat, elmi-texniki tərəqqi və ədəbi-bədii proses problemlərinə, poeziyanın monumentallıq və nəsrin psixologizm axtarışlarına cəlb etməkdir; bütün bu baxımdan milli bədii prosesin cari təcrübəsini, onun istiqamət və me-

yillərini, qüvvətli və zəif cəhətlərini mütəşəkkil və fasiləsiz bir ardıcıllıqla ilbəil izləməyə çalışmaqdır”.[1]

Bununla belə, XX əsrin yetmiş-səksəninci illərində meydana çıxmış “Ədəbi proses” elmi sessiyaları və nəşrləri müasir Azərbaycan ədəbiyyatını klassik ədəbiyyat tarixlərində və dərsliklərdə olduğu kimi dövrlər və mərhələlər üzrə deyil, konkret illər üzrə araşdırıb təhlil etməyin və ümumiləşdirməyin əsasını qoymuşdur. Bu, Azərbaycan ədəbiyyatında fərqli elmi hadisə və xüsusi elmi mərhələ hesab olunmağa layiqdir.

“Ədəbi proses” sessiyalarının ənənələrinə 30 ildən sonra, 2014-cü ildə yenidən qayıdılmışdır. Belə ki, “Ədəbi proses” dövrünün birinci mərhələsinin başa çatdığı 1984-cü ildən sonra Nizami adına Ədəbiyyat İnstitutunda ara-sıra ədəbi ilin yekunlarına həsr olunmuş elmi sessiyalar təşkil olunsa da, bu iş ardıcıl xarakter daşımamış və institut mühitindən kənara çıxmamışdır. Lakin 2014-cü ildən etibarən yeni formatda, yaradıcılıq müşavirəsi miqyasında keçirilməyə başlamış “Ədəbi proses” tədbirləri forma və məzmunca yeni xarakter daşımışdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, XXI əsrin “Ədəbi proses” müşavirələrində ədəbi gedişatı hər şeydən əvvəl ümummilli ideyalar və bəşəri meyillər əsasında təhlil edib dəyərləndirmək ön mövqeyə çəkilmişdir. Nizami adına Ədəbiyyat İnstitutunda 2014-cü ildə yenidən bərpa edilmiş və 2013-cü ilin “Ədəbi proses”ini əhatə edən materiallarda həmin gerçəklik aşağıdakı kimi öz əksini tapmışdır: “Bu yaradıcılıq müşavirəsinin aparıcı elmi-ideoloji istiqaməti azərbaycançı-

[1] Ədəbi proses–1976. Bakı, “Elm”, 1977, səh.14.

lıq, millilik və bəşərilik üstündə köklənmişdir. Azərbaycan ədəbiyyatının müstəqillik dövrünün əsas inkişaf meyilləri, estetik idealı, aparıcı janrları, poetikası ədəbi proses təhlillərinin ana xəttini təşkil edir. Cəmiyyət və ədəbiyyat istiqamətində aparılan təhlillərdə də sosioloji baxışlara deyil, elmi-nəzəri yanaşmalara əsas yer verilir. Bu, həm də milli maraqlarla dünyəvi elmi-nəzəri fikrin sintezi əsasında sürətlə formalaşmaqda olan yeni tipli ədəbiyyatşünaslığın inkişafına xidmət edən yaradıcılıq müşavirəsi olaraq özünəməxsus əhəmiyyət kəsb edir".[1]

Göründüyü kimi, müstəqilik dövründə nəinki Ədəbi proses tədbirlərinin formatı və ideologiyası, hətta metodologiyası da dəyişmiş və yeniləşmişdir. Ədəbi-tarixi proseslərin mövcud reallıqlarının və gedişatının daxili məntiqi və təkamülündən doğan yaradıcılıq meyillərinin azərbaycançılıq məfkurəsi və bəşəri ideyalar əsasında təhlil edilib qiymətləndirilməsi yeni tarixi epoxanın "Ədəbi proses" icmallarının əsaslarını təşkil edir. Eyni zamanda, Milli Elmlər Akademiyasının humanitar yönlü digər elmi-tədqiqat institutlarından başqa Azərbaycan Yazıçılar İttifaqının, ali məktəblərin Ədəbiyyat kafedralarının rəhbərlərinin və əməkdaşlarının, tanınmış tənqidçi və ədəbiyyatşünasların, ölkə ədəbi mətbuatının nümayəndələrinin iştirakı ilə geniş müzakirələrin keçirilməsi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkil etdiyi "Ədəbi proses"ləri XX əsrin yetmiş-səksəninci illərindəki elmi sessiya səviyyəsindən elmi-yaradıcılıq müşavirəsi miqyasına çıxarmışdır. Bu, sözün əsl mənasında ən yeni dövr Azərbaycan ədəbiyyatının

[1] Ədəbi proses–2013. Bakı, "Hədəf nəşrləri", 2014, səh.10.

illər və janrlar üzrə yaradıcılq problemlərini geniş müzakirə edib dəyərləndirən və gələcək inkişafa işıq salan ciddi elmi-ədəbi forumdur. Bu, Azərbaycan ədəbiyyatını ayrı-ayrı mövzular üzrə məruzələr əsasında deyil, tam, bütöv halda, bütün inkişaf meyilləri ilə birlikdə dərin və əsaslı təhlildən keçirilən, proseslərə və hadisələrə elmi qiymət verən, sonrakı inkişaf yoluna dair əsaslı təkliflər irəli sürən çoxsəsli bir elmi platformadır. Həcm məhdudluğu da aradan qaldırıldığı üçün janrlar üzrə icmallar yığcam tezislər əsasında yox, geniş təhlillər və müqayisələr üzərində qurulduğuna görə konkret bir monoqrafik tədqiqatın fəsilləri təəssüratı yaradır. Yaradıcılıq müşavirəsinin materialları isə tam halda Azərbaycan ədəbiyyatının bir ilinə həsr edilmiş və müəlliflər kollektivi tərəfindən yazılmış monoqrafiya kimi görünür. Sadəcə, janrlar üzrə ilin ədəbi mənzərəsinin yox, ədəbiyyatının həmin istiqamətinin inkişaf xüsusiyyətlərinin, mühüm nailiyyətlərinin və problemlərinin şərh olunması icmalları sistemli elmi-nəzəri tədqiqat səviyyəsinə çatdırır. İcmallardan hər janr üzrə 2013-2017-ci illərin Azərbaycan ədəbiyyatının inkişaf ritmlərini rentgendə olduğu qədər aydın surətdə görmək mümkündür. Professionalizm, yüksək nəzəri hazırlıq, dərin və ardıcıl mütaliə əsasında təhlillərin aparılması, səriştəli yazı tərzi yeni tarixi dövrün "Ədəbi proses"inin özünəməxsus elmi-nəzəri səviyyəsini müəyyən edir. Bundan başqa, janrlar üzrə 2013-2017-ci illərə dair 5 illik icmallardan hər biri də artıq müstəqil bir iri həcmli tədqiqatdır. Bu mənada "Ədəbi proses" yaradıcılıq müşavirəsinin materialları 2013-2017-ci illərin poeziyası, nəsri, dramaturgiyası, tənqid və ədəbiyyatşünaslığı ayrılıqda hər biri müstəqil monoqrafik

tədqiqata çevrilmiş sistemli elmi araşdırmalardan ibarətdir. "Ədəbi proses"lərdəki uşaq ədəbiyyatı icmalları ilin ədəbiyyatını tam mənzərəsi ilə göstərməyə xidmət etməklə bərabər, həm də Nizami adına Ədəbiyyat İnstitutunda aparılan tədqiqatlar sırasında illərdən bəri arxa planda qalmış bu vacib sahənin yenidən dirçəldilməsinə imkan yaratmışdır. Həmçinin ədəbi əlaqələrin müxtəlif istiqamətlərinə həsr olunmuş araşdırmalar "Ədəbi proses" anlayışında yenilik olub, ilin ədəbi mənzərəsini və gedişatını tamamlayır. İlin publisistika tədqiqatları da "Ədəbi proses" materiallarını yeni əlavələrlə zənginləşdirir. Əsası XX əsrin səksəninci illərində Sabir Əmirovun "Cənubi Azərbaycanda ədəbi proses" məruzəsi ilə qoyulmuş Cənub tədqiqatları XXI əsrin "Ədəbi proses"lərində ardıcıl yer tutmaqla daha da möhkəmləndirilmişdir. "Ədəbi proses–2015"də yazılmış satira icmalı Azərbaycan ədəbiyyatını bütün rəngləri ilə öyrənmək təşəbbüslərinin ifadəsidir. "Ədəbi proses–2016"dan meydana çıxmış "Rusdilli Azərbaycan ədəbiyyatı" məruzəsi – icmalları ilə yaradıcılıq müşavirəsində yeni istiqamət açılmışdır. "Rusdilli Azərbaycan ədəbiyyatı" məruzəsi Azərbaycan ədəbiyyatının tamlığı, bütün əhatə dairəsi ilə təqdim etmək təşəbbüsünün ifadəsi kimi də əhəmiyyətlidir. Çünki həqiqətən də rusdilli ədəbiyyat Azərbaycan ədəbiyyatının üzvi tərkib hissəsi olub, ölkəmizdə ədəbi fikrin inkişafına rəngarənglik gətirən maraqlı və əhəmiyyətli ədəbiyyat faktıdır. Filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənovanın 2016-2017-ci illərin "Ədəbi proses"inə həsr edilmiş elmi-yaradıcılıq müşavirəsində "Azərbaycanın rusdilli ədəbiyyatı" mövzusunda etdiyi məzmunlu məruzə bu problemin daha geniş masştabda –

dissertasiya, monoqrafiya miqyasında tədqiq edilib ümumiləşdirilməsinə ehtiyac olduğunu nəzərə çarpdırır. Eyni zamanda, bu, azərbaycanlı qələm sahiblərinin Avropa və Şərq dillərində yaratdıqları ədəbiyyatlardan da elmi müstəvidə söz açmağa perspektiv imkanlar yaradır. 2013-2018-ci illərdə "Bədii tərcümə" haqqında ayrıca məruzənin dinlənilib müzakirə olunması da xarakter etibarilə yeni olub, "Ədəbi proses"in əhatə dairəsini genişləndirir. XXI əsrdə ədəbiyyat problemlərinin ədəbi növlər halında deyil, daha çox konkret janrlar və istiqamətlər üzrə araşdırmaların aparılması təhlilə cəlb olunan problemləri "xırdalamaqdan" yox, dövlət müstəqilliyinin ədəbi mühitdə və bədii yaradıcılıq sahəsində yaratdığı geniş imkanlardan doğmuşdur. Heç şübhəsiz, məsələyə geniş baxış "Ədəbi proses"ləri ildən-ilə inkişaf edərək bütün janrları və ədəbi əlaqələrlə əlaqədar inkişafı əhatə etməklə ilin (nəticədə 5 ilin) ədəbiyyatı və yaradıcılıq əlaqələri, habelə tənqid və ədəbiyyatşünaslığı haqqında dərin və ümumiləşdirilmiş təsəvvür yaradan elmi platformaya çevriləcəkdir.

Müraciət olunan janrların dinamikası və əhatə dairəsi baxımından keşilən yolun sovet dövrü və müstəqillik mərhələsi üzrə müqayisəli təhlili "Ədəbi proses" hərəkatının miqyasını təsəvvür etməyə imkan verir. XX əsrin "Ədəbi proses" nəşrlərində 1976, 1977, 1978, 1979 və 1981-ci illərdə Azərbaycan ədəbiyyatı yalnız poeziya, nəsr, dramaturgiya və ədəbi tənqid üzrə təhlil edilib qiymətləndirilmişdir. 1982 və 1984-cü illərdə bu sıraya "Cənubi Azərbaycanda ədəbi proses" mövzusu əlavə olunmuşdur. Bu, mövcud ədəbi prosesi Azərbaycan ədəbi-elmi fikrini bütün əsas istiqamətləri üzrə tədqiq edib ümumiləşdirmək üçün

münasib bir yanaşma olub, ilin ədəbi gedişatının bütöv obrazını yaratmağa xidmət etmişdir. Həmin vaxta qədər, elə 70-80-ci illərdə də ədəbiyyatda sosioloji təhlilin, bədii əsərlərin ideya-məzmunca təqdim olunmasının üstünlük təşkil etdiyini nəzərə alsaq, "Ədəbi proses" materiallarındakı ədəbi növlər üzrə təhlillərin əhəmiyyəti bir daha aydın ola bilər. "Ədəbi proses–79"da proqram xarakterli "Giriş" məqaləsində Yaşar Qarayevin irəli sürdüyü "Bədii prosesdə davamlı ənənələrin ən səciyyəviləri hansılardır? Poeziya və nəsr nisbəti poetik onilliyə hansı mənəvi sərvət və əxlaqi ovqatla daxil olur? Onun can atdığı ünvanda və artıq arxada buraxdığı mənzildə hansı üfüqlər və hüdudlar çarpazlaşır? Bu poetik hərəkatda hiss və tənəffüs ritmi, səs-nəfəs avazı və ahəngi hansı təzə notlardan bizə xəbər verir?"[1] kimi ciddi suallar artıq tənqid və ədəbiyyatşünaslıqda təhlil və dəyərləndirmələrin sosioloji tələblərdən nəzəri dərkə doğru dəyişməkdə olduğunu göstərirdi. Bu dəyişmə meyilləri sonrakı illərin "Ədəbi proses" toplularındakı məruzə mətnlərindəki təhlillərdə tədricən genişlənmişdir. Bu, Azərbaycan ədəbiyyatında sosioloji təhlillə müqayisədə nəzəri şərhlərin və dəyərləndirmələrin əsas tədqiqat üsulu kimi önə çəkilməsi mənasında əhəmiyyətli addım idi.

XXI əsrin "Ədəbi proses" yaradıcılıq müşavirələrində isə ədəbi növlər üzrə təhlilləri daha da dərinləşdirmək üçün janrlar əsasında təhlillərə keçidə start verilmişdir. Bu, tədrici proses olub, illər üzrə daha da genişlənərək Azərbaycan ədəbiyyatının demək olar ki, bütün aparıcı

[1] Ədəbi proses–79. Bakı, "Elm", 1983, səh.4.

janrlarını əhatə etmişdir. Belə ki, "Ədəbi proses–2013"də ədəbi növlər üzrə təhlil (şeir, nəsr, dramaturgiya və tənqid) qorunub saxlanılmaqla bu sıraya ilin poema yaradıcılığı, bədii tərcümə və bədii publisistika əlavə olunmuşdur. "Ədəbi proses–2014"də ədəbi növlər və janrlar üzrə təhlillərdə ikihakimiyyətliyə tam əməl etmək mümkün olmamışdır. Azərbaycan poeziyasının lirika və poema, epik növün hekayə, povest və romanlar üzrə təhlil olunması ədəbi növlər üzrə klassik təhlil formatını dağıtmışdır. Üstəlik bu il üzrə uşaq ədəbiyyatından da ayrıca məruzənin – icmalın meydana çıxması ədəbi növdən – yaradıcılıq istiqamətinə doğru fərqli bir yanaşmanı da ortaya qoymuşdur. Bundan başqa, uzun illərdən bəri "Tənqid" adı ilə ümumi şəkildə təqdim olunan məruzə 2014-cü ildə ilk dəfə parçalanaraq ayrı-ayrılıqda tənqid və ədəbiyyatşünaslıq sahələrini əhatə etməli olmuşdur. "Ədəbi gəncliyin yaradıcılıq axtarışları" ilə "Ədəbi proses" hərəkatına ədəbi gənclik mövzusu da qoşulmuşdur. Beləliklə, sovet dövrü "Ədəbi proses"lərindəki 4-5 məruzə, hətta 2013-cü ilin "Ədəbi proses"indəki 6 məruzə əvəzinə, 2014-cü ildə Azərbaycan ədəbi-elmi fikri 14 elmi məruzə əsasında təhlil edilib dəyərləndirilmişdir. Janrlar əsasında təhlillərin üstünlük qazanması "Ədəbi proses–2014"də deyildiyi kimi "Ədəbiyyatın illik ümumi mənzərəsinin bütün genişliyi və reallıqları ilə əks etdirilməsinə işıq salmışdır, ...ədəbi gedişatın nəinki əsas ana xətlərini, hətta fərqli özünəməxsusluqlarını, incə məqamlarını da görüb-göstərməyə imkan yaratmışdır. Beləliklə, "Ədəbi proses–2014" yaradıcılıq müşavirəsi XX əsrin yetmişinci illərinin sonlarından başlanan ədəbi prosesin illik dəyərləndirilməsi hərəkatının tarixində janrların ge-

nişliyi baxımından diqqəti cəlb edən mühüm hadisədir. Məsuliyyətlə hazırlanmış məruzələrdə Azərbaycan ədəbiyyatının bütün janrlar üzrə hərəkətini dəqiq şəkildə, uğurları və kəsirləri ilə birlikdə tam olaraq təsəvvür etməyə real şərait yaratmışdır. "Ədəbi proses–2014" yaradıcılıq müşavirəsi elmiliyi, nəzəri səviyyəsi, ən başlıcası isə yenilik ruhu ilə yaddaqalan ədəbiyyatşünaslıq hadisəsinə çevrilə bilmişdir".[1] Həqiqətən də "Ədəbi proses–2014" geniş mənada ədəbi proses hərəkatında mühüm bir dönüş mərhələsi olmuşdur. "Ədəbi proses–2014"dən başlanan proseslər 2015, 2016 və 2017-ci illərin ədəbiyyatının təqdimatında daha da genişlənmiş və dərinləşdirilmiş, sistemli xarakter almışdır. "Ədəbi proses–2015"də janrlar üzrə təhlillərin marafonuna satira, 2016-cı ildə uşaq şeiri ilə uşaq nəsrinin ayrı-ayrılıqda təmsil olunması, ədəbiyyatşünaslığın ədəbiyyat nəzəriyyəsi və ədəbi əlaqələr sahələri də qoşulmuşdur. Necə deyərlər, "Ədəbi proses–2017"də artıq "Ədəbi proses" qatarı 19 vaqonla (məruzə ilə) yola çıxmışdır. Bu, ədəbi proses hərəkatının inkişafında pik nöqtəsidir və ədəbiyyatın dərinliklərinə və ən uzaq hədəflərinə doğru yürüşün müzəffər marafonudur. Məruzələrin sayca çoxluğu yaradıcılıq mühitində ədəbi növlərin demək olar ki, bütün əsas janrlar üzrə yaşadığı keyfiyyət dəyişikliklərini izləməyə imkan açır.

"Ədəbi proses" tədqiqatlarında icmal tənqidindən monoqrafik genişliyə və dərinliyə doğru meyil həmin prosesin bütün inkişaf mərhələlərində müşahidə olunmuş və təbii bir təkamül prosesi keçirmişdir. XX əsrdə icmal tənqi-

[1] "Ədəbi proses–2014". Bakı, "Hədəf nəşrləri", 2015, səh.8-9.

dinin daxili enerjisi kimi müşahidə olunan elmi-nəzəri yanaşmalar tədricən inkişaf edərək sistemli problematik araşdırmalara çevrilmişdir. Hələ 1976-cı ilin "Ədəbi proses"ində təhlillərin, tədqiqatların "klassikləri öyrətməkdən" – "klassik öyrənmək" istiqamətində inkişaf etdirilməsinə çağırış ilə ədəbi mühitdə mövcud vəziyyətin təsviri və təqdimindən mahiyyətin müəyyən olunmasına və şərhinə, inkişaf ritmlərinə dəstək verilməsinə işıq salmağa yönləndirilmişdir. "Ədəbi proses"çilər 1977-ci ilin yekunlarına həsr olunmuş icmallarında hiss etdiklərini bəyan etmişdilər ki, "yaxın gələcəkdə tənqidi hərəkatda fundamental-akademik istiqamətin üfüqləri, nüfuzu və mövqeyi daha da qüvvətlənəcəkdir". Artıq 1979-cu ildə "Ədəbi proses"də "tənqidi işi yenidən qurmaq" zərurətinin qapını döydüyü elan olunmuşdur. Məhz belə təkamül proseslərinin nəticəsi idi ki, 1982-ci ilin "Ədəbi proses"i böyük cəsarətlə "yeni elmi konsepsiyalara" yaranmış real ehtiyacı diqqət mərkəzinə çəkmişdir. Bir sözlə, "Ədəbi proses" hərəkatı icmal düşüncəsindən monoqrafik tədqiqata doğru addımlamaqda davam etmişdir. Deməli, icmal tənqidindən monoqrafik tədqiqata doğru meyil 1976-1984-cü illər "Ədəbi proses"inin əsas tezisləri səviyyəsində ardıcıl olaraq nəzəri şəkildə inkişaf etdirilmişdir. Nəhayət, 2013-cü ilin "Ədəbi proses"inin elmi hesabatında "ənənənin bərpası və yeni mərhələ"nin başlanmasından söz açılarkən vaxtilə Yaşar Qarayevin müdrikcəsinə söylədiyi "müasir ədəbi proses həm də müasir ədəbi-nəzəri proses deməkdir" – müddəasından çıxış edilərək ədəbi gedişatın dərinliklərinə və genişliyinə doğru istiqaməti əsas hədəf kimi müəyyən etmişdir. Bu cəhətdən 2014-cü il "Ədəbi proses" hərəkatında ic-

mal tənqidindən monoqrafik tədqiqata keçid ili kimi səciyyələndirilə bilər. Məhz bu ildə "Ədəbi prosesin geniş elmi təqdimatına bəslənilən marağın "real elmə" çevrilməsi prosesinin başlanması elan olunmuş və buna əməl edilmişdir. Müxtəlif istiqamətlərdən axan bulaqlar çaylara, dağ çayları isə nəhrlərə çevrildiyi kimi, 2015-ci ilin "Ədəbi proses"i icmal formatında deyil, tam halda konkret elmi problemlər əsasında təqdim olunmuşdur. Uzun illər ərzində "Ədəbi proses" toplularında "Poeziya", "Nəsr", "Dramaturgiya", "Tənqid" kimi təqdim olunan icmallar 2015-ci ildə bütövlükdə ədəbi növlərin və janrların problemlərini əks etdirən konkret mövzular əsasında aparılmış araşdırma materialları səviyyəsinə çatdırılmışdır. Bu yolla icmal tənqidi inkişaf edərək monoqrafik genişliyə və dərinliyə qovuşmuşdur. "Ədəbi proses–2015"in "bələdçi"sindəki bəndlərdən hər biri bütünlüklə ədəbi gedişatın, yaradıcılıq proseslərinin konkret janrlar üzrə problemlərinə həsr olunmuşdur. "Janr zənginliyi və gənc qvardiya" (İsa Həbibbəyli), "Səni axtarıram, poeziya" (Elnarə Akimova), "Zamanın hökmü və janrın taleyi" (Nərgiz Cabbarlı), "Tarixi janrın həqiqətləri" (Tehran Əlişanoğlu), "Çağdaş dövrün roman bumu" (Nərgiz Cabbarlı), "2015-ci ilin ədəbi mənzərəsində povest janrı" (Aynur Xəlilova), "Hekayənin indiki zamanı" (Mətanət Vahid), "Bölgələrdə ədəbi həyat" (Vaqif Yusifli), "Dramaturgiya–2015" (Aynurə Mustafayeva), "2015-ci ilin ədəbi mənzərəsində gənclik faktoru: problemlər, axtarışlar" (Lalə Həsənova), "Uşaq ədəbiyyatı: nəsr və dramaturgiya" (Günay Qarayeva), "Uşaq şeiri" (Aygün Bağırlı), "Satira, yoxsa satirasızlıq: müasir şəraitdə durğunluğun səbəbləri" (Səadət Vahabova), "Bədii tər-

cümə və ədəbi əlaqələr" (Cavanşir Yusifli), "2015-ci ilin ədəbi tənqidi" (Qürbət Mirzəyev), "Ədəbiyyatşünaslıq. Nəzəri problemlər" (Maral Yaqubova), "Çağdaş Azərbaycan ədəbiyyatında ədəbi dilin inkişafı özəllikləri və problemləri" (Salidə Şərifova) və "Cənubi Azərbaycanda ədəbi proses" (Pərvanə Məmmədli) kimi mövzulardan əksəriyyəti ciddi və geniş elmi-nəzəri problemləri əhatə edir. Hətta bu mövzulardan bir neçəsi var ki, onlar ayrıca bir monoqrafiyanın obyekti ola bilər. İcmal tənqidindən monoqrafik tədqiqata keçid "Ədəbi proses" probleminə geniş baxış, nəzəri dərinlik, elmi ümumiləşdirmə gətirmişdir. Bu, "Ədəbi proses" hərəkatında keyfiyyətcə yeni mərhələdir. Professionalizm, analitik təhlil, masştablı baxış, nəzəri yanaşmalar "Ədəbi proses"in bu fərqli mərhələsini xarakterizə edir. Ona görə də "Ədəbi proses–2015" toplusu məruzələr – məqalələr məcmuəsi deyil, həmin ilin ədəbi gedişatına həsr olunmuş monoqrafiya təəssüratı yaradır.

Qeyd etmək lazımdır ki, 2016-cı ilin "Ədəbi proses"ində monoqrafik araşdırmalar daha da dərinləşdirilmiş, qarşıya qoyulan nəzəri problemlərin çəkisi xeyli dərəcədə artmışdır. Əvvəlki "Ədəbi proses"lərdə "İlin ədəbi mənzərəsi" kimi təqdim olunmuş giriş məruzəsinə 2016-cı ildə həmin formatdan sonuna qoyulmuş iki nöqtədən sonra "Gözləntilərimiz və reallıqlar" sözləri artırılmaqla "mənzərə"nin elmi çərçivəsi aydınlaşdırılmışdır (Elnarə Akimova). Yaxud "Ədəbi proses–2016"da ilin romanı "Müasir roman texnologiyası, kiçik roman" strukturunda doğulma" (Nərgiz Cabbarlı), hekayə janrı "2016-cı ilin hekayəsi və problemləri" (Nərmin Cahangirova), "Publisistika – hüdudsuz düşüncə imperiyası" (Asif Rüstəmli) kimi orijinal

və müasir problemlər səviyyəsində təqdim edilmişdir. Monoqrafik tədqiqat formatı 2017-ci il üçün də "qayda" kimi qəbul olunmuşdur. Beləliklə, təxminən 42 il əvvəl məruzələr kimi elmi mühitin gündəminə gəlmiş "Ədəbi proses" materialları tədricən, daxili təkamül prosesləri ilə inkişaf etdirilərək monoqrafik tədqiqatlar səviyyəsinədək inkişaf etmişdir. Buna görədir ki, "Ədəbi proses" konfranslarında janrlar üzrə ardıcıl olaraq səsləndirilən məruzələr elmlər doktorluğu və ya fəlsəfə doktorluğuna, monoqrafiyalara, ən azı ayrı-ayrı müəlliflərin məqalələr toplusuna doğru inkişaf etmişdir. Filologiya elmləri doktoru Vaqif Yusiflinin "Bölgələrdə ədəbi həyat" silsiləsi əsasında çap olunmuş kitabları "Ədəbi proses" müzakirələrindən doğmuşdur. "Ədəbi proses"in aparıcı simalarından biri olan Elnarə Akimovanın bu yaradıcılıq müşavirəsində etdiyi poeziya tədqiqatarına dair məruzələr onun uğurla müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Nərgiz Cabbarlı nəsr üzrə məruzələrini monoqrafiyaya, Lalə Həsənova müxtəlif mövzularda səsləndirdiyi mətnləri məqalələr toplusuna çevirmişdir. Aynurə Mustafayeva "Ədəbi proses" yaradıcılıq müşavirələrindəki ardıcıl məruzələri ilə sanballı bir "Dramaturgiya" serialı yaratmışdır. Aygün Bağırlı və Günay Qarayevanın "Uşaq ədəbiyyatı", Aynur Xəlilovanın "Povest" serialları da monoqrafiyaya çevrilmək prosesini yaşamaqdadır. Pərvanə Məmmədli "Cənubi Azərbaycanda müasir ədəbi proses" məsələlərinə həsr edilmiş doktorluq dissertasiyasını isə artıq AAK-a təqdim etmişdir. Vüqar Əhmədin başladığı "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ədəbi proses" məruzələrində də monoqrafik tədqiqat perspektivi açıq-aşkar görünməkdə-

dir. Bunlar "Ədəbi proses"lərin müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında hansı səviyyədə mühüm yer tutduğunu, böyük elmə ciddi töhfələr verdiyini əyani şəkildə nümayiş etdirir. Bütövlükdə isə 1976-1984-cü illərdə altı toplusu, 2014-2018-ci illərdə isə artıq beş kitabı nəşr edilmiş "Ədəbi proses" serialı müasir Azərbaycan ədəbiyyatının tarixi oçerklərinə çevrilmişdir. Bu sanballı nəşrlər silsiləsi 2016-cı ilin "Ədəbi proses" materiallarında deyildiyi kimi, "Ədəbi prosesin bütövlüyü və yetkinlik səviyyəsini" (İ.Həbibbəyli) əks etdirən çağdaş ədəbiyyatşünaslıq epopeyasıdır.

Doğrudan da, bu ilin səviyyəsindən baxanda hazırkı mərhələdə "Ədəbi proses" yaradıcılıq müşavirələri əhatə dairəsinin və iştirakçılarının genişliyinə, müzakirələrin miqyasına, əks-sədasına və problemlərinin masştabına görə elmi-ədəbi hərəkat səviyyəsinə çatmışdır. Bu, müasir Azərbaycan ədəbiyyatını illər üzrə bütün yönləri ilə təhlil edib dəyərləndirən ardıcıl və sistemli bir elmi-ədəbi hərəkatdır. "Ədəbi proses" marafonu müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mahiyyətini açan, səciyyəsini müəyyən edən, modellərini meydana qoyan, gələcək inkişaf yollarını göstərən hərəkatdır. Bu hərəkat Azərbaycan ədəbiyyatşünaslıq elminin ayrı-ayrı nəsillərini və bütün elmi dərəcələrdən olan elm adamlarını vahid platforma ətrafında özündə birləşdirir. "Ədəbi proses" Azərbaycan ədəbiyyatşünaslıq elminin cari ədəbi prosesi tədqiq və təbliğ edən elm adamlarını öz ətrafında cəmləşdirən kollektiv elmi-ədəbi prosesdir. Son illərdə Milli Elmlər Akademiyasında, xüsusən də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda elmi işçi kimi çalışıb, həm də bədii yaradıcılıqla

məşğul olan çoxsaylı əməkdaşların şeir və hekayələrini də ayrıca elmi məruzədə müzakirəyə çıxaran "Ədəbi proses" real olaraq geniş mənada elmi-ədəbi hərəkat xarakteri almışdır. İlin ədəbiyyatının tədqiq və təhlil edilməsi ilə ilin alimlərinin bədii əsərlərini də təqdim edən "Ədəbi proses" elmi xarakteri ilə birlikdə, həm də ədəbi hərəkat xarakteri də daşıyır. "Ədəbi proses" hərəkatı özünün baş məqsədi olaraq müstəqillik dövrünün ən müasir ədəbiyyatşünaslıq elminin yaradılması və yeni elmi nəslin yetişdirilib formalaşdırılmasına inamla və uğurla xidmət edir. Beləliklə, "Ədəbi proses" materialları 2013-2018-ci illər Azərbaycan ədəbiyyatının sadəcə salnaməsi deyildir və əksinə, bu dövrün ədəbiyyatının janrları üzrə canlı mənzərəsini göstərən, inkişaf dialektikasının qanunauyğunluqlarını açan bir hərəkatdır. Ədəbiyyatın bir istiqamətini, məsələn realizmi və romantizmi özündə cəmləşdirən tədqiqatlardan fərqli olaraq, "Ədəbi proses" yaradıcılıq müşavirəsi ilin geniş ədəbi mənzərəsində müşayiət olunan bütün ədəbi cərəyanlardan və axınlardan, növlərdən və janrlardan hamısına kompleks elmi münasibət bəsləməsi ilə səciyyələnir. "Ədəbi proses"dəki poeziya icmallarında Azərbaycan ədəbiyyatının son dövrlərində müşahidə olunan dekadentizmə, bədii nəsrdə postmodernizmə, dramaturgiyada absurd axınlara dair araşdırmalar janrlar üzrə təhlilin içində özünə münasib geniş yer tutur. Tədqiqatçılar janrlar əsasında təhlillər apararkən janrın tipologiyası və poetikası ilə yanaşı, həmin janr mühitində hərəkətverici amil olan ədəbi cərəyanların, metodların və üsulların da təhlilindən bəhs etməli olurlar. Bunlar ayrı-ayrı fərqli tədqiqatlar olmayıb, janrlar üzrə tədqiqatların üzvi tərkib hissəsindən ibarət olan, konkret

janrın təkamül proseslərini bütün yönləri ilə göstərmək üçün mühüm əhəmiyyət kəsb edən arqumentlərdir. "Ədəbi proses" tənqidçiləri və tədqiqatçıları həmin vəzifələrin öhdəsindən yüksək elmi səviyyədə gəlməyi bacarmışlar. Bu mənada geniş həcmə malik dərin elmi-nəzəri təhlilləri və ümumiləşdirmə imkanları, habelə təklifləri və proqnozları ilə səciyyələnən "Ədəbi proses" materialları elmi-yaradıcılıq müşavirəsinin məruzələri Azərbaycan Yazıçılar Birliyinin qurultaylarının janrlar üzrə elmi hesabatları, yaxud təqdimatları səviyyəsində səslənir. Deməli, "Ədəbi proses" müşavirələri ədəbiyyatın inkişafına Qurultay miqyasında baxışları ifadə edən yeni nəsil məruzəçilər yetişdirib hazırlamaq vəzifələrini də yerinə yetirir. Bu isə ümumilikdə ədəbi prosesə ölkədə ictimai proseslərin fonunda elmi cəhətdən qiymət verməyi bacaran yüksək hazırlıqlı yeni elmi nəslin formalaşdırılması deməkdir.

"Ədəbi proses" yaradıcılıq hərəkatını təmsil edən məruzəçilər – müəlliflər heyətinin tərkibi fərqli və müxtəlifdir. Aşkar görünür ki, bu prosesdə ədəbiyyatşünaslıq elminin orta və cavan nəsli əsas aparıcı qüvvədir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Ədəbi tənqid" şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli "ədəbi proses"çi cavan nəslin müəllimi və elmi rəhbəri funksiyasını layiqincə yerinə yetirir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Tehran Əlişanoğlu "Ədəbi proses" hərəkatının bələdçisi və elmi məsləhətçisidir. Asif Rüstəmli, Cavanşir Yusifli, Nizami Tağısoy, Elçin Mehrəliyev, Esmira Fuad, Pərvanə Məmmədli kimi orta nəslin nümayəndələri "Ədəbi proses" dalğasına dəstək verən elm adamlarıdır. Bütövlükdə isə "Ədəbi proses" hərəkatı özü-

nün aparıcı qüvvəsi olan gənc qvardiyanı yetişdirib hazırlamışdır. Vaxtilə XX əsrin 70-80-ci illərində də "Ədəbi proses" layihəsi dövrün istedadlı ədəbi gəncliyi üzərində qurulmuşdur. "Ədəbi proses" silsiləsindən olan sonuncu elmi sessiyanın keçirildiyi 1984-cü ildə həmin layihənin əsas icraçılarından Yaşar Qarayev 48, Akif Hüseynov 33, Arif Səfiyev 50, Şamil Salmanov 51, Vaqif Yusifli 36, Şirindil Alışanlı 32, Vilayət Quliyev 32, Rəhim Əliyev 34 yaşında olan istedadlı elm adamları idilər. Məhz yeni elmi nəsil böyük elmi ənənələri olan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yeni formatda və yüksək elmi-nəzəri səviyyədə təqdim etdikləri "Ədəbi proses" icmalları ilə ustadları olan görkəmli müəllimləri qarşısında və ümumən elmi-ədəbi mühitdə özlərini bir daha isbat etməyə çalışmış və buna nail ola bilmişdilər.

XXI əsrin "Ədəbi proses" hərəkatı da əsasən yeni elmi nəslin sınaq meydanı və xitabət kürsüsündə "dünyaya gəlmişdir". "Ədəbi proses–2013"dən etibarən yaradıcılıq müşavirələrində məruzəçi qismində cavan elmi nəslin yeri və mövqeyi artmaqda davam etmişdir. Dəqiq ifadə olunduğu kimi, 2013-cü ilin "yaradıcılıq müşavirəsi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu gəncliyinin debütü, 2014-cü ilin müşavirəsi onların imkanlarının geniş təqdimatı, "Ədəbi proses–2015" isə özünütəsdiqi olmuşdur".[1] Yaradıcı cavanlara etimad prosesi 2016-2017-ci illərin "Ədəbi proses" müşavirələrində də inkişaf etdirilmişdir. Belə ki, "Ədəbi proses–2015"də iştirak etmiş 17 məruzəçidən 12 nəfəri gənc olduğu halda, "Ədəbi proses–2016"da

[1] Ədəbi proses–2015. Bakı, "Hədəf nəşrləri", 2016, səh.13.

bu göstərici 19/13, 2017-ci ildə isə 20/13 nisbətinə çatmışdır. Kəmiyyət göstəriciləri keyfiyyətin səviyyəsinə də öz təsirini göstərmişdir. "Ədəbi proses" müşavirələrində cavan elmi nəslin arasında baş verən sağlam rəqabət mühiti nəticə etibarilə cavan elmi nəslin nümayəndələrindən ayrı-ayrılıqda hər birinin, bütövlükdə isə tənqid və ədəbiyyatşünaslıq elminin keyfiyyətcə inkişafına xidmət etmişdir.

Tərəddüd etmədən demək mümkündür ki, "Ədəbi proses" yaradıcılıq müşavirəsinin materialları müasir elmi-nəzəri səviyyədə yazılmış qiymətli ədəbi traktatlardır. "Ədəbi proses" bu yaradıcılıq müşavirəsinin materialları bu forumun bütün iştirakçılarının, xüsusən, cavan elmi nəslin ədəbi-tənqidi əsərlərinin əhəmiyyətli vahid çoxcildlik külliyyatıdır. "Ədəbi proses" hərəkatının aparıcı simaları olan cavan elmi nəslin nümayəndələri – Elnarə Akimova, Maral Yaqubova, Aygün Bağırlı, Nərgiz Cabbarlı, Aynur Xəlilova, Lalə Həsənova, Eşqanə Babayeva, Mətanət Vahid, Aynurə Mustafayeva, Xanım Zairova, Günay Qarayeva, Nərmin Cahangirova, Mərcan Sofiyeva, Səadət Vahabova, Nizami Hüseynov müasir Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin hərəkətverici qüvvələri kimi fəaliyyət göstərməyin şərəfli məsuliyyətini yaşayırlar. "Ədəbi proses" yaradıcılıq müşavirəsində iştirak edənlərlə yanaşı, Ədəbiyyat İnstitutunda heç də az əhəmiyyətli olmayan ölkə miqyaslı digər elmi layihələri həyata keçirən cavan nəslin daha başqa nümayəndələri: Mehman Həsənov, Gülbəniz Babayeva, Ruhəngiz Əliyeva, Səadət Bayramova, Töhfə Talıbova, Gülnarə Qasımlı, Elnarə Zeynalova, Aynurə Paşayeva, Şəhla Qurbanova və başqaları, habelə, bu günlərdə uğurla magitr dissertasiyası

müdafiə edib doğma elmi-tədqiqat institutunda işləməyə vəsiqə almış ən yeni nəslin təmsilçiləri Pəri Həsənli və Könül Əliyeva Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun gənc qvardiyasını təşkil edir. Ədəbiyyat İnstitutunun son illərdə elmi ictimaiyyətə təqdim etdiyi gənc qvardiya adlandırdığımız cavan elmi nəsil geniş mənada müasir dövrdə Azərbaycan ədəbiyyatşünaslıq elminin əsas arsenalından ibarətdir. Beynəlxalq səviyyəli ciddi elmi nəşrlərdə və ölkə mətbuatında yaddaqalan, sanballı, əhəmiyyətli, nəzəri səviyyəsi ilə seçilən məqalələrlə ardıcıl olaraq çıxış etməkdə davam edən gənc qvardiyaçılar müxtəlif elmi nəsillərin sıralarında öz yerlərini tutub möhkəmləndirirlər. Artıq onların sıralarından ölkə üzrə ən cavan elmlər doktorları (Elnarə Akimova) yetişib formalaşmışdır. Bu nəsil özlərinin böyük müəllimlərinin yüksək etimadını doğrultmaq üçün var qüvvə ilə çalışmaqdadırlar. Əlbəttə, cavan nəsil Azərbaycan və dünya ədəbiyyatını, elmi-nəzəri ədəbiyyatı daha çox və dərindən mütaliə edib öyrənməli, yazı vərdişlərini təkmilləşdirmək üçün öz üzərlərində işləməkdən, sağlam elmi diskussiyalarda fəal iştirak etməkdən yorulmamalıdırlar. Lakin elmi-ədəbi mühitdəki dayanıqlı mövqeləri və müşahidə olunan yaradıcılıq həvəsi və əzmləri onların "Ədəbi proses" hərəkatından, ümumiyyətlə, ölkə elmi-ədəbi proseslərinin ön cəbhəsinə doğru inamlı hərəkətdə olduqlarını diqqətə çatdırır. Və atrıq formalaşmış böyük elmi potensial və əldə olunmuş zəngin nəzəri təcrübə həm "Ədəbi proses" hərəkatının, həm də Azərbaycan ədəbiyyatşünaslıq elminin daha da inkişaf edəcəyinə, cavan elmi qüvvələrin yeni magistrallarda inamla irəli gedəcəyinə nikbin baxmağa tam əsas verir.

Ədəbi proses–2017

"Ədəbi proses–2017" əhatə dairəsinin genişliyinə və müzakirələrinin böyük əks-sədasına görə fərqli bir hadisəyə çevrilmişdir. Respublikamızın digər elm və ali təhsil qurumlarında, mətbuat orqanlarında çalışan tənqidçilərin "Ədəbi proses–2017" müzakirələrində fəal iştirakı prosesin tam mənası ilə ölkə hadisəsi miqyasında ifadə olunmasını müəyyən etmişdir. Bundan başqa, 40 ildən çox davam edən "Ədəbi proses" hərəkatının tarixində ilk dəfə olaraq "Ədəbi proses–2017" elmi yaradıcılıq müşavirəsinin materiallarının elmi sessiya keçirilməmişdən qabaq tam halda 2 iyun 2018-ci il tarixdə "Ədəbiyyat qəzeti"ndə çap olunması məruzələrin mətnlərinin ölkənin geniş ictimaiyyətinin diqqətinə çatdırılmasının təmin edilməsi baxımından əhəmiyyətli addım olmuşdur. "Ədəbi proses-2017" elmi-yaradıcılıq müşavirəsinin materiallarına həsr edilmiş "Ədəbiyyat qəzeti"nin xüsusi buraxılışı "Ədəbi proses" hərəkatının da, "Ədəbiyyat qəzeti"nin də tarixinin nadir və qiymətli səhifəsidir. "Ədəbiyyat qəzeti"nin Baş redaktoru Azər Turanın təşəbbüsü ilə həyata keçirilmiş bu tarixi iş hər cür minnətdarlığa layiq əməli addımdır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçirilməkdə davam edən "Ədəbi proses" elmi-yaradıcılıq müşavirələri ilə "Fizika və lirika" konfransları mahiyyət etibarilə bir-birini tamamlayır. 2014-cü ildən keçirilməsinə başlanan və artıq dördüncü elmi konfransı keçirilmiş "Fizika və lirika" müzakirələri elmi idrakla bədii yaradıcılığın dialektik əlaqələrinin öyrənlməsi və təşviq edilməsi baxımından "Ədəbi proses"in xüsusi bir istiqamətini və ya keyfiyyətini diqqət mərkəzinə çəkir. Bu vaxtadək Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədə-

biyyat İnstitutunda, Şamaxı Astrofizika Rəsədxanasında, Dendrologiya İnstitutunda, Nəbatat Bağında təşkil olunmuş "Fizika və lirika" konfransları qoşa qanad kimi elmlə ədəbiyyatın qarşılıqlı əlaqələrinin əks-sədasını, hər iki qütb üçün əhəmiyyətini müəyyən etmək və qiymətləndirmək mənasında "Ədəbi proses" müşavirəsinin funksiyasını həyata keçirir. Nizami Gəncəvi adıan Ədəbiyyat İnstitutunun Rusiya Elmlər Akademiyası Dubna Nüvə Tədqiqatları İnstitutu ilə birlikdə 2018-ci ildə beynəlxalq səviyyədə təşkil edib keçirəcəyi növbəti "Fizika və lirika" konfransı həm də "Ədəbi proses" hərəkatının yeni üfüqlərini nümayiş etdirir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2016-cı ildə yaradılmış "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin fəaliyyəti, "Fizika və lirika" konfranslarının ardıcıl olaraq keçirilməsi, bu hərəkatın iştirakçılarının bədii əsərlərindən ibarət olan "Qoşa qanad" və "Plyus bədii yaradıcılıq" almanaxlarının kitab halında nəşr edilməsi elmin və ədəbi prosesin inkişafına təkan verən mühüm faktorlardır. "Ədəbi proses" isə həm də bədii yaradıcılıqdakı "Fizika və lirika" proseslərini təhlil edib dəyərləndirən elmi-nəzəri hərəkatdır. Bu nəmada "Fizika və lirika" təhlilləri "Ədəbi proses" müzakirələrinin üzvi tərkib hissəsidir. "Fizika və lirika" da əsas məruzəçilərin bir çoxunun həm də "Ədəbi proses"də söz sahibi olduğunu nəzərə alsaq, bu tədbirlərin bir-birini tamamlayan qoşa qanada çevrildiyini görmək mümkündür. "Fizika və lirika" ilə "Ədəbi proses"in harmoniyası bu qoşa layihənin yalnız bədii yaradıcılığın, ədəbiyyatşünaslıq elminin, geniş mənada humanitar elmlərin deyil, əlaqəli şəkildə dəqiq və tə-

biət elmlərinin də inkişafına xidmət edən əhəmiyyətli bir hərəkat səviyyəsinə çatdığını təsəvvür etməyə imkan verir.

"Ədəbi proses" elmi-yaradıcılıq müşavirələrinin materiallarının kitab halında nəşr edilməsi istiqamətində də müstəqillik dövründə əhəmiyyətli addımlar atılmışdır. Sovet hakimiyyəti illərində keçirilmiş "Ədəbi proses" müşavirələrinin materialları bir il, bəzən isə bir neçə il sonra toplu halında nəşr edilmişdir. "Ədəbi proses: 81-82"-ci ilin materialları 1987-ci ildə, "Ədəbi proses: 83-84"-cü illərin məruzələri isə 10 il sonra – 1994-cü ildə çap edilərək elmi ictimaiyyətə çatdırılmışdır. Müstəqillik illərində isə "Ədəbi proses" materialları hər il üzrə həmin ildə kitab halında nəşr edilmişdir. Həcm etibarilə də yeni tarixi epoxanın "materialları"ndan hər biri öz sələflərinkindən 2-3 dəfə çoxdur. Tam halda "Ədəbi proses" materialları Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslıq elminin inkişaf yollarını, təkamül proseslərini əks etdirən qiymətli icmal nəşrləridir. Artıq çoxcildlik "Ədəbi proses" nəşrləri Azərbaycan ədəbi tənqidinin abidəsinə çevrilmişdir.

Bu il keçirilən "Ədəbi proses" yaradıcılıq müşavirəsi həm də bu çoxillik böyük elmi hərəkatın müstəqillik dövründəki 5 illik yubiley hesabatı kimi də mühüm əhəmiyyətə malikdir. "Ədəbi proses" hərəkatının bugünkü inkişaf səviyyəsindən onun sonrakı gələcək üfüqləri də aydın şəkildə görünür.

31 may 2018-ci il

Elnarə AKİMOVA
Filologiya üzrə elmlər doktoru

2017-Cİ İLİN ƏDƏBİ TƏQVİMİ – KEÇMİŞ DAVAMEDİCİ ZAMAN

Ötən ilin ədəbi mənzərəsi haqda düşünərkən, nədənsə, türk şair və nasiri Ahmed Hamdi Tanpınarın misralarını xatırladım: "*Ne içindeyim zamanın, /Ne de büsbütün dışında;/Yekpare geniş bir anın/ Parçalanmaz akışında"*. Yəni, bu elə hardasa bizim geridə qoyduğumuz zaman kəsiminə aid olan işarə sistemidi: indi nə onun içindəyik, nə də büsbütün ondan uzaqda. Amma həm də onun bir parçasıyıq. Axı zaman bütöv anlayışdı. Yola saldığımız 2017-ci il də bütöv anın parçası kimi önəmlidir.

İl girər-girməz ard-arda eşitdiyimiz ölüm xəbərlərinə üzüldük. Gənc yazıçı Mövlud Mövludun intihar xəbərinin ağırlığını hələ də daşıya bilmirik. Daha sonra dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi, Kaliforniya Universitetinin professoru Lütfi Zadə Kaliforniyada dünyasını dəyişdi. İlyas Tapdıq, Camal Yusifzadə, Sabir Sarvan, Aşıq Ədalətin ölümü də mədəniyyətimizdə, milli idrak sferamızda böyük boşluqla səciyyələnən itkilərdən oldu.

Müsabiqələr, mükafatlar. Ədəbiyyatı fərdlər yaradır, əlbəttə. Müxtəlif mükafatlar, müsabiqələr və onların fonunda aparılan dəyərləndirmələr də ilk növbədə, bəzi qurumların ədəbiyyat sferasına müdaxilə edib ona müəyyən qatqılarda bulunmaq cəhdinin nəticəsidir. Ötən il mükafatlar baxımından müəyyən ayrıntılarla yadda qaldı. Nobel,

Blutzer, Booker kimi ali mükafatlar bizdən yan ötsə də, sahibini tapdı. 2017-ci il ədəbiyyat üzrə Nobel mükafatınaYapon əsilli ingilis yazıçı Kasuqo İsiquro layiq görüldü. Bir müddət sonra TEASpress nəşriyyatında yazıçının *"Məni heç vaxt tərk etmə"* romanı İlahə Əkbərin tərcüməsində çap olundu.

Dünyanın digər nüfuzlu ədəbiyyat mükafatlarından olan Bukerin 2017-ci il üzrə qalibi isə "Linkoln Bardoda" romanı ilə Corc Sonders oldu.

Bu ali mükafatlar sırasında yerimiz olmasa da, ölkəni təmsil edən yazıçı və şairlərimizin beynəlxalq aləmə çıxışına rəvac verən bir sıra uğurlarına imza atıldı. Ötən ilin sentyabrında Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla Ural Federal Universitetinin fəxri doktoru adına layiq görüldü. Qeyd etmək lazımdır ki, Ural Federal Universiteti Rusiyanın ən nüfuzlu universitetlərindən biridir və Rusiyanın ilk prezidenti Boris Yeltsinin adını daşıyır.

Yazıçı Varis Yolçuyev ötən il Fransanın "L`Autographe" ("Avtoqraf") almanaxına daxil edilmiş "İyirmi bir" adlı hekayəsinə görə Antuan de Sent Ekzüperi medalının nominantı elan olunaraq "Antuan de Sent Ekzüperi diplomu"na, Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının (YUNESKO), Moskvada və Varşavada keçirilən Slavyan Ədəbiyyat Festivalının, Beynəlmiləl Yazıçılar İttifaqının "Adam Mitskeviç" medalına layiq görülmüşdür. Qeyd edək ki, indiyədək dünya üzrə bu medala layiq görülən 101-ci ədib Varis oldu.

Gənc yazıçı Mirmehdi Ağaoğlunun "85-ci gün" hekayəsi İslam Əməkdaşlığı Təşkilatının keçirdiyi Birinci Qısa

hekayə müsabiqəsində qalib oldu. Pərvin Nurəliyeva Ankarada İkinci Beynəlxalq "Dədə Qorqud" teatr əsərləri müsabiqəsinin qalibləri sırasında yer aldı. Gənc şairlər Şəhriyar del Gerani və Fərid Hüseyn Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və Bəyoğlu Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən X Beynəlxalq İstanbul Şeir və Ədəbiyyat Festivalında iştirak etdilər.

Ötən il Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə reallaşan V Bakı Beynəlxalq Kitab Sərgi Yarmarkası kitabın təbliği yönündə atılan mütərəqqi addımlardan biridir. Belə mütərəqqi addımlardan digərini Nazirliyin həyata keçirdiyi "Qızıl kəlmə" ədəbiyyat müsabiqəsinə də aid etmək olar. Müsabiqənin nəticələri elan olunan günü nazir Əbülfəs Qarayevın səsləndirdiyi çıxışı xatırlayıram: "Mükafatın nominasiyalarının sayını artırmaqla biz ədəbiyyatın inkişafına müəyyən dərəcədə təkan vermək istədik". Hər halda, mükafat alan əsərlərin geniş ictimaiyyətə təqdim olunması baxımından bu cür müsabiqələrin böyük rolu olur. Elə yaradıcılığına qiymət verilən müəlliflərin bundan stimul alıb yola davam etməsində də.

Ədəbiyyatımız sərhəddən kənarda-xarici nəşrlərdə. Dünyaya açılmaq, ölkəmizdən kənarda çap olunmaq qarşılıqlı mübadilənin əhəmiyyətli şərtlərindəndir. Yola saldığımız il bu yöndə mövcud olan uğurları ilə spesifik oldu. Bu uğurlardan biri böyük Azərbaycan şairi Nizami Gəncəvinin tədqiqi istiqamətində qazanılmaqdadır. Bildiyimiz kimi 2013-cü ildə dünyanın ən möhtəşəm universitetlərindən sayılan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi yaradılmışdır. Artıq beşinci ildönümünü keçirməyə hazırlaşan Mər-

kəz akademik Nərgiz Paşayevanın təşəbbüsü və rəhbərliyi ilə Oksford Universitetinin tərkib hissəsi və nadir tədqiqat müəssisəsi olaraq Azərbaycan və onun elmi irsi üçün xüsusi əhəmiyyət daşıyır. Hər bir ölkənin bədii-poetik təfəkkürünün real mənzərəsinin yaradılması, onun tarix və mədəniyyətinin öyrənilməsi həmin xalqın görkəmli şəxsiyyətlərinin dünya sferasına uğurlu təqdimatından asılıdır. Qeyd edək ki, ötən il dünya şöhrətli şərqşünas-nizamişünas Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabı da ilk dəfə ingilis dilinə tərcümə olunmuş və iyunun 5-də Londonda təqdimatı keçirilmişdir.

Yola saldığımız il bir sıra nəsr və poeziya nümunələrinin xaricdə nəşr olunması, təbliği və təqdimi yönündən də əlamətdar sayıla bilər. Azərbaycanın görkəmli yazıçısı Mir Cəlal Paşayevin ingilis dilinə tərcümə edilmiş qısa hekayələrindən ibarət kitab Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun təşkilatçılığı ilə keçirilən tədbirdə, "Bir gəncin manifesti" romanı isə Türkiyədə çap olundu.

Xalq yazıçısı Anarın "İyi padişahın masalı", şair Firuzə Məmmədlinin "Sözlərim könlümü almağa gəlir" adlı kitabları türk dilində, Sona Vəliyevanın "Dünya görüş yerimiz" kitabı rus dilində, "Qapına gəldim İlahi" şeirlər toplusu ərəb dilində, Rəşad Məcidin, Aysel Əlizadənin, Fərid Hüseynin şeirlər kitabı ingilis dilində çap olundu. Məqsəd Nurun "Şəhər meri" romanı Türkiyədə, Mübariz Cəfərlinin "Bərpaçı" romanı "Yuxu" adıyla İranda, Vaqif Sultanlının romanları Avropa və Amerikada çap edildi. Vaqif Sultanlının Amerika və Londonda nəşr etdirdiyi "Modern Azərbaycan nəsri", "Güney Azərbaycan nəsri" kitablarını da təqdir etməyə lüzum var.

Ötən il Belarus şəhəri Poloçkda "Sözün diplomatiyası" adlı beynəlxalq müzakirəyə, həmçinin Belarus Yazı Günü münasibətilə təşkil olunan bayram tədbirlərinə qatılan Kamran Nəzirli iki ölkə arasında ədəbi əlaqələrin genişlənməsi baxımından səmərəli planlar həyata keçirib. Belə plan əsasında gerçəkləşən işlər sırasında ötən il Belarusun paytaxtı Minskdə MDB üzrə Beynəlxalq Ədəbiyyat və Publisistika Portalı – "Sozvuçie"də müstəqillik dövrü Azərbaycan qadın şairlərindən bir qrupunun şeirlərindən müəyyən nümunələrin təqdim edilməsini qeyd etmək yerinə düşər. Rus dilində yerləşdirilən şeirləri və onların müəlliflərini MDB və Şərqi Avropa oxucularına "Qadın poeziyadır" başlıqlı yazı ilə təqdim edən Kamran Nəzirli olmuşdur.

Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin nəşri olan "Dünya ədəbiyyatı" dərgisinin ötən il iki sayı - İngiltərə və Moldova ədəbiyyatı sayı çap edildi və bu ölkələri təmsil edən onlarla ədibin əsərləri topluda yer aldı. Bundan başqa Bakıda İran ədəbiyyatı ilə bağlı silsilə tədbirlər keçirildi. İranın ölkəmizdəki səfirliyinin mədəniyyət müşavirliyi ilə əməkdaşlıq əsasında İran yazıçısı Mustafa Məstur Bakıya dəvət edildi, akademiyanın Elmi Kitabxanasında, Səməd Vurğun adına muzeydə və bir çox başqa yerlərdə onunla görüşlər oldu.

Ötən il "ATV kitab" layihəsi çərçivəsində 16 kitab çap edildi ki, bu işdə də Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi yaxından iştirak etdi. Həmin kitabların yarısı tərcümə ədəbiyyatına aid idi.

2017-ci ildə Dünya Gənc Türk Yazarlar Birliyinin yeni nəşri işıq üzü gördü. Qazaxıstanın 57 yeni nəsil şairinin

şeirləri toplanmış, "Yeni qazax şeiri antologiyası" adlanan nəşrin baş redaktoru (və nəşrə məsul) Əkbər Qoşalıdır.

Dekabrın 15-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Poeziya günü" keçirildi. Tədbir Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində gerçəkləşdi. 2017-ci ilin oktyabrında II "Məmməd Araz Poeziya günü"nə həsr olunmuş tədbirlər təşkil olundu.

Elmi həyat. 2017-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin təşəbbüsü və rəhbərliyi ilə bir sıra işlər meydana qoyuldu. Cəlil Məmmədquluzadənin Litva və Gürcüstanda kitabları çap olundu. böyük ədəbiyyatşünas alimlərdən – Əlyar Səfərlinin 80 illik yubileyi, Mirzağa Quluzadənin 110 illiyinə həsr olunmuş elmi sessiya, Məmməd Cəfər Cəfərovla bağlı "Akademik Məmməd Cəfər Cəfərov: böyük ömrün anları və addımlar" mövzusunda tədbir, onun "Get dolangilən, xainsən hələ" pyesinin ilk dəfə çapı və akademik İsa Həbibbəylinin təqdimatında elmi ictimaiyyətə təqdim edilməsi ilin əlamətdar ədəbi hadisələri kimi səciyyələnə bilər. Eləcə də Ədəbiyyat İnstitutu tərəfindən "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası çərçivəsində yazıçı-publisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Hacıbəylinin "Seçilmiş əsərləri" çap olundu. "Elm" nəşriyyatında çapdan çıxan kitabın baş redaktoru AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəylidir. Kitabın məsul redaktoru filologiya üzrə elmlər doktoru Nikpur Cabbarlı, tərtibçisi, ön söz və qeydlərin müəllifi filologiya üzrə fəlsəfə doktoru Abid Tahirlidir.

2017-ci il həmçinin Molla Pənah Vaqif və Hüseyn Cavid ili kimi yadda qaldı. İl boyu Molla Pənah Vaqifin 300, Hüseyn Cavidin 135 illiyi ilə (şairin yubileyi ötən il Sofiyada belə keçirilmişdir) bağlı müxtəlif tədbirlər, konfranslar, elmi sessiyalar keçirildi, məqalələr toplusu çap olundu.

Ədəbi həyat. 2017-ci ilin mayında "Ədəbiyyat qəzeti"nin saytı təqdim olundu, eyni zamanda, qəzetin yayınları seriyasından mərhum şair Faiq İsmayılovun şeirlərinin və haqqında tənqidi məqalələrin yer aldığı "İynəboyu böyük dünya" kitabı çap olundu, qəzetin seçilən imzalarından bir qisminə "Əli bəy Hüseynzadə" mükafatları verildi. Son bir neçə ildə olduğu kimi, qəzetin ədəbi həyata müdaxiləsi intensivliyi ilə seçildi. Bu, həm müxtəlif layihələr əsasında gerçəkləşdi, həm də il boyu qəzet səhifələrində yer alan bədii mətnlərin yaratdığı estetik ab-hava sferasında hiss olundu. Həmçinin il boyu qəzetin səhifələrində "Müzakirə saatı" layihəsi əsasında müxtəlif mövzulara həsr olunmuş məsələlər aktuallandı ki, onların həllinə həm ədəbiyyatşünaslıq prizmasından cavab axtarıldı, həm də milli ədəbiyyatımızın inkişafı kontekstində qüsurları dilə gətirildi, perspektivləri müəyyən olundu.

Ötən il "525-ci qəzet" yubiley ili kimi də yadda qaldı. Qəzetin 25 illiyi ölkənin müxtəlif ədəbi-ictimai məkanlarında qeyd edildi. Elə Ədəbiyyat İnstitutunda da o cümlədən. Qəzetlə bağlı müxtəlif ictimaiyyət nümayəndələrinin məqalələrinin və təbriklərinin yer aldığı "525" – zamanın sorağında" adlı kitab çap olundu.

Belə bir yubiley sevinci "Azərbaycan" jurnalının da payına düşdü. Ədəbi həyatımızda xüsusi yeri olan bu qo-

caman jurnalın yubiley ab-havası geniş hiss olunmasa da bu, onunla bağlı məlum gerçəyi dəyişmir: "Azərbaycan" jurnalı tarixi qata vurğusu güclü, bir neçə nəsil ədəbiyyatına şahidlik edən, yeni bədii nümunələrin ilkin ədəbi tribunası sayılan jurnaldır.

Bütün bunlar əlbəttə ki, statistik məlumatlar idi. İlin reallıqlarını, mənzərəsini gündəmə gətirmək baxımından faktlara müraciət zəruridir. Ədəbi gedişat ədəbiyyata aid bütün materialların bir axarda təqdim olunması ilə meydana çıxır. Amma həmişə vurğuladığım və dönə-dönə qeyd etdiyim gerçək: ədəbiyyat nə mükafat, müsabiqələr deməkdir, nə müzakirə-disput söhbətləri, nə də müsahibə-məqalələr çeşidi. Ədəbiyyat ilk növbədə, əsərlər deməkdir. Bu baxımdan yanaşdıqda ədəbi mənzərə nə vəd edir?

***

Nəsr. 2017-ci ildə roman sahəsində bir neçə əsər meydana qoyulub: "Dərdin sarı çəpkəni" (Zahir Sarıtorpaq), "Arzulardan sonrakı şəhər" (Şərif Ağayar), "Taclı" (Nəriman Əbdürrəhmanlı), "Akademikin ölümü" (S.Rüstəmxanlı), "Atabəylər" (Yunus Oğuz), "Qazi Bürhanəddin səltənətinin süqutu" (H.Mirələmov), "Həyat epiqrizi" (Alpay Azər), "Yelkənsiz qadınlar" (Fərhad Amur) və s.

Nəsrdə tarixi qat və bu qata vurğusu ilə seçilən romanlara maraq dominantlığı əldən verməyə istəmir. Təsadüfi deyil ki, Elçinin "Baş" və Sona Vəliyevanın Həsən bəy Zərdabinin həyat yolundan, XIX əsrin tarixi-ədəbi proseslərindən bəhs edən "İşığa gedən yol" romanları əvvəlki illərin ədəbi faktı olmasına baxmayaraq, ötən il də

elmi-nəzəri düşüncənin predmetinə çevrilməyi bacardı. Elçinin romanı bir neçə dilə tərcümə olundu, Sona Vəliyevanın romanı isə "Qızıl kəlmə" ədəbi mükafatını qazandı. Ötən il yazılan romanlar arasında Sabir Rüstəmxanlının "Akademikin ölümü"ndə dərin ictimai-sosial siqlətli nəsrin təzahürləri ilə rastlaşmaq olur. Buna baxmayaraq, tarixə və mifolojiyə, çoxqatlılığa və zamanlararası əlaqəyə maraq roman janrında aparıcı istiqamətdir.

Nəriman Əbdürrəhmanlının "Taclı" romanında böyük dövlət xadimi Şah İsmayıl Xətai və onun həyat yoldaşı Taclı Bəyimin həyatından bəhs edilir. Yunus Oğuzun "Atabəylər"ində XII əsr tarixi təsvir predmetinə çevrilir. Yaxud Hüseynbala Mirələmovun "Qazi Burhanəddin səltənətinin süqutu" əsərində Uzun Həsən, Sara Xatun obrazları ilə saraydaxili çəkişmələrə, eyni zamanda dövlətçilik şüurunun yaranışı proseslərinə diqqət yönəldilir.

Zahid Sarıtorpağın "Dərdin sarı çəpkəni" romanı "Azərbaycan" jurnalının 2014-cü il 9-cu sayında çap olunsa da, "Kül", "Qarğa marşrutu" kimi digər iki romanı əhatələyən kitab olaraq 2017-ci ildə işıq üzü gördü. İrfanın kodları üzərində qurulan "Dərdin sarı çəpkəni" romanında real və mistik dünya antitezaları, ölümdən öncəki düşüncələr, dini, mədəni və ədəbi mətnlərin bir araya gətirilərək əsərin qəhrəmanı Bulud müəllimin həyatında bağlantı yaratması oxucunu yaradılışın mahiyyəti, son problematikası kimi məsələlər barədə düşüncələrə sövq edir.

2017-ci ildə yazılmış iki əsər – M.Örənin "Ağ buludlar" povesti və Ş.Ağayarın "Arzulardan sonrakı şəhər" romanında mifoloji kontekst, arxetiplərlərə maraq öndədir. İnsan həyatına ritualların təsiri, etiologiyası müxtəlif dini-

mifoloji pritçalara söykənən arxetiplər mətndə iç-içə gətirilir. M.Örənin "Ağ buludlar" povestində müqəddəs göl, Ş.Ağayarın "Arzulardan sonrakı şəhər" romanında İterü çayı əsərdə müxtəlif duyğu, düşüncə və yaddaşa şifrələnmiş informasiya, kod daşıyıcı olmaqla yalnız mətn qatlarında deyil, obrazların daxili dünyasında özünə yer edir.

Ötən illərə qədər roman bumu yaşandığı fakt idi. İstər yaşlı, istərsə də yeni nəsil yazıçılar daha geniş, miqyaslı təsvirlərə üstünlük verir, hətta həcm etibarilə az görünsə belə povesti roman kimi tədqim etməyə maraqlı idilər. Ötən il belə tendensiya ilə rastlaşmadıq. Əksinə, deyək ki, M.Örənin "Ağ buludlar" əsərinin roman siqləti daşısa da, povest adı ilə təqdim olunması nəsrin özündə belə janr-ölçü münasibətlərində tənzimlənmənin mövcudluğunu istisna etmir. Bu xüsusda ötən il Kənan Hacının "Fironun dəftəri", Günel Şəmilqızının "Div olanda noolar" povestləri seçilən mətnlər sırasında qərarlaşa bildilər.

Qeyd edim ki, roman janrında olduğu kimi povestlərdə də çağın problematikasına meyil hələ hiss olunmur. Keçmişə qayıdış povest janrında da tez-tez istifadə olunan bədii üsul kimi qalmaqdadır. Əlyazmalara, nağıllara dekonstuktiv müraciət, arxetip obraz və süjetlərin aktuallandırılması mətnlərdə fərqli formalarda əksini tapmışdır.

Ötən il müəyyən mövzularda romanlar meydana qoyulsa da, məncə, hekayə ili kimi daha əlamətdar oldu. Bu qənaəti həm il boyu çap olunan hekayə kitablarının sayına və ayrılıqda çap olunan hekayələrin sanbalına əsasən deyirəm. ATV-nin "Hədəf nəşrləri " ilə təsis edilən "Çağdaş nəsrin ustaları" seriyasından Mübariz Örənin "Balıq gülüşü" və Əjdər Olun "Qəzənfər müəllimgilin Şuşaya yürüşü"

hekayələr toplusu işıq üzü gördü. Vaqif Nəsibin hekayə və romanın yer aldığı "Rəngli günlər", Həmid Piriyevin "Sərçələr üçün poema"sı, Seymur Baycanın "Alatoran" yayınlarında "Gecikmiş hekayələr", Faiq Balabəylinin məhbəs xatirələrinin yer aldığı "Bayıldan bayıra", Ayxan Ayvazın "Buri", Çinarə Ömrayın "Məcnunxana", Günel Eminlinin "Cənnətdə payız", Mövlud Mövludun"Çətirsiz" (ölümündən sonra) adlı hekayələr kitabları çap olundu. Alpay Azərin bu yaxınlarda çap olunan "Yazıçı və arvadı" hekayələr kitabını da qeyd etmək yerinə düşər.

İl boyu Elçinin,Vaqif Nəsibin, Kamal Abdullanın, Orxan Fikrətoğlunun, Seyran Səxavətin, Azad Qaradərəlinin, Təranə Vahidin, Elçin Hüseynbəylinin, Vusal Nurunun, Meyxoş Abdullanın, Ümid Nəccarinin, Kamran Nəzirlinin, Aslan Quliyevin, Həmid Piriyevin, Kənan Hacının, Firuz Mustafanın, Azər Qismətin, Alpay Azərin çap olunan hekayələri janrın ideya-məzmun keyfiyyətlərini ifadə eləmək baxımından material verən nümunələrdir. Onu da qeyd edim ki, yuxarıda vurğuladığım bir məqam hekayə janrı üçün xarakterik deyil. Belə ki, il boyu çap olunan hekayələrdə rastlaşdığımız bəzi hallar – nağıl süjeti, mif başlanğıcının işləkliyi keçmişi interpretasiyanın müxtəlif tipoloji təsnifatını aparmağa imkan versə də, real həyat təsvirlərinin bədii-estetik səciyyədə təqdimi, cəsarətli müşahidələr, dövrün vacib problemlərinə nüfuz, ciddi ictimai-tarixi qayğılarla yüklənmə onları fərqli düşüncə sferasından dərk etməyi və dəyərləndirməyi şərtləndirir.

Mənəvi tərəqqinin strategiyasını daha çox ədəbiyyat hazırlayıb. Xüsusilə, nəsrin missiyası bu yöndə digərlərindən daha fərqlidir, baş verənlərə epoxal baxış ona zamanın

sələnaməsini yaratmaq baxımından gərək olub. Bu baxımdan yanaşdıqda, ədəbiyyatımızın bir çox dövrlərinə münasibətdə boşluqlar olduğu üzə çıxır. Repressiya prosesi, 31 mart soyqırımı, Azərbaycanlıların deportasiyası və s. kimi məsələlər nəsrdə bədii təcəssümün predmeti olmaqdan yan keçib. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ili Cümhuriyyət ili elan etdi. Düzdür, müxtəlif mətbu orqanlarda tədqiqat xarakterli silsilə yazılar əksini tapdı: "525-ci qəzet"də Vilayət Quliyevin Cümhuriyyətlə bağlı yazıları, Şirməmməd Hüseynovun ADR haqda məqalələrini xüsusi qeyd etmək lazımdır. Hər hansı bir dövrün ədəbi-fəlsəfi və siyasi proseslərinin bütün təfərrüatı, tərkib və parametrləri ilə canlandırılması həmin mərhələnin sistemli tədqiqat predmetinə çevrildiyi təqdirdə əyaniləşir. Bu baxımdan, adı çəkilən müəlliflərin məqalələri dövrün fəlsəfi dərkində, onun xarakterinin müəyyənləşdirilməsində zəruri önəm daşıyır.

Eləcə də "Ədəbiyyat qəzeti"ndə "Azərbaycan Cümhuriyyəti: tarixi, siyasi və ədəbi-fəlsəfi aspektləri ilə" mövzusunda müzakirə saatında tanınmış tədqiqatçılar: Ədalət Tahirzadə, Alxan Bayramoğlu, Vaqif Sultanlı və qəzetin baş redaktoru Azər Turanın təqdimində dövrün siyasi-ədəbi mənzərəsinə, müxtəlif problemlərinə yeni metodoloji mövqedən nəzər salındı.

Dilqəm Əhmədin "Mühacirlərin dönüşü" kitabı Azərbaycan Cümhuriyyət tarixinin, o dövrün görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığı haqqında yeni araşdırma tipi meydana qoyan əsərdir. Kitabda Azərbaycan Xalq Cümhuriyyəti və mühacirət tarixinə aid 50-yə yaxın yeni material təqdim edilib. Buna baxmayaraq, bu önəmli hadi-

səyə qarşılıq verən bədii əsərlə rastlaşmadıq. Halbuki, tarixi-ədəbi proseslərin bədii-estetik mündəricə qazanmasına ehtiyac böyükdür. Yazıçı istənilən hadisənin təfərrüatına varılmasında tarixçi qədər əhəmiyyətli rol oynayır. Yəni ədəbiyyat və tarix yeganə sahələrdir ki, onların büllurlaşan guşə daşında zamanın obrazı görünə bilir.

Poeziya. 2017-ci ildə çap olunan şeir kitabları çoxluq təşkil etsə də seçilən mətn nümunələri kimi bunları qeyd edə bilərik: Qabilin 7 cildlik külliyatı, Firuzə Məmmədlinin "Söz macalı", Salam Sarvanın "Heykəl tənhalığı", Hədiyyə Şəfaqətin "Qapı", Aqşin Evrenin "Mənfi sənsiz dərəcə", Emin Pirinin "Sağ qalan varmı", Hikmət Orhunun "Qadın qolları dövrü", Ulucay Akifin "Günəşə atılan mərmilər", Məhərrəm Qasımlının "Saz başına döndüyüm", Süleyman Abdullanın müharibə şeirlərindən ibarət "Qara beret" kitabı və s.

Ötən ilin ən gözəl şeirlərindən bir qismini Musa Yaqubdan oxuduq. ("Azərbaycan" jurnalı, № 5, 2017, "Ədəbiyyat qəzeti", 13 yanvar, 2018). Ömür "ura"sına yazılan bu şeirlər duyğuların təbiət fonunda mənalanması, təbiəti poetik qavrayış idi əlbəttə, amma həm də həyat, yaşanılan, yaşlanan ömürlə bağlı ciddi poetik düşüncələrin məntiqi bağlılığı idi.

Bir az saymazyana, bir az biganə
Hələ ki, canımda can saxlayıram –
Ruhum uçmaq üçün dəli-divanə –
Nə bir əlləşirəm, nə can çəkirəm,
Gümüş türbə, nə də qızıl cam üçün
Mən cığır çəkirəm, ağac əkirəm,
Mən çiçək dərirəm o dünyam üçün.

Buraxdım ömrümü üstdən aşağı
Tanrıdan gələcək sərəncam üçün –
Hanı bu dünyanın ruh tərəfləri?
Gəmi tərəfləri, Nuh tərəfləri?

İlin son günlərində yazdığı "Sən mənimləsən" şeiri ilə 81 yaşlı Musa Yaqub gənc nəslə belə meydan oxuya bildi. Şeirdə metaforaların uçuşu, lirik psixoloji vüsət, mənalı düşüncələr axarı orijinal intonasiya çalarlarında üzə çıxdı.

Nə yaxşı bilmisən xəstə halımı
Həqiqət eylədin xoş xəyalımı.
Sənin nəfəsindir, sənin əllərin
Oxşayır ruhumu, ovur alnımı –
Kövrəltdi əlimi isti yaşların...
Var ol, bu istəyə, təmasa görə,
Mənimçin Allaha yalvarışların,
Nə deyim bu nəzir-niyaza görə?..
Mən indi bildim ki, sən mənimləsən...

Səlim Babullaoğlunun "Noyabr gündəliyi" silsiləsindən olan şeirləri də poetik siqləti ilə seçilə bildi. Şair anasının xatirəsinə həsr etdiyi bu şeirlərlə, ilk növbədə düşünürəm ki, mövzuya münasibətin özünü təzələmiş oldu.

Düz beş ildir demək olar heç nə yazmıram.
Ömrün qırx dördüncü payızında dünyam
qırx dördün payızındakı dünya qədər xarabalıqdı.

"Freqat", "Pirat", "Ləman", "Liman", "Limon" – deyə mənasız şeir kimi sahilboyu uzanır həmqafiyə otel və

restoranlar; sanki tək-tək, iki-iki sahilə qaçışan dalğaları yamsılayırlar.

Ümidsizlik içindəyəm, yaddaşın saralmış xəritəsi əlimdə
uşaqlığın mücrüsünü axtarıram o uzaq, yaxın, yad və tanış yerlərdə.
İriçınqıllı yaş qumsal zolaq, lal qayalıq, bir də atılmış dəlik-deşik qayıqdı.
Sahildə cızılmış "ana" kəlməsindən uzaqlaşır ləpirlər.
Ləpələr yuyur hər şeyi; Günəş yanmış evin arxasından qürub edir.

Şeirin oxucu ilə baş tutan ünsiyyətinə səbəb müəllifin daxili yaşantılarının hamıya tanış həyati detallarla ifadə olunmasındadır. Ona görə bədii təsir qüvvəsi ilə seçilə bilir bu şeirlər.Obrazların reallığı, əyaniliyi poetik mənanın yaşarılığını şərtləndirən başlıca amilə çevrilir.Bu şeirləri anımlar silsiləsi də adlandırmaq mümkündür. Səlim Babullaoğlu kamera effekti yaradır, poetik lövhələrin ardıcıl dəyişimi bir ömrün dramasını göz önünə gətirir. Seirin forması həm də bununla, publisist və lirik intonasiyaların biri digərini əvəzləməsi ilə yeni estetik təcəssüm qazana bilir.

Ötən il poetik üslub çalarlarının zənginliyi baxımından seçilən bir il olmasa da, gerçəkliyi qavrayışda yeni görünən müxtəlif duyum tərzi bir neçə gənc şairin şeirlərində özünü göstərdi: Hədiyyə Şəfaqət, Aqşin Evrən, Elşən Mehdi, Faiq Hüseynbəyli, Ümid Nəccari, İntiqam Yaşar, Rəşad Nağı Mustafa,Günel Şəmilqızı, Orxan Bahadursoy və b.

Hədiyyə Şəfaqət öz nəfəsi, ruhu olan şairdi, yeni dövr poeziyamızda adını inamla çəkə biləcəyimiz tək imzalar-

dandır. Hədiyyənin əksər şeirləri hekayət siqlətlidir. Ümumiyyətlə, deyim ki, müstəqillik dövrü poeziyasında əsas forma xüsusiyyətlərindən biri epik şeirin önə çıxması oldu. Şeirdə daha çox təhkiyə elementlərinin yer alması, epik vüsət, təsvirə meyillilik əsas üslubi əlamətlər kimi qabardı. Hədiyyə Şəfaqətin şeirlərində də belədir. Şair həyati müşahidələrini, bəzən hədsiz dərinlərə işləyən şüur oynaqlıqlarını təhkiyə elementlərinin gücü ilə verməyə çalışır. Yazılan şeirləri içdə yaşanılan ideyaların bədii təcəssümünə çevirir və təsadüfi deyil ki, bu cəhd şeirlərin poetik strukturunun fərqli olması ilə nəticələnir. Ümidlə ümidsizliyin eyni məkanda qovuşması var bu şeirlərdə.Poeziyamızda qadın başlanğıclı şeirlərin vüsət alması 90-cı illərdən bu yana xarakterik hal olsa da, Hədiyyə Şəfaqətin şeirlərində bu, feminist nöqteyi-nəzərdən mətnə gətirilmir. Burada bütün hallarda qadın var, təslim olmağı sevməyən, amma mübarizələrdən də qaçan qadın. Sadəcə öz içinə yıxılıb yaşamağı tərcih edən qadın... Çünki bu qadının hüzuru hansısa iddia, istəklər sırasında deyil. Ruhun dincliyini tapdığı anda xoşbəxt olur, tapmayanda səssizliyə çəkilib ağlayır. Qınamır, taleyini ittiham etmir, üsyana qalxmır, sadəcə ağlayır... Hədiyyə Şəfaqət də poeziyamızda Elnaz Eyvazlı, Rəbiqə Nazimqızı, Günel Eyvazlı kimi sevən qadını yazır. Bəlkə, poetik mexanizm bütün gücüylə işləmir, amma poeziya dalğası nəğmə kimi həzinləşdirir insanı:

Adam aşiq olmuş
Baxmış ki, günəş səhərdən gec oyanır, uzatmış əlini üfüqə
Demiş ki:
- Mən bunu bilmirdim

Baxmış ki,
Yağışdan əvvəl göy üzü bulud açır, demiş ki:
- Mən bunu bilmirdim

Yummuş gözlərini, qaranlığı görməmiş, işıq oynamış
bəbəklərində,
Açmış əllərini, bir quş qonmuş barmaqlarına, ovcunu
dimdikləmiş
Yuxusunun içinə
Qağayılar girmiş
Ömrü boyu görməmişsə də dənizi
Əvvəl sevinmiş adam, sonra kədərlənmiş
- Niyə mənim qanadlarım yoxdur – deyə

Gülmüşlər adama
Yol boyu daşları saya-saya getməyinə gülmüşlər
Üşüyən budaqları nəfəsiylə isitməyinə gülmüşlər
Gülmüşlər havalı-havalı dolaşmağına,
Adamı dəli oldu zənn etmişlər

Çaşmış adam,
Dayanmış adam,
Qırılmış adam
Çökmüş adam,
kürəyini söykəyib daş hasara,
Pıçıldamış ki
- Mən
Sizin hamınızdan nigaranam...

Faiq Hüseynbəylinin şeirləri poetik sistem etibarilə tamdır, bütövdür. Onun şeirlərindəki mətləb bir şeirin ümumi axarında, intonasiya, ritm və ahəng vəhdətinin qa-

rışığında yaranır, ayrılıqda bir misranın, yaxud beytin üzərinə yüklənmir. Sevgi hissi Faiq Hüseynbəylinin poetik mətnlərində ovqat, yaşam kimi doğula bilir.

Sənə gələn haqq yoludu, əfəndim,
Kölə canım xan da olsa, gələrəm.
Çağır məni, səssizlikdən ürpəndim,
Can üstündə can da olsa, gələrəm.

Dilə gətir içimdəki rübabı,
Bu quluna rəva görmə əzabı.
İki nədir, dünyaların hesabı
Beş də olsa, on da olsa gələrəm.

Donub sənsiz ömrüm-günüm, hər anım,
Həsrət dadır, qəm qoxuyur dörd yanım.
Çağır məni hüzuruna, sultanım,
İki əlim qanda olsa, gələrəm.

Elşən Mehdinin poeziyamıza yeni imza kimi gəlişi uğurludur. Şeirlərinin ümumi əhvalında R.Rövşən, V.B.Odər şeirinin hüznü boy versə də, xüsusən heca vəzndə meydana qoyduğu şeirlərində sözə yeni nəfəs ötürə bilib. O nəfəs ki, çağdaş şeirimizdə çox az hallarda təsadüf edirik. E.Mehdinin şeirlərində yeni poetik üslubun öz fərdiliyi, dəst-xətti, biçimi görünür, sözlər yüklüdür, rənglər yerindədir, təsvir israfçılığına yol verilmir. Bədii fikrin əsas axarını həyat, dünya və ölümlə bağlı düşüncələr təşkil etsə də, lirik ovqat həzin və işıqlı notlar üzərindədir:

Dünya biraz çətin olur
Çiyninə yük götürənə
Dost demişik demə bizi
Məzaracan ötürənə.

Çıx gəz axtar qarış-qarış
Bir nəfər tap ruhu tanış
Bütün sirlərini danış
Yaddaşını itirənə..

Kədər çəkib həsrət qalmaq
Nə oyundu, nə oyuncaq
Sevgi gözəl hissdir,ancaq
Başlamamış bitirənə.

Tanrı qədər gumanına
Sevinc yazıb hər anına
Bir az layiq olanına
Bir az bəxti gətirənə..

Bir məqama da toxunmadan ötə bilmirəm. Çağdaş şeirimizdə şeirin leksikonu bilərəkdən ibarələrlə doldurulur, qaba erotizm, hadisələrə çılpaq, birbaşa münasibət, prozaik ifadə meydan sulayır və bu hallar modern düşüncənin, yeni yanaşmanın əlaməti olaraq gətirilir poeziyamıza. Bu çatışmazlıq yalnız ötən ilin poeziyası üçün xarakterik deyil əlbəttə. Lakin ilbəil gözləmə mövqeyi tutub yeni nəfəs doğuluşuna, yeni poetik düşüncənin estetik biçimdə təzahür məqamına təşnə olurkən əksinə naqis olan köhnənin rişələndiyini sezirik. Bu, xüsusən sevgi şeirlərində daha aydın nəzərə çarpır. Məncə, mövzunun modern səviyyədə ifadəsinə nail olmaq o zaman mümkünləşir ki, bu, təfəkkür, dü-

şüncə və dil hadisəsi kimi gerçəkləşsin, poetexnik islahat əzmindən doğsun, görüntü, dəb, psevdomüasirlik effekti sərgiləmək xatirinə yazılmasın. Məsələn, istedadlı şair və nasir kimi tanıdığımız Ümid Nəccarinin sevgi himni kimi səslənən aşağıdakı şeirində olduğu kimi:

Səni yaşamaq lazım, bir ağac kimi bahar günündə,
bir qaya kimi üzü dənizə, bir ümid kimi sevə-sevə!
Səni yaşamaq lazım, yaşıl-yaşıl yarpaqları tökmədən,
bir Mövlanə, Şəmsə olan kimi,
sənə Kərəm kimi yanmaq lazım, səni yaşamaq lazım...

Hər şey o masadan başladı.
Qarşımdaki, günahsız mələkdən!
Qarşımdakı, bir ovuc Tanrıdan!
Məni özünə sevdirmədən, öldürmədin deyə,
ölür baxışlarım sənsiz!
Qar yağır günlərimə bahar çağında
Hər şey səndən başladı,
Amma…
Səndən sonra bitmədi hekayəmiz!

Tərcümə. Ötən ilin tərcümə əsərləri sırasında Migel Delibesin "Seçilmiş əsərləri" (Saday Budaqlı), Culian Barnsın "Aqibət duyğusu" (Seyfəddin Hüseynli); Qismət Rüstəmovun "Ədəbiyyatsız dünya" esselər toplusu, eləcə də Vladimir Nabokovun "Rus ədəbiyyatından mühazirələr", müasir İran poeziyasından əhatə edən "Dostun evi haradadır" antologiyasını qeyd edə bilərik. Artıq üçüncü ilə yaxındır ki, Əyyub Qiyas "Ədəbiyyat qəzeti"ndə Nobel alan yazıçıların əsərini silsilə olaraq təqdim edir. Eləcə də

Dilsuzun təqdimatında türk poeziyasından seçmə örnəklər oxucunun ixtiyarına verilir. Qeyd edək ki, Nazim Hikmətin "İnsan mənzərələri" əsəri də ilk dəfə məhz Dilsuzun təqdimatında milli ədəbiyyatımızda əks olunma dövrünü yaşayır. Həmçinin gözəl şairimiz Məmməd İsmayılın dünya yazarlarından etdiyi tərcümələr və onların oxuculara tanıdılması yönündə xidmətləri qeyd olunası vacib məqamlardandır.

Esse. Esse janrı bədii əsərlərin təhlili ilə məşğul olmaq yükündən özünü xilas edib, əvəzində ədəbiyyata daha geniş ərazidə, ölçü və miqyasda, heç nəyin qoşqusu olmadan, müstəqil konteksdə nəzər yetirməyin gərəkliyini sübuta yetirməkdədir. Burada da başlıca predmet ədəbiyyatdır, müəlliflər məhz ədəbiyyat müstəvisi üzərində özlərinin ədəbi-fəlsəfi düşüncələrini oynadır, müxtəlif mətnləri eyni kontekstə yerləşdirib müqayisəli təhlilə üstünlük verirlər. Ötən il janrın inkişafı baxımından işlək bir dövr oldu. Mətanət Vahidin elmi və ədəbi üslubunun uğurlu birgəliyindən hasilə gələn mətnlərindəki əsas məziyyət sehirli, duyğusal, qavramı fərqli şəkildə qoyulan dünyanın bədii sözün axarında üzə çıxarılmasıdır. Xüsusən, müəllifin ədəbiyyatı intermediallıq kontekstində təhlilə cəlb etməsi, onun daha geniş bədii-mənəvi ərazidə dərki məqamları: kino, teatr, moda, iqtisadiyyat kimi sahələrlə bağlılığını araması meyilləri yenilik ruhu ilə bərabər, fərqli düşüncə sferalarına çıxmaq baxımından əhəmiyyətlidir. Digər müəlliflər – Sərdar Amin, Günel Eyvazlı, Ülvi Babasoy, Cahan Seyidzadə, Xuraman Hüseynzadə, Azər Qismət, Kənan Hacının il boyu çap olunan esseləri də janrın dinamikliyi istiqamətində əhəmiyyəti ilə seçildilər. Nərmin Kama-

lın "Küçədən Keçən Adam haqda yazılar", Cəlil Cavanşirin "Sola dönmək qadağandır" adlı esselər kitabı çap olundu. Həmçinin Fərid Hüseynin "Hər kəsin öz eşqi" və "Ömür – doğum günü hədiyyəmiz" kitabları meydana qoyuldu. Müxtəlif şairlərin həyat yoldaşları ilə müsahibələrin yer aldığı birinci kitab tanıdığımız şair obrazlarının qadın nəzərlərindən təsvirə çəkilməsi, onların yeni görüm bucaqları ilə dərk olunmasına imkan yaradır. Gənc və istedadlı şair Fərhad Metenin qısa ömür bioqrafiyasına həsr olunmuş ikinci kitab isə öz sənət baxışı, diri qalan xatirələri, yaddaşa hopmuş yaşantıları ilə "işıqlı qəm içində" yazılan poetik etüddür.

Qeyd edək ki, yola saldığımız il kino və teatr estetikasına yönələn baxışın sistemliliyi və daim diqqətdə saxlanması, Azərbaycanın müasir mənəvi mədəniyyətinə daha çox yaxınlaşmaq baxımından əlahiddəliyi ilə yadda qaldı. Qanturalının teatr, kino, ədəbiyyat yönündə esseləri öz polemik ruhu ilə mövzuya münasibətdə fərqli estetik baxış yarada bildi. Ən son tamaşa və kinolarla bağlı resenziya nümunələrini Aliyə, Sevda Sultanova və Samirə Əşrəfin təqdimatında izlədik. Sevda Sultanovanın "Kulis.az" saytında yayımlanan "Naməlum kino" layihəsi milli kino tariximizin uzaq, kənar qalan faktlarını dövriyyəyə qatmaq baxımından gərəkli hesab olunmalıdır. Eləcə də "Ədəbiyyat qəzeti"nin "Dördüncü divar" layihəsində Samirə Əşrəfin təqdimatında incəsənət xadimləri ilə aparılan söhbətlər, "525-ci qəzet"də Pərvinin olunan kino və teatrla bağlı silsilə yazıları, o cümlədən teatr görüşlərini əks etdirən "Səhnə" kitabı kino və teatr sənətinin mahiyyətinə, bədii-estetik qavrayışına kömək edən nümunələr kimi səciyyəvidir.

Tənqid və ədəbiyyatşünaslıq. Çağdaş ədəbi mühit bir qədər qarışıq təsir bağışlayır, fərdi üslublar büllurlaşıb önə çıxmır. Yeni yaradıcılıq axtarışları az görünür, ədəbi gəncliyin ruhunda bir müəyyən dağınıqlıq müşahidə olunur. Tez-tez rastlaşdığımız bu hal gənclərin klassiklərdən heyif çıxma tendensiyasında özünü daha bariz göstərir. Bunu ona görə deyirəm ki, ötən il klassik irsə münasibətdə bəzi ifratlar özünü göstərdi. Daha çox isə S.Vurğuna münasibətdə hakim oldu bu ifratlar. Əlbəttə, heç kim büt deyil, ədəbiyyatda adı, sözü keçən hər kəslə bağlı fikir bildirmək yasaqlanmamalıdır. Burda problem sadəcə nədə özünü göstərir? Bir tərəfdən əlbəttə ki pozulan meyarların, zədələnmiş psixi şüurun neqativlərində. Digər tərəfdən isə müstəqillik dövrünün yazarının keçmiş irsi dəyərləndirmədə formalaşmış yanlış təsəvvürlərində. Lixaçovun bir fikrinə istinad etmək istəyirəm: "Biz keçmişin estetik mədəniyyətini müasir təsəvvürlərdən çıxış edərək dərk edirik. Bu həm düzdür, həm də dərindən səhvdir". Müstəqilliyi qazandığımız bu illərdə bizdə yaradıcılığı mübahisə predmetinə çevrilmiş bir çox şəxsiyyətlərin əsərləri çağdaş dəyərlər kontekstində öz qiymətini almayıb. Tarixi faktlar, situasiyalar, yaddaşa münasibət məsələsi yeni reallıqlarla dərk olunub meydana qoyulmayıb. Niyə? Çünki əksər tədqiqatlarda da bu şəxsiyyətlər "mif" kimi tədqiq olunub. Yaradıcılıq incəlikləri deyil, rejim mürəkkəblikləri önə keçib. Təbii ki, zaman faktoru şəxsiyyəti dəyərləndirmədə meyar rolunu oynamalıdır, kimisə tarixi ədəbi prosesin inkişaf kontekstindən ayırıb tədqiqat predmetinə çevirmək metodoloji yanlışlıqdır. Amma etiraf edək ki, bəzən bu amil tədqiqatçını inersiya ilə istiqamətləndirib. S.Vurğu-

nun istedadlı şair olduğunu isbat eləmək üçün mütləq siyasi gerçəkləri sıralayıb sanki nəyinsə bəraətini axtarmışıq. Halbuki, S.Vurğunun istedadı onun poetikasını incələyən mətnlər vasitəsilə müasir mövqedən əyaniləşməli idi. Yəqin belə olsaydı, müstəqillik dövrünün yazarı da məhz azad ədəbi müstəvidə dayanıb özünü ideologiyaya tabe olan, siyasi müdaxilənin qaçılmaz etdiyi S.Vurğun şeiri ilə deyil, məhz mətn, sənət faktı olan, bəlli bir meyar, estetika daşıyıcısı S.Vurğunla müqayisə etməyə lüzum görməzdi.

Ümumiyyətlə, tarixi-ədəbi prosesin xarakter və çalarlarını dərk etmədən müasir prosesi təhlil etmək və qiymətləndirmək, onun şərhinə və dərkinə girişmək metodoloji baxımdan doğru deyil. Ona görə də müasir prosesə klassik ədəbiyyatın təcrübəsini çatdırmaq, hadisənin, faktın etnik-tarixi tipini müəyyənləşdirmək üçün ədəbiyyatşünasların bu gün öz qüvvə və bacarığını birləşdirməsinə ehtiyac dünənkindən daha böyükdür. Bu üzdən akademik İsa Həbibbəylinin ədəbiyyat tarixçiliyi istiqamətində il boyu çap olunan məqalələri bu məsələyə son dərəcə ciddiliklə yanaşaraq, keçmiş tarixçilik ənənələrindən heç də sərf-nəzər edilmədən obyektiv qanunauyğunluqlara səriştəli yanaşma meydana qoyur. Ədəbiyyat tarixinin təsnifinin əsasında duran meyarları, prinsipləri və struktur vahidlərini müəyyənləşdirmək vəzifəsinin həllini arayan bu yazılarda Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi ilə əlaqədar ədəbiyyatşünaslığın irəli sürdüyü tədqiqat ideyalarının elmi mənzərəsi verilir, yazılı ədəbiyyatımızın mənşəyi, onun dövrləşdirilməsi məsələsi, maarifçilik dövründə yaranan ədəbiyyatın elmi təsnifatı aparılır, ümumiyyətlə, bütün Azərbaycan ədəbiyyatı barədə mövcud metodoloji qənaət-

lərə diqqət yönəldilir.

Nizami Cəfərovun "Afaq Məsud dünyası" və "Elçin. Yazıçının yaradıcılıq yolu" kitablarını bir yazıçının yaradıcılıq yolunun təhlil predmetinə çevrilməsi istiqamətində, bütünlükdə XX əsr nəsrinə yönələn baxışın sistemli təzahürü saymaq olar. Daha sonra Rüstəm Kamalın "Güzgü günü", Azər Turanın "Fəryadın metafizikası", İradə Musayevanın "Ceyms Coysun "Uliss" romanı və ədəbiyyatda devrim", Nərgiz Cabbarlının "Qurtuluşdan sonrakı ədəbiyyat" kitabları ədəbi tənqidin ötən ildəki funksiyasını təsəvvür etməyə imkan verir. Bura həmçinin il boyu ədəbiyyatımızın müxtəlif yaradıcılıq problemləri ilə çıxış edən imzaların – Vaqif Yusifli, Məti Osmanoğlu, Cavanşir Yusiflinin kitab siqlətli tənqidi yazılarını da əlavə etsək, yetərincə dinamik mənzərə yaranar. Həmçinin tənqidçi olmayan şəxslərin ədəbi proseslə bağlı yazıları da ümumi mənzərəni ifadə etməyə şərait yaradır. Məsələn, Qəşəm Nəcəfzadənin "Ulduz" jurnalında "Gənc şairlər haqqında tənqidi qeydlər" məqaləsi müasir poetik mənzərəni ədəbi-tənqidi duyumla təhlilə çəkən nümunə kimi yaddaqalandır.

Adətən, tənqidin gücü bədii ədəbiyyata bağlı məsələdir. Tənqidin məhsuldar işlədiyi bütün dövrlərdə onun fəaliyyəti məhz ədəbi əsərlər haqqında mühakiməsinin çəkisi, tutumu ilə şərtlənib. Bu mənada müxtəlif ədəbi növlərlə tənqidin gedişi sinxron rabitədə baş verib, biri digərinin fəaliyyətini şərtləndirib. Ötən il tənqidin fəaliyyəti meydana qoyulan müxtəlif janrlı mətnlərə yazılan resenziyalarla, portret və problem yazılarla yadda qalsa da, ümumən ədəbiyyatmızda mövcud olan problemlərin çoxluğu tənqidçilərə cari ədəbiyyata köklənməyə imkan vermir. Bunu tən-

qidçilərin ötən il qələm işlətdikləri fəaliyyət sferası da sərgilədi, bu fəaliyyətin sonucu kimi ərsəyə gələn tənqid kitabları da.

"Güzgü günü" Rüstəm Kamalın "Ədəbiyyat qəzeti"ndə çap olunan esselərindən ibarət kitab kimi ərsəyə gəlmişdir. Ədəbiyyatşünas alim Məti Osmanoğlu kitabın ön sözündə qeyd edir ki, "ədəbi tənqidə ədəbiyyatşünaslığın "qeyri-rentabelli" sahəsi kimi yanaşan R.Kamalın esseləri tənqidçi təhlilindən təmamilə fərqlənir. Bununla belə, onun müasirlik anlayışı ilə bağlı mülahizələri ("Müasirliyin hüdudları, yaxud ədəbiyyatşünaslığın nəfəsi") ədəbiyyatşünaslığımız və tənqidimiz üçün yeni görüm hədəfi müəyyənləşdirir". Haqlı mülahizələrdir. Məhz yeni görüm bucağı! Rüstəm Kamal tənqidinin rəng spektrində incələnən assosiasiya çalarları, məna oyunları rəngarəng və çeşidlidir. Hamımızın süjet, mövzu, problematika məsələlərinə aludə olduğumuz mətn müstəvisində onun axtarışları özgə səmtləri nişan alır, ağlagəlməz paralelliyə yol açır. Bəzən mətnlərdəki ilğım kimi görünüb yoxa çıxan nəsnələr, baxıb önəmsəmədiyimiz məqamlar Rüstəm Kamalın yaradıcı zəkası üçün əsl təhlil predmetinə çevrilir, onlardakı ahəng və məna düzümü, səs və rəng polifonizmi tənqidçinin duyğu və düşüncələr axarına vahid məcra verən bədii fabula rolunu yerinə yetirir. Məqalələrin adları belə artıq fikirlərimizin təsdiqidir: "Molla Pənah Vaqif və Səməd Vurğun: felin karması", "Mirzə Cəlilin teleqraf poetikası", "Əbdürrəhim bəyin stomatoloji fantaziyası", "Yuxudan oyanma qorxusu: Frans Kafka və Mirzə Cəlil", "Fonoqraf: Mikayıl Müşfiq və Asəf Zeynallı", "Üç Aleksandr, yaxud "dekabrist" gülü qışda açır", "Repressiya yuxuları" və s.

Azər Turanın "Fəryadın metafizikası" əsərində modernizm cərəyanı, onun dünya ədəbiyyatında qoyuluşu və təzahür şəkilləri modern bir təfəkkürlə araşdırılır. Kitab bütünlükdə XX əsrin estetik dalğası üzərindədir, onun tarixini, inkişaf meyillərini, çağdaş milli və dünya ədəbiyyatı kontekstində mövqeyini öyrənmək baxımından zəngin material verir.

Ədəbiyyat tarixi həm də cərəyanlar tarixidir. Bu kontekstdə araşdıranda tipoloji baxımdan XX əsr Azərbaycan ədəbiyyatı XIX-XX əsr dünya ədəbiyyatına nəzərən səciyyələnir, xüsusilə əsrin birinci iki onilliyi həmin faktların təzahürünü verir, Avropada əsası qoyulmuş cərəyanları, ideya-estetik fəlsəfə sistemlərini təcəssüm etdirir. Azər Turanın hər iki qütbün ədəbiyyatına, onların özünəməxsus inkişaf qanunauyğunluğuna vaqif olması ona beləcə, müxtəlif analogiyaları yanaşı verməyə zəmin yaradır. Müəllif iki onildən artıq bəhs edilən məsələyə problemin qoyuluş şəklindən başlamır, onun səbəbləri deyil, nəticələri üzərinə diqqət çəkir. Boşluq hardadır, milli ədəbi-ictimai düşüncənin hansı qatında? Modernizmin mövcud kontekstini müəyyənləşdirmək, dünyabaxış sistemində mövzuya müraciətin imkanlarını meydana çıxarmaq, yeni paradiqmaların fonunda qərarlaşan prinsipləri qarşılaşdırmaq yolu ilə cərəyanlar məsələsini dövriyyəyə qatmaq. Beləcə, Avropa ədəbiyyatında gedən modernizm prosesinin üzün və sürəkli yolunun Cənab Şihabəddin, Əhməd Haşim, Yəhya Kamal Bayatlı, Nazim Hikmət, Orxan Vəli, Cahit Sıtkı Tarançı, Edip Cansevər, Cəmal Sürəyya və başqa şairlərin yaradıcılığı əsasında mənzərəsini verir.

"XX əsr – fəryadın metafizikası" kitabında milli ədəbiyyatımızın çağdaşlığı, onun dünya həyatı ilə ayaqlaşa bilməsi uğrunda gizli bir polemika da var. XX əsr ədəbiyyatının Avropa üçün daha çox cərəyanlar tarixi kimi səciyyəviliyi milli həyatımızda da bunun tarixi ölçülərini, gerçəkliyini, izlərini aramağı israr edir. Azər Turan problemin Azərbaycan ədəbiyyatında işlənmə hüdudlarına varır, milli gerçəkliyimizin faktlarını bütün parametrləri ilə XX əsr həqiqətlərinə, sənət axtarışlarına müncər edir.

İradə Musayeva boşluqlar üzərində dayanan, təhlil sferasını o istiqamətə yönəldib araşdırmalara meyil göstərən tənqidçidir. Ötən il müəllifin repressiyanın 80 illiyi münasibətilə silsilə olaraq yazdığı "Sözlərin rəng assosiasiyası... Qara rəngli "repressiya"..." məqalələri dövrün ictimai-siyasi ab-havasını görükdürmək, diqqəti məşum faciə qəhrəmanlarının ömür bioqrafiyaları üzərinə yönəltmək, 1937-ci ildə yaşanan ümummilli iztirabın sosial miqyasını və şiddətini öz məzmununda ifadə baxımından əhəmiyyətli sayılmalıdır. Eləcə də tənqidçinin "Ceyms Coysun "Uliss" romanı və ədəbiyyatda devrim" kitabı. Ədəbiyyat aləmində tələtüm yaratmış və nəsrin yeni istiqamətini müəyyən etmiş "Uliss" romanı bu gün də birmənalı olaraq qəbul edilmir. Bildiyimiz kimi, "Uliss" çətin oxunan romandır. Yəni əsəri oxumaq oxucudan yalnız səbr deyil, həm də elmi-intellektual səriştə, nəzəri hazırlıq tələb edir. Digər tərəfdən, Coysun romanı bizim öyrəşdiyimiz klassik romanlardan fərqlənir, izahat metodu fərqlidir. "Uliss"lə bağlı isə bədii düşüncənin özündə bir boşluq vardı. Oxucu ilə əsər, tərcüməçi ilə əsər, yaradıcı insanla əsər arasına qarşısıalınmaz bir sədd çəkilmişdi. İradə Musayeva ilk

növbədə bu səddi aradan götürməyə çalışdı. Bu əsərin qayəsində dayanan əsas mürəkkəblik nədən ibarətdir? Mövzu, mündəricə nədir? "Ceyms Coysun "Uliss" romanı və ədəbiyyatda devrim" kitabında bu suallara cavab aranır. Həm də Şərq ədəbiyyatı ilə müqayisəli kontektdə, oxşar tipoloji təsnifatı aparmağa imkan verən mətnlərin bir estetik müstəviyə gətirilməsi ilə.

Ötən ilin tənqidlə bağlı yekun sözünü zənnimcə, Elçinin "Söz azadlığı tənqidimizə nə verib?" silsilə məqalələri dedi. Bu məqalələrdə bədii təcrübənin müxtəlif təmayüllərindən doğan və elmi-tənqidi düşüncənin mərkəzinə çəkilən köklü problemlər qaldırıldı. Həm də üslubunun məziyyəti sayəsində prosesə münasibətdə həm əhatəlilik, həm də ciddi elmi-nəzəri qanunauyğunluqdan çıxış edildi, ciddi elmi polemikaya yol açıldı. Belə ki, İradə Musayevanın "Xalq yazıçısı Elçin Əfəndiyevə cavab...", Qanturalının "Söz azadlığında düşən dolu və ya ədəbi sətəlcəmlik diaqnozu" və mənim "Polemikaya sözardı, yaxud öyünə biləcəyimiz ədəbiyyat" məqaləm Elçin məqalələrinin doğurduğu təsir nəticəsində ərsəyə gəlmişdi.

Bu məqalələrin əhəmiyyəti onda idi ki, yalnız müsbət məqamlara istinad etmirdi, problemləri dilə gətirirdi, ədəbi tənqidimizdə mövcud olan bir sıra çatışmazlıqlarla bağlı məsələlərin mahiyyətinə enirdi, tənqidlə çağdaş ədəbi proses arasında ögeylik, qarşıdurma hallarının olması, tənqidin yeni yaranmış mətnlərə dəyər vermək missiyasından uzaqlaşması, klassik ədəbi irsin milli dəyərlər işığında çağın dövriyyəsinə qatılmaması kimi hallar bu məqalələrdə qabaran başlıca amillər idi. Hərçənd bu məqamlar haqda çox danışmışıq. Müsahibələrdə, sorğularda, məqalələrdə

və s. Hələ söhbət ədəbi tənqiddən gedirsə, mövzu daim çağın dövriyyəsindədir. Ötən il "Ədəbiyyat qəzeti"nin təşkil etdiyi müzakirə saatında "Ədəbi tənqidimizin çağdaş durumu və yaradıcılıq problemləri" (“Ədəbiyyat qəzeti”, 7, 14 oktyabr 2017) mövzusunda müxtəlif problemlərə toxunulmuşdu. Predmet çağdaşlıq olsa da, müzakirədə tarixi kontekst qabarıqlığı ilə seçilirdi. Mənim "daha çox bu günün tənqidindən danışaq" dəvətimə hörmətli alim Nizami Cəfərov zarafatla belə cavab vermişdi: "Bu gündə maraqlı nəsə olsa, elə bu gündən danışarıq da"...

Məlumdur ki, müstəqillikdən sonrakı mərhələ ədəbi tənqidimiz üçün yalnız yeni tarixi mərhələnin başlanğıcı deyil, həmçinin nəzəri-estetik keyfiyyət dəyişmələrinin zəminini təşkil edən, bədii fakta və prosesə yanaşmada, tarixi-ədəbi fikrimizin müxtəlif dövrlərinə və şəxsiyyətlərinə münasibətdə obyektiv rəy formalaşdırmağa çalışan zaman vahidi kimi səciyyəvidir. Xatırlayıram, müstəqilliyin ilk illərində Elçin ədəbi tənqidimizin yaradıcılıq problemlərindən bəhs edən silsilə yazılarla çıxış etmişdi və çağın tənqidini təsnif edərkən bu məqama xüsusi vurğu salmışdı: “İndi tənqidin bilavasitə öz işi ilə - bədii-estetik təhlillə məşğul olması qarşısında heç bir maneə yoxdur”. İndi, üstündən on beş ilə yaxın zaman kəsimi keçəndən sonra Elçin bu günün tənqidindən yazır, söz azadlığında yaranan ədəbiyyat və onun tənqiddə dərki problemlərinə toxunur, əslində, səpələnmış, dağınıq olan problemlərin real mənzərəsini verib onlara konkret səciyyə aşılamaqla bərabər, buradan bəşəri və fəlsəfi ümumiləşdirmələrə çıxır.

Öncə ondan başlayaq ki, tənqidi ədəbi proseslə qarşılıqlı əlaqə müstəvisində təhlilə çəkəndə onun yaşarılığının

göstəricisi sayılan cari ədəbiyyata nüfuzu məsələsinə toxunmaq zərurəti yaranır. Gerçəklərsə bunu deyir: bu gün həmin müdaxilənin realizə etmək üçün tənqidin müəyyənləşdirdiyi meyarlar sıradan çıxıb. O hansı işlə məşğul olmalıdır, predmeti ilə necə və hansı səviyyədə ilgilənməlidir – missiyası fənaya uğramaqdadır artıq. Bu barədə narazılıq səsləndimi, kara gələn ilk bəraət belə olur: bu gün professional tənqid yerini ədəbiyyat tarixçiliyi ilə bağlı məsələlərin həllinə yönəldib. Ona qalsa Axundovdan beləsinə tənqidlə ədəbiyyat tarixçiliyi məsələlərinin tədqiqi sinxron şəkildə reallaşıb. Bu, təbii ki, əsas səbəb deyil. Səbəb hazırda ədəbi tənqidimizdə hökm sürən meyarsızlıqdır. Hər şeydən – istedadlı və istedadsız mətndən eyni tonda, eyni həvəslə yazan tənqidçilər həmin meyarın itməsində birbaşa günahkardır. Çağın tənqidi qazandığı ədəbi bilikləri üzərində daha çox spekulyasiya etməklə məşğuldur. İndi kimi ədəbiyyat tarixçisi kimi çalışır, kimi dünya ədəbiyyatının təbliğinə güc verib, kimi tənqidi təftişlə səhv salıb, kimi də layiq olmayan imzaları göyə qaldırmaq missiyasını götürüb üzərinə və s. Situasiya dağınıq təsir bağışlayır deyə tənqidin obrazı prosesdən yavaş-yavaş itməyə doğru gedir. Hələ bir-birinin ardınca sıralanan mənasız, söz yığınından ibarət kitablar bizi o qədər ağrıtmır ki (onlar onsuz da zamanın tozanağında itib-batacaq!), onlara yazılan ön sözlər, o ön sözlərin müəllifləri olan tənqidçi imzaları ağrıdır.

Tənqid etiraf edək ki, o qədər də ürəkaçan ifadə deyil. Hərdən düşünürəm ki, bu peşənin adının tənqid olması ona qarşı olan xoş münasibəti bəri başdan kölgə altına salır. Çünki adındakı mənaya sadiq qalıb tənqid edəndə "yaxşı

adam" olmaq statusunu itirir, tərif edəndə missiyasının mötəbərliliyini. Bəs nə etməli? Tənqidin yaşarılığını göstərən amillərdən digəri onun kollektiv zəka kimi görünə bilməsidir. Bu söz bir qədər qıcıq yarada bilər. Amma mənzərə bunu diqtə edir. Bir əsər ardıcıl şəkildə bədii-estetik düşüncənin predmetinə çevrilmirsə, ona müxtəlif rakurslu yanaşma meydana qoyulmursa, əsər haqqında yazılan tək-tük yazılar seyrəklikdə itib-batmış kimi görünür, proses yaratmır.

Bu meyarsızlığı bu gün bütünlükdə ədəbi prosesin özünə də şamil etmək olar. On il, iyirmi il əvvəl bu meyarsızlığın hardasa bəraəti vardı. Amma indi nəfəsdərim üçün kifayət qədər zaman adlatmışıq.

Elçinin ümumbəşər dəyərlər sorağında fikir yönümləri "Söz azadlığı tənqidimizə nə verib" məqalələrində də ön plandadır və Qərb-Şərq qarşılaşdırılmasının müqayisə zəmini yerini daha çox Qərblə bir sırada duran Şərq probleminin həllinə verib. Mən bu yerdə çağdaş ədəbiyyatın "Şərqlə Qərbin arasında qalması" məsələsinə bir qədər aydınlıq gətirmək istəyirəm. Niyə arada qalıb? Çünki oxundan çıxıb, klassik ədəbiyyatını tanımır, dünyada isə yerini tapa bilmir. Əvvəllər vahid ədəbiyyat sistemi var idi, hər şey ordan idarə olunurdu. İndi isə təfəkkür azaddır, dünyanın apogey bədiiyyatına canatımı öndədir. Bəli, məhz canatım. Ədəbiyyatımız sistem olaraq özü-özünü yaratmaq, qurmaq məramı uğrunda savaşmır. Qərb çağdaşlaşmağın, yeni dünyaya çevrilməyin ehtişamını çoxdan gerçəkləşdirib. Biz də bu hədəfə Qərbin keçdiyi yolla addımlamaqla çatacağımızı güman edirik, daha öz folkloru, mədəniyyəti olan bir sistem üzərində yetişdiyimizi nəzərə alıb həll vari-

antlarını axtarmırıq. XX əsrin əvvəllərində bu proses ən azı ona görə sağlam təməl üzərində yetişdi ki, meydanda onun həlli yollarını nişan verən fədai ziyalıları oldu. Mirzə Fətəli Axundov, Əlibəy Hüseynzadə, Cəlil Məmmədquluzadə Əhməd bəy Ağayevin düşüncə modeli başdan-başa bu xətt üzrə kök saldı, pöhrələndi. Onların xidmətləri sayəsində dünya Azərbaycan ədəbiyyatına daha yaxın idi – düşüncə, söz, əməl kontekstində təbii.

Söz azadlığını qazandığımız müstəqillik dönəmindən bu yana bizdə ümumilikdə düşüncə sistemimizin təsnifatı ənənəvi ədəbiyyatla modernizə axtarışlarının qarşılıqlı, yaxud bir-birini inkar edən mənzərəsi üstə əyaniləşdi. Bəs müstəqillik illərinin estetik mündəricəsi hansı təbəddülatlara uğradı, bəhs edilən modernist cərəyanların ədəbiyyatda ifadəsi mətnlər üstə reallaşdımı, yoxsa yalnız manifestasiya kontekstində danışmağa rəvac verildi?! Bu suala cavab daha geniş məqalənin predmeti olduğundan yalnız bunu deməyi vacib bilirəm. Son iyirmi ildə bizdə həm klassik irsə, həm də Qərb ədəbiyyatına münasibətdə ifrat metodoloji yanlışlıq təzahür etdi. Uzun müddət qapalı münasibətlərdə olduğu universal baxış sistemlərinin düşüncə strukturumuza mexaniki tətbiqi və ya süni imitasiya kimi meydana çıxması milli "mən"in təsdiqinə, təhrif olunmuş tarix, milli-mədəni dəyərlərin bədii təfəkkürün yeni tematikasına çevrilməsinə imkan vermədi. Ədəbiyyatda bu proses hələ də varlığını davam etdirir, yeni inkişaf məcrasına çıxılmır, postmodernizmin çərçivəsində qapanıb qalmışıq. Həqiqi ədəbiyyatsa Qərblə Şərqin sərhədini mətnində əridən yazıçının intellektual düşüncəni milli dillə ifadə etmək bacarığındadır.

Məncə, məsələyə münasibətin metodoloji yanlışlığı da məhz bu istiqamətdədir. Biz klassik irs dedikdə nədənsə ona ya savaş açmaqla seçilirik, ya da kor-koranə qapılmaqla. Elçin qənaətində haqlıdır: "Ciddi çatışmazlıqlardan biri, birincilərdən biri budur ki, tənqidimiz klassikləri – həm də yalnız milli klassikləri yox – ədəbi prosesin faktına çevirə bilməyib və siz saytların, mətbuatın cürbəcür ədəbi sorğularına, cürbəcür "top"lara fikir verin, klassiklər o siyahılarda axırıncı yerlərə düşürlər, ya da heç düşmürlər. Klassiklər və ədəbi proses – onların bir-biri ilə əlaqəsi, hətta düşünürəm ki, bir-birini tamamlaması ən mühüm amillərdən biridir, bizim ədəbi proses isə bunun fövqündədir". Qan Turalı da eyni fikirdədir, hətta bir qədər irəli gedib 60-cılar nəsrinin ədəbi sələflik məsələsinin düzgünlüyünü çağımıza nümunə belə göstərir: "60-cılar ədəbi nəsli özünü Mirzə Cəlilə varis elan etdi. İndi onların Mirzə Cəlil irsini nə qədər davam etdirməsinin özü də mübahisələndirilə bilər, mövzumuz bu deyil. Mövzumuz budur ki, həmin o dolu şəraitində belə, 60-cılar nəsli ən azı, demonstrativ mənada özünü Mirzə Cəlilə varis elan etmişdi, eləcə də milli mövzulara, bir çox hallarda millətçiliyə meyillənmişdi (Hərçənd Mirzə Cəlili siyasi platforması etibarı ilə heç bir vəchlə millətçi adlandırmaq olmazdı) və zənnimcə, 60-cıların uğurlarını şərtləndirən amillərdən biri də bu idi. Çox təəssüf ki, bu gün biz bu mənzərənin tamamilə əksini müşahidə edirik." ("Ədəbiyyat qəzeti", 11 noyabr, 2017)

60-cılar XX əsrin əvvəllərində yarıda qalmış, qırılmış bir ədəbiyyatın varisi olmaq missiyasından çıxış etdilər. Ağrı ədəbiyyatını, "böyük kiçik insan"ın ədəbiyyatını yaratdılar. Mən də bu fikirlə razıyam ki, milli ədəbiyyata ya-

naşmada biganəlik hakimdir. Dünyaya çıxışı stimullaşdırmağın yolu milli ədəbiyyatın "həzm"indən keçir. Amma bizim çağdaş ədəbiyyat nəinki klassikini ədəbi dövriyyəyə gətirə bilmir, hətta ədəbiyyatın müxtəlif mövzularına münasibətdə sakrallığı itirməklə elə bil ki, bütün məhrəm qatlarla öz arasına qalın bir örtük çəkir.

Digər bir məsələ. Bütün məqamlarda klassik irs yeni ədəbi və mədəni quruculuq, yeni ədəbi-estetik dəyərlərin təşəkkülü üçün mühüm əhəmiyyət kəsb edir. Klassiklərin toxunduqları böyük həqiqətlər, əks etdirdikləri ideya və dəyərlər sistemi hər dəfə, hər gələn dövrdə onlara yenidən qayıtmağı, çağın müstəvisinə proyeksiya edib aktuallandırmağı zəruri edir. Cəlil Məmmədquluzadə bizi özümüzə daha yaxşı anlatdığı üçün əbədi sərvətimiz sırasında qərarlaşıb. Amma bu qədər zaman fasiləsindən sonra müasir ədəbi-mədəni durumun yenidən Mirzə Cəlil nisgili yaşamasına, müstəqilliyə adlayan, müharibə acılarından çıxan bir nəslin ədəbiyyatda yaşanan iki Mirzə Cəlil dönəmindən sonra üçüncünü təkrarlamasına ehtiyac yoxdur. XXI əsrin birinci yarısının texnogen kəşfləri ilə silahlanmış dünya oxucusunu nicatı maariflənməkdə, tənqiddə görən bir estetik dalğanın təzahürləri ilə ödəmək mümkün deyil. Biz daha əvvələ qayıtmalıyıq, məncə. Nizami dövründən bu yana olan ədəbiyyatımızın faktlarını tanımalıyıq. Bu ədəbiyyatın ehtiva etdiyi dəyərlər sisteminin nədə olduğunu özümüz üçün müəyyənləşdirməliyik. Çünki tarixi-dialektik məntiq sübut edir ki, ilahi və dünyəvi bağların mövcudluğu etibarilə o dövrün ədəbiyyatı daha çox dünyəviləşmə xətti üzərindədir.

Qan Turalı çağdaş ədəbiyyatda "Mirzə Cəlil Kafkaya uduzdurulur" yazır. Guya əksinə olsa, bununla nə dəyişəcək ki? Yeni Mirzə Cəlilləri yetişdirməyin zamanı gəlməyibmi? Bu gün hər ədəbiyyat ünvanında Mirzə Cəlil də olmalıdır, Kafka da. Amma məncə, daha çox öz yeni ədəbiyyatımız olmalıdır. Öz çağdaşımızın şeiri, hekayəsi, romanı əksini tapmalıdır. Qan Turalı bunun səbəbləri üzərində düşünərkən, bir məqamda haqlıdır əslində: "Zənnimcə, ən mühüm problem üstümüzə dolu kimi yağan tərcümələrdir, bu tərcümələrin yaratdığı mədəni mühit oxucuların da fikrini qarışdırıb, yazıçı və tənqidçilərin də. Bu mənada, əslində, hamımız bu doludan çıxmalıyıq və diqqətimizi öz ədəbiyyatımıza verməliyik, xarici ədəbiyyat qarşısında duyduğumuz dərin heyrət hissini adlayaraq onu dərk etməyə çalışmalıyıq" ("Ədəbiyyat qəzeti", 11 noyabr 2017).

Niyə belədir? Çünki istedadı, potensialı çatan yazarlarımızın əksəriyyəti indi daha çox tərcümə ilə məşğuldur. Yazıçılıq onun stixiyası olmaqdan çıxıb artıq, tərcüməçilik ədəbiyyatdan səmərə götürə biləcəyi sahə kimi daha çox sərf edir. Ona görə məsələn, oxucu Salam Sarvanın gözəl şeirlərini gözlədiyi yerdə onun Bodlerdən gözəl tərcüməsini oxumaq feyzini yaşayır. Zahid Sarıtorpağın bədii mətnləri olmalı yerdə Xlebnikovdan etdiyi tərcümələrlə tanış olmalı olur. Başqa problemlərin də mövcudluğunu istedadlı şairə Cavidanın "Su üstündə yerimək" adlı yazısı anladır: "Bir həqiqəti anlamaq: Serial ssenaristi olmaq yazıçını məhv edir. Sənin bütün fəaliyyətin prodüserin, rejissorun, aktyorların, reklam olunacaq məkanların, reytinq qazandıracaq tamaşaçı kütləsinin sözün həqiqi mənasında köləsinə çevrilməkdən başqa bir şey olmur. Və sən "nə qə-

dər şanslısan, burdan yazırsan, ordan efirə verilir, bütün ölkəyə imzan hər gün ən baxımlı kanaldan nümayiş etdirilir" kimi parlaqlıqların fonunda o qədər çarəsiz bir hala düşürsən ki... özünə yazığın gəlməyə belə halın qalmır" (Cavi Dan. Su üstündə yerimək. "Ədəbiyyat qəzeti", 30 sentyabr 2017).

Elçin "Bu müddətdə biz tənqidimizdə "Söz azadlığı"nın yaratdığı imkanlardan tam istifadə edə bilməmişik və ədəbi prosesimiz bunu aydın şəkildə göstərməkdədir", (Elçin. Söz azadlığı tənqidimizə nə verib? "Ədəbiyyat qəzeti", 4 noyabr 2017) – yazır. Qan Turalı "indi söz azadlığı var, biz ondan istifadə edirik də, bəs sözün özü necə, o varmı ki?" – deyir. Cavanşir Yusifli də tənqidlə bağlı müzakirədə belə bir fikir səsləndirmişdi: "Olmayan bircə ədəbiyyatdı". Mən daha kəskin deyərdim: bizdə bu gün fövqəl amala xidməti ilə seçilən yazıçı qıtlığı yaşanır. Dürüst ədəbi mövqeyi, proseslərə, situasiyalara fövqəl münasibət bildirən yazıçıların sırası seyrəlir. Əksəriyyət "dəymə mənə, dəyməyim sənə" prinsipi ilə yaşayır. Yalnız özünün olduğu ədəbi müstəvini mükəmməl sayır, yalnız özünün adı keçən yazını bəyənir, tənqidçi onun adını çəkən yazıçını, yazıçı ondan yazan tənqidçini qəbul edir. "Özünü ədəbiyyatda sevmək"... mərəzi üst ədəbiyyata gedən yolu əngəlləyir.

Böyük qəhrəman yaratmaq üçün milləti böyük görmək lazımdır. İndi bəzi saytlarda olduğu kimi aşağılamaq, istehza predmetinə çevirmək deyil, məhz dəyərlərinə tapınıb ona doğru hədəflənmək. Bu olmalıdır böyük ədəbiyyatın qayəsi. Biz isə hələ də oxuduqlarımızın təsiri altında nəyi "döyüb", nəyi öyməyimizin mahiyyətinə vara bilmi-

rik. Çukçalarla bağlı məlum lətifəni yəqin ki, çox adam xatırlayır: "Filan əsərləri oxumusan sualına Çukça belə cavab verir: Çukça oxucu deyil, yazıçıdı". Amma indi ədəbiyyatın problemi elə yaxşı oxucu olmaq, intellektual görünmək mərəzidi deyəsən. Bəli, bu gün Şərqlə Qərb arasında ona görə qalmışıq ki, Şərq dəyərlərinin dünyalaşması prosesi ləng gedir. Qərbə açılan yollar, get-gəllər isə dünyaya şərqli kimi inteqrasiya olunmağımızın Yolu deyil. Şərqi Qərbə daşımağın yolu əsərlərdən keçir, Şərq fəlsəfi fikrinə etina etməyən Hegelin bu fikirləri ilə razılaşmamaq olmur doğrudan da: "Mədəniyyət tərcümə olunmur, məhz yaradılır!.." Həm də öz kimliyimizə istinad kontekstində. Belə bir nümunə varmı? Müstəqillik insanının yaşamları, keçib gəldiyi gerçəklər, fəci yaşantılar sırası, içinin təbəddülatları, əzabları ədəbiyyatımıza gətirilmir. Hələ milli həyatımızın Qarabağ kimi gerçəkliyi varkən... 25 illik söz azadlığı həm də 25 il Qarabağsızlıq deməkdir. Bu 25 ildə bizdə milli problematikanı bəşəri səviyyədə ifadə edən hansı əsər yazılıb? İstinadlar həmişə var təbii. Mövlud Süleymanlıdan Şərif Ağayara qədər Qarabağ mövzusuna həssas bir neçə yazıçının adını sıralamaq olar. Amma söhbət milli nəsrin bütün komponentlərində – problematikasından poetikasına qədər bəşəri səciyyədə bərqərar olmasından gedir. Bəs poeziya? Hələ də Vətən anlayışı ilə bağlı məqamlarda karımıza XX əsrin birinci yarısının hürr duyğularının uca vurğusunu özündə ehtiva edən şeirlər gəlirsə... bunu hansı yeni ədəbiyyatın adına yazaq bəs? Bəli, bu gün ədəbiyyat Şərqlə Qərb arasında qalıb. Yazılan, bəh-bəhlə tərifl ənən, orijinal kimi oxucuya sırınan, təbliğ olunan şeirlərin əksəriyyəti bir az J.Prevert-

dir, C.Sürəyyadır, bir az Sipehri və daha kimlər... Bu isimləri tanıyan və sevən dünya oxucusunun yanına onları təkrar istehsal etməkləmi getmək istəyirik? Ahəngdən, musiqidən məhrum bu şeir müəlliflərinin və onların araşdırıcılarının "bu şeirlər oxunmaq üçündür yalnız" qənaətləri isə ancaq təbəssüm doğurur. Məgər V.Səmədoğlunun, V.Bayatlının şeirləri səsləndirilmək üçünmü yazılmışdı? Bəs niyə poetik yaşamı bu qədər güclü idi, görəsən?

Nə isə... "Yazalım, özümüzü öyməyəlim"... Tənqidin problemləri ilə bağlı ötən il yazdığım məqaləni belə adlandırmışdım. İndi də o fikirdəyəm. Yazalım... Öyünə və öyə biləcəyimiz yeni ədəbiyyatımızı yarada bilənə qədər. Çünki "Mədəniyyət yaradılır"!

Vaqif YUSİFLİ
Filologiya üzrə elmlər doktoru

POEZİYA… POEZİYA…

1896-cı il noyabrın 3-də fransız yazarı JÜL RENAR gileylənirdi ki: «Yenə şeir, hey şeir. Bir misra da poeziya olaydı!». Yüz iyirmi iki il müddətində fransız poeziyasının keçdiyi yol göz qabağındadır. Böyük, istedadlı və dünya miqyasında tanınan şairləri də olub, konyukturaçıları da. Eynilə bizim poeziyada olduğu kimi. Lakin mən inanmıram ki, Fransada Azərbaycandakı kimi az qala bütün xalq şeirlə nəfəs ala, çobanından tutmuş akademikinə qədər şeir aludəçisi ola. Hərçənd ki, fransızlar deyilənə, yazılana görə daha hissiyyatlı xalqdılar… Hətta mən ona da inanmıram ki, fransız xalqının az qala yarısı şeir yazmaq bəlasına mübtəla olsun. Mərhum şairimiz Fikrət Sadığın bir şeirindən bu misralar sanki yaşadığımız dünənin və bu dövrün mənzərəsini əks etdirir:

Mən sayım, sən sadala,
Gör kimlər şeir yazır.
Mühəndislər, polislər,
Həkimlər şeir yazır.
Bunu bildim, tanıdım,
Ta kimlər şeir yazır?!
Deputatlar, vəkillər,
Hakimlər şeir yazır.
Elmdən yorulanda
Alim də şeir yazır.
Qanı qara olanda

Müəllim də şeir yazır.
Adlayıb həmdəm zilə,
Şeir yazır naz ilə.
Yalançı bəstəçilər,
Yalançı müğənnilər
Şeir yazır hacılar,
Məşədilər, mollalar.
Evin tikilsin millət,
Bu qədər şair olar?
Bir kəlmə, söz müxtəsər,
Jan, ay can, bir də ay can!
Şeir yazır sərasər
Bu boyda Azərbaycan!

Neyləyək, biz belə doğulmuşuq, «şair xalqıq». «Yenə şeir, hey şeir, Bir misra da poeziya olaydı» – az-çox ədəbiyyat aləminə qovuşandan sonra bu sayaq şikayətləri, giley-güzarı dəfələrlə eşitmişəm. Və indi, şeir yazmağı, əksərən öz cibinin pulu, ya hansı varlı sponsorunsa köməyilə şeir kitabı nəşr etməyi heç kimə qadağan etmək olmaz. Kimə məlum deyil ki, bu şeirlər və bu şeir kitabları xalis qrafomaniyanın bəhrələridir. Və indi tənqidçiləri də məcbur edib bu qrafoman şairləri bircə-bircə bəsitlikdə, qafiyəpərdazlıqda, məzmunsuz şeir yazmaqda təqsirləndirmək də mümkün deyil. Əgər televiziya kanallarında müğənni xanım Elza Seyidcahan bir şair kimi təqdim olunursa, şeiri gözdən salan «şeirlərini» oxuyursa, hətta ARB kanalının «Xalq şairi» şeir müsabiqəsində münsiflər heyətində yer tutursa… İzahata ehtiyac qalmır.

Ancaq bu, o deməkdirmi «bir misra poeziya» tapmaq çətindir, təbii ki, belə deyil. Lap qatı pessimist olaq: fikir-

ləşək ki, ötən onilliklərdə olduğu kimi, indi Azərbaycanın hər qarışında bir şeirçi bitsə belə, yenə xalqa çatası və xalqın qəbul elədiyi şairlərimiz az deyil. Bəli, biz saysız-hesabsız konyukturaçı nəzmkarların, kitablarının üz qabığı şeirlərindən qəşəng olan şairciklərin əhatəsindəyik, «şeir» sarıdan qətiyyən korluq çəkmirik, narahatlığımız poeziya sarıdandır.

Şeir və poeziya. Mən bir neçə dəfə bu iki sözün bir-birindən fərqli mənalarını izah etməyə çalışmışam və təxminən əlli il öncə məşhur Arğentina şairi Armando Texado Qomesin müxbirlərlə müsahibə zamanı «Siz poeziyaya hansı tələblərlə yanaşırsınız?» sualına verdiyi cavabı misal gətirmişəm: «Ən başlıca tələb odur ki, poeziya əsl poeziya olsun. Mən zarafat etmirəm, düz sözümdür, şeiri hamı yaza bilər. Amma unutmayın ki, şeir hələ poeziya deyildir, şeir poeziyanı ifadə etmək üçün yalnız bir vasitədir. Sözlər, misralar unudula bilər, qalan nədirsə, o – poeziyadır. Yaddaqalan sözlər və misralar da ola bilər, onları yadda saxlayan, yaşadan da poeziyadır». Ona görə də mən çalışacağam 2017-ci ilin yaddaqalan, təkcə yazıldığı, işıq üzü gördüyü gün də deyil, sabah da, hətta XXI əsrdə də yaşaya biləcək poeziya nümunələrindən söz açım. Bir-iki məqam istisna olmaqla illər boyu icmallarda təkrar olunan bir sxemdən də imtina edəcəyəm. Yığın-yığın adlar – imzalar siyahısına elə bir ehtiyac duyulmayacaq.

İndi isə, ilk növbədə, 2017-ci ilin şeirini statistika nöqteyi-nəzərindən incələyək. Mən hər ay, bəlkə hər gün müxtəlif nəşriyyatlarımızın istehsal etdiyi şeir kitablarını bu statistik mənzərəyə daxil eləmirəm, çünki bir il ərzində 300-400 şeir kitabı nəşr olunursa (bəlkə daha artıq!), özü

də bu şeir kitablarında əksərən ötən illərin şeir nümunələri öz əksini tapırsa və öncə qeyd etdiyim qrafomaniya məmulatları ilə orta həddi və yüksək ədəbi meyarları özündə əks etdirən şeir kitablarına nəşriyyat hadisəsi və oxucu marağı kimi baxıram. Həm də bu şeirlərin müəyyən qismi mətbuatda, xüsusilə ədəbi orqanlarda dərc edilir.

Şeir kitabları çox nadir hallarda ədəbi hadisəyə çevrilir və 2017-ci ildə hələ ki, belə ədəbi hadisənin şahidi olmadım. Ancaq hər bir şeir kitabı səviyyəsindən asılı olmayaraq həm onların müəlliflərinə, həm də oxuculara sevinc bəxş edirsə, qoy çap işi dayanmasın, qoy nəşriyyatların dəyirmanları gecə-gündüz işləsin. Ona görə də biz 2017-ci ilin şeir mənzərəsini canlı proses kimi təsəvvür edirik, yəni yalnız 2017-ci ilin orijinal şeirləri haqqında söhbət açaq. Bu canlı prosesi izləmək üçün Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanları olan «Azərbaycan» və «Ulduz» jurnallarına, «Ədəbiyyat qəzeti»nə, həmçinin öz səhifələrində daim şeir dərc edən «525»ci qəzet»ə, «Ədalət» və «Kaspi» qəzetlərinə üz tutacayıq. Statistik mənzərə belədir: «Azərbaycan» jurnalı il ərzində 73 şairin şeirlərini çap edib, orta hesabla hər şeir 20 misradırsa, bu 14000 misra şeir deməkdir. «Ulduz» curnalında bir il ərzində 96 müəllifin şeirləri işıq üzü görüb, əksəriyyəti cavan şairlərdir, təxminən 12000 misra şeir bəzəyir «Ulduz»u. «Ədəbiyyat qəzeti»nə boylanıram. Bir-iki nömrəsi qoşalaşan qəzet 51 nömrəsinin hər birində orta hesabla 500, bəzən 600 misra şeir çap edir, təxminən 150-160 müəllifin 25000 misrası ilə qarşılaşıram. Mən «525-ci qəzet», «Kaspi» və «Ədalət» qəzetlərinin hər şənbə, hətta həftəiçi nömrələrində dərc edilən şeirlərini hesablamadım. Bu qəzetlərin içində «Kas-

pi» xüsusilə şeir çap eləməyə həvəslidir, «Ədalət» qəzeti də lap əzəldən şeirlə nəfəs alır, «525-ci qəzet» də həmçinin. Qeyd edim ki, şeir tərcümələrini bu statistikaya daxil eləmirəm.

Göründüyü kimi, statistik mənzərə kəmiyyət baxımından ürəkaçandır. Sovet dönəmindəki QLAVLİT qorxusu, nəşriyyatların illik çap planına düşüb-düşməmək ehtimalı yoxdur. Ancaq məni də, sizi də düşündürən bir suala cavab axtarıram – müasir Azərbaycan şeiri müasir Azərbaycan insanının estetik zövqünü, mənəvi tələbatını lazımınca ödəyə bilirmi? Füzulinin «Ver sözə ehya ki..» kəlamı, Nəsiminin «Dinləgil bu sözü kim, candır söz» həqiqəti bu gün reallaşa bilirmi? Gəlin, bədbinliyə qapılmayaq. İki səbəbdən nikbin olmağa əsas var. Birincisi; «Ot kökü üstə bitər» – müasir Azərbaycan şeiri öz kökündən – əsrlərin yaşarı ənənələrindən qətiyyən uzaqlaşmır və uzaqlaşa da bilməz. İkincisi: müasir Azərbaycan şeiri milli olduğu qədər də bəşəridir və dünya ədəbiyyatında baş verən proseslər – hər tövr yeni və modern meyllər, axınlar, cərəyanlar Azərbaycan şeirində nəşv-nüma tapır, bu modernizm, bu postmodernizm, bu dekadentizm, bu simvolizm. Buyur, istedadın varsa, ya da formalist məharətinə yiyələnmisənsə, hansı stildə, hansı vəzndə yazırsansa, yaz. Və çox maraqlıdır ki, bəzi istisnaları nəzərə almasaq, ötən illərdəki ənənəçilərlə novatorçuların «döyüşlərinə» də təsadüf etmirik. Çünki bir də görürsən, şeir aləminə qoşma və gəraylı ilə gələn cavan bir şair az sonra postmodern şeirlər yazır və ya əksinə, Qərb şeir modasına aludə olan birisi qoşmaya, cəraylıya, hətta təcnisə keçir. Ancaq bizi şeirin – bizim axtarışlarımızın məqsədi olan poeziya nümunələrinin hansı

vəzndə, hansı mövzuda yazılmasından asılı olmayaraq bədii keyfiyyəti düşündürür. 1965-ci ildə görkəmli tənqidçimiz Məmməd Arif Dadaşzadənin «Poeziya və keyfiyyət» məqaləsi bizim üçün heç də köhnəlməyib və o məqalədən bu mülahizələri xatırlatmaq istəyirik: "Poeziya və keyfiyyət. Bu sərlövhə çoxlarına qəribə görünə bilər. Doğrudan da, poeziya yüksək keyfiyyət" deyilmi? Poeziya dedikdə ədəbiyyatın, bədii yaradıcılığın, sənətin ən gözəl nümunəsi təsəvvür olunmurmu? Lakin nə edəsən ki, poeziya adı ilə bəzən zəif əsərlər meydana çıxır. Belə hallarda sənət pərisi və gözəlliyi üçün narahat olmağa başlayır, keyfiyyət qeydinə qalırsan. Bir də ki, indi bizdə keyfiyyət uğrunda mübarizə günün əsas şüarlarındandır».

«Keyfiyyət uğrunda mübarizə!» – bunu, qətiyyən yalnız «sovet şüarı» kimi qəbul eləmirik. Çünki həqiqi şeir özü elə keyfiyyət deməkdir. Obrazlı şeir, Azərbaycan dilinin gözəlliyini nümayiş etdirən şeir, orijinal bədii təsvir vasitələrinin zənginliyi ilə diqqəti cəlb edən şeir, hər cür əllaməçilikdən, mücərrədçilikdən uzaq olan şeir.

Sən Allah, bu gülü yasa aparma,
Bu gül ləçəyində başqa həyat gör,
Bu qızıl güllərdən mənə qanad hör,
Sən Allah, bu gülü yasa aparma.
Qızıl dan yerindən rəng alıb bu rəng,
Göylərdən nur alıb, günəşdən çələng.
Bu doğulmaq üçün, uçmaq üçündür
Qövsi-qüzeyləri qucmaq üçündür,
Sən Allah, bu gülü yasa aparma…
Bu ilahi güllər qırmızı donda

Mənim də sinəmdə bitmişdi onda –
O da ilk məhəbbət alovlarıydı.

Bu, 81 yaşlı Musa Yaqubun şeiridir. Onu izah eləməyə, oradakı məna incəliklərini, Azərbaycan şeirinə məxsus poetik ustalığı açıqlamağa ehtiyac varmı? Əsl poeziyadır. «Sən Allah, bu gülü yasa aparma!» – bu misra artıq bir kəlam, bir poetik ahəng kimi insanın iç dünyasına hopa bilər. Musa Yaqub haqqında hamımız deyirik ki, o, təbiət şairidir, Səməd Vurğunun, Hüseyn Arifin, Nəbi Xəzrinin, Qasım Qasımzadənin, Hüseyn Kürdoğlunun, Məmməd Aslanın hərarətlə vəsf elədiyi bu gözəllik dünyasının tərənnümçüsüdür. Ancaq o da var ki, Musa Yaqub təkcə təbiəti poeziyaya gətirmir, insanın içindəki təbiəti – eşqin, insanlığın gözəlliyini şeirə çevirir. Amma indi onun başqa bir şeirinə diqqət yetirin:

Bu dünya Kəbədən ibarətdisə,
Haqqa, ədalətə ibadətdisə,
Bir az sənin üçün savab toplayıb,
Sonra da Cənnətə ziyarətdisə –
Bu qədər hiylələr, fitnə-fəsadlar,
Bəs günahxanalar nədən ötrüdü?
Zorlar, zorxanalar, cəbbəxanalar,
Bu silahxanalar nədən ötrüdü –
Şeytanın gücünü bildirmək üçün?
Ancaq vurub-yıxıb öldürmək üçün?
Azadlıq nə gəzir bu yer üzündə…
Tanrım! Götür məni o maviliyə,
Mən də bir Ruh kimi özümü görüm –
Azadlıq nə gəzir bu yer üzündə.

Bir gözəllik və gül aşiqinin – qızıl dan aşiqinin poetik ahənginin birdən-birə dəyişməsi heç də təəccüblü deyil. «Gərçi-mühiti-əzəməm, adım Adamdır, adəməm, Tur ilə kün-fəkan mənəm, mən bu məkana sığmazam» misraları ilə «Yanaram eşqindən, axər gözlərimdən yaşlər, Firqətin dərdi çıxardı ürəyimdən başlər» misraları da eyni şairindir – Hürufi Nəsiminin və Aşiq Nəsiminin. Bizim böyük şairlərimiz həm gözəlliyi, eşqi vəsf ediblər, azadlığı, istiqlalı alqışlayıblar, həm də həyatdakı, cəmiyyətdəki, dünyadakı pisliklər lənətləyiblər..

Heç də düşünmürük ki, şeirimizin yaşlı nəsli – Nəriman Həsənzadə, Fikrət Qoca, Abbas Abdulla, Musa Yaqub, Məmməd İsmayıl, Əşrəf Veysəlli, İltifat Saleh, Vaqif Nəsib, Oqtay Rza, Yusif Həsənbəy, Firuzə Məmmədli, Kəmalə Ağayeva, Eyvaz Borçalı, Ramiz Məmmədzadə, Məmməd Kazım, Ənvər Əhməd, Ağasəfa Yəhyayev, Vahid Əziz, Ramiz Duyğun (mən bu sıraya Ramiz Rövşəni, Çingiz Əlioğlunu, Sabir Rüstəmxanlı da əlavə edirəm) bu gün sözlərini deyib qurtarmış şairlərdir. Əksinə, onlar yenə cavanlıq ehtirası və şövqü ilə yazıb-yaradırlar. 60-70-ci illərin Nəriman Həsənzadəsi yenə «ürək dililə» danışır, Fikrət Qoca yenə həyatın, bu böyük dünyanın gözəlliklərinə aşiq, mənfi hallarına dözümsüzdür. Firuzə Məmmədli qadın dünyasının zərifliyini, saflığını, kövrəkliyini, həm də milli-mənəvi sərvətlərimizi vəsf edir. Məmməd İsmayıl qürbətdə yaşasa da, bütün şeirlərində «Vətən» deyir. Vahid Əzizə sanki ikinci ilham gəlib, şeirlərinin ən gözəlini bu yaşda yazır. Çingiz Əlioğlu poetik axtarışlardan yorulmur, Sabir Rüstəmxanlı altmışıncı illərdə yazdığı «Vətən» şeirini «Vətən və Azadlıq» dastanına çevirir. Ramiz Röv-

şən hətta təzə şeir yazmasa da, həmişə oxucuların sevimli şairi olaraq qalır.

Bu günün – müasir Azərbaycan şeirinin yükü və ağırlığı, inkişaf və perspektivi «səksəninciləri», «doxsanıncıları» çiyninə düşür. Onlar bu missiyanın öhdəsindən gələ bilirlərmi? Hər halda, 2017-ci ilin şeir mənzərəsində bu suala cavab axtarırıq. O nəsildən üç istedadlı şairin – irfan düşüncəli Akif Səmədin və modernist Adil Mirseyidin, bu yaxınlarda isə Sabir Sarvanın ölümü bizdə təəssüf hissi doğurur, amma şükür ki, bu nəslin «yarpaq tökümü» hələ seyrəkdir, onların bir çoxu indi yaşlarının kamillik mərhələsinə çatıb. Hiss olunur ki, şeirimizin yeni bir mərhələyə – əvvəlki onilliklərdən fərqli bir özəlliyə malik olması məhz yaşları əlli-altmış çevrəsində olanların xidməti az deyil. Onlar şeirimizin yaşarı ənənələrindən qətiyyən üz çevirməyiblər, əksinə, bu ənənələri yeni ifadə tərzi, sözün rəngarəng çalarları, bədii təsvir vasitələri, dilin poetik imkanları ilə cilalayırlar. Zirəddin Qafarlı bir şeirində yazır ki: «Bu dünya Nizami dünyası imiş, Bu dünya Nəsimi dünyası imiş, Gör hara gəlmişəm ürək eyləyib!» – deməli, ənənəyə bağlılıq zəncirini qırmaq mümkün deyil. Amma ənənə deyəndə heç də heca vəzninə, qoşmaya, gəraylıya «sədaqət» hissindən söhbət getmir. Söhbət «köhnə havalarda» yeni notlar səsləndirməkdən gedir. Biz 2017-ci ilin şeir mənzərəsində ən gözəl qoşma, gəraylı, ümumiyyətlə, heca şeiri axtarışına çıxdıq və doğrudan da, sayı-hesabı bilinməyən o şeirlərin içərisində kəmiyyətcə az olsa da, XXI əsrin poetik təfəkküründü əks etdirən nümunələrlə də qarşılaşdıq. Vaqif Bəhmənli, Ramiz Qusarçaylı, Əcdər Ol, Ağacəfər Həsənli, Musa Ələkbərli, Adil Cəmil, Barat Vü-

sal, Əlizadə Nuri, Əlirza Həsrət,Nazim Əhmədli, Balayar Sadiq, İlham Qəhrəman, Əli Rza Xələfli,Asim Yadigar, İslam Sadıq, Fərqanə Mehdiyeva, Rəşad Məcid, Zakir Fəxri, Zakir Məmməd, Fəxrəddin Teyyub, Kəmaləddin Qədim, Məmməd Qədir, Ədalət Salman, Ağamir Cavad, Avdı Qoşqar, Yusif Nəğməkar, Əbülfət Mədətoğlu, Fəxri Uğurlu… Demək olar ki, cüzi yaş fərqini nəzərə almasaq, bir ədəbi nəslin nümayəndələridir bu şairlər və heca şeirinin müasir durumu ilə tanış olmaq üçün onların şeirlərini oxumaq kifayətdir. Bu şairlər sərbəst şeirlər də yazırlar, amma onlar heca şeiri üzərində köklənib lər. Çoxsayda misallar gətirməkdən imtina edirəm, yalnız Ramiz Qusarçaylının «Anama» şeirini misal gətirəcəyəm:

Ürəyim üstündə şam bənövşəsi,
Ayrı nəyim var ki yanası, anam.
Sənsən gülşənimin qəm bənövşəsi,
Sənsən göz yaşımın sonası, anam.

Ovunmaz bu dərdim hər simin üstə,
Qar üstdən qar yağır səbrimin üstə,
Elə ağlayardım qəbrinin üstə,
Qorxdum ki, uçular binası, anam.

Bu zalım fələyin üzü ağ olsun,
Dağı düzdə qalsın, düzü dağ olsun,
Sevməyən kim varsa, canı sağ olsun,
Məni sevənlərin anası, anam,
Sən ey göz yaşımın sonası, anam.

«Heca şeir, yoxsa sərbəst şeir» – bu yaxınlarda «Ədalət» qəzetində altı müəllifin (beşi şair, biri tənqidçi) iştirakı ilə keçirilən bir sorğunu izlədim. Sorğuda belə bir sual verilir: «Azərbaycan ədəbi mühitində sərbəst şeiri şeir hesab etməyən kifayət qədər şair, oxucu var. Onların içində həm də sərbəst şeir yazanlara nifrət var və mübarizə aparırlar. Sizcə, bunun səbəbi nədir?» – doğrusu, jurnalistin hazırladığı bu sual məni çox təəccübləndirdi. İndi hansı zamandı belə, şeirin iki vəznini iki qoç kimi üz-üzə gətirəsən? İndi hansı zamandı belə, deyəsən ki: «sərbəst şeir yazanlara nifrət var». Əlbəttə, şairlərin və oxucuların içində heca şeirini ya sərbəst şeiri bəyənməyənlər tapılar, ancaq adına ŞEİR dediyimiz ədəbiyyat üçün vəzn söhbəti çoxdan köhnəlib. Nazim Hikmət hansı bir müsahibəsində isə deyirdi ki: «Mən hecada da yazmışam, sərbəstdə də. Fərqinə varmamışam. İstəyirsən o şeiri dənizin dibində yaz, istəyirsən küləkli havalarda, istəyirsən qışda, istəyirsən baharda yaz, təki ortada ŞEİR olsun. Sözlərin yaratdığı gözəllik olsun».

Adını çəkdiyim sorğuda ən ağıllı cavabı və həm də ən xoşagəlməz cavabı poetik istedadına heç bir şübhə etmədiyim Aqşin Yenisey verir. Onun sözləridir: «Bu, bir zövq məsələsi olmaqdan ziyadə daha çox ustalıq məsələsidir. Heca şeirini xalqa sevdirən oynaq ritmlə yanaşı, onu ustacasına yazan şairlərin olmasıdır». Doğru cavabdır. Amma görün, Aqşin Yenisey sonra nə yazır: «Heca şeiri təbiətdən tam ayrılmamış, urbanizasiyaya az məruz qalmış, üsyan edəcək sosial problemləri kəskin olmayan insanların şeiridir. Təsadüfi deyil ki, heca şeiri Azərbaycanda içki məclislərinin bəzəyidir. Mən özüm də içdiyim dövrlərdə həmişə

hecada yazan şairlərimizin şeirlərini oxuyurdum». Belə çıxır ki, heca şeirini o adamlar sevir ki, onların sosial problemləri kəskin deyil və dərd-qəm başlarında tüğyan eləmir, içki məclislərində də durub heca vəznində şeir oxuyurlar. Məncə, ən azı altı yüz illik tarixi olan heca şeirini bu sayaq gözdən salmaq olmaz. Təbii ki, toyda da, ad günlərində də, içki məclislərində də şeir oxunur. Amma təkcə heca şeiri yox – qəzəl də oxunur, qoşma da, lap sərbəst şeir də. Ona görə də bu gün hansı vəzninsə irəlici olduğunu təyin eləməyə cəhd göstərmək bəsitlikdir. Təbii ki, heca şeirində müəyyən çərçivə, ölçü-biçi, şeir texnologiyasının əsrlərdən bəri sabitləşmiş qayda-qanunları, sərbəstdə isə fikrin, ifadənin, hətta qafiyənin çərçivəyə sığmayan normaları. Əlbəttə, hecada olduğu kimi sərbəst şeirdə də maraqlı nümunələr az deyil.

Hara getdim, dara düşdüm
Atamın ayaqları süründü arxamca
İndi
Atamın ayaqları Sibirdi
Özü kimi ayaqları da yuxusuz…
Üz sürtdüm ayaqlarına,
Qəlpə giziltisindən
Diksindi qulaqlarım.
Çəliyi ayaqlarına başdaşı Atam!
Səcdənə gəldim,
Ayaqlarını suya qoy.
Dirilik suyu kimi ayağının suyunu içim Atam oy!
Əlimdən nə gəlir daha
Ayaqlarımı verim, yeri, Atam!

Laylay atam, ayaqlarına laylay!
Ayaqlar yuxusuz, əlləri oyaq, ürəyi diridir! Pir atam!

(Əlisəmid Kür. «Atamın ayaqları»)

Sevgilər azalır yaman,
Ayrılıqlar çoxalır ölkədə.
Sevgilərin çoxu gedir Avropaya
Azı qalır ölkədə.
Məhkəmələr soyuda bilmir ayrılıqları,
Uşaqları bölə bilmir valideynlər,
Köçür Avropaya
Laylalar və nəğmələr.
Qızlar oğlanların qara telindən ayrılıb gedir,
Oğlanlar qızların çiçək əllərindən.
Əl daşınır,
Tel daşınır ölkədən.
Neft kimi
Azalır sevgilər.

(Qəşəm Nəcəfzadə)

Mən səni elə sevirdim, vətən,
Şəhid qəbirlərinə
qərənfillər düzülməmişdi.
Xocalı əsir düşməmişdi.
Mən səni elə sevirdim, vətən
Quşlar göy üzünü sevəntək.
Mən səni elə sevirdim, vətən,
Pioner balalırın gül daşıyırdı
Bolşeviklərin bəzəkli məzarına.
Proletar balaların inanırdı

Kommunizmin nağılına.
Bir də
səni o cürə sevməmək
o vaxt
Gəlməzdi heç kəsin ağlına.
Mən səni elə sevirdim, VƏTƏN
Çünki
sən
məndən çox,
özgənin idin
o vaxt

(Gülnarə Cəmaləddin)

Əlbəttə, bu gün həm heca, həm də sərbəst vəzndə yazılan külli miqdarda şeirlər içində bir şeir kimi yadda qalmayan, sadəcə, lap öncədən dediyim o qrafomaniya məmulatları az deyil. Bəzən unudulur ki, sərbəst şeirdə də ritm olmalıdır, obrazlı ifadələr işlənməlidir, sərbəst şeir adi danışıq səviyyəsinə endirilməməlidir, həmçinin şeirin yaraşığı olan qafiyəyə də yer verilməlidir. Mən 2017-ci ilin sərbəst şeirlərini diqqətlə nəzərdən keçirdim və şəxsən belə düşünürəm ki, bu günkü sərbəstçilər Rəsul Rza, Əli Kərim, Vaqif Səmədoğlu, İsa İsmayılzadə, Camal Yusifzadə, Tofiq Abdin, Abbas Abdulla, Vaqif Nəsib, Çingiz Əlioğlu, Vaqif Bayatlı kimi şeirin bu «ərazisində» təzə naxışlar, çalarlar yaratmağa can atırlar. Səlim Babullaoğlu, Dəyanət Osmanlı, Əhməd Qəşəmoğlu, Qəşəm Nəcəfzadə, Emin Piri, Ramil Əhməd, Rəfail Tağızadə, Mahirə Abdulla, Tahir Taisoğlu, Qismət, Aqşin Yenisey, Zahir Əzəmət, Narıngül sərbəst şeir məkanında məşhurlaşıblar.

Şeir haqqında, poeziya bərədə söz açırıqsa, ilk növbədə, istedad və onun şeirdə necə, hansı poetik vasitələrlə ifadə edilməsi bizi düşündürməlidir. Vaxtilə Belinski «Lermontovun şeirləri» adlı məqaləsində yazmışdı: «Poeziya həyatın ifadəsidir. Daha yaxşı deyilsə, həyatın özüdür. Hələ bu azdır, poeziyada həyat həyatın özündə olduğundan daha həyatidir. Poeziya təcrübədən keçmiş, sınanmış bir ruhun bütün qüvvətinə yiyələnmiş, həyat mübarizəsinə və qəhrəmanlığına hazır olan bir erkək qəlbinin qüvvətidir. Bütün dünya, bütün rənglər, səslər, təbiət və həyatın bütün formaları poeziyanın predmeti ola bilər. Lakin şair naturasının xüsusiyyəti nədədir? O, başqalarından nə ilə fərqlənir? Şair başqalarına görə daha dərin hiss etmək qabiliyyətinə malik olan, həm dərindən kədərlənməyi, həm də şadlanmağı bacaran bir naturadır. Yerin, göyün, təbiət və bəşər ruhunun sirlərini hər kəsdən əvvəl bilmək şairə məxsusdur. Harada ilham saxta deyildirsə, orada poeziya vardır və kimin naturasında həqiqi ilham varsa, şairdir».

Dahi rus tənqidçisinin bu fikirlərini xatırladıqca, nə heca şeiri, nə sərbəst şeir, nə əruz şeiri barədə düşünmürsən, ancaq istənilən bir vəzndə, istənilən bir formada yazılan şeirdə sənin yaddaşında yaşaya biləcək sözlər, misralar qalacaq. Bir anlığa lap yaxın keçmişi xatırlayaq. Azərbaycan poeziyasının bir sıra ən gözəl nümunələri altmışıncı, yetmişinci, səksəninci illərdə yaranmamışmı? İndi dimdiyindən sarılıq getməmiş bir-iki quşbala cavan şair Bəxtiyar Vahabzadəyə, Xəlil Rzaya, hətta Mirzə Ələkbər Sabirə, Səməd Vurğuna, Rəsul Rzaya yəni şeirimizi yaradan insanlara böhtanlar yağdırırsa, bunu anlamaq çətin… Keç-

mişi, yəni bizdən uzaqlaşan, artıq xatirəyə çevrilən yaxın keçmişi anmaq xoşdur və biz nə o keçmişdən, nə də o keçmişdə yaradılan gözəl şeirlərdən imtina edə bilmərik. Səməd Vurğunun «Azərbaycan», «Düşüncələr», «Şair, nə tez qocaldın sən?», «Mən tələsmirəm», «Dağlar», Süleyman Rüstəmin «Ana və poçtalyon», «Cənub şeirləri», qəzəlləri, Mikayıl Müşfiqin «Duyğu yarpaqları», «Oxu, tar», «Yenə o bağ olaydı», Rəsul Rzanın «Mən torpağam», «İnsan şəkli», «Rənglər» silsiləsi, Osman Sarıvəllinin «Gətir, oğlum, gətir», Əhməd Cəmilin «Can nənə, bir nağıl de», Bəxtiyar Vahabzadənin, Qabilin, Hüseyn Arifin, Qasım Qasımzadənin, Hüseyn Kürdoğlunun, Əliağa Kürçaylının, Balaş Azəroğlunun, Nigar Rəfibəylinin, Əli Kərimin, Cabir Novruzun, Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Məstan Günərin, Fikrət Sadığın, Sərdar Əsədin, Tofiq Bayramın, itkisi hələ də bizi göynədən Vaqif Səmədoğlunun, Zəlimxan Yaqubun, Ələkbər Salahzadənin, Məmməd Aslanın, Camal Yusifzadənin şeirlərinin illər boyu bizə aşıladığı o poetik sehirdən necə ayrıla bilərik? Görkəmli tənqidçi Yaşar Qarayev məqalələrinin birində yazırdı: «Yaddaşı olmayan ədəbiyyat – yalnız yaddaşı olmayan xalqın nəsibidir, siması olmayanın tarixi taleyi, zatı və nəsli, əsli və nəcabəti olmayanın alın yazısıdır. Ufiq, səma, göy-daş saxlamadığı kimi, mənəvi və əxlaqi boşluq da yaddaş saxlamır. Millətgenetik səviyyədə, yaddaş-ağrı səviyyəsində dərk olunmuş vəhdətdən və bütövlükdən başqa bir şey deyildir. Yalnız yaddaş olan yerdə sabitlik və tamlıq var, nəsillər və əsrlər, ilahi və bəşəri dəyərlər və sərvətlər arasında əlaqə və estafet var. Əslində, nəinki təbiət və insan, ekologiya və poeziya da yaddaşdır, həqiqi böyük poeziya – ümumbəşəri yad-

daşdır». Bu gün bəzi cavanların klassikləri anlamamaq, dərk etməmək gücsüzlüyünün, acizliyinin səbəbi məlumdur, klassikanı anlamaq müşküllüyü var ortada, amma Səməd Vurğunun, Rəsul Rzanın, Xəlil Rzanın, Bəxtiyar Vahabzadənin «inkarı» boş və mənasız təşəxxüsdən irəli gəlmirmi? Burada sözün əsl mənasında yaddaş itkisi baş verir.

Mətləbdən uzaqlaşmayaq. Öncədən belə bir sual vermişdik ki, 2017-ci ilin şeiri XXI əsr Azərbaycan insanının estetik zövqünü, tələbatını ödəyə bilirmi? Dünyaya, həyata, insana, təbiətə, gözəlliyə, real həyatda baş verən hadisələrə şeir necə reaksiya verir? Bir sözlə, şair və şeir bolluğunda boğuluruq, yoxsa şeir bizi bu mürəkkəb dünyanın qayğılarından xilas edir, yaşamağa, düşünməyə, sevməyə səsləyir? Həmin suallara cavab verməyin iki yolu var – ya biz 2017-ci ilin şeirlərini ənənəvi mövzuları üzrə izləməli, hər bir mövzuda yazılan uğurlu şeirləri nümunə göstərməli, sonra da bu mövzularda nəzərə çarpan qüsurları qeyd etməliyik, bir-iki kəlmə də sənətkarlıq məsələlərindən söz açmalıyıq – bu, birinci yol və deyim ki, illərdən bəri şeir təsərrüfatına belə bir baxış, rəhmətlik Aydın Məmmədov demiş, «mühasibat əməliyyatını» xatırladacaq. «Nə yaxşıdır, nə pisdir» prinsipi artıq ədəbi tənqidin köhnəlmiş iş metoduna qayıtmaq deməkdir. İkinci yol isə 2017-ci ilin şeirlərini ədəbi cərəyanlar üzrə təhlil etmək yoludur. Vaxtilə bizim tənqidçilərdən biri 1998-ci ildən sonra meydana çıxan poeziya nümunələrini milli realist şeir, simvolik şeir, modernist şeir və postmodernist şeir bölgüləri üzrə qruplaşdırmışdı və bəzi məqbul cəhətlərinə baxmayaraq, bu bölgü Azərbaycan poeziyasının müasir vəziyyətini heç də

düzgün əks etdirmədi. Çünki o şairlər ki, modernist şeir və postmodernist şeir bölgüsünə daxil edilmişdi (Qulu Ağsəs, Ağayar Şərif), bu ədəbi cərəyanların həmin şairlərin yaradıcılığına heç bir dəxli yox idi. Bizim poeziyada simvollar, rəmzlər istənilən qədərdir, lakin bunlar bütövlükdə «simvolik şeir» cərəyanını yaradırmı? Ona görə 2017-ci ilin şeirlərini müəyyən mövzular və ədəbi cərəyanlar üzrə deyil, bizi düşündürən bəzi problemlərlə bağlı gözdən keçirəcəyik.

Azərbaycan şeirinin milliliyi, özəl xüsusiyyətləri ilk növbədə müasir ədəbi dilimizdə öz əksini tapır. Əli Kərimin «Üçüncü atlı» poemasında rus şairi Lermontov deyir ki:

Bu şirin dilini yaratmış güman,
İlahi damağı çağ olan zaman.
Tar üstə, saz üstə bəsləmiş onu,
İlk dəfə avazla səsləmiş onu.
Bu dildə varlığın hər sədası var;
Bir neçə sait də düşməmiş kənar.
Nəinki hər səsi, hər yarım səsi,
Dinlə sədaların zərrəsini sən.
Bu dil təmizlikdə uşaq nəfəsi,
Gözəllik utanır bu incə dildən.

Dilimizin gözəlliyini, «nərmi-nazikliyini», qəlbimizin ən dəruni hisslərini ifadə etdiyini, kədərimizi, qəzəbimizi, harayımızı, fəryadımızı ilk növbədə, şeirimizdə, bədii sözümüzdə hiss edirik. Akademik Nizami Cəfərov yazır: «Məlum məsələdir ki, mükəmməl forma həllini tapa bilməyən poeziya əsl poeziya deyil – istər əruzda, istər hecada, istərsə də sərbəst şeirdə olsun. Şairə «belə yaz, elə yaz,

bu sözü, bu cümləni , bu təşbihi elə işlətmə, belə işlət» demək absurddur. Onu şair bilir, əgər bilmirsə, – demək, şair deyil. Ana dilinin keşiyində birinci növbədə məhz şairlər dururlar. Onlar ana dilini bir mərhələdən digər mərhələyə, bir dövrdən digər dövrə aparırlar – Nəsimi kimi, Füzuli kimi, Vaqif kimi, Səməd Vurğun kimi». Amma bunu da gizlətmək istəməzdik ki, şeirimizə də xeyli texniki, müxtəlif elmi terminlər axışıb gəlməkdədir. Şeirdə elmi terminlərin, söz və ifadələrin, riyaziyyata, fizikaya, həndəsəyə, mexanikaya aid kəlmələrin bədii təyin kimi, ya da guya mətləbə dəxli olan sözlər kimi işlənməsinin şahidi oluruq və bunların şeiri zəiflətdiyini görürük. Məsələn, gənc şair Aqşin Evrənin şeirlərində bu tipli sözlərə, ifadələrə rast gəlirik: «qövsvari dodaqların üfiqi uniforma geyinərək, yəni gülüşsüzlük erası» misralarında «qövsvari dodaq» ifadəsini anlamaq olar, bəs uniforma (mənası rəsmi paltar geymiş manec xidmətçisi) sözünü mütləq işlətmək lazım idimi? Yaxud elə həmin şairin bu misraları: «İndi bizim tale yolumuza enir zebr şlaqbaum. Şlaqbaumda canını tapşır ambulans duaları». Özünü bu cür zora salmağın bir mənası varmı? Çox təəssüf ki, dilimizdə bu tipli sözlərə, ifadələrə, əcaib terminlərə təkcə cavanların deyil, təcrübəli, artıq azçox özünü təsdiq etmiş yaşlı şairlərin də şeirlərində təsadüf edirik. Sanki bunlara etiraz kimi Firuzə Məmmədli «XXI əsr» şeirində yazır ki, «Uzaqgörən» ədəbiyyatşünasların fikrincə, «izm»lərdən sonra postinsan mərhələsi (cərəyan) başlanacaq. Əgər belə bir fəlakət baş verərsə, elə bilirəm ki, bu özünü öncə əsərin dil-üslubunda göstərəcəkdir». Baxın həmin şeirə:

Şizofrenik döyüşlər,
Postmodern söyüşlər.
Energetik görüşlər,
Diplomatik öpüşlər.
Ekstrasens xətalar,
İnnovasion ədalar.
Alternativ cərimələr,
Plüralist kəlmələr,
Monoqam dartışmalar,
Poliqon atışmalar.
Kosmodrom ölkələr,
İppodrom bölgələr.
Milli kamikadzelər,
Yarımmilli mazelər.
Eksperimental maraqlar,
Degenerativ yaraqlar.
Eksklüziv fərmanlar,
Kosmopolit dərmanlar.
Laminant göydələnlər,
Mobil çərən-pərənlər.
İnternet manqurtlar,
Supermarket anqutlar.
Tolerant teleekranlar,
Yevrovijin reklamlar.
Nə… Nə yaxşı yenə də
Astarı üz dünyadı.
Sirrində, sorağında
Gecə-gündüz dünyadı.

Bütün yaradıcılığı boyu şeirlərində bəlkə bir xarici terminə belə müraciət etməyən, həmişə dilimizin və dilçiliyimizin təəssübünü çəkən Firuzə xanımın narahatlığını

başa düşürük. Təbii ki, narahat olmağa dəyər. Bakıda oturub internet vasitəsilə Avropa mədəniyyətinə yiyələnmək ehtirasının zərəri göz qabağındadır. Amma Vətəndən çox-çox uzaqlarda yaşayan bizim ünlü şairimiz Məmməd İsmayıl heç bir təsirə, yabançı məlumatfüruşluğa qapılmayaraq Avropada da Azərbaycan şeirini yazır və onun şeirlərində dilimizin əzəli-əbədi saflığı da göz qabağındadır:

Ah, cavan vaxtlarım, cavan vaxtlarım,
Aynalara baxsam, xəbər-ətər yox.
Qocalan canımda gəncliyə yer yox,
Hardasan, mən səni harda axtarım?

Yaşın çoxdan keçib iki otuzu,
Bəlkə də iştahın iki əllidi.
Çöpləri boşalan kibrit qutusu,
Alışmaq adına boş təsəllidir.

Yazın gəlişinə əriyən qarmı,
Getsən də yolların mənzilə çıxmaz.
Əriyən qarlardan qalxan buxarmı?
Nə qədər bağırsan, səs zilə çıxmaz.

Ata yox, ana yox, bir oğlu birdin
Yorğunluq yolunu sarmış bu ömrün.
Sən otuz səkkizə çatmaz deyirdin,
Yetmiş səkkizi də varmış bu ömrün.

XXI əsr gəldi və şeirimizdə tale, ömür, xatirə, nostalgiya xətləri gücləndi, fərdi, subyektiv duyğular daha çox diqqət mərkəzinə çəkildi. Azərbaycan şeirində ömürnamələr, xatirə dəftərləri, tərcümeyi-hallardan gələn motivlər

poeziyada əvvəllər də mövcud idi, lakin yeni əsr bütün mürəkkəbliyi ilə insanı öz ömrü, keçmişi və indisi barədə düşünməyə sövq eləyir. Əlbəttə, bu düşüncələrdə təkcə keçmişi xatırlayıb pessimist xəyallara qapılmaq yoxdursa, keçmiş bu gün üçün xoş bir xatirə, yaşamağa stimuldursa, daha yaxşı.

Burada mübahisə doğura bilməyəcək bir məsələ barədə də söz açmaq istərdim. Bu da şeirdə «lirik mən» məsələsidir. Vaxtilə, sovet dönəmində «lirik mən» – yəni şairin öz aləmi mütləq cəmiyyətdə yaşayan insanlara da aid olmalı idi. «Mən» deyəndə «biz» nəzərdə tutulmalıydı və ədəbi tənqid də çox zaman şairdən bunu tələb edirdi. Amma eyni zamanda, bunun əksinə olaraq «lirik mən» yalnız şairin öz tərcümeyi-halına, şəxsiyyətinə də aid idi. Məsələn, Səməd Vurğunun «Şair, nə tez qocaldın sən» şeirində ifadə olunan fikirlər bir şair ömrünün bəlirtiləri idi, eləcə də «Mən tələsmirəm» şeiri. Amma «Düşüncələr» şeiri tənddiddə belə yozulurdu ki, burada şair təkcə özünü yox, ümumən bütün aqil, düşünən insanların, artıq müdriklik yaşına çatmış sovet filosofunun fikirlərini ifadə edir. Rəsul Rzanın şeirləri də bu iki münasibətin hədəfi idi. «Yazıq sənə, yazıq, Rəsul Rza» misrası dövr edən şeir yalnız Rəsul Rzaya, onun «lirik mən»inə aid edilirdisə, bir çox şeirləri «Mənə bir sərgi salonu verin», «Mən istəyirəm buludlar ağlasın, uşaqlar ağlamasın» şeirlərindəki fikirlər təkcə özünə yox, həm də ümumiyyətə şamil edilirdi. Belə misalların sayını yenə artırmaq olar. Əslində, tənqiddə belə bir «haçalanma» – ikili münasibət mənasız idi. Amma bu «xəstəlik» ayrı-ayrı ustad şairlərin fikri «münaqişələri»ndə də öz əksini tapırdı. Rəsul Rzanın məqalələr toplusunun

adı «Mənim fikrimcə», Məmməd Rahimin məqalələr toplusunun adı «Xalqın istəyincə» adlandırılmışdı. Bəs indi?

Nə əvvələm, nə indiyəm,
Səksənimin içindəyəm.
Axırıncı keçiddəyəm –
Keçidimi keçim gedim.
O bulaqdan çox içmişəm,
Bu çeşmədən içim gedim.
Bir sot biçin yerim qalıb,
Bu yeri də biçim gedim.

(Musa Yaqub)

Belə misalların sayını yüz qat artıra bilərik. Yəni «lirik mən» tənqidin bu birtərəfli sancmalarından xilas olur. Biz də məsələyə Vissarion Qriqoryeviç Belinskinin bu fikirləri ilə xitam verək: «Ürək orqanizmdən asılı olduğu kimi, yaradıcılıq da sənətkardan asılıdır. Şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun öz şəxsiyyətində ifadə olunan poetik ruhundadır. Şairin əsərlərinə valeh olan adamlar həmişə bu əsərlərdə nə isə özlərinə çoxdan tanış olan bir şey tapırlar, elə bir şey ki, bu onların özünündür».

2017-ci ilin şeirlərini bir başqa aspektdən nəzərdən keçirək. Bu da fərdi üslub məsələsidir. Məşhur bir kəlamı yada salaq: «Üslub – bütün üslubların yaddan çıxarılmasıdır». Əlbəttə, bizim müasir poeziyada öz fərdi deyim tərzi, başqa yazarlardan seçilən, fərqlənən, yalnız özünəməxsus poetik ləfzi ilə diqqəti cəlb edən şairlər az deyil. Müasir Azərbaycan şeiri bu mənada fərdi üslub rəngarəngliyi ilə diqqəti cəlb edir. Şair hansı mövzuda yazırsa-yazsın, onun

özünəməxsus SƏSİ, NƏFƏSİ elə şeirindəki ilk misrasından hiss edilməlidir.

Qız qalası
ölkəmizin daş bayrağı,
Əsrlərcə bayraqların salınmazı.
Əlincəmiz
Naxçıvanın baş bayrağı
Teymurlənglər ordusuyla alınmazı.

Bu son otuz ildə daha çox nəsr əsərləri yazan, amma arabir şairliyini də unutmayan və hələ altmışıncı illərin sonlarında "Tək bircə "Durna günü" şeirini yazsaydı, bu şeir ona şair deməyə yetərdi» tərifini unudulmaz Rəsul Rzadan eşidən Vaqif Nəsibin misralarıdır. Vaqif Nəsibin şeirlərində heca şeiri ilə sərbəst şeirin «qovuşması» kimi maraqlı bir proses diqqəti cəlb edir. Amma mahiyyət etibarilə, fərdi üslub baxımından o illərin Vaqif Nəsibi dəyişməyib.

Quşların cəh-cəhi sökür bağrını,
Qatır nəğməsinə ürək ağrını.
Sevdasız bir ömrün görüb axırını,
Baharda sevgisiz yaşamaq olmur.

Hər tərəf çiçəkdir, hər tərəf güldür,
Mehrinə ürək qıy, o gülü güldür.
İlahi, sən məni baharda öldür,
Baharda sevgisiz yaşamaq olmur!

Bu isə Musa Ələkbərlinin bir sevgi şeirindəndir. Hər gün onlarla sevgi şeirləri ilə qarşılaşırıq, ancaq görürsən ki, çox zaman hazır stereotiplər, şablonlar bizi məyus edir, nə qədər demək olar «Sevgidən ölürəm!» «Ağzımın içində dilim ağlayır», «Üzmə ürəyimi, gəl insaf elə», «Qarşında qul olum, əsir olum mən»… Amma nə yaxşı ki, insan münasibətlərinin bugünkü xaotik mənzərəsində Füzulidən gələn o ruh, o nəfəs hələ ki, sönməyib və Musa Ələkbərlinin indi də cavanlıq şövqü ilə yazdığı şeirlərində o ruhu, o nəfəsi hiss edirik.

Bu dağlarda ay işığı –
çəməni bürüyən şehdir,
Bir ahıl saçında gümüşü zehdir.
Bu dağlar ay işığında
Nəsildən-nəslə saflıq aparan
Yelkənli gəmidir.
Bu dağlar ay işığında
üz-gözü südə bulaşmış
körpə kimidir.

Bu isə Rəşad Məcidin şeiridir. Onun «Çiyələk qadın» və «Bir də gəlməyəcək» şeirlər kitabının böyük əksəriyyəti sevgi şeirlərindən ibarətdir. Amma mən onun bir təbiət şeirini seçdim, Bu şeiri R.Məcid sanki ay işığına tamaşa edərkən yazıb, elə onun sevgi şeirləri də ay işığına bələnib və Rəşad Məcidin fərdi üslubunu səciyyələndirən onun şeirlərindəki saf romantikadır.

Qartal yuvasıydı bizim zirvələr,
Əyilməz dağların əzmini gördüm.

Hayanı dolaşdım, hara baxdımsa,
Tanrının sehirli rəsmini gördüm.

Mən orda bilmişəm sözün tamını,
Şair eləmişdi dağlar hamını.
Məmmədin, Bəhmənin o ilhamını,
Şəmşirin hikmətli nəzmini gördüm.

Bu misraları isə Kəlbəcər həsrəti ilə alışıb-yanan Adil Cəmil qələmə alıb. Etiraf edək ki, doğma yurd həsrətini, Kəlbəcərsiz, Laçınsız, Qubadlısız yaşayan şairlərin içində Adil Cəmilin səsi-harayı heç kiminkinə bənzəmir. Adil Cəmilin «Qarabağ» şeirini xatırlayıram: «Qarabağ – qiyamətə qalan qisas. Sulanan sulux, Qurumayan göz yaşı, Bütün dərdlərimizin başı, Yaxud, ümidimizə başdaşı. Doğanaqdan keçməyən örkən, ya da uzanan sicim».

Bir dünyasan, səni sevmək,
Torpağı sevmək kimidi.
Su içib ürək dolusu,
Bulağı sevmək kimidi.

Bəni-adəmsən, ya mələk,
İcazə ver, dinə gələk,
Sən tək savabı sevməmək,
Günahı sevmək kimidi.

Nə şirinmiş eşq bulağı,
İçdikcə çoxalır yanğı.
Sənə hər gün yalvarmağım,
Sabahı sevmək kimidi.

Zülüm imiş işıq olmaq,
İşıqlanıb uşaq olmaq,
Vallah, sənə aşiq olmaq,
Allahı sevmək kimidi…

Bu şeirin müəllifi isə ədəbi aləmdə təzə-təzə məşhurlaşan, Xaçmazın Mürşüdoba kəndində müəllim işləyən Məmməd Qədirdir. Qoşmanın, gəraylının bu bürkülü bolluğunda onun hər şeirində beləcə təzəliklər görürəm.

Bu bənzərsizliklər seriyasını davam etdirib deyə biləräm ki, müxtəlif mövzulara müraciət etsə də, şeirlərində fəlsəfi notlara, həyatın, gerçəkliyin bilməcələrini «ahəng qanunu» ilə öyrənməyə can atan Əhməd Qəşəmoğlu da, təbiətə məxsus ayrı-ayrı predmetləri obraz kimi mənalandıran, «ağac-kitabxanaların» «sirrini» açan Ağacəfər Həsənli də, aşıq şeiri havasına bürünüb Yunis İmrə, Qaracaoğlan, Ələsgər həqiqətlərini müasir təfəkkür süzgəcindən keçirən Barat Vüsal da, İbrahim İlyaslı da fərdi üslubu ilə seçilən şairlərdir.

Haçandır canımdan durnalar uçur, –
Mənim ürəyimdə payızmış, Allah.
Hərdən bu dünyanı yadıma salan
Mənim unutduğum o qızmış, Allah.

Bu ömür karvanı köçünü çəkir,
Ölümdü-kəfənin ucunu çəkir.
…Gördüm ki, bir söyüd içini çəkir,
O da mənim kimi yalqızmış, Allah.

Hər gecə yuxuma baş çəkir adın,
Yanım, – bir az isin, üşüyən qadın!
..Çərpələng düzəltim, göyə uçmadı, –
Bu ömür islanmış kağızmış, Allah…

Bu isə Əlizadə Nurinin şeiridir. Metaforik təfəkkürlə aşılanan, yaxşı mənada «söz oyunu»nun bariz ifadəsi olan bir şeir. Hansı şeirini oxusan, Əlizadənin orijinal təşbihləri, metaforaları ilə qarşılaşarsan. Məncə, Salam Sarvandan sonra şeirimizdə bu orijinallığı qoruyub saxlayan şairlərdən biri də Əlizadə Nuridir.

Yenə də bu bənzərsizliklər seriyasını davam etdirib artıq öz fərdi üslubu ilə diqqəti cəlb edən – son illərdə sonetlər çələngi ilə bu poetik formanı «milliləşdirən» Balayar Sadiqin, daha çox «köhnə havalarda» təzə notlar səsləndirməyə can atan Zirəddin Qafarlının, İslam Sadıqın, İlham Qəhrəmanın, Məcnun Göyçəlinin, Əlirza Həsrətin, Sakit İlkinin şeirlərində də fərdiliyi, bənzərsizliyi hiss eləmək çətin deyil. Lirik qəhrəmanın idraki çırpıntıları, emosional həyəcanlar, psixoloji sarsıntıları əks olunan şeirlərdən söhbət düşsə, Tərlan Əbilovun, Hüseyn Bağıroğlunun, İnqilab İsaqın artıq yetkin şair kimi formalaşdığını görürük.

Poeziyada fərdi üslubla bağlı söhbəti uzatmayıb bir başqa məsələyə də münasibətimi bildirmək istəyirəm. Musa Ələkbərli «Yaddan çıxır Qarabağ» adlı bir şeir yazıb, deyir ki: «Aman Allah, yaddan çıxır Qarabağ». Təbii ki, daha çox öz şair dostlarına müraciət edir. Əlbəttə, bu fikrə bir kimsə haqq qazandıra bilər.. Doğrudanmı, son illərdə, elə 2017-ci ildə də əvvəlki illərlə müqayisədə şeirimizdə

Qarabağ havası çatışmır? Doxsanıncı illərdə Qabilin, Məmməd Arazın, Cabir Novruzun, Nəbi Xəzrinin, Hüseyn Kürdoğlunun, Ələkbər Salahzadənin, Zəlimxan Yaqubun, Nurəngiz Günün Qarabağ harayı, döyüş çağırışları indi niyə səslənməsin? Amma hər vaxtın, zamanın öz şeiri olur. Vaxtilə Qabil «Çadırlara alışmayın», «Mərsiyə», şeirlərini, «Ümid sənədir ancaq, Azərbaycan əsgəri» çağırışını səsləndirmişdi, Məmməd Araz «Ayağa dur, Azərbaycan» deyirdi. Çadır düşərgələrində yaşayan, yaşayan yox, zülm çəkən soydaşlarımızın ağır vəziyyətini, yurd həsrətini mərhum şairlərimiz – Vahid Əlifoğlu «Bakıdan baxanda çadır görünmür» və Mətləb Misir «Çadır rəngləri» şeir silsilələrində ürək ağrısı ilə qələmə almışdılar. Amma indi Azərbaycan ordusu xeyli güclənib, düşmən belə bir ordunun qarşısında tab gətirə bilməz və bunu 2016-cı ilin Aprel döyüşləri də təsdiq etdi, sadəcə olaraq Ali Baş Komandanın bir əmri kifayətdir ki, torpaqlarımızı işğaldan azad edək. Çadır düşərgələri də neçə ildir ki, ləğv olunub. Amma bir milyon soydaşımız səbirsizliklə doğma yurd-yuvalarına qayıtmaq həsrətini yaşayırlar. Təbii ki, Qarabağ mövzusu şeirimizdə yenə səslənməkdədir və bu mövzuda ən çox yazıb-yaradan Ramiz Duyğunla, Ənvər Əhmədlə, Rəfail Tağızadə ilə yanaşı, neçə şairimizin də adını çəkə bilərik. Gizlətməyək ki, Qarabağ mövzusunda əvvəllər olduğu kimi, 2017-ci ildə də zəif və bəsit şeirlər çap olunub. Əlbəttə, istər zəif, istər ortabab, istərsə də həqiqi olsun, Qarabağdan söz açan şeirlərin Qarabağa məhəbbətdən doğduğuna heç bir şübhə ola bilməz. Ancaq poeziya təkcə məhəbbət üstündə qurulmur, poeziyanın öz qanunları var və bu qanunlar mövcud olmasaydı, Füzuli ilə onun yaşadığı

əsrdə onlarla nəzmkarın, Mirzə Ələkbər Sabirlə adi bir həcv yazanın fərqi bilinməzdi. İstərdik ki, Qarabağa həsr olunan şeirlərdə şablonlar, artıq qulaqları döyənək eləyən sözlər, ifadələr, epitetlər olmasın. Nisə Bəyimin bir şeirindən bu misraları misal gətirirəm:

Vətən göylərində şəhid tabutları uçur
sevgi qanadlarında…
Addımlayan xatirələr
cəbhəboyu döyüşlərdə ön sırada yeriyir,
zəfərlərdən zəfərlərə çağırıştək
inam kimi, uğur kimi
qalib kimi yürüyür…

2017-ci ilin, həm də ümumiyyətlə son illərin şeirləri haqqında bu yazıda bir neçə mətləbi də nəzərə çarpdırmaq istəyirəm.

1. Son illərin (ümumiyyətlə, ikimininci illərin) Azərbaycan şeiri ötən onilliklərlə müqayisədə hansı poetik axtarışları ilə diqqəti cəlb edir? Bu suala birmənalı belə cavab vermək olar: axtarışlar var, şairlər yeni əsrin insanını, onun mənəvi dünyasını əks etdirmək üçün yeni bədii üçüllara müraciət edirlər. Şeirimizdə bədii təsvir arsenalı güclənməkdədir. Deyək ki, altmış-yetmişinci illərdə Əli Kərimin, Vaqif Səmədoğlunun, İsa İsmayılzadənin, Ələkbər Salahzadənin şeirlərində işlətdiyi və çox zaman formalist şairlərin tənqidində lağa qoyulan təşbihlər, metaforaları xatırlayaq: «sevgi toranı», «ölüm sözünün polyar qışı», «boynuna qol salıram saatımın, otururam ömrümün bir parçasının kölgəsində» (Əli Kərim), «Bakıda bir boxça var, adı – İçəri şəhər», «Sərçələrin soyuq hamamı», «or-

qan dənizi» (İsa İsmayılzadə). İndi bu tipli o qədər bədii təsvir vasitələri işlənilir ki, kimsə bunların fərqinə varmır. Özü də yeni təşbihlər, metaforalar var ki, onların əksəriyyəti doğrudan da göz oxşayır. Və fikirləşirsən ki, bunlar altmışıncı illərdə yaransaydı, mütləq kötək tənqidinə düçar olardı. İndi uğurludu, ya uğursuzdu, baxın: «Tək qalsan otaqda, götür şam yandır, qaranlıq otaqda şam da adamdır» (Ay Bəniz Əliyar), «Bu tapmaca sərçə məndən böyükdü, Tutub dimdiyində bulud çörəyi» (Qəşəm Nəcəfzadə), «Dağılıb göylərə əlçim buludlar, Günəş yun əyirən cəhrə kimidir» (Əlirza Həsrət), «Bu gün şəhərdə şeirimi gördüm, su içirdi, siqaret çəkirdi, ağac sulayırdı körpə bir qızın ürəyində» (Zahir Əzəmət), «Gedir bir qadın, bətnində körpəsi, kürəyində ayağını itirmiş əri» (Ramil Əhməd), «Hər əsgər tabutu, bir ağ gəlinliklə köçər. Əsgər deyil, sevən qızın arzularını götürüb gedər hər atılan güllə» (Emin Piri), «Sənə sarı dartılmaqdan tikə-tikə olmuşam. Bədənim ki, uçuşan məktub parçalarıdı» (Şəhriyar del Gerani). «Vaxt qapını döyür əski əlifbayla. Üzünə Allahın təbəssümü düşməyən sözlər küçənin ortasında cırır yaxasını» (Balayar Sadiq), «Külək buludları kart kimi qarışdırır. Vicvicə keçir gölməçələrdən, suların üzü qırışır» (Qismət) və onlarla belə misallar gətirmək olar. Əgər bunların bir qismi şeirdə doğrudan da mənanı qüvvətləndirirsə, çox yaxşı, yox əgər şairin «söz oyunu»ndan doğursa, heç bir məna ifadə etmirsə, çox pis.

2. Lakin şeirdə bədii təsvir vasitələrinin rəngarəngliyi, təzə və orijinal təşbihlərin, metaforaların bolluğu heç də o demək deyil ki, müasir Azərbaycan şeiri sənətkarlıq, forma-məzmun vəhdəti baxımından narahatlığa heç bir əsas

yaratmır. Belə düşünsək, özümüzü aldatmış olarıq. Şeirimizdə hələ də ötən əyyamların miras qalan və deyək ki, artıq poetik sanbalını itirmiş ifadələr, təşbihlər, epitetlər işlənməkdədir. Əlbəttə, bunlar eyni tərzlə, eyni üsulla bir şairdən digərinə, bir şeirdən başqasına ötürülür. Məsələn, «dağ» deyəndə mütləq «vüqar» təyini işlənməlidir, Azərbaycanı vəsf edəndə mütləq Koroğlu, Nəbi, Nigar və digər tarixi şəxslər yada salınmalıdır, bahara həsr olunan şeirlərdə «gül gülü, bülbül bülbülü» çağırmalıdır və s. Hər il küllü miqdarda qoşma, gəraylı yazılır və bu şeir formalarında bir-birini təkrar edən və məzmunca da, forma baxımından da bir-birindən seçilməyən nümunələrlə qarşılaşırıq. Təkcə qoşmadamı, gəraylıdamı, heca şeirindəmi, yox, sərbəst şeir adıyla çap olunan yazılarda da eyni vəziyyəti müşahidə etmək olar. Son illərdə «sərbəst şeir axını» gözəçarpacaq dərəcədə güclənib. Bunu şərtləndirən amillər fikrimizcə 90-cı illərdə Qərb poeziyasının təsiriylə yaranan meyillərlə və ən başlıcası, sərbəst şeir poetikasına kifayət qədər bələdliyin olmamasıyla bağlıdır. Unudulur ki, sərbəst şeir o müəlliflərin düşündüyü kimi anarxiya, başlı-başına buraxılmış sərbəstlik deyildir. Sərbəst şeir daxili ritm və intonasiyadan, misralararası möhkəm və davamlı fikir ardıcıllığından məhrum olursa, o, heç cür sərbəst şeir olmur, sadəcə, söz yığını təsiri bağışlayır.

3. Keçək şeirin məzmun planına. Bu gün istənilən Azərbaycan şairi istənilən mövzuda şeir yaza bilər və artıq QLAVLİT qadağaları olmadığına görə istənilən mətbuatda da şeir çap elətdirə, istənilən nəşriyyatda da şeir kitabı işıq üzü görə bilər. Yazımızın əvvəlində qeyd etmişdik ki, 2017-ci ilin şeirlərindən söz açanda, bu şeirləri mövzular

üzrə nəzərdən keçirməyəcəyik. Lakin vədimizə xilaf çıxıb, belə bir təşəbbüsdə olsaq, bir «tanış mənzərə» ilə qarşılaşarıq. Yazılan şeirlərin mənim hesablamama görə altmış faizi sevgidəndir. Sonra gəlir lirik mənin-şairin etirafları, onun daxili düşüncələrinin ifadəsi olan, dünya ilə, yaşadığı mühitlə, cəmiyyətlə bağlı fikirləri (əsasən şikayətlər və etiraflar), sonra gəlir gənclik illərinin xatirələri (əsasən də nostalji notlar), sonra gəlir ithaflar, sonra gəlir vətənpərvərlik və Qarabağ mövzusu, bir az da təbiət şeirləri. Şeirizdə bəzi istisnaları nəzərə almasaq, fəlsəfi ruh, fəlsəfi düşüncə arealı zəifləməkdədir. Əvəzində isə publisistika müasir şeirin vücudunu sarmaqdadır. Təbii ki, XXI əsrin həm milli, həm də bəşəri duyğularla nəfəs alan İNSANI şeirin əsas qəhrəmanına çevrilməlidir, yəni bu insan nə düşünür, təkcə sevgi iləmi nəfəs alır, təkcə günün reallıqlarınımı, narazılıq və şikayətlərinimi şeirdə səsləndirməlidir? Vaxtilə Səməd vurğun deyirdi ki: «Niyə şeirimizin baş qəhrəmanı, gah İrandan gəlir, gah da Turandan, Bəs mənim ölkəmin varlığı hanı?» İndi şairlərimiz İrandan da yazırlar, Turandan da, Azərbaycandan da, Amerikadan da, Avropadan da, amma biz əksər hallarda XXI əsr Azərbaycan insanının öz obrazını şeirlərimizdə görə bilmirik.

2017-ci ilin şeirləri haqqında söhbəti heç də bədbin notlarla bitirmək istəmirəm. Xalq şairi Fikrət Qocanın keçən il «Azərbaycan» jurnalında çap olunmuş «Dağınıq duyğular» poemasının son misraları ilə sözümü sona yetirirəm:

Uğrunda ölüb-dirilmişik.
Azadlığın dadını

Hələ indi bilmişik,
Bir də ölən deyilik!!!
Biz hamımız bir canda
Bütöv Azərbaycanda
Yaşamağa gəlmişik!

Bəli, 2017-ci il Azərbaycan şeirinin real mənzərəsi və əsas idealları bunlardan ibarətdir.

Esmira FUAD
Filologiya üzrə fəlsəfə doktoru

2017-Cİ İLİN EPİK ŞEİRİ: TƏNƏZZÜL, YOXSA İNKİŞAF?

Ötən ilin ədəbi məhsullarına nəzər saldıqda, çağdaş dövr Azərbaycan ədəbiyyatının janr zənginliyini və epik şeir mənzərəsini yaradan nəşrlərdən biri kimi AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin (18 oktyabr 2016-cı il tarixli 11 saylı qərarı) tövsiyəsi və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq plyus" Yaradıcılıq Birliyinin rəyi ilə nəşr olunmuş "Biz də varıq" toplusunu qeyd edə bilərik. Topluda AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarında çalışan, eyni zamanda həm də bədii yaradıcılıqla məşğul olan əməkdaşların əsərləri yer alıb. Həmin nümunələr arasında Şakir Albalıyevin "Durğu işarəsiyəm", Sevil Mehdiyeva-Nurəlibəylinin "Yenə o bağ olaydı..." və Fəridə Hicranın "Xocalı sülh istəyir" miniatür poeması da vardır. Bu epik şeir örnəkəri ilə tanışlıq göstərdi ki, "elmi axtarışları ilə yanaşı, bədii yaradıcılığı üçün də Akademiya mühitində lazımi şərait tapa bilən yaradıcı şəxsiyyət daha böyük nəfəs genişliyi və mənəvi rahatlıqla yaşayıb-yaratmaq imkanı qazanır. Elmdə müşahidə edib tədqiqat əsərlərində yaza bilmədiklərini bədii əsərləri ilə əks etdirən yaradıcı simalar özlərini tam ifadə etmiş olurlar. Belə geniş masştablı "tam özünüifadə-etmədən" elmə daha çox, amma ədəbiyyata da heç də ondan az olmayan pay düşür. Burada qətiyyən itki yoxdur. Əksinə, qoşa qanadın hər iki tərəfi "tam özünüifadəetmə-

dən" özünə çatacaq payı götürə bilir və zənginləşir".[1] Akademik İ.Həbibbəylinin topluya yazdığı ön sözdə vurğuladığı bu "tam özünüifadəetmə" Şakir Albalıyevin "Durğu işarəsiyəm" adlı modern poemasında daha aydın müşahidə olunur. Poemada dilimizdə bol-bol işlədilən durğu işarələrinə alim-şair yanaşmasının, "lirik mən"in öz-özünə ünvanladığı suallara dərin məntiqə söykənən bitkin cavablarının və çıxarılan fəlsəfi nəticələrin şahidi oluruq. Müəllifə görə, bizi çevrələyən yaşam müstəvisində hər şeyin batinində bir sual durur və həmin sualdan yeni suallar doğulur. Beləliklə, İnsanın içi ilə dış dünyasının, könlü ilə çöhrəsinin özü də bir suala dönüşür. Gəldiyi sonucla bağlı düşünməyə dəyər Şakirin: "Ey insan, hər iki cismani və mənəvi dünyamızın əksi budur: Sual içində sual! Görk üçün ibrət götür, cavab al! Bax ki, şələ çəkib yük götürəni sual görkəminə salıb, düz qamətini dəvənin belinə, əlif qəddini dal hərfinə çevirən bu dünya nə demək istəyir?! Bir damladan, bir nöqtədən başlayan canlı həyatın, yaşanmış röya olan dünyanın mahiyyətinin çuval dolu yükünü daşıyan canlı sualın-İnsan taleyinin sonu da – Amansız əbədi sual və... bir tapmacadır!.."

Nə yazıq ki, bu sualın dəqiq bir cavabı hələ ki yoxdur... Ancaq yenə də o, "lirik mən"ə ünvanladığı saysız-hesabsız sualların mahiyyətinə varır, iç qatlarına baş vurur. Beləliklə, bu elmi dərketmə elmi idrakın poeziyasının yaranmasına və ədəbiyyatda inikasına gətirib çıxarır. Bu "fərqli baxış, fərqli yanaşma" durğu işarələrinə ədəbiyyat-

[1] Biz də varıq. Şeirlər toplusu. Bakı, "Avropa nəşriyyatı", 2017, 386s., s.6.

da yeni anlam qazandırır, onların durğu deyil, duyğu işarələri kimi özəlliklərini açır, vergülün, qoşa nöqtənin, apostrof, vurğu, sual, nida işarələrinin məna çalarlarını yaradır. Şakir durğu işarələrini həyatın hər üzünü ifadə etmək gücünə malik vurğu//duyğu işarəsi, bəxtə-taleyə istixarə, fal//sual kitabı kimi xarakterizə edir, qoşa nöqtəni siyasi boyasız, hiyləsiz-riyasız, könül dünyası apaydın oxunan dupduru gözlərinə, nidanı zəriflik timsalı incə bədənə, düz qamətə, həyəcan siqnalına, sual işarəsini üstünə ələnən hər dərdi çəkməkdən bükülmüş belə, vergülü isə doğulan körpəyə, gülə-buta-sevgiliyə bənzətməsi poetik tapıntıdır:

Düşdüm nöqtə kimi ana bətninə,
Vergül tək anadan gəldim dünyaya,
İşarə-mənalar vergülün özü,
Vergül görünüşcə bənzər butaya!
Vergül tək dünyaya gələn körpəni,
Tanrı bu dünyaya verdi gül kimi.
Sözdə, ya cümlədə bir vergül olcaq,
Davamı məntiqlə tamamlanmalı!
Vergül görkəmində doğulan uşaq,
Ağlayır: dünyaya yarımçıq gəlib,
Anlayır: vergüldə məna yarımçıq!
"Ver gülümü!" – deyə uca Tanrıdan
İstəyir özünə buta-vergülün,
Olsun göbəkkəsmə buta vergili!..[1]

Düşünürəm ki, kifayət qədər uğurlu alınan bu əsər ədəbiyyat tariximizdə öz yerini tutacaq və dəyişməz möv-

[1] Biz də varıq, s.318-319.

qeyini qoruyub saxlayacaqdır. Ancaq bu fikirləri nə S.M.Nurəliyevanın "Yenə o bağ olaydı" adlı böyük həcmli poemasına, nə də Tahirə Məğrurun ayrıca kitabçalarda çap edilmiş "Atatürk dastanı"[1] və "Öndər yolu"[2] poemalarına şamil edə bilmirik. Sevil xanım ölməz M.Müşfiqin eyni adlı şeirinə nəzirə olaraq yazdığı və toplunun 25 səhifəsində yayımlanan "Yenə o bağ olaydı" poemasında ötən günlərin nostalgiyasını yaradır, ancaq xatirələrini, nostalji duyğularını, artıq keçmişdə qalmış əlçatmaz gözəl çağlara olan dibsiz həsrətini o səviyyədə ifadə etməkdə çətiinlik çəkir. Sevil xanım M.Müşfiqin üslubunu, yazı tərzini, şeir şəklini olduğu kimi saxlasa da, yığcam bir şeirdəki yüksək poetikliyi, dərin məna və lirikanı böyük həcmli bu poemada yarada bilmir. Tahirə Məğrur isə "Atatürk dastanı" və "Öndər yolu" poemalarında çağının iki qüdrətli şəxsiyyətini, tarixə öz parlaq səhifələrini yazmış öndərləri, ölməz Atatürkü və Heydər Əliyevi yetərincə təqdim edə, parlaq obrazlarını yaratmağa nail ola bilmir. Bu poemalar zəmanəsinin iki dahisinə, liderlərinə müəllifin böyük sevgisindən yaransa da, janrın tələbləri qarşısında gücsüz qalır.

Şair Balayar Sadiq son çağlar poema janrına sıx-sıx müraciət edən şairlərimizdəndir. "Ömrün gəraylı çağları"[3] kitabında altı poemasını oxuduğumuz müəllifin 2017-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "Qızlbaş fəsli"[4] poemasının da vətənpərvərlik duyğularından, milli təəs-

[1] Tahirə Məğrur. Atatürk dastanı. Bakı, "Elm və təhsil", 2017, 56 s.
[2] Tahirə Məğrur. Öndər yolu. Bakı, "Elm və təhsil", 2017, 56 s.
[3] Balayar Sadiq. Ömrün gəraylı çağları. Bakı, MBM, 2014.
[4] Balayar Sadiq. Qızlbaş fəsli. "Ədəbiyyat qəzeti", 2017, 04 noyabr, s.30.

sübkeşlik ruhundan doğulduğu şəksizdir. Janrın tələbləri əsasən gözlənilən, proloqla başlayıb epiloqla bitən, ənənəvi heca qəlibində, dördlüklər şəklində və irfani təfəkkürün işığında qələmə alınan əsər ancaq həcm etibarilə ənənəvilikdən çıxır və belə demək mümkündür ki, Güney və Quzey ədəbiyyatında son çağlar dəbə düşən miniatür poemaların sırasını zənginləşdirir. Şeir və poemalarında tarixi keçmişimizə bağlılıq, unutqanlığa etiraz, milli kimlik, dəyərlərimizə sahiblik duyğusunun azalması, yaralı milli yaddaşımızın get-gedə daha çox korşalması və s. kimi məsələlərə önəm verən şairin "Qızlbaş fəsli" poemasında da bu ana xəttə sadiqlik nümayiş olunur. Poemanı oxuyub başa çatdıranda içimdə bir dilək boy verdi: Kaş bədii dili, məcazlar sistemi mükəmməl olan bu əsərdə bitkin bir süjet xətti də olaydı!.. İkicə beytə nəzər salmaqla, söylədiklərimizin öz təsdiqini tapdığını müşahidə etmiş olarıq:

Gəl, Pir-i mürşidim, pir məqamıdı,
Alnından gün doğur pir olanların.
Könlümün içində söz gülümsəyir,
Yağır misralardan sirr narın-narın.

Qızılbaş çölləri alın yazımdı,
Qoxla bu yazıda iman ətrini.
Haqq öz dərgahına özü qaldırıb,
Sevgi bayrağı tək sənin xətrini[1].

[1] Balayar Sadiq. Qızlbaş fəsli. "Ədəbiyyat qəzeti", 2017, 04 noyabr, s.30.

Miniatür poemada "Ömrünün təbəssüm gününün itkin düşməsi, qızılbaş kimi səbrin çiliklənməsi, alnındakı qara yazının üşüməsi, sözün başına üzərlik çevirmək, göz yaşlarında zamanı güzgüləndirmək, həqiqətlərin alnına qar yağdırmaq, fələyin güzgüsünü gözündən düşürmək, arzuların gözünü aydın etmək, dilin çiçək dərməsi, səbrin heyrətdən qaşını çatması, döyüş meydanında ömürdaşıyla əcəl çiçəyini dərmək" və s. kimi təşbeh və metaforaları, irfan dünyasından təlmihləri belə rahatlıqla yaradan Balayar Sadiq kaş əsəri məntiqə söykənərək qurmayıb, Şah İsmayıl Xətayini necə varsa, təsvir edə, bitkin obrazını yarada, qızılbaşlığın mahiyyətini açа biləydi!..

Çağdaş Güney Azərbaycan şairi Hüseyn Düzgünün "Şeyx Məhəmməd Xiyabani"[1] adlı ayrı-ayrı dörd poemasında və Güneydə çağdaş dövr uşaq ədəbiyyatının banisi Səməd Behrəngiyə həsr elədiyi eyni adlı poemada mütəfəkkir tarixi şəxsiyyətin və böyük yazarın doğuluşundan ölümünədək, həyatının bütün səhifələrinə işıq saldığı kimi!.. Bu cür bütövlük, tarixi şəxsiyyətin ömür səhifələrinin, yaşamının tam mənzərəsi, əlbəttə, həm də vahid süjet xəttinin bitkinliyi və dinamik bütövlüyü hesabına gerçəkləşir. Bir də davamlı mütaliənin, şəxsiyyətin həyatını ən incə məqamlarınadək öyrənməsinin sayəsində...

Yurdumuzun gözləri ilə odlar, alovlar götürmüş döyüşçü qızı – Qarabağ faciəsinin canlı şahidi və iştirakçısı olan və bu faciənin qanlı hekayətini, müharibənin gerçəklərini qələmə alan Fəridə Hicranın "Xocalı sülh istəyir" miniatür poeması bu ədalətsiz savaş zamanı çəkdiyi acıla-

[1] http://www.duzgun.ir/turk

rın, iztirabların bədii-poetik ifadəsi kimi dərk edilir. Adı çəkilən epik şeir nümunəsində xanım yazar təəssübkeş soydaşlarını varından yox edən, ürəklərə talan salan milli dərdlərimizin, Qarabağ müharibəsinin bir halqası olan Xocalının işğalı – bir gecənin içində bir şəhərin yer üzündən silinməsi hadisəsini, xalqın işğaldan sonrakı çətindən-çətin yaşayışını, maddi və mənəvi sıxıntılarını, düşmənə qarşı hiddət duyğularını, bütün bunlara rəğmən insanların sülh, əmin-amanlıq və sakit həyat arzularını kifayət qədər özündə əks etdirir. "Xocalı sülh istəyir" miniatür poemasını janrın bütün tələblərinə cavab verən mükəmməl süjetli lirika örnəyi kimi təqdim etmək fikrində deyiləm, amma altını cızaraq qeyd edirəm ki, bu əsər yurdumuzu kənd-kənd, şəhər-şəhər talan edən, millətimizi soy qırğınına uğradan, var-dövlətini çapıb talayan, uşaqlarımızın, analarımızın, qız və gəlinlərimizin ləyaqətini murdar ayaqları altında tapdalayan erməni cəlladlarının vəhşiliyini bir növ bədii detallarla sənədləşdirir, hadisələrin "Qarabağda talan var" kitabında yazmağa başladığı tarixi salnaməsinin davamı kimi diqqəti çəkir. Fəridə Hicranın indiki və gələcək nəsillərə mesajları da ibrətamizdir: "Bu müharibəni törədən insan cəlladları, bu illər ərzində rəhbərlikdə olan siyasi xadimlər əzilən və qırılan xalq qarşısında, bu xalqın həyatına yazdıqları qanlı tarix qarşısında cavabdehdirlər. Ermənilərin Azərbaycan xalqına vurduğu yaraları, tarixdə analoqu olmayan cinayətlərini, riyakarlığı, Qan yaddaşımızı heç kim unutmamalı, günahsız Şəhidlərimizin qanrı yerdə qalmamalıdır!"[1]

[1] Fəridə Hicran. Qarabağda talan var. Bakı, 2017, s.6.

Yapon yazıçısı Abe Kobonun sürrealist aləmin dəhşətləri, insanın azadlıqdan məhrum edilib cansıxıcı və məhvedici məkana məhkum edilməsi, belə şəraitə düşmüş adamların iztirabları, tükürpədici səhnələri canlandırılan.[1] "Qumsallıqdakı qadın" adlı romanında "Bir entomoloq elmi işi ilə bağlı qumsallıqda yerləşən ucqar bir kəndə gedir. Kənddə gündəlik müşahidələri zamanı görür ki, sakinlər səhər obaşdannan gecəyədək dənizin sahilində dalğaların yaratdığı qum topalarını dağıdır, evlərin divarları ətrafına yığılmış qumu təmizləyib kənara süpürürlər. Axır ki, bir gün dözməyib soruşur: "Hər gün gündoğandan günbatanacan qum dağıdırsız, bütün ömrünüz belə keçir, bezmirsiz?" Kəndlilər cavab verirlər: – Qumu dağıtmasaq, kənd tamamilə batıb yox olar. Entomoloq-qumsallıq həşəratlarını öyrənməyə gələn alim təkrar soruşur: "Niyə başqa yerə köç etmirsiz?" Kəndlilər sadəcə bir söz: "Vətən!" deyirlər[2].

Bu missiyanı çağımızın əyalət şairi *Sabir Arazlı Özgün* bədii yaradıcılığında, həm də son illər bir-birinin ardınca yazdığı və 2017-ci ildə çap olunmuş 4 cildlik "Əsərləri"nin II və III cildinə daxil edilmiş silsilə poemalarında yerinə yetirməyə səy göstərir... O, Füzuli rayonundan pərvazlanan, bu gün Haramı düzündə müvəqqəti sığınacaq tapan və hər gün, hər saat ana yurdun düşmən əlindən, erməni tapdağından azad ediləcəyini gözləyən, əsla dədə-baba əmanəti – Vətəni-ana torpağını qoyub getməyi düşünməyən bir qələm adamı, istedadlı şairdir.

[1] Telman Orucov. Orta əsrlər Yaponiyasına səyahət. "525-ci qəzet", 2010, 6 may, s.6.

[2] https://yapon.az/2015/05/17/qumluqdaki-qadin-1962/

S.A.Özgünün Azərbaycan ədəbiyyatında təbiət şairi kimi tanınan, sevda ağacında yuva quran quşların nəğməsini duyan, bütün hüznlü havaların dərdini anlayan, şeir yazmaq üçün mahiyyət qədər görüntünü də mütləq sayan Musa Yaquba həsr etdiyi üç poemanın yer aldığı "Bizdən salam olsun Musa Yaquba" adlı kitabının girişini "7777 Ər Koroğluluq – əsillikdir; qəhrəmanlıq rəmzidir. 7 nemət ağzımızın dadı-tamı, bərəkətdir, ruzidir. 7 rənglə gözəlləşən dünyada, 7 səs anamın layla dilidir. Yaşasın Yurdumuz, Qorqud elimiz, çin olsun arzumuz, çünki ilimiz, "Musa Yaqub–77" ilidir"[1] epiqrafı ilə başlaması təsadüfi xarakter daşımır. Musa Yaqub capcanlı, orijinal, sözü hər zaman üçün dipdiri, dupduru olan şairlərimizdən, şəhərdəki ədəbi mühitin qaynarlığını ləngərli şəkildə əyalətə daşıyan və bardaş qurub öz kəhkəşanında şahanə tavrıyla əyləşən, xalqının ruhunu, doğma İsmayıllının ab-havasını poeziyaya cəsarətlə, bənzərsiz lirik ovqatda gətirən qələm sahibidir. İsmayıllıdan Bakıya köçərkən Musa Yaquba yolun kənarındakı qaratikan kolu "getmə" deyərək əlindən-ətəyindən yapışıb. İllər ötüb, zaman keçib, şair geri, o qaratikan kolunun bitdiyi rayona – ata ocağına qayıdıb və hər kəsin bildiyi mutlu bir şair ömrü yaşayıb... Kimliyini və zəngin irsini tanıyıb sevən Özgünün şairə üç poema həsr etməsi məncə bu nədənlərlə, həm də doğma İsmayıllını Vətənləşdirməyi bacarması ilə bağlıdır. "Aylı bir gecədə yazılan məktub", "Musa Yaqub, səndən məktub almışam" və "Qırx ildir yol gələn görüş" adlı üç poemadan oluşan

[1] Sabir Arazlı Özgün. Bizdən salam olsun Musa Yaquba. Bakı, "Təknur", 2017, s.2.

bu silsilə maraqlı, düşündürücü bir proloqla-harayla başlayır!...

Eheey, Millət, kimsə yoxmu?!
Boğuluram, kömək edin!
Dalğalar durub qəsdimə,
Dağlar yeriyir üstümə,
Sıxılıram, kömək edin![1]

Bu sujet-səhnəcik öz axarıyla davam edir. Sonda haraya səs verənlər tapılır: "Yetdik, qardaş, ver əlini!", – deyə köməyə gəlir insanlar... Ancaq məlum olur ki, kömək istəyənin nə əli var, nə də ayaqları, – onlar qarı düşmənin yağmaladığı Qarabağda qalıb. Özü isə "bu dünyanın göyərməyən qara daşı"na ilişib qalıb, yoxsa, Milləti ağuşuna alan sel elə onu da ağzına alıb aparardı. Adamlar heyrət içində, çaşqındırlar: "Sənə necə kömək edək?!" Bu suala və kömək etmək istəyində bulunanlara şairin, lirik qəhrəmanın cavabı çox sadə və düşündürücüdür.

Elə isə... kəsin selin qabağını,
Qoy əvvəlcə sel dayansın.
Mən heç... artıq keçib məndən,
Kəsin selin qabağını-məndən öncə,
Qoy əvvəlcə... sel aparan El dayansın![2]

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, s.352, 528 s.
[2] Yenə orada, s.354, 528 s.

Məcazların hansı anlamı daşıdığı artıq bəllidir: 1. Bu sel zaman-zaman kükrəyən, qarşısına çıxanı qabağına qatıb aparan, aşıb-daşaraq çayı məcrasından çıxaran bir vəhşətdir. Bu sel "Dənizdən-dənizə" iddiası ilə Qarabağımızı zəbt edən, qara donlu qarı düşmənlərimizin, ermənilərin mənfur əməllərinin anlamını ifadə edir. Bu sel 1988-ci ildə təzədən coşdu və əvvəlcə Qərbi Azərbaycandan, sonra isə Dağlıq Qarabağdan, onun bir neçə ətraf rayonundan türksoylu əhalini zor tətbiq edərək, xüsusilə, havadarlarına güvənərək kürləşən və dinc, köməksiz insanları vəhşicəsinə qətlə yetirən, yarımcan vəziyyətdə qabağına qataraq aparan bir seldir. Bu sel bir milyondan artıq insanı doğma yurd-yuvasından didərgin saldı. Təbii ki, içimizdəki bir sıra satqınların quyruq bulaması da öz işini gördü. 2. "Bu selin tən ortasında göyərməyən qara daş" var, – "Musa Yaqub daşı" – Əsərin müəllifinin isti ocağını tərk edərkən güvəndiyi, ümidlə üz tutduğu köklü bir ünvan...

Gözümə-könlümə çökəndə zülmət,
Qətiyyətlə qərar verdim nəhayət:
Musa Yaqub Vətən oldu mənimçün.[1]

Silsilə poemaların əsas qayəsi, başlıca məramı da əslində elə budur: Vətənləşmək! Yurdlaşmaq! S.A.Özgünə hərbi vətənpərvərlik mövzusu çox doğmadır. Əzəmətli, sarsılmaz milli ruh bu mövzuda yazdığı əsərlərin ana xəttini təşkil edir. Hərbi vətənpərvərlik, Qarabağ müharibəsi, Vətənin mərd, cəsur oğul və qızlarının qutsüal yurd uğrun-

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, s.362.

da savaşda göstərdiyi igidlik və şücaət onun bədii və publisistik yazılarının, eləcə də poemalarının əsas leytmotividir. Yazıçılar Birliyinin "Yaddaş" Milli mükafatına layiq görülmüş "Dar çadır dərd dadır" poemasında[1] 1993-cü ildən sonra yurd-yuvalarını tərk edib el-obasından perik düşən məcburi köçkünlərin dözülməz həyat tərzi öz əksini tapmışdır. Əslində didərginliyin elegiyası kimi qavranılan bu poemada hər şeyi əlindən çıxmış, mal-mülkünü, doğmalarını itirmiş köçkünlərin çəkdiyi zillət, ələm, həlli görünməyən çarəsizlik halları o qədər içdən və dəqiq təsvir edilir ki, bütövlükdə bu mənzərələr onları yaradan müəllifin xalqın dərd şairi olduğunun göstərgəsinə çevrilir. Eyni zamanda S.A.Özgünün həm də bir rəssam-şair olduğunu təsdiqləyir, çünki "o, şeir yazmır, dərdin şəklini çəkir", – "Dar çadır dərd dadır" əsərində çadır sitəmlərinin şəklini çəkdiyi kimi:

Qaçqın bir kümə tikdi,
Köksündə qəmə tikdi.
Tikmədi ürəyincə,
Zamanın hökmü tikdi.

"Mənim ayaqlarım kəndimdə qaldı; Sürüyüb gətdilər kəndimdən məni. Çürüdüb apararlar kəndimə məni" misralarını, "Çadırın dar kölgəsi"nə sığınan qələm adamlarına xitabən "Şairi didərgin olmaz millətin!" hökmünün hələlik havadan asılı qaldığına vaysınan şairin kədər və qəm notlarına köklənmiş şeirlərini oxuyanların onu daha çox dərd-

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, 528s., s.123-148.

ələm şairi kimi səciyyələndirməsi ilə razılaşmayan jurnalist Hacı Məmmədov S.A.Özgünü "O, eyni zamanda lirik şair, bədii-fəlsəfi əsərlər müəllifidir. Ən ümdəsi isə... vətənpərvər şairdir..." kimi dəyərləndirir.

"El dərdi" əsəri poema-elegiyadır və müəllif 1948-53-cü illərdə Mərkəzi Komitənin qərarı ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın köçürülmə məsələsini qabardır. Sadə və yurda bağlı insanların qapısına qıfıl vurub gəldiyi evlərinin açarlarını əziz bir əmanət kimi saxlamasını essevari formada xarakterik detal və təfərrüat kimi ipə-sapa düzür:

Dərd... olmaz!
Mərd gəlsin, namərd... olmaz!
Çarəsi var hər dərdin,
El dərdi tək dərd olmaz...[1]

AÇAR-lar durna qatarı kimi göyün üzündə rəqs edir. Onların çingiltisi ürəkləri didib-parçalayır, qəlblərə öləsiyə kədər çökdürür. İnsanlar bu çingiltili səsə də ümidlə baxır, toxtaqlıq tapırlar. Dərəçiçək mahalında neçə el qərib qaldı, – deyən müəllif yer-yurd adlarını sadalamaqla belə, didərgin soydaşlarına və özünə bir növ təsəlli vermiş olur...

El dərdi, xalqın tarixin ayrı-ayrı mərhələlərində yaşadığı faciələr Güney şairlərinin poema yaradıcılığına da təsirsiz qalmır. Onlar bu acı qədəri, faciələri zaman-zaman əsərlərinin baş mövzusuna çevirirlər. Çağdaş dövr Güney Azərbaycanın qüdrətli şairlərindən biri olan Saleh Səcca-

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, s.354.

dinin "Dan yolu" poemasında Təbrizin tarixi vərəqlənir, hicri qəməri tarixlə 1055-ci ildə şəhərdə baş verən zəlzələnin müsibətləri, amansız təbiət hadisəsindən sonra hökm sürən aclıq və səfalət, qıtlıqdan qırılan insanların ürəkdağlayan faciəsi, ölüm vəhşəti, ən təsirlisi isə zəlzələnin gətirdiyi aclıq nəticəsində dünyadan köçən insanların içərisində daha çox uşağın, körpələrin olması, aclıqdan insanların bir-birinin ətini yeməsi kimi dəhşətli hadisələr təsvir edilir. Əsərin bir hissəsi zəlzələdən sonra yaranmış qıtlıq zamanı uşaqların çoxunun acından ölməsi, çarəsiz qalan insanların qəhri və yaşanan vəhşətə həsr olunur. Böyük şair Qətran Təbrizinin də şahidi olduğu və o vəhşətə məşhur bir qəsidə yazaraq:

Tanrının bəlası Təbrizə gəldi,
Fələk nemətini tükətdi, aman,
Eniş-yoxuş yerlərini dəyişdi,
Aran dağa çıxdı, dağ oldu aran,[1] –

deyə gördüklərini nəzmə çəkməyə çalışdığı faciəyə S.Səccadinin el arasında deyilənlərə və tarixi mənbələrə istinadən yazdığı izahdan aydın olur ki, aclıqdan dünyasını dəyişmiş həmin uşaqları indi Təbrizdə tikilən "Taliqani" məktəbinin yerindəki məzarlıqda dəfn edibmişlər. Qıtlıq dövrü bitəndən sonra, balasını itirmiş analar o qəbristanlığa aş//şorba bişirib gətirər, ancaq övladlarına yedirə bilmədiklərindən ağı deyə-deyə məzarların üzərinəcə töküb ge-

[1] Saleh Səccadi. Dan yolu. Kərəc şəhəri, Şani yayın evi, I çap, 2017-ci ilin payızı, 260 s., s.52.

dərmişlər. Elə buna görə də həmin məzarlığa "Aş tökülən qəbristanlıq" deyərmişlər.

Ana, üşüyürəm, eşik soyuxdi!
Bas məni bağrına, soyux dəyməsin,
Mənə aş ver ana! Öldüm acından,
Bağla köynəyimin açıx düyməsin.

Ana, da ağlama, mənə nağıl de!
Bir nağıl denən ki, heç kim deməyib.
Canavar acınnan keçi nənənin –
Yazıq balaların tutub yeməyib... [1]

Qeyd etdiyimiz kimi, S.A.Özgünün dinamik inkişaf tempi izlənən poema yaradıcılığının əsasını hərbi vətənpərvərlik mövzusu təşkil edir. O, Qarabağ müharibəsində sinəsini sipər edən oğul və qızlarımızın rəşadətindən, sevinc və kədərindən, Azərbaycanımızın başının bəlasından bəhs edən 10-dan çox poema yazmışdır. Ən ümdəsi, maraqlı cəhəti isə odur ki, bu əsərlərin biri digərini əsla təkrarlamır, mövzu poemadan-poemaya yeni axarda davam etdirilir... Bu fakt istər-istəməz mənə Azərbaycan ədəbiyyatı və mətbuatı sahəsində uzun illər aktiv və səmərəli fəaliyyət göstərən dissident şair Cavad Cavadlının sürgün və mühacirət mövzusunda qələmə aldığı "Qazaxıstan kitabı" silsiləsindən "Ata yurdu", "Canlı şəhidlər", "Zindandan məktublar, zindana məktublar", "XX əsrin dərdi", "Sürgündə gördüyüm analar", "Acı nağıl", "Ana ölümü",

[1] Saleh Səccadi. Dan yolu. Kərəc şəhəri, Şani yayın evi, I çap, 2017-ci ilin payızı, 260 s., s.51.

"Qeyrət", "Məsmə xala", "İtkin bacılar" və "Düşmən iti" adlı on poemasını xatırlatdı. Akademik İsa Həbibbəylinin "C.Cavadlının "sürgünün bədii-fəlsəfi mahiyyətini daha dərindən açmaq, müşahidə etdiyi həyat hadisələrini və insan talelərini bütün təfərrüatı ilə ədəbiyyata gətirmək üçün qələmə aldığı bu poemalar 37-ci ildəki Azərbaycan kəndində gedən prosesləri, sürgünə aparan əzablı yolların dastanını, sürgün həyatının dəhşətlərini, ibrət dərslərini real şəkildə, yaddaqalan hadisələrin və oxşar taleli insanların timsalında əks etdirir"[1] – dəyərləndirməsini eynilə on şəhidimizə ədəbi və əbədi heykəl yonan S.A.Özgünün Qarabağ müharibəsi və didərginlik mövzusunda yazdığı silsilə poemalarına da şamil etmək olar.

S.A.Özgün Azərbaycan Pespublikası Milli Qəhrəmanları Tanıtma İctimai birliyinin üzvüdür, ona görə də milli qəhrəmanlarımızın ömür yoluna yaxından bələddir. O, bu adın şərəfli sahiblərinə – Koroğlu Rəhimova "Qartal baxışlı cəngavər", Elxan Zülfüqarova "Qırxıncı aşırım", Nazim Quliyevə "Rəşadət təranəsi", Salatın Əsgərovaya "Bənövşə bitmir payızda", Tofiq Hüseynova "Xocalının Mixaylosu", "Ömürdən uzun gecə", Tahir Bağırova "Söydəmir kəhərin kişnərtisi", eləcə də Şəmkirin ilk şəhidi, Əfqanıstan döyüşlərində də şücaət göstərmiş Xaqani İbrahimova və Pespublika prokurorluq orqanları əməkdaşları arasında ilkə imza atan, yəni Sumqayıt şəhər prokuroru vəzifəsində işləyərkən öz ərizəsi ilə işdən çıxıb könüllü döyüş meydanlarına atılan Ağababa Quliyevə "Topçu Ağababa

[1] İ.Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman, Əsərləri, 10 cilddə, II c. Bakı, "Elm və təhsil", 2017, s.746, 1068 s.

əfsanəsi", Qarabağ müharibəsində göstərdikləri misilsiz rəşadət və igidlikər , həmçinin Macarıstanda ləyaqət cəzası çəkən Ramil Səfərova "Qəzəb baltasıyla çərtilmiş hikkə" adlı poemalar həsr edərək möhtəşəm salnamə yaratmışdır. O, "Qırxıncı aşırım" poemasında yazır:

Bu Vətən hərarəti, Ürəyi, canı olan,
Borçalıdan, Bakıya, İrəvandan Xəzərə,
Kərkükdən Dərbəndəcən
Azərbaycanı olan,
"Bu qisas yerdə qalmaz!"
Deyib qarı düşməndən
Hayıf alan, öc alan...
Savaş meydanlarında
Kəfəni qanı olan...
Elxan-Milli qəhrəman![1]

Elxan Zülfüqarova həsr etdiyi "Qırxıncı aşırım" poemasında olduğu kimi, milli qəhrəman Şükür Həmidov haqqıda yazdığı "Polkovnik, siz kimsiniz?" əsərində də qəhrəmanın diqqətçəkən obrazını yaratmağa müvəffəq olur, onun şücaətlərinə, çağdaş dövrün də bəlası olan müharibələrdə, eləcə də Qarabağ savaşında Şükür, Elxan kimi ölümün gözünə dik baxan igidlərin Vətənin azadlığı naminə hər bir fədakarlığa hazır olduqlarına oxucunu inandırır. Şükür Həmidovu "qılıncı sıyrılı sərkərdəm, məğrurum, sərvərim, comərdim, Çəncəm, Bakım, Baş Yurdum mənim – Milli qəhrəmanım", – deyib öyən şair Azərbaycan əsgə-

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, s.477, 528 s.

rini Vətənin hüdudları qədər geniş və parlaq sferada görür, qəhrəmanlığın, igidliyin parıltısını yaradır, milli qəhrəman adını obrazlaşdırır, sonucda özü də Vətənləşməyi bacarır, hər bir igidin özü boyda Vətən olduğunu hayqırır!..

Azərbaycan anası pak, qəlbi kövrək, həlim təbiətli olmasına rəğmən, həm də bir Tomris, düşmənə qan qusduran dişi Aslan – Asenadır. Birinci Qarabağ müharibəsində də kifayət qədər igid qızlarımız, qadınlarımız silaha sarılmış, öz ərləri, ata və qardaşları ilə bərabər erməni vandallarına qarşı mərdliklə vuruşmuş, yaxud yaralı əsgərlərimizə tibbi yardım göstərmişlər. S.A.Özgün mərd Azərbaycan qadınını qutsal varlıq, Vətənin şərəfi-şanı, baş tacı sanır. Göstərir ki, hər qadın da qılınc tək sıyrılıb silaha sarıla bilməz!

"Bənövşə bitmir payızda" poemasında Salatın Əsgərova haqqında xüsusi bir məhəbbətlə söz açan şairə görə, o, təkcə jurnalist deyildi, əzmkarlığı, qorxmazlığı, cəsarəti və qılınc kimi kəskin sözü ilə örnək bir döyüşçü idi... Qarabağın ən qaynar nöqtələrinə gedir, səngərlərdə olur, isti-isti reportajlar hazırlayır və bu məqamlarda bəzən erməni faşistləri ilə üz-üzə də gəlirdi. "Qönçə-qönçə arzuları açılmamış, istəkləri pərvazlanıb uçmamış" Salatının taleyinə vaysınsa da, onunla qürur duyur S.A.Özgün:

Baş əymədin haqsızlığa, zillətə
Həcər, Tavat kimi gəldin qeyrətə.
Layiq oldun bu fəxrə, şərafətə.
Sən zillətlə barışmadın, Salatın![1]

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, III c. Bakı, "Gənclik", 2017, 503 s., s.161-162.

O, poemada "Nədir qəhrəmanlıq? – sualının da dəqiq cavabını axtarır. Böyük Səməd Vurğunun təbirincə: "Bəzən dilsiz bir vüqarla qılınc çəkir qəhrəmanlıq..." Filosoflardan biri isə bu məfhumu: "Qəhrəmanlıq – insanın öz nisbi, qeyri-kamil, sonlu, ölümlü imkanlarından kənara çıxması, onların üzərində yüksəlməsidir" – kimi şərh edir... S.Arazlının qənaətincə isə:

Qəhrəmanlıq – Dilim-dilim, şölə-şölə
Kükrəyən səs, çoşan səs.
Qəhrəmanlıq – Hər cınqısı,
Dan yerini nurlandıran
Günəş kimi... müqəddəs!
Qəhrəmanlıq – Ölümsüzlük,
Əbədiyyət, həyatdır,
Qəhrəmanlıq – Məslək haqqı,
Ana haqqı həyatda!..[1]

Elə isə bəs müharibənin özü nədir? Hansı situasiyada, kimlər qan və ölüm qoxuyan bu meydana gözünü belə qırpmadan atıla bilər? S.A.Özgün "Xocalının "Mixaylo"su" poemasının proloqunda bu sualın da orijinal cavabını verir:

Müharibə...
Bu meydana atılanın ürəyində cəfakeşlik,
Varlığında qürur, inam,

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, III c. Bakı, "Gənclik", 2017, 503 s., s.187.

Səbr, dözüm, rişə gərək!
Müharibə meydanına atılan kəs
"Ya... ZÜLM, ya.. AZADLIQ"
Təndirində bişə gərək![1]

Əsərin qəhrəmanı Xocalının və bütün Azərbaycanın mərdi Tofiq Hüseynov da Xocalının alovlar içində yanaraq kül olmasını öz gözlərilə görür, tək-tənha düşmən üzərinə gedir, son anda cəngavər Mehdi Hüseynzadənin Hitler Almaniyasının ölkələr fəth etmiş qüdrətli ordusunu və faşizmin daşıyıcılarını heyrətə salan qəhrəmanlığını təkrarlayır. Real hadisə və olayların şahidliyi ilə qələmə alınan poemanın sujet xətti kifayət qədər maraqlı, təhkiyə üsulu diqqətçəkəndir.

Kaftarlar get-gedə yaxınlaşırdı,
Axın çoxalırdı, dağ-daş aşırdı.
...Tofiq də qəzəbdən, bu an qəflətən
Yatmış aslan kimi nərə çəkərək
Çırpdı qumbaranı öndəki daşa...
Çırpdı ki, qan üçün susayanların
Topası alova, oda tutuşa![2]

Döyüş meydanlarında bu təpərdə igidlərimiz vuruşsalar da, min təəssüflər ki, torpaqlarımızın 20 faizi qəsb edilib və bu amansız işğal faktı günümüzədək dəyişməz olaraq qalır. Bu işğalın gerçəkləşməsində, ulu yurdun dilbər

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, III c. Bakı, "Gənclik", 2017, 503 s., s.201-202.
[2] Yenə orada, s.208.

guşəsinin əsarət altına düşməsində, heç şübhəsiz, o vaxtlar ölkəyə rəhbərlik edən səriştəsiz başçıların, daxildə, orduda olan satqınların da rolu az olmayıb. Müəllif cəbhə bölgəsində yaşadığına görə bəzi məqamların şahidi olmuş və məhz həmin şahidlik "Topçu Ağababa əfsanəsi" poemasında bu ağrılı misraların yazılmasını şərtləndirmişdir:

İlahi bu nədir?!..
Bu... ola bilməz!
Ordu bu cür geri çəkilə bilməz!
Bu qədər nahaq qan tökülə bilməz!
Millətin çiynində fərarilikdən,
Satqınlıqdan ağır yük ola bilməz![1]

Bu mənada "Ağdam agrısı" poeması olduqca xarakterikdir. Çünki Ağdam istehkam idi. Mete xan haqqında söylənilən rəvayətdəki əsas məqam, heç şübhəsiz, hər birimizin yadındadır. Atını, baş hərəmini tələb edən düşmənə peşkəs edən şah bir ovuc vətən torpağından keçmir və o qəhrəman Mete xan savaş meydanına atılır. Özgün həmin anı belə poetikləşdirir: "At da, hərəm də mənim idi – verdim, torpaq Xalqındı! Qeyrəti olan insan torpaq satarmı?!" Ancaq Uluyurdumuzda bu günün reallığı bambaşqadır: 20 faiz yurd yerlərimiz düşmənin əlində, neçə-neçə qız-gəlinimiz, lay-divar oğullarımız, zülm və məşəqqətlərlə keçən 26 il ərzində sağ qalmağı bacaran ata-analarımız erməni əsirliyindədir. S.A.Özgünün bu misraları yazarkən keçirdiyi ürək ağrısı anlaşılandır:

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, III c. Bakı, "Gənclik", 2017, 503 s., s.268.

Pak, məsum bir gözəl düşmən əlində,
Köməksiz qalanda, gücsüz qalanda,
Hardasa qeyrətdən danışılanda
Bizdə utanmağa sifət gərəkdir.
Erməni adlanan kinli toxumu
Rəzildən də rəzil bilməkdən ötrü
Bizlərdə ən azı nifrət gərəkdir.
O qeyrət yoxdursa damarımızda,
Bizdə qan almağa, qisas almağa
Cəsarət yoxdursa damarımızda,
Şəksiz, əl-qol açar o haramzada![1]

Ancaq bu Xalq heç vaxt ruhdan düşməyib. İdeal uğrunda mübarizə aparmağın vacibliyini anlayıb. Bu gün də anlayır və inanır ki, torpaq, Vətən təəssübü çəkən övladlarımız olub, var və sabah da olacaqdır... Və təbii, kim ki, millətinin, yurdunun qeyrətini çəkir, xalqımız o adı daim hörmətlə çəkib böyük ehtiramla yad edəcəkdir... Bu xalq inanır ki, Aprel döyüşlərində olduğu kimi, zəfər çalmağa qadir müzəffər Ordumuz, Ali Baş komandanımız var:

Eheey! Ey möcüzəm – Ağ atlı oğlan,
Eheey! Savalanda yatan igidim,
Ümidim – oyan!
Oyan ki, bəşəri bürüyər bu qan.
Sıyır qılıncını, qalx bədöy ata,
Yetişsin bu millət arzu-murada.

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, IIIc. Bakı, "Gənclik", 2017, 503s., s.240.

Bir dəli nərə çək, başlansın cəng!
Gey dəmir libasını, qurtar bu el yasını![1]

S.A.Özgünün istər hərbi vətənpərvərlik, istərsə də digər mövzularda yazdığı poemaları rəngarəng, hərtərəfli, əhatəli, məna və məzmunca yekdildir...

İllərdən bəri içində azadlıq, istiqlal arzuları boğulub qalmış Güney şairləri Quzey Azərbaycanın bir sıra rayonlarının işğalçı Ermənistan dövləti tərəfindən ələ keçirilməsinə, xalqın düşmən əsarətində olan Qarabağ dərdinə laqeyd qalmır, bunu bütöv Azərbaycanın dərdi, problemi kimi qəbul edir və onun çözülməsi, ədalətin bərqərar olması uğrunda qələmləri ilə mübarizə aparırlar. Qarabağ problemini hətta "dərdli Təbrizin qanı qurumayan yarası (M.Əzizpur)" sayırlar. Əli Daşqın, Ədalət Duman, Nurəli Qurbanzadə, Məlihə Əzizpur, Huşəng Cəfəri, Əlirza Miyanalı, Nigar Xiyavi, Eldar Muğanlı, Həsən İldırım, Kiyan Xiyav, Türkan Urmulu və digər şairlər bu dərdin ağırlığını ürəklərində və şeirlərində daşıyırlar. Onlar bütöv Azərbaycanın Fars və Rusiya imperiyaları arasında bölünməsini bir ürəyi iki yerə bölmək kimi mənalandıraraq bu ayrılığa imza atıb xalqı yaman günə salanları, eyni zamanda Qarabağda XX əsrin son çəyrəyində yeni müharibə ocağı alovlandıranları lənətləyirlər. Şuşa, Laçın, Qubadlı, Kəlbəcərin və bütövlükdə Qarabağın işğal olunmasına, qaçqınlıq və didərginlik həyatı yaşamağa məhkum edilmiş böyük bir elin halına vaysınırlar.

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, IIIc. Bakı, "Gənclik", 2017, 503s., s.244.

Çağdaş könül şairimiz Əli Daşqın da bu ədalətsiz savaşda itirdiyimiz torpaqlara "Əsir torpaq – Qarabağ" adlı poema həsr etmiş və əsərdə işğal olunmuş bütün rayonlarımızın – Xocalı, Ağdərə, Xankəndi, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilanın dərdinə sanki ağı demiş, öz Vətənində doğma ocaqsız-yurdsuz qalan yurddaşlarımızın böyük dərdinin poetik mənzərəsini cızaraq, həm də bədii səlnaməsini yaratmışdır...

Gözəl Şuşa! Dərələri tam sehirli
Zirvələri qoşa-qoşa,
Kim qıyar ki, mən də qıyam
Yem olasan qurda-quşa?!...
Cabbarı yada salanda
Natavandan utanıram!
Üzeyirə üz tuturam
Xana, Seyidə baxıram,
Bülbül gəlir xatirimə
Düşürəm ölüm-dirimə
Əsir Şuşa! Qala Şuşa!
Ana Şuşa! Bala Şuşa!
Təslim etməz Türk elləri
Mərd qalasın bayquşa![1]

Şairin ünvanladığı məktubun içində yer alan poemadan bir parçanı verməklə həm söylədiklərimizə, həm də "Kəfənə bürünmüş poeziyanın (Vaqif Səmədoğlu)" tipik nümunəsi olan bu poema-səlnamənin yazılma nədəninə Ə.Daşqının öz sözləri ilə açıqlıq gətirmək istəyirəm: "Bir

[1] Əli Daşqın. Əsir torpaq Qarabağ. Təbriz, Özəl yayınevi, 2013, 1.çap, 192 s., s.4-5.

gün Elmira Qafarovaya və Ayaz Mütəllibova "Qarabağ əldən gedəcək!" – deyə müraciət məktubum Bakı radiyosundan səslənəndə, mən qürur hissi geçirmişdim və xeyli ağlamışdım. 1991-ci illərdən başlayaraq topraqlarımızın işğal olması başlayınca dəfələrcə Füzuli, Cəbrayıl, İmişli və Əbdürrəhmanlı kəndində oldum, dəfələrcə xalqımın məzlum ana, yaralı gəlin, kimsəsiz qızlarını çöllərdə ayaqyalın, başıaçıq olaraq müşahidə etdim, darda qalmış yaralı əsgərləri, yerdə qalmış şəhidləri duydum və içim yandı. İyi dost, sənin Akademidə, cənub şöbəsində gizli-gizli için qan ağlayanda mən utancımdan sənin üzünə dik baxa bilmirdim. Mən şəhidlərlə omuz-omuza savaşmaq yerinə, dinc bir halda nəfəs çəkirdim və ömrümün milli utancını yaşayırdım. Getməyi dənədim, amma xarici vətəndaşsan, deyə geri çevirdilər. Uzun illərcə dərdimə bürünüb keçindim, lakin bu da məni ovuda bilmədi və nəhayət, vətənə olan borcumu kiçik bir poema töhfəsi kimi olsa da yazmaq, xalqımın səsini tarixin kar qulağına çatdırmaq və daha bir sənədi Qara tarix karvanının noxtasından asmaq istədim ki, bir gün bir yerdə onu ədalətə yanğın biri alıb oxusun və azacıq da olsa, əzabdan qurtulum, şəhid anaları qarşısında başımı dik, üzümü ağ tuta bilim. Poemanı güclü şeir nümunəsi saymıram, sadəcə həsrət və haray örnəyi yaratmağa çalışdım." Əli Daşqının bu sözlərinin səmimiliyinə qəlbən inanıram, çünki o, bütün yaradıcılıq işlərində Azərbaycanı bütövləşdirir, nəzər-diqqəti ayrılığa məhkum edilmiş Vətənin o tayı ilə bu tayının iki qardaş olduğuna, eyni qan, can, dil, din daşıdığına yönəldir. Özünü isə bütöv bir Vətənin – Azərbaycanın şairi, vətəndaşı sayır. Müstəqilliyinə qovuşan Quzey Azərbaycanın sevinci onun

sevinci, fərəhi iftixarı, erməni qəsbkarlarının işğal etdiyi torpaqlarımızın ağrısı onun ağrısıdır. Buna görə də Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və digər təbiət incilərinin işğalına dözə bilmir:

Sən bir avuc topraq deyilsən ki, Laçın
Atılasan!
Sənə bazarlıq edənlər yanılırlar,
Sən satılıq deyilsən ki, ucuz-ucuz
Həm örtülü bazarlarda satılasan!
Laçınımsan!
Tərlanımsan!
Sən ölkəmin göz bəbəyi
Dağlar quşu, bulaq suyu,
Dərə otu, çimən ətri, ağac gülü, kəklikotu
Şirin dilli, yaşıl tutu
Şəhərimsən!..[1]

Onun təkcə yeni, modern üslublu bu poema silsiləsində deyil, bütün əsərlərində yansıyan düşüncələrinə görə, Vətəni, Ana torpağı, ata-baba yurdunu can kimi sevmək gərəkdir. Uğrunda öləcək qədər sevilməyən Ana torpaq, atayurd asanlıqla işğal olunar, düşmən əsarəti altına keçər. Vətən torpağı vətəndaşın içində bəslənməli, ürəyində yurd salmalıdı.[2] Əlbəttə, yazarın vurğuladığı humanist ideallar, yüksək bəşəri duyğular insanların təbiətə və cəmiyyətə sevgisinin əsas qayəsini təşkil edir. Və Aristotelin bu fikri-

[1] Əli Daşqın. Əsir torpaq Qarabağ. Təbriz, Özəl yayınevi, 2013, I çap, 192 s., s.123.

[2] Esmira Fuad. Güney Azərbaycanda çağdaş ədəbi proses. Bakı, "Xan", 2016, 176 s., s.76.

nə bir daha haqq qazandırır: "Əgər insanlar arasında birbirinə sevgi olsaydı, qanunlara gərək qalmazdı..." Bir də ki, müharibələrə və onların bədii ədəbiyyatda poetik əksinə ehtiyac yaranmazdı...

Çağdaş Azərbaycan poeziyasında "Kitabi-Dədəm Qorqud" dastanına, ümumiyyətlə, zaman-zaman müraciətlər edilib, dastandan gələn motivlər bir çox bədii əsərin mövzusuna çevrilib. S.A.Özgünün bu sırada yer alan "Qorqud ataya salam" poeması əvvəlkilərdən bir sıra cəhətlərinə görə fərqlənir. Şair bədii priyom işlədərək Dədə Qorqudla bu günümüzdə görüşür, el ağsaqqalı ilə dərdləşir, ondan məsləhət diləyir. İlk öncə:

Dədəm Qorqud, Qədəmin xoş,
Bizim əsrə xoş gəldin, xoş! –

deyir. Sonra isə dastanda razılaşa bilmədiyi bəzi məqamlara, o cümlədən "Dirsə xan" boyuna öz münasibətini bildirir. Müəllif Dirsə xana: – Xandan buyruğ belədü, Oğlu-qızı olmayanı Həqq-təala qarğamış, Biz dəxi qarğarız, demiş... – söylənilməsini qəbul etmir və poemada bu məqamla bağlı şəxsi qənaətlərini poetik ovxarda belə sərgiləyir:

1. Dastançılığa uyğun hal olsa belə, qonaqpərvərlikdə tarixi ənənələri olan Azərbaycan xalqı qonaqla bu cür rəftar etməz!

2. *Əcaba! Bayındır xanın göyküsüydü Dirsə xan,*
Məgər bunu çıxarmışdı yadından?!.. – deyə təəccüblənən şair bu məsələnin başqa bir tərəfinin də olduğunu göstərir:

Ya... Böylə deməklə Xanlar xanının ağlı azdımı,
Ya ki... Bayandır xan öz qızından bezdimi?!
Marıqda dayanan casus azdımı?!
Azdımı ağrımız, Dədə?!![1]

S.A.Özgün sıradan olan bir nədənlə İç Oğuzun bir-birindən beləcə qoparılaraq sonucda Alp Aruz tək güclü və hiyləgər düşmənə çevrilməsinə zəmin yaradılmasını məqbul hal saymır. O, günümüzün çözülməsi çətin olan problemlərinin kökünü məhz həmin məqamlarda axtarır, yol verilmiş yanlış hallarda görür. Şair Qarabağ münaqişəsinin min illər öncədən baş qaldırdığını diqqət mərkəzinnə çəkir və zaman-zaman zillətini yaşayan xalqımızın "erməni məsələsi"ni öz vaxtındaca həll etmədiyi üçün təəssüflənir. Və nə qədər humanist millət olsaq da, Dədə Qorqudun dilindən qopan deyimə haqq qazandırır: "*Əsgi pambıq bez olmaz, Qarı düşmən dost olmaz!"* Bəs türkə qarğışçı olan qarı düşməndən Yurdu necə qorumalı? Uzuzn illərdir bu suala cavab aramışıq! Sabir bəyin cavabı konkret və çox aydındır:

Nə qədər boynumda xaçlı xalta var,
Ocağım başında kafir zatı var,
Nə qədər... Milləti şaqqalamağa
Sapı özümüzdən olan balta var,
Vətən xəyanətə qurbandır, Dədə![2]

[1] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, 528 s., s.13.
[2] Sabir Arazlı Özgün. Əsərləri, 4 cilddə, II c. Bakı, "Gənclik", 2017, 528 s., s.63.

Poemadakı ümdə məsələlərdən biri də Yalançı oğlu Yalıncığın Beyrəyin halalına göz dikməsidir. Müəllif buna da öz poetik münasibətini bildirir, nişanlı qızın qara xəbəri gətirənə verilməsini heç vəchlə məqbul saymır.

S.A.Özgünün "Qorqud" adıyla bağlı mülahizələri də maraq doğurur. Eyni zamanda Şöklü Məliyin: – Mərə//Ara, aznavur, nə heyfimiz qaldı? – deməsini və buradakı "aznavur" sözünün bəzi tədqiqatlarda "gürcü əsilzadəsi" kimi izah edilməsini düşgün hesab etmir. Göstərir ki, "Aznavur" erməni sözüdür və "znaverd", yəni, "alınmaz qala" deməkdir və hər kəsə məlumdur ki, Şarl Aznavur adlı erməni müğənnisi bu gün də Avropanın konsert salonlarını zəbt etməkdədir. Və s..

Səriştəli tədqiqatçı və şair kimi tanıdığımız Nazim Rizvanın "Yarımçıq vüsal" adlandırdığımız kitabında yayımlanan poemaları 2017-ci ilin son çap məhsuludur. Mövzu əhatəliliyi, dramatizmi, geniş həyat materialı baxımından diqqəti cəlb edən poemanın maraqlı kompozisiyası, axıcı dili, alim-şair ustalığı ilə yaradılmış bitkin quruluşu var. Yüksək obrazlılığı, toxunulan mövzuların cazibədarlığı ilə diqqəti çəkən əsər ən yaxın keçmişdə, keçən əsrin 90-cı illərində Tehranda və Təbrizdə keçirilmiş Uluslararası Şəhriyar konqresi zamanı şairin yaşadıqları, qəlbindən keçən duyğular, xəyalən təsəvvüründə canlandırdıqları keçmişlə bu günün qovşağında Güney Azərbaycan xalqının başından keçən olaylar, bir xalqın bətnindən doğurduğu Şəhriyar adlı bir dühanın yetişməsi, formalaşması və türkün qürur qaynağına çevrilməsi prosesi əsl sənətkar səriştəsi ilə təsvir edilir. Çağımızın insanları, Arazın o tayındakı soydaşları illərin həsrətlisi şairin qələmindən süzülən

misraların qurduğu poetik dünyada coşğun bir məhəbbətlə vəsf olunur və bu vəsfə ağrı, qubar, dərd naxış salır. Poemada süjet və ideyanın əlaqəli fraqmentləri, detalları xüsusi bir ahəngdarlıqla sıralanır. N.Rizvanın ustad Şəhriyarın kimliyinə və zəngin bədii irsinə dibsiz sevgisi "Heydərbabaya salam" poemasına nəzirə olaraq qələmə aldığı "Anam Xəzər" poemasında olduğu kimi, "Yarımçıq vüsal"da da bütün qabarıqlığı ilə yansıyır. Ulu Şəhriyarın adına Tehranda düzənlənmiş Uluslararası konqresdə şairin böyük sənətini qızıl tək incələyəcək alim və ziyalı heyətinin – Ziya Bünyadov, Anar, Qabil, Fikrət Sadıq, Rüstəm Əliyev, Qafar Kəndli, Şəfiq Pənahi, Nüşabə Araslı, Fəxrəddin Əli, Bəkir Nəbiyev, Sabir Rüstəmxanlı, Səadət Şıxıyeva, Eldar Salayev, Ruqiyyə Qənbər qızı, İmamverdi Həmidov, Leyli Əliyeva kimi aydınların sırasında olan Nazim Rizvan poemada qələmdaşlarını, Quzey Azərbaycandan gələn ziyalıları, alim və şair həmkarlarını, eyni zamanda Güneyin korifey sənətkar və yazarlarını özəl bir dəst-xətt ilə yad edir, əlvan, növbənöv fikir kəhkəşanında özlərinə layiq yeri olan çıxışçı soydaşlarını ehtiramla nəzmə çəkir. Bu tendensiya Saleh Səccadinin "Dan yolu" poemasında da izlənir. N.Rizvanın Təbrizə gələrkən qutsal torpaqla görüşündən doğan əhvali-ruhiyyədə qələmə aldığı düşüncələri, həsb-halları S.Səccadi məqbərədə, Təbrizdəki zəlzələdən sonra yaranmış "Aş tökülən qəbristanlıq" adı verilmiş məzarlıqda, min beş yüz nəfər şairin, korifey yazarın ruhları ilə edir:

Min bir məqbərədən, min beş yüz şair,
Bir anda boylanıb üzümə baxır,

Şairlər başlayır şeir oxumağa,
Başım gicəllənir, gözüm qaralır,
Məqbərə dəmirli bir qəfəsdəyəm,
Qorxuram, get-gedə qəfəs daralır.
"Xaqani" başına uçur – "Mədain",
"Mövlana" "Şəms" ilə gizlənpaç oynur.
"Nəsimi" bazarda dərisin satır,
"Nəbati" "Araz"da ürəyin yuyur,
"Pərvin"sə "Foruğ"a öyüdlər verir:
"Qızım bəsdi daha! Pis işdi axı!..."
"Səməd"in papağın başına qoymuş –
"Söhrab" məqbərəni enir aşağı.
"Şeyda" da bu zaman enir aşağı,
Onun yerişinə Şəhriyar gülür,
Məqbərə çatlayıb uçur, altında –
Min beş yüz şair, yenidən ölür...[1]

N.Rizvan əsərin giriş hissəsində o, belə bir tarixi deyimi xatırlayır: "Sənətkar qalacaq yalnız dünyada..." Şair bu əbədiyaşarlığı özünəməxsus coşğunluq və kədərlə vəsf edir:

Şəhriyarım, ziyarətin əzizdi,
Sənin eşqin müqəddəsdi, təmizdi.
Sənin ruhun elə coşğun dənizdi,
O dənizdə mən üzməyə gəlmişəm,
Məzarına gül düzməyə gəlmişəm![2]

[1] Saleh Səccadi. Dan yolu. Kərəc şəhəri, Şani yayın evi, I çap, 2017-ci ilin payızı, 260 s., s.53.
[2] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.175-176.

Şəhriyarla dialoqa girən "lirik mən"in ustad şairi salamlaması və "gəlib ona yetişməsi ilə qəfil ayrılığın vurduğu və hələ də qanı axan yaraları bitişən" şairin də "əziz balam, cavan dağım, cavan qalam, sıx ormanım, yaşıl talam" deyərək əlli il Güney həsrəti çəkən, indi saçlarındakı dənlə ruhu ilə görüşə gələn cavan qələmdaşının salamını alması və cavabı riqqətlidir:

Canım oğul, xoş gəlmisən Təbrizə.
Sən uzanan bir əlmisən Təbrizə?
Qalxıb-qalxıb yüksəlmisən Təbrizə.
Oğul, sənin ziyarətin mübarək,
Qəlbindəki xoş niyyətin mübarək![1]

Şairin poemaya yazdığı proloq onun bu görüş zamanı yaşadıqlarını, əsərin mündəricəsini bütün dəqiqliyi ilə özündə ehtiva edir:

Mən Təbrizin sorağında titrəmişəm bir yel kimi,
Mən Təbrizin fərağında incəlmişəm bir tel kimi.
Mən Təbrizi bənzətmişəm Ayın gizlin tərəfinə,
Mən zəhəri şərbət billəm içsəm onun şərəfinə.
Əfsus onu yuxumda da görməmişdim, yuxum hanı?
Mən Təbrizsiz bir heç idim: varım hanı, yoxum hanı?[2]

Göründüyü kimi, əlli ildən artıq bir müddətdə üzünə həsrət qalan, görünüşünü, istiliyini Bakıya, Şəhriyarın do-

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.176.
[2] Yenə orada, s.30.

ğulduğu Bağmeşə məhəlləsini isə gözəl Şəkiyə bənzədən və bütöv Vətənin ayrı salınmış iki parçası arasında heç ayrılıq salmayan şairin əsas amacı doğma Təbrizə qovuşmaq, Şəhriyarın "Məqbərətüş-şüəra – Şairlər qəbristanlığı"ndakı məzarını ziyarət etmək, haqqında yazdığı məqaləni simpozium iştirakçılarına sunmaq və qutsal ruhunu şad etməkdir. Onu "O, Leylidi, mən Məcnundum, O, saz idi, mən Cünundum. O, anaydı, mən bir körpə, O, dənizdi, mən bir ləpə. O, günəşdi, mən zərrəsi, O, pəhləvan, mən nərəsi..." deyə öydüyü Təbrizinə, arzularına, hədəfinə qovuşduran möcüzə təyyarə// uçaqdır. N.Rizvan uçağı o qədər gözəl, təkrarsız təşbeh və bənzətmələrlə təsvir edir ki!.. Bədii ifadə və təsvir vasitələri ilə ustalıqla işləməyi bacaran və sevən şairin seçdiyi bənzətmələr vasitəsi ilə bəzədiyi "uçaq bir hava körpüsüdür, şığıyıb ayrılığın üstündən keçən, hicran zəmisini sünbül tək biçən itilənmiş bir oraqdır. Uçaq hədəfə doğru uçan və bütün hədəfləri vuran bir nizədir, göylərdə nadir mənzərə yaradan Mani fırçasına bənzəyir, bətnindən süzülən əlvan işıqlarla şeytana, şərin üstündən sirli bir xətt çəkir. Uçaq nağıllardan çıxıb haqqın eşqinə, nura can atan azadlıq aşiqi xalqın eşqinə qaranlıqları yaran Simurq quşudur" və sərnişinlərini "həsrət" adlı bir əjdahanın qara caynağından qopararaq, tilsimli dağları arxada qoyur və sevimli Vətənə aparır... Poemada Fərhadın qayaları, dağları yaran külüngü kimi təsvir edilən uçağın son dərəcə orijinal bir obrazı yaradılır:

Uçaq bir qılıncdır, ağzı qayıtmaz,
Əsli ildırımdır, soyadı Misri.

Bakir qalaları fəth eylədikcə
Mat qoyub insanı, mat qoyub əsri.

Təyyarə uçduqca sanıram ki mən,
Təyyarə qələmdir, yanılmaz qələm.
Onun uçuşuyla yazıldıqca hökm,
Asılır boğazdan kədər, dərd, ələm[1].

Göründüyü kimi, onun poeziyasını zənginləşdirən, rövnəqləndirən ən mühüm cəhətlərdən biri, ilk növbədə təsvir və tərənnümdə məcaza üstünlük verməsi, təkrarsız metaforalar yaratmasıdır. Poemada hər bir tərənnüm və təsvir obyekti nəyəsə oxşadılır, nə iləsə müqayisə edilir. Şair poema boyu vəzndən-vəznə, bəhrdən-bəhrə elə ustalıqla keçid edir ki, oxucu heç bir çətinlik çəkmədən, rahatlıqla oxusuna davam edə bilir. Əruz vəzninin on altı hecalı rəməl bəhrindən on dörd hecalı müctəss, yaxud on bir hecalı xəfif bəhrlərinə, həmçinin səkkiz hecalı ən əski türk şeir qəlibinə-gəraylıya keçid N.Rizvanın bir sənətkar kimi məharətinin, klassik şeirin poetikasını, vəzn və qafiyə sistemini dərindən mənimsədiyinin göstərgəsidir. Mükəmməlliyi, obrazlılığı ilə digərlərindən ciddi şəkildə fərqlənən əsərdən gətirdiyimiz ikicə örnəklə fikrimizi əyaniləşdirəcəyik. Əslən Güney Azərbaycanın Ərdəbil şəhərindən olan və atası Abbas kişinin məlum səbəblər üzündən 1946-cı ildə Arazın quzey sahilinə – Bakıya pənah gətirməsi sonucunda burada yaşamalı olmuş N.Rizvan yarım əsrlik ay-

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.39.

rılıqdan sonra ata-baba yurduna döndüyündə bacısı Lalə-zarın da dünyadan köçdüyünü eşitməsi ona sarsıdıcı təsir göstərir və bu hadisəni poetk qəliblərə sığdırarkən vəzn oynaqlığına, hecadan əruza keçidə gərək duyur:

Edib fəryad, çəkib nalə, dəmadəm ahuzar etdim,
Dedilər çarə olmaz Laləzarın ahuzarından[1]

Və bu qəzəl biçimli misralardan sonra, şair əruzun ləngərli rəməl bəhrindən (failatün-failatün-failatün-failatün) səkkiz hecalıq gəraylıya keçidi çox asanlıqla həyata keçirir:

Ömürlərin bənzəri var
Bir ötəri rəvayətə.
Çox ağırdı bu faciə,
Qismətə pis demək olmaz.
Neyləyəsən bu dünyada
Qismətdən çox yemək olmaz.

Ən son fəsildə isə İrandan evinə dönən N.Rizvan on günlük həsrətini, doğmaları ilə görüş, sevimli həyat yoldaşı ilə vüsal dəmini gəraylının yeddi hecalı şəklində nəzmə çəkir:

Bu gün vüsaldır,
Lakin susubdur,

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.424.

Çün dili laldır.
Çırpınır ürək,
Hicran çəkənə
Bir vüsal gərək[1].

Xalqın müsibətinin, dərdinin sözlə rəsmini cızan şair üçün uzun illər arzularının, xəyallarının şəhəri olmuş Təbriz hansı anlam daşıdığı da poemanın ən təsirli hissələrindəndir. Maraqlıdır ki, gözlərində və ruhunda cilvələnən Ulu şəhər hansı orijinal təşbeh və bənzətmələrlə vəsf olunur? İlginc bir məqamdır ki, N.Rizvan görmədiyi, dolanbadolan küçələrini gəzmədiyi Təbrizi əl çatmayan sərab, işıq ili məsafəsində olan Ərdəbil, Sarab, barlı-bərəkətli, bərli-bəhərli, çörəkli bir şəhər kimi təqdim edir... Göstərir ki, qəhrəmanlar yetirən bu şəhərdən tarixin neçə-neçə qızıl vərəqi söz açır... Və onun üçün bu qədər özəlliyin bircə nədəni vardı: "Burada su içir çünki söz əldən..."

O, gah Təbriz oldu, gah da Tərmakis,
Bu sözdə "tər" də var, bu sözdə "ər" də.
Dörd min il boyunca yudu, qurutdu
Vüqarlı başını xeyir də, şər də.[2]

Və Təbriz "Azadlığın dörd yolu"nu dənəmiş qutsal bir şəhərdir. Əsrin əvvəlində Məşrutə yolu, 1918-20-ci illərdə Xiyabani hərəkatı, 1945-46-cı illərdə 21 Azər inqilabı və

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.72.
[2] Yenə orada, s.150.

Milli Hökumət yolu, 1978-79-cu illərdə isə İran İslam İnqilabının yolu Təbrizdən keçmiş, bu qədim şəhərdə hərəkatlar zirvə nöqtəsinə yetmişdir. Qoç Bağırxanları, Səttarxanları yetirib axan qanları durduran Təbrizdən keçən yollar gerçəkliyin, xərifləyən, iflasa gedən feodal dünyasının çökməsini yansıdan tarixi bir prosesin sonucu idi... Şair əmindir ki, İrandakı zülmü yenə Təbriz yıxacaq və bu qoca şəhər hər bir qanlı döyüşdən yenə də qalib çıxacaqdır! Çünki Təbriz qoynunda igid ərənlər bəsləyən, bir əsrdə dörd dəfə mübarizə meydanına atılan, hər dəfə də tarixə yeni qələbə səhifələri yazan inqilablar beşiyidir:

Bəli, azadlığın dörd yoludur bu,
Bir əsrdə dörd yol inqilabdı bu.
Şirlər arasından qızıl tac kimi
Azadlıq yolunu intixabdı bu.
Oyatdı Səttarxan ulu milləti,
Azəri türküylə İran oyandı.
Hələ abadanlıq qalsın bir yana,
Abadlıqla birgə viran oyandı.
İran bədən olsa, düşünən beynidi Təbriz,
Zülmətlərə düşmən işığın eynidi Təbriz[1].

Saleh Səccadinin "Dan yolu" poemasında isə Təbriz öz sakinlərinə ruh, can verən, onları yaşadan, bütün Güney türklərinin yaşamında bir mayak-dəniz fənəri rolu oynayan bir məbəddir:

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.162.

Dağın ətəyində Təbrizi gördüm,
Maşınlar, adamlar, çıraqlar, səslər,
Burası Eynalı, burası Təbriz,
Dirildir canımı yellər, nəfəslər.[1]

Nazim Rizvan üçün məbəd Təbriz, eyni zamanda Bakı, Qarabağ və bütün Azərbaycandır. Yarım əsr boyunca çəkdiyi ağrı-acılar, hicran, həsrət dağı ilə yaşamaq zorunda qalan, üstəlik XX əsrin son çəyrəyində Qarabağ uğrunda savaşa sürüklənən xalqının dərdini, ermənilərin tarixi yurd yerlərimizi işğal etməsinin ağrısını çəkməkdən beli bükülən şair özünü bəxti gətirməyən, şanssız sayır. Doğuluşundan bəri onu qarabaqara izləyən bu bəxtsizliyin qarşısında, nəhayət dilə gəlir və bu halının konkret şərhini verir: "Kitab bir şey yazır, həyat başqa şey: – Yaxşılar dünyada bəxtəvər olmaz!"

"Bəxtsizlik dərdini zamanın faciəsi kimi ümumiləşdirən şairin Şah İsmayıl Xətayiyə ayrıca poema həsr etməsinin, yeni bir tarixi əsər yazmasının səbəbi məhz bu poemada bir daha açıqlanır. Nazim Rizvan "min il qabaq Əbülqasim Firdovsinin də andığı", neçə-neçə dühalara yuva, beşik olan, "Şeyx Səfi kimi müqəddəs kişini yetirən, millətinin bütün var-dövlətını, tarixlərin pak, müqəddəs yadigarı"nı qoynunda bəsləyən Uluyurdla bağlı düşüncələrini qələmini sanki ürəyinin qanı ilə suvararaq ağ vərəqlərə köçürür. Bu zaman "Mən nə idim və bu yurddan pərvazlanan dahilər, aydınlar kim idilər, Ərdəbilsiz?" – sualına verdiyi: "O arxamdır, o, dayağım, Onsuz qüvvət tapammazdı nə

[1] Saleh Səccadi. Dan yolu. Kərəc şəhəri, Şani yayın evi, I çap, 2017-ci ilin payızı, 260 s., s.57.

qollarım, nə ayağım. O, bir yurddur, sınan deyil, Ərdəbildir onun adı", – cavabı və bu yurddan pərvəriş tapmış Şah İsmayıl Xətayiyə verdiyi dəyər, həm də şairin həmin "bəxtsizlik dərdinin" çözümü kimi də çox təsirlidir:

Şah İsmayıl olmasaydı,
Bu məmləkət dağılmışdı.
Azərbaycan həqiqəti
Yer üzündən yığılmışdı.[1]

Vətəninin dərdlərinə, ələminə qılınc çəkərək qaranlıqları aydınlığa qovuşduran və yurd yerlərini bir dil, bir bayraq altında birləşdirərək millətinin imzasını imzalar içərisinə çıxaran Xətayinin qılınc və qələminə özünü borclu sayan N.Rizvan həm qələm, həm də qılınc sərkərdəsi olan ədibin "Dəhnamə"sini oxuyanların nəzərinə bu əsərdə onun da surətinin canlandırıldığını, obrazının yaradıldığını çatdırır. Şairin bir fərdi olduğu cəmiyyətə ünvanladığı mesajlar son dərəcə düşündürücüdür. "Mən qılınc çalmağı, Vətənimi düşmən əlindən almağı, yurduma azadlıq, şadlıq əldə etməyi Həzrəti Əlidən öyrəndim. Mənim can atdığım taxt-tac deyil, Azadlığa olan ehtiyac idi. Hər kim öz xalqını pula, altuna satırsa, məsləyini ayaq altına salır!" – deyən Şah Xətayinin dili ilə soydaşlarını qəflət yuxusundan ayılmağa, birlik yaratmağa, uku yurdun təəssübünü çəkməyə, Vətəni qorumağa çağırır:

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.240-241.

Vətən oğulsuzsa, insan Vətənsiz,
Demək bədən cansızdır, can da bədənsiz.
Bir cansız bədəni neyləyir bəşər?
Yarpaq quruyanda budaqdan düşər.
İndisə Bakının halı yamandır,
Açıq kürəyində yarası qandır.
Qara qanlar axır Qarabağından,
Qara tüstü qalxır sinə dağından.
Düşmənin önündə təmkin gülüncdür,
Döyüşdə bir yol var, o da qılıncdır!
Doğrayıb yağının əlbisəsini,
Sonra ucaldarlar barış səsini.
Pula "allah" – deyə olursa səcdə,
İnsan pul eşqiylə gəlirsə vəcdə,
Şübhəsiz, bu hala qalacaq demək,
Xətayi, Koroğlu, Səttarxan, Babək!
Bir bax, Rusiyanın öz quzeyinə,
Böyük Pyotrun ev-muzeyinə.
Az qala qızıla tutulub o ev,
Rusa kim əmr edib rəhbərini sev?
Yoxa heykəl qoyur gürcü, erməni.
Bəs nədir ey xalqım, saxlayan səni?[1]

Tariximizi, öndər olmuş tarixi şəxsiyyətlərimizi, milli-mənəvi dəyərlərimizi tanımalı, qədrini bilməli, bütün bunları və "Avropaya dərs deyən Güneyi" orta və ali məktəblərdə öyrəncilərə öyrətməyin zərurətini qabardan şairin qənaətincə, Vətənə öləsiyə sevgi ruhunu, eyni zamanda

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.351.

həqiqət, doğruluq və şanlı ədalətin hər zaman şərin, bütün pisliklərin üzərində qələbə çalmaq qüdrətində olduğunu aşılamaq lazımdır.

İnsanların tarıx boyu apardıqları ölüm-qalım savaşından bəhs edən, onların ölməzlik, əbədi yaşam arzularına toxunan, qorxu və iztirablarından və s. söz açan "Dan yolu" poemasında S.Səccadi də tarixi olaylara, faciələrə toxunur. Tarixi şəxsiyyətlərin, xalqın cəmiyyətə bəxş elədiyi liderlərin böyük xidmətləri, xalqın yaşamına vurduqları yanlış və naxışlara öz düşüncə, baxış prizmasından işıq salınır. Bəşəriyyətin iman gətirdiyi müxtəlif dinlərin mahiyyətindən söz açılır. Şairin fikrincə, insanlar dinləri bəlkə də bütün ruhlarını saran, onları zaman-zaman təşvişə salan ölüm xofunu, qorxusunu dəf etmək, özlərindən uzaqlaşdırmaq üçün yaratmışlar... Görkəmli yazıçı-tənqidçi Mehdi Hüseyn məşhur "Yazıçı və tarix" adlı məqaləsində yazırdı: "Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz. Bir qədər də sadə desək, tarixçi "Nələr olmuşdur?" sualına cavab verirsə, sənətkar "Nələr ola bilərdi və necə ola bilərdi?" suallarına da cavab verir. Yazıçının vəzifəsi heç də tarixi şəxsiyyətlərin fəaliyyətini başdan-başa izləyib bədii tərcümeyi-hal yaratmaqdan ibarət deyildir".[1]

Nazim Rizvan görkəmli ədibin bu prinsiplərini doğruldan, sorularını cavablandırmaq gücünə malik olan tarix-

[1] http://www.olaylar.az/news/culture/43243 Vaqif Yusifli. Bir tarixi roman haqqında.

çi, həm də sənətkar idi. O, dünya ölkələrinin qədim, yeni və ən yeni dövr tarixini, eləcə də o taylı-bu taylı bütöv Azərbaycanın tarixini gözəl bilir və iki tarix arasında poetik körpü qurur, müqayisələr aparır, əldə etdiyi sonucları ovxarlı misralara çevirirdi:

1793-də coşan Paris,
Azadlığı hədəf deyib coşan Paris.
Azadlığa xumar baxdı,
neçə-neçə mücahidin bahasına yaradılan Cümhuriyyət
Ulduz kimi göydə axdı.
Dəliqanlı Robespyer Gilyotini icad etdi.
Gəmilərdə günahlını, günahsızı boğa-boğa
Heç duymadı necə getdi. Yaratdığı gilyotində
Məğrur başı dincə getdi.
Axı İran bir əsrdə dörd yol qalxıb,
Öz-özünü dörd yol yaxıb.
Ey Allahım, razı olma yenə yansın!..[1]

N.Rizvanın "Yarımçıq vüsal" poemasının son bəndindəki arzusu, indiki və gələcək nəsillərə ismarıcı üzərində düşünməyə dəyər. Əgər şairin bu arzusu çin olarsa, dünyanı ürəklərində əsir torpaq niskili ilə tərk etmiş bütün yazarlarımızın, cəmi şəhidlərimizin ruhu da şad olacaqdır:

Qoy mənim Vətənim vüsala çatsın,
Qəmdən azad olsun, gülsün sözlərim.

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.46.

Uca dağ başından baxanda bir gün
Vahid bir Vətəni görsün gözlərim![1]

Şairin "Yarımçıq vüsal" kitabında yer almış "Anam Xəzər" və "Kitabxanaçı qadın" poemaları da əhatələdiyi mövzu dairəsi, fəlsəfi dərinliyi, həyat materiallarının genişliyi və hadisələrin zənginliyi baxımından fərqlənir. Milli dərd və problemlərin, milli mənlik şüurunun və Azərbaycanın bütövlüyü arzusunun poetik inikası olan "Anam Xəzər" poeması ustad Şəhriyarın "Heydərbabaya salam"ına yazılmış mükəmməl bir nəzirədir. Əməkdar kitabxanaçı Səlimə xanım Dadaşovanın timsalında bütün kitabsevərlərə həsr ediyi "Kitabxanaçı qadın" poemasında elm və bilik mənbəyi olan kitablara ehtiram göstərib qiymət verməyin gərəkliliyini qabardır. Kitabxanadakı hər kitabı "yaxşını zehnində sevib saxlayan bir mərd oğul, kədərli günündə qardaşının halına ağlayan bacı, vüsal həsrətindən dili bağlanan aşiqin danışan dili, arzunun açılmış gülü" sanan elm və bilik məbədinin mühafizi kitabların vərəqlərini cırıb onları insafsızcasına yaralayan, müəlliflərinin ruhunu incidən oxuculara ibrət dərsi verir:

Cırma kitabları, hər varağında
Kiminsə sevinci, kədəri vardır.

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.428.

Cırma kitabları, yaz sorağında
O, yeni göyərmiş bir laləzardır![1]

Məqalə boyu təhlil etdiyimiz poema örnəklərində əsas mövzuların Vətən və doğma yurd sevgisi, tarixi şəxsiyyətlərə ehtiram, Qarabağ müharibəsi, xalqın sülh, əmin-amanlıq, birlik, bütövlük arzuları, milli-mənəvi dəyərlərə sahib çıxmaq istəkləri olduğu görünür. Ancaq bu mövzularla bərabər, Qarabağ müharibəsi, dədə-baba torpaqlarımız uğrunda aparılan ədalətsiz savaşın fəsadları, itirilmiş yurd yerlərinin ağrısı poemalarda aparıcı xətt olduğu diqqət çəkir. Süjetli lirikanın önə çıxması, sərbəst, azad şeirə meyl, heca ilə əruz vəznlərinin qovuşuğu, orijinal metafora sistemi, görməyin eşitməkdən daha üstün, daha gözəl olduğuna çağırış, eyni zamanda təqlid elementlərinin, mübahisə doğuran məqamların varlığı da nəzərdən qaçmayan cəhətlərdir. Təbii, "hər bir sənətdə üst qat və rəmz olur. Kim ki, üst qatın dərinliyinə varmaq istəyir, riskə getmiş olur. Kim ki rəmzləri açmaq istəyir, o da risk etmiş olur. Sənət həyat deyil, güzgüdür və o güzgüyə baxanların əksidir. Əgər sənət əsəri mübahisə doğurursa, deməli, onda nəsə təzə bir şey, mürəkkəb və əhəmiyyətli bir şey vardır. Qoy tənqidçilər müxtəlif fikirlər söyləsinlər, onsuz da, sənətkar özünə sadiq qalacaqdır (O.Uayld)".[2]

[1] Rizvanov N. Yarımçıq vüsal. Tərtibçilər: E.Fuad, Leyla Doğan, Redaktoru və ön söz yazarı: Esmira Fuad. Bakı, "Elm və təhsil", 2017, s.443.

[2] http://www.kkoworld.com/kitablar/Oskar_Uayld_Dorian_Qreyin_portreti_aze.pdf

Fil.ü.f.d. Elnarə Akimova "Janrın qürubu, yoxsa ədəbi laqeydliyimiz" məruzəsində şairlərin bu janra az müraciət etmələrinin səbəblərini araşdırır və bu sonuca varırdı ki, bütün janrlara, sahələrə vüsətli nüfuz edilib, poema janrı isə ikinci, üçüncü dərəcəli nəsnə kimi unudulub. Ancaq N.Rizvan, S.A.Özgün, Ş.Albalıyev, B.Sadiq, F.Hicran, H.Qaraçay S.Səccadi, K.Xiyav və b. kimi çağdaş dövrün poema yazarları da məhz özlərinə, "lirik mən"in prinsiplərinə sadiqlik nümayiş etdirən əsərlər yaratmaqla janrın üfüqlərində azad qanad çalmaq məsudluğunu yaşamış olublar. Nazim Rizvanın "Hər soyuq qışın qabaqda yaz ilə davası var. Gözəlliyə, Vətənimə, mən işığa vurulmuşam!" misralarındakı sevgi, yurdumuzun və xalqımızın soyuq qışının yaz günəşi ilə isinəcəyinə, Qarabağın yağı düşməndən azad ediləcəyinə və qələbə qazacağımıza inam hissi istər zəif olsun, istərsə də güclü poemalar qələmə alan digər yazarların da əsərlərində bariz şəkildə duyulmaqdadır.

Nərmin CAHANGİROVA
Filologiya üzrə fəlsəfə doktoru

BİR İLİN HEKAYƏLƏRİNİN HEKAYƏTİ

Hekayə janrı həyatımızın içində olan, onun hər saatını, hər anını əks etdirməyə imkanı olan formaca kiçik, lakin özlüyündə böyük mətləbləri ifadə edə bilən janrdır. Janrın müasir durumu əvvəlki illərlə müqayisədə daha nikbin proqnozlar verməyimizə əsas verir. Düzdür, bu janr kəmiyyət baxımından heç zaman korluq çəkməsə də, zaman-zaman keyfiyyət problemi yaşanırdı. Artıq beş ildir ki, yenidən keçirməyə başladığımız ədəbi prosesi əks etdirən "İlin ədəbi yekunları" müşavirəsində bu janrın inkişaf sxemini izləmək mümkündür. Ötən illərdə çox zaman vurğuladığımız mətn bolluğu içərisində "yaxşı hekayə" axtarışımız çox zaman təəssüflə müşayiət olunur, il ərzində çap olunmuş yüzlərlə hekayə arasında yalnız kiçik qığılcımlar görə bilirdik, bu il isə dediklərimizin əksi ilə qarşılaşmaq ümidi ilə işə başladıq. 2017-ci ilin hekayəsinin inkişaf stixiyasını izləmək üçün həm müəllif kitablarını, həm dərgi və məcmuələri, həm də internet portallarını sərf-nəzər etdik və qarşımıza maraqlı cəhətləri ilə diqqəti cəlb edən bir çox hekayə nümunələri çıxdı. Təbii ki, nəzərimizdən qaçan bədii nümunələr ola bilər. Təsəvvür edin ki, bir qəzetin hər nömrəsində bir və ya iki hekayə çap olunursa, hər məcmuədə ən azı iki hekayə yer alırsa, bütün bunları izləmək və hər birini dəyərləndirmək həddən artıq diqqət tələb edir. Üstəlik internet portallarında verilən hekayələr bu sayı bir qədər də artırır. Lakin ədəbi prosesi daima inki-

şaf edən, irəliləyən canlı orqanizm kimi götürərsək onu çərçivələmək, hüdudlarını müəyyən bir sistemə salmaq o qədər də asan deyil. Bununla belə təhlilə cəlb etdiyimiz hekayələr haqqında əminliklə deyə bilərək ki, bacardıqca diqqəti cəlb edən, digərlərindən seçilən hekayələri dəyərləndirməyə və 2017-ci ilin ədəbi mənzərəsində hekayənin mövqeyini müəyyənləşdirməyə cəhd etmişik.

Bu il ərzində təqdim olunan hekayələri nəzərdən keçirərkən məlum oldu ki, hekayə janrına bu il xüsusi diqqət və qayğı ilə yanaşılmış, janra olan maraq təkcə nasirlərin deyil, tənqidçi və ədəbiyyatşünasların yaradıcılığında da özünü göstərmişdir. Ağır, çoxhəcmli və çoxqatlı romandansa məhz bu lakonik nəsr forması daima harasa tələsən cəmiyyətimiz, hətta deyərdik dünyamız üçün səciyyəvidir. Sön dönəmlərdə böyük həcmli əsərlərdənsə mətləbi daha kiçik formalarda ifadə edə bilən hekayə və esselər daha çox maraq kəsb edir. Hətta bir qədər də irəli gedərək deyərdik ki, çağdaş dünya ədəbiyyatında hekayənin daha lakonik forması- qısa hekayə aktuallığı ilə seçilir. Təbii ki, janra olan xüsusi diqqətin nəticəsində daha yaxşı nümunələrin meydana çıxması bir aksiomdur. Müxtəlif mətbu orqanlarda kifayət qədər hekayə nümunələri çap olunsa da çox zaman sırf hekayə kitablarınıın azlığından şikayət edərdik, bu il yenə də təəccüblənəcəyik. 2017-ci ildə kifayət qədər hekayə kitabları nəşr olunmuşdur. Həm yeni qələmə alınmış, həm də ötən illərdə yazılmış, mətbuatda təqdim edilmiş mətnlərin yer aldığı bu toplularda janrın inkişafı baxımından yüksək əhəmiyyət daşıyan əsərlərin olduğu inkaredilməzdir.

İlin ilk hekayə kitabı Kamal Abdullanın əksər hissəsi ötən illərdə çap olunmuş hekayələrindən ibarət olan, adı da bu hekayələrin birinin adından götürülmüş "Edam vaxtını dəyişmək olmaz" toplusu oldu. "Adaşlar", "Platon, deyəsən, xəstələnib", "Sirri-zəmanə", "Mağara", "Mənə uçmağı öyrət", "Kölgə", "Göyəzən dağının ilahəsi", "Sağlıq", "Edam vaxtını dəyişmək olmaz", "Səsimdən yapış" hekayələri maraqlı olduğu qədər, bədii-estetik baxımından seçilən, simvolik məqamlarla zəngin, şüuraltı düşüncənin ön planda olduğu, dünyanının fərqli halını anladan hekayələrdir.

Ötən ildə tanınmış şair Faiq Balabəylinin son illərdə qələmə aldığı "Lənətlənmiş həyat" povestinin, hekayələri və publisistik yazılarının yer aldığı "Bayıldan bayıra" kitabı oxucuların ixtiyarına verilmiş, Natiq Məmmədlinin son illərdə yazdığı hekayələri ilə xarakterizə olunan "Bekketə salam" hekayələr toplusu nəşr olunmuşdur.

Yazıçı-publisist, Əməkdar jurnalist Sadıq Elcanlının son illərdə yazdığı hekayə, esse, ədəbi-tənqidi və publisistik yazılarının daxil edildiyi "Sirli söz qapısı" kitabı da 2017-ci ildə çapdan çıxan toplulardandır.

Əminliklə deyə bilərik ki, həyata keçirilən ortaq layihələr keçən il hekayə mənzərəsinin zənginləşməsinə xüsusi rol oynadı. İlin əvvəlindən "ATV Kitab" layihəsi ilə "Hədəf nəşrləri" arasında imzalanan Əməkdaşlıq Memorandumuna əsasən birgə kitabların nəşrinə başlanmışdı. Bu anlaşmaya əsasən "Çağdaş nəsrin ustaları" adlı silsilə kitabların nəşri nəzərdə tutulmuş, bu seriyadan işıq üzü görən ilk kitab çağdaş milli ədəbiyyatımızın təmsilçisi, istedadlı nasir Mübariz Örənin "Qazanılmış günün siestası,

yaxud Balıq gülüşü" adlı povest və hekayələr toplusu oldu. Təbii ki ədəbiyyatımızın bu kiçik janrının inkişaf pilləsində mühüm addım hesab edilən bu anlaşmanın növbəti addımı ikinci kitabın nəşri ilə reallaşdı. Müasir ədəbiyyatımızın tanınmış nümayəndəsi, portret hekayələrin bir janr kimi formalaşmasında xüsusi rolu olan yazıçı Əjdər Olun "Qəzənfər müəllimgilin Şuşaya yürüşü" hekayələr toplusu nəşr edildi.

"ATV" Kanalı və "Parlaq İmzalar" Nəşriyyatının ortaq layihəsi olan "ATV Kitab" seriyası da müasir ədəbiyyatımızın inkişafına yönələn, yazarlarımızın, xüsusən də gənclərimizin çap olunmaq problemini aradan qaldırmağa xidmət edən layihə kimi dəyərləndirilir. 2017-ci ildə bu seriyadan olan Ülviyyə Tahirin "Ortaq şəhər" hekayələr kitabı, Günel Eminlinin "Cənnətdə payız" hekayələr və esselər toplusunun nəşr olunması xüsusilə diqqətəlayiqdir. 2017-ci ildə bir sıra gənc yazarlar da kitabları ilə diqqəti cəlb etməyə nail olmuşdur. Ayxan Ayvazın 10 hekayəsinin daxil edildiyi "Buri", Çinarə Ömrayın "Məcnunxana" kitabları bu qəbildən olan toplulardır.

Bunlardan başqa son dönəmlərdə ədəbiyyatımızın dünyada tanınması baxımından mühüm addımlar atılır, tanınmış yazarlarımızın romanları müxtəlif ölkələrdə nəşr olunur. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin, Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi beynəlxalq layihələrindən olan "Sirr" (Azərbaycan hekayələri) kitabı da Almaniyada işıq üzü görmüşdür. Azərbaycan ədəbiyyatının müxtəlif mərhələlərini təmsil edən Cəlil Məmmədquluzadə, Mir Cəlal, İsa Hüseynov,

Sabir Əhmədli, İsi Məlikzadə, Maqsud İbrahimbəyov, Yusif Səmədoğlu, Anar, Elçin, Mövlud Süleymanlı, Kamal Abdulla, Etimad Başkeçid, Orxan Fikrətoğlu kimi ədəbi simaların hekayələrinin toplandığı kitab alman dilinə alman və avstriyalı tərcüməçilər tərəfindən tərcümə edilmiş və maraqla qarşılanmışdır.

Bu kitablarla yanaşı, "Azərbaycan", "Ulduz", "Yazı", habelə "Ustad" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet" və "Aydın yol" və adını çəkmədiymiz bir çox həftəlik mətbu orqanlarda kifayət qədər hekayə mətnləri oxuculara təqdim edilir. Belə olduğu halda Zamanımızın nəbzini tutmağa çalışan bu hekayələr hansı cəhətləri ilə diqqəti cəlb edir? və ya Müasir hekayədən nə tələb olunur?, Çağdaş hekayənin əsas məziyyətləri nələrdir? kimi suallar mühüm və cavablandırılması vacib olan məsələlərdən hesab edilməlidir. Bu qədər hekayənin yazıldığı bir dövrdə təbii ki, onların dəyərləndirilmə prinsiplərinin də müəyyənləşdirilməsi janrın inkişafına öz töhfəsini verəcəkdir.

Nəzərə almalıyıq ki, bu əsərlər yaxşısı ilə, pisi ilə zamanımızın, çağdaş dünyamızın hekayələridir. Janrın xarakterikindən asılı olaraq əsərləri nəzərdən keçirərkən hər kəs orada özünü, həyatının hansısa anını, hansısa vəziyyətini görə bilər; bu əsərlər bir növ güzgü rolunu oynayır. Dilləndirə bilmədiyimiz, ürəyimizdən keçirib, aşkar etməyə çəkindiyimiz məqamları görə bilirik bu hekayələrdə. Əminliklə deyərdik ki, bu kiçik janrın bədii nümunələrini birləşdirən başlıca cəhət onlarda həyat həqiqətinin güclülüyüdür. Akif Hüseynlinin bu haqda maraqlı bir fikri var: "Həyat – bədii idrakın obyekti olmaqla yanaşı, onun həqiqiliyinin, mənalılığının da başlıca obyektiv meyarını təşkil

edir. Nəticə etibarı ilə məhz real varlıqla müqayisədə sənət əsərləri sınağa çəkilir və onlardakı həyat nəfəsi, həqiqət gücü yoxlanılır. …Sənət əsərlərindən umduğumuz, gözlədiyimiz ilkin məziyyət – gerçəkliyin real mənzərəsinə istinaddır, yaşadığımız dövr haqqında, özümüz və cəmiyyətimiz barədə açıq və ciddi söhbətdir. Boş, uydurma süjetlərlə, qurama münaqişələr və təbiilikdən uzaq qəhrəmanlarla, yalnız bəsit zövqlü oxucuları əyləndirmək mümkündür". Təbii ki bədii mətnlər nəzərdən keçirilərkən əsərlərin reallığa uyğunluğu, həyatı əks etdirmə prinsipləri mütləq şəkildə diqqətdə saxlanılmalıdır.

Son illərdə müşahidə etdiyimiz hekayə axınının nəticəsi olaraq maraqlı nümunələrin yarandığı inkaredilməz olsa da nəsrdə yeni qələm təcrübələrini sınaqdan keçirən hekayəçilər haqqında bu fikri bildirmək asan deyil. Qəzet və məcmuələrdə boy göstərən bu mətnlərdə müasir həyatı əks etdirmək, dövrün mənzərəsini yaratmaq məqsədi qoyulsa da problemin bədii həllinin kifayət qədər hərtərəfli işlənməməsi əsərlərin bədii gücünü zəiflədir. Xuraman Hüseynzadənin "Qatır Qulam", Aləm Kəngərlinin "Velosiped", "Oğru", Şəhla Aslanın "Quran", Məmməd Namazoğlunun "Beş manat" hekayələri bu qəbildəndir.

Dini söhbətlərin, dini düşüncənin ağırlığı ilə seçilən "Quran" hekayəsində müəllifin məqsədinə nail olmadığı diqqəti cəlb edir. Lüzumsuz şişirtmələr, uzun-uzadı, təbliğ xarakterli dini fikirlərin yer alması yorucu olmaqla yanaşı, fikrin əsas mətləbdən uzaqlaşmasına səbəb olur. Müəllifin nə demək istədiyi, oxucusuna ötürmək istədiyi enerjinin nə olması məlum olmur. Eləcə də nənəsi tərəfindən ərköyün böyüdülən bir uşaq və onun istəkləri üzərində qurulan

"Velosiped" hekayəsi primitiv nəsr nümunəsidir. Müəllif nə təhkiyəyə, nə də xarakterlərin işlənməsinə önəm verməmiş, hətta valideyinləri belə Yusif bəy, Şölə xanım kimi titullarla təqdim etməklə solğun və bəsit bir əsər ortaya çıxarmışdır. Qəhrəmanlarda canlılıq, həyatilik çatışmır. Müəllif təhkiyəsi üzərində qurulan, banal süjetə əsaslanan bu hekayələrin modern ədəbiyyat nümunəsi hesab edilməsi, fikrimizcə, ədəbiyyyata qeyri-ciddi münasibətin ifadəsi kimi dəyərləndirilməlidir.

Lakin təkcə gənc yazarların deyil, kifayət qədər təcrübəsi olan müəlliflərin yaradıcılığında da alınmayan hekayə mətnlərinin olması inkaredilməzdir. Səfər Alışarlının "Limb və Alidada", Alpay Azərin "Üç günün içində" hekayələri bunlardan biridir. Böyük həcmə malik olan "Limb və Alidada" daha çox söz oyunu üzərində qurulmuş, solğun, oxucunu cəlb etməyən mətndir. Müasir həyatın çevik janrlara və formalara ehtiyac duyduğu bir mərhələdə uzun-uzadı mətnlər, bir cümləlik fikrin az qala iki-üç abzasda verilməsi yorucu və oxucu üçün mənasız gəlir. Monoton təhkiyəsi nəticəsində hekayəni oxuduqdan sonra "hə, nə olsun" deməkdən başqa bir yol qalmır. Halbuki müasir ədəbiyyatımız həyatın gözəlliklərini, rəngarəngliyini, habelə çatışmazlıqlarını, acımasızlıqlarını, daha doğrusu real dünyamızda yaşanan ictimai-sosial prosesləri göstərə biləcək və bunu qısa, lakin sərrast fikirlərlə deyən mətnlərə ehtiyac duyur.

Hədəfi sərrast vura bilən nasirlərimizdən biri ədəbiyyatşünas, görkəmli alim, professor yerli və xarici mətbuatda davamlı olaraq nəsr nümunələri ilə çıxış edən Vaqif Sultanlıdır. Bu il V.Sultanlı yaradıcılığında hekayə janrın-

da xüsusi bir canlanma müşahidə olunmaqdadır. Alimin "Yarpaqsız budaqların yaşıl nəğməsi" hekayəsi Bişkekdə qırğız dilində "Жаңы Ордо" qəzetində, "Vatan" hekayəsi Türkiyədə "Dergi Zan" məcmuəsində nəşr edilmişdir. Ukraynada «Нова проза» almanaxında V.Sultanlının "Yarpaqsız budaqların yaşıl nəğməsi", "Dərviş" və "İlan əfsanəsi" hekayələrinin yer alması, Daşkənddə çıxan "Darakçı" qəzetində yazıçı-publisist Rüstəm Cabbarovun tərcüməsində "Kül qəfəs" adlı hekayəsinin nəşri müasir Azərbaycan hekayəsinin uğuru kimi dəyərləndirilən bilər. İstedadalı alimin yerli mətbuatda da bir sıra hekayələri dərc edilmişdir. Bu əsərlərə ədəbi sferada maraqla qarşılanan "Kül qəfəs", "Zolaqlı yuva" hekayələrini nümunə göstərə bilərik.

"Zolaqlı yuva" hekayəsi müharibə səbəbindən ev-eşiyindən didərgin düşmüş insanın çətin həyat şəraitini təsviri ilə başlasa da əsl həngamə uşağın quduz it tərəfindən dişlənməsi ilə başlayır. Adi bir it dişləməsinin ölümə qədər gedən yolu, çəkilən iztirablar olduqca real və təsirli lövhələrlə təqdim edilmişdir.

Hadisəyə əsaslanan mətndə müəllif hekayəni uşağın əzabları üzərində deyil, ata-ananın iztirabları üzərində qurmuş, psixoloji məqamların işlənməsinə xüsusi diqqət yetirmişdir. Övladını çətin vəziyyətdə görən, onu xilas edə bilməyən atanın əzabları çox real təsvir edilmişdir. Sürətli şəkildə baş verən hadisələr bu çarəsiz insanları daha da ağır vəziyyətə salır, imkansızlığın gətirib çıxardığı nəticə insanı düşünməyə məcbur edir, pulun, şəraitin olmamasının yaşatdığı acılar ürək parçalayır. Göz görə-görə övladının məhv olmasını gözləmək, ona kömək edə bilməmək

atanın faciəsinə çevrilir, burada ailənin iztirabları ilə paralel həkimin soyuqqanlı şəkildə göstərdiyi çıxış yolu əslində başqasının dərdinə laqeyd qalan və soyuqqanlıqla qərar verən insanların mənəviyyatsızlığını əks etdirir. Çətin həyat şəraitində olsa da hansısa yolla dağılmış həyatına davam etməyə çalışan bu insanları təsvir ertməklə müəllif onu göstərir ki, insan evsizliyə, vətənsizliyə dözə bilər, rahatlığından əl çəkə bilər, lakin övlad itkisindən, daha doğrusu övladının başına gələn hadisədən çətin heç bir şey ola bilməz.

Çarəsizliyin insana yaşatdığı əzabların ifadəsi başqa bir mətndə Azər Qismətin qələmindən çıxan "Şi-Tsu" hekayəsində qarşımıza çıxır. Atanın ad günündə anaya hədiyyə etdiyi itin xəstələnməsi və ürəyinin dayanacaq qədər zəif döyünməsi bütün ailəni sarsıdır. Veterenarın cəhdlərinə baxmayaraq onu sağaltmaq olmur, nəticədə it komaya düşür. Hekayə boyu biz istər qadının, istər də kişinin üzüntsünü, kədərini hiss edirik, itə bağlanan, onu özlərindən biri kimi sevən uşaqların hisslərini duya bilirik. "İtin gözündəki dumanın qatılığında ad günündə evin gənc xanımının tortdan bir dilim qoparıb ərinin dodaqlarına sürtməsi, "hədiyyənə görə səni daha da sevdim" pıçıltısı, qadağaya baxmayaraq, qardaşla-bacının dəhlizdəki iti yataq otaqlarına aparıb gülməli gecə paltarı geyindirmələri, qardaşın gecələr tez-tez ayaqyoluna getməsi, qurumaqdan çatlayan dodağını dili ilə isladıb başının fırlanmasından qapı-pəncərəyə dəyməsi də görünürdü." Müəllif bu qəhrəmanlarının əzab çəkdiyini bildirmək üçün sadəcə təsvirlərlə kifayətlənmir, onların təbii vəziyyətlərini təqdim edir. Çırpınan, əzab çəkən, qayğılanan insanlar o qədər real və inandırıcı

təsvir edilir ki, sanki onları görə bilirsən. Obrazların hər bir hərəkəti onların duyğusunu əks etdirir, bu sadə insanların kədərinə biganə qala bilmirsən.

Sonluq isə sanki bir sillə kimi dəyir. İti naqildən ayırmalarını bildirən ata itin də oğlu kimi şəkər xəstəliyinə tutulduğunu və onun törədəcəyi fəsadları öyrənəndə verdiyi qərara görə özünü qınayır, çətinliyə dözə bilməməkdə, bezməkdə günahlandırır. Əslində hər iki hekayədə insanın çarəsiz vəziyyətə düşərkən, tutunacaq yeri qalmazkən normalda qəbul etməyəcəyi, doğru hesab etmədiyi hər şeyi etməsinin mümkün ola biləcəyini göstərir. Çarəsiz atanın oğlunu qəfəsə salması, hələ ürəyi dayanmayan heyvanı naqildən ayırmaq kimi insani sayılmayan qərarın verilməsi mövcud situasiyada mövcud durumla bağlı çıxış yolu kimi mənalandırılır. Hər iki hekayədə əziyyət çəkən şəxs ilə onun əzablarını kənardan izləyən insanların duruşu, mübarizəsi və gəldikləri nəticə əsasında qurulmuş bir həyat modeli vardır. Təxminən oxşar mövzuda, lakin bir fərqli müəllif mövqeyi ilə işlənmiş başqa bir hekayə diqqətimizi çəkir. "Bizə ürək göndərin" hekayəsində demək olar ki, yenə eyni motivlə – övladının çarəsizliyini, xəstəliyini izləyən, ona kömək etmək üçün hər cür sıxıntıya razı olan bir ailə ilə qarşılaşırıq. Lakin müəllif digərlərindən fərqli olaraq həyatın ağır sınağı ilə – balaca Tokayın xəstəliyi ilə üzləşmiş ailənin qırılmayan inamını, sönməyən ümidini canlandırmaqla münasibət bildirir. Hekayədə müəllif mövqeyi aydın görünür və təhkiyəçi vacib bir məsələyə öldükdən sonra orqanların donor kimi istifadəsi məsələsinə işıq salır və kiminsə ölümünün kimlərinsə həyatına vəsilə olmasına rəğbətini bildirir.

Henri Ceyms "Roman estetikası" əsərində təhkiyəni "pəncərədən görünən görüntü" ilə müqayisə edir. Pəncərədən baxan hər kəs fərqli mənzərəni seyr edir. Hekayənin təməl xüsusiyyətlərindən biri də təhkiyədir. Çünki hər kəs müəyyən bir əhvalat nəql edə bilər. Mətnin hekayə olması üçün mükəmməl, oxunaqlı bir təhkiyə, canlı, həyatın içindən gələn obrazlar artıq bir şərt kimi qəbul edilir. Ötən ilin hekayə nümunələri arasında monoton təhkiyəsi, heç bir eniş-yoxuşu olmayan Elçin Mehrəliyevin "Təbiət hekayələri", Kamuranın "Alov saçlı qız", Şəfa Vəlinin "Qətl üçün mükafat" hekayələri olsa da, maraqlı ifadə sistemi ilə seçilən hekayələr də nəzərimizdən yayınmadı.

İkinci Mahmudun "Bəkir kompleksi", Meyxoş Abdullahın "Gecə qapısı döyülən qadın", Azər Qismətin "Bumeranq", Natiq Məmmədlinin "Günah", Mübariz Cəfərli "Ağır səfər", Mirmehdinin "Qırmızı çəpiş" hekayələri təhkiyə xüsusiyyətləri, obrazlarının canlılığı ilə seçilən əsərlərdir. İkinci Mahmud müasir həyatının hadisələrini, obrazlarını əsər qəhrəmanına çevirməyi, real dünyamızı əks etdirən əsərlər yazmağı sevən yazıçıdır. Mahmudun təsvirləri obrazlılıq və canlılıq, dəqiqlik baxımından uğurludur. Fəhləliyini, əlinin qabarını özünə kompleks edən, evləndiyi Uğurla normal münasibət qura bilməyən Bəkir düşdüyü vəziyyətdən çıxış yolu tapmaqda acizdir. Hekayənin əvvəlində Mahmud qəhrəmanını zəif, hər şeyə boyun əyən biri kimi təsvir etsə də sonda bu zəif adamı az qala bir qatilə çevrilir, mehrini saldığı tutuquşusu Firanı öldürməklə sanki bütün komplekslərindən qurtulduğunu əks etdirir. Müəllif təhkiyəsi üzərində qurulan hekayədə onun daxilindəki

tələtümləri, keçirdiyi hissləri, Zəki-Uğur-Bəkir üçbucağı arasında baş verənləri müdaxilə etmədən izləməli oluruq.

Qısa hekayə formasının aktual olduğu bir dönəmdə Kənan Hacının "Yeraltı külək" adlı uzun hekayəsi həm ideya-bədii xüsusiyyətləri, həm strukturu, həm də sənətkarlığı ilə diqqəti cəlb edir. Sabit olmayan təhkiyəsi ilə oxucunu öz ağuşuna alan müəllif fərqli həyat hekayələrini təqdim etsə də, onları ana xətlə birləşdirə bilən məqamları diqqətlə seçir, Bibixanım Nənə, Lala Əhməd, İmranın atası Sabir kişi arasında olanlar yavaş-yavaş çözələndikcə bu əlaqə də aydınlaşır. Hekayə lakonik, lakonik olduğu qədər də sərrast bir cümlə ilə başlayır. "bibin öldü, gəl!" Bu bir cümlə bütün hekayə boyu, baş verən, xatırlanan əhvalatların məğzində durur. Sanki bu ölüm bir düyün nöqtəsi olur. Bir cümlə bütün hekayənin ruhuna təsir edir. Hekayədə ayrı-ayrı dönəmlər canlandırılır, müəllif operator kimi projektoru gah müasir dövrə, gah da keçmişə tuşlayır. İmranın hazırkı həyatı, avaraçılıqla keçən gəncliyi, ailəsi ilə olan problemləri və ahıl yaşında illərlə gəzdirdiyi sirri açmadan dünyadan köçən bibisinin demək istədiyi sirli sözlər hekayəyə bir canlılıq, hətta həyatilik gətirdi.

Son dövr hekayə yaradıcılığında az da olsa simvolikaya, mistik düşüncələrə diqqət yönəldən, sirli, fövqəltəbii qüvvələrə inamla müşayiət olunan bədii nümunələr yaranmışdır. Kölgə motivindən istifadə edilməsi diqqəti cəlb edən məqamlardandır. Bu cəhətdən Kənan Hacının "Kölgələr şahiddir", V.Sultanlının "Çarpaz kölgələr", Kamran Nəzirlinin "Ağ kölgə" hekayələri məzmun və struktur xüsusiyyətləri ilə seçilir.

Daha çox sevgi macəralarından bəhs edən romanları ilə böyük oxucu kütləsi qazanan Varis Yolçuyevin "İyirmi bir" hekayəsi də ötən ilimizin uğurlu nümunələrindən hesab edilə bilər. Varis Fransanın "L Autographe" ("Avtoqraf") almanaxına daxil edilmiş bu hekayəsinə görə "Antuan de Sent Ekzüperi diplomuna" layiq görülmüşdür. Maraqlı situasiyaları, fərqli təsvirləri və müəllif mühakimələri ilə zəngin hekayə müəllif təhkiyəsi əsasında yazılsa da müəllifin özünün də hadisələrdə iştirakı əsərə ağırlıq gətirmir. "Bir qoca, bir uşaq, bir də mən üzügündoğana gedirdik" deyən yazıçı maraqlı, maraqlı olduğu qədər də fərqli bir hekayəyə başladığına işarət verir.

Ötən ilin hekayələrini nəzərdən keçirərkən E.Munronun maraqlı bir fikrini yada düşür: "Yazmağa başlayanda gənc şahzadələrdən yazırsan, sonra evdar qadınlardan və uşaqlardan, sonra isə yaşlı qadınlardan. Heç adam özü də bilmədən bu dəyişiklik baş verir, çünki təxəyyülü dəyişir". Bizim ədəbiyyatda isə daha fərqli məqam özünü göstərir. Gənclərimiz ailə-məişət, ictimai-sosial mövzulara daha çox maraq göstərir, qadın yazarlarımız ailədəki kişi-qadın münasibətlərini, qadın hüquqsuzluğunu qabartmağa çalışır, nisbətən yaşlı nəsil yazarlar isə uşaqlıq və gənclik xatirələri üzərində qurulan hekayələr yazmağa meyl edirlər.

Son dönəmlərdə qəhrəman və qəhrəmana münasibət məsələsi də fərqliliyi ilə diqqəti cəlb edir. Nəzərə alsaq ki, hekayədə qəhrəman və xarakter məsələsi roman və povestlərdən fərqlənir, onlar kimi ön planda olmur, müşahidə etdiyimiz məqamlar təəccüb doğurmamalıdır. Müasir modern və postmodern ədəbi mərhələdə qərəmandansa onun yaşadıqları, hissiyyatı əsərin qəhrəmanıma çevrilir, Çinarə

Ömrayın "Daş ağrısı", Günel Natiqin "İşıq sorağında", Elçinin "Çingiz xanın daşları"nda olduğu kimi. Hərçənd bəzi hekayələrimiz sırf qəhrəman üzərində qurulsa da (Vəfa Mürsəlqızının "Nana", İradə Aytelin "Taleh") əksərən anlıq hisslər, fikirlər, düşüncələr daha yaddaqalan olur, qəhrəmanımızın xarakteri yox, düşüncəsi, şüuru ön plana çıxır. Müasir hekayələrdə xarakter üzərinə yüklənmələr görülmür, bu səbəbdən də hekayə yazarlarımız bəzən qəhrəmanlarına heç ad da qoymur, onların hissiyyatına yönəlib, duyğu-düşüncələr seli üzərində əsəri qurur və çox zaman da uğurlu mətn ərsəyə gətirirlər.

Ötən ildə hekəyə kitabı müəlliflərindən biri də Natiq Məmmədlidir. Yaxın bir neçə ildə yazılmış hekayələrin toplusu olan "Bekketə salam" 2014-cü ildə Mahmud Kaşğarlı hekayə müsabiqəsinin milli seçim turunda mükafata layiq görülmüş hekayənin adını daşıyır, "Tiflis yolçuları", "Tutuquşunun günahı" hekayələri isə "Azərbaycan" və "Ulduz" jurnallarında dərc olunmuşur. Topluda sosial mesaj ötürən hekayələr üstünlük təşkil edir. "Xəlbir", "Kişilər ağlamasın", "Bekketə salam" kimi nümunələrdə cəmiyyətimizin bir çox problemlərinə toxunan müəllif maddi sıxıntılar içində qalsa da, mənliyini, qürurunu, imanını itirməyən insanları, bütün çətinliklərə baxmayaraq, bu həyatı dərk etməyə, cəmiyyət üçün nəsə eləməyə çalışan gəncliyi hekayə müstəvisinə gətirir və bədii priyomlarla onları müxtəlif situasiyalarda təqdim edir.

Maraqlı hekayələri, özünəxas yazı tərzi ilə seçilən Kamran Nəzirlinin "Şopenin sonatası" hekayəsi müəlliməsinə aşiq olan uşağın dilindən yazılmışdır. Əslində son dönəmlərdə modernist, postmodern cərəyanların izlərini da-

şıyan, qeyri-adi fornmalarda yazılan əsərlər əvəzinə daha sadə, insan hisslərini təcəssüm etdirən hekayələr xüsusi bir maraqla qarşılanır. On dörd yaşlı uşağın hiss-duyğuları və reallıq arasındakı fərqlərin təqdimi bizi bu saf hisslərə təbəssümlə yanaşmağımıza səbəb olur. Qarşımızda keçmişə bu gündən baxan, lakin o keçmişi qəlbində yaşadan bir qəhrəmanımız var. *"Başımı aşağı sallamışdım. Alnımda puçurlanan tər damçılarını silmək üçün dəsmal çıxartmaq istəyəndə gördüm ki, Sevil müəllimənin gözləri yenə dolub, sezməyim deyə, üzünü çevirib balaca mizin üstündəki boş güldana baxır. Mən o güldanda bəzən qırmızı qərənfillər, bəzən də bənövşə və yasəmən çiçəklərini görərdim. Hərdən bu gülləri ona qısqanardım. Axı hər dəfə sinif otağına girəndə görərdim ki, o, bu güllərə xüsusi nəvaziş göstərir; gah güldanı burnuna aparıb iyləyir, gah yerini dəyişdirib günəş şüasaına tərəf tutur, gah da onlara baxıb gülümsəyirdi. Düşünürdüm ki, yəqin o, gülləri sevir. Bəlkə də bu, tamam başqa bir sevgiydi, sadəcə mənim xəbərim yox idi."* Bir sevgi tarixçəsi də adlandıra biləcəyimiz hekayə anasının istəyi ilə musiqi məktəbində oxuyan, Şopenin sonatasını çalmağa məcbur olan bir uşağın dilindən təqdim edilir. Dünyanı silkələyən, ciddi ictimai-siyasi hadisələrdən xəbərsiz bir uşağın olub-keçənlərə münasibəti maraqlıdır. Keçmişin şirin xatirələri tərzində yazılmış hekayədə ən saf, təmiz hisslərlə müasir insanın laqeydliyi, gərgin həyatın qovğaları altında özünü, keçmişini unudan insanları qarşılaşdırır.

Hekayəyə olan marağın gücləndiyini əks etdirən məqamlardan biri də "Ulduz" jurnalı, "Kaspi" qəzeti və artkaspi.az saytının birgə layihəsi olan "Variasiya" müsabi-

qəsinin keçirilməsi oldu. 2013-cü ildən strat götürən, maraqla qarşılanan müsabiqədə 2017-ci ildə Yazıçı Elçin Hüseynbəylinin "Qəfil getmək" hekayəsi yarımçıq şəkildə təqdim edilmiş və onu tamamlamaq üçün yazarlar arasında müsabiqə elan olunmuºdu. Göndərilən çoxsaylı mətnlərdən yazıçı Vüsal Nurunun yazdığı sonluq daha çox bəyənilərək qalib elan edilmişdi. Psixoloji məqamlara toxunulan mətn həyatından bezən, yaşadığı günləri dəyərsiz hesab edən bir kişinin dilindən verilib. Son illərdə artıq bir dəb halını almış intihar motivinə toxunan müəllif qəhrəmanının qərarsızlığını göstərməkdə əsas məqsədi əslində həyat eşinin gücünü təsvir etməkdir. Hər nə qədər çətin vəziyyətdə olursansa ol yaşamaq üçün bir səbəb tapmaq, həyatına, yaşadıqların şükr edib yoluna davam etmək ən doğrusudur. Ola bilsin ki, Vüsal Nurunun nikbin sonluğu da məhz bu məqamı ilə müəllifin diqqətini cəlb edib. Hər nə qədər qəhrəmanımız intihar etmək fikrindən daşınır, yaşamalı olduğunu, balaca nəvəsinə lazım olduğunu dərk etsə də, hekayədə qəbul etmədiyimiz məqam müəllifin sanki intihar yollarını göstərməsi, bu fikirdə olan insanları yönləndirməsidir. İntiharı çıxış yolu kimi göstərməsidir.

Son zamanlar ədəbi sferada yazdığı hekayələri ilə diqqət çəkən müəlliflərdən biridir Vəfa Mürsəlqızıdır. Maraqlı təhkiyəyə, fikrin sistemli ifadəsinə önəm verən müəllif hansı mövzuda yazırsa-yazsın həyat həqiqətinə sadiq qalmağa, real, müasir dünyamızın problemlərini əks etdirən hekayələr yazmağa cəhd edir. Daha çox lakonik hekayələri tanınan Vəfa Mürsəlqızı son hekayələrində ailə-məişət məsələrinə toxunsa da ənənəvi təsvirlərlə yox, daha çox duyğu-düşüncələr fonunda bu problemləri əks etdirməyə

çalışır. Avtobusda yol gedən bir qızın dilindən nəql olunan "Ekler" hekayəsi bu cəhətdən maraqlı quruluşu ilə seçilir. Avtobusun şüşəsindən həyata baxan qızın fikirləri yolboyu dəyişir. Ailə qurmaq istəmədiyini düşünən bu gənc qız yanında oturan oğlanı qayğıkeş, mehriban, hətta səmimi biri hesab edərək daha fərqli düşüncələrə dalır, özünün gələcək xoşbəxt ailəsini təsəvvür etməyə çalışır, çəhrayı dünyasını xəyal edir. Halbuki həyat onun düşündüyü kimi deyildi. Bir zənglə onun xəyali dünyası dağılır, yaraşıqlı hesab etdiyi yol yoldaşı da öz simasını itirib eybəcərləşə bilir. Sanki müəllif insanın daxilinin üzünə vurması fikrini təlqin edir. Vəfa xanım burada qəhrəmanımızın sanki keçmişinə işıq salır, atası ilə bağlı acı xatirələrinə dilləndirir, buradan da ailə qurmağa zidd fikirdə olan qızın qorxularının səbəbləri məlum olur. Müəllif uzun-uzadı təsvirlərdələ yox, kiçik bir xatirə effektindən istifadə edərək bütün bu fikirlərini oxucuya ötürə bilir. "Gözlərimin önünə bayaqkı mənzərə gəldi. Həmin otaq, həmin masa, ağ süfrə, amma soyumuş balıq və pəncərə önündə payıza ağlayan qadın. Bu qadın bir az mənə bənzəyirdi, bir az da bizi illər öncə atıb getmiş atamın yolunu illərlə gözləyən, gecələr yatağında ağlayan anama. Və mən qəti qərar verdim: mən o pəncərənin önündə ağlamayacaqdım". Hekayənin dili çox axıcı və rəvan olmaqla bərabər "gecənin qaranlığı ulduzları ovuclayıb içirdi", "sükuta yenilmək" və s. maraqlı ifadələri ilə də diqqəti cəlb edir. Vəfa Mürsəlqızının hekayələrinin dəyəri onlarda həyatiliyin, təbiiliyin güclü olması, qəhrəmanlarının canlılığı, hisləri, düşüncələri, əzabları və sevinclərini də real yaşamalarıdır. Misal üçün Azərbaycan jurnalında dərc olunmuş "Səs" hekayəsinin qəhrəmanı gənc, həyat

eşqi ilə dolu bir oğlandır. İlk baxışından qıza vurulan, hər gün onu görmək üçün dəridən-qabıqdan çıxan bu oğlan qızın səssizliyini, lal-kar oluğunu bildikdən sonra sakitcə geriyə çəkilməsini "onun cəngavəri" ola bilməyəcəyini açıq dərk etməsi və bunu rahatlıqla qəbul etməsi günümüzün kiçicik çətinlikdən belə qorxub geriyə addım atan insanlarının ümumiləşdirilmiş obrazıdır. Hekayə boyu müəllif onun hisslərinə, eşqinə inandırıb, onu qəbul etdirsə də, maraqlıdır ki, sonluq heç də təəccübləndirmir. Çünki biz bu gəncdən düşündüklərinin əksinə bir şey gözləmirdik. Həyatda olduğu kimi. Leyli-Məcnun sevgisinin modern variantı olmayacaqdı ki! Məhz bu məqamda Leyli-Məcnun məhəbbətinə münasibəti əks etdirən, bu nüansdan istifadə edilən maraqlı bir hekayə qarşımıza çıxır. Seyran Səxavətin "Leyli və Məcnun" və ferma müdiri" hekayəsi.

50-60-cı illər kənd həyatından bəhs edən bu hekayədə müəllif real, inandırıcı təsvirlərlə, incə yumoru ilə sadə kənd adamlarının Leyli-Məcnun operası ilə bağlı fikirlərini bölüşür. "Ümumiyyətlə, Seyranın istənilən əsərində Cəlil Məmmədquluzadə nəsrindən gələn incə bir meh əsir" deyən Vaqif Yusifli haqlı olaraq bu hekayədə də sətiraltı anlamların olduğunu, bir çox məqama incə yumorla münasibət bildirildiyini vurğulamış, fikrimizcə də çox düzgün bir hədəf seçmişdir. Sədaqətli, bir-birini anlayan, hörmət edən Fəmil-Nisə sevgisi bir növ Leyli-Məcnun sevgisilə bir müstəviyə qoyulur, onların da öz sevgisi var. Həyatlarında müəyyən çərçivələri, hüdudları olan sevgisi. Öz təsəvvürlərindəkini canlandıran bu sadə insanlar operaya real həyat hadisəsi kimi baxmaqla sanki müəllifin incəsənətə olan hörmətini, bağlılığını əks etdirir.

Müasir həyatı təqdim edən, hekayələrində modern insanın düşüncələrinə yer verən Qan Turalının "Uzaqlar" kino hekayəsi ailə-məişət münasibətlərinin deqradasiyaya uğramış, məhvərindən çıxmış modern halını təqdim edir. Qadının kişini, kişinin də qadını aldatdığı bir ailədə skayp danışıqları üzərində davam edən münasibətlər çağdaş dünyamızın çatışmazlığı kimi dəyərləndirməlidir. Hekayə əvvəldən axıra kimi skayp danışıqları ilə müşayiət edilir, bu danışıqlarda bütün gizli məqamlar özünü göstərir. Qan Turalının hekayənin ayrı-ayrı hissələrinə qoyduğu başlıqlar pozulmuş ailə münasibətlərini əks etdirir.

Vəfa Mürsəlqızının "Qabyuyan", Azər Qismətin "Bumeranq", Çinarənin "Corab tayı", Günel Eminlinin "Ağ kəpənək", Natiq Məmmədlinin "Sevgi məbədində qətl" hekayələrində bu mövzulara toxunulmuş, lakin məsələyə fərqli mövqelərdən yanaşılmışdır. Müxtəlif məzmunlu hekayələrdə müəlliflərin mətləbi çatdırmaq, ailə daxili problemlərin insan həyatındakı təsirini, ata-uşaq nisgilini, peşmanlıqları göstərmək üçün uzun-uzadı təhkiyə, lüzumsuz söz oyunlarından yox, lakonik və tutarlı faktlardan istifadə edir.

Günümüzün hekayələrində cəmiyyətin obrazı, ictimai düşüncənin bədii şəkli, zamanın adi, ya qeyri-adi qəhrəmanlarının, insanlarının portreti arxa planlı olur, daha çox şəxsi, subyektiv psixoloji durum əks edilir. Bu baxımdan Elçinin "Tut Budağı, Ərik Budağı və Sarı Bülbülün nağılı", Firuz Mustafanın "Fantast yazıçının Marsda dəfni", Varisin "Sonuncu mogikan", Aslan Quliyevin "Duman" kimi maraqlı quruluşu və ideya məzmunu i seçilən, dil-ifadə baxımından səlisliyi ilə seçilən hekayələrdir.

Yaxşı hekayə ustası kimi qəbul edilən Elçin "Çingizxanın daşları" hekayəsi ilə sanki öz-özündən hesabat alır, öz dünyasını, yaşadığı həyatı sorğulayır. Həyatına başqa pəncərədən baxmağa cəhd edir. Eyni məqsədi gənc yazarlardan olan Günel Eminlinin "Cənnətdə payız" toplusunda yer alan "Naxış"sız çilçıraq" hekayəsində də görə bilirik. Varlı, hər cəhətdən təmin olunmuş bir ailənin tavanında asılan və evdə yaşananlara yuxarıdan baxan çılçıraq sanki bir canlı kimi gördüklərindən, eşitdiklərindən təssüflənir. Ona görə də biz də çalışaq ki, həyatımıza bir qədər kənardan, üçüncü şəxs kimi baxaq. O zaman bütün çatışmazlıqlarımızı, mənfilərimizi, doğru hesab etdiyimiz yanlışlarımızı görə bilərik.

Artıq bir neçə ildir ki, yazdığı hekayələrlə diqqəti cəlb edən Çinarə Ömray haqqında danışdığımız 2017-ci ilə öz töhfəsini vermiş, "Məcnunxana" adını verdiyi hekayə kitabını ictimaiyyətə təqdim etmişidir. Maraqlı mətnlərin yer aldığı kitabda 6 yaşında sevdiyi hər şeydən evindən, həyətindən, doğulduğu torpaqdan, demək olar ki həyatında əl çəkmək məcburiyyətində qalan, baş verənləri tam dərk edə bilməyən qızın düşüncələrini oxuyuruq. Düzdür, kitabda başqa mövzularda yazılmış hekayələr olsa da Çinarənin əsərlərinin ana xəttini müharibə və onun yaşatdığı faciələr təşkil edir, biz "Tirdə dirilmə", "Erməni tut ağacımızı vurdu", "Məcnunxana", "Ağcaqanad" hekayələrində bu ağrı-acını yaşamış kiçik qızın iztirablarını görə bilirik. Təqdirəlayiqdir ki, Çinarə müharibənin özünü, banal süjetləri, qanlı-ölümlü döyüş səhnələrini təsvir etməkdənsə, daha çox insanların yaşamalı olduğu həyatın acılarını əks etdirməyə cəhd etmişdir.

Xüsusən "Məcnunxana" hekayəsi bu müharibənin dəhşətlərini yaşayan, əzablarının iliklərinə qədər duyan insanın faciəsini anladır. İlk növbədə əsərin adı diqqəti cəlb edir – "Məcnunxana". Elə ilk sətirlərdən məlum olur ki, Məcnun həkimin adıdır. Lakin fikrimizcə, ruhi xəstələrin yaşadığı bir məkana dahi Nizaminin qəhrəmanının adını verməklə Çinarə sanki burda yaşayanların əksəriyyətinin dəli yox, itirdiklərinin dərdindən Məcnun olduqlarının göstərməyə çalışmışdır.Onları duyan, dinləməyi bacaran biri üçün təbii ki bu məcnunlar nə vaxtsa dönüb Həsən, Gözəl ola biləcəklər. Maraqlı süjeti olan hekayə xəstəxana həyatında cərəyan edir, xəstələri müşahidə etməyə gələn jurnalistin diqqətini cəlb edən Həsən kişi olur. Ölə bilmədiyi üçün əsəbləri pozulan bu adam əslində bütün həyatı boyu itirməkdən, sevdiklərinin acısını yaşamaqdan təngə gələn, bu həyatda yaşamaq istəməsə də nəfəs almağa məhkum olan bədbəxt bir insandır. Bütün əhvalatlar jurnalist qızın qayğısı, mehribanlığı nəticəsində Həsənin öz dilindən verilir, boş kağızdan həyatını "yazdığı məktub"u oxuyan Həsən yaşadığı hadisələri yavaş-yavaş nəql etdikcə sanki içində yığılıb qalmış hisslərdən, düşüncələrdən qurtulur. Bir növ yüngülləşir və dəli kimi vurnuxmaqdansa çıxış yolunu tapır, özünü binanın başından atmaqla sevdiklərinə əbədiyyən qovuşur.

Çinarə Ömrayın kitabında diqqəti cəlb edən başqa bir hekayə idə "Dörd divar" və "Daş ağrısı" hekayələridir. Müasir ədəbiyyatımızda, xüsusən qadın yazarların yaradıcılığında qadın hüquqsuzluğu, vurulan, döyülən, təhqir edilən qadınların həyatı hər zaman ən aktual mövzulardan olmuş və fərqli münasibətlər sərgilənmişdir. Çinarənin he-

kayələrində isə bu məqam öndə deyil, hadisələrin alt qatında yatan səbəb kimi diqqəti cəlb edir. Daha çox özünü ifadə edə bilməyən, ətrafındakı heç nəyi sevə bilməyən, inanmayan bir qadının duyğularının ifadəsinə çalışan Çinarə cəmiyyətimizdəki el qınağı, mentalitet məsələlərinə də toxunur və baş verən əksər bədbəxtliklərə bu mənasız ittihamların, qınaqların səbəb olduğunu bildirir. Divarın obraz kimi qəbul edildiyi, təhkiyəçi kimi çıxış etdiyi "Dörd divar" hekayəsi maraqlı strukturu ilə seçilir. Xoşbəxtliyi görən, ona şahidlik edən divarlar, bədbəxtliyin də ən yaxşı müşahidəçiləri olur. Cəmiyyətimizdən ön yarğılı insanlarından fərqli olaraq ən pisi, yaxşını, sədaqəti, xəyanəti də görə bilirlər.

Ailə-məişət mövzusuna əsaslanan Yaşar Bünyadın "Ata" hekayəsi ənənəvi mövzuda olsa da, hadisələrin uşağın dilindən verilməsi, uşaq düşüncələri ilə ailə faciəsinin təsviri real olduğu qədər, təsiredicidir. *"Sənlə ancaq yuxularımda danışdım. Ürəyimdən keçənləri, demək istədiklərimi yuxularımda uydurduğum həlim, xoşxasiyyət adamla bölüşdüm.həmişə yanımda olsan da, o qədər uzaq idin ki! Bəzən elə bilirdim bizə qonaq gəlmisən, bir az qalıb gedəcəksən".* Uşağın ata nisgili, ata həsrəti, sevgisizliyin uşaq qəlbində oyatdığı hisslər dəqiq konturla cızılıb. Müəllifin çatdırmaq istədiyi mətləbə nail olduğunu əminliklə deyə bilərik . Çünki məhz bu məqam üçün müəllif həmin uşağın öz oğlu ilə münasibətlərini də təvir etməklə iki ata, iki həyat tərzi, iki ata-oğul münasibəti arasındakı fərqi diqqətə çatdırmağa müvəffəq olur.

Nəticə olaraq deyə bilərik ki, yola saldığımız 2017-ci il Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafında

yeni mərhələ kimi səciyyələndirilə bilər. Bu ilki hekayələrdə əsas məqam obrazların mənəvi dünyasına daha çox önəm verilməsi, şüuraltı düşüncələrin ön plana çıxarılması ilə xarakterizə olunur. Mövzu və ideyaca olduğu kimi, poetika baxımından da ilin hekayəsi orijinal bədii xüsusiyyətləri ilə seçilən bir hekayət yaşamışdır.

Nərgiz CABBARLI
Filologiya üzrə fəlsəfə doktoru

ROMAN JANRI – YENI TEXNOLOGİYALAR, YENİ POETİK XÜSUSİYYƏTLƏR

Son illərdə yaşanan roman bumu artıq əvvəlki intensivliyi ilə davam etməsə də, digər janrlarla müqayisədə ona maraq yenə də hissedilən dərəcədədir.

Statistik göstərilərə nəzər salınarsa, ötən il "Azərbaycan" jurnalında və kitab halında bir çox romanlar dərc edildi ki, bunların əksəriyyəti öz bədii dəyəri baxımından roman janrının inkişafı istiqamətində atılmış əhəmiyyətli addımlar, əldə edilmiş böyük nəticələr kimi qiymətləndirilə bilər. Çünki yaradılan nümunələrin əksəriyyəti müəlliflərin yazıçı həmkarları tərəfindən adlandırıldığı kimi "hadisə" olmasa da, fərqli yaradıcılıq eksperimentləri, həm də profesionalcasına edilmiş eksperimentlər kimi yadda qaldı. Bundan başqa, nəzər saldığımız nümunələr o qədər spesifik xüsusiyyətlərə malikdir ki, onların əsasında roman janrının əldə etdiyi keyfiyyət dəyişikliklərini, texnoloji baxımdan qazanılan yenilikləri, poetik dəyişimi müşahidə etmək və ümumiləşdirmələr aparmaq mümkündür. Bu əsərlər roman janrının təkamülündə əldə edilən ümumi xüsusiyyətlərin mövcudluğunu artıq meydana qoya bilir.

Ötən il dərc edilən romanlar arasında "Azərbaycan" jurnalında çap olunmuş əsərlərin – Mübariz Cəfərlinin "Nur", Alpay Azərin "Həyat epiqrizi", Hüseynbala Mirələmovun "Qazi Bürhanəddin səltənətinin süqutu" romanları, nəşrlərdən Sabir Rüstəmxanlının "Akademikin son əsə-

ri", Şərif Ağayarın "Arzularımdan sonrakı şəhər", Zahid Sarıtorpağın üç romanı – "Dərdin sarı çəpkəni", "Kül", "Qarğa marşrutu" romanlarının dərc edildiyi "Dərdin sarı çəpkəni" və Yunus Oğuzun "Atabəy Eldəniz" kitablarının adlarını qeyd edə bilərik.

Bu əsərlərlə ötən illərdə dərc edilən romanlar arasında müəyyən analoji müqayisələr apardıqda çox maraqlı nəticələrə gələ bilirik.

Faktlara əsasən qeyd etmək olar ki, tarixi roman janrına yenə də diqqət ön planda oldu. Və yenə də tarix yalnız tarixi roman janrında deyil, müasir romanda da aparıcı və müəllif məramının reallaşdırılması üçün istiqamətverici fon – funksiya rolunu oynadı. Amma bu ağır, məsuliyyətli istiqamətdə uğurlu nəticələr müşahidə edilmədi. Daha dorğrusu, yaradılan əsərlər (bu mənada adını artıq qeyd etdiyim iki əsəri xatırlaya bilərik – "Şəmsəddin Eldəniz" və "Qazi Bürhanəddin səltənətinin süqutu") sadəcə, tarixi faktların sadalanması, təkrarlanması, müəyyən talelər fonunda qabardılması ilə – həm də müəyyən mənada, bəsit bir dil-üslub aparıcılığı anlamında – seçildi. Başqa bir fərqləndirici xüsusiyyəti ilə yadda qalmadı.

Digər əsərlər əsasında gəldiyimiz qənaət isə belədir: yenə də ənənəvi roman texnologiyasının dağılması, yenidən qurulması, rekonstruksiya edilməsi prosesi aparıldı ki, burada həcm etibarilə kiçilmə, struktur etibarilə sadələşmə, problemə, qəhrəmana, süjetə, situasiyaya və s. yanaşmada qloballıqdan lokallığa enіş yenə də müşahidə edildi. Ən çox diqqəti çəkən bir süjeti "tutaraq" irəliləmə, bundan da daha qabarıq olan isə iki bir-birinə təmas etməyən – daha doğrusu, zahirən təması olmayan süjet xətlərinin təqdi-

mindən, roman içində roman texnologiyasından istifadədir. Əlbəttə, bunu roman içində roman adlandırmaq məqsədəmüvafiq olsa da, iki fərqli zaman və məkan müstəvisinə malik, bir-biri ilə heç bir təması olmayan süjetlər arasında konkret simvolik, əlamət keçidlərinin müəyyənləşdirildiyi, yalnız o konkret simvollar (simvol obrazlar) vasitəsilə paralel xətlər arasında kəsişmə olmasa da, eyni nöqtələrin (məqamların) mövcudluğu diqqəti çəkdi. O da nəzərə çarpdı ki, seçilən bu simvol-obrazlar əsərin əsas və aparıcı ideyasını çatdırmaq üçün də bir vasitə kimi müəyyənləşdirilib (məsələn, Şərif Ağayarın "Arzularımdan sonrakı şəhər"ində ağzı bağlı çəhrayı atlar – təsvir edilən hər iki xəttdə, hər iki zaman və məkanda ona işarə edilir. Bu atlar azadlığın, "qaçış istəyi"nin, "istədiklərini yeyə-deyə bilməmənin" simvoludur – həm qədim dövr üçün, həm də müasir zaman üçün). Yəni təsadüfi xarakter daşımır. Beləliklə, müəlliflər sanki bu simvolik obrazları mətnə məhz zamanlararası, məkanlararası lazımi keçidlərin reallaşdırılması üçün gətirmiş olurlar. Zaman və məkan bir-birindən çox fərqli olsa da, bəşər övladının təkrar-təkrar eyni taleyi yaşadığının və eyni problemlərdən, çətinliklərdən adladığının sübutu kimi....

Müşahidə edilən maraqlı bir dəyişim dil və ifadə-təsvir texnologiyası ilə bağlı oldu. Əvvəlki illərdə xarakter zənginliyindən və çoxqatlılığından qurtulma, dil qatında bəsitliyə doğru addım atılması və poetik ifadə texnikasından uzaqlaşma müşahidə edilirdisə, ötən il bu xüsusiyyət nisbətən arxa plana adlamış oldu. Bütün müəllflərə aid edilməsə də, ötən il dərc edilən romanlarda – burada əlbəttə ki, müəllifdən gələn üslub da ön plandadır – dilin zən-

ginliyi, poetik ifadə mürəkkəbliyi, çoxqatlılığı və çoxrəngliliyi diqqəti çəkdi. Müəyyən müəlliflər oldu ki, son illərdə dərc edilmiş romanlarının (məsələn, Zahid Sarıtorpaq, Şərif Ağayar) fərqli, formalaşmış, öz xüsusi özəllikləri və fərqlilikləri olan, başqalarınınkından məhz poetik ifadə yükü, təsvir orijinallığı, obraz fərqliliyi ilə seçilən üslub formalaşdırdığını görürük. Bir də təbii ki, dil özünəməxsusluğunu... Bununla da, müasir roman ifadə bəsitliyindən qurtulmuş olur...

Daha bir xüsusiyyət mistik romanların meydana çıxmasıdır. İnsan məninin çıxış yolu hansısa dünyaların və varlıqların mövcudluğunda arandı. İnsanların mənəvi dünyasında qurtuluş olaraq o fərqli, sirli dünyalara, sirli obrazlara üz tutuldu.

Müasir dövrün, müasir dünyanın sosial və siyasi ziddiyyətlərinin, müasir dünya və müasir insanın romanda meydana çıxması tarixə qayıdış, tarixə nəzərsalma olmadan reallaşdırılmadı.

Eyni zamanda Azərbaycan tarixinin keçid dövrünü adlamış və ziddiyyətli, mübahisəli, həmçinin şərəfli ömür yaşamış qəhrəmanların yenidən romana gəlişi müşahidə edildi. Bunu biz Azərbaycan tarixinin çox fərqli dövrlərini, şəxsiyyətlərini romana gətirmiş Sabir Rüstəmxanlının yaradıcılığının növbəti nümunəsində gördük – "Polkovnikin sön əsəri"ndə. Həmçinin Mirələmovun Qazi Bürhanəddinin, Yunus Oğuzun Atabəy Eldənizin həyatına müraciət edən əsərlərində.

Bir sözlə, roman janrı bəsit, ənənəvidən daha aşağı səviyyəli nümunələr fonunda ötən ilə çox maraqlı, fərqli nümunələri ilə öz möhürünü vurdu. Biz məhz möhür vurmaq

gücündə olan və seçilən əsərlər əsasında təhlillərimizi aparacağıq.

Bu ümumiləşdirmələrdən sonra qeyd etmək istəyirik ki, son illərin roman janrına qazandırdığı bir neçə uğurlu imza da oldu ki, bu barədə xüsusi olaraq danışmaq gərəkdir.

Onlardan birincisi şair kimi tanıdığımız, bəlkə də, şair kimi bir o qədər də uğurlu olduğunu hər tənqidçinin qəbul etmədiyi, amma roman yaradıcılığında sözsüz, iz sala bilmiş Zahid Sarıtorpaqdır. Əslində, bu yazıçının nəsrə gəlməsi onun yaradıcılığına bələdliyi olan hər kəs tərəfindən qanunauyğun hal kimi qarşılanmışdı. Çünki yazdığı şeirlərdə nəsr texnikasından yararlanma hər zaman diqqəti çəkir, bu texnikanın öz müəllifini bir gün mütləq nəsrə gətirəcəyini xəbər verirdi. Həmçinin o da vurğulanmalıdır ki, onun nəsrində də şair ruhu, şeiriyyət, şeirdən gəlmə poetik tapıntılar, obrazlar, təsvirlər bolluğu müşahidə edilir. Amma bu, onun nəsrinə qətiyyən ziyan gətirmir.

Zahid Sarıtorpağın "Dərdin sarı çəpkəni" kitabında toplanmış hər üç romanı nəinki yeni bir uğurlu romançının meydana çıxdığından xəbər verir, eyni zamanda da mistik roman janrında davamlı olaraq yazan bir romançının özünəməxsus üslub-sistem formalaşdırdığını göstərir. Hər üç roman eyni sistem daxilində işlənilibdir. Reallıq və mistik dünya, mistik qəhrəmanlar arasında əlaqə, keçid, keçə bilməmə, amma arayışda olma, o dünyanın aparıcı bir şəxsinin ardınca düşərək keçidə doğru irəliləmə və o dünyaya adlama.... Qəhrəmanların qurtuluşu məhz bu xətt üzrə reallaşır. Əlbəttə, hər üç romanda keçid anı, keçmə məqamı nə qədər həyəcanverici və qorxuducu olsa da, həm bir-bi-

rini təkrarlamadan fərqli situasiyalar fonunda baş verir, həm də hüzur və rahatlıq məhz Orada imiş kimi göstərilir.

"Kül" romanı haqqında keçən ilki məruzədə danışdığımızdan bu dəfə iki romanı təhlilə çəkmək istərdik.

Əslində, yazılma tarixinə görə əvvəlki illərə təsadüf edən "Dərdin sarı çəpkəni" ümumilikdə mühitdə maraq doğursa da, haqqında bir neçə yazıçının dostcasına sözündən və Məti Osmanoğlunun geniş məqaləsindən başqa, yazıya rast gəlmədik.

Romanda bir gün ayılaraq dünyanı sarı rəngdə görməyə başlayan bir institut müəlliminin – artıq təqaüddə olan Bulud müəllimin başına gələnlərdən bəhs edilir. O, həkimə getdiyi zaman bu nadir xəstəliyin dünyada cəmi özü daxil olmaqla yeddi adamda olduğunu – yeddi rəng məsələsi! – və onların da hərəsinin dünyanı bir rəngdə gördüyünü, ən əsası isə azarının sağalmaz olduğunu öyrənir.

"Qaranlığı artıq ruhumla deyil, canımla da həzm edə bilmirdim. Çünki qaranlığı ağlasığmaz çalarlarda görürdüm. Təbiətlə aramda ağlasığmaz bir uyğunsuzluq yarandığına inanmaq istəmirdim", – düşünən Bulud müəllim öz dərdini deməyə də bir kimsə tapa bilmir. Əvvəla, tutulduğu xəstəliyin qeyri-adiliyi ucbatından, ikincisi isə getdiyi həkimin "bunu gizli saxlayın" xəbərdarlığı üzündən. Hətta baş götürüb yanına getdiyi böyük qardaşı Umuda belə açmır sirrini. Təkcə verdiyi sözü tutmaq üçün deyil, eyni zamanda da ona görə ki, qorxur: "o da arvadına deyər, bundan sonra xəbər elə yayılar və adına "Sarıgöz Bulud"danzaddan qoşarlar"...

Əlbəttə, dünyanı sarı rəngdə görməsi bu rəngin imkanlarının, çalarlarının müəllifə – eyni zamanda da qəhrə-

mana yeni təəssüratlar, yeni duyumlar kəşf etməyə, bir rəngə daha yaradıcı yanaşmağa şərait yaradır. Bir yandan sarının fərqli çalarları təsvir edilirsə, digər yandan da seçilən hər obyetkdə roman müəllifinin təsvir və ifadə orijinallığı özünü göstərir: "Həyətdə, qocaman tut ağacının altında oturmuşduq. On dörd günlük ay elə bil Nikolayın qızıl onluğuydu – asılmışdı gecənin boynundan, bərq vururdu. Gecənin rəngi də, nəfəsi də şamama qoxuyurdu". Və hər dəfəsində də rəng yalnız rəng – görüntü olaraq deyil, öz qoxusu ilə də mətnə gətirilirdi.

Orijinallıq sarının çalarlarının təsvirində daha dəqiq görünür. Məsələn, "İçəri keçəndə başımın içində elə bil bir qəza baş verdi, beynimdə mısmırığını sallamış hansısa qatların qəfil qırışığı açıldı və sirr boxçasının düyünü çözülən şüurumdan bir-biriylə heç bir bağlantısı olmayan ərik, banan, Qubanın ağ alması, kərə yağı, iydə çiçəyi, nərgiz gülü, şamama, Kürdəmir yemişinin qabığı, Cərco yemişinin içi.... və sair və ilaxır bu kimi nəsnələrin, şair demişkən, obrazları ötdü bir anda".

Göründüyü kimi, sarının əyani nümunələrlə nə qədər fərqli çaları sadalanır bu misalda. Bu, qəhrəmanın duyumunun çoxcəhətliyi, çoxxarakterliyi ilə bərabər, müəllifin duyumunun və təsvir bacarığının rəngarəngliyini göstərir.

Yaxud dəniz kənarında olarkən, dənizə tamaşa edərkən qəhrəmanın fikrini ifadə şəklinə diqqət edək: "Xəzər bu dəfə nəhəng məcrasında mərci şorbasına deyil, açıq sarımtıl köpükləri sahili öpən pivə dənizinə oxşayırdı. Amma bu dəfə yaxınlığındaydım və bunun belə olmadığını yaxşı bilirdim, əslində, məni pivə qoxusu deyil, dərd-ələm

qoxusu vururdu bu sahildə". Yenə də rənglə bərabər, qoxunun iştirakı mütləqləşir...

Əsərlə tanış olduqda sual meydana çıxır: Nə üçün sarı? Qırmızı, yaşıl, qara və s. yox, məhz sarı? Belə düşünürük ki, burada həyat yoldaşı dünyasını dəyişmiş, övladları özündən çox uzaqda yaşayan təqaüdçü bir müəllimin maraqsız – sarı rəngli həyatından söhbət getdiyi üçün belə bir rəng seçilmişdi. Sarı həm də xəstəliyin – (saralıb-solma), dərdin (yenə də saralıb-solma) ifadəçisi kimi rəngduyum yaddaşımızda iz salmış bir çalardır. Amma dünyanı sarı görən qəhrəmanın bir təsəllisi də vardı ki: "Cəhənnəmə, hər şeyi bir rəngdə görsəm də, gördüklərimi beynimin içində öz doğma rənglərində canlandıra bilirəm, bununla da tarazlığımı ruhən qoruyuram".

Əsərdə ruhun qurtuluşu üçün məkan aranır. İkinci dünya – ruhun qurtulacağı, xilas olacağı məkan kimi əvvəlcə yuxu təklif edilir. Elə həkim də ondan böyük maraqla yuxusunun rəngli olub-olmadığını soruşur. Əgər heç olmasa yuxuda rəng varsa, bu müvəqqəti də olsa, qurtulma deməkdir. Bulud müəllim uzun zaman bu sualın cavabını düşünüb tapa bilmir. Ona elə gəlir ki, yuxuda da hər şeyi rəngsiz görür. Lakin həmin ərəfələrdə gördüyü bir yuxudan sonra ironik bir tərzdə öz-özünə: "Muştuluğumu ver, professor Bürhan Nəcəfov müəllim! Mənim yuxularım rəngliymiş! Belinə çöpdən dirək!"

Ümmiyyətlə, ironiya bu əsərin təkcə qəhrəmanının özünün özünə münasibətində deyil. Halbuki eyni xarakterik cizgi Zahid Sarıtorpağın digər romanlarının qəhrəmanları üçün də xarakterikdir. Bu ironiya hadisələrin gedişa-

tında və əvəzlənməsində də var. Məsələn, həkimin xəstəliyi haqqında eşidən kimi onu təbrik etməsitək...

Amma bu ironiya kəskin bir münasibət deyil, zəif, çox dərindən, hiss ediləcək şəkildə verilməmiş ştrixdir. Bununla belə, əhəmiyyətli ştrixdir. Çünki özünə ironiya qəhrəmanı ən çətin vəziyyətlərdən belə qurtarmağa yardımçı olur. Onu həyata münasibətdə də eyni şəkildə optimist lada kökləyir. İroniya təkcə qəhrəmanın özünə münasibətində deyil, hadisələrin təqdimində də duyulur. Məsələn, bir müəllimin kolxoz sədrinin itmiş inəyini axtaran camaatı görərək: "Ay Allah, sənə yalvarıram, məni Baləminin inəyinə döndər! Müəllim olmaqdan kolxoz sədrinin inəyi olmaq yaxşıdır", – deməsi kimi. Bu cür incə ştrixlər altında müəllif çox mətləblərə öz müdaxiləsi olmadan, özü hadisələrə qarışmadan böyük mətləblər verə bilir.

O ki qaldı sağalmaz xəstəliyi haqqında ona məlumat verən həkimin Bulud müəllimi təbrik etməsinə, bunun səbəbinin açılması üçün isə müəllif tələsmir. Bir müddət məsələni uzadaraq oxucunu intizarda saxlamağı bacarır. Həm də yaxşı bacarır. Nəhayət, məsələ aydınlaşdıqda isə (məlum olur ki, bu xəstəliyə tutulanlardan biri yapon milyoneri olub və Tokomota Uateanabe adlı bu qadın öz varidatını bu cür sağalmaz xəstəliyə mübtəla olanlara vəsiyyət edib) bu varidat nə ona, nə də o zamana kimi ağıllı, fərasətli, sözəbaxan övladlar kimi haqlarında böyük qürurla danışdığı oğullarına xeyir gətirir. Biri qumarda uduzur, digəri isə pulun bir qismini dindarlara sərf edərək özü də Suriyaya vuruşmağa gedir.

Əslində, nəql edilənlər, bəlkə, bir qədər bəsit bir əhvalat təsiri bağışlaya bilər, lakin Zahid Sarıtorpağın digər ro-

manlarında olan, burada davam etdirilən, bir-birinə ötürülən mistik elementlər, müəyyən məna daşıyan və qəhrəmanı izləyən detallar, mistik obrazlar, simvolik mənalandırmalar haqqında bəhs edilən hadisələrə tam fərqli bir rəng qatır.

Məsələn, göyərçinlər kimi... Bir zamanlar Bulud müəllimin özünü də sevə-sevə saxladığı göyərçinlər... Həyatının ən gözəl dönəminin ən dəyərli xatirəsi olan göyərçinlərlə o, Moskvada xəstəxananın qarşısında rastlaşır. Onlardan biri – axsağı onun gözünə çırpılaraq bir anlıq görmə qabiliyyətini geri qaytarır. Və burada mənalandırma – mistik çalar bəxş etmə mexanizmi ilk dəfə işə düşmüş olur. Daha sonra eyni "mistik obraz" – xilaskar onu sağalmaq üçün üz tutduğu başqa bir məkanda – kənddə qarşılayacaqdı. Eyni funksiyanı qarı mistik obrazda da oynayır. Oğlanlarının sevinə-sevinə Moskvaya yoxlanış üçün apardıqları zaman qarşı dayanacaqda göyərçin yedirdən qoca qarı ilə müalicə üçün kəndlərində üz tutduğu qarının eyni simada olması təsadüfi seçilmiş mənalandırma deyil: "Hara qaçırsan, qaç, hara gedirsən, get – tale (eyni simada) səni istənilən məkanda haqlayacaqdır".

Yaxud başqa bir obraz – Keçiqıranda qaynayan bulaq yaxınlığında açmalı olan sarı çəpkən çiçəyidir. Xilasının onda olacağını duyan qəhrəman böyük ümidlə hər gün, dan zamanı onun açılmasını gözləyir. Bulud müəllim yarı yuxu, yarı gerçəklik arasında sudan arınmağa getdiyində bir yandan dərdindən qurtulmaq istəyirsə, digər tərəfdən də pulu geri qaytarmaq lazım gələ biləcəyinin sancısına tutuşur. Ümumiyyətlə, əsərdən alınan əsas məna pulun xoşbəxtlik, hüzur gətirməməsi düşüncəsidir. Hər halda, pulu

əldə etdikdən sonra kiçik oğlunun Suriyaya getməsi, digər oğlunun isə aşiq olduğu qızla birlikdə pulun qalanını da götürüb Rumıniyaya qaçması Bulud müəllimin düşüncəsində olan bir fikri təkrarən təsdiqləyir: "Pul kopoyoğlu şeydi! Pul hələm-hələm adamı adam eləmir, amma cinayətkar eləyir, dəyyus eləyir, oğraş eləyir..."

Göyərçin mistik obrazı bir də ona görə qurtuluş olacaq mistik dünya ilə bağlantının simvoludur ki, sonda qəhrəman onun kimi qanadlanır. Qanadlanır – xəyalında və qurtuluşu olan dünyaya – o dünyaya uçur. İki qoşa qanadlarını yana açaraq suyun içərisindən qalxan qəhrəmanın təsvir edilən obrazı, həqiqətən də, çox təsirli idi. Elə əsərin əvvəlində "Mən heç vaxt göy üzünün quşlarına həsəd aparmadım, düşündüm: gec-tez ruhum onlardan ucalarda uçacaq, sözsüz..." epiqrafı da bu uçuşu şərtləndirən düşüncələrdən biri kimi mənalandırıla bilər. Yaxud başqa bir məqamda qəhrəmanın dilə - düşüncəyə gətirdiyi sözlər bu mənalandırmanın ilk kodunu və ilk açarını təqdim edirdi: "Lap göyərçin yüngüllüyündə idim, hər qanadımdan bir oğlum tutmuşdu..."

Sergey Bulqakov yazırdı ki, "Mistika – daxili (mistik) təcrübədir, hansı ki, bizə ruhi, mənəvi, ilahi bir dünya ilə təmas imkanı, eyni zamanda da daxilən (yalnız zahirdə deyil) təbii dünyamızın dərk edilməsi imkanını verir". Bulud müəllim üçün də bu dərk mistik obrazlar vasitəsilə, onlardan keçərək reallaşır. O da "Yanğın düşmüş meşədə son anda sağ qalmaq üçün qaçaraq eyni mağaraya, eyni kahaya, eyni yuvaya, koğuşa, yarğana, kalafaya, dəlməyə təpilən qurdla dovşan" kimi: "Dar macalda deyəsən, insan da

Dərdinə eləcə sığınır" qənaətinə gələrək öz dərdinə sığınır..

Bu qəhrəman da, onun həyatında baş verənlər də cəmiyyətdə gedən proseslərin təzahürü, nəticəsi idi. Ümumiyyətlə, Zahid Sarıtorpağın digər əsərləri üçün də xarakterik bir xüsusiyyət budur: hadisələri şərh etmək, izah etmək yox, onun qurbanı, taleyi ilə hadisələr içərisində bişmiş insanları nəticə olaraq ortaya çıxarmaq... Tənqidçi Məti Osmanoğlunun düşüncəsinə görə: "Buludun Moskvadan kəndə qayıdışı, gözlərinə əlac etdirmək üçün yaşlı bir qadından türkəçarə qəbul etməsi, onun məsləhəti ilə qüsl olunmaq, təmizlənmək üçün Qaynayan nohurun üstündə qurulmuş çiməcəyə getməsi, suyun kənarında gözlərinə şəfa olacaq sarı çəpkən çiçəyinin açılmasını gözləməsi və əsər boyu gördüyü yuxular onun daxilindəki təbəddülatları, fiziki ölüm və mənəvi dirilmə prosesini oxucunun gözləri qarşısında əyaniləşdirir". Və bu, həqiqətən də, belədir.

Bulud müəllimin ruhunun qaçış istəyi yalnız gözünün dünyanı sarı rəngdə görməsi ilə bağlı deyil. Əsərdə fiziki bir xəstəlik kimi görünən bir hadisənin mahiyyətində mənəvi qaçış durur. Və bu da əsərdə ştrixlərlə, zəif çalarlarla vurulmuş bir neçə cümlədə gizlədilibdir: "Mən həmişə Bakıda özümü qonaq kimi hiss etmişəm, elə bil beynimin içinə həkk olmuş bir qəriblik kodu var canımda və bu şəhərdə bu kod həmişə aktivdi. Bu üzdən də Bakını həmişə özümün, ruhumun doğma deyil, qondarma ocağı hesab eləmişəm, həmişə elə bilmişəm ki, gəlib-gedəriyəm, bunları gözəl günlərin birində atıb gedəcəm doğulub-böyüdüyüm yerlərə və hər şey də bununla sona çatacaq".

Əslində, dünyanı sarı rəngdə görmənin mənəvi səbəbi də elə budur. Əlacın – sarı çəpkən gülünün Moskvada deyil, pulun olduğu yerdə deyil, məhz Keçiqıranda bitməsi qəhrəmanın getdiyi yolun və xilasının trayektoriyasını beləcə cızır.

Müəllifin maraqlı texnikası var. Məsələn, keçidin olmaması. O öz əsərlərində yuxu ilə reallıq arasında keçidlər vermir. Hadisələrin nəqlinin içərisindən birdən-birə yuxuya adlayır. Birdən-birə oxucu özünü yuxunun içərisində tapır. Halbuki, adətən, keçid üçün müəllif müdaxiləsindən istifadə edilir. Bu mətndə isə bəzən bir çaşqınlıq içərisinə düşsən də, qəhrəmanla birlikdə artıq yuxuya adladığını çox tez bir zamanda dərk edə bilirsən. Bu texnika oxucu ilə qəhrəman və onun yuxusu-dünyası arasında birbaşa kontaktın yaradılmasına yardımçı olur.

Zahid Sarıtorpağın dili çox maraqlıdır. Xüsusilə, ifadə və təsvir texnikası... "Başım ağrımırdı, amma heç nə düşünə bilmirdim, elə bil beynim yağmalanmış, talan edilib viran qoyulmuş boş bir karvansaraydı və bu karvansarada böyük darvazalar vardı, taybatay açıq qalmışdı bu darvazalar, canımdacan adda heç nə yoxuydu, hər şey sovrulub getmişdi, əvəzində sarı bir meh əsirdi, sanki göy üzündən içimə mübhəm bir nəfəslik açılmışdı, o sarı meh içimə də dolurdu, içimi quru buxar kimi yandıran o qəribə istiliyi həmin nəfəslikdən qovub aparırdı və yavaş-yavaş üşüdürdü məni... Eləcə heç nəyin dərininə vara bilmirdim, su üzündə quş lələyi kimi bir ovqat içindəydim"... "Su üzündə quş lələyi" ovqatı, "Bir fikir məni içimdən buynuzlamağa başladı" ifadəsi, "Ay bürünc tabaq kimiydi, asılmışdı ucu-bucağı görünməyən Keçiqıran dərəsinin üstündən,

sanırdım ki, külək ona çırpılsa danqıldadacaq" bənzətməsi və s. müəllifin çox uğurlu təsvir-ifadə texnologiyasına malik olduğunun təsdiqidir.

O da maraqlıdır ki, Zahid Sarıtorpağın romanlarının dilində bir çox dialektlərdən istifadə edilir. Bunu əsər üçün nöqsan tutanlar tapılsa da (məsələn, Məti Osmanoğlu), fikrimizcə bu sözlər artıq, yad, yamaq kimi görünmürdü. Əksinə, mətnə maraqlı bir çalar qatırdı. Məsələn, "Marketə konfet-şokalat dalınca dabrıdım", "Tərs balası tərsdi, nüzuldu", "Bir fikir canımı mürgünə kimi yeyir", "Moskvanı çalpaşıqlı bir payız bürümüşdü" və s.

Bundan başqa, müəllif tərəfindən həyat hadisələrinin bəzən o dərəcədə qəribə, şapalaq effektli müşahidələri və təsvirləri verilir ki, bu, bütün əsəri də, qəhrəmanı da yaddaqalan bir macrəya itələyir: "Heç kimə deyib başa sala bilməyəcəyim bir xatirəm var Şəfiqəylə bağlı: onu qəbrə qoyanda kəfəndən qalxan məhrəm bir qoxunu içimə necə çəkmişəmsə, həmin qoxu gəlir burnumun ucuna və o an elə bil yetimliyimi, yalqızlığımı, kimsəsizliyimi duyuram, indi də, elə bil, o qoxu burnumun ucunda puçurlayırdı..."

Bu qoxu qəhrəmanı hər zaman izlədiyi, kövrəltdiyi kimi oxucunun da yaddaşına öz təəssürat ağırlığı ilə dərindən iz salır. Hətta əsərin adı çəkiləndə ilk yada düşən səhnələrdən biri kimi hafizələrə köçür...

Qeyd etdiyimiz kimi, roman haqqında əsasən yazıçılar, məsələn Cavid Zeynallı, Şərif Ağayar düşüncələrini qələmə alıblar, tənqidçilərdən isə Məti Osmanoğlunun maraqlı bir məqaləsi ilə qarşılaşdıq. Halbuki roman daha böyük diqqətə və marağa layiq əsərdir.

***

"Qarğa marşrutu" Zahid Sarıtorpağın haqqında söz açmaq istədiyimiz ikinci romanıdır. Roman "Azərbaycan" jurnalında povest adı ilə dərc edilibdir, yəqin ki, haqqında bu cür də söz açılacaq. Amma kitabda roman kimi təqdim edildiyindən və roman sərhədlərinə yaxın gəldiyindən biz də bu əsəri təhlil etmək istəyirik.

Əsərdə cəmiyyətdən, həyatdan, gördüyü haqsızlıqlardan təsirlənərək öz ağrısını, qisas hissini, yanğısını dişləri vasitəsilə – qəzəb duyduğu adamı dişləyib qanını sormaqla ifadə edən bir vampirdən söhbət gedir. Beləliklə, biz ədəbiyyatımız üçün o qədər də xarakterik olmayan bir obrazla qarşı-qarşıyayıq. Amma istər ədəbiyyat, istərsə də bu yazıçının yaradıcılığı üçün xarakterik olan cəhət cəmiyyətdən, ağrıdan, haqsızlıqdan qaçışın yollarının aranmasıdır. Özündə gedən bu prosesin fərqinə varan qəhrəmanın nicatı isə yenə də hansısa mistik bir obraz – bu dəfə qoca kişi vasitəsilə başqa bir dünyaya adlamadadır. Elə bir adlama ki, qocanın ardınca dəfələrlə düşüb getsə də, buna nail ola bilmir, qorxur.

Nihat hər dəfə haqsızlıqla qarşılaşanda onun dişlərinin dibi gizildəyir.

Əslində, Nihatın qana olan meylinin səbəbinin gördüyü haqsızlıqlar və onları qəbullana bilməməsi olduğunu göstərməklə müəllif cəmiyyətin insanı hansı hallara sala bildiyini göstərməyə çalışır. Xatırlayaq: ilk dəfə bu hiss – qan istəyi Nihatda nə zaman meydana gəlir? Atalığının haqsızlığını gördüyü zaman və buna qarşı çıxan birinə öz cavabını vermək istədiyində.

Atadan yetim qalan, anası tez bir zamanda başqa birinə ərə gedən, atalığından pis münasibət, anasından isə soyuqluq görən biridir Nihat. Qurtulmaq üçün bibisinin evini özünə son çıxış yolu hesab edən, sonra isə onun oğlu ilə birlikdə Bakıya gələrək burada xaçapuri satmaqla özünü dolandırmağa çalışan bu yeniyetmə özündə gedən dəyişikliklərdən, iki dişinin uzanmasından qorxur. Səbəbi bilməsə də, prosesi dəqiq hiss edir və ehtiyatlanır. Digər romanda xilaskar qismində çıxış edən qoca qarı bu dəfə qoca kişi kimi onun gözünə görünür. Həyatının müxtəlif məqamlarında gah: "Denən dişini həkimə göstərsinlər", – deyərək məsləhətlə qarşısına çıxır, gah da ardınca salıb gölün üstü ilə harasa aparmağa çalışaraq xilas etmək istəyir. Romanda "suyun xilas olma, arındırma" arxetipi növbəti dəfə yaddaşda oyadılır. Bu dəfə də müəllifin digər əsərlərində olan mistik elementlər – qəhrəmanlar, obrazlar bu əsərə də ötürülür. Müəllif öz üslubuna sadiq qalaraq eyni yolu davam etdirir. Ətrafındakı adamlar, münasibət qurduğu qadın, özünü intihar edən deputat, eyni zamanda da onların qana olan tələbatı... – bunlar hamısı mistik bir şəkildə oğlanın həyatı ilə əlaqələndirilir. Hər dəfə daxili sarsıntı keçirəndə "Almurad kişinin qanının dadını təzədən ağzımda hiss edirdim" – deyən Nihat belə zamanlarda bəzən özünü saxlasa da, ordunu dişləyərək qanadandan, qanın dadını hiss edəndən sonra sakitləşə bilir.

Müəllif qəhrəmanını təkcə gördüyü haqsızlıq qarşısında qaniçənə çevirmir, eyni zamanda da həm daxilən, həm də zahirən qocaldır: "Anam haqqında belə danışılanda elə bilirdim ki içimi qırış basır", – deyən Nihat, əslində, zahirən də sürətlə yaşlanırdı: "Əslində, məni təkcə içdən qırış

basmırdı, elə bil, üzdən də qocalırdım, yaşlı görünürdüm. Bunu atam öləndən, anam tez-tələsik Şükürə ərə gedəndən sonra başa düşmüşdüm. Güzgüyə baxanda özümdən qorxurdum".

Əslində, qəhrəmanını qaniçənə çevirməklə müəllif mənəvi sıxıntılardan, cəmiyyət tərəfindən həyatın dibinə itələnən birinin daxili sarsıntılardan qurtuluş yolunu təqdim edir və bununla çox böyük sosial, mənəvi problemlərin qaldırılmasına nail olur. Çünki qəhrəman qaçış yolu arayır (eynilə Zahid Sarıtorpağın digər qəhrəmanları kimi). Bu qaçış ya özünü unutmaqda, ya da başqalarına zülm etməkdə mümkün ola bilir. Əsərin qəhrəmanı hər iki yolu da sınaqdan çıxarır: "Nə yaxşı ki bazar varmış... Onun tünlüyündə hər şeyi unudurdum, Şümürün də, anamın da üzü yadımdan çıxırdı. Əvvəllər onları elə bil bir boxçaya düyünləyib daş kimi ürəyimdən asmışdım. İçimdə eləcə də gəzdirirdim, sonra elə bil bu boxça yırtıldı, onları salıb itirdim"... Və bu ağrı içərisində onu daha çox incidən doğma anasının laqeydliyi, soyuqluğu idi... Lakin soyuq ananın yerini (həm də sevgili olaraq!) onun xala adlandırdığı Sima tutur. İlk andanca içindəkiləri görərək onun ən böyük təskinlik verəninə çevrilir: "Yox, Nihat, qorxma, heç nədən qorxma. Unutma ki, ovçunun tulası varsa, dovşanın da Allahı var. O qoca səndən ötrü göndərilib, başa düşürsən? Onu səndən başqa heç kim görə bilməz. Sən o qədər safsan ki, gözlərinə gündüzün günorta çağı pak varlıqla görünür həmişə... çünki sən həyatın dibindəsən. Həyatın dibi isə hər adama qismət olmur, hər adam enə bilmir ora".

Hər dəfə Nihat çətinliyə düşəndə, kimlərləsə qəzəbinə yenik düşərək dalaşanda və qanını dadanda – dişləyəndə onun xilasına məhz Simanın yetişməsi, Nihatın isə Simanın özünü belə incitməsinin səbəbi sonda açılır – sən demə, Sima da gözə görünməməli olan, qan dadan varlıqlardan imiş...

Əsərin qayəsini açan bir çox maraqlı ştrixlərdən biri Siyavuşun – Nihatın bibisi oğlunun dilindən yazılan "Mən kiməm?" başlığı altında olan ön sözdür: "Mən bir tənək ömrü yaşayıram, əyilə-əyilə, burula-burula, yad gövdələrə sarmaşa-sarmaşa... Hara yönəltsələr ora dırmaşır, özgə budaqlardan sallaşa-sallaşa günümü-güzəranımı keçirirəm, amma içimin şəhdi-şəkərini insanlara salxım-salxım, ruhumun dumanlı sehrini isə qədəh-qədəh daddıra bilirəm. Ona görə də deyirlər: Sən tənək ömrü yox, yetənək ömrü yaşayırsan". Düşünüb, düşünüb, razılaşıram".

Əslində, bu fikir Siyavuşa aid edilsə də, Nihatın həyatını xarakterizə edən əsas fikir kimi çıxış edir. Halbuki ilk baxışdan göydəndüşmə, əsərə sonradan vurulmuş əlavə təsiri bağışlayır. "Mənim həyatım, bəlkə də, həyat deyildi, qabaqcadan yazılmış bir film ssenarisiydi, ondan qıraға çıxan kimi başıma nəsə gəlirdi, bu vaxt elə bil ekrandan yıxılırdım çölə, amma heç kim məni görmürdü".

Romanda bir çox sosial problemlər qaldırılır, sosial mesajlar verilir. Məsələn, Əzizağanın başına gələnlər, onun fəhləlik, hamballıq edərək çörəkpulu qazanmaq istədiyi zaman cəmiyyətin "yuxarı" təbəqələri tərəfindən təhqir edilməsi, alçaldılması kimi... Çıxılmazlığın ən böyüyü görülən haqsızlığın qarşısında haqqın aranması yox, gücsüzlüyün böyüklüyünü dərk edərək ümidin arzuya bağlan-

ması, ilahi ədalətin istənməsidir: "Əhd elədim ki, yəqin, bir gün gələr, başıma oyun açan o cür danaların Allahın qəzəbinə gələn gününü, villalarının od-alova bürünən gününü görərəm, onda bu pulları yetim-yesirə nəzir-niyaz kimi paylayaram, ürəyimdən tikan çıxar" sözlərindən sonra Nihat "Arxayın ol", desə də, 200 dolları götürsə də, bu fikirləri içərisində çabalayır: "Ancaq onu bilirdim ki, bu iki yüz dollar mənimlə ölənədək qalacaq, çünki Əzizağanın arzusu, əhdi ağlabatan deyildi, onun ümid bağladıqları bir şalbanın, bir tirin üstünə minib Sakit okeanı eninə üzmək xülyası kimi bir şey idi. Bunu sonralar daha dərindən dərk etdim".

Bəli, oxucuya bir çox sosial mesajlar ötürən bu romanda qəhrəman ölümdən və qaniçənlikdən qurtulsa da, bunun haqsızlığın tüğyan etdiyi bir cəmiyyət üçün aktual problem olaraq qaldığı oxu prosesindən sonra da oxucunun təəssüratında uzun zaman yaşayan əsas fikir olaraq görünməkdədir.

Yeri gəlmişkən, qeyd edək ki, roman haqqında tənqidin elə bir reaksiyası ilə qarşılaşmadıq. Yalnız Mətanət Vahidin bir yubiley yazısı daxilində bu əsərin təhlilini apardığını deyə bilərik.

***

Son illər bir çox romanları, xüsusilə də tarixi və tarixi şəxsiyyətləri əks etdirməsini qarşısına məqsəd qoyan, romanları ilə yadda qalan müəlliflərdən biri də Sabir Rüstəmxanlıdır. O, bu dəfə "Akademikin son əsəri" adlı ro-

manla gündəmə gəldi. Hərçənd ki, tənqid bu əsəri hələ ki susqunluqla qarşılayıb.

Ziyad Şıxlı adlandırdığı və prototipi hər anlamda Ziya Bünyadov olan romanda müəllif yenə də öz dəstxətinə sadiq qalaraq özünü və qəhrəmanını narahat edən problemlər, genetik dəyişim, genefondun məhvinə yönəldilmiş siyasət aparan sovet rejimi, repressiyaların reallaşdırılması, arxivlərin açılması məsələsinə toxunur, bütün həyatı boyu tarixin qədim qatlarını araşdırmaqla məşğul olan bir akademikin həyatının son dönəmlərində KQB arxivlərində çalışması, qırmızı terrorun törətdiklərini meydana çıxarması, bununla bərabər, necə bir dövlət, millət, xalq fədaisi olması haqqında bəhs edir. Müəllif qəhrəmanının xarakterinin çox dəqiq, canlı, real təsvirini yarada bilir. Romanda təkcə millətin düşünən beyinlərinin məhv edilməsi, repressiyaya məruz qalması faktı deyil, eyni zamanda da reallaşdırılan köçürülmə siyasəti, onun qurbanına çevrilən ailələr, nəsillər, tayfalar, onların Fuad kimi sağ qalan və milli təəssübkeşlik hissini itirməyən, eyni zamanda da Ziyad Şıxlının əqidə, mübarizə, xarakter davamçısı olan gənclərin mövcudluğu – ümid də elə bunadır! – məsələlərinə toxunur. Onun vətəninə qayıdaraq bir zamanlar babalarının burada basdırdığı, gizlətdikləri əlyazmaları – izləri axtarması (bu əlyazmalar keçmişə qayıdışın və tarixi yaddaşın qorunmasının simvolik obrazıdır), bu axtarışdan bir an belə geri çəkilməməsi, bu yolda, mübarizə meydanında Ziyad Şıxlı kimi alimi özünə ustad seçməsi təsadüfi deyil.

Bədii yaradıcılıqla da məşğul olan Ziyad Şıxlı öz repressiya arayışlarının məğzində duran böyük faciələri o qədər ağrı, o qədər əzabla mətnə ötürür ki, Sabir Rüstəmxan-

lının bir çox əsərlərində olduğu kimi, burada da qəhrəmanla müəllifin müəyyən məqamlarda eyniləşməsi, üst-üstə düşən, onları birləşdirən xarakterik xüsusiyyətlərin ortaya çıxması müşahidə edilir. Halbuki bir müəllif olaraq və "Azərbaycan" qəzetində fəaliyyət göstərmiş mübariz kimi müəllifin özünü də bir obraztək baş verən proseslər içərisində görmək mümkündür.

Bundan başqa, romanda başqa bir xətt də genefonda müdaxilə məsələsidir ki, bu, bir çox yazıçıların diqqətini çəkən bir problem kimi qabardılıb. Nağıl kimi mətn içində mətn tək verilən bu əhvalatda Şirbala adlı (ironiya ilə Şir bəla adlandırılır) nazirin oğlunun evlənməsindən, bağlılığından, övladının olmamasından və bu problemi onun özünün də xəbəri olmadan nazirin süni mayalanma vasitəsilə həll etməyə çalışmasından söhbət açılır. "Nazir bilmir ki, çevrələrində olan adamlardan neçəsinin sevərək bağrına basdığı körpə məhz bu yolla dünyaya gəlib. Yaxşıdır, ya pisdir bu iş? Hökm vermək çətindir. Bir yandan baxanda doğrudan da inqilablar bir çox ailənin həsrətinə son qoyur, ailənin dağılmaq təhlükəsinin qarşısını alır. Lakin nəslin qorunması baxımından bu bir fəlakət və ya bir çox fəlakətlərin başlanğıcıdır... Çünki bu yolla doğulub böyüyən uşaqlarının kökünün hara, hansı insana, hansı irqə, hansı soya bağlı olduğunu kimsə müəyyənləşdirə bilməz. Bəlkə heç bi maya da təbii deyil. İndi süni insan yaratmaq yarışına giriblər. Bəlkə insanları da meyvə kimi hibrid, qarışıq toxumdan almaq istədilər. Onda nə olacaq? Kim çıxacaq bu yazıq anaların qarnından?"

Bu Akademikin nağıl-roman adlandırdığı üçüncü qovluqdan çıxan əsərin – Ziyad Şıxlını narahat edən proble-

min ifadəsidir. Bu cür qlobal problemi qaldıran Ziyad Şıxlı – millətin ziyalısı (eyni zamanda da Sabir Rüstəmxanlı) millətlərin məhv edilmə yollarından birinin də bu qloballaşmaqda və genişlənməkdə olan üsulun yayılmasında görür. Məhz buna diqqət çəkir. Xatırladaq ki, eyni problem çox uğurlu bir şəkildə qırğız yazıçısı Çingiz Aytmatovun da "Kassandra damğası" adlı romanında əsas motiv kimi götürülüb və bu, həqiqətən də, diqqət yetirilməsi labüd olan, üzərində düşünülməsi gərəkən bir problemdir.

Əsərdə diqqəti çəkən əsas istiqamətlərdən biri də 1990-cı illərdə baş verən hadisələrə, azadlıq mücadiləsinə qayıdış, onların təsviri, sözün yaddaşına köçürülməsidir: "Bu il Bakı yazın gəlişini hiss eləmədi. Əlini-qoluna bağlamaqla kifayətlənməyib, həm də dilini susdurmuşdular. Ölü sükutu, məğlubiyyət xəcaləti, çarəsizlik ağrısı çökmüşdü şəhərə. Bakı çarəsizliyin və aldadılmağın dərdindən ölürdü". Bu əsər son illərdə yaranan yeganə əsərlərdəndir ki, bu hadisələr həm əks etdirilir, həm də onlara qiymət verilir. Özü də olduğu kimi və epizodik halda deyil. Sadəcə, əsərin əsas qüsuru (Sabir Rüstəmxanlının bir çox digər romanları kimi) piblisistik ahənginin güclü olmasıdır. Bu romanda texnoloji baxımdan "roman içində roman" yaratmaq üsulundan, müəyyən məqamlarda detektiv elemenlətindən istifadə müəllif üslubu üçün yeni olsa da, mətn irəlilədikcə publisistik ahən bəzən azalsa da, ümumilikdə yenə də üst qatda qalır.

***

Ötən ilin ən maraqlı əsərlərindən biri də Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanıdır.

Romanla tanış olduqca yuxarıda qeyd etdiyimiz modeldən yararlanmanın müasir roman üçün artıq xarakterik hal aldığını təkrarlamalı oluruq. İki süjet xətti, iki bir-birinə zidd dünya, zaman və məkanlar, keçmiş və müasir dünyanın paralel təqdimatı və kəsişmə məqamının yalnız hansısa simvolik obrazlar vasitəsilə reallaşdırılması... Bu, ilk baxışdan müşahidə edilən xüsusiyyətlərdir.

Biz eyni modeldə yaradılmış bir neçə əsəri xatırlada bilərik. Haqqında əvvəllər söz açdığımız Qan Turalının "Fələk qırmancı", Aydın Talıbzadənin "Əbuhübb" romanı, daha əvvəlki dövrlərə getsək, Kamal Abdullanın "Yarımçıq əlyazma"sı, Anarın "Ağ qoç, qara qoç"u...

Romanda iki süjet xətti var. Birində firon dövrünün əsir götürülən qəhrəmanı geri – torpağına qayıdış mücadiləsi aparır. Digərində isə bu günün – müasir dünyanın torpağından qaçqın düşmüş müharibə qəhrəmanı, nənəsi ilə birlikdə yaşam mücadiləsi içərisindədir. "Yaşıl vadi"nin sakini olan, müqəddəs İterü çayını xilası bilən qəhrəmanın qayıdışı ölümü bahasına olsa belə mümkünləşir. Çünki onu İterü çayına olan inamı qoruyur, sağ qalmasına yardım edir: "Ömründə ağlıma gəlməzdi ki, bir kölə ən çox at çapmağı arzulaya bilər. Bir də quş olub uçmaq keçir ürəyimdən. Cəmi bir dəfə Yaşıl vadinin üstündə dolanmaq üçün, bəlkə, həyatımı verərdim. Cələyə saldığım quşlar gəlir ağlıma. Ovladığım haçabuynuz maralların incə böyürtüsünü eşidirəm. Hərdən burnumu İterüdən əsən həzin

mehin dərinliklərinə soxub kedr çiçəyinin ətrini axtarıram. Yəqin düşündünüz; belə azad və xoşbəxt insan ikən necoldu köləyə çevrildim? Bu, uzun əhvalatdır və bu uzun əhvalat mənim ilk dəfə kölə görməyimdən başlayır".

Burada ülviləşdirmə, müqəddəsləşdirmə ana hesab edilən İterüyə yüklənir. Bu qəhrəmanın yaşantıları, düşüncələri, başına gələn hadisələr köləlik (azadlıq!) ideyasını aktuallaşdırır. Başlıca arzuya, başlıca qayəyə çevirir. Və müəllif təsvir etdiyi hadisələrlə təkcə köləliyi və azadlıq istəyini deyil, uşaq ölümünü, müharibə fəlakətini də əsərin qaldırdığı problemlər cərgəsinə qoşur. Məsələn, kölənin də insan olduğu düşüncəsi kimi: "Öküz burnu kimi İterünün üstünə uzanan Xaxas xəndəyinə çatanda atlı əsgər bayaq yaxınlaşmaq istədiyim balaca uşağı mizrağın ucu ilə itələyib tikanlı mirra kollarının arasına saldı. Müqəddəs kollar, tikanlar onu saxlaya bilmədi, uşağın qaraltısı ov üçün şığıyan ley kimi yarğanın qorxunc dərinliklərinə uçdu. Əli payaya bağlı qadınlardan biri haray çəkib qışqırdı, anam da inildədi və cəld gözlərimi qapadı. Lakin gec idi, mən gördüyümü görmüşdüm. O qışqırtıdan sonra kölələrin bizim kimi insan olduğuna zərrəcə şübhəm qalmadı. .... O uşaq ordan bir dəfə yıxılmışdısa, mən min dəfə yıxılmışdım. Yıxıla-yıxıla, anamı qışqırda-qışqırda böyümüşdüm. Böyüyə-böyüyə o uşağı da içimdə böyütmüş, ölməyə qoymamışdım. Ona xəyali ad da tapmışdım: Amanda. Niyə Amanda? Yəqin öz adıma oxşatmışdım".

Onun bütün mücadiləsi azadlıq mücadiləsidir. O yalnız bu haqda düşünür: "Sizcə, ağalarımız bizim azad olmaq istədiyimizi düşünürlər? Əsla! Kölə azadlıq xülyasına düşə bilməz. O, yalnız qaça bilər. Burdan-ora, ordan-bura.

Qaçanda da gec-tez tutub gətirir, ağır cəza verirlər. Ona görə, azadlıq eşqimiz getdikcə təsirini itirir, içimizdəki o işıq son işartısınacan sönüb gedir".

Digər qəhrəmanın geri qayıdışı isə "arzularından sonrakı şəhər" şəklində yaşayır. O, bu şəhərin arzusu ilə çırpınır. Onun uşaqkən qoyub gəlmək məcburiyyətində qaldığı, amma xəyallarında, arzularında yaşatdığı şəhər müxtəlif çalarlar, mənalandırmalar qazanır. Ümumiyyətlə, Şərifin digər romanlarında da "itmiş şəhərin", "itmiş uşaqlığın", "itmiş doğmalığın", "itirilmiş torpaqların" arayışı var. Gah "Gülüstan" şəklində, gah da başqa bir biçimdə. Amma ən əsası, hansı cildə, hansı dona, hansı qılafa girirsə-girsin, burada müəllif görünür. Onu tanıyırıq. Onun axtarışını, arayışını, yanğısını, ümidini və ümidsizliyini, özünə və ümid edən digərlərinə ironiyasının şahidi oluruq.

Çox maraqlıdır ki, müəllif müharibənin, döyüş səhnələrinin əyani təsviri ilə məşğul olmur. Amma o səs hər yerdə duyulur. Qəhrəmanın müharibə təəssüratı (elə oxucunun da) səslə yaradılır. Əslində, bu tək o qəhrəmanın deyil, müharibə aparan ölkənin əksər vətəndaşlarının müharibə təəssüratının və yaşantılarının səslə simvolizə edilməsidir. Həm də çox dəqiq bir müşahidədir: "Bəzən məhəllə uşaqları ilə qaldığımız binanın çardağına çıxıb müharibə gedən tərəflərə baxırdıq. Gecə noxud boyda səslər fındıq boyda, fındıq boyda səslər qoz boyda eşidilirdi. Gecənin sakitliyi uzaqdan gələn səslərin üstündəki uğultu tozanağını silib təmizləyirdi. Səslər bəzən ildırım gurultusunu xatırladırdı. Elə bil, göyün bağırsağı quruldayırdı. Güllələr də ildırım kimi çaxırdı. Bəzən qarışdırırdıq; bu səs ildırım səsidirmi, bu işıq müharibənin işığıdırmı?"

Demək istənilən həqiqət bundan ibarətdir.

Romanın əsas xüsusiyyətlərindən biri dövrün dəqiq, real və xarakterik cizgilərini məhz cizgi, hətta ötəri cizgi şəklində verməsidir. Amma dəqiq verməsidir: "Müharibənin içindən gələn səslər böyüdükcə, ölənlərin sayı artır, şəhərdəki adamların sayı azalırdı. Ölənlər gen-salxaq hərbi paltar geyinmiş saqqallı əfqan əsgərlərinin cildində təzədən peyda olurdular. Silahlı əfqanlar səngərə gedib döyüşmür, bütün günü şəhərin küçələrində veyillənirdilər".

"Arzulardan sonrakı şəhər"də Həsənin müasir dünyası ilə Misirdəki Amanis adlı kölənin eramızdan beş min il əvvəli azadlıq arzusu ilə paralelliyə gətirilir. İki zaman, məkan və qəhrəman arasında üst-üstə düşən məqam azadlıqla bağlıdır. Bunu isə ağzı məftillə bağlanmış çəhrayı rəngli atlar simvolizə edir. Misirdə yaşayan üçün bu atlar realdır, müasir dövrün qəhrəmanı üçünsə yuxuda görülən bir arzudur, istəkdir. At arzulanan azadlığın atributudur. Ana-azadlıq arzusu-itirilmiş torpağın xilası paralelliyi var bu arzularda: "Anam müharibə başlamazdan bir az əvvəl öldü. Çəhrayı atlar o öləndən sonra yuxuma gəlməyə başladı. Mən yuxuda çəhrayı atların qoxusunu da hiss edirdim. Məncə, bu, anamın yaddaşımın hansısa küncündə ilişib qalan qoxusuydu".

Çəhrayı rəngin bütün əsər boyu hökmranlığı isə arzunun rəngi anlamında özünü göstərir. Bu arzu – bu azadlıq arzulanan, istənən, xoşbəxtlik gətirə biləcək olduğundan, mənəvi rahatlıq vəd edən olduğundan çəhrayı rəngdədir...

Arzulardan sonrakı şəhərə o qədər adlar verilir ki... Məsələn, "Arzulardan sonrakı şəhərin adı Gülsüm idi"...

Bu isə şəhərini itirmiş birinin onu geri qazanarkən o şəhərdə görmək istədikləri ilə bağlı deyilənlərdir...

Əsərdə müəllifin üslubundan gələn ironik bir yanaşma var ki, bu özünü ilk növbədə, yaradılan obrazlarda göstərir. Məsələn, nənə obrazında. Zahirlə daxilin bir-birinə uyuşmadığı, amma düzünü desək, çox realist bir obrazda: "Nənəmdir, vəssalam. Əyri dişli, donqar belli, çör-çöp saçlı, cır səsli, zəhlətökən nənəm. Mənim sevimli ifritəm! Miss 154-üm!"

Roman ədəbi mühitdə müzakirələrə də səbəb oldu. Məti Osmanoğli, Səfər Alışarlı, Cavanşir Yusifli, Ağa Cəfərli ilə birlikdə müzakirəsi keçirildi. Məti Osmanoğlu onu "ədəbi prosesin maraq doğuran ciddi faktlarından biri" adlandıraraq "Romanın ən maraqlı cəhəti çağdaş tariximizdə Qarabağ müharibəsinin əmələ gətirdiyi ictimai və əxlaqi münasibətlərin, insanların həyatında və içində yaratdığı təlatümlərin əyaniləşdirilməsi, bədii mənzərəsinin canlandırılmasıdır", – düşüncəsini, Cavanşir Yusifli: "Əsərin strukturu, roman içində roman, hadisələrin, zamanların paralelliyi, çarpaz düşməsi, təhkiyə məntiqinin bəzən bu çarpaz düşən xətlərdən, nöqtələrdən hasil olması romanı doğrudan da maraqlı edir. Məsələ hansısa metodu, "texnologiyanı" işlətməkdə deyil (bunların hamısı onsuz da məlumdur), formanın, vasitənin, üsulun dil açıb danışmasıdır" kimi qənaətləri ilə dəqiq dəyərləndirmələr aparıb. Bundan başqa, ötən il dərc olunan romanlar arasında daha çox haqqında tənqidi fikir yürüdülən məhz budur. Onun haqqında müəllifin qələm dostları olan yazıçılardan başqa, tənqidçilərdən Elnarə Akimova və İradə Musayeva da məqalə yazıb.

Haqqında təhlillər apardığımız romanlar ötən il dərc olunanlar içərisində fərqləndirdiklərimiz və ümumilikdə roman təkamülünün əsas poetik göstəricilərini özündə ehtiva edən nümunələr idi. Və onlar əsasında söyləmək mümkündür ki, müasir Azərbaycan romanı yeni texnologiya və yeni poetik göstəricilər əldə etməkdədir.

Aynurə MUSTAFAYEVA
Filologiya üzrə fəlsəfə doktoru

DRAMATURGİYA HAQQINDA MONOLOQ

Ötən illərin sükutu ilə müqayisədə 2017-ci ildə dram janrında müəyyən canlanma hiss olundu. "Azərbaycan" jurnalı bir nömrədə bir yox, bir neçə pyesə yer ayırdı, ayb.az saytı Şirməmməd Nəzərlinin "Mən haqqı sevirəm" dramını təqdim etdi, İrəvan teatrı ilin dramaturji materialına İftixar Piriyevin "Qanlı qızıl toy" əsərinə müraciət etdi, Pərvinin dramla bağlı bədii və publisistik yazılarının toplandığı "Səhnə" kitabı çap olundu, həm də ilin dramaturji materialları yalnız bu kitabdan deyil, Mingəçevir Dövlət Dram və Yuğ Dövlət Teatrlarının səhnələrindən təqdim olundu. Bunlar janrda çox böyük hadisə olmasa da, dramın ayaq tutub yerimədiyi müasir dönəmdə "Azərbaycan" jurnalında pyeslərin toplu şəklində çapı janrı müəyyən qədər diqqətə gətirdi, İftixar Piriyevin "Qanlı qızıl toy", Pərvinin "Qadınlar" və "Sonuncu" əsərlərinin səhnədən təqdimi dramaturji prosesin daha canlı mənzərəsini yaratdı, Şirməmməd Nəzərlinin "Mən haqqı sevirəm" televiziya pyesi bu mənzərəyə janr rəngarəngliyi qatdı.

Bu rəngarənglik ötən ildə özünü yalnız janrda deyil, imzalarda da göstərdi. İlin dramaturji prosesində drama nəsrdən gələn Qanturalı və Pərvin kimi gənc imzalarla yanaşı, teatr-dram sənətinin qocaman sakinləri: müasir dram deyəndə ilk yada düşənlərdən Əli Əmirli, vaxtilə bu janrla bağlı bir sıra məsul vəzifələrdə çalışmış, indi isə janrın problemlərini vaxtaşırı redaktoru olduğu "Qobustan" jur-

nalında müzakirələr müstəvisinə gətirən Vaqif Əlixanlı, teatr-dram tənqidində ən oxunaqlı, ən sanballı yazıların müəllifi, teatrşünas Aydın Talıbzadə, paytaxtımızda fəaliyyət göstərən İrəvan teatrının direktoru İftixar Piriyev, 2010-cu ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin elan etdiyi "Ən yaxşı pyes" müsabiqəsinin qaliblərindən olmuş Şirməmməd Nəzərli də vardı.

Amma əlbəttə ki, dramaturji prosesdə bizim izlədiyimiz və gözlədiyimiz imzalar, yaxud onların titulları deyil. Bizim marağımızda duran məsələ bu statistik rəngarənglik janrda illərin "köhnə hamam, köhnə tas" aurasını dağıda bildimi? sualıdır. Dramın poeziya və nəsrlə, teatrın isə digər sənət növləri ilə rəqabətdə olum-ölüm çabaları ilə uğraşdığı günümüzdə janrın ədəbiyyatımızda yaşarlılığı hər il yaranan pyeslərin kəmiyyətindən yox, keyfiyyətindən asılıdır. Bu janrda keyfiyyətli əsər ortaya qoymaq isə digər janrlarla müqayisədə xeyli çətin işdir. Doğrudur, dialoqların bir-birinə qoşulması bu çətini asan etməyin yollarından biridir, amma ki dram yaratmağın yolu deyildir. Dram yaratmağın yolu müəllifin qurduğu dramaturji oyundan keçir. Məlumdur ki, dram oyundur, müəllifin qurub personajların oynadığı oyun. Oyun isə hamımızın nə vaxtsa oynadığı və yaxud da oynaya bildiyi bir şeydir, amma dram şahmat kimidir, onu hər kəs oynaya, ən əsası isə yaxşı oynaya bilmir və bir də dram şahmata ona görə bənzəyir ki, burda hər oyunçunun öz gedişi var, elə gediş ki, o, kimsənin istəyindən, iradəsindən, mövqe-məramından asılı olaraq öz səmtini dəyişmir.

Ötən ilin dramlarında isə yalnız bir gediş var, müəllif gedişi, istər oyunu quran, istərsə də onu oynayan müəllif-

dir. Yalnız Aydın Talıbzadənin "Xala" pyesində oyun personajlar arasında qurulur, amma təəssüf ki, sona kimi davam etdirilə bilmir. Əsərin başlanğıcı bügünkü dram bozluğunda bizə yaxşı bir oyun vəd etsə də, sonrakı gedişlərdə, xüsusilə də, pyesin sonluğunda gördüklərimiz gözlədiklərimizi doğrultmur. V.Əlixanlının "Dənizə baxan pəncərə" dramının mini yubkalı artistlərin qiybəti, Şirməmməd Nəzərlinin "Mən haqqı sevirəm" pyesinin Tolstoyun ölüm tarixçəsi, Qan Turalının "Qabaqda gedən zəncirli" dramının müəllif mühakiməsi, İ.Priyevin "Qanlı qızıl toy" dramının personajların emosional mükaliməsi ilə başlayan müqəddimələri, Əli Əmirlinin "Ah, bu uzun sevda yolu" və "Nuri-didə Ceyhun" pyeslərinin emosional sərlövhələri isə əslində elə əvvəlcədən də bizə heç bir dram olmayacağına bir işarə verir.

Sanki dramaturji proses əsərdə dramın olması üçün yox, dramın səhnədə olması üçün mücadilə edir. Müasir teatr ağuşunu nəyə açırsa, bugünkü dram da üzünü ora tutur. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı kimi respublikamızın aparıcı teatrının ötən ildə müasir dramaturgiyadan öz repertuarına salmağa rəva gördüyü yeganə əsər - Elçinin "Cəhənnəm sakinləri" repressiya mövzusundaydı, Sumqayıt Dövlət Dram Teatrı da 2018-ci il repertuarında bu mövzuya – Nizami Muradoğlunun "Hüseyn Cavid" dramına müraciət etdi. Dramaturgiyamızda 2016-cı ildə də bu mövzuda pyes meydana çıxmışdı, 2017-ci ildə də Əli Əmirli dramaturgiyası bu mövzuda "Ah, bu uzun sevda yolu" dramını təqdim etdi və əsər artıq Akademik Milli Dram Teatrının repertuar müzakirəsindədir.

Mövzunun əsərə verdiyi şans sabah da dramaturgiyamızda bu mövzuda növbəti bir əsərin meydana çıxmayacağına söz vermir. Biz repressiya və ya hər hansı bir başqa mövzuda çoxsaylı əsərlərin yaranmasının əleyhinə deyilik. Əlbəttə, tükənən mövzu yoxdur, bir mövzu ətrafında istənilən qədər əsər yazmaq olar, amma elə yazmaq ki, oxucunun səbrini tükətməyəsən. Əgər tükətsən, onda gərək ondan dramaturgiyamızda Qacar haqqında yazılan növbəti əsərdən sonra Aydın Talıbzadənin söylədiyi "bu "Qacar" mövzusu məni lap bıkdırıb... xacə ilə bilmərrə və axirətəcən vidalaşmaq məqamıdır" kimi bəyanlar da eşitməyə hazır olasan.

Ötən ilin dramaturgiyasında bizə bu sözləri dedirdirəcək olan yalnız repressiya mövzusunun müdhiş qorxu, amansız cəza, günahsız qurban, qəddar məmur, satqın yoldaş obrazları deyildi; bu sözləri dedirdirəcək şeylər çox idi: bədii detallardan, yanaşmalardan, təhlillərdən tutmuş, hətta ifadələrə qədər. Yenə dramaturgiya keçmişdən danışanda təbinə, bu gündən danışanda tənqidə güc verdi, yenə sevdiklərinə mədh, sevmədiklərinə həcv qoşdu, yenə erməni adı gələndə söyüş söydü, yenə hər şeyi öz təbirincə yozdu. Və əslində beləcə "yenə", "yenə" deyə biləcəyimiz şeylər çoxdur. Dramaturgiyada yeni-yeni görünməyə başlayan imzaların varlığı bizdə bu "yenə"lərdən xilasa ümid yaratsa da, nə yazıq ki, təqdim olunan bədii mətnlər bu ümidlərimizi də alt-üst etdi.

Pərvinin pyesləri müəllifin özünün də qeyd etdiyi F.Bulyakovun "Nənələr ərə gedir", Çexovun "Qu quşu nəğməsi" pyeslərindən və qeyd etmədiyi İ.Fəhminin "Sonuncu reportaj" dramından uzaqlaşıb orijinal mətnə çevrilə

bilmir. Qan Turalının "Qabaqda gedən zəncirli" pyesində isə nəinki yenilik yoxdur, əksinə hər şey o qədər köhnədir ki, deməkdən dilimizin, eşitməkdən qulağımızın yağır olduğu qədər. "Dəli kimdir, ağıllı kim" mövzusunun dramaturgiyamızda təkrar-təkrar təqdimi oxucunu, doğrudan da, dəli etmək həddinə çatdırsa da, yazarlarımız üçün hələ də ağıllı görünməyin ən yaxşı variantıdır.

"Qabaqda gedən zəncirli" pyesinin ruhi xəstəxana pasiyenti olan personajı "ağıldan bəla" oynunun dramatik qəhrəmanı olmağa çalışsa da, qəzəb və nifrət püskürən məhkəmə ittihamçısı kimi görünür. O, millətlərə, dinlərə, ümmətlərə bölünüb bir-birini qıran, İsanın çarmıxını daşıyıb Məhəmmədə daş atan bəşəriyyətdən tutmuş təhsil sisteminə, avtobus sürücüsünə, KFC-də satılan toyuq qanadına qədər hər şeydən narazıdır. Və dəridən qabıqdan çıxaraq hələ öz ömrünün ibtidai dövründə banan üstündə dava edən bəşəriyyətə əclaf, avtobusu bərk sürən şoferə isə eşşək olduğunu sübut etməyə çalışır. Amma nə toyuğun qanadı KFC-də satıldığı yerdə birdən-birə niyə yazıçının qəzəbinə tuş gəldiyini anlayır, nə də avtobus şoferi sərnişinlər kimi yazıçının da söyüşə güc verdiyini. Oxucu da müəllifin nəfəs dərmədən söyüb-söylədiklərini ədəbiyyatın növbəti deyingənliyi kimi qulaqardına vurur. Öz sözünü eşitdirmək istəyən müəllif Mirzə Cəlilin "ölülər" metaforasına əl atır. Amma bu məşhur metafora da burda nəinki ölüləri dirildə bilir, heç öz diriliyini belə saxlamağa qadir görünmür.

Ancaq ilin dramaturgiyasının nəyəsə qadir olmadığını demək olmaz. Şirməmməd Nəzərlinin "Mən haqqı sevirəm" pyesi bütün gücünü bizi Azərbaycan şairi Füzulinin

müdrikliyi qarşısında öz cahilliyini anlayan rus yazıçısı Tolstoyun halına acıtmaq üçün səfərbər edir. Və buna nail də olur. Doğrudan da, böyüklüyü ilə bir dünyaya sığmayan Tolstoy "Hədiqətüs-süəda" əsəri haqqında "qəhrəmanın da dünyada yeganədir, haqqında yazılmış əsər də" düşüncəsində görüncə bu nəhəng yazıçısının halına acımamaq mümkün olmur.

Göründüyü kimi, 2017-ci ildə ötən illərdən fərqli olaraq bizə sadə rus qadını deyil, dahi rus yazıçısı həsəd apardı, İ.Priyevin "Qanlı qızıl toy" dramında isə tərifimizi daha uzaqdan və daha sivil dünyadan – avropalı xanımdan eşitdik.

Tərifimizi etmək, giley-güzarımızı dilə gətirmək üçün əlimizə qələm alıb dram yazanda o, personajlar üçün səhnəyə yox, müəllif üçün tribunaya çevrilir. Müəllif bu tribunadan təbinə güc verib ürəyini boşaltdıqca səhnə də oxucu üçün boş qalır. "Dənizə baxan pəncərə" dramında öz bədxahlarına xeyirxahlıq edən Salavatın macərası, "Mən haqqı sevirəm" dramında personajların hərəkətsiz dialoqu, "Ah, bu uzun sevda yolu" əsərində M.Müşfiqin repressiya tarixçəsi, "Nuri-didə Ceyhun" dramında Ceyhun bəyin həyat hekayəsi, "Qanlı qızıl toy" pyesində cavanlığında dini-milli qadağalara, qocalığında isə Qarabağ müharibəsinə rəğmən erməni sevgilisini tərk etməyən Osmanın nağılı səhnəni doldurmağa, səhnə isə Bax musiqisinin Bayatı Şirazdan, Bodenştedtin Mirzə Şəfi Vazehdən götürdüklərini, ermənilərin "Arşın mal alan" əsərinə müəlliflik iddialarını, Krımın Rusiya, Ukrayna yox, tatar torpağı olması, Kərkük mahalından, Urmiyadan tutmuş Dərbəndə kimi ərazinin

Azərbaycan türklərinin tarixi məskəni olması məsələlərini müzakirə etməyə qadir deyil.

Qələminə güc verib maraqlı olmağa, gözəl görünməyə, dərin problemlərə toxunmağa çalışan dramaturgiyamız unudur ki, səhnə elə bir yerdir ki, orda ən maraqlı nağıllar belə maraqsız, ən gözəl uydurmalar belə məzmunsuz, ən sanballı problemlər belə əhəmiyyətsiz görünə bilər, çünki səhnə digər janrların variantına, tarix sənədlərin surətinə, dəyirmi masaların oxşarına çevrilməyi sevmir. Dram elə bir janrdır ki, onun öz mövzu-problemləri var. Elə problemlər ki, öz həllini başqa yerdə tapmayıb üzünü səhnəyə tutur. Bugünkü dramaturgiyamızın ən böyük problemi isə öz mövzu-problemini tapmamaqdır. Əslində tapmır ona görə ki, heç bunun axtarışında da deyil. Dram dörd bir yanımızın problem olduğunu düşünüb "Dənizə baxan pəncərə" pyesində südün keyfiyyətini, oğlunun toyuna Ledi Qaqanı gətirən milyarderi, uşağı əmizdirməyən anaları, indiki evlərin havasızlığını, dərmanların saxtalığını, indiki teatrların hoqqalarını və daha nələri, "Mən haqqı sevirəm" pyesində musiqi, şairlik haramdırmı problemlərini müzakirə edir.

Bu müzakirələrdə səhnənin əlindən "Qanlı qızıl toy" pyesində olduğu kimi Şuşanı təslim edənləri "əclaf", "oğraş" sözləri ilə söyməkdən, yaxud "Nuri-didə Ceyhun" əsərində olduğu kimi Demokratik Respublikanın işğalına təpki göstərməyən Avropanı "madam" sözü ilə təhqir etməkdən savayı bir şey gəlməyəcək. O da doğrudur ki, dramaturgiya əlindən gəldiyi qədər mövzu-problemlərə dramatik çalar verməyə can atır. Ancaq "Dənizə baxan pəncərə" pyesində nə Salavatla Qailov arasında sovetlə bu gü-

nün müqayisələrindən doğan mübahisələr, Əli Əmirlinin "Ah, bu uzun sevda yolu" əsərində nə Dilbərin iztirabları, "Nuri-didə Ceyhun" dramında nə Zöhrənin əndişələri, nə Bacının qeybətləri, nə də "Qanlı qızıl toy" pyesində düşmən hücümları qarşısında Şuşanı tərk etmək çağrışlarının yaratdığı mübahisələr kimi kosmetik bəzəklər dram yaratmağa qadir deyil.

Dramı poeziyada olduğu kimi sözün, nəsrdə olduğu kimi hadisələrin bəzəyi maraqlı edə bilməz. Düzdür, bütün bunlar bu gün dramın səhnəyə qalxması üçün vasitədir. Ancaq səhnəyə qalxmaq asan, onda qalmaq isə çətindir. Ona görə yox ki, bu günün tamaşaçısının başı televerlişlərə, seriallara, əyləncələrə qarışıb, teatrı yadırğayıb, ona görə ki, tamaşaçı üçün bugünkü səhnə bu verlişlərin, serialların, əyləncələrin təkrarından və ya oxşarından başqa bir şey ola bilmir. Həm də günün dramı yalnız verlişləri, serialları, əyləncələri deyil, elə özü özünü də təkrar edir. Görəsən, şüuraltımızda qalan Stalin xofundadırmı ki, müasir dramaturgiyamız Stalin kultuna tez-tez istinadlar edir, ötən ilin əksəriyyət pyeslərində bu dahi rəhbərin şəxsiyyəti söhbətlərin mövzusuna çevrildi. İllər öncə Elçinin "Şekspir", ötən ildə isə Qan Turalının "Qabaqda gedən zəncirli" pyesində olduğu kimi yalnız ruhi xəstəxananın pasiyentləri deyil, sanki bütün dramaturgiyamız Stalin qarabasmasından əziyyət çəkir. Bizi, əlbəttə, dramın Stalindən danışması deyil, təfəkkürümüzün ilişib nədəsə qalması narahat edir. Çünki ilişən təfəkkürümüz boy atmayan düşüncəmiz deməkdir. Dram bütün digər janrlardan daha az təxəyyül və bütün digər janrlardan daha çox təfəkkür hadisəsidir. Ümumiyyətlə, dram bədii yaradıcılıq yox, bədii araşdırma-

dır. Ancaq elə araşdırma ki, onun qənaəti "Qabaqda gedən zəncirli" pyesində olduğu kimi "Bethoven indi yaşasaydı, müştəri xidmətləri üçün musiqilər yazardı" kimi məntiq məsələlərindən, sonluğu isə "Nuri-didə Ceyhun" əsərində olduğu kimi "Azərbaycan yenidən müstəqilliyinə qovuşacaq, Azərbaycan Demokratik Respublikası bərpa olunacaq" kimi şüarlardan, A.Talıbzadənin "Xala" pyesində olduğu kimi patetik çıxışlardan ibarət olmasın. Elə araşdırma ki, səhnəni sənətə çevirə, düşüncəmizi isə hərəkətə gətirə bilsin.

Dünyanın min illər əvvəl sahib olduğu dialoqa girmək, müzakirə müstəvisi yaratmaq mədəniyyəti bizə, çox gec – yüz əlli il əvvəl mütəfəkkür ədibimiz M.F.Axundzadənin yaradıcılığında gəlib çıxmış, milli ictimai düşüncəmizi əsrlərin ətalətindən silkələmişdi. Bu gün isə dram özünün dialoqa girmək, müzakirə qurmaq dilini itirərək sanki bədii düşüncədə hissin, təxəyyülün cövlan edib, təfəkkürün mürgü döydüyü min il əvvələ qayıdır. Zamanın gərdişi bizi hara aparırsa, qələmimiz də ora yan alacaqsa, təfəkkürümüz gərdişin gətirdiklərinə pusqu quracaqsa, dramın bu günə dönüşü, sabaha gedişi çətin olacaq. Çünki zamanın axarında gələnləri elə zamanın axını da yuyub aparır.

Pərvanə MƏMMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru

CƏNUBDA ƏDƏBİ PROSES

Artıq 20 ildən artıqdır ki, yeni media kimi formalaşan internet vasitələri Cənubda da qısa müddətdə ictimai, siyasi- ideoloji və bədii təbliğat mexanizminə çevrilmişdir. İranda Azərbaycan dilinin statusunun yüksəldilməsi, ədəbiyyat və mədəniyyətinin təbliğ olunmasında medianın rolu danılmazdır. Nəşr və mətbuatın görəcəyi iş Cənubi Azərbaycanda çox zaman sosial şəbəkələr vasitəsilə həyata keçirilir. Yüksək tələblərə cavab verən elektron dərgiləri vardır ki, ədəbi fəzadakı boşluğu doldurmaq üçün cəhd göstərir.

Cənubdakı ədəbi prosesin tam mənzərəsini yaratmaq oradakı təmayülləri, forma-məzmun yeniliklərini izləyib təhlil etmək bir qədər fərqlidir. Daha çox yazarlarla şəxsi əlaqə, məktublaşma nəticəsində və yayılan kitablara və əldə etdiyimiz materiallara əsaslanmaq məcburiyyətindəyik.

Sevindiricidir ki, ötən il iki cənublu yazıçı nüfuzlu mükafatlara layiq görülüb. Fəriba Vəfiyə Almaniyanın "LiBeraturpreis" ədəbi mükafatı təqdim olunub. Bu nüfuzlu mükafatı təbrizli yazıçı "Tərlan" romanına görə alıb. Roman həmçinin satış və oxuma statistikası nəzərə alınaraq həm də "ilin kitabı" elan edilib.

Türkiyə və Qazaxıstan rəsmiləri, 17 türk dövlətinin yazıçılarının qatıldığı Türk dünyası hekayə yarışmasının ən böyük mükafatına da güney azərbaycanlı Qəfur İmami-

zadə layiq görülüb. Ödül ona Azərbaycan türkcəsində yazdığı "Qırmızım" hekayə toplusuna görə verilib.

Alınan mükafatlar Cənubi Azərbaycanda yazıçılar arasında son illər hekayə janrına üstünlük verildiyinin və bu sahədə əldə edilən uğurun əyani göstəricisidir.

İlin çap məhsulları sırasında Qəfur İmamizadə Xiyavinin "Qırmızım", İbad Məmizadə Ağdaşlının "Şaman"(ikicildlik roman) , Sulduz Dəyirmançıoğlunun "Ayrılıq siciri", Rəsul Qədirinin "Gul axıtdı" və "Dılmanc", Həsən Səmudi Qalaların " Özgə", Davud Dustarın "Hoppana", Həsən Cavadzadənin "Məsəllər, hekayələr və deyimlər", Həmid Məmmədzadənin "Futbolçu" və Rüqəyya Kəbirinin "Quşlar daha qorxmurlar", Q.Məcidfərin "Altmışlar və yetmişlər" kimi nəsr toplularının adını çəkə bilərik.

Poeziyaya gəldikdə isə Duman Ərdəmin "Səs və şeir", "Sonuncu sufi", Səid Muğanlının "Sənsiz yalqız qalıb Təbriz", Yəqub Nəimının "Bu gecə yanacaq ay sənin üçün", Elçin Hüseynzadənin "Şapkamdan uçan mamontlar", Həsən Ruhaninin "Qış bağçası", Asim Ərdəbilinin "Yanan yanaqlar", Yusif Amanpurun "İtmiş şəhər", Rasim Alimin "Qatarsız duraq", Vahid Vicdanisəfirin "Könlüm bu dağdan çıxacaq", Əli Urmulunun "Gözü yaşlı küçələr", "Məftun Əmininin "Acıçay", Rza Bərahəninin "Bal dənizi yağır gecə bağından", Əli Urmulunun "Gözü yaşlı küçələr", Aydın Məhəmmədinin "Ala bilmədiyim qəzetlər", Əbülfəzl Paşainin "Öncədən sonra", Tanış Əfsərin "Açar", Nazxənd Sübhinin "Durnaların həsrəti məndə", Pərvin Etisaminin "Qadınlar dünyaya sevgi bağışlar"(Tərcümə Atif Zeynallı), Həbib Fərşbaxın " Qadın, ay qadın", Süsən Nə-

viderazi, Məryəm Dostam, Səhər Barani və Alma Muğanlının "Şeirimdən bir qatar keçdi" şeir topluları ötən ilin ədəbi nümunələrindəndir.

Folklor toplama və araşdırmalarına gəlincə Ənvər Seyfinin topladığı "Qaradağ rəvayətləri", Saleh Səccadinin "Biz belə ağlardıq", Əkbər Rəncbərinin "Mərsiyələr" kitablarınının adını çəkmək olar. Ümumilikdə, folklor sahəsində bir çox gözəl işlər görülüb və görülməkdədir. "Azəri" dərgisi bu sırada böyük işlərə imza atmağı başarmışdır. Ali Zəfərxah folklor sahəsində gözəl əsərlər toplayıb təqdim etmişdir.

Uşaq ədəbiyyatı sahəsi Güneydə könül açandır, bu mövzuda yazılan əsərlər də çox ümidvericidir. Ramin Cahangirzadə, Xosrov Barışan, Leyla Kəhalı, Məliha Əzizpur, Murtuza Məcidfər və başqa gənc yazarların uşaq qəlbinə yol tapan əsərləri çoxdur. Hazırda Cavad Vəlizadənin "Tülkü həccə gedir", Ramin Cahangirzadənin "Ulduz" (təkrar nəşr) kitabları uşaqlara gözəl töhfədir.

Cənubda ədəbiyyatda ədəbi fikir mübadiləsi və tənqidçi fikrinə bu gün böyük ehtiyac var. Samir Kahaoğlunun "Tənqidi araşdırma və seçim", "Azərbaycan modern şeiri incələmələri", Nurullahi Əfrasiyabın "Şeirimizin uzaq kitabları bu boşluğu dolduran kitablardandır.

Ötən il Almaniyada ədəbiyyat sahəsində ən nüfuzlu mükafata sahib olan Fəriba Vəfi əvvəllər hekayələrini farsca yazsa da, son zamanlar ana dilində yazmağa çəhd göstərir. Onun "Zirzəmi quşu" adlı ilk romanı 2002-ci ildə işıq üzü görüb. Roman çox uğurlu olub, İranda mühüm ədəbiyyat mükafatları qazanıb. 10 il sonra roman Rotbux nəşriyyatı tərəfindən alman dilində dərc olunub. İndi ədə-

biyyat mükafatına layiq görülmüş "Tərlan" romanının məzmununa gəldikdə əsər ədəbiyyata maraq göstərən, çox kitab oxuyan və yazıçı olmağı arzulayan bir qızın həyatından bəhs edir. Lakin qızın yeganə çıxış yolu evini tərk edib Tehrana getmək, polis akademiyasında təhsil almaqdır. O, öz həmyerlisi Rəna ilə birgə Tehranda polis məktəbində oxumağa başlayır. Hekayə qadının dilindən nəql edilir.

Tərlan və rəfiqəsi Rəna o dövrdə gənclər arasında yayğın olan solçu ideyaların dalğasına qoşulurlar. Yeni nəsil bu dalğanın təsiri altında olur, onu tətbiq edir, onunla dəyişirlər. Mahiyyətinə tam varmasalar da, yeni dalğa onlara ilham verir, onları həvəsləndirirdi. Bu, elə bir keçid dövrü idi ki, şah devrilmiş, amma inqilab tamamilə reallaşmamışdı.

O illərdə özü də yeniyetmə yaşında olan yazıçı həyatında paralellik təşkil edən məqamları da romanda işıqlandırdığını inkar etmir. Yazıçı bu barədə yazır ki, hər kəsin məhdudiyyətlərlə, çıxılmaz dalanlarla mübarizə aparması üçün özünəməxsus bir üsulu var. Mənim əsərimin qəhrəmanı əsərin təhkiyəçisidir. Ona azadlıq verən, xilasolma hissini yaşadan yaradıcılıqdır, sənətdir.

Əsərdə hərbi mühit təsvir olunub. Çünki orada hamı bir olmalı, vahid qüvvə kimi hərəkət etməlidir. Rəfiqələr sevginin, ağ atlı şahzadənin xəyalını qururlar. Tərlan reallığı müşahidə edən bir obrazdır. Müşahidələri əsasında o gündəlik yazır və bu da onun sonradan arzusunu reallaşdırıb yazıçı olmasına kömək edir.

Roman yazmaq istedadını inkişaf etdirmək üçün Tehranda məskunlaşan gənc yazıçı peşə fəaliyyətində uğur qa-

zanmaq üçün fars dilini seçməyə məcbur olur. Lakin öz ana dilində bir əsər yazmağın həsrətində olduğunu və həyatında belə bir hadisənin baş verəcəyinə ümid edir. Yazıçı bunu da əlavə edir ki: "Təbrizdə yaşadığım illər rahat keçməyib, buna baxmayaraq, keçmişimi unuda bilmirəm, hətta onu sevirəm. Yaradıcılıq işlərimdə nə əldə etmişəmsə, onu Təbrizə, onun insanları, meydan, küçə və məhəllələrinə borcluyam. Mənim ilham mənbəyim hər zaman bu coğrafiya və onun insanları olub".[1]

Məşhur azərbaycanlı yazıçı Fəriba Vəfi türkcə əsər yazmağın həsrətində olduğunu və məcburiyyət qarşılığında farsca yazdığını bildirir: "Sanki mənim iki dünyam var. Biri öz dünyamdır ki, doğma ana dilimdə yaşayır, düşünür, digəri ilə də yazıram. Bu romanda "Türk" sözü işlənir. Amma burada bir növ zarafatdır. Lakin bəzən cəmiyyətdə bu diskriminasiya şəklində, təhqir formasını alır ki, əlbəttə, bu, xoşagələn deyil. Hələ də bu şeylərə rast gəlinir, bəli."[2]

F.Vəfi 1962-ci ildə Təbrizdə doğulub. O, 11 cild hekayə və roman kitabının müəllifidir. Yazıçının "Mənim quşum" və "Tibet röyası" əsərləri İranın bir neçə mötəbər ədəbi mükafatına layiq görülüb. Azərbaycanlı yazıçının bir neçə hekayə əsəri italyan, anadolu türkcəsi, alman, norveç, fransız, rus, isveç, ərəb, yapon və ingilis dillərinə tərcümə olunub.

Bu da diqqətçəkicidir ki, İranın ən məşhur nəsr ustaları azərbaycan türkləri olub. Keçmiş nəsildən Qulamhüseyn

[1] Fəriba Vəfi. Tərlan. Tehran, 2001, s.43.
[2] Yenə orada, s.3.

Saidi, Səməd Behrəngi və bu gün yaşayıb yaradan Rza Bərahəni və Fəriba Vəfi. Xanım Fəriba Vəfi də daxil olmaqla bu adlar İran ədəbiyyatında artıq sabitləşib və yazıları dünya səviyyəsindədir.

Kanadada yaşayıb-yaradan yazıçı, şair və tənqidçi Rza Bərahəni təəssüf ki, azərbaycan oxucusuna tanış deyil, ya da oxucular ondan az məlumatlıdır. Ötən il onun "Bal dənizi yağır gecə bağından" şeir toplusu işıq uzu gördü. (Fars dilindən ,çevirən Dr.Səməd Səbağ, hazırlayanlar: Arzu Muxtarı və Məhəmməd Abaspurdur)

Qavalçalan oxuyar dağ ətəgində,
Bağın dibində,
Sənin əksini tapanda,
Bu əksi basanda bağrına gizlin,
«Dilim!», «Dilim!» deyən
Heyf olmuşum, yazığım,
Gözəl dilim,
Necə bağrımda yandı,
Lap külə döndü[1] *–*

misraları ilə başlayan şeirin yalnız 10 faizi farscadır. R.Bərahəninin Azərbaycan türkcəsində yazdığı və toplantılarda həvəslə oxuduğu "Həh!" şeiri onun modernist düşüncəsinin məhsuludur.

Rza Bərahəni, şeirlərində məna və anlamdan çox dilə önəm verir. Bərahəniyə görə ən böyük zövqü dil verir. Gerçəklərə ən yaxın olan da odur. Müqəddəs Quranın, İncilin yazıldığı dönəmlərdə insanlar Tanrı tərəfindən veri-

[1] Rza Bərahəni. Bal dənizi yağır gecə bağından. Tehran, 2017.

lən ilhama yetmək istədiklərində kəlmə deyil, yalnız bir səs çıxarırlardı.

Rza Bərahəni haqda geniş bilgi vermək yəqin ki, yerinə düşər. Dünya şöhrətli yazıçı, şair və tənqidçi Rza Bərahəni Təbrizdə doğulub. Təbriz Universitetini bitirdikdən sonra təhsilini Türkiyədə davam etdirib və 24 yaşında ingilis ədəbiyyatı üzrə doktorluq dərəcəsi alıb. Sonra İrana qayıdıb və otuz ildən artıq Tehran Universitetində ingilis ədəbiyyatı və müqayisəli ədəbiyyatşünaslıqdan dərs deyib. Arada fasilələrlə ABŞ və İngiltərənin nüfuzlu universitetlərində (Nyu-York, Texas, İndiana, Oksford və s.) mühazirələr oxuyub. İran Yazıçılar Birliyinin ("Kanune-Nevisəndeqane-İran") əsasını qoyanlardan biri olub. Dəfələrlə ədəbi-ictimai fəaliyyətinə görə şah rejimi tərəfindən həbs edilib və sonuncu dəfə Tehran Universitetindən çıxarılıb. 1997-ci ildən Kanadada yaşayır. Toronto Universitetinin professorudur. 2000-2002-ci illərdə Kanada PEN təşkilatının sədri olub.

Rza Bərahəni İranda Avropa tipli ədəbi tənqidin banisidir və buna görə "İran ədəbi tənqidinin atası" kimi tanınır. Eyni zamanda o, İranda modern və postmodern ədəbiyyatın öncüllərindəndir. Farsca yazan ədibin indiyədək 60-dan çox kitabı (o cümlədən, 15 şeir kitabı) nəşr olunub. Əsərləri ingilis, fransız, alman, rus, ərəb, türk, ispan, isveç və s. dillərə tərcümə edilib. İngiliscə orijinal əsərləri də var. 2009-cu ildə isə Bakıda Məsiağa Məhəmmədinin təqdimində (Sabir Rüstəmxanlının nəşr dəstəyi ilə) "Rza Bərahəni: Şeirlər, Müsahibələr, Araşdırma" kitabı işıq üzü görüb.

Rza Bərahəninin hekayə və şeirləri nüfuzlu antologiyalarda dünya ədəbiyyatının Markes, Nabokov, Oktavio Paz, Nazim Hukmət, Borxes, Şimborska kimi simaların əsərləri ilə birgə nəşr olunub, "Nyu-York tayms", "Vaşinqton post", "Mond", "Fiqaro", "Taym" kimi mətbuat orqanlarında haqqında yazılar dərc edilib. Ədəbi fəaliyyətinə və insan haqları sahəsində mübarizəsinə görə çoxlu beynəlxalq mükafatlara layiq görülüb.

1976-cı ildə ABŞ Konqresində İranda milli haqlar və insan hüquqları barədə çıxış edib. Bərahəni iranlılar arasında bir azərbaycanlı və radikal siyasətçi kimi tanınmışdır. 40-50 il milli demokratik haqlar uğrunda çalışan R.Bərahəni dil azadlığı, senzura ilə mübarizə, qadınların kişilərlə bərabər haqlara sahib olma məsələsi əsas məqsədlərindən olub.

Dr. Bərahəninin romanlarında, şeirlərində və digər əsərlərində həmişə Azərbaycan mövzusuna geniş yer verilir. Bu əsərlərdə azərbaycanlı obrazı və Azərbaycanın təbiəti canlandırılır. R.Bərahəni yazdığı əsərlərində bəzən bir neçə səhifəni, bəzən şeir parçalarını, bəzən də müəyyən məqamları (məs. yuxugörmələri) türkcə verir. Romanlarındakı bütün surətlər demək olar ki, azərbaycanlıdır, istər Təbrizdə, Tehranda yaşasın, istərsə də Nyu-Yorkda. Ana dili onun damarlarında axan qanı, bədəninin bir parçası olub.

1968-ci ildə yazdığı «İnsanlıq tarixi» kitabının İranda çap olunmasına icazə verməyiblər. Sonra E.L.Doktorov adlı bir amerikalı yazıçı kitaba aid böyük bir məqalə yazaraq onu ingilisdilli topluma təqdim edib. Rza Bərahəninin fars və inglis dillərində nəşr olunmuş «Misdə qızıl» (tən-

qid, 3 cilddə), «Taclı hanniballar», «Allahın kölgəsi» (şeir və hekayə toplusu) «Yurdumun sirrləri» (poema, ikicilddə), «Azadə xanım» (roman), «Təbrizlilər» (roman), «İlyas bəy Nyu-Yorkda» (roman) və s. bu kimi kitabların və digər müxtəlif janrlarda yazılmış əsərlərin müəllifidir. «Gənc Ayazın cəhənnəm fəsilləri» ingilis və fransız dillərinə tərcümə edilib. V.Şekspir, M. Kundera, O.Mandelştam və başqa bu kimi ünlü yazarların əsərlərini farscaya çevirib.

"Yurdumun sirrləri" poeması yazıçının doğulub boyabaşa çatdığı Təbriz şəhərinə həsr olunub. Yazıçı əsərdə Təbrizin tarixi, mədəniyyəti, orada yaşayanların özəl xüsusiyyətləri, xarakterləri, məşğulluq sahələri və s. qələmə alıb.

"Yurdumun sirrləri" əsərinin özəlliyi onun Azərbaycan gerçəklikləri ilə bağlı olmasındadır. R.Bərahəni 1946-cı ildən sonra, Azərbaycan Milli Hökumətinin məğlubiyyətindən sonrakı Azərbaycan ortamının ağır və sıxıntılı vəziyyətini bədii lövhələrlə izah edir. Azərbaycan türklərinin acınacaqlı durumu və rejim tərəfindən əhaliyə edilən basqı və təzyiqlər bu mənzum romanda öz əksini tapmışdır.

Burada müstəmləkəçi dövlətin adi bir məmurunun kobud davranışı və xalqın ona nifrəti əyani şəkildə bədii lövhələrlə şərh edilir. Amerikalı alay komandiri Diovis bir hərbi məmur kimi Azərbaycan şəhərlərinə səyahət edir, xalqa istehza ilə yuxarıdan aşağıya baxaraq mənəvi basqı edir. Əsərin bir yerində o, istehza ilə tərcüməçiyə üz tutub soruşur: "– Niyə sizin yüngül əxlaqlı qadınlar mənimlə əylənmir, amma sovet və ya rus məmurları ilə əylənirlər?

Tərcüməçi cavabında deyir ki, sovet əsgərlərinin çoxu türk (Azərbaycan türkü) olduğu üçün onlar öz dildaşları ilə əylənirlər. O,aradan bir az keçdikdən sonra amerkalı komandirə üz tutaraq sörüşür ki, siz qara və ya ağ dərili yüngül əxlaqlı qadının hansı ilə əylənərsiniz? Amerikalı cavabında, – əlbəttə ağ dərili ilə, çünki o mənim soyumdandır, deyə söyləyir. Tərcüməçi deyir, – baxın, bizimkilər də sənin kimi düşünür."[1]

Müəllif mənzum romanda milli xalq (Azərbaycan) musiqisinin bazar və dükanlarda, habelə, çayxanalarda səsləndiyindən yazır. Təbriz-Muğan yolunda bir çayxanada amerikalı və mütərcim qramafondan bu mahnını dinləyir:

Piyalələr irəftədir,
Hər biri bir tərəfdədir
Görməmişəm bir həftədir.
Yar bizə qonaq gələçək
Bilmirəm, nə vaxt gələcək?![2]

Poemada müəllif ictimaiyyətdəki sinfi ziddiyətləri bariz şəkildə bədii obrazların timsalında göstərir. Burada mübariz insanların daha çox yoxsul təbəqədən olduğu qabarıq şəkildə verilir. Hətta qadınlar arasında da yalnız inqılabçı şəxsiyyətlər yoxsul təbəqədən olur. Yuxarı və varlı təbəqənın qadınları yüngül, meşşan və şəxsiyyətsiz kimi tanıdılır.

[1] Rza Bərahəni. Yurdumun sirrləri. Tehran, s.124.
[2] Yenə orada, s.96 .

Mənzum romanın əsas surətləri Hüseyn Tənzifi, tərcüməçi leytenant Krazlidır. Krazlı amerika müstəşarlarından (yüksək rütbəli məmur – P.M.) biridir. Polkovnik Cəzairi və 12 nəfər Ərdəbilin diviziyasının alay komandirləri Krazlini kobud davranışına görə terror edirlər. Polkovnik və alay komandirləri törətdikləri qətlə görə edam olunurlar. Hüseyn isə ömürlük həbs cəzasına məhkum edilir. Müəllif romanda ictimaiyyətin bütün zümrələrinin mübarizəsini bədii lövhələrlə çox gözəl təsvir edir.

Türk xalqları inanc kimi qurdu özlərinə totem bilərək "Qurd ata"dan gəldikləri düşüncəsi ilə yaşamışlar. Yazıçıya görə Türklərin xarakterik xüsusiyyətlərinin bir çoxu Qurd psixologiyası üzərində qurulub və hardasa onu xatırladır. Yazıçı əsərdə qədim Türklərin xilas, azadlıq, qurtuluş rəmzi sayılan Qurd totemini – "Savalan canavarı" obrazında canlandırır:

- Savalan canavarının adi canavarla nə fərqi var?

Qoca kişi dedi:

- Ona deyərlər əcnəbi öldürən. Hələ bir neçə il bundan qabaq bir ingilis sərhəngini Savalan canavarı öldürmüşdü. Yerli xalqla işi yoxdur. Əgər Savalan canavarı olsa, Allah özü amerikalıya rəhm eləsin. Bu canavar adamı oynadey, hətta şeytan da şərindən xilas ola bilmey.

Tərcüməçi güman elədi ki, bu canavarda gizli sirr var. Tərcüməçi cəsədin üstündən gözlərini qaldırdı, baxışı qoca kişinin baxışı ilə toqquşdu və kişiyə tərəf getdi:

- Yaxşı, bu həmən canavardı? Qoca kişi dedi:

- Odu! Özüdü, haman əcnəbi öldürəndi. Bileysiz ağa, qeyrət məsələsidir.

- Qeyrət? Yəni nə?

- Elə ki, biz biçarə olurux, heç birimizin əlindən bir iş gəlmey, əcnəbi öldürənin qeyrət damarı tərpəney.

- Zarafat edirsən? Yəni bu sözləri canavar düşünür?

- Baxın cəsədə, görün düşüney, ya yox.

Tərcüməçi baxdı, kəndlilər cəsədin dövrəsində dairəvi şəkildə düzülmüşdülər. Və deyirdilər:

- Yenə də əcnəbi öldürən! Yenə də əcnəbi öldürən!"[1]

Rza Bərahəni yeri gəldikcə Azərbaycan şifahi xalq ədəbiyyatının ən gözəl nümunələrini və yerli danışıq tərzini əsərlərinə gətirib yararlanır.

Müəllif öz əsərləri haqda yazır: "«Ayazın cəhənnəm günləri» çox populyar oldu. Bu, tarixi romandır. Əsərdəki qəhrəmanımı- yəni Ayazı Mənsur Həllaca bənzətmişəm. Mənsur Həllac o adamdır ki, 1200 il bundan əvvəl Bağdadda xalqın gözü qarşısında tikə-tikə edilib. Mən bu şəxsin yaşadığı həyatdan, üzləşdiyi çətinlikdən istifadə edib, yeni bir qəhrəman yaratmağa çalışmışam. Bu roman çap olunduqdan 35 il sonra İranda bütün nüsxələrini barbarcasına yandırtdırıb kitablardan böyük bir tonqal düzəltmişdilər. Sonra mən əsəri bir fransız naşirə verdim və 2000-ci ildə roman yenidən çap olundu. Rejimin xoşuna gəlməyən əsərlərim çox olub."

Rza Bərahəni İranda xüsusi bir ədəbi hərəkat yaratmışdır.

Şah rejimi tərəfindən dəfələrlə həbs edilən yazıçı bəhs olunan kitabda şahidi oduğu və ağır işgəncələrə məruz qalanların yaşadıqlarını qələmə alır:

[1] Rza Bərahəni. Yurdumun sirrləri. Tehran, s.146.

Yel xəstəliyinin ürəyinə qədər
adamlar tanıram,
sıza bilmişlər həbsdən kənara

uşaqlar tanıram altı yaşında
şillə-təpik və qamçı altında etiraf etmişdilər
"atam şübhəli bir nəfəri evə gətirib" deyə,

yaxud

anam şübhəli bir adama evin yolunu göstərdi guya.

bir qadın tanıram,
alçaq cəlladlar soyundurub onu
elektrikli dəyənəyi gün görməmiş döşlərinə vurublar
bir saat sonra türmənin kamerasında
döşlərini qoyardı
südəmər körpənin ağzına.[1]

"Quşlar daha qorxmurlar" romanı Rüqəyyə Kəbirinin işıq üzü görən üçüncü romanıdır. Ruqəyyə Kəbiri realist yazar və çoxlu rasional hekayələr müəllifidir. Onun əsərlərini oxuyarkən sanki oxucu real həyatda personajlar ilə birgə yaşayır. Romandakı hadisələr Xoy şəhərində Cənubi Azərbaycanın iki önəmli tarixi dönəmində – 1945 və 1979-cu illərdə baş verir. Roman Nilufər və Nərgiz adlı iki fərqli nəsildən olan qadının həyat hekayəsi üzərində qurulub. Milli hökumətin quruluşu və hökumətin dağılmağından sonrakı mühacirət məsələsi Nilufərin yaşayışında iz

[1] Rza Bərahəni. Yurdumun sirrləri. Tehran, s.124.

buraxırsa, 1979-cu il inqilabı, üstəlik inqilabdan asılı olan hadisələrdən sonra ziyalıların və solçuların mühacirəti də Nərgizin yaşayışında iz buraxır. Bu roman tarixi roman olmasa da, tarixi hadisələr Muxtar, Nəriman, Xanağa və Səlman kimi obrazların yaşayışlarını çək-çevir edir.

Qeyd edək ki,son beş ildə Rüqəyyə Kəbirinin "Evim" və "Yerdən uca torpaq" romanları, "Ürəyim ağrıyır", "Bu qapı heç çalınmayacaq", "İçimdəki qız" və "Dünya qabar çalıb, yoldaş" hekayə kitabları və Çin səfərindən bəhs edən "Saçaqdan asılmış əjdəha" adlı səfərnaməsi işıq üzü görüb.

Rəsul Qədirinin ötən il ikicilddə öykü (hekayə) toplusu çap olunub. "Gul axıtdı" adlı birinci kitab yazıçının 23, "Dılmanc" adlı ikinci kitabı isə 27 öyküsünü çevrələyir. Öykülərin bir qismi xalq arasında yayılmış folkor örnəkləri üzərində qurulub. Başqa qismi isə yazıçı təxəyyülünün məhsuludur. Nəsr nümunələrinin dili çox anlaşıqlı və axıcıdır.

Cənub poeziyasında qabarma və çəkilmələr həmişə ictimai gedişatla bağlı olub, Şimalda və Türkiyədə nəzərə çarpan mətbuatın siyasi rejimə tabe olması, dünyada gedən ədəbi yeniliklər ədəbi prosesin üfüqlərini genişləndirib.

Cənubda ədəbi dilin üslublarının inkişaf mərhələlərini tədqiq edən akademik Tofiq Hacıyev haqlı olaraq ədəbi üslubların təkamül prosesini real ictimai-siyasi gerçəklik Şimal və Türkiyə ilə ədəbi-mədəni əlaqələrin işığında araşdırıb yazır: "70-80-ci illərdə Cənubi Azərbaycanın mətbuat orqanlarında Şimal normasının (ədəbi dil norması nəzərdə tutulur – P.M.) əlamətlərinə xeyli yer verir. Bu Şimalda ədəbi normanın ciddiliyini, saflığını görən cənublu

mühərrirlərin şüurlu hərəkətinin nəticəsidir. Xüsusən mühacir həyatı yaşayan ədəbiyyat adamlarının doğmaları ilə ünsiyyətinin qarşısıalınmaz mərhələsi meydana gəldi."[1] 2000-ci illərə qədər dilin işləklikdən uzaq olması, şairlərin şeirlərinin işıq üzü görməməsi ədəbiyyatda, xüsusilə, müasir ədəbiyyatda böyük bir boşluğun yaranmasına gətirib çıxarmışdı. Tənqidçi Eldar Muğanlı bu illərə təkcə Səhər xanımın "Yaşıl mahnı" kitabı ilə bir körpü salındığını yazır. Daha sonra isə 2000-ci illərdən bəri modern şeirə yeni ətir və rəng qatan Nasir Merqatı, Hadı Qaraçay, Kyan Xiyav, Həmid Şahangi, Lalə Cavanşir, Saleh Ətayı və Rəza Qəfari kimi təmsilçilərin meydana gəlməsini vurğulayır.[2]

"Cənub şeir dilinin Azərbaycan türkcəsində tipik nümunəsi Əlirza Nabdil Oxtayın yaradıcılıq dilidir. Oxtayın dili həm kamil ədəbiliyi ilə səciyyələnir, həm də onda bilavasitə Cənub nitq nümunələri əks olunur."[3]

Akademik T.Hacıyev haqlı olaraq Türkiyə türkcəsini yamsılayan müəlliflərə doğma dilin bitib tükənməyən poetik örnəklərindən uzaqlaşmağın perspektivi olmadığını, Ə.Oxtayın yaradıcılığı timsalında sübut edir. Onun aşağıdakı:

Yağdı yağışlar Eynal-Zeynalda,
İslanmış dağın qızıl camından
Təbrizdə sellər ətəyə axdı.

[1] Hacıyev Tofiq. Seçilmiş əsərləri. I cild, II hissə. Bakı, "Elm", 2017, s.201.
[2] (ishiq.net)
[3] Hacıyev Tofiq. Seçilmiş əsərləri. I cild, II hissə. Bakı, "Elm", 2017, s.269.

Sonra bu yellər çaylara gəlib,
Dağın rəngini şəhərə yaxdı

misralarını misal gətirərək belə qənaətə gəlir ki, "...bu dildə folklor-bayatı əhvallı canlı xalq danışığı, siyasi-milli məzmun, gözəl ədəbi Azərbaycan türkcəsi səlis gözəl, harmonik şəkildə birləşmişdir. Oxtayı fədailikdə ancaq Səttarxanla, vətənsevərlikdə ancaq Səməd Behrəngi ilə müqayisə etmək olar. O, şairləşmiş Səttarxandır, o şeirin Səttarxanıdır".[1] Akademik Tofiq Hacıyevin Cənubda ədəbi dilin qolu haqqında konsepsiyası ümumən Cənubda ədəbi prosesin üslubi təmayüllərini obyektiv müəyyən etməkdə metodoloji əsas verir.

Tanınmış ədib Yəqub Nəimının "Bu gecə yanacaq ay sənin üçün" birinci şeir kitabını ədəbi cameə maraqla qarşılamışdır. Sevgi dolu incə duyğularla yüklənmiş misralar şairin romantik dünyasından xəbər verir:

Bu gecə yanacaq ulduzlar,
bu gecə mahnılanacaq ay sən üçün
bu gecə yelləndirəcək saçlarını dəniz mənim üçün
dəsmalını vermə yelə saçlarından asılmağa – məhkum mən
gəl birlikdə mahnısında boğulaq ayın.[2]

İmran Səlahinin şeirlərinin əsas fəlsəfəsini müşahidə etdiyi həyati lövhələri təşkil edir. Şair hədəf-məqsədini aydın şəkildə oxucuya bəyan etməyi bacarır:

[1] Hacıyev Tofiq. Seçilmiş əsərləri. I cild, II hissə. Bakı, "Elm", 2017, s.269.
[2] Yəqub Nəimının "Bu gecə yanacaq ay sənin üçün". Tehran.

Ayna kımı parçalandıq , sınmadıq !
Daş atanlar bilmədılər ,
Parçalanmış aynada bır aydan min ay çıxar
Bır günəşdən min günəş, bir ulduzdan min ulduz
Parçalandıq, ayna kimi çoxalarıq, çoxaldarıq işığı.[1]

Cənub ədəbiyyatında artıq postmodernizm öz dövrünü bitirib. Çağdaş dövrümüzdə Cənubda gənc ədəbi nəsil arasında populyar olan avanqard, eləcə də anti-ədəbiyyat meyili güclənib. Azərbaycan Yazıçılar Birliyinin Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin rəhbəri Sayman Aruz bu gənc ədəbi cameyə xas olan özəllikləri sərgiləyib yazır: "Gənclərdən Duman Ərdəm var ki, o özünü anti-ədəbiyyatçı hesab edir. Yəni o müqəddəs bildiyimiz hər şeyi sındırmağa çalışır və deyir ki, heç nə tənqid olunmayacaq dərəcədə ülvi deyil. Hər şeyi tənqid etmək olar. Avropasayağı bir şair olmağa çalışır. Sayman Aruz daha sonra Aydın Arazın adını çəkib qeyd edir ki, onun Duman Ərdəmdən fərqli olaraq həm klassik, həm də modern düşüncələri var, yanaşma tərzində də daha çox millidir. Barazın isə həm milli, həm də modern şair olub təkrarolunmaz qəzəllər yazdığını bildirir. S.Aruz daha sonra yazır: "Bu yöndə çoxlarının adını çəkmək olar. Çox milli şair olan İsmayıl İlkər də var. Urmiyada yaşayan İsmayıl Ülkərin şeirində şairlikdən başqa, mütəfəkkir ruhu da var. Xanım yazarlardan Ziba Kəlbasini göstərmək olar, hazırda Londonda yaşayır, çox modern bir şairədir. Dünyanın 10 inqilabçı şairinin sırasında, Pablo Neruda ilə eyni siyahıda onun da adı var. Daha sonra Məlihə Əzizpuru da qeyd edə bilərik. O

[1] Yəqub Nəimının "Bu gecə yanacaq ay sənin üçün". Tehran.

da İranda yaşamır, hazırda Türkiyədədir. O milliliyi modernliyə qurban vermir."[1]

Güney Azərbaycan ədəbiyyatı daha çox hansı ədəbiyyatın üstündə köklənib, formalaşıb? Güney Azərbaycan ədəbiyyatına bağımsız müstəqil demək olarmı – sualları ətrafında "Ulduz" jurnalının noyabr sayında debat olub. Cənubi Azərbaycan ədəbiyyatı bağlı ədəbi müzakirədə cənublu yazıçı Həmid Arğış, tərcüməçi Yədulla Kənani və ədəbiyyatşünas, publisist Pərvanə Məmmədli(moderator) iştirak edirlər.

Yədulla Kənani Güney Azərbaycan ədəbiyyatı müxtəlif ədəbiyyatların təsiri altında formalaşdığını, əski ədəbiyyatın əsasən Qüzey Azərbaycan ədəbiyyatı, müasir ədəbiyyatın isə daha çox Avropa və Latın Amerika ədəbiyyatı üstə qurulduğu fikrini bildirib. Yəni hal-hazırda Avropa və Latın Amerikası ədəbiyyatı bolluca fars dilnə tərcümə olunduğu üçün, Güney Azərbaycan yazıçıları bu tərcümələrdən yararlanaraq ədəbiyyatı zənginləşdirirlər. Əlbəttə Türkiyə ədəbiyyatının da təsiri az deyil.

Hamid Arğışın fikri isə bir az fəqrlidir. Ona görə Güney Azərbaycan ədəbiyyatı son illərəcən dünyanın kölgədə qalmış ədəbiyyatlarından biri kimi sayılmaqdaydı. Amma artıq bu ədəbiyyat dünya çapının tanıtım aşamasına keçmək üçün çaba göstərməkdədir.

Söylənilən fikirlərdən çıxan nəticə budur ki, Ana dilində yazmaq güneylilərin əlindən alınan zamandan qara günlər başlayıb. Bu gün Güney Azərbaycanda yazmaq istəyən yazıçı fars dilindən başqa bir dil bilmir. Biri bu gün

[1] http://kult.az

Güney Azərbaycan ədəbiyyatı yazarı olmaq istəsə, istər-istəməz fars dilində başlamalı olur. Guney Azərbaycan yazarı dil bilmədiyi üçün dünya ədəbiyyatı ilə fars dili vasitəsiylə tanış olur. Cənublu yazarlar sadəcə fars dilinin kiçik pəncərəsindən dünyaya baxmaq məcburiyyətindədirlər. Bir çox yazar və ədəbiyyatçılar da var ki, yeni pəncərələr açmağa çalışırlar. Son illərdə Azərbaycan turkcəsinə orjinal yazılardan tərcumələr olunur və bu iş get-gedə çoxalmaqdadır.

Güneydə hansı ədəbi cərəyanlar, axınlar daha yayğındır sualı ətrafında söylənilən fikirlər müxtəlifdir.Bu gün Güneydə iki çeşidli cərəyan bir-birilə paralel olaraq hərəkət edir. Demokratik və türkçü ədəbiyyat. Yüz il bündan öncə Quzey Azərbaycanda gedən hərəkatlar kimi.

Güney ədəbiyyatında hər bir yazar öz yolunu gedir. Orada ortaya çıxan əsərlər dünya ədəbiyyatı ilə ilgili yox, bəlkə də öz içlərindən qaynayan bulaqdan yaranmış əsərlərdir. Yarın teli və gül-bülbüldən yazmaqla ədəbi axın yaranmır. Yazıçı da tarixini bilməlidir, toplumu tanımalıdır, millətini tanımayan bir yazıçı və şair heç zaman ədəbi bir axın yarada bilməz. Azərbaycan kültürü, hakim fars kültürü çərçivəsində məhkum və sürgün durumu yaşaması, xalqın toplumsal və mədəni haqlarından məhrum olması, bütün ziyalıları düşündürür.

Bir ədəbiyyatın arxasında dövlət olmasa, o ədəbiyyatın irəliləməsi olduqca çətin olur. Cənubda Türkcə yazmaq yasaq olmasa da, əslində yasaq qanunlari keçərlidir. Heç bir yazı "İrşad" qurumu tərəfindən müsbət rəy olmadan çap olunmur. Bir çox yüksək dəyərli əsərlər çapdan kənarlaşdırılır. Türkcə məktəb olmadığı üçün ədəbiyyat öyrənil-

mir. Ortada olan əsərlər bir növ dəmyə məhsuludur. Ədəbiyyatı oyrənilməyən yerdə, əlbəttə ki, tədqiq akademik səviyyədə olmur. Hər nə varsa, içdən gələn və ehtiyac üzündən ortaya qoyulanlardır.

Güneydə tarixən fədakar ziyalılar olub ki, bu ədəbiyyata bacardıqca sahib çıxmağı özlərinə borc biliblər, bu yükün ağırlığını daşıyıblar. Bunu qəbul etməliyik ki, orada işlənən dil siyası baxımdan ədəbiyyat dili deyil (həm də hakim dil, fars dilidir). Və üzə çıxan ədəbiyyat bir növ dəmyə yerin məhsuludur. Necə deyərlər, yağış yağdı, yağmadı elə məhsul budur. Bu da varlığı, dili, ədəbiyyatı qorumaq üçün bir mubarizədir.

2017-ci ilin mənzərəsi fonunda Güney Azərbaycanda olan ədəbi proses haqqında az-çox təsəvvür yaratmaq amacıyla bu ədəbi prosesdə aparıcı qüvvəyə çevrilən, daha çox sayılıb seçilən yazarların əsərlərindən örnəklər verib təhlil etməyə çalışdıq.

Cavanşir YUSİFLİ
Filologiya üzrə elmlər doktoru

ƏDƏBİ TƏNQİDİN VƏZİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

Qəribədir, həmişə tənqid haqqında danışanda, bir ilin, yaxud illərin yekunlarından bəhs edəndə belə, sözə birbaşa başlamaq çətin olur, gərək əvvəlcə tənqid haqqında düşüncələrini verəsən, "eşitdirəsən", daha sonra konkret nümunələri analiz etməyə başlayasan. Bunun niyə belə olması üzərində çox dayanmadan diqqəti sənətin mahiyyətinə hopan psixoloji problemə yönəltmək istərdim. Kimsə tənqid eşitmək istəmir, yaxud kimsə tənqidi dinləmək qədər səmimi ola bilmir, hamıya elə gəlir ki, bu anlayışı heç kəs onun qədər düzgün anlamır, başqa sözlə, nə qədər əli qələmli varsa, o qədər də "tənqid" var.

Yəni bizim üçün cari ədəbi prosesə tənqid gözüylə baxmaq çətindir. Keçən ilin sonunda "Ədəbiyyat qəzeti"nin layihəsi çərçivəsində çağdaş ədəbi tənqidin problemlərindən danışmaq üçün yığışdıq. (Mən və-!) moderator tərəfindən nə qədər cəhdlər olsa da, kimsə məhz bu problemə girişmədi, hamı tənqidin yaxın və uzaq keçmişindən nələrsə dedi və beləcə mövzu qapandı. Hamı özünü tənqidin tarixindən danışanda rahat hiss edir, nəinki çağdaş durumundan. Bu, Füzulinin "miqdar" məsələsidirmi? (Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz...) Başqa sözlə, ədəbi proses necədirsə, tənqid də elə o cürdür. Cəmiyyət və onun həyatı ilə əlaqəsi olmayan ədəbi proses bir qayda olaraq dekorasiyalara qaçır, müxtəlif "izm"lərin ar-

xasında gizlənir, bu gizlənpaç oyununda uduzan şübhəsiz ki, ədəbi mətnlər olur, bir də oxucu – müəllifin aldatdığı oxucu.

Eyni hadisə zaman-zaman ədəbi prosesdə də baş verir. Məsələn, poeziyada. Yaxud nəsrdə. Esselərdə və sair. Lirikanın ənənəvi janrlarında bir keçilməz xüsusiyyət var: sən ona nəsə yeni bir şey, zamanı, indiki zamanı kəsib-doğrayan nələrsə əlavə etməsən, özü kimi qalacaq, hamının artıq əzbər bildiyi şeyləri ötəcək. Bu halda qələm sahibinin daxili təcrübəsi mənaya çevrilmir, yaxud onların bir-birilərinə əlləri çatmır və ikisi də ölür", yaxud süst düşür. Bunu bir az izah edək. İstənilən ədəbi növ (epos, dram, lirika) özünün məxsusi semantik strukturu ilə səciyyələnir, bu isə (yəni semantik struktur-!) özündə bir-birindən fərqlənən sonsuz sayda konkret əsərlərin fonunda hansısa ümumiləşdirilmiş modeli təcəssüm etdirir. Sadalanan növlərə aid əsərlərin mətnlərində spesifik məna dinamikası (hərəkəti) məhz bu modellə izah və şərh edilir.

Epik təhkiyədən fərqli olaraq (hekayə, roman) lirikada gerçəklikdən elə məqamlar seçilib təsvir sferasına qatılır ki, bunların sayəsində lirik qəhrəmanın əhvalı və nəzər nöqtəsi olaraq anidən, həm də tapılmış bir nəsnə kimi göstərilir.

İstənilən lirik nümunənin semantik strukturunda daxili hərəkətli impuls, yaxud lirik məhvər bu və ya digər fərdin qəlb tarixində dönüş nöqtəsini təşkil edən hadisənin qavranılması məqamının tutulmasıdır. Həm tematik, həm də quruluş baxımından lirik əsər Hegelin "lirik konsentrasiya vəziyyəti" adlandırdığı son dərəcə gərgin vəziyyətin lirik "mən" tərəfindən yaşanmasıdır. Hər şey bir an içində tutu-

lur və qavranılır, bu vəziyyətdə "an" əbədiyyət qədər sürür. Lirik əsərdəki gərginlik sahəsi özündə elə böyük və dərin qatlı poetik enerjini cəmləyir ki, məntiqi cəhətdən bunun bir an ərzində tutulması və yaşanmasına inanmaq çox çətindir. Bu implisit forma, yəni həmin qərinələr qədər uzun çəkən çox qısa anın mahiyyətini sözlə ifadə etmək qeyri-mümkündür. Lirik növün fəlsəfəsinin əsas problemi də məhz budur.

Novalis (Baron Fridrix fon Qardenberq, alman filosofu, nasir, mistik şairi, Novalis təxəllüsü ilə yazmışdır) özünün məşhur "Fraqmentlər" əsərində yazırdı: "Poeziya mahiyyətcə mütləq reallıqdır. Bu, mənim fəlsəfəmin mərkəzi nöqtəsidir. Poeziya nə qədər çox olarsa, gerçəkliyə bir o qədər yaxın olarsan".[1] Sonra: "Poeziya fəlsəfənin qəhrəmanıdır, fəlsəfə poeziyanı əsas prinsipial mənasına qədər yüksəldir. O, bizə poeziyanın dəyərini dərk etməkdə yardım edir. O, bizə göstərir ki, poeziya mövcuddur, poeziya hər nə və hər şeydir..." Sonra: "Şairlə mütəfəkkirin ayrılması olsa-olsa görüntüdür və bu onların hər ikisinə ziyandır. Bu xəstəliyin və xəstə şəraitin əlamətidir".[2]

Yuxarıdakı qənaətimizə qayıdaq. Lirik əsəri diqqətlə oxuduqda orada ölçü və fəlsəfi məna baxımından üst-üstə düşməyən iki hissəni ayırd etməli oluruq: təcrübi və ümumiləşdirici. Təcrübi (empirik) hissə həcmlidir, bizə təklif və təlqin edilən məkanın böyük bir hissəsini zəbt edir, ümumiləşdirici hissə isə yuxarıda qeyd etdiyimiz kimi, qəfildən, bir an içində meydana gəlir və empirikanın kənara

[1] http://philologos.narod.ru/texts/novalis.htm
[2] Yenə orada.

atılmasıyla nəticələnir. Şeirin sonunda elə bil ki, bütün qənaətlər bir nöqtəyə düyümlənir, lirik qəhrəman bir baxışla hər şeyi – mətn boyunca "emal edilən" təcrübəni mənaya çevirir. Bu hardasa balet estetikasındakı "puante" deyilən hadisəyə bənzəyir (balerinanın baş barmağı üstündə durması). Hər iki hal bizim ədəbi prosesdə müşahidə edilir və daha çox birincisi, yəni təcrübənin mənaya çevrilməməsi, yaxud təcrübənin yerli-dibli olmaması. Ədəbi tənqidsə bu hadisəyə "heç nə olmayıbmış kimi" baxır, differensiasiya aparmır, hadisəni qiymətləndirmir, onun içində itib-batır. Ədəbiyyatda yeni şey dirilik deməkdir, yüz ilin yuxusundan ayılmaq, yeni, həm də gerçəkliyə qarşı olan mənalara qoşulmaq, onlarla nəfəs almaqdır. Nəticədə nə alınır? Zəif bir şeir üstündə dünyanın az qala bütün filoloji təcrübəsi "sınaqdan keçirilir", şair və onun mətni haqqında isti sözlər deyilir və yalançı tənqidlə yalançı ədəbiyyatın bu görüşü qəzet və jurnal səhifələrindən daşdanır. Nəsr tənqidində vəziyyət bundan da kədərlidir. Mehman Qaraxanoğlunun məqalələrinə, xüsusən onun Kamal Abdulla yaradıcılığından bəhs edən yazılarına baxın. Mətn təhlil edilmir, sitatlar, təhlil etməyə borclu olduğu mətndən qaçış və sair... Qəzetlərdə "Tənqid və mətn" rubrikası altında gedən yazıların demək olar hamısı bu şəkildədir. Tənqidçi "şirəli" sözləri bir kənara qoyub mətni təlil etmək, onun dərinliklərini kəşf etmək istəmir, daha doğrusu bunu bacarmır.

Tənqidçi bədii mətni oxumadan, gözübağlı şəkildə belə yaza bilir və belə olduğu üçündür ki, bütün "künc" mətnlər tərif şkalasında çeşidlənir, məntiq itir, ədəbi əxlaq yerlə bir edilir. Bu tipli yazılarda müəllif nə qədər ciddi görünməyə çalışsa da, olsun ki, bircə nöqtədə özünü faş

edir, o, bədii mətni bütün parametrlər üzrə aldada bildiyini zənn etdikdə, özünün mətni – tənqid onu bircə məqamda ortaya qoyur. Buna nümunə kimi Sona xanım Vəliyevanın H.B.Zərdabidən bəhs edən romanı haqqında yazılmış və "Ədəbiyyat qəzeti"ndə çap edilmiş bir yazıdan nümunə gətirə bilərik. Tənqidçi yazır ki, filan məsələ haqqında Aristotel belə düşünür, Platonsa belə və Sona Vəliyeva da onlarla razıdır. Həmin məqam budur. Bu məqam olmamışdan hər şey gözəl idi, tənqidi yazı "yüksək təfəkkür" nümunəsi idi.

Bu məruzədə biz ənənəvi icmal janrının tələblərindən müəyyən dərəcədə yan keçməyə çalışdıq, yəni yekunlarla bağlı faktlara önəm verməkdənsə, fikrimizcə, ədəbi tənqiddə müşahidə etdiyimiz problemlərdən danışmaq daha sərfəli və faydalı olardı. Əvvəlcə ilin tənqid mənzərəsini əks etdirən bütün nəşrləri, qəzet və jurnalları bir yerə cəmlədik, bir kiçik təpə yarandı, düşündük ki, o təpəni vurub aşırmaq lazımdır ki, bəlkə arasından məziyyət və qüsurları bir cərgədə sıralaya bilən ideyalar doğdu...

Xalq yazıçısı Elçin Əfəndiyev də təqribən bu məsələni son yazısında ("Söz azadlığı tənqidimizə nə verdi?") duymuş və onu belə ifadə etmişdi: "...Tənqidimizin ümumi mənzərəsində, təəssüf ki, həmin aşağı həddözünü açıq-aşkar göstərməkdədir və bunun bir səbəbi, əlbəttə, odur ki, «aşağı həddə» tənqidi olduğu kimi, «aşağı həddə» ədəbiyyatı da mövcuddur və bu ədəbiyyat ədəbi prosesdə öz səviyyəsindən yuxarı qalxa bilməyən təhlilini və təqdimini tapır, o biri tərəfdən isə «yüksək həddə» malik tənqid həmin ədəbiyyat haqqında nəzəri-estetik meyarlara söykənən kəskin sözünü demir. Bir az da aydın söyləsək, tənqidimizin ümu-

mi mənzərəsini bədii-estetik baxımdan bəsit və sönük ədəbiyyatın nəzəri-estetik baxımdan eyni səviyyəli təqdimatı, ciddi (professional) tənqidin isə susması yaradır, halbuki ciddi tənqid yalnız yüksək səviyyəli ədəbiyyat haqqında yazmaqla kifayətlənə bilməz, çünki onun ictimai fikirdəki missiyası səviyyəsiz əsərlər haqqında kəsərli sözünü tələb edir. Zəif yazılarla, bəsit və sönük maklatura ilə inzibati mücadilə mümkün deyil, heç kimi məhkəməyə vermək olmaz ki, niyə zəif yazılar yazırsan – zəif əsərlərin qarşısına dediyim həmin missiyanı boynuna götürmüş tənqid çıxmalıdır."[1]

Dəqiqləşdirək: Elçin müəllimin dediyi "aşağı həddə" *epizod* deyil artıq, normadır və tənqiddən də qabaq ədəbiyyatda. Sovet dönəmində boz ədəbiyyatın "öz markası" vardı, dərhal bilinirdi, bir zəif əsər haqqında (deyək ki, Cəlal Bərgüşadın "Boz atın belində" romanı haqqında) neçə-neçə tənqidçi yazırdı, bu əsər haqqında bu qədər danışılmağa layiq olmasa belə. İndi isə elə həmin tənqid şərait yaradır, "Boz atın belində"dən də aşağı həddə mətnləri tərifləsin. Demək, məsələ, geniş anlamda ədəbiyyat və tənqid məsələsi deyil,məsələnin kökü başqa yerdədir. Yuxarıdakı sitatda Elçin müəllim deyir ki, "Bir az da aydın söyləsək, tənqidimizin ümumi mənzərəsini bədii-estetik baxımdan bəsit və sönük ədəbiyyatın nəzəri-estetik baxımdan eyni səviyyəli təqdimatı, ciddi (professional) tənqidin isə susması yaradır, halbuki ciddi tənqid yalnız yüksək səviyyəli ədəbiyyat haqqında yazmaqla kifayətlənə bilməz, çünki onun ictimai fikirdəki missiyası səviyyəsiz əsərlər haqqında kə-

[1] http://kulis.lent.az/news/20080

sərli sözünü tələb edir.” Fikrimizcə, məsələ deyildiyinin əksinədir: ciddi (professional) sayılan (*məhz sayılan-!*) tənqid zəif əsərləri tərifləməklə məşğuldur, bunu görən, bununla razılaşmayan, ona qarşı çıxan tənqidinsə nəzəri-estetik baxımdan kasadlığı başqa bir problemdir. Nəzəri-estetik baza zəif olanda isə, əlinə qamçı götürməlisən. Onların öz adları da yaranıb: facebook tənqidçiləri. Bildi-bilmədi, hər şey haqqında fikir irad edən, mühakimə yürüdən, təhdid və şantaj edən tənqidçilər. Yəni tənqid indi mahiyyətdən qaçmaq üçün çox danışmaq sənətinə çevrilib. Başqa bir fəlakət: indi hər hansı ortabab bədii və ya filoloji əsər haqqında onlarla yazı yazılır, tərif və difiramb dolu yazılar (yaxud belə bir “şapka”yla: ciddi əsər haqqında qeyri-ciddi mülahizələr...), yarış başlayır, sonda nə olur? Heç nə. Bu müəlliflərin bir çoxu zorən tənqidçilərdir, onların yazdıqlarısa “tutuquşu tənqidi”...

Elçin müəllim daha sonra son dərəcə xarakterik bir məsələyə toxunur: “...Son zamanlar «yeni rus kinosu», yaxud Hollivud filmləri haqqında yazan sənətşünasların məqalələrində «blokbaster» terminini tez-tez rast gəlirik. «Blokbaster» – yəni kütlə və qazanc üçün çəkilmiş filmlər («kassa filmləri») və düşünürəm ki, qazanc məsələsini kənara qoysaq, bu termin bizim ədəbi proses üçün də səciyyəvi və təəssüf ki, əlamətdardır.” Və dərhal da öz fikrinə şərh verir: “...Bu fikri söyləyərkən mən blokbasterdə iki bir-birinə əks qütb görürəm: bir var, kütlə zövqünü əsas götürüb, şüurlu surətdə, daha doğrusu, öz istedadının yönünə uyğun blokbaster yazırsan və uğur qazanırsan. Misal üçün, Edqar Podan, Aqata Kristidən tutmuş Staut, yaxud Braun kimi yazıçılara qədər roman və hekayələri, ya da ar-

tıq janrlaşmış triller nümunəsi kimi Artur Heylinin «Aeroport» romanı, yaxud da bizdə Çingiz Abdullayevin romanları – bu tipli ədəbiyyatın oxucuları arasında intellektuallar, savadlı, yuxarıda dediyim həmin «istedadlı oxucular» da az deyil. Xatırlayıram, vaxtı ilə Kapotenin «Soyuqqanlı qətl» sənədli dedektiv romanı «İnostrannaya literatura» jurnalında çap olunandan sonra necə bir maraq oyatmışdı və o jurnalı bir-birimizə ötürüb oxumaqdan səhifələri nə günə düşmüşdü.

Bir də var ki, bədii əsər müəllifinin özünün də zövqü kütlə zövqü səviyyəsindədir və dərd burasındadır ki, «Söz azadlığı» müəllif zövqü ilə kütlə zövqünün üst-üstə düşməsi nəticəsində «yaranan» yazıların meydana çıxması, eyni səviyyəli zövqlə yazılmış məqalələrlə (məqaləciklərlə) ədəbi prosesdə işıqlandırılması (qiymətləndirilməsi!) üçün də əlverişli şərait yaradır. Bu üçlük: «kütlə zövqü» – «müəllif zövqü» - «tənqid zövqü» arasındakı belə bir üzvi birlik, vəhdət bizim «Söz azadlığı» dövrümüzün ən ciddi bədii-estetik və nəzəri problemlərindən biri, hətta birincisidir.” Və Elçin müəllim bu kontekstdə son sözünü deyir: “Yaxşı, problemi dedik, bəs nə etmək lazımdır, əlac nədədir?

Mən tam əminəm ki, əlac – yenə də elə «Söz azadlığı»nın özündədir.”[1]

Hər şey aydındır, demək, biz söz azadlığı şəraitində məqsədə doğru, təntiyə-təntiyə, ətalətlə gedirik, yəni problem, sürət məsələsidir, üstümüzdən ətalət yükünü ata bilmirik. Doğrudan da, “söz azadlığı” sənə fikrini ifadə etmə-

[1] http://kulis.lent.az/news/20080

yə nə qədər geniş imkanlar açsa da, başqaları və elə sənin özün üçün onu kəsməyə, boğmağa, qarşısını almağa da o qədər, bəlkə ondan çox imkanlar açır.

Özünü ifadəyə, yazılan, nəşr edilən əsərlər haqqında rəy bildirməyə bu qədər geniş imkanların olması müqabilində (buraya sosial şəbəkələrin də verdiyi imkanları daxil edirik) bədii və ədəbi-tənqidi mətnlərin bu qədər səviyyəsiz olması təəccüb doğurmalıdırmı? Əlbəttə, yox. İndi baxırıq, əvvəllər, 30-40 il qabaq kitablar da belə gözəl dizaynda nəşr edilmirdi. İndi Allaha şükür ki, dizayn problem deyil, zahiri görünüşü zövq oxşayan, üz qabığında gözəl əsərlərin, fiqur və fiqur kombinasiyaların əks olunduğu kitablar... açılmamış örtülür. Onları heç kəs oxumur. Bəs niyə yazılır? Bəlkə bir professorun dediyi kimi, bizim ədəbiyyatın və tənqidin bu günə düşməsinə səbəb postmodernizmdir? Yaxud başqa bir ədəbi dəb və ya modadır? Məsələ heç söz azadlığında da deyil. Heç ola bilməz ki, yüksək keyfiyyətli bədii əsərlər yaransın və ona qarşılıq verən tənqid formalaşmasın. Çünki yüksək səviyyəli bədii mətnlər öz oxucularını yaradır, gec-tez öz tənqidini də yaradır. Bəzən, yox uzun müddət onunla mübahisə edərək, dilləşərək, qan-tər içində öz sözünü sübut edənə qədər. Və heç ola bilməz ki, ədəbi proses məhsulları zəif olsun, oxunmasın, maklatura olsun, ancaq bunun müqabilində qarşısındakı tənqid yüksək professionallığı ilə seçilsin. Əks hal absurd və non-sens olardı.

Ədəbi prosesdə tənqidi fikir və təfəkkür təkcə tənqidçilər tərəfindən yaranmır, bütün dünya ədəbiyyatının təcrübəsi də sübut edir ki, bu prosesdə yazıçılar, şair və dramaturqlar da (hətta esseistlər belə-!) iştirak edir. Tomas

Sternz Eliot poeziyada yeni üslub-paradiqma yaradan təkcə böyük şair deyil, həm də ingilis-amerikan yeni tənqidinin banisidir. Onun müasir və klassik ədəbiyyatdan bəhs edən yazıları məhz professionallığı ilə seçilir, həm də onunla seçilir ki, bu mətnlərdə zərrə qədər də şikayət yoxdur, yəni niyə bizdə filan şeylər yoxdur və sair. O, bədii təfəkkürü biçimləyən bir sistem yaratdığının fərqində idi, professionallığı giley-güzar müstəvisində deyil, sırf kateqoriya çərçivəsində həyata keçirirdi. Məsələn, deyirdi ki, şair ilk ağlına gələn, ürəyini bəlkə tələtümə də gətirən duyğulardan vaz keçməsə mahiyyətcə uzun zaman yaşayan mətnlər yarada bilməz. Onun tənqidə gətirdiyi obyektiv korrelyat anlayışını bilmək bizim üçün də önəmlidir. Çünki biz, bir qayda olaraq, hər hansı şeiri təhlil etmək istəyəndə hər şeyi, bütün diqqəti şairin üstünə yönəldirik, halbuki, şeiri şairdən ayrı bir struktur kimi təsəvvür etmək kifayətdir ki, bədii mətndə şairin belə görə bilmədiyi nəsnələri aşkarlayasan. "OBYEKTİV KORRELYAT "Hamlet və onun problemləri" məqaləsində (1919) T.S.Eliott tərəfindən emosiyanın bədii ifadəsi ilə bağlı ədəbi dövriyyəyə daxil edilib. Eliota görə, bu anlayış "konkret emosiyanın formulu olacaq predmet, situasiya və hadisələrin birləşməsidir; müəyyən həyəcan doğuran zahiri faktları təsvir etmək kifayətdir ki, bu emosiya meydana çıxsın". Obyektiv korrelyat diqqəti yaradıcılığın subyektindən obyektinə, şairdən əsərin strukturuna yönəldir. Şair öz emosiyasını oxucuya birbaşa ötürə bilmədiyi üçün burada "vasitəçiyə" ehtiyac yaranır. Beləliklə, müəlliflə oxucu arasında qarşılıqlı təmas yaranır, şairin demək istədiyi mətləb təcəssümünü tapır. Başqa sözlə desək, şair ağıl və hislərin sözlü ekviva-

lentini axtarır. Fransız simvolistləri hesab edirdilər ki, emosiya birbaşa yox, nəyinsə vasitəsi ilə meydana çıxmalıdır. Malarmeyə görə, poeziyanın əsası ideya yox, sözlərdir; o, sözün potensial imkanlarını araşdırıb onların qarşılıqlı təsirini balet və ya musiqi strukturu olaraq qəbul edib; obyekti adlandırmaq ona edilən poetik işarəylə oyanmış həzzin dörddə üç hissəsini öldürmək deməkdir. Paund "göstərmək, işarə etmək, assosiasiya doğurmaq, təlqin etmək, ancaq təsvir etməmək" fikrini aşılayırdı. Tədqiqatçılar obyektiv korrelyat anlayışının kökünü Paundda, Uitmen, Bodler, Ellston, Hüsserl, Nitşe, habelə qədim hind estetiklasında tapdılar. Bəzi tənqidçilər obyektiv korrelyat anlayışını personaj və ya şairin, yaxud onların hər ikisinin emosiyasını ifadə edən obraz və ya obrazlar sırası kimi təqdim edirlər. Məsələn, "Prufrok" şeirində "həyatımı kofe qaşığıyla ölçdüm" obrazı Prufrok və Eliota xas olan fanilik, boşluq hissini ifadə edir.

Bu mənada müşahidələrimizə görə Xalq yazıçısı Anarın "525-ci qəzet" və "Ədəbiyyat qəzeti"ndə dərc edilən yazıları ədəbi prosesdə çözülməsi vacib olan, yeni ideyaların yaranmasına təkan ola biləcək məqamları tutan yazılarını qeyd etmək istərdim. Onun "Şairliyindən böyük şair" yazısı keçən il vəfat edən Yevtuşenkoya həsr edilsə də, başqa mətləblərə də yön verməsi ilə seçilir. Yazıçı qeyd edir ki, "Sovet dönəmində heç bir ədəbi nəsil ictimai-siyasi şüura altmışıncılar qədər təsir etməyib. Buna görə də Yevtuşenkonun "Rusiyada şair olmaq şairlikdən böyükdür" fikrinə əsaslanaraq, onu bir az da genişləndirərək və dəqiqləşdirərək deyə bilərəm ki, keçmiş Sovet İttifaqında şair, yazıçı olmaq şairlikdən, yazıçılıqdan daha böyük və-

zifə idi. Əlbəttə, altmışıncı illərdə ədəbiyyata gəlmiş yaradıcı insanların arasında retroqradlar, mühafizəkarlar, gericilər də az deyildi, amma ədəbiyyat tarixində termin kimi "altmışıncılar" ifadəsini məhz bu nəslin mütərəqqi, irəliçi, açıq fikirli yaradıcılarına aid edirlər. Bu baxımdan altmışıncıların cəmiyyətin ictimai-siyasi şüuruna təsirini hətta siyasi xadimlərin özləri də etiraf edirlər." Və mətləb əlbəttə ki, tam olaraq heç altımışıncılarla da əlaqəli deyil. Bu bir ədəbi düsturdur: şair o zaman şairliyindən böyük olur ki, dərin və təsirli, sxematiklikdən və qafiyəpərdazlıqdan uzaq ritmi və fikirləriylə sosiuma, onun qəliz və ziddiyyətli həyatına müdaxilə etsin, sözünü desin. Ənənəvi janrlarda – qoşma, gəraylı biçimində yaxşı şeirlərə qulaq asıb zövq alırıq, ancaq elə bu şəkillərdə ictimai məzmunu dərin olan şeirlər dünya, həyat və gerçəklik haqqında bildiklərimizin sınırlarını genişləndirir.

Bu mətnləri oxuyarkən və dinləyərkən hər bir fərd cəmiyyətlə bağlı beynində dolaşan fikirləri nizama salaraq, necə deyərlər, mətləb üstünə gəlir. Bizim milli ədəbi tənqidi fikrin banisi Axundzadə də qoşma, təcnis və bu səpkili digər mətnlər yazırdı. Bəlkə, həm də ona görə yazırdı ki, bu tipli formaların vaxtının ötdüyünü göstərsin, cəmiyyətlə dialoqda yaramadıqlarını bildirsin. Və üzünü Qasım bəy Zakirə tuturdu. Elə bil Axundzadənin cəmiyyətlə dialoquna reaksiya kimi Anar elə həmin məqaləsində yazır: "...Yadıma sala bilərlər: bəs Sezanın almaları necə olsun? O da lazımdı, söz yox, Amma hanı özündən əvvəlkiləri bütünlüklə inkar edənlərdən birisi ki, Sezan səviyyəsində sənətkar olsun? " Kimsə deyə bilər ki, Axundzadə də inkar edirdi. Bəli, edirdi, ancaq elə bir formada ki, bu təzə ədəbi

təmayüllərə yön verirdi. Bu məqamda professor Qorxmaz Quliyevin "Xüsusidən ümumiyə" kitabında yer alan bir məqalənin adını çəkmək istərdim: "Ədəbiyyat və inkar". Qorxmaz müəllim yazır: "Fransız yazıçısı Stendal bədii əsəri yol qırağında qoyulmuş, gəlib-gedəni əks edən güzgüyə bənzədirdi. Həqiqətən də, bədii əsər elə bir güzgü olmalıdır ki, yazıçı ilə oxucu arasında müəyyən optimal məsafə yaratsın. Bu elə bir güzgü olmalıdır ki, insanla gerçəklik arasında, insanla insan arasında təbii nisbət pozulmasın, oxucu orda özünü həm tamamilə olduğu kimi, həm də diametral şəkildə ondan fərqlənən obraz-əks şəklində görsün. Heç də təsadüfi deyildir ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında formalaşmış, ilk növbədə M.Ə.Sabir və C.Məmmədquluzadənin adı ilə bağlı "inkar" ədəbiyyatı bu missiyanı uğurla yerinə yetirmişdir".[1] Bəli, həqiqi ədəbiyyat yalan danışmaqdan imtina edən ədəbiyyatdır. Ancaq təəssüf ki, bu gün bizim ədəbiyyat yalanlarla doludur və tənqid də, Elçin müəllim deməmişkən, bu yalanlrı görməzdən gəlir. Problem budur.

2017-ci ildə geniş anlamda götürdüyümüz tənqidin klassikaya münasibətindən bir-iki söz demək lüzumu yaranır. Klassiklər – Səməd Vurğun, S.Rüstəm, R.Rza haqqında nə qədər ittihamçı, əsassız, fakta və əxlaqa söykənməyən yazılar çap edilsə də, hərdən ağıllı, bütün bu hərcmərcliyi aradan qaldırmaq gücündə olan yazılar da meydana çıxır. Adını çəkdiyimiz "Ədəbiyyat qəzeti"ndə bu kimi nadir nümunələrə rast gələ bilərik. Məsələn, diqqət edin: "...Universitet illərində akademik Fuad Qasımzadə bir xa-

[1] Qorxmaz Quliyev. "Xüsusidən ümumiyə". Bakı, 2016, s.19.

tirə danışmışdı. Səməd Vurğunun vəfat xəbəri "Kommunist" qəzetinin birinci səhifəsində şairin böyük fotosu və nekroloqla birgə çap edilmişdi. Qəzetin arxa səhifəsində isə diqqəti cəlb etməyən kiçik bir xəbər vardı: "Mir Cəfər Bağırov haqda ölüm hökmü icra edildi". Bəli, tarix Səməd Vurğunun ölümü ilə hər şeyi yoluna qoyurdu, xalqın böyük şairi baş məqalə, qəddar tiran isə barmaq boyda xəbərlə tarixə vida edirdi. Lakin tarixin bu ironiyasını anlamayan məhdud təfəkkürlü insanlar hələ də yaşayır. Əslinə baxsan, elə bolşevizm də budur, stalinizm də budur, maosizm də budur. Bu cür məhdud düşüncəli insanlar sayəsində stalinizm mövcud ola bilmişdi" Şair özü yazırdı ki:

Çarxını vurduqca dövranın əli,
Bəzən ağlar olur, bəzən gülməli,
İnsanın ən böyük eşqi, əməli
Bəzən aslan kimi çırpınır darda,
Bəzən də qərq olur fırtınalarda...

Esse janrı. Yuxarıda qeyd elədik ki, bu janrda qələmə alınan yazıların böyük əksəriyyəti həsbi-haldan o yana getmir. İstisnalar da var. Hətta bir kitablıq. Rüstəm Kamalın "Güzgü günü" esselər toplusu. Bu topluda Rüstəmin Müşfiq, Əli Kərim, Mirzə İbrahimov, Zəlimxan Yaqub, Yusif Vəzir, Mirzə Cəlil, Vaqif Səmədoğlu, Mir Möhsün Nəvvab, Kafka, Nizami Cəfərov, Asəf Zeynallı, Məmməd Araz... haqqında esseləri mükəmməl tənqid nümunələri kimi də götürülə bilər. Müəllif haqqında danışdığı insan (sənətkar) və əşyanı bir-iki nöqtədən elə bil (və qəsdən-!) tələsik görüntüləyib onların həyat və yaradfıcılıqlarını elə

bir məqama bağlayır ki, həcmcə kiçik mətndə müəlliflə forma, insanla taleyi arasındakı sirli münasibət və bağlar mətnə çevrilir. Yəni sənətkarın ömür, həyat, tale mətniylə onun yaratdığı mətnlər arasında metafizik bağ hardadır? Əli Kərim haqqında essesindən: "...Vaxtilə E.Benvenistdə "Ümumi dilçilik" oxumuşdum ki, ərəb dilində 3-cü şəxs əvəzliyi "olmayan, yox olan" mənasında müəyyən edilir. "O" həm də artıq ölümün adıdır. (L.Tolstoyun "İvan İliçin ölümü" povestində "ölüm, ağrı" sözləri, "Hərb və sülh"də Andrey Balkonskinin yuxusunda "ölüm" üçüncü şəxsdə verilir). Əli Kərimin məkan mifologiyası üçün "uzaq" ayrıca dəyərə, mənaya malikdir. "Uzaq" – qürbətin, qəribliyin, qeyb aləminin adıdır. Taleyin mistik işarəsidir. Bir şeirində "Qəribsədim uzaqlarda deyir". Bu kiçik esselər sənət adamının tale, ömür süjetinin onun özcə mətnlərinin içindən keçirməyin gözəl nümunələridir.

2017-ci ədəbi ilində müxtəlif qəzet, jurnal və saytlarda təşkil edilən yeni kitabların müzakirələri, rəngarəng layihələr də diqqəti cəlb edir. AYB-nin orqanları – "Azərbaycan", "Ulduz" jurnalları və "Ədəbiyyat qəzetində" yer alan ədəbi-tənqidi yazılar, xüsusilə müzakirə məqsədi ilə təqdim edilən layihələr fikimizcə, ədəbi prosesin canlanması üçün stimul yaradır. "Ədəbiyyat qəzeti"ndə "Bir şeir, iki rakurs", "Hekayə diskurs kimi" layihələri, vaxtaşırı olaraq dünya ədəbiyyatı ilə oçerklərin və tənqidi yazıların, habelə hər il "Ədəbi ilin yekunları"nın çapı, "Azərbaycan" və "Ulduz" jurnallarında gənc müəlliflərlə əlaqədar təhlil yazılarının verilməsi diqqətəlayiqdir. Bu sıraya "sim-sim.az", "artkaspi" və "kulis.az" ədəbiyyat portalalrının fəaliyyətini də daxil edirik. "Sim-sim.az" portalında şair

Qismətlə dünya və Azərbaycan ədəbiyyatı, habelə, filoloji fikrinin nümayəndələri haqqında video söhbətlərin təşkili, "kulis"də "Azərbaycan ədəbiyyatının dünəni", "artkaspi" portalında təşkil edilən müsahibələr və sair layihələr müasir dövrü, onun poetik təcrübəsini tam anlamağa yardımçı olur. Facebook sosial şəbəkəsində ayrı-ayrı tənqidçi və ədəbiyyat adamlarının fəaliyyəti fikrimizcə diqqətəlayiqdir. İndi bunu deməyimiz sizə qəribə gələ bilər, ancaq zamanın axışı lakonik, yığcam formaların yaranmasına doğrudur və gec-tez burada çox müsbət dəyişikliklərin meydana gəlməsinin şahidi olacağıq. Nəyə görə? Sosial şəbəkədə uzun-uzadı yazılarla sözün yaxşı mənasında effekt yaratmaq , diqqəti bu və ya digər ədəbi problemə yönləndirmək mümkünsüzdür. Bu şəbəkənin bir üstün cəhəti də onun ictimai fikirlə əlaqəli olması, ona təsir və müdaxilə etmək niyyətli olmasındadır. Bu sosial şəbəkədə hələ ki, dedi-qodu və anormal yanaşmalar üstünlük təşkil edir, çox zaman ədəbi həyatdakı açıq qalmaqallar da buraya "copy-paste" üsulu ilə transfer edilir. Ancaq perspektiv elədir ki, bu şəbəkə hamıya açıqdır, normal və şəffaf münasibətlər kontekstində tənqidin "fb. janrı" kağız, monoqrafiya, sicilləmə məqalə janrını üstələyəcəkdir.

Sonda bəzi ümumiləşdirmələr aparmaq qalır.

Beləliklə, 1) milli tənqiddə bədii əsərlərin ciddi araşdırılma ənənəsi itmək üzrədir. Səbəblərdən biri: tənqid təfəkkürü mutasiyaya uğrayıb, müstəqilliyini itirib, tənqid bazarlıq meydanına çevrilib. Tənqidə bu qədər ehtiyac olduğu bir zamanda onun belə deyək, naxələfliyi dəhşətli proqnozlar doğurur. Əvvəllər bir əsəri tənqid edən adam ikinci təsadüfdə onu tərifləməyə ən azı utanardı, indi utan-

maq nədir, bu işi bir neçə dəfə, təkrar-təkrar (buna karusel üsulu deyilir), usanmadan görən adamlar var. 2) Tənqid forma və janr spesifikası etibarilə də kasıblaşıb. Resenziya janrı əsərin təsvirinə çevrilib. Hətta kitab-resenziyalar var. Ədəbiyyatşünaslıq əsərlərinin bir qismi bu gündədir. Tənqiddə publisistik ton ola bilər və vacibdir, ancaq başdan-ayağa publisistləşməsi artıq qorxulu tendensiyadır. 3) Tənqid münasibətdir, çox ciddi münasibətdir, onun ilkin funksiyası əsərə valeh olmamaqdır, onun ritmi və intonasiyasını nəqarata çevirməməkdir. Ancaq bizim tənqiddə, tutaq ki, poeziyadan yazanda "Roma Papasından daha artıq dindar olmaq" tendensiyası özünü göstərir.

Nəhayət, belə bir qüsurlu tendensiyanı da xatırladım: süni texnarlığa qaçmaq. Bu kontekstdə Marsel Prustla əlaqəli Lidiya Ginzburqun bir mülahizəsiylə fikrimi tamamlamaq istərdim: "...Prust o novatorlar cərgəsinə aiddir ki, onlar ayrı-ayrı elementləri icad etmək eşqinə düşmürlər, əksinə elementləri başqa, tam fərqli şəkildə "danışmağa" məcbur edirlər".

Mərcan SOFİYEVA
Elmi işçi

BƏDİİ TƏRCÜMƏ BİR İLDƏ

Ədəbiyyatşünaslıq elminin mühüm araşdırma obyektlərindən biri olan bədii tərcümə problemi ədəbi-bədii nümunələrin digər dillərə çevrilməsi ilə yanaşı, daha böyük bir ədəbi mühitə inteqrasiyası məsələsini araşdırır. Lakin məsələ təkcə əsərlərin tərcüməsi ilə bitmiş deyildir. Bu məsələnin görünən tərəfidir. Belə ki, bədii tərcümə daha geniş anlamda mədəniyyətlərin qarşılıqlı bəhrələnməsi, kiçik ədəbiyyatların böyük ədəbiyyat məfhumuna nüfuz etməsi, milli ədəbiyyatların zənginləşdirilməsi, geniş ədəbi mühitin yaranması ilə dövlətlərarası mədəni əlaqələrin formalaşması kimi vacib məsələlərin inkişafına xidmət edir.

Tərcümə tarixinin dünəninə nəzər salarkən görürük ki, əsrlər öncə bu sənətlə məşğul olanları ciddi təqib gözləyirmiş. Elə, fransız ədəbiyyatşünası Moris Blanşonun tərcümə adlı essesində yazdığı kimi: "Xatırladım ki, tərcümə işi bəzi mədəniyyətlərdə uzun müddət zərərli fəaliyyət növü hesab olunmuşdur. Bir qism adamlar onların dilinə hər hansı əsərin tərcümə edilməsinin qəti əleyhinədirlər. Digərləri isə onların dilindən özgə dillərinə edilən tərcüməni xəyanət kimi qələmə verirlər. Amma tərcüməçi qaçılmaz dərəcədə böyük küfr törətməkdə günahkar hesab olunur. Onu az qala Allahın əleyhdarı kimi qələmə vermək istəyirlər". Lakin tarixi inkişaf yolundan keçən tərcümə sənəti bir çox geri qalmış mədəniyyətlərə verdiyi töhfələri ilə

əhəmiyyətini sübut edə bilmiş, günümüzə gəlib çataraq ən vacib, hətta strateji bir elm sahəsinə çevrilmişdir.

Bəs tərcümə işi Azərbaycanda necə inkişaf edir, hansı problemlərlə üzləşir, ölkədə gedən tərcümə prosesini qənaətbəxş hesab etmək olarmı? Hələ başlanğıcını XIX əsrin əvvəllərindən götürən tərcümə işi müxtəlif inkişaf mərhələləri keçərək bu günümüzə gəlib çatmışdır. Tarixi keçmişə nəzər salsaq, tərcümələrin yalnız bir dil vasitəsi ilə edildiyini görərik. Sözsüz ki, bu dilin rus dili olması heç də təəccüblü deyildir.

Artıq bir dildən tərcümə olunmuş əsər müəyyən qədər dəyişikliklərə, ixtisarlara, cilalanmaya uğrayır. Həmin əsərin yenidən başqa dilə çevrilməsi, onsuz da, müəyyən qədər orijinallığını itirmiş əsərin tamamilə öz ovqatından uzaqlaşmasına, yazıçı üslubunun itirilməsinə, təhriflərə səbəb olur. Ən yaxşı halda ilk tərcümənin profesionallığına ümid etmək olar. Lakin XX əsrin 50-ci illərindən başlayaraq Azərbaycan bədii tərcümə tarixində yeni epoxaya qədəm qoyuldu və orijinaldan ilk tərcümələr edilməyə başlandı. Bu gün isə əsərlərin tərcüməsi məsələsində orijinaldan bəhrələnmə problemi daha aktualdır və bədii tərcümə işində daha uğurlu nəticələr əldə olunmasına zəmin yaradır.

Tərcümə prosesi ölkəmizdə 2017-ci ildə iki istiqamətdə inkişaf etmişdir.

1. Orijinaldan tərcümələr
2. İkinci dil vasitəsilə edilən tərcümələr

Qeyd etmək lazımdır ki, bu il də digər illərdə olduğu kimi, ikinci dildən tərcümə məsələsi aktuallıq kəsb edib. Tərcümə olunan əsərlərin əksəriyyəti rus, bəzən isə türk

dili vasitəsi ilə həllini tapıb. Bədii tərcümələrin bəzən yeni olmaması, hətta bəzilərinin sovet dövründə ingilis, fransız, alman və rus ədəbiyyatlarından edilməsi və nəşri məsələsi bu il də aktualdır. Bu faktın özü belə bu qədər dil mütəxxəssislərinin yetişdiyi dövrdə böyük təəssüf hissi doğurur.

Ümumiyyətlə, tərcümə prosesinin inkişaf sxemi aşağıdakı kimi əksini tapmışdır.

1. Diplomatik əlaqələrin yaradılması
2. Ədəbiyyatların qarşılıqlı təbliği
3. Dünya ədəbiyyatı tərcüməsi və kitab şəklində nəşr edilməsi
4. Mətbu orqanlarında il ərzində dövrü olaraq çapı

Tərcümə edilən əsərlərin mənşəyinə nəzər salarkən yenə də bu il Avropa (əsasən ingilis, fransız, alman və italyan ədəbiyyatlarından), Amerika və rus ədəbiyyatları nümənələrinin tərcüməsinə üstünlük verilməsi faktı ilə üzləşirik. Eyni zamanda, türk və türkdilli xalqların, ərəb, yapon, çin və digər xalqların ədəbiyyat nümunələrindən də tərcümələr yer almaqdadır.

Tərcümə olunan əsərlər sırasında roman ədəbiyyatı ilə yanaşı, epik janrın digər növlərinə daha çox müraciətlər olunmuşdur. Dünya ədəbiyyatı nümayəndələrinin həyat və yaradıçılığından səhifələr, hekayələr, epistolyar ədəbiyyat nümunələri, esselər, ədəbi-nəzəri və fəlsəfi fikirlər, xatirələr, məktublar, çıxışlar da geniş yer tutur. Yəqin ki, bu da ondan irəli gəlir ki, böyük həcmli əsərlərin tərcüməsi daha çox zaman və səriştə tələb edir. Digər bir səbəb isə dövrü mətbuatlarda daha çox qısa məzmunlu, dərin fəlsəfi, ədəbi-bədii və estetik məzmunlu əsərlərin çapına üstünlük verilir.

Konkret olaraq 2017-ci ildə bədii tərcümə işinin hansı səviyyədə olduğunu görmək üçün ilin əvvəlindən sonuna qədər ölkədə gedən bu prosesi müşahidə etməyə ehtiyac duyulur. Tərcümə prosesinin mərkəzində duran əsas qurum və təşkilatlar Nazirlər Kabineti yanında Bədii Tərcümə Mərkəzi, Azərbaycan Yazıçılar Birliyi Ədəbi Əlaqələr və Bədii Tərcümə Mərkəzi, bir sıra nəşriyyatlar, mətbu orqanları və internet portallarıdır.

Tərcümə sahəsində əvəzsiz xidmətlər göstərən təşkilatlardan biri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzidir. Mərkəz öz fəaliyyətini bir neçə istiqamətdə qurmuşdur. Əvvəldə qeyd etdiyimiz kimi, bir sıra ölkələrlə mədəni-diplomatik əlaqələr yaratmış, həm mərkəzdə, həm də səfirliklərdə və nümayəndəliklərdə bir sıra görüşlər keçirilmiş və əhəmiyyətli nəticələr əldə olunmuşdur. Dünya ədəbiyyatından nümunələr tərcümə olunaraq kitab şəklində və mərkəzin mətbu orqanında çap edilmişdir.

2017-ci ildə dünya şöhrətli yazıçı Stiven Kinqin "Seçilmiş əsərləri", XX əsr rus ədəbiyyatının görkəmli nümayəndələri Yuri Trifonovun "Seçilmiş əsərləri" ("Qoca" romanı, "Göbələkli payız", "Göyərçin ölümü", "Vera və Zoyka", "Toranlıqda oyun" adlı hekayələri) və Leonid Andreyevin hekayələrindən ibarət "Uçuş" adlı kitabı ("Berqamot və Qaraska", "Petka bağda", "Mələkcik", "Böyük dəbilqə", "Çay kənarında", "Uçuş" kimi hekayələri), yapon əsilli Britaniya yazıçısı, 2017-ci il Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Kazuo İşiquronun "O günlərdən qalanlar" romanı, Müasir Argentina uşaq ədəbiyyatının tanınmış siması Mariya Elena Valşın "Dailan Kifki"

kitabı (orta məktəb şagirdlərinin mütaliəsi üçün nəzərdə tutulub) mərkəzin təqdimatında işıq üzü görmüşdür.

Mərkəzin tərcüməsində nəşr olunan iki əsər daha çox diqqəti cəlb edir. Əsərlərdən biri tanınmış rus nasiri, Rusiya ədəbiyyatı Akademiyasının akademiki Georgi Pryaxinin "Xəzər yuxuları" romanıdır. Əfsanəvi Xəzər xaqanlığı və müasir Rusiya arasında maraqlı paralellərin aparıldığı "Xəzər yuxuları" romanının əsasını sosial, tarixi hadisələr fonunda cərəyan edən hadisələr – mürəkkəb sosial ziddiyyətlər, insan taleyinin obyektiv faktorlardan asılılığı, məhrumiyyətlər və azadlıq hissi, mübarizə əzmi, qəlbin və ruhun reallıqla üst-üstə düşməyən istəkləri və insan iradəsinin təntənəsi təşkil edir.

Digər roman isə görkəmli macar yazıçısı, Nobel mükafatı laureatı İmre Kertesin "Talesiz" adlı kitabıdır. Roman İkinci Dünya müharibəsi illərində Osvensim və Buhenvaldda yaşananları, dəhşətli düşərgə həyatını, işgəncə və zülm altında əzab çəkən insanların mənəvi və fiziki iztirablarını təsvir edir. 2002-ci ildə roman macar ədəbiyyatına ilk Nobeli qazandırıb. Roman Azərbaycan dilində ilk dəfə işıq üzü görür. Hər iki romanın ağır psixoloji məqamlarla zəngin süjet xəttini nəzərə alsaq, tərcümənin bütün bu hiss və duyğuları əks etdirə bilməsi baxımından çətin, bir o qədər məsuliyyətli, ciddi peşəkarlıq, gərgin iş tələb etməsi reallıqdır. Lakin tərcüməçilər bu işın öhdəsindən uğurla gələ bilmişdilər. Qəhrəmanların gərgin psixoloji və emosional vəziyyətlərini, süjet xəttində cərəyan edən hadisələrin ən ağır məqamlarını və yazıçının üslubunu tərcümə zamanı qoruyub saxlaya bilmiş, əsərin əsas ideya və məzmununa xələl gətirmədən oxucuya ötürə bilmişdir. Ro-

manları dilimizə Etimad Başkeçid, Mahir N.Qarayev və Güldəstə Nəsib tərcümə edib.

Viktor Jirmunskinin "Xalq qəhrəmanlıq eposu" kitabı da mərkəzin uğurlu işlərindən biridir. Kitab german və roman, rus və cənubi slavyan, Orta Asiya, həmçinin, Azərbaycan xalqının dastan yaradıcılığından bəhs edir. "Kitabi Dədə Qorqud", "Koroğlu", "Alpamış" və Karel-fin dastanı "Kalevala" və digər xalq dastanları arasında müqayisəli elmi araşdırmaların yer aldığı bu kitab dəyərli tədqiqat məxəzidir. Ön sözün müəllifi akademik Muxtar İmanovdur. Əsəri dilimizə Etimad Başkeçid çevirib.

Mərkəzdə həmçinin "Türkiyə ədəbiyyatı antologiyası" (nəsr) işıq üzü görüb. XIX-XXI əsrlər Türkiyə ədəbiyyatının mənzərəsini küll halında Azərbaycan oxucusuna təqdim edən bu kitabda əllidən çox tanınmış Türkiyə ədibinin əsərləri yer alır. Antologiya ilə tanış olan oxucuda türk ədəbiyyatı ilə baglı müfəssəl təsəvvür yaranmış olur. Mütərcimlər səviyyəli bir tərcümə işinə imza atmışlar və kitabın tərcüməsini uğurlu hesab etmək olar. Yəqın ki, Türkiyə və Azərbaycan türkcəsinin bir-birinə doğma olması faktı da burada öz sözünü deyir. Antologiyanı dilimizə Qəmər Alxanova, Kəmalə Ələkbərova və Sənan Nağı çeviriblər.

Bu il təqdim olunan antologiyalar sırasında ikicildlik "Dünya dramaturgiyası antologiyası" işıq üzü görüb. "Skapenin kələkləri" adlanan I cildi dilimizə Xalq yazıçısı Elçin, "Lanqustun gülüşü" adlanan II cildi isə yazıçı-tərcüməçilər – Yaşar və Saday Budaqlı çevirib. Kitabın tərcüməsi məsələsini müzakirə etmək yersiz olardı. Xalq yazıçısı Elçinin tərcüməsində işıq üzü görən əsər yazıçı psixo-

logiyasının ifadəsi, ideya mahiyyətinin ötürülməsi və bədii ifadəlilik baxımından yüksək məqama sahibdir. Tərcümə zamanı yazıçının yüksək peşəkarlığı və üslubun qorunub saxlanılması ən vacib və dəyərli amillərdəndir. Digər antologiya isə Ukrayna poeziyasını əks etdirən "Kişi, qadın və çətir" adlanır. Antologiya XX-XXI əsr Ukrayna ədəbiyyatının müxtəlif nəsillərini təmsil edən otuz şairin poeziyasından seçmə nümunələr və müasir Ukrayna poeziyasının ümumi mənzərəsini təqdim edən şeirlər toplusudur. Tərcüməçilər Salam Sarvan, Mahir Qarayev və Zahid Sarıtopraqdır.

Mərkəzin mətbu orqanı olan "Xəzər" jurnalının da il ərzində dörd sayı işıq üzü görüb. Hər il olduğu kimi, bu il də jurnal Poeziya, İntibah, Korifeylər, Memuar, Cağdaş dövr ədəbiyyatı, Teatr, Ədəbi mozaika kimi müxtəlif bölmələrdən ibarətdir. Jurnala yeni "Buker mükafatı laureatları" bölməsi də əlavə olunmuşdur. Burada əksini tapan sistemlilik oxucuya dünya ədəbiyyatının müxtəlif inkişaf istiqamətləri ilə tanış olmağa imkan yaradır. Tərcümələr arasinda həm klassik, həm də müasir dövr ədəbiyyatinin müxtəlif məsələləri əhatə olunmuşdur. Ədəbi nümunələrlə yanaşı, görkəmli simaların həyat və yaradıcılığını tədqiq etməkdə böyük əhəmiyyət kəsb edən məktublar, xatirələr, gündəliklərdən qeydlər də tərcümə olunmuşdur.

Jurnalın müxtəlif saylarında Norveç yazıçısı Yusteyn Qorderin "Portağal Qız", Haynrix Böllün "Kişisiz ev", Fransua Moriakın "Sevgi səhrası", Kasio İsiquronun "O günlərdən qalanlar", Peter Handkenin "Solaxay qadın", Toni Morrisonun "Evə qayıdış" romanlarından parçalar, Macar ədəbiyyatı nümayəndəsi Peter Nadaşın "Mənim

ölümüm", Herman Hessenin "Cavanlıq gözəl şeydir", İvan Klimanın "Miriyam", Nikolay Qoqolun "Şinel", Con Steynbekin "Basqın" hekayələri, Əli Ağbaş, Cansuq Çarkviani, Edip Cansevər, Cahit Zerifoğlu, Cemal Süreya, Ece Ayhan, Can Yücel, Ş.Bodler, P.Verlen, A.Rembon və Anna Axmatovanın şeirləri və Qumelyova məktubları, Rotterdamlı Erazmusun "Axmaqlığın tərifi", Doris Lessinqin "Qarışqa yuvası" povestləri, Yuri Polyakovun "Sinif yoldaşları", Ejen İoneskonun "Keçəl müğənni qız", Martin Makdonaxın "Spokanlı təkqol" pyesləri, Uinston Çörçilin memuarları, Mixail Çexovun "Peşəkar aktyorluq dərsləri", Yelena Bulqakovanın "Mən dustağam" gündəliyi, Ezra Paundun "Keçmişə baxış və edilməməli bəzi şeylər", Yukio Misimanın "Günəş və polad" esseləri yer almışdır. Tərcümə əsərlərinin əksəriyyəti standartlara cavab verir və gözəl bir bədii tərcümə məcmuəsinin ərsəyə gəlməsinə zəmin yaradır. Jurnalda zaman-zaman rastlaşdığımız texniki, leksik və qrammatik səhvləri, və bir sıra zəif redaktə olunmuş əsərləri nəzərə almasaq, əminliklə deyə bilərik ki, çox əhəmiyyətli bir dünya ədəbiyyatı məxəzidir.

Bu il Azərbaycan Yazıçılar Birliyi Ədəbi Əlaqələr və Bədii Tərcümə Mərkəzi də ədəbi əlaqələrin genişlənməsi və bədii tərcümə sahəsində çox mühüm və əhəmiyyətli nəticələr əldə etdi. Mərkəzdə bir sıra mədəni-diplomatik görüşlər keçirmiş, əməkdaşlıq memorandumları imzalamış və qarşılıqlı ədəbi-mədəni əlaqələrin inkişafı istiqamətində ciddi işlərə imza atılmışdır. Mərkəzin rəhbəri Səlim Babullaoğludur.

2017-ci il ərzində *"Dünya ədəbiyyatı"* dərgisinin iki sayı – ilin birinci yarısında İngiltərə, ikinci yarısında isə Moldova sayı işıq üzü gördü.

İngiltərə məcmuəsində ingilis ədəbiyyatının görkəmli nümayəndələri Julian Barnsın "Aqibət duygusu" romanından parça, Somerset Moem, Doris Lessinq, Cerom Klapka, Hektor Hyu Munqo, Hillari Mantel, Ceyms Hedli Çeyz, Canet Vintersonun hekayələri, Daniel Defonun gündəliyindən qeydlər, Artur Konan Doylun "Din yeni vəhy işığında" adlı essesi, Qrem Qrinin müsahibəsi, Oskar Vayldın "İdeal ər" komediyasından dörd pərdə, Toman Sternz Eliotun "Bəhrəsiz torpaq" poeması, "Poeziyanın sosial təyinatı", "Ənənə və fərdi istedad" adlı esseləri, Nobel nitqi, eləcə də şeirləri və digər bədii nümunələr tərcümə olunmuşdur. Məcmuədə əksini tapan nümunələrin demək olar ki, böyük əksəriyyəti orijinaldan və rus dili vasitəsilə Səlim Babullaoğlu, Seyfəddin Hüseynli, Cavanşir Yusifli, Qismət, Şəfiqə Şəfa, İlahə Əkbər, Azad Yaşar, Rövşən Əhədoğlu, Kamran Nəzərlinin təqdimatında işıq üzü görüb.

İngiltərə sayının məzmunundan görünür ki, məcmuədə XIX-XXI əsrlər ingilis ədəbiyyatının çox görkəmli nümayəndələrinin müxtəlif janrlarda əksini tapan ədəbi nümunələri – roman, povest, hekayə, esseləri ilə yanaşı, elmi-nəzəri, fəlsəfi və hətta dini görüşləri təqdim olunmuşdur. Belə bir yanaşma hətta ingilis ədəbiyyatı ilə tanış olmayan oxucuda bu ədəbiyyat haqqında geniş təsəvvürlə yanaşı, göstərilən dövr ədəbi mühitinin inkişaf və dəyişikliklərini izləmək imkanı yaradır. Məcmuənin sonunda isə müəlliflər haqqında biblioqrafik məlumatlar əksini tapır.

Belə bir məlumat xronikasi məcmuənin məğzini bir qədər də zənginləşdirmiş olur və müəlliflər haqqında oxucuda geniş təsəvvür yaratmağa imkan verir. Seyfəddin Hüseynlinin tərcüməsində təqdim olunmuş Culian Barnsın "Aqibət duyğusu" romanı və Cavanşır Yusiflinin tərcüməsində Tomas Eliotun "Bəhrəsiz torpaq" poeması sonra ayrıca kitab halında da nəşr olunmuşdur.

Seyfəddin Hüseynli roman üzərində tərcümə işindən danışaraq müsahibələrindən birində deyir: "Romanın tərcümə prosesində ingiliscə, rusca və türkcə mətnləri ilə paralel iş apardım. İngiliscəni, ingilis ədəbiyyatını, ümumən ədəbiyyatı yaxşı bilən qədimi bir dostumdan vaxtaşırı aldığım məsləhətlər də çox faydalı oldu. Bəzi eyhamlı, sətiraltı ifadələri, frazemləri, obrazlı cümlələri daha yaxşı anlamaq və daha dəqiq ifadə etmək baxımından. Açığı, romanın rusca və türkcə tərcümələrində gördüyüm ciddi xətalar, dilin ağırlığı, üsluba xələl gətirən cəhətlər məni öz tərcüməmdə daha da vasvası davranmağa məcbur elədi. Bunlardan maksimum sığortalanmaq üçün davamlı tutuşdurmalar, dəqiqləşdirmələr lazım oldu. Çünki elə bilirəm, Barns kimi müəllifi, xüsusən "Aqibət duyğusu" kimi romanı, istər orijinalda, istərsə də hansısa ikinci dildə olsun, yalnız bir mənbəyə baxmaqla uğurlu tərcümə etmək alınmaz. Üstəlik, ədəbiyyata, tarixə, fəlsəfəyə, psixologiyaya, incəsənətə və başqa sahələrə aid çox sayda qaynaqlara istinad da öz yerində". Mütərcimin özünü tərcümə etdiyi əsərə yanaşması və dediyi sözlər artıq söz deməyə əsas vermir. Həqiqətən də, tərcüməyə yüksək münasibət əsərin hər səhifəsində əksini tapmışdır.

Azərbaycan ədəbi əlaqələrinin inkişafı baxımından bu il mərkəz möhtəşəm bir layihəyə imza atmışdır. May ayında Moldovanın paytaxtı Kişinyovda "Avropa şairlərinin baharı" adlı poeziya festivalında Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi ilə Moldova Yazıçılar Birliyi arasında əməkdaşlıq memorandumu imzalandı. Memoranduma əsasən qarşılıqlı əməkdaşlığın nəticəsi kimi ədəbiyyatların qarşılıqlı təbliği, yəni Azərbaycan ədəbiyyatının Moldovada, Moldova ədəbiyyatının isə Azərbaycanda təbliği məsələsi nəzərdə tutulurdu. Mərkəzin sədri S.Babullaoğlunun müsahibələrindən birində qeyd etdiyi kimi, "Moldova ədəbiyyatından edilən bir-iki əsərin tərcüməsini hələ ədəbi əlaqələrin yaranması kimi qeyd etmək olmaz". Sözsüz ki, Səlim müəllimin bu qənaəti tamamilə doğrurdur. Elə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Moldova heyəti ilə keçirilən görüşdə görkəmli akademikimiz İsa Həbibbəylinin dediyi kimi "bu layihə nəticəsində Azərbaycan-Moldova ədəbi əlaqələrinin əsası qoyuldu. Səlim Babullaoğlu bu sahədə böyük əmək sərf etdi". Həqiqətən, iki dost ölkə arasında ədəbi-mədəni əlaqələrin yaranmasında böyük işlər görən S.Babullaoğlu və rəhbərlik etdiyi mərkəzin xidmətləri diqqətəlayiqdir.

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin dünyada təbliği məsələsi xaricdə yaşayan azərbaycanlı iş adamları və Azərbaycanı təmsil edən qurum və təşkilatların, ümumilikdə, hər bir azərbaycanlının bilavasitə marağındadır və xalqı qarşısında borcudur. Belə ki, özünün xüsusi vətəndaş mövqeyi və vətənpərvər münasibəti ilə ədəbi məxəzlərimizin təbliği məsələsinə hər cür dəstək olmağa çalışan, Moldovada yaşayan azərbaycanlımız,

Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzovun bu layihənin reallaşmasında əməyi böyükdür.

Əməkdaşlıq çərçivəsində görkəmli moldovan şairi Arkadie Suçevyanunun "Qağayı ilə göndərilən məktub" şeirlər toplusu nəşr olundu. Kitab özünün orijinallığı ilə diqqəti cəlb edir. Burada tərcümə olunan bütün şeirlər və hətta titul səhifəsi, ön söz və mündəricat paralel olaraq iki dildə − Azərbaycan və Moldova dillərində təqdim olunmuşdur. Sözsüz ki, belə bir kitab həm də Azərbaycanda moldovaşünaslığın inkişafı və ədəbi əlaqələrin araşdırma obyeki kimi əhəmiyyət kəsb edir. Tərcümə prosesində S.Babullaoğlu və Q.Rüstəmov iştirak etmişdir. Kitabla tanış olarkən S.Babullaoğlunun ictimai fəaliyyətindən başqa tərcümə sahəsində də uğurlu nəticələrinin şahidi oluruq. Belə ki, mütərcim tərcümə etdiyi şeirlərdə poetik məzmunu qoruyub saxlaya bilmiş, şairin mənəvi dünyasının, hiss və duyğularının transliterasiyasi zamanı geniş imkanlara malik olduğunu ifadə edə bilmişdir. Əlbəttə ki, bu da onun şair təbiətindən irəli gəlir. "Qağayı ilə göndərilən məktub" şeirindəki yüksək bədii ifadəlilik diqqətdən kənarda qalmır. Azərbaycan dilinin zəngin lüğət tərkibindən, bədii təsvir və ifadə vasitələrindən doğru istifadə edən mütərcim sanki tərcümə əsəri deyil, gözəl bir şer nümunəsi təqdim edib. Şeirdə poetik axarlılıq çox orijinal bir üslubda əksini tapmışdır:

Tramvayın səsinin batırdığı
Əski payız romansı tək qəmliyəm
Ovuclarım dopdolu qəm bardağı
Kənarından aşıb-daşır birdənəm.

Bəlkə dim-dik bir şam idim, zay oldum...
Mum əridən külək əsdi qəfildən.
Hey nazildim, hey üzüldüm, ayıldım
Boş yollarda, bum-buz relslər üstündə.

Moldova ədəbiyyatının tanınmış gənc yazarı İqor Volnitskinin "Mənə ölməyi öyrət" romanı da ayrıca kitab halında nəşr edildi. Romanı dilimizə Azad Yaşar çevirib. Əsərdə ömrünün sonunu yaşayan və bütün ömrünü günah içində, rejimin cəza aləti vəzifəsini yerinə yetirərək keçirən, lakin son günlərini vicdan əzabından əziyyət çəkən bir qocanın ağrılı həyat dramı təsvir olunur. Dərin psixoloji məqamlar və hətta şüur bulanması yaşayan bu qocanın mənəvi dünyasına, iztirablarına bələdçilik edən romanın tərcüməsi yüksək səviyyədədir. Ölüm mələyi və Qoca arasındakı dialoqlar, dini və mifik təfəkkür, zəngin psixoloji-dramatik və ziddiyyətli məqamlar ustalıqla həllini tapmışdır. Tərcümə əsərini oxuyarkən həm də tərcüməçinin zəngin fəlsəfi-dini biliklərinin olması hiss olunur. Bu da özünü magik obrazların, dini ehkamların, fövqəltəbii aləmin əks olunmasında biruzə verir.

Layihə çərçivəsində *"Dünya ədəbiyyatı"* dərgisinin *"Moldova"* sayı da işıq üzü gördü. Dərgidə 40-a yaxın moldovalı müəllifin poeziya və nəsr nümunələri yer alıb. Dərginin "Proza" bölümündə İqor Volnitskinin, Todur Zanetin və Aleksandru Vakulovskinin romanlarından parçalar, Boris Marian, Nikolae Spetaru, Yulian Çokan, Nikolae Rusu, Miroslava Metlyayeva, Lukretsiya Bırledyanu, Qriqore Kiper, Anatol Moraru, Andrey Burak, Mariya Pilkin, Klaudiya Partole, Nikolae Popa, Sergey Uzun, Yekaterina

Burlak, Vladimir Lorçenkov, Emilian Qalayku-Paun, Vladimir Beşleaqa, Mixaela Perçun, Moni Stanila, Dumitru Krudu, Liliana Armaşu və Vlad Zbırçoqun hekayələri və esseləri yer alıb.

"Poeziya" bölümündə isə Arkadie Suçevyanu, İon Hadırke, Mariya Pilkin, İvan Pilkin, Raisa Sıbırne, Valeriu Matey, Kelina Trifan, Leo Butnaru, Vasile Romançuk, Teo Kiriak, İrina Nekit, Maria Slyahtitski, Radmila Popoviç, Mila Kurudimova, Liliana Armaşunun şeirləri təqdim olunub. "Dünya ədəbiyyatı" dərgisinin tərcümə prosesində Səlim Babullaoğlu, Azad Yaşar, Səbuhi Şahmursoy, Elçin Hüseynbəyli, Cavanşir Yusifli, Məqsəd Nur, Qismət, İlahə Əkbər, Həmid Piriyev, Pərviz Yusif, Şəfiqə Şəfa, Jalə İsmayıl, Rəbiqə Nazimqızı, Cavid, Pakizə Zakirova və Gülzar iştirak ediblər.

Dərgidəki bütün ədəbi nümunələr maraq kəsb edir. Lakin Boris Marianın Xatirələri daha çox diqqət və marağa səbəb oldu. Onun xatirələrində haqqında danışdığı və böyük ehtiramla andığı insan və dahi şəxsiyyət, Cənubi Azərbaycan Firqəsinin Təhsil və Mədəniyyət naziri, məclisin deputatı və şair kimliyi ilə bu gündə qəlblərdə yaşayan Məhəmməd Biriya və onun Mordovada, Lepley qəsəbəsindəki 7-ci cəzaçəkmə müəssisəsindəki məhbusluq həyatı idi. Xatirələrin canlı və obrazlı əksi maraq doğurur. Səbuhi Şahmursoy xatirələrin tərcüməsini inandırıcı bir dillə ifadə edərək oxucuda qəribə bir cazibə duyğusu yaradır. Bəlkə bu ondan irəli gəlir ki, xatirələrin qəhrəmanı Cənubi Azərbaycanın milli oyanış hərəkatının öncüllərindən biri, doğma azərbaycanlımızdır.

Bədii tərcümə mərkəzinin bu il daha bir uğuru İran, konkret desək, farsdilli İran ədəbiyyatına həsr olunmuş "Dostun evi hardadır" poeziya antologiyası işıq üzü görüb. Kitabda Nima Yuşiç, Jalə İsfahani, Əhməd Şamlu, Firudin Müşiri, Məftun Əmini, Huşəng İbtiyac Sayə, Simin Behbəhani, Bican Cəlali, Söhrab Sipehri, Mehdi Əxəvani-Salis, Nüsrət Rəhmani, Mənuçöhr Atəşi, Yədullah Röyayi, Füruğ Fərruxzad, Rza Bərahani, Abbas Kiyarüstəmi, Huşəng Çələngi, Şəms Ləngərudi, Qeysər Əminpur, Xosrov Gülsürxi, Əhməd Necatu, Mustafa Məstur, Məzahir Şəhamət, Şəhram Şeydayi, Rəsul Yunan, Roca Çəmənkar və s. şairlərin poeziya yaradıcılığı əksini tapmışdır. Otuz bir şair və 200-dən çox şeirin toplandığı bu nəşr XX əsrdə İran ərazisindəki farsdilli poeziyanın mənzərəsi haqqında əhatəli təsəvvür yaradır. Tərcümə olunan ədəbi nümunələr orijinaldan − farscadan edilmişdir. Tərcümə əsərlərinin müəllifləri dəyərli alim və peşəkar tərcüməçi Məsiağa Məhəmmədi, Məhəmməd Nuri, Ariz Tarverdiyev və Əli Qərəculudur. Nəşrin tərtibçisi, ön sözün müəllifi və redaktoru isə S.Babullaoğludur.

Bu il tərcümə fəaliyyəti ilə milli tərcümə sənətinə öz töhfələrini verən daha bir dövrü mətbuat orqanı *"Azərbaycan"* jurnalıdır. Jurnalın bədii tərcüməyə həsr olunmuş ayrıca bir bölməsi var və vaxtaşırı orada dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığından nümunələr təqdim olunur. Bu il dərgidə tərcümələrin keçən ilə nisbətən azaldığını müşahidə etdik (yalnız 1, 5, 6, 9, 10, 11 sayları). Əgər 2016-ci il ərzində demək olar jurnalın bütün saylarında təcümələr mövcud idisə, bu il həm say, həm də həcm baxımından kifayət qədər geriləmə var. 2017-ci il

nəşrlərində Kurt Vonnequtun "Qonşu qapı" və "Gəzinti" hekayəsi ingiliscədən Sevil Gültən, Oleq Omiqin (Sidorov) "Tigin ağacı" hekayəsi Məmməd İsmayıl, Rus ədəbiyyatı nümayəndələri Yuri Serbakovun poeziya yaradıcılığı S.Məmmədzadə, Vasili Belovun "Üç meşə o tərəfdə", "Atalar", "Bobriş təpəliyi", "Rosstan təpəliyində" adlı hekayələri Elçin Hüseynbəyli, Arsen Titovun "Zınqırovlu dəvə" hekayəsi və Andrey Rastorquyevin "Portağal bağının xiyabanına" şeiri Knyaz Qoçaq, Misir yazıçısı Süheyr əl-Qalamavinin "Alovlu məktub", Əlcəzair yazıçısı Hənəfi bin İsanın "Əlcəzairli Parisdə" hekayəsi Xumar Ələkbərli, Tatyana Sivesin "Baki" haqqında poeması Könül Arif tərfindən tərcümə olunmuşdur.

"Tigan ağacı" hekayəsinin tərcüməsində bir sıra leksik, qrammatik qüsurlarla rastlaşırıq. Bu qüsurların hətta çoxluq təşkil etməsi əsərin dilini ağırlaşdırır və qeyri-dəqiqlik yaradır. Məsələn, elə əsərin əvvəlindəcə "və indi yel heç vaxt olmadığı kimi daha ruhoxşayıcı əsirdi" cümləsi əvəzinə "Və indi meh heç zaman olmadığı kimi daha çox ruhu oxşayırdı", "qeyri-adi yüksək məqsədlər üçün yaradılmış olduğunu fərq etdi" əvəzinə "qeyri-adi ali məqsədlər üçün yaradılmış olduğunun fərqinə vardı", "həyat mərkəzi olmuşdur" əvəzinə "həyat mənbəyi olmuşdur", "nəyə işarət etdiyi" deyil, "nəyi ima etdiyi" və s. kimi ifadələri müşahidə etmək mümkündür. Digər tərəfdən mübtəda xəbər uzlaşmasında qanunauyğunluqlar pozulmuşdur. "baxacaqlardı" ifadəsi "baxacaqdılar" kimi "sevəcəklərdi" ifadəsi "sevəcəkdilər" və s. Bəzi cümlələrdə isə anlaşılmayan bir məntiq var: "Vadilər həyatın doğulması üçün yaradıldı" cümləsi əslində qrammatik cəhətdən düzgün ifadə

olunmasına baxmayaraq, məna etibarılə bir qədər anlaşılmaz görsənir. Bəlkə tərcüməçi "doğulmaq əvəzinə", "davam etməsi" və yaxud "Vadilər həyatın dogulduğu yerdir" kəlməsi işlətsəydi daha məqsədəuyğun olardı. Qeyd edək ki, M.İsmayılın tərcümələri əsasən tələblərə cavab verir. Lakin məhz bu tərcümədə izlədiyimiz qüsurlar tələsik edilmiş tərcümə ovqatı yaradır və redaktəyə ehtiyac duyulur. Bütün hallarda M.İsmayılın həm poeziya, həm tərcümə yaradıcılığına sayğı duyuruq.

Digər bir tərcümə işi isə E.Hüseynbəyliyə aiddir. V.Belov yaradıcılığından edilən tərcümələr kifayət qədər böyük həcmə malikdir və "Üç meşə o tərəfdə", "Sığırçınlar", "Atlar", "Bobriş təpəliyi", "Sıravi Lavruxin", "Rosstan təpəliyində" hekayələrini əhatə edir. Bir sıra xırda stilistik, texniki və leksik qüsurları istisna etsək, tərcümə tələblərə cavab verir. Tərcümənin üstün keyfiyyətlərindən biri ondan ibarətdir ki, tərcüməçinin hər iki dil üzərində hakim olması hiss olunur. Əsərin sonunda mətn daxilindəki anlaşılmayan söz və ifadələrə aydınlıq gətirmək üçün əlavələr bölməsi qeyd olunub və belə ifadələrin məna izahları oxucuya təqdim edilib.

Bu il "Azərbaycan" jurnalında diqqətimizi cəlb edən əsas tərcümə mətnlərindən biri Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyevin macar ədəbiyyatı klassiki Miksat Kalman yaradıcılığından "Danışan kürk" povesti oldu. Klassik macar yazıçısı kədərlə gülüşü, reallıqla fantastikanı, düşüncə ilə təsviri paralel şəkildə verə bilən ədiblərdəndir. "Danışan Kürk" povesti də sadalanan komponentləri özündə əks etdirir. Pevosti təqdim etməzdən əvvəl o, Miksat Kalman yaradıcılığı haqqında "Miksat Kal-

man və onun "Türk povesti" adlı məqaləsini, sonra isə povestdən bir parçanı təqdim edir. Qeyd edək ki, V.Quliyev bu povesti elə həmin ərəfədə "Qanun" nəşriyyatında kitab şəklində də nəşr etdirərək geniş oxucu kütləsinin ixtiyarına həvalə etmişdi. Əsər orijinaldan deyil, türk dilindən tərcümə olunmuşdur və eyni zamanda "Ədəbiyyat" qəzetinə də təqdim olunmuşdur.

"Ulduz" jurnalı da bu il tərcümə sahəsində bir çox işlər görmüşdür. Tərcümələr bədii ədəbiyyatla yanaşı, ədəbiyyatşünaslığın müxtəlif sahələrini əhatə edən aktual problemlərini də əks etdirir. Fars ədəbiyyatından Füruğ Fərruxzadın poeziyasını orijinaldan Məhəmməd Nuri, İngilis ədəbiyyatından Corc Oruellin "Tolstoy və Şekspir " komparativistik məzmunlu əsəri Xatirə Xatun, amerika şairi Qeri Şnayderin şeirlərini ingiliscədən Ramiz Abbaslı, Türkiyə ədəbiyyatından Həsən Özqılıncin şeirlərını Oqtay Hacımusalı, Qazax ədəbiyyatından Maruana Həmzəqızı "Sənsiz olmaq" Arifə Arifqızı, özbək publisist və tərcüməçisi Sabit Mədəliyevin şeirləri Əyyub Qiyas, gürcü ədəbiyyatından Quri Otabaianın poeziya yaradıcılığı Rafiq Hümmət, alman yazıçısı Henrix Bölün "Mənim bahalı ayağım" romanından parça Taleh Eminoğlunun tərcüməsində, Mar Bayjiyevin "Səhv"əsəri Nəsibə Əbilova tərəfindən tərcümə olunmuşdur. Allen Pou və Robert Barnsın şeirləri Leyla Əsədullayeva tərəfindən tərcümə olunmuşdur. Göründüyü kimi, jurnalda təkcə dünya ədəbiyyatının ən tanınmış nümayəndələrinin yaradıcılığına deyil, eyni zamanda daha az tanınan müasir dövr nümayəndələrinin də əsərlərinə müraciət olunmuşdur.

İngilis şairi və mütəfəkkiri Robert Barnsın *"Al qızılgül"* şeiri diqqətimizi çəlb etdi. Qeyd edək ki, şeirin orijinalda adı *"A Red, Red Rose"*dur. *"red"* sözünün ingiliscədən tərcüməsi *"qırmızı"* deməkdir. Həmin sözün iki dəfə təkrar olunması ifadənin məna qüvvətliliyini artırır və düzgün tərcüməsi *"Al qırmızı qızılgül"* kimi ifadə olunur. Şeir orijinalda dörd bənddən ibarət olduğu halda iki bəndi təqdim olunmuş, digər iki bənd isə ümumiyyətlə tərcümə olunmamışdır. Şeirin ilk bəndi originalda belədir:

O my Luve's like a red, red rose
That"s newly sprung in June:
O my Luve's like the melodie,
That"s sweetly play'd in tune.

Tərcümə:

Mənim eşqim – yeni açmış bir qızılğül.
Mənim eşqim – Dodaqların arasından fısıldayan
Bir nəğmədir... Gözəl dilbər, Gözəl yar.

Göründüdyü kimi, 4 misradan ibarət olan bu şeirdə ikinci misranı tərcümə etmək ümumiyyətlə mütərcimin yadına düşməyib. *"like"* sözünün ingiliscədən tərcüməsi bir mənada *"xoşa gəlmək",* digər mənası, yəni məhz şeirdə şairin söyləmək istədiyi *"bənzəmək"*dir. *"Luve"* sözü isə bu günkü ingilis dilində mövcud deyil. Qədim ingiliscədə *"Luve"* müasir ingiliscədə *"love",* yəni *"sevgi, eşq, məhəbbət*" kimi səslənir. Şeirin tərcüməsində *"gözəl dilbər, gözəl yar"* kimi təqdim olunan müraciətin isə ümumiyyətlə bu ifadə ilə əlaqəsi yoxdur, yəni tərcüməçinin əlavəsi-

dir. *"in tune"* ifadəsi *"kökdə olmaq",* yəni *"hər hansi musiqinin və yaxud alətin öz avazında öz kökündə olması və səslənməsi"* deməkdir. Şair burada *"melodie"* kəlməsini işlətdiyi üçün *"in tune"* sözü *"musiqinin kökündə və ya avazında olması"* kimi qəbul edilə bilər. *"Sweetly"* ifadəsi *"şirin"* kimi tərcümə olunsa da burada *"həzin"* kimi təqdim etsək tərcümənin mənasına xələl gəlmir. Birinci bənd təxminən belə tərcümə olunmalı idi:

Mənim Eşqim, İyunda təzəcə qönçə açan,
Al qırmızı qızılgülə bənzəyir.
Mənim Eşqim, öz kökündə səslənən
Həzin-həzin musiqiyə bənzəyir.

Şeirin birinci bəndi 3 misrada tərcümə olunduğu halda, ikinci bəndi 5 misrada tərcümə olunmuşdur. Göründüyü kimi, tərcümə zamanı heç bir qanunauyğunluq gözlənilməmişdir.

2017-ci il ərzində tərcümə sahəsində əhəmiyyətli işlər görən mətbu orqanlarından biri də *"Ədəbiyyat"* qəzetidir. Əvvəlcədən qeyd edək ki, keçən il rastlaşdığımız silsilə tərcümələr bu il ümumiyyətlə yoxluq təşkil edir. Daha çox qısa məzmunlu ədəbi nümunələr tərcümə olunmuşdur. Qəzet öz fəaliyyətində bir qədər sistemləşdirilmiş bir inkişaf xətti üzrə fəaliyyət göstərir. Burada təkcə ədəbi nümunələr deyil, həm də ədəbiyyatşünaslığın elmi-nəzəri, ədəbi-estetik problemləri də əks olunmuşdur. Sözsüz ki, bu cür yanaşma ədəbiyyatşünalıq elminin və ədəbiyyatın daşıdığı məzmunu daha dərindən anlamağa xidmət edir. Dünya ədəbiyyatı problemlərinin bu şəkildə qəzetin müxtəlif say-

larında tərcümə olunaraq əks olunmasının digər üstün cəhəti isə Azərbaycan ədəbiyyatşünaslıq elminin bu irsdən zənginləşməsi və bəhrələnməsi məsələsidir.

Qeyd edək ki, keçən il qəzetin başlatdığı "Ədəbiyyat üzrə Nobel mükafatçıları" rubrikası bu il də davam etməkdədir. Həmin rubrikada il ərzində Pert Legerkvist, Fransua Moriak, Ernest Hemenquey, Boris Posternak, Xuan Himenes, Alber Kamyu, Sen-Jon Pers, Salvatore Kvazimodo, Con Steynbek, İvo Andriç, Nelli Zaks, Mixail Şoloxov, Yorqos Seferiş, Jan Pol Sartrın həyat və yaradıçılıqlarına müraciət olunmuş, ədəbi nümunələr tərcümə edilmişdir. Rubrika çərçivəsində təqdim olunan bütün ədəbi nümunələri elə rubrika rəhbəri Əyyub Qiyas tərcümə etmişdir. Layihə çərçivəsində bütün əsərlər yalnız ikinci dil, yəni rus dili vasitəsi ilə edilmişdir. Lakin buna baxmayaraq, tərcümələr yüksək səviyyədədir və bu fakt tərcümənin ümumi vəziyyətinə xələl gətirmir.

Qəzetdə Türkiyə və türk ədəbiyyatı nümunələrindən Orxan Şaiq Gökyay, Cahid Tarançı, Esat Selişik, Behcət Aysan, Sultan Əbdülhəmid, Afşar Timuçin, Yılmaz Odabaşı, Özdəmir Asəf, Turqut Uyar, Camal Sürəyya, İbrahim Sadri, Əbdürrəhim Qaraqoç və digərlərinin poeziya yaradıcılığı Dilsuz Mustafayev tərəfindən dilimizə uyğunlaşdırılmışdır. Mütərcim klassik və müasir türk şeir nümunələrinə müraciət etmişdir.

Qəzetdə həmçinin Pavel Zaqrebelnin "Roksolana" romanından parça, Arkadi Averçenkonun "Qızıl əsr", Nadejda Teffinin "Konsert", Yeraslav Qaşekin "Paxla" Kasio İsiquronun "Zəhər", Oldos Hakslinin "Portret", Haruki Murakaminin "Zamanın eşqi", Ceyms Coysun "Evelin"

hekayələri, Şarl Bodlerin, Sigbörn Obstfellerin şeirləri, Marina Svetayevanın poeziyası və Stalinə məktubu, Aleksandr Kuprinin "Yuxular", "Qəlbə yaxın" və "Vətən", Deyl Karneginin "İnsan şüuruna daxil olmağın yolları", Zedi Smittin "Yazıçı uğursuzluğu" esseləri tərcümə olunaraq işıq üzü görmüşdür.

Eyni zamanda qəzetdə ədəbiyyatşünaslığın nəzəri problemləri haqqında da bir sıra tərcümələr yer almışdır. Belə ki, İppolit Sokolovun "İmajinizm", Albert Kamyunun "Absurd insan", Osip Mandelştamın "Akmeizmin sabahı", Robert Şnakenberqin "Böyük yazarların sirli həyatı" adlı əsərindən Uilliyam Şekspir, Corc Qordon Bayron, Onore de Balzak, Edqar Allan Po, Çarlz Dikkens, Artur Konan Doylun həyatından silsilə yazılar, İosif Brodskinin "Ünsürlərin hakimiyyəti. Dostoyevski haqqında", Rolan Bartın "Tənqid və həqiqət" əsəri tərcümə olunmuşdur.

Həmin tərcümə mətnləri içərisində diqqəti çəkən rus psixiatorları Anatoli Sprints və Oleq Yeriçevin "Dahilərin yaradıcılığında şəxsiyyət və xəstəlik" adlı kitabından rus yazıçısı Vladimir Xlebnikov haqqında "Mən yer kürrəsini çeçələ barmağımda gəzdirirəm" yazısıdır. Belə ki, oxucuların böyük marağına səbəb olan bu yazıda ədibin ruhi vəziyyəti, yaşadığı psixoloji sarsıntıların və bu ruh halının yaradıcılığına birbaşa təsiri məsələsi vəhdət şəklində araşdırılmışdır. Belə ki, psixoloji diaqnozlar və elmi nəticələr onun poeziya, nəsr və elmi yaradıcılığında əksini tapmış ruh halı ilə əsaslandırılmış və eyni zamanda kifayət qədər nümunələr verilərək onun həqiqətən də, psixi xəstəlikdən əziyyət çəkməsi sübuta yetirilmişdir. Bəs elmi dəyəri kifayət qədər yüksək olan məqalənin tərcüməsi də kifayət qə-

dər səviyyəlidirmi? Tərcümənin dili ağır psixoloji terminlərlə zəngin olmasına baxmayaraq oxucunu bezdirmir, hətta onu bu psixoloji vəziyyəti hiss etməyə kömək edir. Kifayət qədər termin yükü olan bu mətni oxuduqca əmin olursan ki, gözəl tərcümədə hətta ağır mətnlər belə marağa səbəb olur. Mətnin nəzəri hissəsi çox peşəkarlıqla tərcümə olunsa da, deməliyik ki, şeirlə olan hissələri bir qədər də diqqətli tərcümə etmək olardı.

Tərcümə fəaliyyəti ilə məşğul olan "Qanun" nəşriyyatının fəaliyyəti də diqqətdən kənarda qalmamalıdır. İl ərzində yüzə yaxın tərcümə əsəri işıq üzü görən nəşriyyatda müxtəlif xalqların ədəbiyyatı yer alır. Əsərlər içərisində klassik və müasir dövr ədəbiyyatı nümunələri, o cümlədən tanınmış, sevilən yazıçılarla bərabər, hələ ədəbiyyatda yeni söz sahibi olan gənc yazarların da əsərləri diqqəti cəlb edir. Lakin nəşr olunan əsərlərin hamısı yeni tərcümələr deyildir. Nəşrlər arasında hətta sovet dövründən qalan tərcümələr də mövcuddur. Buna misal olaraq Məmməd Arifin görkəmli rus klassiki Lev Tolstoy yaradıcılığından tərcümə etdiyi "Hərb və sülh", Mikayıl Rəfilinin Viktor Hüqonun "Səfillər" əsərindən "Kozetta", Mikayıl Rzaquluzadənin Conotan Sviftin "Qulliverin səyahəti" və digər əsərlər hələ sovet dövründən qalan tərcümələrdir. Əsərlərin çoxu ikinci dildən, yəni əksər hallarda rus, bəzən türk dili vasitəsilə, çox az bir hissəsi isə orijinaldan tərcümə olunmuşdur. Bundan başqa, Artur Konan Doylun "Şeytan ayağı", "İtmiş dünya", Çarlz Dikkensin "İki şəhərin hekayəti", Kristi Aqatanın "Lord Ecverin ölümü", "Bir-iki ayaqqabı toqqası", "Qəmgin sərv", Daniel Defonun "Robinzon Kruzonun məcəraları", Emili Brontenin "Tufanlı yoxuş-

lar", Teodor Drayzerin "Maliyəçi", Kolin Makkalounun "Tikanlıqda şərqi deyənlər", Umberto Ekonun "Qızılgülün adı", Entoni Eqzüperinin "Qəsr", Paulo Çoelonun "Casus", Etel Lilian Voyniçin "Cek Reymond", Çingiz Aytmatovun "Dəniz kənarıyla qaçan alabaş", Tuna Kirəmitçinin "Dualar əbədidir", Serdar Özkanın "İtmiş gül" və digər müəlliflərin əsərləri tərcümə olunmuşdur. Demək olar ki, nəşriyyatın bir çox tərcümələri bədii cəhətdən qüsurludur. Sözsüz ki, bu ifadəni bütün tərcümə əsərlərinə şamil etmək olmaz. Məsələn, Əyyub Qiyas, Nadir Qocabəylinin tərcümələri bəyəniləndir, baxmayaraq ki, bu tərcümələr ikinci dil vasitəsilə edilmişdir. Qeyd edək ki, əksər tərcümə mətnlərini çevirənlər hələ tərcümə sənətində tam püxtələşməmiş gənclər, yaxud bu işə yeni başlayanlardır. Buna görə də tərcümə olunan bəzi əsərlərin leksikasının zəif və qarışıq olması başadüşüləndir.

Nəşrlər arasında diqqətimizi çəkən buraxılış ingiliscəyə çevrilmiş "Azərbaycan xalq nağılları" kitabı oldu. Kitab dörd cilddə nəşr olunmuşdur. 28 nağıl ehtiva edən "Azerbaijan Fairy Tales" adlı bu kitabda "Cyclops" (Təpəgöz), "Isa lamplight" (Çıraqlı İsa), "One Good Turn, Deserves Another" (Yaxşılığa Yaxşılıq), "The Shah And The Black Smith" (Padşah və Dəmirçi), "Beautiful Fatma" (Göyçək Fatma), "Lazy Ahmed" (Tənbəl Əhməd), "Pomegranate Girl", The Dry Skull (Quru kəllə), The Tale Of Pirim, The Hunter (Ovçu Pirim nağılı), The Vizier And The Poor Old Man (Yoxsul qocayla vəzir) və s. nağıllar tərcümə olunmuşdur. Kitabın tərcüməçiləri Səadət İbrahimova və ingilis Yan Pertdir. Layihəyə rəhbərliyi Leyla Əfəndi etmişdir. Kitabın səhifələri Azərbaycan xalqının

milli koloritini əks etdirən çox nəfis şəkillərlə Xalq rəssamı Arif Hüseynova tərəfindən illüstrasiya edilmişdir. Nağıllar kitabdının üzərində CD də əlavə olunmuşdur. Səsləndirən isə ingilis Selia Devisdir.

Ölkədə gedən tərcümə prosesindən danışarkən tərcümə yaradıçılığına hörmətlə yanaşdığımız peşəkar tərcüməçilər Vilayət Hacıyev və Cəmşid Cəmşidovun yaradıçılığını xüsusi qeyd etməyi lazım bilirik. Ancaq orijinal əsərlərə müraciət edən peşəkarlar V.Haciyev alman, C.Cəmşidov isə italyan klassik və müasir ədəbiyyatından nümunələr çevirərək geniş oxucu kütləsinin ixtiyarına təqdim etmişdilər. Tərcümə prosesində ən incə məqamları belə diqqətdən qaçırmayan mütərcimlər bu günün tərcümə məktəbini yaratmaqla bərabər, dost xalqlar arasında ədəbi əlaqələrinin inkişafında və genişlənməsində əvəzsiz xidmətlər göstərir, fəaliyyətləri ilə bu sənətin ən yüksək zirvələrini fəth edirlər. Əbəs deyil ki, hər iki mütərcimlər yüksək dövlət təltiflərinə layiq görülmüşdü.

V.Hacıyev müsahibələrindən birində tərcümə işinə qeyri-adi tərif verir və səciyyələndirərək deyir: "Həmişə demişəm və fikrimdə də qalıram ki, orijinalda olduğu kimi mükəmməl tərcümədən heç vaxt söhbət gedə bilməz. Necə ola bilər ki, güzgünü çilik-çilik edəsən və sonra da onu elə yapışdırasan ki, bilinməyə?! Bu, sadəcə olaraq, mümkün deyil. Ancaq onu iki cür yapışdırmaq olar: bir var naşı ustanın əlinə düşə, elə kobud yapışdıra ki, sındığı o dəqiqə bilinə. Bir də var ki, kimsə onu elə ustalıqla, elə incəliklə yapışdırsın ki, yalnız sərraf gözlər onun orijinal olmadığını seçə bilsin". Elə özünün qeyd etdiyi kimi tərcümə işinə elə-belə, qeyri-peşəkar yanaşmaq olmaz. Tərcümə işində

tələskənlik, zamana qənaət etmək, diqqətsizlik gözəl bir əsərin eybəcər əksini yaratmağa zəmin yaradır.

Hər iki mütərcimin tərcümələri "Ədəbiyyat qəzeti"ndə, "Ulduz" və "Azərbaycan" jurnallarında, "Xəzər" bədii tərcümə dərgisində və xüsusilə də kitab halında uzun illərdir ki, çap olunmaqdadır. Alman və Avstriya ədəbiyyatlarından İlze Ayxinger yaradıcılığından "Yaşadığım yer", "Güzgü əhvalatı", Marianne Qruberin "Şorcüllütünün ölümü" hekayələri, XX əsr Almaniya ədəbiyyatının görkəmli nümayəndəsi, Nobel mükafatı laureatı Haynrix Böllün "Bir təlxəyin düşüncələri" və "…Və bircə kəlmə də demədi" romanları daxil edilmiş "İki roman" kitabı, Herman Hessenin "Yalquzaq" romanı işıq üzü görüb.

Cari ildə həmçinin C.Cəmşidovun da tərcümə sahəsində böyük xidmətləri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə çap olunan 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" seriyasından "İtalyan ədəbiyyatı antologiyası" bu il işıq üzü görüb. Kitaba daxil edilən XIX-XX əsrlər italyan nəsrinin görkəmli nümayəndələri C.Verqa, L.Kapuana, Q.D`Annuntsio, L.Pirandello, D.Butsati, A.Moravia, İ.Kalvino, U.Eko, A.Tabukki və digər yazıçıların hekayə və novellalarını mütərcim orijinaldan tərcümə etmişdir. Kitabın redaktoru Nərgiz Cabbarlıdır. Bundan əlavə, Roterdamlı Erazmusun "Axmaqlığın tərifi" əsəri "Xəzər" jurnalının ardıcıl olaraq iki sayında, Ettore Rossinin Məmməd Əmin Rəsulzadə haqqında yazdığı məqalə avanqard.net, ens.az saytlarında, Oreste Pinto yaradıcılığından "Heç vaxt şaiyələrə inanma" sənədli hekayəsi, Antonio Tabukki – "Fernandu Pesoanın son üç günü", "Yuxular", Oreste Pintonun "Heç vaxt şayiələrə inan-

ma", Tonino Querranın "Rus balerinası", Dino Butsatının "İtirilmiş günlər", Luici Kapuananın "Adsız ağrı" adlı əsərləri çap olunmuşdur. Mütərcimin tərcümə əsərləri bu il əsasən avanqard.net mədəniyyət portalında işıqlandırılmışdır. Qeyd edək ki, C.Cəmşidov milli-mənəvi dəyərlərimizin zənginləşdirilməsində fəal iştirakına, Azərbaycan-İtaliya ədəbi əlaqələrinin inkişafında müstəsna yaradıcı fəaliyyətinə, italyan, latın dillərindən orijinal bədii tərcümə əsərlərinə və məqsədyönlü elmi-publisistik araşdırmalarına görə 2017-ci ildə "Avropa Nəşr Mətbuat Evi"nin təsis etdiyi "Ən yaxşı vətənpərvər tədqiqatçı" Qızıl medalı və diplomla təltif edilmişdi.

Geniş və peşəkar tərcümə fəaliyyəti ilə dünya ədəbiyyatı nümunələrini dilimizə çevirən daha bir mütərcim, institutun əməkdaşı, f.e.d. Cavanşır Yusiflidir. Onun tərcümə yaradıcılığı çoxşaxəli və maraqlıdır. Peşəkar tərcümə fəaliyyətinin kifayət qədər uğurlu və geniş olmasını nəzərə alsaq, onun tərcümə irsinin artıq bir tədqiqat obyekti kimi dəyərləndirilməsinin zamanı gəldiyini desək, yəqin ki, yanılmarıq. O, ingilis və fransız dillərində orijinal mətnlərlə işləyir və hər iki dildən etdiyi tərcümələr bu sənətin yüksək standartlarına cavab verir. Mütərcim epik janrın müxtəlif növləri və poeziya ilə yanaşı, ədəbiyyatşünaslığın problemlərini əhatə edən elmi-nəzəri mövzulara da müraciət etmişdir. İngilis yazıçı Tomas Sternz Eliotun nəzəri-publisistik, həm də bədii yaradıcılığından nümunələri ana dilinə çevirərək "Dünya ədəbiyyatı" məcmuəsində, "Ədəbiyyat" qəzetində ("Poeziyanın musiqisi" adlı tərcüməsi ardicil olaraq bir neçə sayında), "Plyus bədii yaradıcılıq" toplusunda və bir sıra internet portallarında yayınlanmış-

dır. Qeyd edək ki, mütərcimin Eliot yaradıcılığından etdiyi tərcümələr 2017-ci ildə AYB Bədii Tərcümə Mərkəzinin dəstəyi ilə nəşr edilən "Bəhrəsiz torpaq" adlı kitabda işıq üzü görüb (yazıçının yaradıcılığından edilmiş bütün tərcümələri ehtiva edir). Həmçinin fransız ədəbiyyatından Fermin Maksansın "Qar" romanından bir parça, S.V.Nikonenkonun "Metaforanın analitik şərhi", Fransız şairi Oktavio Passın şeirlərindən nümunələr, Marqaritte Durasın "Məşuq" povestindən bir parça, Lui Bazanın "Tarixi və etimoloji müzakirə" adlı əsərlərini tərcümə edərək "Ədəbiyyat" qəzetinə təqdim etmişdir. *Avangard.net* ədəbiyyat portalında Çin əsilli siyasi mühacir, İndoneziya şairi Lee Yonq Leenin "Uşaqlığın himni" şeiri və digərləri işıq üzü görmüşdür.

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun 12 may 2017-ci il tarixli, 6 saylı iclasının qərarı ilə "Plyus bədii yaradıçılıq" ədəbi almanaxı çap olunmuşdur. Almanaxın çapı institutun direktoru, akademik İsa Həbibbəylinin xüsusi təşəbbüsü və təşkilatçılığı ilə əsəyə gəlmişdir. Kitabda institutun əməkdaşları Rasim Nəbioğlu, Nərgiz Cabbarlı, İmamverdi Həmidov, Cavanşir Yusifli, Xanım Zairova, Eşqanə Babayeva, Aynurə Paşayevanının ingilis, faransız, ərəb, türk ədəbiyyatlarından orijinal tərcümələri əksini tapmışdır.

Kitabda Rasim Nəbioğlunun Corc Qordon Bayron yaradıçılığından tərcümə etdiyi *"Ayrılıb gedəndə biz" "When we two parted"* şeirinin tərcüməsi zamanı Bayronun incə ruhunu oxucuya çatdıra bilmiş, bununla yanaşı, orijinala sadiq qala bilmiş, qafiyə sisteminə xələl gətirməmişdir. Tərcümə həm bədii estetikası, həm də yüksək pe-

şəkarlığı ilə diqqəti cəlb edir. Azərbaycan dilində sətri tərcüməsi *"Nə zaman ki, ikiyə bölündük",* yaxud *"ikiyə bölünəndə biz"* kimi səslənən şeirdə tərcüməçi hərfi tərcümədən qaçmış və oxucuya çox gözəl bədii tərcümə əsəri təqdim etmişdir. Tərcümənin nə qədər uğurlu olduğunu göstərmək üçün şeirdən bir parça təqdim edirik:

Orijinalda:

In silence and tears,
Half broken-hearted
To sever for years,
Pale grew thy cheek and cold,
Colder thy kiss;
Truly that hour foretold
Sorrow to this.

Tərcümədə:

Ayrılıb gedəndə biz,
Axıtdıq göz yaşını
Parçalandı qəlbimiz,
İndi o, günlər hanı?!
Ağarmışdı rəngin də,
Öpüşlərin də soyuq,
Vüsal hicran cəngində,
Çoxdan düşmüşdü duyuq.

Bu gün Azərbaycan tarixinin, mədəni-kultural dəyərlərinin, ədəbiyyatının dünya miqyasında tanıdılması və təbliği prosesi milli maraqlar uğrunda informasiya savaşının əhəmiyyətli bir hissəsini təşkil edir. Milli dəyərlərimizin ayrılmaz bir hissəsi kimi milli ədəbiyyatımız da həmin təbliğat içinin obyekti kimi dəyərləndirilə bilər. Dövlətin

mədəni siyasətinin nəticəsidir ki, bu gün UNESKO kimi nüfuzlu beynəlxalq təşkilat Azərbaycan milli dəyərlərinin siyahısını tərtib edir və bura Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının və hətta milli mətbəxinin ayrı-ayrı nümunələri daxil edilir. Sözsüz ki, bu gün milli dəyərlərimizi öz adına çıxmaq istəyən düşmən bir ölkə ilə mübarizə aparmağın yolu informasiya əsrində elə informasiya savaşı və savadlandırma yolu ilə aparılmalıdır. Bunun üçün dünya dillərini bilən peşəkar mütəxxəssislər lazımdır. Tərcümənin strateji əhəmiyyəti bu prosesdə daha çox özünü göstərməkdədir. Bəs bu gün bu proses ölkədə hansı səviyyədədir. Tərcümə prosesinin inkişaf xəttinə nəzər salarkən onun iki istiqamətdə inkişaf etdiyini görərik.

1. Dünya ədəbiyyatı nümunələri Azərbaycan dilində
2. Azərbaycan ədəbiyyatı nümunələri dünya dillərində

İlk olaraq qeyd edək ki, Azərbaycan tarixinin və milli faciələrimizin ifadəsi baxımından bu il çox işlər görülmüşdür. "Azərbaycan xalqının tarixi və ya "tərcümeyi-halı" kitabı ərəb dilində işıq üzü görüb. Kitabın müəllifi – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Nizami Cəfərov, ərəb dilinə tərcüməsinin müəllifi Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət məsələləri üzrə attaşesi, filologiya üzrə fəlsəfə doktoru Əhməd Sami Elaydidir. Digər bir kitab "Azərbaycana qarşı Sumqayıt təxribatı"adlanır. Kitabda 1988-ci ildə Eduard Qriqoryanın rəhbərliyi altında baş verən təxribat hadisələri tarixi faktlar, dəlillər və sübutlar əsasında təsdiqini tapır. Türk dilində Türkiyənin "Berikan" nəşriyyatında çap olunmuşdur. Hər iki kitab Tərcümə Mərkəzinin layihəsidir.

Milli tariximizin ən vacib səhifələrini əks etdirən daha bir kitab Bolqarıstanın paytaxtı Sofiyada işıq üzü görüb. AMEA, Azərbaycanın Bolqarıstandakı səfirliyi və Sofiya Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin birgə təşkilatçılığı ilə görkəmli Avstriya tarixçisi, alim və yazıçı Erix Fayqlın "İpək Yolu üzərində Odlar yurdu – Azərbaycan tarixi" kitabının təqdimatı keçirilib. Kitabı bolqar dilinə Bolqarıstanın Ehtiyatda olan Zabitlər və Serjantlar İttifaqının üzvü, polkovnik Todor Enev tərcümə etmişdir. Tərcüməçi bu nəşrdə ermənilərin Qafqaza köçürülməsinin faktlarla sübut olunduğunu, onların törətdiyi cinayətlərin oxucuya təqdim edildiyini söyləyib.

2017-ci il ərzində bədii ədəbiyyat nümunələrinin dünya dillərinə tərcüməsi məsələsi də aktualdır. Klassik və müasir ədəbiyyatımızın bir sıra görkəmli nümayəndələrinin əsərləri ingilis, fransız, alman, bolqar, rus, ispan, polyak və digər dillərə tərcümə edilərək nəşr edilmiş və müxtəlif ölkələrdə təqdimat mərasimləri keçirilmişdir.

Azərbaycan ədəbi xəzinəsinin ən dəyərli gövhəri dahi Nizaminin dünya dillərinə tərcüməsi məsələsi hər zaman diqqət mərkəzində saxlanılır. Sözsüz ki, onun əsərlərinin tərcüməsi məsələsi bu il də aktuallığını qoruyur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, TÜRKSOY-un, Azərbaycan-Braziliya dostluq qrupunun sədri, senator Kristovam Buarkenin dəstəyi, Azərbaycan, Türkiyə və Qazaxıstanın Braziliyadakı səfirliklərinin təşkilatçılığı ilə ortaq türk mədəniyyətinin təbliğinə dair silsilə tədbirlər çərçivəsində Braziliya Milli Konqresində Nizami Gəncəvinin portuqal dilinə tərcümə edilmiş aforizmlərindən ibarət "Zaman üzərindən bir körpü" adlı kitabın təqdimetmə mə-

rasimi keçirilmişdir. Nəvai adına Özbəkistan Milli Kitabxanasında Özbəkıstanlı şair-tərcüməçi Olimcan Buriyevin Özbək dilinə tərcümə olunmuş "Xəmsə" əsərinin təqdimat mərasimi keçirilib. Qeyd edək ki, ilk dəfə olaraq şairin "Xəmsə"si özbək dilində bütöv halda tərcümə edilərək nəşr edilmişdir. Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin şərqşünas-alimi Yevgeni Bertelsin (1890-1957) "Böyük Azərbaycan şairi Nizami" ("The Great Azerbaijani Poet, Nizami") kitabının ingilis dilinə ilk akademik tərcüməsinin təqdimat mərasimi keçirilib.

Görkəmli yazıçı Mir Cəlal Paşayevin ingilis dilinə tərcümə edilən və qısa hekayələrindən ibarət olan kitab Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun təşkilatçılığı ilə keçirilən tədbirdə təqdim edilib. ADA Universiteti tərəfindən bu il nəşr edilən kitabın ilk təqdimatı ABŞ-da keçirilmişdir. Ədibin ingilis dilinə tərcümə edilmiş qısa hekayələrindən ibarət kitabın redaktoru amerikalı Betti Bleyerdir. Təqdimat mərasimində amerikalı aktyorlar Mark Ceykobson, Kristina Gerla və Kris Agilanın təqdimatında Mir Cəlal Paşayevin "Anket Anketov", "İclas qurusu" və "Söyüd kölgəsi" hekayələri nümayiş etdirilib.

Cari ilin daha bir uğurlu layihəsi Kolumbiya Respublikasının Azərbaycandakı Səfirliyinin diplomatik missiyasının və Tərcümə Mərkəzinin birgə ərsəyə gətirdiyi Azərbaycan və Kolumbiya şeiri antologiyası – "İyirmi şeir" kitabıdır. Kolumbiya Milli Nəşriyyatında ərsəyə gəlmiş kitaba Azərbaycan klassik şairləri Nizami Gəncəvi, İmadəddin Nəsimi, müasirlərimizdən Səməd Vurğun, Mikayıl Müşfiq, Əli Kərim, Məmməd Araz və digərlərinin şeirləri daxil

edilib. Şeirləri ispan dilinə Ramizə Həsənova, Azərbaycan dilinə isə Emin Ələsgərov tərcümə edib. Kitab hər iki xalq arasında dostluq və anlaşmanın mükəmməl bir nümunəsidir.

Tərcümə Mərkəzinin aparıcı layihələrindən olan "Müasir Azərbaycan nəsr antologiyası" Tiflisdə gürcü dilində təqdim olunub. Azərbaycan ədəbiyyatının Gürcüstanda yaxından tanıdılmasına və tədqiq olunmasına geniş imkanlar yaradacaq bu nəşr müasir milli ədəbiyyatın ümumi mənzərəsini əks etdirən ilk akademik nümunədir. Kitabda müasir Azərbaycan ədiblərinin 30-a yaxın əsəri tərcumə olunub. Gürcü dilində nəşr olunan kitabda görkəmli Azərbaycan yazıçılarından İsa Hüseynov, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Fərman Kərimzadə, Sabir Azəri, Anar, Şahmar, Vaqif Nəsib, Azər Abdulla, Elçin, Mövlud Süleymanlı, Məmməd Oruc, Kamal Abdulla, Afaq Məsud, İmir Məmmədli, Nəriman Əbdülrəhmanlı, Elçin Hüseynbəyli, Yaşar Əliyev, Etimad Başkeçid və digərlərinin ədəbi yaradıcılıq nümunələri yer alır.

Mərkəzin nəşr etdiyi digər "Müasir Azərbaycan hekayəsi antologiyası" kitabı milli ədəbiyyatımızı ərəb dünyasına ilk dəfə sistemli şəkildə təqdim edən dəyərli məxəzdir. Kitaba on doqquz Azərbaycan yazıçısının hekayəsi daxil edilib. Kitabın tərcüməçisi – Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin direktoru, Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi, doktor Əhməd Sami Elaydidir. Toplu Qahirə universitetlərinə və Misir kitabxanasına yerləşdirilmişdir.

Tərcümə Mərkəzi ilə Bolqarıstan Yazıçılar Birliyinin birgə ərsəyə gətirdiyi "Müasir Azərbaycan ədəbiyyatı" kitabı da Bolqarıstanda – Sofiyada bolqar dilində "Българcки писател" nəşriyyatında işıq üzü görüb. Kitabda Yusif Səmədoğlu, Vaqif Səmədoğlu, Fərman Kərimzadə, Anar, Elçin, Əli Kərim, Məmməd Araz, Musa Yaqub, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Zakir Fəxri, Rüstəm Behrudi, Aqşin Yenisey, Leyla Əliyeva və Qismətin şeir və hekayələri toplanmışdır. Qeyd edək ki, kitabı bolqar dilinə tanınmış bolqar şair və yazıçıları – Boyan Angelov, Nadya Popova, İvan Yesenski, Dmitri Xristov və İva Nikolova çevirib. Kitaba daxil olan əsərlər yüksək bədii tərcüməçilik keyfiyyətlərinə malikdir. Şair şair ruhundan analar desək yanılmarıq. Kitab hər bir bolqar oxucusunda Azərbaycan xalqının zəngin mənəvi dünyası, ədəbi-estetik görüşləri haqda aydın təsəvvür yaradır.

Azərbaycan poeziya antologiyası Ukraynada "Küləklə göndərilən məktublar" adlı kitabda nəşr olunmuşdur. Azərbaycan dilinə tərcümə olunan Ukrayna poeziya antologiyası "Kişi, qadın və çətir" layihəsinin davamıdır. Kitaba Məmməd Araz, Əliağa Kürçaylı, Qabil, Ələkbər Salahzadə, Nəbi Xəzri, Tofiq Bayram, İsa İsmayılzadə, Əlisəmid Kür və digərlərinin əsərləri daxil edilmişdir. Hər iki kitab xalqlar arasında uzun illərdən bəri davam edən dostluğun və ədəbi mübadilənin parlaq nümunəsidir.

Mərkəzin son illərdə həyata keçirdiyi beynəlxalq əməkdaşlıqlar nəticəsində Azərbaycan ədəbiyyatının tarixi və bu günü, müasir mənzərəsi geniş müstəvidə dünya ictimaiyyətinin diqqətinə təqdim olunur.

Cari ildə xalq yazıçısı Anarın əsərlərinin tərcüməsi ilə əlaqədar bir çox işlər görülmüşdür. "Dantenin yubileyi" və "Otel otağı" əsərləri ingilis dilinə tərcümə edilmiş və iki cilddə nəşr edilmiş, "Azerbaijan International" jurnalının təşəbbüsü ilə Amerika Birləşmiş Ştatlarında təqdimat mərasimi keçirilmişdir. Tərcüməçilər Jalə Qəribova, Sevinc Seyidova və Aida Hüseynova, tərtibçisi və redaktoru isə "Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerdir. Yazıçının daha bir kitabı ərəb dilində işıq üzü görmüşdür. Kitaba "Keçən ilin son gecəsi", "Asqılıqla işləyən qadının söhbəti", "O gecənin səhəri", "Mən, sən,o və telefon", "Gürcü familiyası", "Qoz qabığı", "Marallarım", "Yaxşı padşahın nağılı", "Mütləq görüşərik", "Qırmızı limuzin", "Vahimə" hekayələri və "Otel otağı" povesti daxil edilmişdir.

Səməd Vurğun yadigarı, Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri, xalq şairi Vaqif Səmədoğlunun "Bir gün təbəssüm olmuşdum" kitabı Parisdə fransız dilində, xalq yazıçısı Elçinin "Baş" romanı Moskvada rus dilində, ikicildliyi özbəkistanda özbək dilində (birinci cilddə "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy hamamı" povestləri və 13 hekayəsi, ikinci cilddə "Mahmud və Məryəm" və "Ağ dəvə" romanları), Vaqif Sultanlının "Ölüm yuxusu" kitabı Özbəkistanda "İjod Press" nəşriyyatında özbək dilində (tərcümə yazıçı-publisist Rüstəm Cabbarov), "Kor düyün" (A Blind Tie. Selected Works) adlı kitabı ABŞ-da ingilis dilində ("İnsan dənizi" romanı, "Ölüm yuxusu" povesti və müxtəlif dövrlərdə qələmə aldığı hekayələr, tərcümə Cavid Abbasov, redaktoru Michael Brannok), "İnsan dənizi" romanı Almaniyada

alman dilində (“Das Menschenmeer”, Leipzig, “Winterwork” Verlag, 2017) Fərid Hüseynin "Kəpənək dərsi" (“Studying a butterfly”) kitabı Amerikada ingilis dilində (tərcümə professor, mütərcim Cavanşir Yusifli edib, nəşrin redaktoru tanınmış şair “BookMan Prize” laureatı Gjeke Marinajdır) nəşr olunmuşdur.

2017-ci il ərzində ölkədə gedən tərcümə prosesinə ətraflı nəzər salaraq aşağıdaki nəticələrə gəlmək olar: Cari ildə kifayət qədər tərcümə əsəri müxtəlif mətbu orqanlarında və nəşriyyatlarda işıq üzü görmüşdür. Lakin orijinaldan tərcümə problemi hələ də mövcuddur. Bu qədər tərcümə mütəxəssislərinin mövcud olduğu bir zamanda hələ də ikinci dildən tərcümə məsələsi bir qədər təəssüf doğurur. Bəzi əsərlərin peşəkarlıq səviyyəsi standartlara cavab verir. Lakin hələ də tərcüməsi zəif olan əsərlər gündəmdə qalmaqdadır. Belə əsərlərdə Azərbaycan dilinin leksik və qrammatik normalarına əməl olunmamışdır və redaktə işi qismən zəifdir. İl ərzində daha çox müraciət olunan əsərlər kiçik həcmli və qısa məzmunlu əsərlərdir. Lirik janrın növlərinə müraciətlər, ümumiyyətlə, azlıq təşkil edir və əsasən uğursuz tərcümələr meydana gəlir. Tərcümələr zamanı əsərin yarandığı tarixi və ədəbi mühit, ədibin mənsub olduğu cərəyanın cizgiləri, tarixi obyektivlik bəzi hallarda düzgün ifadəsini tapmamışdır. Bütün deyilən iradlar ölkədə gedən tərcümə prosesinin keyfiyyət göstəricisi kimi nəzərə alınmamalıdır. Ən vacib fakt ondan ibarətdir ki, bu gün peşəkar səviyyədə tərcümələr kifayət qədərdir və bu sənət ölkəmizdə yüksələn bir xəttlə inkişaf edir, bu çətin və məsuliyyətli peşənin daşıyıcılarına hər zaman uğurlar arzulayırıq.

Nizami HÜSEYNOV
Kiçik elmi işçi

BÖLGƏLƏRDƏ ƏDƏBİ HƏYATIN DAHA BİR ADDIMI

Artıq beşinci ildir ki, AMEA Nizami adına Ədəbiyyat İnstitutu "Ədəbi proses" yaradıcılıq müşavirəsi keçirir. Ötən əsrdə keçirilən bu müşavirələr dövrün, mühitin ədəbi mənzərəsini tam şəkildə aydınlaşdırır və ictimaiyyətə təqdim edir. Bu işin yüksək səviyyədə qurulmasında, heç şübhəsiz ki, akademik İsa Həbibbəylinin rolu böyükdür. Xüsusən, bu müşavirələrdə məruzələrin əksəriyyətinin gənclərə həvalə olunması da təqdirəlayiq haldır. Biz gənclər üçün "Ədəbi proses" yaradıcılıq müşavirəsində dövrün ədəbi mənzərəsini açmaq həm məsuliyyətli, həm də önəmli işdir. Bu inama və etimada görə akademik İsa Həbibbəyliyə öz təşəkkürümü bildirirəm. Üzərimizə düşən bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlməyə çalışacağam.

Artıq bir neçə ildir ki, "Ədəbi proses" müşavirələrində bölgələrdəki ədəbi həyatla bağlı məruzə filologiya üzrə elmlər doktoru Vaqif Yusifli tərəfindən edilir. Uzun illərdir ədəbi tənqid cəbhəsində döyüşən və bütün bölgə ədəbiyyatı nümayəndələrini yaxından tanıyan Vaqif Yusifli bu il də öz dəstəyini bizdən əsirgəmədi və 2017-ci ildə bölgə ədəbiyyatının bədii mənzərəsinin yaradılmasında yaxından kömək etdi. Vaqif Yusifli kimi ustaddan sonra təqdim edəcəyim məruzəmin yanlışlıqlardan hali olmayacağını düşünür, öncədən ola biləcək nöqsanlara görə üzr istəyirəm. Bu məruzədə yaşlı nəslin bizə olan etimadı və

gənclərə olan güvənini əsas tutaraq 2017-ci il bölgələrdə ədəbi həyatla bağlı fikirlərimizi, əsasən, gənc nəsil üzərinə yönəltmək istəyirik. Düşünürük ki, bir neçə ildir haqqında danışılan və artıq klassikləşən ədəbiyyat nümayəndələri haqqında geniş şərhə yol verməsək, hələ ədəbiyyata yeni-yeni addımlar atan istedadlı gənclər barədə danışsaq, daha məqsədəuyğun olar.

Ədəbiyyat – bölgə, şəhər, ölkə və s. ilə bağlı olmayan, "istedad"dan qaynaqlanan təbii prosesdir. Dünya ədəbiyyatı maddi, ictimai, siyasi durumundan asılı olmayaraq hər yerdə formalaşır. Fransa, İspaniya, Çin, Yaponiya, Kanada, Peru, Türkiyə, Avstriya, Car kimi müxtəlif ölkələrdən Nobel mükafatçıları çıxır. Eyni zamanda da, Azərbaycan ədəbi mühitində də bölgə və Bakı ayrıseçkiliyi olmadan yeni ədəbi-bədii nümunələr yaranır, kəmiyyət və keyfiyyətcə daha da böyüyür. Son illərdə şəhərləşmə prosesinin sürətlənməsi, insanların paytaxta sürətli axını və s. proseslər nəticəsində əsas ədəbi qüvvələr Bakıda yerləşsə də, hələ də bölgələrdə Ramiz Qusarçaylı (Quba), Musa Yaqub (İsmayıllı), Asim Yadigar, Xanəli Kərimli (Naxçıvan), Ağamir Cavad və Tərlan (Lənkəran), Xəzangül və Qərib Mehdi (Gəncə), Vaqif Aslan (Şəki) kimi sənətkarlar yaşayır, yaradırlar. Ümumilikdə, bölgə ədəbi mühiti nümayəndələrini sayıb bitirə bilmərik.Təkcə onu xatırlatmaq kifayətdir ki, Dünya Gənc Türk Yazarlar Birliyi tərəfindən çap olunan "Bölgələrdən səslər" kitabında 63 müəllifin, Şimal bölgəsi şairlərinin şeirlərindən seçmələrin toplandığı "Bir yanı Şahdağı, bir yanı Xəzər" kitabında 54 müəllifin şeirləri dərc edilmiş, elmlər doktoru Vaqif Yusiflinin 2017-ci

ildə çap olunmuş "Bölgələrdə ədəbi həyat" kitabında 100-dən çox şair və yazıçı xatırlanmışdır.

Son illər Azərbaycan ədəbiyyatı yeni axınlara və cərəyanlara meydan açmışdır. Həm nəsrdə, həm də poeziyada yeni ədəbi istiqamətlər formalaşmış, postmodern ədəbiyyat adı altında müsbət və mənfi hər şey ədəbiyyata sırınmışdır. Bu qeyri-sistemlilik mərkəzdə – paytaxtda daha aşkar şəkildə hiss olunur. Heç bir ədəbi cərəyana, məktəbə, ədəbi təmayülə mənsub olmayan bədii nümunələr dayanmadan artır, müəlliflər fərqli metodlar yaradır, yeni formasiyalar ortaya qoyurlar. Əksər hallarda uğursuzluqla nəticələnən bu axtarışlar nə bədii dəyər qazana bilir, nə də kütlə – xalq tərəfindən qəbul olunur. Əgər paytaxt ədəbi mühiti haqqında yeni təmayüllərdən, fərqli janr axtarışlarından, poetika və nəsr harmoniyasından danışırıqsa, bölgə ədəbiyyatı üçün bunun tam əksini söyləməli oluruq. Çünki bölgə ədəbiyyatı yeniliyə və novatorluğa qapalı, klassik janrlar və klassik ideyalar üstündə oxşar məzmunlu yeni bədii faktlarla zəngindir. Xüsusən, ömrünün cavanlıq dönəmini keçirmiş sənətkarlar dəfələrlə işlənmiş və çox parlaq nümunələr yaranmış mövzularda yeni əsərlər yaratmaqla məşğuldurlar. Janr və forma xüsusiyyətlərinə görə ədəbiyyata heç bir yenilik gətirməyən bu əsərlərin bir çoxu bədii-estetik dəyərinə görə də sələflərinin yaradıcılığını üstələmək gücünə malik deyil. Tək-tək istisnaları çıxmaq şərti ilə bölgə ədəbiyyatı hələ də qəlib mövzularda, qəlib məzmun və forma çərçivələrində davam edir. Əlbəttə, biz də istərdik ki, sonuncu cümləmizi "inkişaf edir" sözləri ilə bitirək.

Region ədəbiyyatı haqqında araşdırma edərkən belə bir fikir ortaya çıxır: "Bölgələrdə ədəbi həyat" adı 2017-ci il üçün həm də "Bölgələrdə poeziya" adı ilə əvəz oluna bilər. Çünki bölgə ədəbiyyatı hələ də nəzm çərçivələrini aşa bilmir, bədii yaradıcılığın digər istiqamətlərinə yönəlməkdə çətinlik çəkir. Ədəbiyyatşünaslığın digər ana istiqamətləri olan ədəbi tənqid və ədəbiyyat nəzəriyyəsinin, demək olar ki, yoxluğu fonunda ədəbiyyatın özü də yalnız poeziya səviyyəsində genişlənə bilir. Nəsrdə olan ağır addımlar və dramaturgiyanın, ümumiyyətlə, yoxluğu bölgə ədəbi mənzərəsi üçün acınacaqlı vəziyyət ortaya çıxarır.

Poeziya özü də regionda iki istiqamətdə yaranır, genişlənir. Birinci istiqamət nəsihət formalı şeirlərdir. Əsasən, yaşlı nəslin yaradıcılığında rast gəldiyimiz bu çoxsaylı nəsihət şeirləri, əlbəttə ki, lazımdır və önəmlidir. Amma müəllifin öz yaşına və həyat təcrübəsinə arxalanaraq bədii estetikası olmayan şeirlər sıralaması nə oxucu rəğbəti qazanır, nə də kütləviləşə bilir. Bir çox hallarda belə şeir kitabları qalaq-qalaq yığılır, müəllifin evində ya toz basmış şəkildə qalır, ya da dost məclislərində yaxın insanlara paylanmaqla kifayətlənir. Belə ədəbiyyat özünü sevdirə bilmir, oxucu ilgisini toplamaqda çətinlik çəkir və oxucunun ürəyində əsərə sevgi hissini alovlandıra bilmir. Bu ədəbiyyatın oxucu sevgisini toplamaqda çətinlik çəkməsinin əsas səbəblərindən biri də müəlliflərin digər əsərlərlə tanış olmamasından irəli gəlir. Əvvəla, müəllif klassik ədəbiyyatı oxuyaraq yazmaq istədiyi fikirlərin, tərənnüm etdiyi gözəlliklərin əvvəllər necə şux bir dillə tərənnüm olduğunu görər, sonrası da öz müasirlərini oxuyaraq yeni ədəbi tə-

mayülləri dərk edər, standart və qəlib formalardan kənara çıxmağa çalışar.

Bölgə ədəbiyyatında ikinci istiqamət isə gənclərin yaratmaqda olduğu prozaik şeirlərdir. Bu şeirlər, əsasən, mənzum təhkiyə formasında olur, lirik şeir tərənnüm qəlibindən çıxaraq nəsrləşir. Belə şeirlərdən xeyli dəyərli nümunələri xatırlaya bilərik, amma kor-koranə "yeni şeir" adı altında yazılmış ardıcıl sətirlər və yoxsul qafiyəli nümunələr də az deyil. İkinci istiqamətdə yazan gənclər təkcə bölgələr üçün yox, mərkəz üçün də aktualdır. Hətta internet və sosial şəbəkələr vasitəsilə bu tip şeirlər daha sürətlə yayılmaqda, oxucuların şeir menyusuna təqdim olunmaqdadır.

Poeziyanın mövzu arealı haqqında danışmalıyıq. Ədəbiyyatın aparıcı mövzuları olan "Vətən", "Eşq", "Ailə" 2017-ci il üçün də aktuallığını qorumuşdur. "Vətən" mövzusu sadalananlar içində ən aktualdır. Xüsusən, 2016-cı il aprel döyüşlərindəki müzəffər qələbənin ədəbiyyata gəlişi və nəşri 2017-ci ilin ədəbi hadisəsidir:

Vətən darda olsa, əgər,
Qeyrətini mərdlər çəkər.
Hamı olsun igid əsgər,
Künc-bucağa qısılmasın,
Azərbaycan basılmasın!

(Qüdrət Minhacoğlu)

Analar vərdişin dəyişər əlbət,
Daha corab deyil, kəfən toxuyar.

Boyunlar bükülü qalacaq bu yaz,
Bu yaz bənövşələr şəhid qoxuyar.

(Habil Rzanur)

Çalındı intiqam, zəfər nəğməsi,
Vətən əsgərinin ucaldı səsi.
Kəsildi düşmənin mənfur nəfəsi,
Düşdü vahiməyə bu səksəkədən,
Tutuldu atəşə Lələtəpədən.

(Zakir Bayramlı)

2015-ci ilin ədəbi yekunlarına həsr olunmuş ədəbi müşavirədə tənqidçi, filologiya elmləri doktoru E.Akimova yazır: "Araşdırma apararkən milli poeziyamızda da rəşadətli ordu simvolikasının əlamətlərini axtarmağa rəvac verdim. Amma bu şeirlərdə dominant olan başqa xüsusiyyətlərlə rastlaşdım: sevinc hissinin, məmnunluğun, "gözəl gələcəklə" bağlı qurulan xəyalların ifadəsi azalıb, "döyüşkən xalq" obrazını göz yaşı tökən, gücsüzləşən "məzlum xalq" obrazı əvəz edib. Belə bir ordu ilə qələbə sevincli şeiri Xankəndinin ən uca zirvəsində səsləndirə bilərikmi? Yox! Poeziya yenə də XX əsrin birinci yarısının hürr, istiqlal duyğulu şeirlərinə uduzur." Baxmayaraq ki, 2016-cı il aprel döyüşlərindəki qələbə şeirə də təsir göstərmiş və şeirdə nikbinliyi bir az da artırmışdı, amma hələ də "Xankəndinin ən uca zirvəsində səsləndirə biləcəyimiz" şeirlər yoxdur.

Qələbə və savaş əzmindən yoğrulmasa da, o taylı–bu taylı Azərbaycan dərdini qələmə alan ustad şairimiz Ra-

miz Qusarçaylını bir daha xatırlamalıyıq. 2017-ci ildə Cənubi Azərbaycana olan səfəri zamanı müəllifin qələmə aldığı şeirinə baxaq. Bu şeiri ilə Ramiz Qusarçaylı bir növ "daha hecada gözəl şeir yazılmır" deyənlərin də, "bölgələrdə ədəbi həyat yoxdur" söyləyənlərin də dodağının üstünə barmağını qoyub "susun" deyir:

Gəl gəzək Təbrizin küçələrini,
Gəzişək qolbaqol, dolanbadolan...
Çəkək gözümüzə gecələrini
Təbriz pıçıldasın: – Xoş gəlib balam...

Çıxaq Aynalıya çiçək dərməyə,
Bir şeir bağlayaq gül tağlarından.
Yanır duz içində susuz Urmiya
Gəl öpək qurumuş dodaqlarından...

Ötək Araz boyu ayrılıqları,
Həsrətin gözünə ağ çəkib gəzək.
Çırpaq üstümüzdən yad qınaqları
Tənəyə, hikkəyə dağ çəkib gəzək...

Öpüb səcdə qılaq burda hər şeyə,
İkimiz bir daşın üstə baş qoyaq.
Vuraq Şah gölündə badə badəyə
Şallaqdan qorxmayaq, dardan qorxmayaq...

Dolaşıb Səhənddən Səlmasa kimi,
Sevginin dadını çıxarıb gəzək.
Qubanın ağ üzlü alması kimi
Bir bəstə boyunca ağarıb gəzək.

2017-ci ildə mətbuatda tez-tez imzası ilə rastlaşdığımız şairə Xatirə Fərəclinin yaradıcılığında da mövzuların harmoniyasını, prozaikliyin mənəvi duyğularla sintezini görürük. Onun "Tənha türk məzarına" yazdığı şeir də dəfələrlə işlənmiş bu mövzuya fərqli baxış və fərqli üslub gətirir:

Ey,
başına türlü-türlü müsibətlər gətirilən
bir millətin ər balası,
daşıyırsan iftixarla Türk adını
özü boyda heykəl olmaq düşüb sənin qismətinə
görən hansı ana səni
ağrısını sevə-sevə gətirmişdi bu dünyaya
beşiyini yelləyəndə bilirdimi
o bir igid ər böyüdür
iki xalqın qürur yeri, səcdə yeri
heç bildimi yavrusunun qərib sandığı məzarı
neçə-neçə anaların ürəyində,
bu ölkəni vətən sanan,
bu millətin taleyinə yananların
ürəyində
sən torpağı qucaqladın, torpaq səni...

Sumqayıt ədəbi mühitinin Azərbaycan ədəbiyyatına qazandırdığı dəyərli qələm sahiblərindən olan Gülnarə Cəmaləddin təzadlı, bir-birinə əks duyğuları, zaman etibarilə keçmişi və indini, gözəlliyi və bunun qəsdinə duran aləmi şeirlərində əks etdirir. Bizə məlum olan motivlərə müraciət edəndə mütləq sxemdən, deyilmiş fikirlərdən mümkün qədər uzaqlaşır. Vətəndən şeir yazanda Vətən sevgisini

şablona çevirmir, bu sevginin təzə çalarını bizə təqdim edir:

Mən səni elə sevirdim, vətən,
Şəhid qəbirlərinə
qərənfillər düzülməmişdi,
Xocalı əsir düşməmişdi.
Mən səni elə sevirdim, vətən,
Quşlar göy üzünü sevəntək.
Mən səni elə sevirdim, vətən,
Pioner balaların gül daşıyırdı
Bolşeviklərin bəzəkli məzarına,
Proletar balaların inanırdı
Kommunizmin nağılına.
Bir də
səni o cürə sevməmək
o vaxt
Gəlməzdi heç kəsin ağlına.
Mən səni elə sevirdim, VƏTƏN,
Çünki sən məndən çox,
özgənin idin
o vaxt.

Hər mövzuya bu sayaq sərbəst, özünün düşündüyü, lakin bizi də düşündürdüyü kimi yanaşdıqda, baxış bucağı dəyişir, məlum nöqtəyə bir başqa cür boylanırsan.Gülnarə Cəmaləddin bu "gəlimli-gedimli dünyaya" da adi baxmır, həmişə qeyri-adilik axtarır.

Janrda və üslubda qeyri-adilik, yenilik axtarışları 2017-ci ədəbi həyatı üçün daha çox sevgi şeirləri üzərindən gerçəkləşdi.

Sevgi şeirləri yaş və təcrübə ayrımı etmədən 2017-ci ilin bütün şeir kitablarında boy qaldıran mövzudur. Bir çox hallarda təkrarlanan poetik təsvirlər və sintaktik fiqurlar əhatəsində bu sevgi şeirləri yeniliyi ilə seçilmir. Amma fərqli üslubda, fərqli və yeni (bu hər zaman uğurlu olmur) bənzətmələrlə "sevgi" şeirləri yaranmaqdadır. Sumqayıt ədəbi mühitində gənc qələm sahibləri bu cəhətdən fərqlənir. Sevinc Qəribin "Hardasa o uzaqlarda" şeir kitabında oxuyuruq:

Qoltuq ağaclarına söykənən
əlilin ümidləri kimidi ümidlərim.
Hərdən ölür, hərdən:
"Bir gün mütləq yeriyəcəm" – deyir,
Yanır gözlərimdə bir ulduz,
Ürəyimdə bir qığılcım alışır,
Tutunuram həyata...
Sən qoltuq ağaclarının
Verdiyi əzab kimi
Ürəyimdə qövr edən
Yaranın üstünə basırsan
Ayrılığınla...

XXI əsr Azərbaycan şeirində bu tip bənzətmələrlə tez-tez rastlaşırıq. Məişət dili və üslubu şeirə keçdikcə, şeir əsrlərdir davam edən pafosundan uzaqlaşır, sadələşir, xəlqiləşir. Amma bəzən şişirtmənin əndazədən çıxması şeirin estetikasını alt-üst edir.

Bölgə ədəbiyyatında son illər Şəfa Vəli imzası ilə də tez-tez rastlaşırıq. 2017-ci il ədəbi hadisəsi olan "Poçtalyona məktub" kitabının da əsasını sevgi şeirləri təşkil edir:

Sevirdi deyə səni
Ölçüsüz "böyütmüşdü".
Qurduğu evciyinin
"Adamı" düzəltmişdi.
Yıxmısan dünyasını
O kür, utancaq qızın.
Səni görcək, ovcunda
Saçı "oyuncaq" qızın.

Sevgi mövzusunu ənənəvi qəlibindən çıxararaq yeni poetik donda təqdim edən gənc şairlərdən biri də Günel Eyvazlıdır. Günelin lirik qəhrəmanı Leyli kimi şamlara, pərvanələrə dərdini danışmır, sevginin onda buraxdığı izləri tərənnüm edir. Günel Eyvazlı "Mən sevəndə" şeirində yazır:

Mən sevəndə məni tərk et,
Yəni dərk et.
Unut, dərd ver, intizar ver,
Məhəbbəti yumaq elə
Toxumaqçün əllərə ver.
Mən sevəndə dəymə mənə
Qoy ağlayım, qoy sızlayım.
Varlığında yoxluğunu,
Yoxluğunda varlığını
Tarazlayım.

XXI əsr Azərbaycan şeirində hiss olunan "Allahın şeirləşdirilməsi" Günelin şeirlərində də hiss olunur.

Sən sevgisən.
Bir ovuc torpaq götür

Yenidən dünya yarat
Yenidən Adəm yarat
Yenidən Həvva yarat
Hər şeyi lap əvvəldən
Hər an başlamaq olar.
Sən Tanrısan.

Son illər ədəbi mühitdə imzası və kitabları ilə özündən söz etdirən qələm sahiblərindən biri də Emin Piridir. Emin Pirinin 2017-ci ildə çap olunmuş "Sağ qalan varmı?" şeirlər kitabında oxuduğumuz şeirlər də yenilik və fərqli ədəbi priyomlar baxımından xüsusi diqqət çəkir. E.Piridən bir şeirə diqqət edək:

Gah nazını, gah fikrini,
Gah da yükünü çəkirəm.
Mən yazıq çarmıxa gedən
İsa çəkəni çəkirəm.

Emin Pirinin şeirlərində lirik qəhrəman milli obraz deyil, dünyəvidir. Bu qəhrəmanın duyğuları təkcə sevgi ilə zəncirlənməyib, həm də çoxcəhətli psixoloji ovqatın tərənnümünü ehtiva edir.

Havası alınmamış mətbəxin
Nəmlənmiş divarları küncündə
Boyat çörək kimisən.
Nə özüm yeyə bilərəm,
Nə də bərəkətdi deyə
Çölə ata bilmədiyim –
SƏN!

Şeirlərinin kəmiyyət yükünün sevgi mövzusunun üzərinə düşdüyü digər şairə Aybəniz Əliyardır. Onun şeirlərində ayrılıqdan və həsrətdən doğan hisslər, duyğular qələmə alınır, daha doğrusu, bir sevginin tarixçəsi oxunur. Şeirdə yalançı hisslərlə həqiqi, yaşanılan hisləri ayırd etmək o qədər də çətin deyil. Sevgi hisslərinin təsvirində isə təkcə doğru danışmaq, yəni təbii və səmimi təsir bağışlamaq azdır, əsas məsələ bu hissləri obrazlı şəkildə ifadə etməkdir. Füzuli kimi. Təbii ki, Aybəniz Əliyar və eləcə də onlarla qadın və kişi şairlərimizin heç biri Füzuli mənzilələsinə yetə bilməz. Amma rəhmətlik füzulişünas Sabir Əliyev yazırdı ki, bu saat Azərbaycan şeirində tam və bütöv bir Füzuli yoxdur, amma hər bir şairdə Füzulidən lap kiçik də olsa, bir parça var. Aybəniz Əliyarın sevgi şeirlərində də bunu azacıq da olsa, hiss edirik.

Həsrətin üşüyür gecədən bəri,
Keçib boylanırsan şəhərə sarı.
Yenə nəfəsinə od qatacaq, od,
Mənim şəhərimin gur işıqları.

Əllərin yanacaq işıq selində,
Əllərim dağların qarı kimidir.
Mənim xəyallarım sənin əlində,
Bir gülü qoxlayan arı kimidir.

Yenə belə uğurlu misallar gətirmək olar. Amma Aybənizin sevgi şeirlərinin içində adi fikirlərin ifadəsi olan nümunələr də az deyil. Xüsusilə, bir-birini təkrar edən, bir şeirdən digərinə adlayan motivlər diqqətdən yayınmır.

***

Bölgələrdə ədəbi həyat həm pərakəndə, həm də birlik halında nəzərə çarpır. Müxtəlif ədəbi məclislər, poeziya klubları, oxucu klubları və bu kimi müxtəlif yaradıcılıq birlikləri bölgə ədəbiyyatının inkişafı üçün çalışır. Belə birliklərin fəaliyyəti əyalətdə bədii yaradıcılığın canlanmasına, müəlliflərin sıx görüşünə, yaradıcılıq müzakirələrinin və kitab təqdimatlarının keçirilməsinə kömək edir. Şimal regionunda Qubada "Ay işığı" və "Gülüstan" ədəbi məclisləri, Şabranda "Xaqani poeziya evi", Sumqayıtda "Sumqayıt poeziya evi", "Əli Kərim poeziya klubu", "Zərif qadınlar məclisi" və digər ədəbi birliklər fəaliyyət göstərir. Bundan əlavə, Azərbaycan Yazıçılar Birliyinin müxtəlif rayonlarda mərkəzləri fəaliyyət göstərir ki, bunlar da ədəbiyyatın təmayülləşməsinə xidmət edir.

Naxçıvan ədəbi mühiti. Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan yaradıcı qüvvələri öz ətrafında birləşdirən Naxçıvan Yazıçılar Birliyi ölkəmizin əsas yaradıcılıq təşkilatlarından biridir. Tanınmış şair Asim Yadigarın rəhbərlik etdiyi Naxçıvan Yazıçılar Birliyinin ətrafında 60 nəfərdən çox yazıçı, şair, tənqidçi və ədəbiyyatşünas cəmləşmişdir. Asim Yadigar, Xanəli Kərimli, İbrahim Yusifoğlu, Elxan Yurdoğlu və başqalarının şeirləri ölkə miqyasında müasir poeziyanın qiymətli örnəkləri kimi qəbul olunur. Həmid Arzulu, Akif İman və Nərgiz İsmayılovanın nəsr əsrlərində tarixi mövzular və müasir həyatın problemləri orijinal bədii vasitələrlə ifadə edilir. Nərgizin "Ədəbiyyat qəzeti"ndə çap olunan silsilə esseləri böyük oxucu marağı qazanmışdır. Həsənəli Eyvazlının Naxçıvan Dram

Teatrında tamaşaya qoyulan pyesləri yeni dövrdə dramaturgiya sahəsində mövcud boşluğu doldurmağa xidmət edir. Hüseyn Həşimli, Əsgər Qədimov, Fərman Xəlilov, İman Cəfər, Ramiz Qasımov və başqaları ölkəmizdə tənqid və ədəbiyyatşünaslığı layiqincə təmsil edirlər.

Azərbaycan ədəbi mühitinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan ədəbi mühiti ümumazərbaycan məkanında özünü təsdiq etdirib. Bu mühitin formalaşması prosesi uzun bir yol keçib. Azərbaycan ədəbiyyatına Mirzə Cəlil, Hüseyn Cavid, M.S.Ordubadi, Məmməd Araz və s. kimi görkəmli ədiblər bəxş edən Naxçıvan bu gün ədəbi mühitdə fəaldır. Xüsusən, son illərdə Naxçıvan ədəbiyyatı tədqiqi işinin genişlənməsi buranın ədəbi mühitinə də canlanma gətirmişdir. Tədqiqatlarda klassik ədəbiyyatla yanaşı gənclərə və ümumilikdə müasir ədəbiyyata geniş yer verilməsi də diqqətdən yayınmır.

Naxçıvanda Asim Yadigar, Xanəli Kərimli, Muxtar Qasımzadə, Həmid Arzulu, Bayram İsgəndərov, Telman Ağrıdağ, Fərəc Fərəcov, Qafar Qərib, Hüseyn Bağıroğlu, Əbülfəz Ülvi, Kəmalə Nəsrin, Arzu Nehrəmli, İbrahim Yusifoğlu, Güllü Məmmədova, kimi istedadlı yazarlar günümüzün ədəbiyyatının formalaşmasında xüsusi pay sahibidirlər. Onların əsərləri təkcə Naxçıvanda deyil, ümumən Azərbaycanda da yayılır, oxunur, sevilir.

İstər Asim Yadigarın, istər Xanəli Kərimlinin, istər Əbülfəz Ülvinin, istər Kəmalə Nəsrinin, istərsə də İbrahim Yusifoğlunun şeirlərində əsas qəhrəman Vətəndir. Vətən mövzusu sadaladığımız şairlərdə təkcə Naxçıvan və Azərbaycan deyil, Vətən – böyük mənada həm də Qarabağdır,

Vətən Cənubi Azərbaycandır, Vətən Borçalıdır, Vətən Dərbənddir.

Vətəndir dünyada hər şeydən əzəl,
İlk sevgim, son sevgim bu yurd, bu torpaq.
Məndən inciməsin sevdiyim gözəl,
Vətəni sevmişəm mən ondan qabaq –

Təqdim etdiyimiz bu nümunə Asim Yadigarın yaradıcılığındandır, bu misralar bir bölgəyə sığacaq ədəbiyyat deyil, bütün Azərbaycan xalqının dilindən söylənən nidadır.

Azərbaycan Yazıçılar Birliyinin Gəncə Şöbəsi ətrafında fəaliyyət göstərən yazıçı, şair və ədəbiyyatşünaslar Nizami Gəncəvi yurdunun söz-sənət ənənələrini yaradıcılıqla davam etdirirlər.

Naxçıvan ədəbi bölgəsindən danışarkən Yazıçılar Bilrliyinin III konfransı xüsusi qeyd edilməlidir. 20 oktyabr 2017-ci ildə konfrans işə başlayıb. Beş ildə birlik ədəbi prosesin və bədii yaradıcılıq mühitinin canlandırılması, bədii tərcümə, uşaq ədəbiyyatı və dramaturgiyasının inkişaf etdirilməsi, eləcə də kitab müzakirələrinin təşkili istiqamətində yenidənqurma tədbirlərini həyata keçirib. Qismən də olsa, birlik üzvləri, digər ədəbi qüvvələrin əsərlərinin müzakirə və təhlilləri aparılıb, ədəbi tənqid, ədəbi proses diqqətdə saxlanılıb, çap olunmuş əsərlərin sayı artıb, yaradıcı gənclərə mənəvi kömək göstərilib, yaradıcılıqları müəyyən qədər istiqamətləndirilib, vətənpərvərlik mövzusu genişlənib, imza və kitab müzakirələri günləri, yazıçılarla görüşlər keçirilib. Dünya klassiklərindən tərcü-

mə sahəsində də müəyyən işlər görülüb, uşaqlar üçün yazılmış əsərlərə diqqət yetirilib, xüsusilə pyes yazılışı sahəsində boşluqların aradan götürülməsinə səy göstərilib, uşaq teatrlarında belə əsərlərin tamaşasına ehtiyac artıb. Konfransda göstərilib ki, tariximizi əks etdirən dram və nəsr əsərlərinin yazılışına ciddi ehtiyac vardır.

Birliyin sədri Asim Əliyevin (Yadigar) hesabat məruzəsi dinlənilib. Qeyd olunub ki, bölgədə yaşayan şair və yazıçılara hərtərəfli qayğı göstərilir. Beş ildə 12 ədəbi almanax hazırlanıb və çap olunub. "Naxçıvan" jurnalının bir neçə nömrəsi şair və yazıçıların əsərlərinə həsr olunub. Bölgədə ədəbi həyatın geniş təbliğinə söz verilib.

Gəncə ədəbi mühiti həmişə Azərbaycan ədəbiyyatının əsas dayaq nöqtələrindən biri olub. Üzü Nizamidən bəri günümüzədək poeziyanın inkişafında Gəncə şairlərinin rolu danılmazdır. Şübhəsiz ki, bu fəaliyyət 2017-ci ildə də davam etmişdir. Xüsusən, Azərbaycan Yazıçılar Birliyinin Gəncə bölməsinin təşkilatçılığı ilə ötən il Gəncə bir sıra ədəbiyyat tədbirlərinə ev sahibliyi etmiş, gənc yazarların tanınması, nəşr olunması, oxuculara daha yaxın ola bilməsi üçün səy göstərmişdir.

Son əlli ildə burada görkəmli nasir və dramaturq Altay Məmmədovun, şairə Fəridə Əlyarbəylinin, şair Məmməd Alimin, Qərib Mehdinin, Bahadur Fərmanın xidmətlərini unutmaq olmaz. Sadaladıqlarımız arasında ömrünün ahıl çağını yaşayanlar da var, dünyasını dəyişənlər də, amma onların yaradıcılığı hələ də oxunur, ən əsası təhlilə və tənqidə cəlb edilir.

Gəncədə yaşayan İnqilab İsaq da müasir Azərbaycan poeziyasında özünəməxsus fərdi üslubuyla seçilən şairlər-

dəndir. Müəllifin bir neçə şeirindən nümunə verməklə Gəncə mühiti haqqındakı fikirlərimizi tamamlamaq istəyirik.

Gülən deyil bu bəxt üzə,
Gördüm solan çiçəkləri.
Mən öz eşqimdə bitmişəm,
Qoxla sonam,çiçəkləri...

Xəyalları qarğış tutub,
Kölgəm belə gəlməz yaxın.
Göz yaşında yol uzadır,
Günahlarım, günahların...

Desələr bu dünya beş gündür, nə qəm,
İnanma gülümsə, yalanı qına.
Qoşulma xatirə ayrılığına,
Qoşul çiçəklərin ilk baharına.

Arxayın doğulmur şeirlərim də,
Kürsü alqışında bitirməz çiçək.
Mən qəmi durulmuş göyün üzüyəm,
Amma fikirliyəm yerin üzütək.

Respublikamızın əsas ədəbi mərkəzlərindən birinə çevrilən *Lənkəranda Cənub bölgəsinin* istedadlı qələm sahiblərinin əsərlərini ardıcıl olaraq oxuculara təqdim edən qəzet və jurnallar ölkə miqyaslı nüfuzlu nəşrlərə çevrilməkdədir. Cənub bölgəsində yaranan ədəbiyyatda ana torpaq və doğma təbiət mövzusu orijinal bədii vasitələrlə canlandırılır.

Qarabağ mövzusu bütövlükdə Azərbaycan ədəbiyyatının əsas mövzusu olsa da, Qarabağ bögəsində yaşayıb-yaradan ədəbi qüvvələrin bu ciddi problemə daha həssas münasibətini hiss etmək mümkündür. Vətənpərvərlik, yurd həsrəti, itirilmiş torpaqlar uğrunda mübarizə motivləri Qarabağ ədəbi mühitinin müasir dövrünün mənzərəsində ardıcıl və aktiv şəkildə diqqəti cəlb edir.

Qazax bölgəsi – əsrlərdir Azərbaycan ədəbiyatının heca vəzn limitini dolduran əsas bölgədir. Qoşma-gəraylı dedikdə qazaxlılar, Qazax ədəbi mühiti dedikdə də elə saz, söz, qoşma yada düşür.

Vaqif-Vidadi ilə başlayan, Səməd Vurğunla zirvəyə çatan Qazax ədəbiyyatı bu gün də yaranır və inkişaf edir. Barat Vüsal, Saqif Qaratorpaq, Məhəmməd Astanbəyli, Şahinə Könül Qazaxın çağdaş ədəbi həyatında mühüm rol oynayırlar. 2017-ci ilin ədəbi yekunlarına həsr olunmuş ədəbi müşavirədəki çıxışı zamanı Vaqif Yusifli diqqəti xüsusi bir məqama çəkir və qeyd edir ki, Məmməd İlqarın, Akif Səmədin, Məmməd Dəmirçioğlunun şeirlərində ürfan poeziyasının dirçəlişidir.

Və yazımızı da elə Məmməd Dəmirçioğlundan nümunə gətirdiyimiz bu şeirlə tamamlamaq istəyirik:

"YAHU" Allaha sevdadı,
Sevdalı dillər Yahudu.
Üstündə şehlər titrəşən
Çiçəklər , güllər Yahudu.

Kimi nisgilli, kimi şən.
Bizik ağlaşan, gülüşən.

Sonalar, qular çimişən
Dəryalar, göllər Yahudu

Hər zirvənin öz qarı var,
Hər bağın öz nübarı var.
Hər aşiqin bir yarı var,
Lilparlar, lillər Yahudu.

Kimdi o neyi dinləyən,
Varmı dinləyib ölməyən?
Sazda, kamanda inləyən
Pərdələr, tellər Yahudu.

Qazax ədəbi bölgəsində Zərəngiz Dəmirçi Qayalının 50 illik yubileyinin keçirilməsi də yadda qalan hadisə olub. 15 dekabr 2017-ci ildə Qazax Mədəniyyət Mərkəzində keçirilmiş tədbirdə bölgənin sədri Barat Vüsal və üzvlərindən Bayandur Sevgi, Zaməddin Ziyadoğlu, Zaqif Qaratorpaq, Tamilla Poladlı çıxış edib və şeirlərini oxuyub.

Ağsu ədəbi birliyinin üzvləri olan Marif Şikar, Günel Şıxəliyeva, Eyvaz Bayramov, Yusif Məmmədov və başqaları Ağsuda 14 dekabr 2017-ci ildə keçirilmiş "M.P.Vaqif–300" yubileyində çıxış edib və şeirlərini oxuyub.

Qazax və Qarabağ ədəbi birlikləri də Molla Pənah Vaqif tədbirlərində yaxından iştirak edib. Birliklərin sədrləri Barat Vüsal və Ənvər Əhməd 4 dekabr 2017-ci il tarixli tədbirdə çıxış edib və şeirlərini oxuyublar.

Təbii ki, regionlardakı ədəbi birliklər görkəmli sənətkarların yubileylərinin keçirilməsi və kitab müzakirələri, habelə şeir məclislərinin müzakirələrində yaxından iştirak

edir və yeni şeirlərini oxuyurlar. Mövzu və sənətkarlıq məsələlərinə münasibətlərini bildirirlər.

Ölkəmizin digər ədəbi mərkəzlərində fəaliyyət göstərən ədəbi birliklərin 2017-ci il üçün fəaliyyət istiqamətini aşağıdakı kimi ümumiləşdirə bilərik:

1 – Sumqayıt "Poeziya Evi"ndə "Qəlbdəki və qələmdəki Qarabağ", eləcə də "Şeir çələngi" kitablarının təqdimatı keçirilmiş, Aida Eyvazlı Göytürkün "Qalibiyyət – Şəhidlər və Şahidlər", "Samir, Nazim , Elşən!" kitablarının təqdimatı baş tutmuşdur. Jurnalist Namiq Dəlidağlının "Otel otağından reportaj" adlı yeni kitabının "İmza günü", Nigar İsmayılqızının "Bakıdan İstanbulacan və dönüş" adlı kitabının təqdimat mərasimi, "Qazax şeiri antologiyası"nın təqdimatı və imzalanma mərasimi keçirilmişdir. Bu işlərin həyata keçirilməsi Sumqayıt Poeziya Evinin adı ilə bağlıdır.

2 – Şabranda şairə Qızqayıt Mahmudovanın "Burdan yol başlanırdı" şeir kitabının, şair Şərbətəli Mahmudovun "Yoldayam" kitabının, "Şabran nəğmələri–VIII" almanaxının, şair Nəcməddin Mürvətovun "Şairdə sirr olmur" kitabının, şair Zakir Bayramlının "Mən çağlayan bir bulağam" şeirlər kitabının təqdimatları keçirilmişdir.

3 – Quba ədəbi mühiti haqqında daha ətraflı məlumat vermək istəyirik.

Təməli böyük mütəfəkkir Abbasqulu Ağa Bakıxanov tərəfindən 1835-ci ildə "Gülüstan" ədəbi məclisiylə qoyulan Quba bölgəsinin ədəbi mühiti bu gün Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsi, Şabran bölməsi, "Ay işığı", "Ulduzlar", "Şabran" və "Gülüstan" ədəbi məclisləriylə daha da inkişaf edir.

"Gülüstan" ədəbi məclisinin əhatə dairəsi A.A.Bakıxanovun rəhbərliyi altında Rusiyadan adlayaraq bir sıra Avropa ölkələrinə qədər uzanmış, bu əlaqələrin nəticəsi kimi nəinki Azərbaycanda, eləcə də bütün Şərqdə ilk qadın dramaturq olan Səkinə xanım Axundzadənin, Mirzə Möhsün Xəyalinin, Xaltanlı Tağının, Xınalıqlı Əminin, Baba Buduqinin, Hacı Qubalının, Yetim Eminin, M.Qorkinin XX əsrin Homeri adlandırdığı Süleyman Stalskinin və digər saz və söz ustalarının yetişməsinə gətirib çıxarmış, milli ədəbiyyatımızın və mədəniyyətimizin zənginləşdirilməsi sahəsində böyük tövhələrini vermişdir.

1993-cü ildə Ramiz Qusarçaylının təşəbbüsü və rəhbərliyi ilə Qubada "Ay işığı" adında yeni bir ədəbi məclis yaradıldı. Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Dəmirqapı Dərbəndi təmsil edən istedadlı qələm sahibləri bir işığa üz tutdu, bu işığın içində bir əyalət tənhalığı, ədəbi nigarançılıq və narahatlıq əriyib yox oldu, mənəvi və əbədiyaşar sabahlara ümidlə baxılmağa başlanıldı.

Bölgədə yaşayıb yaratmış klassiklərlə birgə Dəmirqapı Dərbəndin də Hüseynəli Xan Məhzun, Xəlil Dərbəndi, Zərnigar Dərbəndi, Əhməd Dərbəndi, Niftullah Dərbəndi, Məşhur Dərbəndi, Şikəstə Dərbəndi, Bayat Abbas, Yusif Dərbəndi, Diləfruz Pəri, Məhəmməd Tağı Qumri kimi ulu qələm sahibləri, eyni zamanda Fəxrəddin Oruc Qəribsəs, Təhmiraz İmamov, Şıx İbrahim Manafov, Əmirbəy Çepivi, Elman Abbas, Düriyyə Rəhimova, Aşıq Sakit, Natiq Seyidov və başqaları kimi müasir dövrün söz ustalarının da əsərləri "Ay işığı" ədəbi məclisinin toplularında dərc olunur, respublika mətbuatında təbliğ edilir. Bu il Qubanın "Ay işığı" ədəbi məclisinin 25 və məclisin rəhbərinin isə

60 yaşı tamam olur. Bu münasibətlə "Ay işığı" ədəbi məclisində yubileyə hazırlıq işləri gedir, hazırda bölgə yazarlarının əsərlərindən ibarət "Ay işığı–25" adlı almanaxı çapa hazırlanır.

Bu gün Qubadakı ədəbi mühit milli tərkibi müxtəlif olan bir bölgədə böyük ədəbiyyata, eləcə də dostluğa, qardaşlığa, ən başlıcası isə bütöv Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına xidmət edir.

Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri Əməkdar incəsənət xadimi, şair Barat Vüsal birliyin inkişafı yolunda ardıcıl çalışır. Bu baxımdan 9 oktyabr 2017-ci ildə Mübariz Qaragözlünün 50 illiyinə həsr edilmiş tədbir qeyd oluna bilər. O, yubilyarın həyat və yaradıcılığından söz açmış, şeirlərinin respublika mətbuat orqanları və almanaxlarda çapını qeyd etmişdir.

Bədii tərcümə və ədəbiyyatşünaslıq. Regionlarda ədəbi yaradıcılığın nəsr və dramaturgiya qollarının zəif inkişafı kimi, tənqid və ədəbiyyatşünaslıq işi də diqqətdən yayınmışdır. Bir çox region şairləri haqqında ön sözlər Bakıda görkəmli alim və tədqiqatçılar tərəfindən yazılmış, yaxud ciddi təhlildən uzaq şərhlər verilmişdir. Burada da təəssüfedici bir məqam ortaya çıxır: Region yazarlarının bir çoxu haqqında yazan müəllif ilə daha çox öyünür, bunun üçün də görkəmli alimlərdən və peşəkar tənqidçilərdən rəy almağa səy göstərirlər.

2017-ci ildə regionlarda tərcümə işi xeyli sürətlənmişdir. Bu istiqamətdə diqqətçəkən əsas region Sumqayıtdır. Burada 2017-ci ildə türk dillərindən, rus və ingilis dillərindən bədii tərcümələr həyata keçirilib. "Əli Kərim poeziya klubu"nun sədri İbrahim İlyaslının "Sən eşqsən" adlı tər-

cümə kitabı Sərvət Gürcan qələminin məhsuludur. Son illərdə şeir tərcüməsində müsbət məqamlar artsa da, qəbul etmək lazımdır ki, hələ ki şeir tərcüməmiz yüksək səviyyədə deyil. Xüsusən, türk dilindən edilən tərcümələr yarımçıq tərcümələrdir. Amma İbrahim İlyaslının tərcüməsində şeirin ruhunu, məğzini aydın duymaq olur, şeir orijinalı qədər təsir buraxır:

Bu il baharı sevdim.
Daha əvvəllər fərqinə varmazdım baharın.
Qocalığın başlamağındandır yəqin.
Bu qədər stresini yaşamazdım rüzgarın.
Özləmini duyaraq gözlədim neçə həftə, neçə ay.
Bu il baharı sevdim.

Bölgələrdə ədəbiyyatın tənqid və nəzəriyyəsinin öyrənilməsi prosesi də davam etməkdədir. Son illərdə ali məktəblərin regionlarda açılan filialları elmi tərəqqini də regionlara apara bilmişdir. Bu cəhətdən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, Sumqayıtda fəaliyyət göstərən universitetlər diqqət çəkir. ADPU Quba filialı müəllim heyətinin Bakı elmi mühiti ilə sıx əlaqələri burada ədəbiyyatşünaslıq elminə yeni töhfələr verməkdədir. Sözügedən filialın Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Gülşən Ağabəyin son illərdə apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Müəllifin ardıcıl şəkildə həm dünya, həm də Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmaları və dərslikləri var. Bu materiallar eyni zamanda paytaxtda vaxtaşırı çap olunur və təhlilə cəlb edilir.

Ümumiyyətlə, bölgələrdə bədii yaradıcılıq və ədəbiyyatşünaslıq sahəsində əldə olunan uğurlar tam ürəkaçan olmasa da, 2017-ci il ədəbi mənzərəsinin yetəri qədər hərəkətli və zəngin olduğunu söyləyə bilərik. Növbəti illərdə ədəbiyyatın daha da kamilləşəcəyi, oxuculara daha yaxın ola biləcəyi ümidilə fikrimizi tamamlayırıq.

P.S.: 2017-ci ilin əsas ədəbi hadisələrindən biri də televiziyada yayımlanan "Xalqın şairi" layihəsi oldu. Bu layihə televiziya məkanında yayımlanan ədəbiyyata həsr olunmuş verilişlər arasında ilk idi ki, tamaşaçılar tərəfindən geniş müzakirə olundu. Buna qədər dövlət televiziyalarında yayımlanan "Məclisi-üns", "Ovqat", "Səhər ovqatı" və s. kimi proqramlar olsa da, bu veriliş ictimai müzakirəyə yol açmırdı. Eyni zamanda, həmin layihələr öz sözünü demiş qələm sahiblərinə meydan açdığı halda, "Xalqın şairi" layihəsində ədəbiyyata yeni addımlarını atan, tanınmayan şairlər dəvət olunurdu. Bu hal təqdirəlayiq olsa da, şairlərə qarşı qeyri-obyektiv münasibət, münsiflərin bəzi hallarda fərdi mövqe tutması diqqətdən yayınmırdı. Onu da xatırladaq ki, layihənin müəyyən texniki səbəblərdən dolayı final verilişi hələ də yayımlanmayıb. Ümid edirik ki, televiziya verilişlərində ədəbiyyat daha geniş yer tutacaq, "Xalqın şairi" layihəsi də müasir tələblər baxımından dönüşə doğru ciddi addımlar atacaqdır. Eyni sözləri "internet ədəbiyyatı" haqqında da demək mümkündür.

Bölgələrdə ədəbi həyat haqqında ilk məruzəm mənim üçün bu istiqamətdə tədqiqat və təqdimat üzrə birinci məşqdir. 2018-ci ilin bölgələrdə ədəbi prosesini daha detallı şəkildə təqdim etmək üçün var gücümlə səy göstərəcəyəm.

Günay QARAYEVA
Filologiya üzrə fəlsəfə doktoru

2017-Cİ İLİN UŞAQ NƏSRİ VƏ DRAMATURGİYASI

Ədəbiyyatın müstəqil sahələrindən biri olan uşaq ədəbiyyatının problemləri və perspektivləri ətrafında aparılan müzakirələr öz bəhrəsini verməkdədir. Respublikamızda uşaq ədəbiyyatının inkişafı istiqamətində görülən işlər, reallaşdırılan lahiyələr, uşaq ədəbiyyatı nümunələrinin seçilib dəyərləndirilməsi, uşaq yazarlarının Respublika və Beynəlxalq müsabiqələrdə mükafatlara layiq görülmələri əvvəlki onilliklərdən fərqli olaraq bu sahəyə artan marağın göstəricilərindəndir. Bu canlanma həm ədəbi prosesə, həm də uşaq ədəbiyyatının tədqiqi sahəsindəki boşluqların doldurulmasına real imkan yaradır. Etiraf etmək lazımdır ki, uzun müddətdir ədəbi tənqid uşaq ədəbiyyatının milli, tipik səciyyəsinin, fərdi cizgilərinin, janr və mövzu istiqamətlərinin sistemli şəkildə təhlilindən yan keçmişdir. Təbii ki, problemə bu cür yanaşma əsassız və səbəbsiz deyildir. Bu, bir tərəfdən tədqiqatların tarixi-xronoloji aspektdən aparılması, digər tərəfdən isə ədəbi tənqidi fikri qane edəcək sanballı uşaq ədəbiyyatı nümunələrinin azlığından irəli gəlirdi.

Yola saldığımız 2017-ci ildə uşaq ədəbiyyatının inkişafı istiqamətində polemikalar aparılmış, layihələr reallaşdırılmışdır. Ötən il uşaq ədəbiyyatının təbliğinə ilk olaraq "Ədəbiyyat qəzeti"nin müzakirə saatında başlanıldı. Uşaq ədəbiyyatının müasir durumu, aktual problemləri, onun

geriləmə səbəbləri yazarlar, ədəbi tənqid nümayəndələrinin iştirakı ilə ətraflı müzakirəyə çıxarıldı. Vaxtaşırı aparılan disputlar bu sahədə yetərincə boşluqların olması, bu ədəbiyyatın müasir durumu, uşağın daxili aləmini, psixoloji yaşantılarını ortaya qoyacaq əsərlərə böyük ehtiyac hiss olunduğu, uşaq ədəbiyyatımızın həmin məsələlərə yetərincə cavab verə bilmədiyini və bu sahədə ictimai işlərin dominatlığını təsdiqlədi. Ötən il uşaq ədəbiyyatının təbliği, gənc nəslin inkişafı və onlarda estetik zövq aşılamaq məqsədilə bir çox layihələr həyata keçirilmişdir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayevin imzaladığı əmrə əsasən yeni layihələr planı hazırlanmış və bu istiqamətdə vacib, zəruri işlər görülmüşdür. Bunlardan biri 2017-ci ildə reallaşdırılan Azərbaycan uşaq ədəbiyyatının "Bərpa nəşr" layihəsidir. Layihəni həyata keçirən F.Köçərli adına Uşaq kitabxanası Qızıl Fondda nadir nüsxələr kimi qorunan nağıl, hekayə və povestləri təkrar çap etmiş, ədəbi ictimaiyyətin ixtiyarına vermişdir. Azərbaycan yazıçıları Kamran Əlioğlu və Fərid Qorxmazoğlunun "İliş və ya hörülmüş hekayə" kitabının İsveçin paytaxtı Stokholmda Maria Sheval adına "Uşaq mövzusuna həsr olunmuş ən gözəl əsər" mükafatına layiq görülmələri də ilin uğurları sırasındadır.

Yola saldığımız 2017-ci ildə "Göyərçin", "Göy qurşağı", "Savalan", "Qaranquş", "Sehirli dünya" kimi uşaq jurnalları maraqlı nağıl və hekayələr, zəngin elmi, informativ məlumatlar, rəngarəng rublikaları ilə kiçik oxucuların ixtiyarında olmuşdur. Əfsuslar olsun ki, əvvəlki illərlə müqayisədə uşaq mətbuatında bir durğunluq hiss olunmaqdadır.

2017-ci ildə "Azərbaycan", "Ulduz", "Göyərçin", "Göy qurşağı", "Savalan", "Qaranquş" jurnalları, "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Kaspi" qəzetlərində, kulis.az, manera.az. saytları və ayrı-ayrı nəşriyyatlar oxucularına nağıllar, uşaq hekayələri, povest və dram əsərləri təqdim etmişdir ki, biz də kəmiyyət və keyfiyyətindən asılı olmayaraq bu nümunələri nəzərdən keçirmiş və ədəbi prosesdə uşaq ədəbiyyatının ümumi mənzərəsini əhatə etməyə çalışmışıq. 2017-ci ilin ədəbi mənzərəsi bu istiqamətdə uşaq ədəbiyyatımızın gələcək prespektivləri haqqında nikbin danışmağa əsas verir. Müxtəlif nəsilləri təmsil edən yazarlarımızdan öz dəsti-xətləri ilə tanınan Zahid Xəlil, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Qəşəm İsabəyli, Sevinc Nuruqızı, Reyhan Yusifqızı, Aygün Bünyadzadə, Gülzar İbrahimova, imzaları ilə seçilən Əfsanə Laçın, Vüqar Haqverdiyev, Elvira Məmmədova, Sevinc Elsəvər, Alov İnanna, yeni nağıl, hekayə və povestləri ilə diqqəti cəlb edən Amin Sükut, Səmayə Bayramova və b. müəlliflərin bir qisminin əsərləri kitab halında çap olunmuş, bir qisminin isə nağıl və hekayələri ayrı-ayrı dərgilərdə, müxtəlif saytlarda yayımlanmışdır. R.Yusifqızının "Dostum Mimi" (Bakı, 2017), V.Haqverdiyevin "Müasir nağıllar" (Bakı, 2017), Sevinc Elsəvərin "Donu qırmızı" (Bakı, 2017), Amin Sükutun "Tuflinlər" (Bakı, 2017) kitabları çap olunmuşdur. Zahid Xəlil, Rafiq Yusifoğlu, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Gülzar İbrahimova, Elvira Məmmədova, Əfsanə Laçın, Tural İsmayılov, Dilqəm Əhməd, Səmayə Bayramova və b. nağıl və hekayələri yuxarıda adlarını qeyd etdiyimiz qəzet və jurnallarda kiçik oxucuların ixtiyarına verilmiş, saytlarda yer-

ləşdirilmişdir. İdeya-məzmun yeniliyi bu ədəbiyyatın janr imkanlarını da genişləndirmiş, nağıl, hekayə, povest, nağıl-povest, roman, komiks və s. çeşidli janrlarda nümunələr yaranmışdır. İlin ümimi mənzərəsində diqqət kəsb edən əsas məqamlardan biri yaşlı nəsildən fərqli olaraq gənc yazarların fəallığı, yeni qüvvələrin maraqlı əsərləri ilə gündəmdə olmasıdır. Bununla yanaşı, milli uşaq ədəbiyyatımızda son dövrlərdə uşaqlara dərs keçmək, nəyi isə tələqin etmək, öyrətmək marağı, uşağın hərəkət və davranışlarını canlandırmaqla nəvə-baba, nənə-nəvə əlaqələrinin üstünlüyünü itirərək yerini tələqin edilənlə düşündürmək, nəticə çıxarmaq, ötürülən informasiya vasitəsilə uşağın dünyagörüşünə, məntiqi təfəkkürünə təsir göstərmək istiqamətində təzahür edir.

Uşaq ədəbiyyatının ən çevik janrlarından biri nağıl və hekayələrdir. Nağıl təhkiyəsi, bu üslubun şirinliyi, hadisələrin çox zaman fantastik, qeyri-adi şəkildə cərəyanı, kiçik qəhrəmanların müxtəlif situasiyalarda təqdim olunması folklorun bu işlək janrına hər zaman diqqət kəsb etmiş, zamanından asılı olmayaraq uşağın marağına səbəb olmuşdur. Həm yaşlı, həm də gənc nəsli təmsil edən yazarlarımız bu il dəuşaqlar üçün əyləncəli, fantastik, tərbiyəvi nağıllar yazmışdılar. V.Haqverdiyevin "Müasir nağıllar" kitabı bu cəhətdən seçilənlərdəndir. Müəllif kitaba ayrı-ayrı müsabiqələrdə yüksək yerlərə layiq görülmüş nağıllarını daxil etmişdir. "Pis uşaqlar planetinin sirri", "Sehrli tütək", "Uçan fincanlar", "Xırcanın nağılı", "Dovşan və qarğa" nağılları topluda yer alan maraqlı nümunələr sırasındadır. Bəs bu nağılların müasirliyi nədədir? Kişik yaşlı uşaqların zövqünü oxşayan bu nağıllarda xeyirxah olmaq,

faydalı işlər görməyə çağırış, pis əməllərdən uzaq durmaq,tədbirli və gözüaçıq olmaq, böyükləri incitməmək, köməksizlərə əl tutmaq kimi gözəl əxlaqi sifətlər tələqin olunur. Müəllif əksəriyyəti tərbiyəvi məzmunda yazılmış bu nağıllarda şablon şəkildə tərbiyyələndirmək, kiçikləri gördükləri yanlış işlərə görə məzəmmət etmək və yaxud öyüd, nəsihət üsulundan istifadə etmək yolu ilə getmir. Tərbiyələndirici fikri tələqin etmək üçün uşaqların yol verdikləri nöqsanları müəyyən hadisə və sujet əsasında, bilavasitə uşağın iştirakı ilə təqdim edir. "Pis uşaqlar planetinin sirri" nağılında balaca İbişin oyuncaqları ilə pis rəftarı, verdiyi sözə əməl etməməsi onu Xoşbəxt uşaqlar planetinə deyil, pis uşaqlar planetinə salır. Burda İbiş başqa planetlərdən gələn uşaqlar və onların davranışlarındakı nöqsanları gördükdə öz səhvlərini anlayır. O, gördüyü işlərlə həm özünü, həm də ətrafını tərbiyələndirir, bu planetə düşən uşaqları yanlış yoldan çəkindirir. "Uçan fincanlar" nağılında Səbişə əyləncəli görünən oyunun ziyanını müəllif Məhəmməd babanın tədbirli və təmkinli davranışının əsasında ümumiləşdirir, balaca qızcığaz etdiyi yanlış hərəkətdən utanır. Müəllifin demək olar ki, bütün nağıllarında əsas məqsədi düzlüyə, xeyirxahlığa çağırış, naqis, pis əməllərdən uzaq olmaq, ətrafındakılara məhəbbətlə yanaşmaq və s. gözəl əxlaqi sifətlər, insani keyfiyyətlər aşılamaqdır. Sehirli aləm, nurani qoca, sehirbaz və s. milli nağıllarımızdan bizə yaxşı məlum olan personajları müəllif tam yeni çalarda və məzmunda canlandırır.

Uşaq yazarlarımız uşaqları düşündürmək, onların təbiət, ətraf aləmlə bağlı bilgilərini genişləndirmək, əşya və predmetlər haqqında anlayışlarını möhkəmləndirmək məq-

sədilə hekayə janrının imkanlarından daha çox istifadə edirlər. Son dövrlər bu janrın imkanları genişlənmiş, uşaqlarda mövcud olan dostluq, xeyirxahlıq, əməyə çağırış, zəhmətə qatlaşmaq motivləri ilə yanaşı, onların elmi biliklərini artırmaq, tarixi gün və hadisələr, ayrı-ayrı şəxsiyyətlər haqqında bilgilərini möhkəmləndirmək məqsədilə maraqlı hekayələr yazmışdılar. Z.Xəlilin "Qarğaların dostluğu", "Aysu və Cansu", Q.İsabəylinin "Qərib uşaqla qərib itin əhvalatı", "Şəhid bulud", R.Yusifoğlunun "Rənglərin anası", S.Nuruqızının "Danışan ilmələr", "Saqlana", R.Yusifqızının "Qar", "Fevral ayının sirri", "Dəcəl ilbizlər", Ə.Laçının "Xahiş edirik kəmərləri bağlayın", E.Məmmədovanın "Qanadlı dostlar" və s.hekayələr ilin ən uğurlu nümunələri sırasındadır. Uşaqlar üçün yazılan əsərlərdə müəllif hadisə və situasiyanı uşağın maraq dairəsinə, düşüncəsinə uyğun qurmalı, müsahibi ilə anlaşılan, sadə dildə unsiyyət yaratmağı bacarmalıdır. Bu zaman müəllifin təlqin etdiyi fikir öz ünvanına daha tez çatar, estetik idealın təqdimində müsbət nəticə əldə edilmiş olar.Əfsuslar olsun ki, ideyası maraqlı olan hekayələrdə bu proporsiya bəzən pozulur. Bunun üçün klassiklərin, yaşlı uşaq yazarlarının təcrübəsindən yararlanmaq vacibdir. Z.Xəlilin "Aysu və Cansu" hekayəsində uşaqlara dostluq, xeyirxahlıq, nailiyyət əldə etmək üçün səbirli və çalışqan olmaq kimi gözəl sifətlər təlqin olunur. Müəllif bunu xarakter baxımından bir-birindən fərqli iki rəfiqə – Aysu və Cansunun timsalında canlandırır. Rəqqasə olmaq arzusuyla rəfiqələrin hər ikisi rəqs dərnəyinə yazılırlar. Cansunun məhsuldarlığı, özünə qarşı tələbkarlığı, istəyini reallaşdırmaq üçün qarşıya qoyduğu məqsədə doğru irəliləməsindən

fərqli olaraq Aysu özünü heç bir yerdə tapa bilmir. Dərnəyi yarımçıq buraxıb piano dərslərinə, sonra da rəsm dərnəyinə yazılır. Lakin səbirsizliyi və dözümsüzlüyü onun bütün işlərini yarımçıq qoyur. Sonda böyük bir konsert salonunda Cansunun səhnəyə dəvət olunub rəqs etməsi bütün salondakılarla yanaşı rəfiqəsi Aysunu da təəccübləndirir. Rəfiqəsini təbrik edən Aysu heyrətini gizlətmir, buna necə nail olduğunu soruşur. Cansu səbirlə, çətinliklərə dözüm göstərməklə istəyinə nail olduğunu bildirir. Hekayədə Cansunun timsalında uşaqlara gözəl əxlaqi sifətlər tələqin olunur. Z.Xəlil üslubunun özəlliyi ondadır ki, müəllif dünyaya, gerçəkliyə baxışını uşaq düşüncəsinə, baxışına uyğun tərzdə qura bilir. 2017-ci ildə təcrübəli yazar Qəşəm İsabəylinin də "Ədəbiyyat qəzeti"ndə silsilə nağıl və hekayələri çap olunmuşdur. "Qərib uşaqla qərib itin əhvalatı", "Şəhid bulud" hekayələri seçilən nümunələrdəndir. Müəllif "Qərib uşaqla qərib itin əhvalatı" hekayəsində Naxçıvandan köçüb Türkiyədə – İstanbulda məskunlaşan bir ailənin, xüsusilə onun övladı balaca Elgünün yaşantıları, iztirabları fonunda qəriblik, yurd həsrəti məsələsini qoyur, yaşadığı məkandan asılı olmayaraq öz elinə, ulusuna bağlı olmaq fikrini ümumiləşdirir. Hekayənin başlanğıcında itin sahibsiz evin şüşəsini qırıb oradan bir tay uşaq ayaqqabısını götürüb aparması ilə uzaq diyarda kənd həsrəti çəkən, məcburiyyət qarşısında orda qalmağa məcbur olan Elgünün yuxusu arasında bir bağlılıq yaradılır. Məlum olur ki, bu ailə köçərkən Toplanı kənddə həyətlərində qoyub getmişdilər. Elgünün israrı ilə atası kəndə səfərlərinin birində iti özü ilə birgə oğlunun yanına gətirir. Bir müddətdən sonra qəribliyi dadan itin ulaması, hürməsi narahatlıq ya-

radır. Onu yaxşı anlayan Elgün iti sakitləşdirmək üçün atasına kənddə həyətlərindəki pişiyin şəklini böyütdürüb həyətdə ağacın altına qoyur. İt şəkillə xeyli oynayıb ağacın altında yuxuya gedir. Bir səhər yuxudan ayılanda Elgün itin yoxa çıxdığını görür. Uzun axtarışdan sonra yurda geri dönən itin sərhədçilər tərəfindən öldürüldüyü məlum olur. Q.İsabəylinin cazibədar üslubu, yığcam, lakonik təsvir üsulu, sadə cümlələrlə daha geniş mətləbləri ifadə etmək bacarığı olsa da, çox zaman qoyulan problemlərin dərin psixoloji tutumu uşaq təfəkkürü ilə uyğunlaşmır. Müəllif tutumlu, əhatəli, geniş bəşəri problemləri, günümüzün reallıqlarını kiçik uşaq dünyasına sığışdıra, onun yaşantıları fonunda gerçəkləşdirə bilir. Əgər diqqət etsək, onun kiçik qəhrəmanlarının əksəriyyəti həm də zamanımızın, yaşadığımız gerçəkliklərin böyük qəhrəmanlarıdır. Hekayədə evlərindən yenicə dönən atasına Elgünün ünvanladığı suala verilən cavab ictimai-sosial, psixoloji yüklüdür.Uşağın: Evimiz salamatdır?! sözünə atası belə cavab verir: – Bir gecəni güclə yatdım. Altmış evlik kənddə on, on iki həyət olardı ki, işığı yanırdı. Ən azı on beş ev xarabalığa dönüb.Gecə bülbüldən çox bayquş ulayırdı. Tülkünün, çaqqalın səsindən vahiməyə düşmüşdüm. Bir gecəni qalınca anadan əmdiyim süd burnumdan gəldi! Evimiz də qocalıb, bu gün-sabahlıqdır!"

Uşaq hekayələrində kiçik uşaqların obrazlarını yaradarkən onları mürəkkəb həyat gerçəkliklərinin fonunda heç bir çətinliklərdən qorxmayan mübariz, cəsur qəhrəmanlara çevirmək çox zaman fantaziyadan qaynaqlanan nağıl sujetlərinin identivliyini meydana çıxarır. Bu da müasir ədəbiyyatda nağılla hekayə arasında müəyyən bağ-

lılıqlar və sərhədlərin açılmasına gətirib çıxarır. S.Nuruqızının "Saqlana" hekayəsində uzaq Tayqada yaşlı baba və nənəsinin himayəsində yaşayan 4 yaşlı balaca qızcığazın şücaətindən danışılır. Hər axşam nənəsinin şirin nəğmələri ilə yuxuya dalan, gözləri görməyən babasının gözü olan Saqlana bir səhər yuxudan ayılanda daxmalarının soyuqluğunu hiss etdikdə nənəsinin naxoşladığını anlayır. Uzaq Tayqada, qarlar diyarında məskunlaşan, heç bir köməyi, yaxını olmayan ailənin düşdüyü çətinliyi anlayan balaca qızcığaz çobanlar yaşayan kəndə getməyi, nənəsi üçün həkim çağırmağı qərara alır və Saqlana tufanda, xəstə nənəsini qurtarmaq üçün – 34 dərəcə temperaturda səkkiz kilometr yolu qət edir. Qızın qəhrəmanlığı fonunda müəllif uşaqlarda öz yaxınlarına, əzizlərinə diqqət, qayğı, sevgi hisslərini aşılayır.

Bəzən bir-birilə əlaqəsi olmayan, assosiativ şəkildə həyat hadisələri, predmetləri arasında uyarlıq, müəllifin təlqin etdiyi fikri sxematiklikdən, qəliblikdən çıxarır, ona dərin məntiqi ardıcıllıqla, idrak mexanizmi ilə yanaşmağı tələb edir. E.Məmmədovanın "Qanadlı dostlar" hekayəsi bu baxımdan maraqlı nümunələr sırasındadır. Hündür dağ zirvəsində yaşayan Bala qartalın anasının nəsihətlərinə qulaq asıb ondan qanad açıb uçmağı, ov ovlamağı öyrəndikdən sonra qartal dost axtarışını balasının ixtiyarına buraxır və deyir: – Dostlarını isə özün seçəcəksən.Unutma, özün kimi qanadlı dostlar tapmalısan! Öyüdündən sonra qartal dost axtarışına çıxır. Müxtəlif qanadlı dostlar tapsa da, onların heç biri uçmağa qadir olmur. Bala qartal alma ağacı, ağ yelkənli gəmi, kitabla qarşılaşır, onda bu məfhumların hər biri haqqında dərin, məntiqli, maraqlı fikirlər yaranır.

İlk rastlaşdığı qollu-budaqlı alma ağacı olur. Lakin alma uça bilmədiyini deyir. Alma ağacının təqdimatında müəllif ağacların xeyrindən, canlı aləm üçün oksigen mənbəyi olması haqqında uşaqlara bilgi vermək istəmiş, əfsuslar olsun ki, bədii tərtibat verə bilməmişdir. Görkəmli rus tənqidçisi V.Q.Belinski yazırdı ki, "adi yazıçıya bir, uşaq yazıçısına isə iki istedad lazımdır. İkinci istedad ona obrazlı ifadələri uşaq psixologiyasına uyğun şəkildə seçmək üçün gərəkdir". Burada yalnız obrazlı ifadələr deyil, hər hansı bir informasiyanı, elmi materialı uşaq psixologiyasına və təfəkküründə uyğun bədiiləşdirərək sujetə çevirməkdən söhbət gedir. Hekayə maraqlı, tərbiyəvidir. Lakin müasir uşaq hekayələrində rastlaşdığımız ümumi qusurları da nəzərə çatdırmaq istərdim. Yuxarıda qeyd etdiyim kimi müasir uşaq hekayələrində əxlaqi-tərbiyəvi məzmundan daha çox, öyrətmək, bilgi vermək, məlumatlandırmaq istəyi aparıcıdır. Bu baxımdan Reyhan Yusifqızının "Fevral ayının sirri", "Dəcəl ilbizlər", "Hədiyyə kitab", "Düşərgədə hadisə", "Qobustan macərası", Cəlil Cavanşirin "Yeni dost", Əfsanə Laçının "Xahiş edirik kəmərləri bağlayın" və s. hekayələrin adlarını çəkə bilərik. Bu məzmunda yazılmış nümunələr yetərincədir. Lakin çox zaman yazarlar elmi materialı bədii mətnə çevirməkdə çətinlik çəkir, hər hansı bir təbiət hadisəsi, məfhumu, tarixi hadisəni uşaq təfəkkürü səviyyəsində canlandıra bilmir, məlumatı cilalanmamış, fakt kimi bəzən təsvir vasitəsilə ifadə edir, bəzən də informasiya məzmunla, fikirlə uzlaşmır. S.Əhmədlinin "Ağacı kəsmək lazımdır" hekayəsində güclü küləkdən qorxan balaca Gülnar pəncərə qarşısında ətrafı seyr edərkən ağacların yarpaqlarının bir-birinə çırpıldığını görür.

Elə başa düşür ki, küləyi yaradan ağaclardır. Onlar olmasa, külək əsməz. Üzünü nənəsinə tutub ondan soruşur ki, olmazmı ki, ağacları kəsəsiz külək əsməsin? Nənə təmkinlə ağacların əhəmiyyətindən, xeyrindən nəvəsinə söhbət açır və sonda fikrini belə tamamlayır: – "Sən gərək bunların hamısından yeyəsən ki, qışda xəstələnməyəsən. Tez böyüyəsən. Cəmiyyətdə öz layiqli yerini tutasan".

Primitivlik, cilalanmamış dil, bəzən sərlövhənin məzmunla uyğunsuzluğu, uzunçuluq, konkretliliyin olmaması, mətləb və sujeti ümumiləşdirə bilməmək müasir uşaq hekayələrində təsadüf olunan xüsusiyyətlərdəndir. Tural İsmayılovun "Fatimə ilə Şəkərin nağılı", "Kələm və çuğundur", Şəkərbura ilə çəyirtkənin nağılı" buna misal ola bilər. Bu daha çox gənc və qeyri-peşəkar müəlliflərin yaradıcılığında təsadüf edilir. Bizcə, yeni yazarlara istiqamət vermək, onlara nədən yazmağı deyil, necə yazmağı təlqin etmək zəruri məsələlərdən biridir. Bəzən dil qüsurları, təkrarlar, sujetdəki mətləbin bədii həqiqətə çevrilməməsi maraqlı quruluşa, ideya – məzmuna malik əsərin bədii dəyərini azaldır. Səmayə Bayramova adlı gənc müəllifin nağıl adlandırdığı "Güzgü" adlı əsəri maraqlıdır. Müəllif çox illər əvvəl balaca şəhərdə üç nəfərdən ibarət bir ailənin yeganə övladı 6 yaşlı Yusifin tez-tez müxtəlif cildlərə girməsi, özünü heyvanlara bənzətməsi, bir sözlə xəyallar aləmində yaşamasını təsvirə gətirir. Bir gün Yusifin güzgü olmaq xəyalı gerçəkləşir və o, heç bir hərəkər edə bilmir, güzgüyə çevrilir. Uşaq həmin müddətdə maraqlı müşahidələr aparır. Oğlanlarının yox olmasından əzab çəkən ata və ananın iztirablarına şərik olan yaxınların onların evlərinə gəlmələri, cilddən-cildə düşən bu insanların gündən-gü-

nə dəyişən simalarını Yusif müşahidə edir, günlər keçdikcə aldığı əyləncə əzaba çevrilir. "On gün belə keçdi. Anasını hər gün belə üzüntülü və ağlayan görəndə Yusif etdiyi hərəkətdən peşman olurdu. Qohumlar hər gün Yusifgilə gəlir, ailənin dərdinə şərik olurdular. Evə gələn bütün qonaqlar, güzgüdə güzgülənirdilər. Yusif üçün əslində bu, çox əyləncəli idi. Məsələn, biri saçını düzəldirdi, biri paltarını, digəri üz-gözünü səliqəyə salırdı. Yusif hər dəfə qohumların geyimlərinə, xarici görünüşlərini necə düzəltməyə çalışdıqlarına baxıb gülürdü. Lakin qonaqlar gedəndən sonra, ata-anasının kədərləndiyini görüb üzülürdü.

Güzgü olduğu növbəti günlərdə Yusif başqa şeylər də görməyə başlamışdı. Evlərinə gələnlər seyrəkləşməyə, laqeydləşməyə başlamışdı. İndi hamı gəlib bir-iki ağız təsəlli edib başlayırdı öz problemindən danışmağa. Yusifdə də dəyişiklik vardı. O, daha insanların xarici görünüşünə yox, üzlərindəki ifadəyə baxırdı. İnsanlar qəribə idilər. Məsələn, Yusif uzaqdan görürdü ki, evə gələnlər, onun ata-anası ilə fərqli, təklikdə fərqli, güzgünün qarşısında isə fərqli olurlar..."[1] Bir müddətdən sonra Yusif özünə qayıdıb başına gələnləri nəql etsə də, heç kimi inandıra bilmir... Əfsuslar olsun ki, gözəl ideya-məzmuna malik əsər sönük sonluqla tamamlanır. "Ana dinlədi, lakin inanmadı. Atasına, qohumlara zəng edib oğlunun qayıtdığını dedi. Ata, qohumlar, polislər evə gəldi. Yusif hamıya olanları danışdı. Lakin heç kim ona inanmadı.

[1] Güzgü uşaq. http://kulis/lent/az/news/2108

Hamılıqla belə qərara gəldilər ki, Yusif evdə gizlənib, daha sonra gizləndiyi yerdən çıxıb....”[1]

Son dövrlər fantastik janra artan maraq bu ilin nəsr nümunələrində də rast gəlinir. Hətta janrın imkanları daha da genişlənmiş, fantastik janrın əsas qollarından olan intelektual nəsr nümunələriartmışdır. Uşaq ədəbiyyatının əsas funksiyası əsərlərdə təlqin olunan fikirlərlə uşağı məlumatlandırmaq, ətraf aləmlə əlaqələrinin aydın qurulmasına yardım göstərmək, estetik zövqü, dünyagörüşü formalaşdırmaqdır. Uşaq həyatı dərk etməli, əksliklәri bir-birindən ayırmağı bacarmalıdır. Bədii funksiya baxımından uşaq ədəbiyyatı həm zövq, düzgün mənəvi-əxlaqi keyfiyyətlər təlqin edir, həm də informasiya bolluğunda yaşayan gənc nəslin bilgilərini dəqiqləşdirir, məlumatlandırır. Fantastikanın iki qolu – bədii və elmi fantastika müasir uşaq nəsrində geniş yayılmışdır. Əsasən, keşmişlə əlaqəli olan bədii fantastikadan fərqli olaraq elmi fantastika gələcəyə, elmi nailiyyətlərə bağlanır, birinin tərbiyələndirici, digərinin isə öyrədici funksiyası aparıcı olur. Müasir dövrümüzdə uşaqların geniş maraq dairəsini kəsb edən bu janra diqqət artmaqdadır. R.Yusifqızının “Dostum Mimi”, S.Elsevərin “Nuhun gəmisində kosmosa səyahət”, Kamran Əlioğlu və Fərid Qorxmazoğlunun “İliş və ya hörülmüş hekayə”əsərləri bu cəhətdən ilin ən uğurlu və seçilən nümunələr sırasındadır. Müasir təhsil sisteminin xarakterinə uyğun olaraq uşaqları elmə, təhsilə yönəltmək, müxtəlif elm sahələrində bilik və bacarıqlarını formalaşdırmaq, elmi kəşflər və ixtiralar, gələcəklə bugün arasında əlaqə və bağlılıqların qu-

[1] Güzgü uşaq. http://kulis/lent/az/news/2108

rulmasında, uşaqları məlumatlandırmaq, düşündürmək, tərbiyələndirmək istiqamətində elmi-fantastik janrın imkanları olduqca genişdir. Təcrübə göstərir ki, yüksək texnologiyalar əsrində böyüyən uşaqlarımız üçün milli ədəbiyyatımızda müasir yazarlar tərəfindən elmi-kütləvi və elmi fantastik əsərlərin yazılması vacibdir. Müasir uşaq ədəbiyyatında bu sahədə əsərləri məktəblilər tərəfindən sevilə-sevilə oxunan, intellektual nəsrin ən gözəl nümunələrinin yaradıcısı olan müəlliflərdən biri də Reyhan Yusifqızıdır.Yaradıcılığında əsasən elmi-fantastik, intellektual nəsrə daha çox üstünlük verən Reyhan xanımın hekayə və povestlərində kainat, təbiət, yer kürəsi, coğrafiya, astronomiya, riyaziyyat və s. elm sahələrinə aid maraqlı bilgilər verilir, uşaqlarda elmi biliklərə yiyələnmək, müasir elmin nailiyyətləri ilə məlumatlanmaq vərdişləri aşılanır. Uşaq ədəbiyyatında intellektual nəsr sahəsində az sayda yazan yazıçılarımızdan olan Reyhan xanımın "Dostum Mimi" əsəri kiçik yaşlı uşaqların intellektual səviyyələrinin yüksəlməsində, elmi biliklərinin genişlənməsində yüksək əhəmiyyət kəsb edəcək əsərlərdəndir. Süni intellekt sahəsində mütəxəssis olduğundan yazıçının bu mövzunu ədəbiyyata gətirməsi təsadüfi deyil. Əsər süni-intellekt nəzəriyyəsinin banisi Lütfizadəyə həsr olunub. "Dostum Mimi" əsəri qoca professorun düzəltdiyi robot-siçanın balaca Aylinlə dostluğundan bəhs edir. Yaddaşını itirmiş professor siçanını unutduğundan o özbaşına qalıb küçəyə çıxaraq özünə dost tapır. Aylinlə Miminin dostluğu və onların başına gələn əhvalatlar kiçik yaşlı uşaqlar üçün maraqlı və öyrədicidir. Təsvirlər sadə, cəlbedicidir, hadisələrin ardıcıllığı yorucu deyil. Əsər axıra qədər maraqla oxunur, dili kifayət

qədər sadədir. Miminın qıza dərslərində yaxından köməklik etməsindən sonra Aylin anlayır ki, balaca siçanın bu qabiliyyəti qoca professorun kəşfi sayəsindədir. Onlar arasında qurulan dialoqlar, maraqlı söhbətlər vasitəsilə müəllif professorun icadından, elmi kəşfindən, suni-intellekt nəzəriyyəsindən uşaq təfəkkürünə uyğun maraqlı bilgilər verir. Aylinin: – "Axı professor riyaziyyatı sənə necə öyrədib? – sorğusuna Mimi geniş izahat verir. "Demək, bizim professor insan beyninin qurluşunu öyrənirdi. İnsan beyni isə çoxlu sayda neyronlardan ibarətdir.

- Neyron nədir?
- Orqanizmin kiçişik elementi. Xüsusi qurluşu olan hüceyrələrdir.
- Demək, mənim də beynim kiçik elementlərdən – neyronlardan qurulub?
- Bəli. Bu neyronlar bir-biri ilə əlaqələnir.Bəziləri arasında bağlılıq var, bəzilərində yox"[1].

Süjet boyu Aylinin Mimiylə dostluğu, danışıqları, yaşadıqları macəralar, həyəcanlı məqamlar bir tərəfdən kiçik oxucunu cəlb edir, digər tərəfdən robot-siçanın timsalında müasir elmin nailiyyətlərini, yeni texnologiyalardakı yenilikləri əsaslandırır. Əsərin sonunda professor icad etdiyi robot-siçanla birgə Amerikaya, "süni-intellekt cəmiyyəti" ilə birgə çalışmağa gedir. Müəllif bu hadisədən 20 il sonra yüskək texnologiyaların insan həyatındakı dəyişiklikləri canlandırır, uşaqlara intellekt, suni intellekt, kompüter texnologiyaları, neyron, laboratoriya, avtomat qurğular, robot, knoubot, AİV və s. haqqında uşaq təfəkkürünə uyğun

[1] Reyhan Yusifqızı. Dostum Mimi. Bakı, 2017, səh.17.

heç bir süniliyə yol vermədən ətraflı məlumat verir. Hadisələrinuşaq fantaziyasına uyğun maraqlı gedişi və məntiqi nəticəsi inandırıcıdır.

Sevinc Elsevərin "Nuhun gəmisində kosmosa səyahət" əsəri də fantastik janrda yazılmış maraqlı nəsr nümunələrindəndir. Müəllif canlı aləmi təhlükədə qoyan ekoloji böhran, bütün yer üzünü bürümüş bu böhranın doğurduğu fəlakətləri əks etdirir. Təbiətdə nizamın pozulması, süni vasitələrin, heyvan, bitki, qidaların insan həyatına nüfuzu böyük bir təhlükədən xəbər verir. Dünya alimləri bir araya gəlib bu böhrandan çıxış yolu axtarırlar və məlum olur ki, Qalaktikada yer kürəsinə bənzər bir planet var. Azərbaycan alimi Türkəl Azərovun Sülh planetinə iki uşağın göndərilməsi təklifi bir mənalı qarşılanmasa da, onun təklifi reallaşır. İki məktəbli – Gündüz və Ulduz "Nuhun gəmisi" adlı kosmik gəmidə Sülh planetinə yola salınır. Məqsəd yer kürəsinin təbii nizamını geri qaytarmaq üçün onların məlum planetdən dişi və erkək olmaqla hər heyvan növündən bir cütünü planetimizə gətirmələridir. Müəllif seçilmiş uşaqların timsalında gənc nəslin müxtəlif sosial-psixoloji yaşantıları, ruhi sarsıntılarını da əks etdirir. Nuhun gəmisində Kosmosa göndərilən Gündüz və Ulduz səyahət zamanı həyəcanlı məqamlarla rastlaşırlar, müəllif yeri gəldikcə günəş sistemi, kosmos, qalaktika, ulduzlar, onların yaranma və əmələ gəlmə səbəbləri haqqında maraqlı bilgilər verir. Kosmik gəminin səhvən başqa planetə enməsi, uşaqların Qızılgül adlanan bu planetdə rastlaşdıqları, şahidi olduqları hadisələr onları heyrətə salır. Fantastik məzmunda cərəyan edən hadisələri müəllif o qədər təbii, canlı şəkildə əks etdirir ki, oxucu bu hadisələrin bilavasitə şahi-

dinə çevrilir. Qeyri-adi planetə düşən uşaqlar oradakı insanların yaşayışı, həyat tərzi, davranışları, insan münasibətləri, təbiətləri haqqında məlumatlanır, şagird həyatı ilə yaxından tanış olurlar. Müəllif yeri gəldikcə uşaqların elmi biliklərini genişləndirmək məqsədilə onlara maraqlı məlumatlar verir. Qızılgül planetində uşaqların gördükləri, eşitdikləri onları nağıllar aləminə – Xoşbəxtlər ölkəsinə çəkib aparır. Qızılgül planetindən sonra uşaqların meşədən başqa heç bir şeyi gözə dəyməyən planeti "Meşə planeti" adlandırdıqları məkanda həyəcanlı anlar yaşayırlar, müəllif kiçik oxucusunu bu aləmə apara, həyəcanlandıra bilir. Əsər "Sehirli xalat" filmində Rəşid və Zərifənin gələcəyə səyahəti epizodunu xatırlatsa da, maraqlı məqamlarla yadda qalır. Nəhayət, uşaqlar Sülh planetinə enə və onlara verilən tapşırığın öhdəsindən gələrək yer planetinə dönə bilirlər. Əsərdə müəllif ekoloji böhran, onu doğuran səbəblər, insan-təbiət qarşıdurmasının doğurduğu fəlakətləri, ayrı-ayrı planetlərdəki yaşam tərzini canlı şəkildə təsvirə gətirmişdir.

Son dövrlər uşaq yazarlarının elmi fantastik janra üstünlük vermələri (bu da müasir təhsil sisteminin tələblərindən irəli gəlir) bədii fantastik janrın imkanlarını məhdudlaşdırmışdır. Kamran Əlioğlu və Fərid Qorxmazoğlunun "İliş və ya hörülmüş hekayə" əsəri 2016-cı ildə çap olunmasına baxmayaraq, 2017-ci ildə Beynəlxalq mükafata layiq görülmüş bədii fantastik nəsrin ən gözəl nümunələrindən biri kimi dəyərləndirilə bilər. Əsər xarakteri və məşğuliyyəti baxımından qeyri-adiliyi ilə seçilən İliş adlı balaca oğlanın macəralarından bəhs edir. Onun əsas məşğuluyyəti oynayan, danışan, gülən yaşıdlarından fərqli olaraq

bütün günü samanlığa, özünün seçdiyi sakit guşəyə çəkilib hörmə işi ilə məşğul olmasıdır. Lakin İlişin əl işi özündən başqa heç kimi maraqlandırmır, yalnız özü gördüyü işdən həzz alır. Atasının İlişi sevdiyi işdən ayırıb bacı-qardaşı ilə birgə balıq ovuna aparması onun həyatını dəyişir. Artıq İlişin hər kəsə mənasız görünənsevimli məşğuliyyəti diqqəti cəlb edir. İlişin balıq ovunda yenə də öz sevimli işi ilə məşğul olması, onun hördüyü səbət və yolda qalan yolçuya hördüyü at yəhəri həyatını dəyişir. Uşaq yad ellərə, məmləkətlərə düşür. Müxtəlif fantastik hadisələrlə, əsatiri qüvvələrlə rastlaşır. Lakin bütün sınaqlardan İlişi sevimli məşğuliyyəti qurtarır. Hər kəsə mənasız görünən hörmə işinə aludəçilik böyük bir eli, onun qəhrəmanlarının da həyatını qurtarır. Əsərdə bir-birini əvəzləyən məkanlar, cərəyan edən hadisələr maraqla izlənilir, kiçik oxucunun diqqəti bu hadisələrin işığında İlişin sevdiyi işin axarından ayrılmır, daim onu izləyir. Maraqlı quruluşa malik olan bu əsərdə bəzən yorucu səhnələrə, bir-birilə əlaqəsi olmayan əsaslandırılmamış məqamlara da rast gəlmək mümkündür. Digər tərəfdən əsərdə emosiya gücü, həyəcan, oxucu ilə bədii mətn arasında qurulan bağlantı zəifdir. Uşaq nəsrində maraqlı məsələlərdən biri yazarlarımızın dar, məhdud mövzu anlayışlarından sivrilib, daha geniş ictimai-sosial məsələlərə, cəmiyyət, təbiət haqqında düşüncələrə, hadisə və təfərrüatlara yer vermələdir. Gənc yazar Amin Sükutun "Tuflinlər" əsəri bu baxımdan ilin seçilən ən maraqlı nəsr nümunələri sırasındadır. Mövzu yeniliyi və əlvanlığı, sosial həyatın geniş, epik təsviri, alleqorik şəkildə təbətdən qlobal məsələlərə, bəşəri problemlərə nüfuz etmək povestin əsas məziyyətlərindəndir. Əsərin ən maraqlı xüsusiy-

yətlərindən biri əslində dili, üslubu, strukturu, quruluşu baxımından uşaqlar üçün nəzərdə tutulsa da, yaşam tərzi, təbiətdəki nizam, qayda-qanunlarla cəmiyyət normaları arasında ümumi bağlılıqların qurulması, professional şəkildə əsaslandırılması baxımından böyüklərin də marağına səbəb olacaq nümunələrdəndir. Müəllif Larpin diyarında yaşayan kiçik böcəklərin – tuflinlərin bolcların qəfil hücumuna məruz qalmaları və onlardan yalnız birinin güc-bəla ilə canını qurtarması və yaxınlarını itirən Susala adlı tuflinin borclara qarşı apardığı mübarizədən bəhs olunur. Susal Noronun başçılığı altında yaşayan tuflinlərin arasına düşdükdən sonra tez bir zamanda onlarla dostlaşır, qaynayıb qarışır. Tuflinlərin başçısı Nora bolclardan qorunmaq üçün çıxış yolunu yeri daha dərin qazmağı, dərinliyə enməyi təhlükədən qorunmaq üçün yeganə çıxış yolu hesab edir. Lakin Susal və Oşan adlı tuflinlər seçilən bu cür yolu çıxış yolu hesab etmirlər, bolclara qarşı mübarizəni yerin dərinliklərinə enməkdə deyil, onlarla mübarizə aparmaqda görür. Bolclara – düşmənlərinə qarşı yeganə çıxış yolunu mübarizə aparmaqda görən Susal və Oşan onların axtarışına çıxırlar, yerin üstündə hər birinin özəlliyi, fərqli yaşam tərzi olan əqrəb, ilan, koalo, kenquru, arı, eşşək, ağacdələn, qarışqa, qunduz, tülkü, qarğa, sərçə, tutuquşu və s. heyvanlarla rastlaşırlar. Povestdə mübarizə aparmaq, qarşısına məqsəd qoyub ona doğru irəliləmək, risk etmək, həqiqəti görmək, həyatı dərk etmək və s. kimi məsələlər öyüd-nəsihət şəklində deyil, Susal və Oşanın mübarizəsi, tuflinlərin rastlaşdıqları heyvanlar və onların təcrübələri əsasında əyaniləşir. Əsərdə heyvanlar, onların görünüşü, qidalanması, yaşayışı haqqında yeri gəldikcə müəllif ma-

raqlı bilgilər verir, onların təbiət qüvvələri, anlayışları haqqında bilgilərini genişləndirir. Özünə güvənc hissi, risk etmək, yaxşı düşünmək və s. kimi fikirlər tələqin edilir. Müəllif tuflinləri qarşılaşdırdığı, ünsiyyət yaratdıqları hər bir heyvanla münasibətdə, sorğu-sualda maraqlı mətləblərə toxunur. Kenquru ilə rastlaşan tuflinlər bolcları axtardıqlarını və onları məhv etmək niyyətlərini açıqlayanda Kenquru deyir: "– Əgər savaşmaqdan başqa yolunuz yoxdursa, savaşmalısınız. Əgər haqlısınızsa, döyüşməlisiniz. Əgər məğlubsunuzsa, daha möhkəm birləşməlisiniz. Əgər zəifsinizsə, daha çox çalışmalısınız".[1] Tuflinlər Kenqurunun savaşmaq üçün sürüyə qoşulmalıyıq sözlərinə təəccüb etsələr də, müəllif bundan maraqlı priyom kimi istifadə edərək bir çox mətləblərə işıq salır. "– Biz bir-birimizlə düşmənə qarşı güclənmək üçün savaşırıq, bir-birimizi məğlub etmək üçün yox. Əgər bir-birimizlə savaşmasaq, düşmən bizdən güclü olar və bizə qalib gələr. Döyüşdən yorulandan sonra söz savaşına, mübahisəyə keçirik. Eynilə döyüşdəki kimi, onda da bir-birimizi məğlub etməyə yox, öyrənməyə çalışırıq. Yalnız düşmənə qalib gəlmək üçün savaşmaq və mübahisə etmək olar".[2] Əsərin ən maraqlı cəhətlərindən biri əsrdəki mətləb və ideyanın müəllifin məqsədi ilə müvaziliyidir. Müəllif yeri gəldikcə qlobal məsələlərə toxunur, sosial bərabərsizlik, hərislik, mübarizə aparmaq əzminin olmaması, bir çox iri dövlətlərin qurbanına çevrilən, əzilən, məhv olmaq təhlükəsini yaşayan xalqların taleyi məsələsini qoyur, təbiət qanunları ilə cəmiyyət qa-

[1] Amin Sükut. Tuflinlər. Bakı, 2017, səh.74.
[2] Yenə orada, səh.75.

nunları arasında əlaqə qurur. Əsər tuflinlərin birləşərək bolcları məhv etmələri ilə bitir. Burada maraqlı bir detal da diqqəti cəlb edir. Əsərin müsbət tərəfləri çoxdur. Lakin bir neçə çatışmayan məsələləri də nəzərə çatdırmaq istərdim. Müəllif uşaqların təbiət və heyvanlar haqqında təsəvvürlərini, bilgilərini genişləndirmək məqsədilə maraqlı məlumatlar verir. Lakin çox zaman uşaq təfəkkürünə uyğun olmayan, olduqca çətin, dolaşıq şəkildə verilən elmi izahlar uşaq təfəkkürünə uyğun deyil. Müəllif mübariz olmaq, məqsədə doğru əzmkarlıq , cəsarətli addım atmaq, qorxmamaq və s. təlqin edərkən cox zaman ifrata varır, halbuki, uşaqlar üçün yazan müəlliflər bəzi məqamlarda ehtiyatlı davranmalı, ciddi məsələlərdə hökmlə çıxış etməməlidir.

2017-ci il *uşaq dramaturgiyasının* inkişafı istiqamətində də müəyyən irəliləyişlər olduğunu desək yanılmarıq. Əfsuslar olsun ki, bu irəliləyiş demək olar ki, illərlə boş qalmış sahəyə bir neçə pyesin əlavə olunması, nəşr olunan kitablarda uşaq pyesləri adına nümunələrin artması ilə yadda qalır. Əvvəlki illərlə müqayisədə uşaqlar üçün dram əsərləri, teatr tamaşaları yazılılır və səhnələşdirilir. Son illərdə bu sahəyə maraq artmış, köhnə və yeni imzalar görünməyə başlamışdır. Lakin bu imzalar və yazılan dram əsərləri içərisində səhnə və uşaqların marağını cəlb edəcək pyeslər necə? Təbii ki, suala cavab vermək o qədər də asan deyil. Düzdür, dram əsərləri yazılır, yeni qüvvələr bu sahədə qələmlərini sınayır, lakin uşaq tamaşalarında, teatr repertuarlarında vəziyyət dəyişmir. Kiçik tamaşaçı ənənəvi Azərbaycan və rus nağıllarının təkrar sujetləri əsasında səhnələşdirilmiş, bəzən isə yeni quruluşda və tərtibatda de-

konstruksiya olunmuş mətnlərin izləyicisi olaraq qalır. 2017-ci ildə Pərvinin "Səhnə" kitabında uşaqlar üçün "Balaca və damda yaşayan Karlson", "Dəcəl keçi", "Qoğalın sərgüzəştləri", "Mauqlinin yeni ili" olmaqla dörd uşaq pyesi, S.Elsəvərin "Donu qırmızı" kitabında isə "Lokomativ və vaqonları" adlı bir uşaq tamaşası yer almışdır. Əfsuslar olsun ki, yazılan pyeslərin əksəriyyəti iqtibas, povestlərdən tərcümə, ya da Azərbaycan və rus nağıllarının dekonstruksiyasıdır. Uşaqla ünsiyyət, onunla qurulan müsahibə, müxtəlif vasitələrlə yaradılan əlaqə müəllifdən hədsiz diqqət, tələbkarlıq tələb edir. Ədəbiyyatın digər sahələrindən fərqli olaraq uşaq ədəbiyyatı öz məğzində yalnız tərbiyyələndirmək, maarifləndirmək, anlatmaq, öyrətmək və yaxud öyrənməyə istiqamətləndirmək missiyası daşıyır. Bu zaman uşaqla yaradılan bağlantı öz təsirini göstərmiş olur. Müəllif pisliyi, naqisliyi elə tərzdə təqdim etməlidir ki, uşaq nəticə çıxarsın, yanlışlığı görsün və ondan ehtiyatlana bilsin. Pərvinin "Səhnə" kitabında yer alan "Qoğalın sərgüzəştləri" pyesi məşhur rus xalq nağılının motivləri əsasında qələmə alınmışdır. Pyesdə qoğalın baba və nənədən qaçması ilk növbədə əyləncəli deyil, düşündürücüdür. Qoğalın tez böyümək, ağıllanmaq sevdası onu canavar, ayı ilə qarşıraşdırır, uşaq onların "ağıllı" yaşam düsturu ilə tanış olur. Qoğal ayı ilə qarşılaşır, bal çəlləklərinə, kürkünə baxıb onun çox imkanlı olduğunu düşünür və onun ağlından istifadə edərək ağıllanmaq istəyir. Ağıllı olmağın yollarını axtaran qoğala ayı deyir: "Ayı: Nə? (gülür) Ağıl? Ehh, səfeh. İndiki zamanda ağıl kimə lazımdı?

Əsas gücdü, güc. Güclü olmaq lazımdı...Yaxşı yerdə yaşamaq lazımdı bir də....."[1] Təbii ki, müəllif hər bir mövzuya yanaşmada müasir dövrün, cəmiyyətin tələblərini nəzərə almalıdır. Lakin çox zaman cəmiyyətin çatışmayan, nöqsanlı tərəflərinin qabardılması uşaq təfəkkürünə mənfi təsir göstərir. Ağıllı olmağın gərəksizliyini, əsas güclü və yaxşı yerdə yaşamağın zəruriliyini müsahibinə çatdırarkən qoğal cavabsız qalır. Ayı körpünün üstündə yaşadığını və onun icazəsi olmadan heç kəsin bu körpüdən keçmək hüququnun olmadığını deyir. Bunu anlamayan qoğalın təəccübünü gördükdə Ayı deyir: "Ayı: Ay səni.... (söymək istəyir guya, özünü saxlayır). Demək istəyirəm körpü mənə baxır. İstəsəm buraxaram, istəsəm yox. Bir balaca hörmət eləsələr, rahat olur....

Qoğal: (yenə gözlərini döyür) – Hmmm...Mənim də sizə böyük hörmətim var.

Ayı: Ver, gəlsin...

Qoğal: (çaşır) Nəyi?

Ayı: Eeehh axmaq....Hörmət. Yəni ki, rüşvət. Bir çəllək bal".[2]

Müəllifin folklor motivləri əsasında yazılan "Dəcəl keçi" pyesi isə əyləncəlidir. Pyesdə bir dəcəl, yalançı keçinin sərgüzəştlərindən danışılır. Dəcəl keçi ərköyünlüyü , dəcəlliyi, yalançılığı ilə babanı, nənəni və nəvəni incidir. Onun yalançılığı ucbatından günahsız yerə nənə və nəvə baba tərəfindən cəzalandırılır. Pyes uşaqlara "yalan ayaq

[1] Pərvin. Səhnə. Bakı, "Mütərcim", 2017, səh.266.
[2] Yenə orada.

tutar yeriməz" mısalının təlqin edir. Ona qarşı xoş münasibətdən istifadə edən keçi axırda öz cəzasını alır, qovulur.

Təqdirəlayiq haldır ki, bəzi uşaq teatrları bir müddətdir ki, uşaq sindiromundan çıxmağa çalışır, öz repertuarlarında yalnız kiçiklərin zövqünü oxşayan, onları əyləndirən tamaşalarla deyil, gənc nəslin, yeniyetmələrin həyat tərzini, ictimai-sosial məsələlərin fonunda gənclərin psixoloji yaşantılarını, qayğı və ehtiyaclarını, problemlərini işıqlandırmağa çalışır, maarifləndirici mövqedən çıxış edirlər. Bakı Uşaq Teatrının fəaliyyəti bu cəhətdən təqdirəlayiqdir. Teatr keçən mövsümdə "Qeyri-adi məhkəmə", "Xaşxaşın göz yaşı və ya həyatla oyun", "Günahsız günahkarlar" tamaşaları ilə müxtəlif əyalətlərdə də çıxış etmişdir ki, mövzusu müasir cəmiyyətin problemlərini, cəmiyyətdəki mənəvi-əxlaqi aşınmaların qurbanı olan gəncliyin taleyini, yaşadıqları ruhi-psixoloji sarsıntıları əks etdirən bu tamaşaların tərbiyəvi əhəmiyyəti, təsir qüvvəsi olduqca böyükdür.

2017-ci ildə Naxçıvan Dövlət Uşaq Teatrında əməkdar artist Tofiq Seyidovun ssenarisi əsasında "Bizə, dovşanla meşəbəyi lazımdır" iki şəkilli alleqorik tamaşa kiçik uşaqların ixiyarına verilmişdir. Balaca tamaşaçı alleqorik şəkildə canlandırılmış Bəbir, Ay, Canavar, Tülkü, Çaqqal, Zürafə, Dələ, Meymun və s. heyvanlarla tanış olur, onların obrazları uşaqların gözündə aydın canlandırılır. Pyesdə təbiətdə heyvanların hökmranlığı, mənəm- mənəmlik davası, onlar arasında hakimiyyət bölgüsü və s. cəmiyyətdə insan münasibətləri, cəmiyyət əlaqələrindəki ziddiyyəti, ayrıseçkiliyi ifadə edir. Pyesdə yumor hissi ilə yanaşı, kinayə

də vardır. Lakin pyesin konflikti zəif, sönük, müəllifin məqsədi isə aydın ifadə olunmamışdır.

Beləliklə, uşaq nəsri və dramaturgiyası ilə bağlı il boyu apardığımız müşahidələri ümumiləşdirərək deyə bilərik ki, müəyyən qüsurlarına baxmayaraq, uşaq ədəbiyyatı inkişaf etməkdədir. Uşaqların zövqünü oxşayan, onların maariflənməsi və formalaşmasında bu sahənin imkanları yetərincə genişdir. Əvvəlki illərlə müqayisədə uşaq ədəbiyyatına artan maraq, yeni imzaların görünməsi, janr təkamülü, uzun müddətdir kiçik yaş sindromundan qurtula bilməyən ədəbiyyatın yeniyetmələrin və gənclərin mənəvi aclığını ödəyən əsərlərlə gündəmdə olmaları ilin bu sahədə uğurları sırasındadır. Ötən ilin uşaq ədəbiyyatı nümunələri içərisində bir neçə əsərin seçilib fərqləndirilməsi, beynəlxalq mükafata layiq görülməsi bu ədəbiyyatın perspektivləri haqqında nikbin danışmağa əsas verir.

Aygün BAĞIRLI
Filologiya üzrə fəlsəfə doktoru, dosent

POEZİYADAN GÖRÜNƏN UŞAQ DÜNYASI

Dünyanın harasında yaşamasından asılı olmayaraq hansı dinə və irqə mənsubluqlarına baxmayaraq, bir-birilə-ri ilə sevginin, paklığın dilində danışan və çox gözəl də anlaşan, duyğuları, düşüncələri tərtəmiz balacalar üçün hər il olduğu kimi 2017-ci ildə də xeyli şeirlər, nağıllar yazıl-dı, dərgilər, kitablar, toplular çap olundu. Bir sözlə, uşaq-ların sağlıq və səhhətinin qayğısına qalan böyüklər onların mənəvi dünyasını da bəzəməyə çalışdılar. Onların mütaliə-sinin keyfiyyətli təşkili üçün, estetik zövqlərinin formalaş-ması üçün maraqlı layihələr düşündülər. Belə layihələrdən biri də Firudin bəy Köçərli adına Uşaq kitabxanasında ke-çirilən təqdirəlayiq "Bərpa nəşrlər"dir. Belə ki, istər klassiklərin, istərsə də sovet dövrü şair və yazıçılarının uşaq kitabları yenidən işlənməklə latın qrafikası ilə çap olunur. 2017-ci ildə Nigar Rəfibəylinin "Bir cüt xurma ağacı"(ADN, 1965), İlyas Tapdığın "Bir evim var"(Gənc-lik, 1971), Mikayıl Müşfiqin "Əhməd, Güllü, Sara, Bəbir" (Gənclik, 1992), Xanımana Əlibəylinin "Ağ çəmən" (ADN, 1963) və bir çox başqa kitablar müasir tərtibatda, müəyyən redaktə ilə yenidən azyaşlıların ixtiyarına veril-mişdir. Bu həm həmin müəlliflərin yaradıcılığına ehtiram və qədrşünas münasibət baxımından, həm də həmin irslə yeni nəslin ünsiyyətini yaratmaq, təmin etmək baxımından bəyənilən addımdır ki, bunun davamlı olmasını azrulayı-rıq.

***

Bu ilki dərgilərdə həm yeni imzalarla yanaşı, Zahid Xəlil, Ələmdar Quluzadə, Rafiq Yusifoğlu, Sevinc Nuruqızı, Qəşəm Nəcəfzadə, İbrahim Yusifoğlu, Mina Rəşid kimi tanış imzalar da göründü.

Sevinc Nuruqızının ötən il əlifbanı öyrənirəm seriyasından 6 kitabı – "A", "B", "C", "Ç", "D", "E" hərflərinə dair kitabları çap olundu. Burada müəllifin yazıb oxumağı yeni öyrənən uşaqlar üçün hər hərfə aid onların təfəkküründü, düşünmək və nitq qabiliyyətini unkişaf etdirən tapmacalar, yanıltmaclar, kiçik şeir nümunələri təqdim olunur. Uşaqlar üçün demək olar hər janrda: hekayə, nağıl, pyes, poema, operetta və libretto mətnləri yazan müəllif onlar üçün şeir nümunələri də çap etdirmişdir. Nəzmlə yazılmış "Qış nağılı" isə maraqlı süjet xəttinə malik olub, həm də ibrətamiz səciyyə daşıyır.

Rafiq Yusifoğlu 2017-ci ildə balacalar üçün iki şeir kitabı nəşr etdirmişdir. "Yağış, çiçəklər və mən" kitabına iki dildə – Azərbaycan və ingilis dilində şeirlərini toplamışdır. İkinci, "Bulud fayton" adlanan kitabda isə şairin müxtəlif illərdə yazdığı şeirləri verilmişdir. Kitab vətən, yurd-yuva, valideyn sevgisini, müxtəlif təbiət lövhələrini əks etdirən şeirlərdən ibarətdir. "Xoşbəxtdi, bəxtəvərdi, dünya deyil özündə, o ayrı bir aləmdi uşaqların gözündə" adlı bölmədə isə daha maraqlı şeirlər təqdim olunur.

Rafiq Yusifoğlunun şeirlərində balaca qəhrəmanların hazırcavablığından, çoxbilənliyindən, bəzən isə bilməməz-

liyindən doğan yumorlu məqamlar var ki, bu mətnlərə bir qədər də rəng qatmış olur:

İlk dəfə dərsə getsəm də,
Bacarıram oxumağı,
Bu "A", bu "B", bu da "V" di,
Burda çətin nə var axı?
Bu nə hərfidir? – oğlandan,
Gah da ki, qızdan soruşur.
Bizim müəllim heç nə bilmir,
Hər şeyi bizdən soruşur.

Yaxud ata ilə mübahisə edən uşaq – bir göz yaxşı görür, ya iki? – deyə soruşur. Atası – təbii ki, iki göz yaxşı görür – deyir. Atayla razılaşmayan balaca –

Ovçu nişan alanda bəs
Niyə yumur bir gözünü? –

deyə onu çətin sual qarşısında qoyur. Rafiq müəllimin şeirlərində böyüklər tez-tez belə situasiyaya düşür. Uşaqların sualları qarşısında bəzən aciz qalır, bəzən isə gülməli duruma düşürlər.

Kiçik poetik qəhrəman atasından ağacların yarpağının niyə saraldığını soruşur. Ata cavabında: Payız olduğuna görə, – deyə cavab verir və maraqlı sualla üz-üzə qalır.

– Ata, niyə saralıb,
Ağacların yarpağı?
– Nə var bunu bilməyə
Oğlum, payızdı axı?

Geyib sarı donunu,
Yenə düzlər, yamaclar.
– Payızın gəldiyini,
Hardan bilir ağaclar?

Müəllifin şeirlərində təbiət maraqlı ifadə və ibarələrlə vəsf olunur. Günəş "tanrı yandıran ocaq", "sarı çiçək", "Dənizdən çıxır, ancaq üstündən su süzülmür", "Günəş ana işıqdı, planetlər pərvanə" kimi təsvir olunur. Fəsillər isə şairin şeirlərində:

Yazın gözü dumanlıdı,
Yayın gözündən od çıxır
Payızın gözü nəmlidir,
Qışın gözləri ağarıb, –

kimi fərlqi biçimdə təsvir olunur.

Rafiq Yusifoğlu okeanın o tayında yaşayan nəvələri ilə hər axşam görüntülü danışır. Bu danışıqlardan bəhs edən şeirlər həm maraqlı baba-nəvə dialoqlarını əks etdirdiyinə görə, həm də vətəndən kənarda yaşayan uşaqların doğma yurdun ab-havasından uzaqlaşmaması üçün bu ünsiyyətin vacibliyini göstərmək baxımından diqqəti çəkir. Uşaqlar ingiliscə danışsalar da, azərbyacanca gülürlər, – deyən baba nəvələrinin uzaq ellərdə yaşasalar da milli dəyərlərə, əxlaqi-mənəvi keyfiyyətlərə sadiq qaldıqlarını göstərmək istəmişdir.

Qəşəm Nəcəfzadənin "Üç alma" nəşriyyatında nəfis tərtibatda çapdan çıxan "Çiçəkli xalça" şeirlər kitabına müəllifin kiçik yaşlılar üçün yazdığı bədii nümunələri toplanmışdır. Qeyd edək ki, bu kitab Mədəniyyət və Turizm

Nazirliyinin "Qızıl kəlmə" mükafatına layiq görülmüşdür. Bir haşiyə çıxım ki, ümumiyyətlə, bu il də ötən illərdə olduğu kimi yazılan və nəşr olunan şeir nümunələrinin əksəriyyəti daha çox kiçik oxucular üçün – (3-8 yaş arası uşaqlar üçün) yazılmışdır. 10-15-yaş arasında olanlar üçün yazılan şeirlərə rast gəlinmir.

İl ərzində uşaqlar üçün "Göyərçin", "Göy qurşağı", "Sehrli dünya", "Günəş", "Qaranquş" jurnalları çap olunmuşdur. "Qaranquş" jurnalı "Azərbaycanım", "Biləndər uşaqlar", "Tariximizə səyahət", "Sən olsaydın, nə edərdin?" – kimi maraqlı rubrikalarla yanaşı, il boyu hər nömrədə uşaqlara şeirlər də təqdim etmiş Əlamdar Quluzadənin, Nuranə Nurun, Qəşəm Nəcəfzadənin, Mina Rəşidin şeirləri jurnalın səhifələrində yer almışdır. Mina Rəşidin "Təzə il arzuları" şeiri jurnaldakı maraqlı nümunələrdəndir. Yeni ili, bəzəkli şam ağacını, Qar qızı həsrətlə gözləyən uşaqlar Şaxta babadan öz arzularını istəməyə hazırlaşırlar. Kimi itən əlcəyini, kimi oyuncaq, kimi səyahət. Amma Şaxta babadan daha dəyərli hədiyyə istəməyə hazırlaşanlar da var. Sülh istəyənlər.

Təzə ildə təptəzə
Arzular doğulacaq.
Təzə ildə uşaqlar
Daha xoşbəxt olacaq.
Çünki Şaxta babadan
Sülh istəyəcəm mən də.
Uşaqlar ağlamasın
Dünyanın heç yerində.

Jurnalda yer alan bədii nümunələrin birində bahar fəslini təbiətin şah əsəri, may ayını min bir rəng nümayiş etdirən möcüzəli sərgi hesab edən Əlamdar Quluzadə isə sevdiyi ayın sinəsinə çəkilmiş dağı – Şuşanın işğal tarixini silməyi arzulayır.

Murad Kənanoğlunun "Nağılın içində yata bilmirəm", adlı kitabı da 2017-ci ildə çap olunub. Buraya kiçik müəllifin maraqlı deyimləri və az sayda şeirləri toplanıb. "Nənəmin danışdığı nağılın içində yata bilmirəm" – deyən kiçik şairin bu ovqatı oxucunu düşünməyə vadar edir. Niyə bu kiçik lirik mən "nağılın içində yata bilmir?" Oxucunun bu suala öz cavabları var...

Həmin kitabda şair-publisist Güləmail Muradın şeirləri də verilmişdir.

Tankların lüləsindən,
Qoy yellənçək asaq biz.
Göy üzü təmiz olsun,
Nəğmələnsin qəlbimiz.

Silahları əridin,
Düzəldin oyuncaqlar.
Bu dünyada nə qədər,
Oyuncaqsız uşaq var –

deyən Güləmail xanımın arzusu əslində bütün anaların arzusudur və müharibəsiz, itkisiz dünya istəyi 2017-ci ildə çap olunan uşaq poeziyasının əsas mövzusu olmuşdur.

İbrahim Yusifoğlunun 2017-ci ildə çapdan çıxmış "Göy yerə zəng eyləyir" kitabında müəllifin balacalara məhəbbətlə təqdim etdiyi şeirlər də maraqlı bədii nümunə-

lərdir. Müəllif öz şeirləri ilə dünyanı, təbiəti, həyatı balacalara sevə-sevə öyrədir. İbrahim müəllim bütün vətən balalarının timsalında nəvələrinin əlindən tutub onları mərdlik, qəhrəmanlıq, bütövlük simvolu olan Əlincə qalasından başlamış elləri, obaları gəzdirir, vətənin hər qarışındakı gözəlliyi onlara təqdim edir, tanıdır. Sanki bütün var olan, bəzən qan, can bahasına qorunan bu gözəllikləri, maddi və mənəvi sərvətləri balaca nəsillərə ərməğan və əmanət edir. Təbii ki, sevimli babalarından ərməğan olaraq aldıqları bu sərvətlər balacalar üçün misilsiz dəyər anlamı daşıyacaq. Onlar bu misilsiz dəyərləri yad nəfəslərdən, mənfur niyyətlərdən qorumağa çalışacaqlar. Qoynunda neçə-neçə əfsanələr gizləyən "Arpaçay" haqqında dastanlar qoşulan Xan Araz, Gəmiqaya, Çilənçay, Bülöv gölü, doğma Axura kəndinin "Dana qalası", "Noxudlu düzü", "İydəli dərəsi" adlanan məskənlər şairin yaradıcılığında təkcə poetik vəsfini tapan coğrafi məkan olmaqla qalmır, onların genetik yaddaşdakı funksional obrazları da açıqlanır.

Müəllifin yaradıcılığına xas olan səmimilik görünür, həm də onun müəllimlik peşəsindən, pedoqoji təcrübəsindən qaynaqlanır. Balacaların dilini bilən, onlarla öz dilində danışan şair çox sadə, həyati lövhələrlə onlarda yüksək mənəvi keyfiyyətlər aşılayır. Baba-nənə, nənə-nəvə, babanəvə münasibətlərini əks etdirən bədii nümunələr milli ailə modelini, ailədaxili münasibətləri sərgiləmək baxımından da əhəmiyyətli səciyyə daşıyır. Maraqlı sual-cavab üzərində qurulan şeirlər dünyanı, ətraf aləmi öyrənmək istəyən balacaya onu əhatə edən çevrəsini tanıtmağa kömək edir. İbrahim Yusifoğlunun şeirlərindəki səmimiyyət özünü Aymir, İlkanə, Aysun, Aydan, İslam, Araz kimi bir-birinə

bənzəməyən qəhrəmanların təqdimində də göstərir. Həyatda bir-birinə bənzəməyən, biri bir qədər küsəyən, bir qədər qoçaq, biri bir qədər "gopçu", "çoxbilən", biri bir qədər tənbəl olan bu bədii qəhrəmanlar şeirdə də öz təbii görüntülərindədirlər. Bu kiçik poetik qəhrəmanların bəzən sadəlövhlüyündən, bəzən də hazırcavablıqlarından şairin şeiri maraqlı poetik tapıntılar qazanır:

Babacan, ay babacan,
Nənəmi də tez çağır.
Göydə olan ulduzlar,
Qar olub yerə yağır.
***
Gör nə vaxtdır yağış yağır,
Daha yağır ağır-ağır,
Ata, yağış yorulubdur,
Qoy dincəlsin, evə çağır.
***
Güllərə bax, güllərə,
Gülər baxır güllərə,
Deyir, güllər gecədən
Yamanca qorxubdular,
Doyunca ağlayıblar,
Baxın, göz yaşlarını,
Ləçəklər saxlayıblar.
***
Yazıq çaydan dözməyib,
Hönkür-hönkür ağladı.
***
İradım var söyüdə,
Baxmır sözə, öyüdə,

Saçlarını daramır,
Özünə ip aramır.

Şair azyaşlılara təkcə vətəni sevməyi, onu qorumağı öyrətmir, həm də yay tətilini baba-nənəsinin yanında keçirməyə gələn nəvələrə kənd həyatını, zəhmətsevərliyi aşılayır, təbiəti, onun sirlərini öyrədir. Milli mətbəximizin ləziz təamlarından (qovut, əriştə, küftə), neçə-neçə gül-çiçəkdən, dərdlər dərmanı olan otlardan, milli oyunlardan bəhs edən şeirlər bəzilərinin hətta unudulmaqda olan adlarını balacalara öyrədir.

Yəqin oxuculara kitabın adı ilə eyni olan "Göy yerə zəng eyləyir" şeiri də maraqlıdır. Göyün yerə zəngi necə ola bilər? Bu da İbrahim müəllimin kiçik bədii qəhrəmanlarından birinin – Aycanın fantaziyasıdır. Yağışlı gündür, ildırım çaxır, şimşək hay-küy salır, hər uşaq bu təbiət hadisəsi haqqında bir cür fikir söyləyir. Ən maraqlı şərh isə Aycana məxsusdur: Göy yerə zəng eyləyir.

Kitabda maraqlı olan şeirlərdən biri "Qorxu" adlanır. Övladlar atalarını həmişə hamıdan güclü, əzəmətli, qorxmaz bilirlər. Amma əslində ataların içində məhəbbətdən, məsuliyyətdən doğan bir qorxu, bir təlaş da var. Müəllifin qızlarına müraciətlə yazdığı "Qorxu" şeirində dünyanın sabahından nigaran olan, həyəcan keçirən şairin valideyn narahatlığı, kövrəkliyi, atalıq məsuliyyəti hiss olunur. Bunu övladlarına hiss etdirmədən gizlicə içində yaşadan atanın etirafı:

Qorxuram, yer üzündə yaşayan
xoxanlar, xortdanlar,

ilanlar, əqrəblər, bövlər,
alt dodağı yer süpürən,
üst dodağı göy süpürən divlər,
Barmaqlarını düyməyə uzada;
Yağışlar buludsuz yağa,
Dənizlər tufansız coşa,
Çaylar yağışsız daşa,
Ömürlük yara vurula anamız torpağa!

Bu təşviş, valideyn nigaranlığı dünya durduqca olacaq. Amma arzu edək ki, övladlardan gizli içimizdə yaşanan bu qorxu məmləkətimizdən də, dünyamızdan da uzaq olsun. Dünyanı körpə gülüşü, üşaq təbəssümü bəzəsin. Balacalar baba, nənə qayğıkeşliyi və nəvazişi ilə əhatələnsin.

***

Biz adətən, uşaq poeziyası deyəndə həmişə uşaqlar üçün yazılan şeirlərdən danışırıq. Amma bir də uşaqlar haqqında yazılan şeirlər var. Məruzəmi Qəşəm Nəcəfzadənin müharibəyə, terrora, silahlara və sərhədlərə yox deyən uşaqlar haqqında yazdığı bir şeirlə bitirmək istəyirəm:

Gəlin düşək səngərdən, çəkilək bir az geri,
Qaldıraq səngərlərə balaca uşaqları.
Neçə uşaqları var, qoy onlar da gətirsin,
Dayansınlar üz-üzə, açılsın dodaqları.

...Düşmən kəlməsi yoxdur uşaqların dilində,
Olsa-olsa, əllərin bir-birinə vurarlar.
Səngərlərin içində, səngərlərin çölündə,
Lay-lay deyib kuklalara qəşəng evcik qurarlar.

İnsan bayraqlarıdı göydə oynayan əllər,
Öpürlər gülə-gülə bir-birinin əlini.
Biz öyrənə bilmədik dostluq dilini heç vaxt,
Gəlin gedək öyrənək körpələrin dilini...

Uşaqların ayağı torpağı bölə bilmir,
Necə ki eyni yağır yer üzünə yağışlar.
Sülh haqqında yazılmış iki gözəl misradı:
Bir göy üzündə quşlar,
Bir də yerdə uşaqlar.

Elçin MEHRƏLİYEV
Filologiya üzrə elmlər doktoru

PUBLİSİSTİKA: MEYİLLƏR, PROBLEMLƏR, AXTARIŞLAR

Publisist yaradıcılığı ədəbi prosesin çox mühüm və məhsuldar bir qolunu təşkil edir. Biz həyat axarının ahəngini, dövrün nəbzinin döyüntüsünü ədəbi yaradıcılığın digər növlərindən daha çox publisistikada hiss edirik. Publisistika – zamanın, mühitin tələblərinə müvafiq olaraq yaradıcılıq potensialını aktiv ictimai fəaliyyət üsuluna çevirmək vasitəsi, sənətkarın həyata nüfuzunun başlıca barometri, mövcud problemin həlli istiqamətində düşünməyə və hərəkətə sövq edən yeni fikir, ideya, enerji ötürücüsüdür.

Nəzərə alsaq ki, insan-zaman-hadisələr ətrafında təhlil və düşüncələr publisistikanın mayasını təşkil edir, o zaman onun bir termin, anlayış kimi yaranıb formalaşdığı XIX əsrdən çox-çox əvvəllər, yaradıcılığın digər (elmi, siyasi, fəlsəfi, ədəbi və s.) sahələri ilə üzvi surətdə bağlı olub qarşılıqlı əlaqədə, bir-birinin şəhdi-şirəsindən qidalanaraq inkişaf etdiklərini, hətta publisist düşüncənin ümumiyyətlə yaradıcı təfəkkürə qanad verdiyini söyləyə bilərik. Lakin bədii, siyasi, yaxud elmi fikirdə publisist məqam o zaman uğur qazanır ki, ifadə və canlandırma imkanlarını genişləndirməklə yaradıcı məqsədə müvəffəq olmağa kömək etsin.

Publisistikanın komunikativliyi, komporativistliyi ədəbi yaradıcılıqla təmasda özünü daha çox göstərir. Hətta,

ayrıca bir yaradıcılıq xətti kimi götürdükdə, bədii publisistika (memuar, səyahətnamə, oçerk, felyeton, pamflet, parodiya, gündəlik və s.) öz bədii-üslubi və bədii-estetik dəyər və keyfiyyətləri ilə bədii ədəbiyyatın bir qoluna çevrilir. Bədii publisistikada ictimai gerçəklik ancaq məntiqi mühakimələr və elmi nəticələr yolu ilə deyil, eləcə də bədii lövhələr və konkret obrazlar vasitəsilə, tipikləşdirilmiş və ümumiləşdirilmiş şəkildə əks etdirilir. Bədii yaradıcılıqla belə sıx bağlılıq və qarşılıqlı faydalanma bir sıra hallarda "janr təsnifatında qarışıqlıq" problemi doğurub ədəbi-nəzəri fikirdə müəyyən mübahisələrə rəvac verir. Məsələn, biz lətifələrin həm folklor, həm də publisistika, sənədli nəsrin həm bədii ədəbiyyat, həm də publisistika, ədəbitənqidi məqalələrin həm ədəbiyyatşünaslıq, həm də elmi-publisistika yaradıcılığı kimi təfsir edilməsinin şahidi oluruq. "Janr qarışıqlığı problemin"ə münasibət bir tərəfdən, qaynayıb-qarışmış yaradıcılıq sahələri arasındakı sərhədlərin olduqca zərifliyi, başqa sözlə desək, mətnin sənədlilik, elmilik, yaxud bədiilik cəhətdən ağırlığı, digər tərəfdən, ona mövzu-problem aktuallığından, ideya-məzmun istiqamətindən daha çox forma, metod axtarışları baxımından yanaşma məsələləri ilə bağlıdır. Bütün bunlar öz yerində. Hər halda, publisist yaradıcılığı bir sıra mühüm əlamət və qanunauyğunluqları ilə özünəməxsusluğunu qoruyub inkişaf etdirməkdədir. Həmin əlamət və qanunauyğunluqları aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

- Konkret fakt və hadisələrə istinad etməklə həyatın bütün sahələrinə operativ şəkildə nüfuz edə, hər cür cari problemin həllinə qatıla bilmək imkanlarının genişliyi. Publisist siyasi, iqtisadi, sosial, mədəni və mənəvi sferalar-

da yaranmış və ya yarana biləcək vəziyyət, dəyişiklik ətrafında obyektiv təhlillər aparıb ideya mübarizəsinə qatılmaqla milli-ictimai şüura təsir göstərir. Bu baxımdan, publisist yaradıcılığı – sənətkardan öncə sağlam əqidə və mənəviyyat, vətənpərvərlik ruhu və sayıqlıq, yüksək iradə və zəhmətkeşlik kimi mənəvi keyfiyyətlər tələb edir;

- Mövzunu əhatə etmək, fikir, təklif və ideyalarını əsaslandırmaq, oxucu marağına səbəb olmaq üçün həyat materialının ən tipik nümunələri əsasında təhlillər, ümumiləşdirmələr aparmaq və bu zaman elmilik və bədiilik sintezindən maksimum dərəcədə istifadə etmək. Publisistin qarşıya qoyduğu məqsədə nail ola bilməsi onun həm də zəngin həyat təcrübəsinə, müəyyən biliklərə, təhlil qabiliyyətinə və səriştəli, "duzlu qələm"ə malik olmasından asılıdır. Yaradıcılığın digər sahələrində olduğu kimi, publisistikada da sənətkar öz məxsusi istedadı sayəsində əsərinə orijinallıq möhürü vura bilər.

Diqqət yetirsək, bu qanunauyğunluqların eyni məramdan qaynaqlandığını görərik: cəmiyyətin tərəqqisinə çalışmaq, xalqı sabaha səsləmək publisistin ictimai, siyasi, elmi və ədəbi görüşləri üçün əsas səciyyəvi cəhət, ümumilikdə publisistikanın başlıca missiyasıdır. Ona görə də tarixin müxtəlif mərhələlərində, xüsusən də, ictimai-siyasi şəraitin mürəkkəbləşdiyi dönəmlərdə publisist yaradıcılığı da fəallaşır, publisistikanın yeni-yeni ifadə-forma tərzi, janr özünəməxsusluqları təzahür edir, publisist düşüncənin cövlan etdiyi mətbuat səhifələri qaynar müzakirə, polemika, ideya meydanına çevrilir. Ötən əsrin əvvəllərində, böyük Mirzə Cəlilin təbirincə desək, "dünya və aləmin dəyişdiyi, hər bir şeyin qayıdıb öz əslini tapdığı, hər mətləbə

əl vurulduğu bir vaxtda" *(Məmmədquluzadə C.Azərbaycan. "Molla Nəsrəddin", 17 noyabr 1917, №24)* Həsən bəy Zərdabi, Ünsizadə qardaşları, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli və s. kimi, yaxud həmin əsrin sonlarında – dünyanın ən nəhəng imperiyası Sovet İttifaqının dağıldığı və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın varlığını təhdid etdiyi illərdə Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Anar, İsa İsmayılzadə, Hidayət, Vilayət Quliyev, İsmayıl Vəliyev, Nemət Veysəlli, Məmməd Oruc və s. yaradıcı ziyalıların öncə mətbu və publisist fəaliyyətlərini canlandırması heç də təsadüfi deyildi. Eyni zamanda, hər iki dövrün publisist yaradıcılığının sənətkarlıq axtarışları baxımından birbirindən fərqlənməsi, deyək ki, əsrin əvvəllərində, Salman Mümtazın sözləri ilə desək, "vaxta görə ciddi yazı yazmaqdan məzhəkə və həzl təriqi ilə yazmaq məsləhət görülürdü"sə və bu "məsləhət"ə müvafiq olaraq gizli imzalarla mətnaltı mənalarla hədəfə atəş açan yumor və satiraya üstünlük verilirdisə, əsrin sonlarında açıq imzalarla hadisələri təhlil, törədilənlərə şahidlik xarakterli ciddi yazılara üstünlük verilirdi ki, bütün bunlar da təsadüfi yox, mövcud siyasi, ictimai, sosial amillərlə bağlı idi.

Ötən ilki çoxsaylı publisist yaradıcılığı nümunələrinin təhlili göstərir ki, publisistika bu gün də həyatla nəfəs alır, sözünü vaxtında deməklə ədəbi-ictimai prosesin ön xəttində mövqe tutmağa səy göstərir. Bu da yaşadığımız dövrün "ovqatını" müəyyən edən dünyəvi proseslərin yenə kifayət qədər mürəkkəb və ziddiyyətli olması ilə yanaşı, ölkəmizdə gedən proseslərin dinamiklik və çoxşaxəlilik (qurucu-

luq, islahatçılıq, inteqrasiya və s.) kimi xüsusiyyətləri ilə əlaqədardır.

Biz ötən ilin publisistikasında mövzu-problem, ideya və sənətkarlıq axtarışları məsələlərini tədqiq etmək, onun yeni meyil və istiqamətlərini müəyyənləşdirmək üçün Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Azərbaycan" və "Ulduz" jurnallarını, habelə müstəqil mətbu nəşrləri kimi "525-ci qəzet"i və "Ustad" jurnalını nəzərdən keçirdik, təbii ki, material gurluğunu nəzərə alaraq daha xarakterik olanları seçib-araşdırmağa çalışdıq.

Öncə "525-ci qəzet"dən başlamaq istərdik. Təkcə ona görə yox ki, bu qəzet istiqlal tariximizdə söz, mətbuat azadlığını uzun illərdir öz fəaliyyəti ilə əks etdirir və onun 25 illik yubileyi geniş ictimaiyyət tərəfindən qeyd edildi, həm də ona görə ki, gündəlik olaraq və böyük formatda çıxan bu qəzet publisist fəallığa açıq meydan vermək meyli ilə seçilib fərqlənməkdədir. Belə fərqlənməyə rəvac verən digər bir səbəbi – "jurnallara məxsus astagəllik", "publisistdən oxucuya qədərki zaman itkiləri" səbəbini ötən ilki məruzəsində professor Asif Rüstəmli çox dəqiq nişan vermişdir. *(Rüstəmli A. Publisistika – hüdudsuz düşüncə imperiyası. /Ədəbi proses–2016. Bakı, "Hədəf" nəşrləri, 2017, s.280)*

"525-ci qəzet"in illik nüsxələri ilə tanışlıq öncə "qəzet həyatın güzgüsüdür" kimi köhnə bir ifadəni yada salır və istər-istəməz bir qism suala cavab tapmaq istəyirsən. Bir tərəfdən, informasiya-kommunikasiya vasitələrinin artıb təkmilləşdiyi, digər tərəfdən, müxtəlif və ziddiyyətli informasiya axınının gücləndiyi müasir dövrdə bu ifadə özünü doğrulda bilirmi? Müasir qəzet və qəzetçilik daha geniş

oxucu və dinləyici auditoriyasını əhatə etməyi bacarmış elektron-mətbu şəbəkəsi, xüsusən də, internet saytları ilə rəqabətdə davam gətirib öz dəsti-xəttini, mövqeyini qorumağı bacarırmı?

Məmnunluq hissilə qeyd etmək istərdik ki, "525-ci qəzet" həyatın bütün sahələrinə nüfuz etməyi, necə deyərlər, hər yerdən və hər şeydən məlumat verməyi bacarmışdır. Qəzet həyat axarını operativ surətdə informasiyalaşdırmaqla yanaşı, cəmiyyəti düşündürən ən müxtəlif (siyasi, iqtisadi, sosial-siyasi, tarixi, mədəni, mənəvi-əxlaqi və s.) problemlərlə bağlı publisist düşüncələrin geniş: siyasi, elmi və bədii publisistika formalarında ifadəsinə meydan verir. Qəzet buna həm səriştəli, peşəkar redaksiya kollektivi formalaşdırmaqla, həm də nüfuzlu söz, qələm sahibləri (siyasi icmalçılar, ədəbiyyatşünaslar, sənətşünaslar, yazıçı-publisistlər, filosoflar, ictimai-siyasi xadimlər və b.) ilə sıx əməkdaşlıq əlaqələri yaratmaqla nail ola bilir. Xüsusən də, qəzetin xalq yazıçılarımızdan Anar, Elçin, akademiklərimizdən İsa Həbibbəyli, Nizami Cəfərov, Rafael Hüseynov, professorlarımızdan Vilayət Quliyev, Rafiq Əliyev, Qulu Məhərrəmli, tənqidçi-ədəbiyyatşünaslarımızdan Vaqif Yusifli, teatrşünaslarımızdan İlham Rəhimli, yazıçı-jurnalistlərimizdən Elmira Axundova, yazıçı-publisistlərimizdən Sadıq Elcanlı və s. kimi imzası məşhur seçmə müəllifləri öz ətafına toplayıb onların müəyyən mövzu-problemlər üzrə silsilə məqalələrini dərc etməsi publisist fəallığa sövqetmə vasitəsi kimi diqqəti çəkməyə bilmir.

Silsilə yazılar həm qəzetin gündəlik, həm də əsasən xüsusi buraxılış kimi təqdim edilən şənbə saylarında istifadə etdiyi "Səhər-səhər", "Baxış bucağı", "Portret", "Ra-

kurs", "Tarix", "Mövqe", "Səfər", "Yaddaş", "Münasibət" və s. kimi rubrikalar altında dərc olunur. Belə bədii və elmi publisistika nümunələri həm mövzu *(siyasi, iqtisadi, sosial, elmi, ədəbi, mədəniyyət, incəsənət, maarifçilik və s.)*, həm janr *(resenziya, ədəbi-tənqidi, portret oçerk, müsahibə, memuar, esse və s.),* həm üslub *(siyasi-təhlili, iqtisadi-təhlili, fəlsəfi düşüncələr, elmi-publisistik, bədii-publisistik və s.)*, həm forma *(fakt və hadisələri təhlil və şərhetmə, açıq məktub, xatirələr, səfər təəssüratları, gündəlik və s.)* cəhətdən çeşidli olması, həm də ideya-sənətkarlıq axtarışları baxımından – orijinallığı, oxunaqlığı, cəlbediciliyi ilə böyük maraq doğurur. Yeri gəlmişkən, akademik İsa Həbibbəylinin "525-ci qəzet"in adını "xüsusi jurnalistika məktəbi səviyyəsinə çata bildiyinə görə" Azərbaycan mətbuatı tarixində böyük məktəb yaratmış məşhur "Molla Nəsrəddin" jurnalı və "Füyuzat" məcmuəsi ilə bir sırada çəkməsi, onun həmin irihəcmli əlavəsini obrazlı şəkildə "Azərbaycan mətbuatının ədəbi-publisist romanı" adlandırması qəzetçilik publisistikasında maraqlı forma tapıntıları, ideya-məzmun yenilikləri ilə bağlıdır. *(Bax: "525-ci qəzet", 7 oktyabr 2017).*

Məsələn, Xalq yazıçısı Anarın ilboyu qəzetin hər şənbə sayında, "Səhər-səhər" rubrikası altında dərc etdirdiyi silsilə yazılarını götürək. Bu silsilədə biz yazıçı-publisistin yaşanan günlə səsləşən, mövzu-problem baxımından çoxçeşidli, sənətkarlıq baxımından bir-birindən maraqlı yaradıcılıq nümunələri ilə tanış oluruq: Onun Azərbaycana qarşı şovinist, qərəzli çıxışlar edən əcnəbilərə *("Yava-yava danışanlar" – 18 fevral 2017),* Novruz bayramına *("Səməni, saxla məni*" *– 18 mart 2017),* akademik Ağamusa

Axundova *("Arxayınlıq" – 4 mart 2017),* rus şairi Yevgeni Yevtuşenkoya *("Şairliyindən böyük şair" – 8 aprel 2017),* may təqviminə *("Unudulmaz may günləri" – 13 may 2017),* rəssam Əzim Əzimzadəyə *("Rəssam Əzim Əzimzadə bir qələm sahibi kimi" – 20 may 2017),* bəstəkar Firəngiz Əlizadəyə *("Musiqimizdə özəl yeri olan bəstəkar" – 27 may 2017),* Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik etdiyi otuz illik fəaliyyətinə *("Otuz il" – 17 iyun 2017),* Bakı küçələrinə *("Bakı küçələri" – 22 iyul 2017),* qədim yazılı abidələrimizə *("Ən əski yazılarımız" – 5 avqust 2017),* Sovet dönəmi yaşanan İstanbul həsrətinə *("İstanbul həsrəti" – 26 avqust 2017),* Üzeyir Hacıbəyliyə *("Üzeyir bəyin qəribə taleyi" – 16 sentyabr 2017),* türk şairi Nazim Hikmətə *("Nazim Hikmət böyük insan və bütöv şəxsiyyət kimi, hər halda əqidəsini dəyişənlərdən deyildi" – 7 oktyabr 2017),* ömrün bir sınağına *("Yoxluqdan varlığa" – 9 dekabr 2017)* – bunu öz tale yaşantısının bir anı ilə bağlı hiss və düşüncələr publisistikası kimi xarakterizə etmək olar, – məşhur heykəltaraşlara və heykəltaraşlıq sənətinə *("Heykəlin şeiriyyəti" – 16 dekabr 2017),* 2017-ci ilin ictimai-siyasi və mədəni həyatının yekununa *("Əlvida 17, salam 18-30 dekabr 2017)* və s. həsr etdiyi əsərləri göstərir ki, Anar nədən yazırsa yazsın, bədii publisistikanın daha çox ümumiləşdirmə, daha çox tipikləşdirmə səciyyəviliyini qoruyub-saxlamağı ustalıqla bacarır. Onun çağdaş milli-ictimai düşüncəni məşğul edən mətləblər ətrafında özünəxas gəzişmələri – faktı bədii təfəkkür süzgəcindən keçirib mənalandırma istedadı, təsvir, təhkiyə dilinin elastikliyi, söz, ifadə assosiasiyalarının zənginliyi, forma axtarışlarındakı yenilik ruhu publisistikasını daha ma-

raqlı, daha oxunaqlı edir. Eyni zamanda, Anar öz silsilə yazıları ilə bir daha sübut etmiş oldu ki, istedadlı yazıçı üçün "çeynənmiş mövzu", "çağırılmış bayatı" problemi, "mövzunun irisi-xırdası" məhdudluğu anlayışı yoxdur, başlıca şərt adi görünən faktı, hadisəni də ümumiləşdirib ictimai cəhətdən əhəmiyyətli mətləblər haqqında fikir söyləməyə yönəltməkdə, mühakimə orijinallığında, ideya yeniliyindədir. Misal üçün, yazıçının min dəfələrlə haqqında bəhs edilmiş Novruz bayramı, Səməni göyərtməyin səbəb və sirləri barədəki məqaləsinə nəzər salaq. Bu əsər, əslində, çox uzaq kemişin dərin qatlarından süzülə-süzülə, durula-durula keçib gələn insan-təbiət, insan-torpaq münasibətləri haqqında orijinal düşüncələr təsiri bağışlayır. Yaxud, "Əlvida 17, salam 18!" adlı məqaləsində Şəhidlər xiyabanı mövzusuna toxunarkən bildirir ki, yeni nəsilləri ermənilər sayağı qisasçılıq, kin, başqa xalqlara nifrət hisslərilə böyütməməliyik, amma unutqanlığa, tarixin dərslərinə biganəliyə də yol verməməliyik. Bu məqsədlə müəllif Bakıdakı Şəhidlər parkının Şəhidlər dağı adlandırılmasını, "Drujba" restoranının münasib binasında Şəhidlər muzeyinin yaradılmasını, burada ötən iki əsrlik müddətdə ermənilər və onların havadarları tərəfindən başımıza gətirilən fəlakətləri əks etdirən ən müxtəlif eksponatların nümayiş etdirilməsini təklif edir. Və yaxud Anarın "Qum saatı" adlı məqaləsində tarixi dönəmlərin insan şüuruna və psixologiyasına, o cümlədən ədəbiyyata təsiri maraqlı fakt və mülahizələrlə açılıb göstərilir ki, bu da faktları təhlil yolu ilə dəyişən və əbədi qalan dəyərlər problemini çözməyə imkan verir.

Elmi-publisist yazılar silsiləsində isə akademik İsa Həbibbəylinin ədəbiyyatın dövrləşmə konsepsiyası və inkişaf mərhələləri mövzusundakı məqalələri diqqəti xüsusilə cəlb edir. Bu silsulədə yer alan və ciddi ədəbiyyatşünaslıq nümunəsi olan "Erkən realizm dövrü" *(21 oktyabr 2017),* "Anadilli ədəbiyyat epoxası: Həsənoğludan Füzuliyədək" *(9 dekabr 2017),* "Maarifçilik və realizm" *(16 dekabr 2017),* "Tənqidi realizm epoxası və romantizm" *(23 dekabr 2017)* adlı nəzəri yazılarda mühüm tarixi hadisələrin, ictimai mühitin ədəbiyyata təsiri və bu kontekstdə ədəbiyyat tarixinin dövrləşdirilməsi prinsiplərinə yenidən baxılmasının zəruriliyi məsələsindən bəhs olunur. Müəllifin ədəbiyyat tariximizə hər cür ideoloji basqıdan kənar, sərbəst surətdə, yeni meyarlarla yanaşması, ədəbi-tarixi faktları dəqiq, obyektiv elmi təhlili həmin silsilə yazıların elmiliyini, öz fikir və qənaətlərini aydın, rəvan, oxunaqlı bir dildə, hətta bir sıra hallarda elmi düşüncələrini poetik ifadə tərzi özünəməxsusluğunda oxucu kütlələrinin nəzərinə çatdırması və mülahizələri ilə həm elmi-ədəbi, həm də geniş oxucu kütləri arenasında fikir mübadiləsinə təkan verməsi isə publisist səciyyəsini təyin edir. İsa Həbibbəyli bu silsilə yazıları ilə uzun illər müddətində həm ədəbiyyatşünaslıq elmimizdə, həm də ictimai şüurumuzda daşlaşmış təsəvvür və ehkamları uçurub onları yeni dəyər və təsnifat sistemli qənaətləri ilə təzələyir. Bu, görkəmli alimin nəinki ədəbiyyatşünaslıq elmimizə, ümumilikdə milli mədəniyyətimizə tarixi töhfəsi kimi dəyərləndirilməlidir. Ümumiyətlə, ədəbi-tarixi prosesləri dərindən və hərtərəfli araşdırmaq, ədəbi məktəb və cərəyanların milli ədəbiyyatımızın inkişafındakı yerini və rolunu zərgər dəqiqliyi ilə təyin et-

mək, ədəbi şəxsiyyətlərin portret cizgilərini yaradıcılıqlarının qayə və ideya istiqamətləri üzrə açıqlamaq, ədəbi-bədii faktın, sənət əsərinin mahiyyətini bədii-estetik dəyər tərəfi ilə yanaşı tarixi-ictimai dəyəri tərəfindən də əsaslandırıb qiymətləndirmək İsa müəllim yaradıcılığı üçün əlamətdar xüsusiyyətlərdir ki, biz bu keyfiyyətləri adını çəkdiyimiz silsilə yazılarında da müşahidə edirik.

Əgər haqqında danışdığımız qəzetdə ardıcıl və məhsuldar çıxışlara görə "İlin yazarı" adı müəyyən edilsəydi, heç şübhəsiz ki, İsa müəllim o ada layiq görülməyə şanslı olardı. Onun il ərzində, silsilə məqalələrindən başqa, ən müxtəlif mövzularda neçə-neçə yazısı dərc edilmişdir. Akademik Ağamusa Axundova həsr etdiyi "Humanitar elmi düşüncənin miqyası" *(15 aprel 2017),* Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevin "Kitabi-Dədə Qorqud dastanları Baltik xalqlarının dillərində" adlı tədqiqat əsəri haqqında yazdığı "Qorqud müdrikliyi və müasirlik" *(3 iyun 2017),* rejissor Azər Paşa Nemətin yaradıcılıq məziyyətlərindən bəhs edən "Universal rejissorluq missiyası" *(10 iyun 2017),* iqtisad elmləri doktoru, professor Ağarza Rüstəmovun elmi yaradıcılığı və şəxsiyyəti haqqındakı "Adilikdə böyüklük nümunəsi" *(8 iyul 2017),* professor Qəzənfər Paşayevin çoxillik və çoxcəhətli fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini əks etdirən "Ziyalı fədakarlığına nümunə" *(16 sentyabr 2017)*, "Ortaq yazılı ədəbiyyat mərhələsi" *(11 noyabr 2017)*, "Realist hekayəçilikdə fərqli sima" *(18 noyabr 2017)*, "Şərq qapısı" məktəbi: uzaqdan və yaxından" *(11 noyabr 2017)* və s. kimi yazıları tanınmış alimin elmi erudisiyası və zəhmətkeşliyi, ən

müxtəlif mövzularda qələm işlətmək, yeni baxış və münasibət sərgiləmək bacarığı haqqında yüksək fikir yaradır.

Bu yerdə biz İsa Həbibbəylinin həm də "525-ci qəzet"in əsas qəhrəmanlarından birinə çevrildiyini nəzərə çatdırmaya bilmərik. İl ərzində, ayrı-ayrı yazarların qələmindən çıxmış bir sıra yazılarda məhz İsa Həbibbəylinin ziyalı-vətəndaş mövqeyindən, alim fədakarlığından bəhs olunur. Bu yazılar içərisində akademik İsa Həbibbəylinin həyat və yaradıcılığını, şəxsiyyət və dünyabaxışını əhatə etmək nöqteyi-nəzərindən akademik Nizami Cəfərovun "Ədəbiyyat tariximizin ustad dərsləri" *(13 may 2017)* və filologiya üzrə elmlər doktoru Baba Babayevin "Elmin böyük fədakarı" *(4, 5, 6 aprel 2017)* adlı elmi-publisistik məqalələrini xatırlatmaq istərdik. Birinci yazı məzmun və üslubuna görə daha çox elmi-təhlili və ədəbi-tənqidi, ikinci yazı isə elmi portret (oçerk) səciyyəlidir. Keşməkeşli həyat yolu keçmiş, çoxcəhətli yaradıcılığa malik bir insanın portretini yaratmaq kifayət qədər çətin və məsuliyyətli bir iş olsa da, Baba müəllim bu işin öhdəsindən layiqincə gələ bilmişdir – insan taleyinə əhatəli baxış, ən xarakterik faktlara istinad etməklə aparılan təhlillər, fikir və mülahizələrdəki səmimilik həmin oçerkin oxunaqlığını təmin edən başlıca məziyyətləridir.

Qəzet, həmçinin, akademikin çapdan çıxmış yeni kitabları haqqında yazılan elmi-publisist məqalələrə də səxavətlə yer ayırmışdır. AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Ədəbiyyat tarixçiliyi: universal akademizmdən akademik universaliyaya" *(23-24 noyabr 2017)* adlı geniş məqaləsi belə yazılardandır və İsa Həbibbəylinin təzəcə nəşr edilmiş "Ədəbi şəxsiyyət və zaman" adlı iri-

həcmli kitabı haqqında elmi-publisist düşüncələrdən ibarətdir.

Qəzetin professor Şirməmməd Hüseynovun və professor Vilayət Quliyevin XX əsrin əvvəlləri, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti dövrü ictimai-siyasi fikir tariximizlə bağlı ardıcıl çıxış etmələrinə şərait yaratması da təqdir edilməlidir. Bu silsilə yazılar belə deməyə əsas verir ki, hər iki müəllif vətənimizin, xalqımızın tale əhəmiyyətli mövzuları, problemləri istiqamətində elmi-publisist araşdırma missiyalarını yorulmadan davam etdirirlər və onların oxuculara təqdim etdiyi mətbu yazılar elmi əhəmiyyəti ilə yanaşı, geniş oxucu kütlələrini ictimai-siyasi fikir tariximizlə daha ətraflı tanış etmək nöqteyi-nəzərindən olduqca faydalıdır.

Məsələn, Vilayət Quliyevin "Bəkir Çobanzadə macar mətbuatında" *(4, 5, 6 aprel 2017),* "Eynəli bəy Sultanovun qayıdışı" *(20 may 2017),* "Əhməd Ağaoğlunun bir məktubu haqqında" *(27 may 2017),* "Ünsizadə qardaşları ilə bağlı bir neçə ip ucu" *(10 iyun 2017)*, "Əbdürrəhim bəy Haqverdiyev - diplomat" *(30 dekabr 2017)*, "Dostumuz, ədəbiyyatımızın dostu – Yavuz Akpinar" *(16 dekabr 2017)* və s. yazıları, habelə, "Əlimərdan bəy Topçubaşov: İstanbul görüşləri" və "Əhməd Ağaoğlu – Əlimərdan bəy Topçubaşov: İstanbul görüşləri", "Bakı uğrunda savaş" məqalələri ədəbiyyat və publisistika tariximizi araşdırma istiqaməti ilə bir zəncirin halqaları kimi silsilə yazılar təsiri bağışlayır. Eyni zamanda, V.Quliyev XX əsrin əvvəllərində yaşayıb-yaratmış Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov kimi vətənpərvər ziyalılarımızın indiyədək Azərbaycan ictimaiyyətinə məlum olmayan

bir sıra publisist məqalələrini, məktublarını türk və rus dillərindən tərcümə edib sayğılı bir təqdimatla oxuculara çatdırır. Ümumiyyətlə, xalqımızın, vətətənimizin tarixi taleyinin izi ilə yorulmaz axtarışlar, yeni-yeni tapıntılar, əsaslandırılmış nəticələr, dəyərli mülahizələr Vilayət Quliyev elmi-publisistikasının parlaq cizgiləri, məziyyətləridir. Bu zəhmətkeş alimin yaradıcılığı elmi-ədəbi xəzinəmizi zənginləşdirməklə yanaşı, həm də özünün bir vətəndaş-alim, bir vətəndaş-publisist kimi milli-mənəvi kimliyinin obrazını yaratmağa imkan verir.

Silsilə yazılar sırasında akademik Rafael Hüseynovun publisist qələmindən çıxmış məqalələri həmişə olduğu kimi yenə də öz dil-üslub, həyat və insanlar haqqında baxış-təhlil-mühakimə tərzi orijinallığı ilə seçilib fərqlənir. Onun Məmməd Əmin Rəsulzadənin nəvəsi Rais Rəsulzadə haqqında yazdığı "Adında və fırçasında işıq daşıyan" *(2 fevral 2017),* akademik Ağamusa Axundovdan bəhs edən "Ləyaqətlə yaşadım" deyə bilmək xoşbəxtliyi" *(23 fevral 2017)*, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Azərbaycan Respublikasının birinci vitse-prezidenti vəzifəsinə təyinatı ilə bağlı fikir və düşüncələrindən ibarət "İlk birinci" *(8 mart 2017)*, Bəxtiyar Vahabzadənin həyat və poeziyasından bəhs edən "Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək" *(29 iyul, c.1, 2, 3, 4, 5, 8 avqust 2017),* heykəltaraş Ömər Eldarovun şəxsiyyəti və yaradıcılığından bəhs edən "Atı qanadlı atlı" *(23 dekabr 2017)* və s. yazıları müasir publisistika xəzinəmizə dəyərli töhfələr kimi qiymətlidir.

Yazıçı-jurnalist Elmira Axundovanın əsasən müasir ziyalılarımızın həyat və fəaliyyətindən bəhs edən portret

oçerk səciyyəli - məsələn, Musa Quliyevin yaradıcılıq fəaliyyəti *("Ağrım, canım mənim – Zəngəzur" – 8 aprel 2017)*, əməkdar kolleksiyaçı Zərifə Salahovanın yaratdığı Miniatür kitab muzeyi *("Zərifə Salahova və onun miniatür kitabları" – 15 aprel 2017)*, yazıçı Mirzə İbrahimovla həyat yoldaşı Sara Pirimovanın yazışmaları *("Mənim əziz mələyim Sara!" – 13 may 2017* və s. haqqındakı yazıları, Telman Orucovun "Zamanların mozaikası: hadisələr və şəxsiyyətlər", "Paris – könülü və xəyalı fəth edən şəhər", "Din və məhəbbət: faciələrə aparan ziddiyyət" adları altında oxuculara təqdim etdiyi seriya yazıları, İtaliya səfəri ilə bağlı silsilə təəssüratları maraqla oxunur.

Əgər bu sıraya yazıçı Seyran Səxavətin "Türk bayrağının dalğalanan kölgəsində" *(7, 8 iyun 2017)*, yazıçı-jurnalist İmamverdi İsmayılovun "Yarpaq tökümü və yaxud düşüncələrim" *(7, 14, 21 noyabr 2017)* adı altında təqdim etdiyi aforizm sayağı ədəbi düşüncələrini, teatrşünas İlham Rəhimlinin "İrəvan Dövlət Azərbaycan Teatrı: 1882-1927-ci illərdə" *(10-28 mart 2017)*, Həzi Həsənlinin "Gecəsi sünbül qoxan, türkcəsi bülbül yaxan İstanbul" *(25 fevral 2017)*, Vahid Qazinin səfər təəssüratları, Pərvinin və Şahanə Müşviqin ədəbiyyat, mədəniyyət, incəsənət mövzularını əhatə edən çoxsaylı nəqalələrini, Ceyhun Abbasovun əsasən siyasi-ictimai mövzulardakı ardıcıl çıxışlarını da xatırladıb əlavə etsək, onda "525-ci qəzet"in aparıcı rubrikalar üçün aparıcı müəlliflər seçimi üsul-formasından publisist fəallığa sövq etmə vasitəsi kimi məharətlə istifadə etməsi fikrini bir daha vurğulamalı olarıq.

Bütün bunlarla yanaşı, qəzetin il ərzində dərc etdiyi elmi-publisist yazıların böyük bir qisminin məhz AMEA

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının adı ilə bağlı olduğunu birmənalı şəkildə qeyd etməliyik. Akademik İsa Həbibbəyli ilə yanaşı, professorlar Məmməd Əliyev, Qəzənfər Paşayev, filologiya üzrə elmlər doktoru Vaqif Yusifli, filologiya elmləri üzrə fəlsəfə doktoru Gülbəniz Babayava sözün həqiqi mənasında bu qəzetin daimi müəlliflərinə çevrilmişlər. Fikrimizi əsaslandırmaq üçün Qəzənfər Paşayevin il ərzində akademik Ağamusa Axundov haqqındakı "Dilçilik elminin iftixarı" *(18 fevral 2017)*, şair, jurnalist, alim Ayaz Vəfalının 80 illik yubileyi münasibətilə yazdığı "Ədəbiyyatımıza 50 il təmənnasız xidmət" *(1 aprel 2017)*, "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" *(16 dekabr 2017)* və s. kimi yazılarını, tənqidçi-ədəbiyyatşünas Vaqif Yusiflinin şair və yazıçılarımızın yubileyləri münasibətilə onların həyat və yaradıcılığına, habelə regionlarda ədəbi mühitin vəziyyətinə sərf-nəzər xarakterli, müxtəlif ünvanlı çoxsaylı yazılarını xatırlatmaq kifayət edər.

Eyni zamanda institutumuzun əməkdaşlarından AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, professor Asif Rüstəmli, Bədirxan Əhmədov, Vüqar Əhməd, Alxan Bayramoğlu, filologiya üzrə elmlər doktorları Əlizadə Əsgərli, Baba Babayev, Sara Osmanlı, Almaz Ülvi, Yaşar Qasımbəyli, filologiya üzrə fəlsəfə doktorları Şahbaz Şamıoğlu, İlham Məmmədli, Qürbət Mirzəzadə, Aynurə Paşayeva, Gülnar Səma və başqaları bir sıra elmi-publisist yazılarını "525-ci qəzet"də dərc etdirmişlər. Onlar öz yazılarında əsasən sənət, sənətkar və həyat məsələləri haqqındakı publisist düşüncələrnə geniş yer vermişlər.

Ümumiyyətlə, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə dövri mətbuat, o cümlədən "525-ci qəzet" arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin get-gedə güclənməsi açıq-aşkar hiss olunur, bu da heç şübhəsiz ki, yaradıcılıq mühitində fəallaşmanın nəticəsi kimi izah edilməlidir. Yaradıcı fəallığa sövq edən amillər sırasında İnstitutumuzun direktoru akademik İsa Həbibbəylinin bu sahədəki özünəxas həvəsləndirmə metodlarını *("İlin alimi" fəxri adının verilməsində çap məhsullarının nəzərə alınması, mətbu fəallığa görə təqdir etmə və mükafatlandırma)*, habelə şəxsi nümunə göstərmək məharətini də xüsusi olaraq qeyd etməliyik.

Əlbəttə ki, "525-ci qəzet"in publisistikası yalnız silsilə yazılarla məhdudlaşmır. Qəzet il ərzində onlarla müəllifin ən müxtəlif mövzularda publisist məqalələrini də dərc etmişdir. Bu sırada müxtəlif müəlliflərin Azərbaycanda multikultural mühit, Qarabağ problemi mövzularında yazdığı məqalələr, Musa Yaqubun "Darıxan misralar" *(15 aprel 2017)*, Zemfira Məhərrəmlinin Musa Yaqub yaradıcılığından *("Musa Yaqub dünyası" – 17 may 2017)*, Məryəm Əlizadənin Elçin dramaturgiyasından *("Qanadlarını yanına salma!" – 20 may 2017)*, Sadıq Elcanlının Naxçıvan – film yaradıcılığında mövzusundan *("Qədim tarixin yeni Naxçıvan möcüzəsi" – 4 mart 2017)*, Elçin nəsrinin sənətkarlıq xüsusiyyətlərindən *("Sonun əvvəli və ya ruhun qürub çağında" – 27 may 2017)* bəhs edən yazıları, Aydın Tağıyevin "Ömürdən ömür bağışlayan" *(20 aprel 2017)*, Qüdrət Piriyevin "İnsanlıq qalır bu dünyada" *(20 aprel 2017)* portret oçerkləri həm ideya-məzmun, həm də sənətkarlıq cəhətləri ilə diqqəti cəlb edir. Məsələn, Musa Yaqu-

bun "Darıxan misralar"ı ilk baxışda oxucuda belə təsəvvür yaradır ki, müəllif Kəmaləddin Qədimin şeirlərindəki poetikadan bəhs edir, əslində isə məqalə məzmun əhatəliliyi və dərinliyi etibarilə şair-publisistin zaman-ədəbiyyat-oxucu məsələləri haqqındakı ümumiləşdirilmiş fəlsəfi düşüncələrini əks etdirir. O cümlədən, Hüseyn Əsgərovun "Minimum söz, maksimum məna" *(11 mart 2017)*, Pərvanə Məmmədlinin Latviyalı jurnalist-yazıçı Tatyana Çaladze barədəki "Qarabağ fədaisi, Azərbaycan sevdalısı" *(21 dekabr 2017),* Tahir Həsənlinin "Ləğvini gözlədiyimiz "Qonaqkənd tilsimi" *(10 mart 2017)*, Süleyman Qaradağlının "Sehrli güzgü"nün adiləşməyi" *(11 mart 2017)*, Təranə Vahidin "Murov qartalı" *(4 aprel 2017)*, Akif Rüstəmovun "Dağlıq Qarabağ və informasiya təhlükəsizliyi" *(9 may 2017)* və s. yazılar mövzu-problem ətrafında araşdırma və fikir yürütmə orijinallığı, mövcud problemlərin həllinə səsləmək məramı ilə maraq doğurur. Məsələn, "Ləğvini gözlədiyimiz "Qonaqkənd tilsimi" məqaləsi həcmcə kiçik olmasına baxmayaraq sosial-iqtisadi əhəmiyyətli problemə toxunmaq, məzmunca əhatəlilik və yazı manerası ilə diqqəti cəlb edir. Məqalədə Quba – Qonaqkənd – Şamaxı yolunun 100 ildən artıq bir müddətdə bərbad vəziyyətdə olmasından bəhs olunur. Müəllifin bu yolun tarixi taleyinə sərf-nəzəri, sosial-iqtisadi əhəmiyyəti haqqqındakı dəlil-sübutları, eləcə də Qonaqkənd rayonu barədəki tarixi-informativ məlumatları və ölkədə aparılan abadlaşdırma işlərinin vüsətinə rəğbətli münasibəti bir-birini tamamlayır, yazını oxunaqlı edir, oxucunu düşündürür. Yaxud "Sehrli güzgü"nün adiləşməyi" adlı məqalədə milli dəyərlərin qorunmasında, bədii estetik zövqün inkişafında televiziyanın

rolu problemi qabardılır, Azərbaycan efir məkanındakı verilişlərin aşağı səviyyədə olması tənqid edilir.

"Azərbaycan" jurnalının dərc etdiyi publisist yazıların təhlilinə keçməzdən əvvəl, artıq 95 ildir ki, fəaliyyət göstərən bu dərginin xalqımızın ədəbi-mədəni və elmi-filoloji həyatında mühüm rol oynadığını və bu kontekstdə publisistika yaradıcılığına həssas münasibəti ilə fərqləndiyini qeyd etməliyik. Zaman dəyişdikcə jurnalın adında, qarşısına qoyduğu vəzifələrdə, fəaliyyət prinsiplərində dəyişikliklər baş versə də, müəllif və oxucu sıralarını yeni-yeni nəsillərə mənsub nümayəndələr əvəz etsə də, o, daim yaşanan dövrün bədii və bədii-publisist düşüncə aynası olmuş, milli ideallara xidmət etmişdir. "Azərbaycan" bu yolda bu gün də ən yaxşı yaradıcılıq ənənələrini layiqincə qoruyub saxlayır.

Jurnalın 2017-ci il saylarında dərc edilmiş: Vahid Qazinin "Tanrılarla baş-başa" *(№1)*, "Dumansız Albion" *(№9)* adlı səfər təəssüratları, Mehman Süleymanovun daha çox tarixi araşdırma istiqamətli "Şeyx Səfi məqbərəsinin talanması" *(№7-8)*, Günel Natiqin ədəbi araşdırma səciyyəsi ilə maraq doğuran, F.M.Dostoyevski yaradıcılığı və taleyi mövzusunda yazdığı "Ağrını incəsənətə çevirən dahi" *(№1)*, "İngilis ədəbiyyatının əfsanəvi bacıları – Bronte bacıları" *(№10)*, Qorxmaz Şıxalıoğlunun vətən torpaqlarının işğalı mövzusunda qələmə aldığı "Yaza boylanan dağlar" *(№3)*, teatrşünas İlham Rəhimlinin Üzeyir Hacıbəyov yaradıcılığına həsr etdiyi "Dahiliyin zirvəsi" *(№12)*, Südabə Ağabalayevanın və Bədirxan Əhmədovun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr etdikləri "Yaddaş" *(№5)*, "Cümhuriyyətin üçlü formulu" *(№11-12)* adlı yazı-

ları, Qəşəm Nəcəfzadənin "Mənim ilk kitabım" xatirəsi (*№5),* Fuad Vəliyevin elm və mədəniyyət haqqında düşüncələri *("Nikbin olmaq istəyirəm..." – №12)* və s. kimi yazılar həm ideya-məzmun dolğunluğu, həm də sənətkarlıq baxımından diqqəti cəlb edir ki, bu da hər şeydən öncə jurnalın bədii-estetik zövq, müasir yaradıcılıq tələbləri nöqteyi-nəzərindən seçim prinsiplərindən irəli gəlir. "Azərbaycan" həm ədəbi-mədəni aləmdə mötəbər bir orqan hesab edildiyindən, həm də bu dərgidə çıxış edənlərə yazı haqqı verildiyindən ona müraciət edənlər də çoxdur və belə çoxluq içərisindən seçim imkanları da genişdir.

Ümumiyyətlə, bir sıra müəllifləri (akademik Nizami Cəfərov, yazıçı-alim Elçin, professor Vilayət Quliyev, filologiya elmləri doktoru Vaqif Yusifli, teatrşünas İlham Rəhimli, Vahid Qazi, Pərvin, Günel Natiq və b.) biz "Azərbaycan" jurnalında da öz ampulalarında fəal çıxış etdiklərini görürük.

Məsələn, yazıçı-alim Elçinin bir neçə il bundan əvvəl mətbuatda dərc etdirdiyi "Sosrealizm bizə nə verdi?" adlı eimi-publisist yazısının mətbuat səhifələrində geniş müzakirələrə səbəb olduğunu yaxşı xatırlayırıq. Onun ötən il "Azərbaycan" jurnalında dərc etdirdiyi "Söz azadlığı tənqidimizə nə verib?" *(№1)* adlı növbəti geniş məqaləsi də yeni polemikaya meydan açmaq səciyyəsi ilə seçilib fərqlənir. Elçinin hər bir yeni bədii əsəri kimi, hər bir yeni elmi-publisist əsəri də cəmiyyətdə rezonans doğurur, düşündürür, müzakirələrə səbəb olur.

Vilayət Quliyev bu dəfə – "Azərbaycan" jurnalında XX əsrin əvvəllərindəki türk ictimai-siyasi və ədəbi fikrinin tanınmış nümayəndəsi, "İttihad" və "Tərəqqi" partiya-

larının qurucularından biri, naşir, həkim, şair və tərcüməçi Abdullah Cövdətin dostu və həmfikiri Əli bəy Hüseynzadəyə məktublarını oxuculara təqdim edir *("Rəsuli-Haqqa məktublar" – №2-3).*

Yaxud Vaqif Yusiflinin yazıçı Vidadi Babanlının 90 illiyi münasibətilə yazdığı "Xudam əsirgəməz rəhmini məndən" *(№1),* yazıçı-publisist Məmməd Orucun 70 illik yubileyi münasibətilə yazdığı "Yetmiş ilin Məmməd Orucu" adlı məqalələrində sevimli sənətkarlarımızın həyat cizgiləri, əsərlərinin ideya-məzmun istiqamətləri və həmin əsərlərin oxucu qismində şəxsən müəllifə təsir məqamları paralel və əlaqəli şəkildə, səmimi duyğularla qələmə alınır. Və s.

Bu yerdə xüsusi olaraq vurğulamaq istərdik ki, essevari publisistika yaradıcılığına meyl nəzərə çarpacaq dərəcədə güclənmişdir. Biz bu meyli təhlilə cəlb etdiyimiz digər mətbu nəşrlərində də görüb hiss edirik. "Esse – elmi düşüncə ilə poetik təfəkkürün qovuşağında sözün psixolinqivistik təsir ucalığında dalğalanması, hiss və duyğular selinin könüllərə, qəlblərə yön alan ədəbi və əbədi məcrasıdır." (*Rüstəmli A. Publisistika – hüdudsuz düşüncə imperiyası. Bax: Ədəbi proses–2016. Bakı, "Hədəf" nəşrləri, 2017, s.292).*

Sözə qüvvət üçün Anarın "Əkinçi" haqqında xatirələr" *("Azərbaycan" jurnalı, №1)*, "Yaralı heykəl, yaralı yaddaş" *(yenə orada, №3),* Ayişə Nəbinin "Şeirlə şairin görüşü"*("Ulduz", №4)* və s. kimi esseləri uğurlu nümunələr kimi xatırlatmaq yerinə düşər. Yaxud Səbuhi Şahmuradovun müasir ədəbi proses reallıqları müstəvisində yazıçı-oxucu münasibətləri haqqında düşüncələrini bölüşdüyü

"Gümüş dilli oxucu" *("525-ci qəzet", 2 mart 2017)* essesi həm problemə baxış, həm də dil-üslub orijinallığı ilə maraq doğurur. Müəllif bugünümüz üçün kifayət qədər aktual olan yazıçı-oxucu münasibətlərini canlandırmaq yolları barədə fikirlərini bölüşür. Xalid Qüdrətoğlunun "Şəhərin yanında bir şəhər də var" *("525-ci qəzet", 25 aprel 2017)* yazısında qəbirstanlıqla, "Yaşamaq istəyirəm, ata!" *(yenə orada, 25 aprel 2017)* yazısında xərçəng xəstəliyinə tutulmuş bir uşaqla bağlı düşüncələri, Təranə Vahidin "Zamanda yaşayan adam"ın izi ilə" *(yenə orada, 9 may 2017)* yazıları da essevari publisistika nümunələri kimi maraqla oxunur. Günel Natiqin "Hamısı darıxmaqdandır...", "Ölümə yuxu kimi baxmaq", Cavid Qədirin "Sevgi deyiləndə...", İbrahim İbrahimlinin "Dahiliyin həddi" *("Azərbaycan", №7-8),* Südabə Ağabalayevanın "Ocaq daşı" *("Azərbaycan", №10)* və s. kimi materialları isə hisslər haqqında düşüncə publisistikası kimi də mənalandırmaq olar.

Biz bu sırada yenə öncə Anara müraciət edəcəyik.

Anarın "Əkinçi haqqında xatirələr" essesində yalnız "Əkinçi" qəzetindən yox, sözün əsl və geniş, məcazi mənasında əkinçi olan Həsən bəy Məlikov-Zərdabinin həyat və fəaliyyətindən bəhs olunur. Yazıçı bu essesini H.B.Zərdabi haqqında xatirələr kitabının çapdan çıxması münasibətilə yazsa da, dövr və şəxsiyyət, vətən və vətən uğrunda fədakarlıq, millət və millətsevərlik, memuar ədəbiyyatı və tarixi şəxsiyyətlərin tərcümeyi-halı, nəhayət Həsən bəy Zərdabi fenomeninin ictimai dərki ilə bağlı mühakimələri və qənaətləri ilə rəy, resenziya çərçivəsindən çıxıb hiss və zəka vəhdətinin diqtəsi ilə bədii-publisist müqayisələrə və

ümumiləşdirmələrə üz tutur, yazıçının duyğusal dilində faktlar, sənədlər adi, quru, trafaret təkrarçılıq qəlibindən çıxaraq oxucunu həyəcanlandıran, onun qəlbini ehtizaza gətirən maraqlı hekayətlərə, həyat dərslərinə çevrilir. Anarın bu yazısı da onun bir yazıçı-publisist kimi zaman və məkan hüdudlarını asanlıqla sındırıb mövzunu müasirləşdirmə və öz qəhrəmanını daha geniş rakursda təqdim edib müasirlərinə sevdirə bilmə bacarığını nümayiş etdirir. Nəticə etibarilə biz Anar qələmində Dədə Qorqudu, Mirzə Cəlili, Üzeyir Hacıbəylini... sevdiyimiz qədər həyat tarlasında tərəqqi toxumları əkmiş, Azərbaycanın ictimai inkişaf tarixində mühüm rol oynamış böyük əkinçimiz Həsən bəy Zərdabini də sevirik.

Qeyd etmək istərdik ki, Günel Natiq, Pərvin, Təranə Vahid istedadlı, həm də fəal yazar gənclərimizdəndirlər. Onlar həm qəzet səhifələrində, həm də jurnallarda hər üzünə qələm işlətmək, o cümlədən maraqlı esse yazmaq bacarıqları ilə diqqəti cəlb edirlər. Məsələn, Təranə Vahidin hekayələri kimi esseləri də bədii ifadə tərzi, həyatı obrazlaşdırma ustalığı, fəlsəfi düşüncə yükü ilə seçilir. Əslində, Təranənin bədii esselər kimi təqdim olunan yazıları da o dərəcədə həyati, gerçək yaşam düşüncələri ilə çuğlaşmış olur ki, biz onları bədii-obrazlı ifadə ilə publisist ifadə qovşağında duyub qavrayırıq. Bu baxımdan onun "Azərbaycan" jurnalının birinci sayında dərc etdirdiyi esseləri və bu esselərdəki insan və cəmiyyət həyatını bədii obrazlaşdırma, xırda həcmli yazılarda böyük mətləblərə toxunma istiqamətlərində yeni forma axtarışları maraq doğurur.

Biz yuxarıda publisistika sərhədlərində "janr qarışıqlığı" probleminə toxunmuşduq. Sözə qüvvət üçün, Vaqif

Bəhmənlinin "Azərbaycan" jurnalının 10-cu sayında dərc etdirdiyi "Məcnun özü" əsərinin də mübahisə predmetinə çevrilə biləcəyini vurğulamaq istərdik. Janr etibarilə povest-portret kimi təqdim edilən bu əsərdə Azərbaycan milli incəsənətinin inkişafında misilsiz xidmətlər göstərmiş qüdrətli teatr xadimi Hüseyqulu Sarabskinin insan və aktyor taleyi, yaradıcılıq yolu sənədli-bədii üslubda təqdim edilib. Başqa sözlə desək, ağır zəhmətin – səbrli publisist araşdırmaların nəticəsi kimi hasilə yetən bu portret-povest sanki iki qələmlə – yazıçı və publisist qələmi ilə yazılıb. Əsərin bədiilik, yoxsa sənədlilik və yaxud elmilik tərəflərinin ağırlığını təyin etmək də asan deyil. Hər halda, müəllifin mövzunu qələmə alarkən belə bir niyyətdə olmadığı da hiss olunur. Sadəcə, o, yaradıcılığın əsas qanununa – məzmunun tələb etdiyi formanı qəbul etmək qaydasına əməl etmiş və böyük sənətkarın adına layiq əsər yarada bilmişdir.

"Ulduz" jurnalında publisist fəallığına sövq edən yeni, maraqlı formalar diqqəti cəlb edir. Jurnalın hər sayı "Ekspert" rubrikası ilə açılır. Bu rubruka altında çıxış edən müəlliflər jurnalın həmin sayında dərc edilən materiallara bir növ ekspert münasibəti bildirir. Lakin fərqli müəlliflərin qələmindən çıxan yazılar həm dil-üslub xüsusiyyətləri, həm də tənqidi qeydlərlə publisist düşüncəni özündə qaynaq edən məzmun orijinallığı ilə maraq doğurur. Bu sırada filologiya elmləri doktoru, professor Jalə Əliyevanın *(№1),* filologiya elmləri doktorları Abid Tahirlinin *(№2),* Vaqif Yusiflinin *(№4),* Seyran Səxavətin *(№5),* Nəsir Əhmədlinin *(№12)* və başqalarının ekspert yazılarını xatırlatmaq mümkündür. Məsələn, Nəsir müəllim "Nərgiz Cab-

barlıdan Elxan Zaladək" adlı yazısında ekspertlərin ümumi işindən söz açıb. "Ekspert" rəyini Günay Ümidin "özüylə söhbəti" və şeirləri izləyir. Yaxud "Ulduz"un səhifələrində yer alan "Özüylə söhbəti..." rubrikası da publisist yaradıcılığına yeni bir ifadə-forma tərzi gətirmişdir. Müsahibə şəklində qurulan belə yazılarda gənc müəllif həm sual seçimində, həm də həmin suallara cavabında tamamilə sərbəstdir. Yetər ki, o, öz düşüncələrini səmimi və dolğun şəkildə ifadə edə bilsin. Bu baxımdan, Günel Natiqin *(№2),* Cahandar Aybərin *(№4),* Faiq Hüseynbəylinin *(№5* həyat və sənət əlaqələri, insanın zamana, cəmiyyətin qayğı və problemlərinə nünasibət üzərində köklənmiş özüylə söhbətləri, yaxud İkinci Mahmudun "Özümlə söhbətin mümkünsüzlüyü" *(№1)* həyat düşüncələri baxımından maraq doğurur.

"Özüylə söhbəti..." bitən yerdə "...və hekayələri" və yaxud "...və şeirləri" rubrikası gəlir, həmin rubrika altında özüylə söhbət aparanın bir neçə əsəri oxuculara təqdim edilir. Beləliklə, həm rubrika tamamlanmış olur, həm də gənc yazıçının, yaxud şairin həyat düşüncələri ilə bədii düşüncələri, şəxsiyyəti ilə əsərlərindəki "mən" obrazı arasındakı bağlılığa aydınlıq gətirilmiş olur.

"Ulduz"un xatirə yazılarına meydan verməsi isə köhnə formada yeni ideya-məzmun axtarışları baxımından təqdir oluna bilər. Məsələn, "Xudu əfsanəsi" yazısında görkəmli alim Xudu Məmmədovla, "Bir İlyas Tapdıq vardı..." yazısında sevimli şairimiz İlyas Tapdıqla bağlı xoş duyğulu xatirələr qələmə alınır. Xankəndi sakini Arzu Muradın yazısından isə faciəli 90-cı illər həyatının müəllifin taleyində acı izlər buraxdığı bəlli olur.

"Ustad" junalı çoxsaylı mətbu nəşrlər sırasında yenilərdən hesab edilsə də, öz dəsti-xəttini dəqiq təyin edə bilmişdir. Fikrimizcə, bu dəsti-xətt özünəməxsusluğu ədəbiyyatın, incəsənətin, mədəniyyətin bütün sahələrini əhatə etməyə çalışmaq meyli ilə yanaşı, yaradıcılıq məsələləri barədə qələm və zəka sahiblərinin fikir, düşüncə mübadiləsinə geniş meydan verməsindən irəli gəlir. Belə bir meyl vaxtilə "Mütərcim" Tərcümə Mərkəzinin təsis etdiyi "Mütərcim" və "İslam vəhdət ocağı" tərəfindən təsis edilən "Cahan" jurnallarında özünü göstərmişdi. Həmin dərgilərdə zaman və məkan məhdudluğuna yol verilmədən, Qərb və Şərq dillərindən maraqlı tərcümələr dərc edilirdi. Lakin həmin dərgilər nəşrini dayandırandan sonra mətbuatımızın mövzu-tematikasında müəyyən bir boşluq hiss edilməyə başladı. "Ustad" bir növ həmin boşluğu doldurmağa, həm də bu məqsədlə problemə bütün yönlərdən və müxtəlif səpgilərdə yanaşmağa çalışır. Mövzu-problem rəngarəngliyi, məzmun əhatəliliyi, aktuallıq, sosial-ictimai məsələlərə münasibətini ədəbi baxış nöqteyi-nəzərindən sərgiləmək "Ustad" publisistikasının səciyyəvi xüsusiyyətləridir. Biz "Ustad"da paralel olaraq həm yerli müəlliflərin *(məsələn, Şəmil Sadiqin "İblisin intiqamı" və İkinci Dünya müharibəsi" (№8), "Soldat, nişan yes?" (№13), Alxan Bayramoğlunun "A.Surun təşəkkürü və..." (№15), Dilqəm Əhmədin "Gök Börü"nün işığında", Salidə Şərifovanın "İsa Muğanna yaradıcılığı Azərbaycan ədəbi-nəzəri fikir tarixində" (№15), Asif Rüstəmlinin "Poetik düşüncəli mütəfəkkir" (№12) və s.)*, həm də dünya şöhrətli əcnəbi müəlliflərin *(məsələn, Rolan Bartın "Tənqid və həqiqət", Halim Şafakın "Dahilər və eşqləri" (№12), Cəlil Cavanşirin*

"Misirə "Məhfuz pəncərəsi"ndən baxış" (№12), Sərdar Aminin "Sənət silaha çevriləndə – İran kinosu" (№12), Marina Tarkovskayanın "Danışa bilərəm..." (№12), Çiyudem Sezerin Emir Kustiriçanın "Durnalar uçur" ən yaxşı 3D filmi kimi", Viktoriya Lermanskayanın "Müasir ədəbiyyatın problemləri" (№13) və s. bir-birindən maraqlı yazılarını izləyə bilirik. Belə yazılardan bir neçəsinin ideya-məzmun xüsusiyyətlərinə diqqət yetirək.

Şəmil Sadiqin "Məhəmməd Füzulimi, Mirzə Fətəli Axundzadəmi ağıllı adam idi?" *(№4)* yazısında azyaşlı qızların çadraya bürünməsi məsələsinə toxunulub və yazı islam adət-ənənlərinə münasibətdə müstəqil düşüncə sahibi olmağa, ifrata varmamağa çağırış xüsusiyyəti ilə səciyyəvidir. Murad Adcının "İtmiş sərhədlər və ölkələr" *(№15)* adlı yazısında isə tarixi saxtalaşdırma faktlarının siyasi oyunlarda süni tutalğaya çevrilməsi və belə halların ifşa edilməsinin zəruriliyi məsələləri qabardılır. Yaxud İlham Qəhrəmanın "Aşıq eldə bir dindi" *(№15)* yazısında Sarı Aşıq yaradıcılığı haqqında təhlil və polemika ruhu hakimdir.

Ümumiyyətlə, dərginin oxuculara təqdim etdiyi publisist yazılardan əksəriyyətinin qayəsini tarixi və ədəbi araşdırma təşkil edir. Bu baxımdan, Məti Osmanoğlunun "Faciə əsrimizin müqəddiməsi" *(№7),* Füzuli Məcidlinin "Türklərin kəbəsi, səhrada gizlənən tarix..." *(№7),* Murad Adcının "Göylərə ayaq basanlar" *(№12),* Salidə Şərifovanın "Azərbaycan postmodern poeziyası" *(№12),* eləcə də Pərvanə Məmmədli, Nərgiz Cabbarlı yazılarının müasir ədəbi-mədəni düşüncə arenasına, hətta bir sıra suallar doğurub mübahisə doğura biləcəyini istisna etməməklə, ye-

nilik ruhu gətirdiyi etiraf edilməlidir. Zənnimizcə, "Ustad" da elə buna çalışır: inteqrasiya proseslərinin get-gedə gücləndiyi bir dövrdə milli varlığın və özgürlüyün mühafizəsində durmaq, bu istiqamətdə ədəbi-ictimai düşüncəni aktivləşdirmək, polemikaya meydan açmaq!

Beləliklə, biz 2017-ci ilin publisistikası mövzusunda təhlil və qənaətlərimizi ümumiləşdirməli olsaq, aşağıdakı nəticələrə gələ bilərik:

1. 2017-ci il publisistikası dövrün mühüm hadisələrini, milli-ictimai düşüncəmizdəki başlıca mətləbləri əhatə edə bilmişdir.

2. 2017-ci il publisistikasının əsas ideya motivlərini müstəqillik, millət və dövlət düşüncəsi, azərbaycançılıq, milli-mənəvi-əxlaqi dəyərlər, sənətin həyatla əlaqəsinin möhkəmləndirilməsi məsələləri təşkil etmişdir.

3. Ayrılıqda götürdükdə, bugünümüz üçün aktual səslənən elmi-tarixi və ədəbi-tarixi faktların yeni meyarlarla təhlili və dəyərləndirilməsi, məntiqi mühakimə gücü elmi publisistikamız üçün; həyatımızın bütün sahələrini əhatə edə bilən mövzu əlvanlığı, multikultural mühitimizdə azərbaycançılıq ideyası ətrafında birliyə çağırış, sənətkarlıq baxımından isə yeni forma axtarışları və dil-üslub rəngarəngliyi bədii publisistikamız üçün əlamətdar olmuşdur.

4. Publisistikamız Qarabağ mövzusunu il boyu gündəmdə saxlamışdır və torpaqlarımıza erməni təcavüzünün başlandığı illərdə olduğu kimi, yenə də ön cəbhəyə can atmaq iqtidarında olduğunu nümayiş etdirir.

5. Xalq yazıçısı Anarın bədii publisistika və akademik İsa Həbibbəylinin, habelə akademik Nizami Cəfərovun, filologiya üzrə elmlər doktoru Vaqif Yusiflinin elmi publi-

sistika sahəsində sürəkli yaradıcılıq fəallığı məxsusi olaraq istedad anlayışını və V.Q.Belinskinin bu barədəki məşhur kəlamını yada salır. Ölməz tənqidçi yazırdı: "...Ədəbiyyatın yolu istedadlar üçün geniş və asan, orta səviyyəli qabiliyyətlilər üçün dar və çətin, istedadsızlar üçün isə keçilməzdir..." *(Belinski V.Q. Seçilmiş məqalələri. Bakı, Gənclik, 1979, s.222).*

6. Publisist yazılar hazırlanarkən janr tələblərinə dəqiq əməl edilməməsi və dərc edilərkən onların janr məxsusluğunun təyin edilib göstərilməməsi publisistika yaradıcılığındakı ənənələrin unudulmasına, janr təsnifatında məhdudluğa gətirib çıxara bilər.

Hesab edirik ki, zaman dəyişdikcə publisist yaradıcılığı yeni səciyyəvi xüsusiyyətlər kəsb etdiyindən onun dinamikası, meyil və axtarışları, mövzu – problematikası barədəki növbəti qənaətlər də dəyişəcəkdir.

Lalə HƏSƏNOVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCANIN RUSDİLLİ NƏSRİ–2017

Azərbaycanın milli ədəbiyyatının rusdilli müəllifləri əsasən "Luç" Ədəbi Yaradıcılıq Assosiasiyası ətrafında birləşmişlər. İl ərzində Assosiasiya tərəfindən iki toplu çap olunmuşdur. "Günəşli külək" toplusunda müasir müəlliflərin hekayələri toplanmışdır.[1] Assosiasiya tərəfindən çap edilən sayca 32-ci topluda isə nəsr, poeziya, publisistika nümunələri yer almışdır.[2]

Kitablarda Elmira Axundova, Marina Mürsəlova, Marat Şəfiyev, Leyla Bəyim (Çexiya), Arif Turan və b. müəlliflərin əsərləri yer almışdır.

Son illər yaşanan tarixi proseslərə, xalqımızın faciələrinə biganə qalmayan müəlliflər, bu mövzuya xeyli sayda əsərlər həsr etmişlər.

Qarabağ müharibəsinin iştirakçısı olmuş Viktor Tatarenkonun (Rusiya, Moskva) "Firəngiz və Xanlar" povestində, Rauf Nəsirlinin "Səbəb" hekayəsində müharibə gerçəklikləri təsvir olunmuşdur. İren Tasalova ("Mənim Qara Bağımda" «В моем черном саду»), Səbinə Vəlibəyova ("Xocalı") şeirlər, Leyla Bəyim "Qarabağa ağı" («Плач по Карабаху») poemasını qələmə almışlar. Həmvətənlərimiz olan Leyla Bəyim və Yefim Abramov bu mövzuda daha iki əsər yazmışlar.

---

[1] Солнечный ветер. Сборник рассказов современных азербайджанских авторов. Баку, Тэкнур, 2017, 336 с.

[2] Новруз моей души. Баку, Тэкнур, 2017, 288 с.

"Qara qarçiçəyi" povestinin əsas personajı, Xocalı hadisələrinin şahidi, bu qırğında ailə üzvlərini itirmiş Natavan uzun zaman kəsiyinin keçməsinə baxmayaraq, xatirələrində həmin dəhşətli hadisələri daim yenidən yaşamağa məhkumdur. Bu mövzuda qələmə alınan bir çox əsərlərdə olduğu kimi, baş verənlər vəhşiliklərin qurbanı və canlı şahidi olan qadın tərəfindən nəql edilir. Ermənilərin dünya işığından məhrum etdiyi Natavan (quldurlar onu gözlərində siqaret söndürərək onu kor etmişlər) acı xatirələrdən qurtulmağa çan atır.

Hadisələr Amsterdamda və Xocalıda cərəyan edir. İlk öncə xatirələrdə canlanan səhnələr, sonradan ayrıca fəsillərdə təfsilatı ilə təsvir edilir. Yaşananlardan əzab çəkən Natavan olanları unutmaq üçün psixoterapevtə müraciət etsə də, son olaraq onun həyatını işgəncəyə çevirən xatirələrin silinməsindən imtina edir.

Povestin mövzusu psixoloji-dramatik təsviri diktə etsə də, müəlliflər bu məqamlara toxunmadan lüzumsuz intriqaların təsviri ilə mövzudan uzaqlaşırlar. Amsretdamda Patrik adı altında həkim kimi fəaliyyət göstərən, Pərvizin, Natavanın uşaqlıq dostunun həyat hekayətinin mövzu ilə bağlılığı zəifdir. Həmçinin onun yoldaşı ilə münasibətləri, Anna-Mariyə olan bağlılığının təsviri də süjet xətti ilə əlaqələndirilmir. Avropada müsəlmalara qarşı neqativ münasibət, Natavanın Xocalı soyqırımının tanıdılmasına çalışan qardaşının müəmmalı qətli ilə bağlı məqamlar dolğun bədii həllini tapmadığından, povestin əsas ideya yükünü ifadə edən fikirlər sadəcə ehtimal olaraq qəbul edilir, nəticədə mövzu bədii şərhini tapmır.

2016-cı ilin aprel ayında cəbhə xəttində gedən döyüşlər zamanı şəhid olan Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "heykəltəraşlıq" fakültəsinin məzunu Samir Kaçayevin xatirəsinə həsr olunmuş "Oğlanların arzuları" pyesi (müəlliflər: Leyla Bəyim və Yefim Abramov) Azərbaycan Dövlət Gənc Tamaşacılar Teatırında səhnələşdirlmişdir. Pyesdə baş rolları Elnur Kərimov (Sabir) və Günel Məmmədova (Ülviyyə) ifa etmişlər. Bir-birilərini sevən iki gəncin sevgi münasibətlərinin, görüşlərinin canlandırıldığı pyesdə sonradan gənc yaşda dünyadan köçən əsgərlərin ruhlar dünyasında başlarına gələnlər təsvir edilir. Yaxınlarının əsgərlərdən, ruhların yaxınlarından narahatlıqlarının canlandırıldığı əsərdə bu vaxtsız itkidən doğan sarsıntı, ağrı və əzab təsvir edilmişdir. Hadisələrin dinamikasının yer almadığı əsərdə, doğmalarının vaxtsız itkisindən doğan psixoloji gərginliyin, həyatı yarıda qırılan gənclərin yaşadığı kədərin ifadəsi aktyorlardan böyük peşəkarlıq tələb edir. Gənc aktyorlar əsasən səssiz səhnələrdə canlandırılan bu ağrını uğurla ifadə edə bilmişlər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ermənistan silahlı birləşmələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində həlak olan 2 yaşlı Zəhra Quliyevanın ölümünə şeir həsr etmişdir. Şeirdə azyaşlı körpənin həyatına qıyan quldurları ittiham edən şairə, yaşanmadan bitən insan ömrü, vaxtsız gələn ölümün doğurduğu sarsıntı, kədər əks olunmuşdur.

İl ərzində Tofiq Ağayevin "Ümumbəşəri söhbət" («Всемирный разговор») şeirlər kitabı çap edilib, müxtəlif mətbu orqanlarda Səyavuş Məmmədzadə, Leyla Qara-

məzli, Elizaveta Qasımova, Alina Talıbova, Əkrəm Məlikov və b. şeirləri dərc edilmişdir.

Rusdilli poeziyada əsasən xalqımızın tarixini, mədəniyyətini yaşatmağa çalışan müəlliflər, doğma Azərbaycanın dolğun obrazını canlandırmağa çalışırlar. Alina Talıbovanın "Yay lövhə"ləri, Tatyana Troşinanın (Rusiya, Belqorod) "Qafqazın adət ənənələri", Valentina Əfəndiyevanın Molla Pənah Vaqifə həsr etdiyi "Əfsanələr qapısı" , "Fətəli xan haqqında ballada" və başqa nümunələrdə bu motivlərdən geniş istifadə olunmuşdur.

Vətəndən uzaqda yaşayıb-yaradan müəlliflərin poeziyasında, iki doğma məkan arasında yaşanan həyat, Vətən həsrəti canlandılrılmışdır:

Həyətdə fevral ayı, qəlbimdə isə yazdır,
Lakin mən kədərli, narahat
və yuxusuzam.
Doğma sahilimizi görürəm.
O qumsal sahilə qovuşa bilsəm,
qanım qaynayar, istisini hiss edə bilsəm,
İki doğma dünya arasında sərhədləri dəf edə bilsəm,
Ərisəm bu sədlərdə, bal kimi axsam ...

***

.... mən özümə doğma olan şəhərdə,
Nədənsə tarın avazını eşidir
Evimizə çan atıram...

(Leyla Bəyim) (Tərcümə məqalə müəllifinindir).

"Şüa" ("Luç") Assosiasiyasının əsas fəaliyyəti Azərbaycan ədəbiyyatı və mədəniyyətinin beynəlxalq arenada

təbliğinə istiqamətlənmişdir. Bu baxımdan müəlliflərin əsərlərinin xarici ölkələrdə tanıdılması sahəsində mühüm işlər aparılmaqdadır.

Ləman Bağırova 2012-ci ildən çap olunmağa başlamışdır. Bu illər ərzində dörd kitabı işıq üzü görmüşdür. Bunlardan ikisi "Yaddaş ipi" (2015), "Si notu" (2016) Vilnyusda nəşr edilib.

Ləman Bağırova müxtəlif ölkələrdə (Rusiya, Bolqariya, Belorus, Ukrayna) keçirilən müsabiqələrin iştirakçısı olmuşdur. Rusiyada keşirilən "Ağ akasiya" (2015) müsabiqəsində birinci dərəcəli laureat, Ukraynada keçirilən beynəlxalq ədəbiyyat müsabiqəsində («Созвездие Духовности») «Kiçik nəsr» nominasiyasına layiq görülmüş, Avropa Ədəbiyyatçılar Konqresinin (Çexiya) və Gürcüstanın Yazıçılar Birliyinin Diplomu ilə təltif edilmişdir. Azərbaycan və Rusiya Yazıçılar Birliyinin üzvüdür.

İl ərzində assosiasiya tərəfindən Arif Turan gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində xidmətlərinə görə "Qranat", Marina Mürsəlova "Tabula rasa" romanına görə "ili ən yaxşı əsəri" nominasiyasında Molla Pənah Vaqif müakaftına layiq görülmüşlər.

Arif Turan "Моя влюбленная душа"(şeirlər kitabı), «Azərbaycan mədəniyyətinin korifeyləri», "Azərbaycanın Milli Qəhrəmanları" kitablarının müəllifidir. Özü Qarabağ müharibəsinin iştirakçısı olan müəllif, "Azərbaycanın Milli Qəhrəmanları" kitabında şəhid olmuş müxtəlif milliyətdən olan 30 şəhidin həyatından bəhs etmişdir.

Arif Turan janrını bədii-fantastik təqdimat – poema olaraq müəyyənləşdirdiyi "Muğam əbədiyyət səhnəsində" («Мугам на сцене Вселенной») əsərinin müəllifidir.

Rusdilli ədəbiyyatın tanınmış nümayəndələrindən olan Səyavuş Məmmədzadənin Azərbaycan dilində yazılan əsərlərin rusca tərcüməsi sahəsində illərdir ki böyük xidmətləri vardır.

Ötən il Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabı çap olunmuşdur. Əsərdə Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında faktlar, arxiv materialları, müsahibələri yer almışdır.

Rusdilli nəsrin görkəmli nümayəndələrindən olan Natiq Rəsulzadənin il ərzində bir neçə hekayəsi çap edilib. «Qırmızı paltarlı qadın» əsərində heç bir peşəsi, daimi yaşayış yeri olmayan (o, ilk olaraq anasını və qardaşını, sonra isə həyat yoldaşını tərk edir), uğursuz ailədə doğulan, anası döyərkən zədə alan Aqaşka yalnız kriminal aləmlə ünsiyyətdə olmağa üstünlük verir. Aqaşka ətrafındakı insanlara əziyyət verməkdən, onları alçatmaqdan zövq alır. Yalnız ömrünün sonunda özünün yanlış yolda olduğunu anlayır. Əsərdə müasir sosial və mənəvi problemlər (ailənin maddi imkansızlığı, itirlən ailə dəyərləri), əxlaqi mənəvi deqradasiya əks olunur. Aqaşkanın yetirməsi olduğu mühitin gələcəkdə də bu cür insanlar yetirəcəyi narahatlıq doğurur.

Natiq Rəsulzadənin hekayələrində müasir dövrün mənəvi-psixoloji problemləri təsvir edilir. Hadisələr bir personajın ətrafında cərəyan etdiyi bu hekayələrdə, personajların ətraf mühit ilə qarşıdurması təsvir edilmişdir. İnsanlar tərəfindən şər adlandırılaraq qəbul olunmayan xüsusiyyətlərin cəmiyyətin doğurduğunu göstərən müəllif, son olaraq marginal insanı deyil, şəri doğuran mühiti ifşa edir.

İnsanları uşaqlara xas saflığı qorumağa səsləyən Yusifin acınacaqlı həyatı (Psix), cəmiyyətin şablonlarına uyğun olmayan insanların acı taleyini simvolizə edir.

Gözlənilməz sonluqla bitən "Gecə gəzintisi" hekayəsi yazıçı və oğrunun qarşıdurması təsvir edilmişdir. Oğrunun yazıçıya hücumu ilə başlanan dialoqda ilk olaraq yazıçının mənən yüksəkliyi, oğrunun acı həyatı əks olunsa da, sonda yazıçı oğrunu qətlə yetirir. Törətdiyi qətlin motivlərindən bəhs edən yazıçı, öz daxili çirkinliyini, xəbisliyini ifşa edir. Xeyirxahlıq altında gizlənən şər daha qəddar və amansızdır.

M.Mürsəlovanın "Mister Uoker" hekayəsində çarəsiz vəziyyətdə belə insana yaşamaq üçün stimul verən sevgi hissindən bəhs olunur. Eyni zamanda başqasının ağrısına laqeyd qalaraq, kiminsə faciəsini özü üçün əyləncəyə çevirən kütlə təsvir olunur. Mister Uoker – hədsiz dərəcədə kök insan hər gün müəyyən saatda şəhər sakinləri qarşısında "nümayiş etdirilir". Qazanılan pulla onun ailəsi özünün maddi xərclərini təmin edir. Təsadüfən qarşılaşdığı sevgilisi Mister Uokerə həyatını yenidən qurmaq üçün şans versə də, o, arzularına çata bilmir, vəfat edir. Onu tamaşa etməyi sevən insanlar bu dəfə ölüm mərasiminə yığışırlar. Həyatı, yas mərasimi əyləncəyə çevrilən insanın faciəsi haqqında isə heç kim düşünmür. Vəziyyətin ağırlığını qeyd edən müəllif, oxucularına ritorik sualla müraciət edir: "əgər birinin dərdi başqalarını əyləndirirsə, görəsən bu dünyada hər şey qaydasındadırmı?"

Valentin Cumazadənin "Həyatın dibində", "Dəniz sahilindəki bağ" hekyələrində sosial çətinliklərdən əzilən, mənən sınan insanların həyat hekayətləri təsvir edilir.

"Mərhəmət ədalətdən üstündür" əsərində "oğrunu" qanunla deyil, insani anlayış gösətərərək insanlıq prinsipləri əsasında hərəkət edən polisin həyat hekayəsi, "Yoldaş milisioner, çənab polis" hekayəsində uzun müddət polis sistemində çalışmış insanın xatirələri canlandırılmışdır.

Fantasika janrında yazılmış hekayələrin müəllifi Erix Qauzer AMEA Geoloqiya və Geofizika İnstitututnun əməkdaşıdır.

Son illər qələmə alınan əsərlərdə xəbərdarlıq motivi, ekoloji, mənəvi problemlər bu zaman dünyamızın qarşılaşacağı təhlükənin təsviri yer almaqdadır. E.Qauzerin "Spontan rəqslər" hekayəsində dindən, mənəviyyatdan uzaqlaşan bəşəriyyətin qarşılaşaçağı vəziyyət canlandırlımışdır. "Artıq bir neçə il idi ki, bu anlayışlar tarixin qalıqları hesab edilirdi. İnsanları yalnız maddi təminatları narahat edirdi". Bu cür yaşamın ağrılı nəticələri əks olunduğu əsərdə müəllif Yanisin həyatın ilkin xüsusiyyətlərinin mövcud olduğu "ada"ya doğru can atmasını təsvir edilmişdir. "Spontan rəqslər" və "İkinci cəhd" hekayələri fantastika janrında qələmə alınıbsa, "Əbədi oyun" hekayəsini insan həyatını idarə edən, yönləndirən İlahi qüvvə (Rejissor) və ömrünü bu qüvvənin istəyi ilə yaşamalı olan insan (Artist) haqqında hekayə-pritça olaraq müəyyənləşdirmək olar.

Ləman Bağırova, Murad Həsənov, Elmira Almasova və b. müəlliflərin əsərlərində adi insanların hekayələri nəql edilir. Əsasən avtobioqrafik qəhrəmanların (personajlar Bakıda doğulmuş insanlardı, bəzən baş qəhrəman müəllifin adını daşıyır) yer aldığı əsərlərdə müasir həyatımızdan tablolar əks edilmişdir.

Murad Həsənovun "Yay yağışların yağdığı şəhər" əsərində mühacir həyatı, bakılı gəncin yad ölkədə qarşılaşdığı problemlər canlandırılmış, Elmira Abbasovanın "Nağılllardan gələn qəhrəman" hekayəsində ana və qızının timsalında çətinliklərlə dolu qadın taleyi ifadə olunmuşdur.

Təəssüf ki, adi insanların gündəlik qayğılarından bəhs edən bu əsərlərdə çox zaman mövzunun publisistik təsviri yer alır. Maraqlı, aktual mövzu ilə seçilməyən bu əsərlər sənətkarlıq baxımından da orta səviyyəli yaradıcılıq nümunələri olaraq yadda qalır.

Lalə Bağırovanın "Abşeronda keçən illər" əsəri uşaqlıq xatirələri əsasında qələmə alınmışdır. Nəvələrinin gözə gələcəyindən çəkinən nənələrin "üçüncü və ya şənbə günləri üzərlik" yandırmaları, Abşeron bağlarının özəlliklərinin (tut ağacları) əks olunduğu azərbaycanca ifadələrin yer alıdığı hekayələrdə milli kolorit qorunmuş, Abşeronun füsunkar təbiəti, həyat tərzi, məişəti əks olunmuşdur.

Gülüş Ağaməmmədovanın əvvəlki illərdə qələmə aldığı "Maneken" kitabında fantastik novellalar üstünlük təşkil edirdisə, "Şərqli qadın" kitabında realist üslubda yazılmış hekayələr yer almışdır. Müəllifin dörd kitabı rus dilində, iki kitabı isə fransız dilində çap olunmuşdur. G.Ağaməmmədova yazıçı kimi tanınmaqla yanaşı, tərcümə sənəti ilə məşğuldur. Fransız dilindən mükəmməl tərcümələrin müəllifidir.

Tahir Əlinin "Mirzə Xəlil və Yağış adam" povesti ötən illər qələmə alınan dedektiv əsərləri silsiləsindəndir.

Murad İbrahimbəyovun "Leninin sinaqoqun qapısını bağlaması" hekayəsi sos-art üslubunda yazılmışdır. Sos-art

– "sosialist realizmi sənətinin stereotiplərinin, formul, simvol və işarələrin yenidən istifadəsi və parodik dəyərləndirilməsi" (S.Çuprin) olaraq xarakterizə edilən bu üslub, "kütləvi ideoloji basqıya məruz qalmış totalitar cəmiyyətin məhsulu" (M.Fray) olaraq dəyərləndirilir. Ədəbiyyatda sos-art motivləri 1980-ci illərdən yer almışdır. Rus nəsrində V.Sorokin, E.Popov, poeziyda T.Kibrov, M.Suxotin kimi nümayəndələri olmuşdur. Azərbaycan ədəbiyyatında o qədər də yer almamışdır.

Sovet dövrünün tanınmış siması olan insanın adı oxucuda müəyyən assosiasiyalar doğursa da (sovet ideologiyasının banisi, "Oxumaq, oxumaq yenə də oxumaq" fikri ilə savadlı sovet cəmiyyətinin formalaşmasına cağırışın müəllifi və s.), əsərdə, məlum stereotirplər aradan qalxır. Öz adını doğrulda bilməyən, sovet liderinin obrazına tam əks həyat sürən insan sonradan adını dəyişərək adi vətəndaşa Məmmədə çevrilir.

Ona Lenin adını verən valideynlər gələcəkdə bu adın övladlarının öz həyatına, həmçinin atasının partiyada karyerasına müsbət təsir edəcəyini düşünürlər. Lakin öz adından doğan gözləntilərə əks olaraq o, böyüdükcə "vəhşi" təbiətə malik insan olaraq formalaşır.

Məmməd – Leninin atıcı kimi karyerasına ictimai-siyasi sayıqlığı ilə son qoyan komsomolşu fəal Fazil, qanunsuz ticarətlə məşğul olaraq sərvət toplayan Yosya Bexer də sovet gercəkliklərinin tipləri olaraq təsvir edilmişdir.

Son illər əzəli dəyərlərdən bəhs edən yazıçılar çox zaman keçmişə, yaradılışın ilkin cağlarına üz tutaraq, çağdaş dünyada yaşam meyarlarının müəyyənləşdirilməsi prinsiplərini aydınlaşdırmağa çalışırlar.

Marina Mürsəlovanın "Tabula rasa (təmiz səhifədən)" əsəri tarixi roman janrında qələmə alınmışdır. Roman müəllifin çap olunmuş ilk iri həcmli əsəridir. "Həyat, böyük məhəbbət, adət-ənənlər, dini mənsubiyyət, insanlar arasında münasibətlərdən" bəhs olunan əsərdə islamaqədərki dövr əks olunmuşdur. "İnam, Allah uğrunda ölüm hər kəsə nəsib olmayan səadətdir… Nəhayət ki, insanlar arasında yadlıq aradan qalxacaq, müharibələr və xəstəliklər bitəcək, insanları inam və mərhəmət idarə edəcək. Bəşər övladı anlamalıdır ki, qısa müddətli insan ömrü – Allahın mərhəmətini və əbədi həyatı qazanmaq üçün bir verilmiş imkandır..." Bu fikirlər əsərin ideyasının əsasını təşkil edir. Məhəbbət, birlik hisslərinin tərənnüm edildiyi romanda məhəbbət xətti ilə yanaşı, Şəkinin Kiş kəndindəki kilsənin tikilməsi tarixi təsvir edilmişdir. Həvari Varfolomey və onun ardıcılları olan insanların qədim Azərbaycandakı fəaliyyətindən bəhs olunmuşdur.

Müəllifin tarixi faktları yetərincə mənimsəməsi, zərdüştlüyün məişət səviyyəsindən başlayaraq fəlsəfəsini açmağa cəhd etməsi əsərin müsbət keyfiyyətlərindəndir.

Hadisələrin baş verdiyi tarixi mühiti dolğun şəkildə canlandırmağa çalışan yazıçı, tarixi faktlara, anlayışlara aydınlıq gətirmiş, Zərdüştlüyə sitayiş edənlərin bayramları, əyləncələri haqqında məlumat verərək, tarixi koloriti canlandırmağa çalışmışdır. Romanın hər fəslinin əvvəlində müxtəlif dini kitablardan sitatlar, tanınmış insaların fikirləri epiqraf olaraq verilmişdir.

Hadisələr Atropatenanın paytaxtı Qazaka şəhərində baş verir. Əsərdə tarixi obrazlar (Kiaksar), saray intriqaları (Kiaksar və baş kahin Eştar arasında qarşıdurma) adi in-

sanlar, onların məişəti təsvir olunmuşdur. Yad ölkəyə təşrif gətirən gənclər ilk sevgilərini məhz bu torpaqda dadmaq nəsib olur (David və Edaye, Rəfaim və Sevar).

Son illər roman janrına marağın artdığı müşahidə olunur. "Mənim qəlbimdəki Novruz" toplusuna Fərhad Ağamalıyevin "Dalğaların o biri üzü", Nay Svetlaninin tarixi janrda yazılmış "Yenilməz" (Şirvan diloqiyası) romanlarından parçalar daxil edilmişdir.

Beləliklə, ötən ilin əsərlərinin təhlili rusdilli ədəbiyyatın əsasən məhdud çərçivədə inkişaf etməsinə baxmayaraq, janr-üslub özünəməxsusluğu ilə seçildiyini bəlli edir. Milli kontekstə bağlılığın yeni ədəbi meyillərdən istifadəni inkar etmədiyinin şahidi oluruq. Müəlliflərin beynəlxalq müsabiqələrdə uğurlarının artması, internet resusrslarda təmsil olunmaları Azərbaycanın rusdilli ədəbiyyatının uğurlu gələcək perspektivlərinin göstəricisidir.

Maral YAQUBOVA
Filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ–2017

Ədəbiyyat – söz yaradıcılığı öz tarixi, sosioloji, psixoloji, fəlsəfi mahiyyəti ilə ədəbiyyatşünaslıq elminin obyektində dayanır, eyni zamanda ədəbiyyatı dərk tənqidi düşüncə, ədəbiyyatın yaşama haqqı onun tədrisi ilə birbaşa bağlıdır. Ədəbiyyat tarixinin, ədəbi tənqidin və ədəbiyyat nəzəriyyəsinin ədəbiyyata yanaşma prinsiplərindəki məqsəd və onu gerçəkləşdirmə vasitələri ədəbiyyatşünaslığın sahələrinin sərhədlərini müəyyənləşdirir. Bu sərhədlərin əsas xüsusiyyəti isə ayırıcı yox, birləşdirici keyfiyyətlərin üstünlüyü ilə səciyyələnir. Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatşünaslığın bütöv elm kimi özünü doğrultmasında aparıcı mövqeyə malikdir. Ədəbiyyat tarixçisi ədəbi fikrin tarixi ardıcıllığını müxtəlif mətnlər əsasında sistemləşdirərkən, ədəbiyyat tənqidçisi ədəbi prosesə daxil olan bədii fakta münasibət göstərərkən ədəbiyyat nəzəriyyəsinin qanunauyğunluqlarına əsaslanır, onun müəyyənləşdirdiyi formulları predmet kimi tətbiq edir. Bədii-estetik düşüncədə ciddi paradiqmatik dəyişikliklər müşahidə olunduqda, ədəbiyyatın yönünü və istiqamətini dəyişəcək yeni faktlar üzə çıxdıqda onları adlandırmaq, formaya salmaq, təsnif etmək, modelləşdirmək ehtiyacı yaranır. Bu adların yaranması və nəzəri dövriyyəyə daxil olması qaçılmaz hal alır. Bu zaman ədəbiyyatşünas alim nəzəriyyənin mövcud lüğət bazasında və terminoloji ehtiyatında olmayan yeni adlara ehtiyac duyur, nəzəriyyənin hazır formulları əsasında ye-

nilərinin yaranması aktını gerçəkləşdirir. Deməli, nəzəri bilgi istənilən halda bütövlükdə ədəbiyyatşünaslıq elminin metodologiyasını müəyyənləşdirir, müxtəlif elm sahələrinin təsnifat cədvəlində müstəqil yerini müəyyənləşdirən əsas amilə çevrilir. 2017-ci ildə ədəbiyyat nəzəriyyəsinin ümumi mənzərəsinə nəzər salmaq və sistemləşdirməyin çətinliyi də bununla bağlıdır. Ədəbiyyat nəzəriyyəsi prinsip olaraq ədəbiyyatşünaslığın bütün sahələrinin içindədir. Bir ilin ədəbi-nəzəri düşüncəsinin bütün faktlarını – ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, ədəbi tənqid kimi əsas sahələrlə yanaşı, ədəbiyyatın sosioloji, psixoloji, fəlsəfi, tədris, tərtib və s. kimi əlavə funksiyalarını da nəzərə almaqla – bir məruzənin daxilində toplamaq, şərh etmək qeyri-mümkündür. Yuxarıda qeyd etdiyimiz kimi, nəzəriyyə prinsip olaraq ədəbiyyatşünaslığın bütün sahələrinin içində olmalıdır, amma bu prinsipin fakta çevrilməsi isə hər zaman baş tutan hadisə deyil. İl ərzində onlarla, yüzlərlə müxtəlif janrlarda elmi tədqiqatlar aparılsa da, bu tədqiqatların yalnız müəyyən qismi ədəbiyyat nəzəriyyəsi ilə bağlı ilin yekunlarına dair məruzənin obyektinə çevrilə bilir. Nəzəriyyənin ən səciyyəvi cəhəti məhz, ikixətli hərəkət planına sahib olmasındadır. Belə ki, nəzəriyyənin yaranması və var olması üçün həm ədəbiyyat tarixi, həm ədəbi tənqidin mövcudluğu nə qədər vacibdirsə, sonuncu ikilinin varlığı da nəzəriyyədən asılıdır. Ümumiyyətlə, ədəbiyyat nəzəriyyəsinin 2017-ci ildəki ümumi vəziyyətini şərh etmək üçün, nəzəriyyənin içində olduğu sahələrə baxmaq lazımdır, bu sahələri isə mövqeyinə görə təxminən belə sıralamaq olar. Elmi-tədqiqat müəssisələrinin nəzəriyyə profilli şöbələrində yerinə yetirilən işlər, akademik təd-

qiqatlar, monoqrafiyalar, dissertasiyalar, məqalələr, məruzələr və s.; Elmi-tədqiqat müəssisələinin qeyri-nəzəriyyə profilli şöbələrində aparılmış akademik tədqiqatlar (Məsələn, ədəbiyyat tarixinə dair yazılmış tədqiqatlarda nəzəriyyənin ötürdüyü hazır modellərin tətbiqi daha səciyyəvi haldır. Müəllif yaradıcılığının fərdiliyi baxımından, bəzən tədqiq edilən konkret yaradıcılıqda və konkret dövrdə müşahidə edilə biləcək *yeni olanı* adlandırmaq nəzəriyyəyə təsir edə bilər.); tədris müəssisələrinin nəzəriyyə profilli şöbələrində təlim-tədris və informasiya məqsədilə yerinə yetirilən işlər; elmi publisistik səviyyədə, ədəbi tənqidin bədii-estetik düşüncənin qoyduğu suallara axtarış və cavablandırma cəhdləri kimi məqalə, rəy, esse, müsahibə və s.

Bu təxmini bölgünün məqsədi təqdim olunan məruzənin işini asanlaşdırmaq deyil, nəzəriyyəçiliyin konseptual və dinamik xarakterini əsas götürərək, ədəbiyyat nəzəriyyəsinin dövrün dəyişən paradiqmalarına reaksiyasını düzgün müşahidə edə bilməkdir. İl ərzində qeyd edilən sahələr üzrə seçilmiş faktlar əsasında nəzəri fikrin mövcud vəziyyətinə nəzər salmaq, nəzəriyyənin özü ilə bərabər, onun tətbiqini və tədrisini izləmək məruzənin məqsədini təşkil edir. Ədəbiyyat nəzəriyyəsinin sistemli elm sahəsi kimi formalaşması prosesi daha çox müxtəlif təcrübələrin kombinasiyasında, elmi düşüncənin fərqli ifadə formalarında, məqalə, məruzə, monoqrafiyalarda çoxsaylı metodik modifikasiyalarla özünü göstərir.

Məlumdur ki, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsi respublika miqyasında nəzəri fikrin akademik, eyni zamanda ədəbiyyat nəzəriyyəsi profilli yeganə elmi-tədqiqat mərkəzidir. Ədə-

biyyatın ümumi nəzəri məsələlərinin, klassik Azərbaycan və Şərq ədəbiyyatlarının nəzəri problemlərinin, bədii təraqqinin inkişaf qanunauyğunluqlarının kompleks tədqiqi; ədəbi bədii tənqidin metodologiyasının araşdırılması; Azərbaycan ədəbiyyatının tarixi poetikasının tədqiqi, bədii obrazlarının, janr və bədii ifadə vasitələrinin təkamülünün araşdırılması şöbənin tədqiqat istiqamətlərini təşkil edir. *"Ədəbiyyat nəzəriyyəsi" şöbəsində 2017-ci ildə, "Bədii ədəbiyyatın nəzəriyyəsi, ümumi qanunauyğunluqları, kompleks tədqiqinin metodoloji prinsipləri və məsələləri"* problemi əsasında aşağıdakı istiqamətlər üzrə elmi tədqiqat işləri aparılmışdır. *"Ədəbi növ və janr problemi (Azərbaycan ədəbiyyatı materialları əsasında)"mövzusunda Prof. Tahirə Məmməd* "Dramatik ədəbi növün janr təsnifatı və xüsusiyyətləri, *fil.e.d. Nailə Muradəliyeva* "Roman janrının tarixi poetikası", *fil.e.d. Əliyev Cavanşir:* "Lirik ədəbi növün xüsusiyyətləri, janr təsnifatı; Azərbaycan ədəbiyyatında təşəkkülü və inkişaf mərhələləri", *fil.e.d., prof. Rəhilə Qeybullayeva* "Ədəbi növ və janr problemi (Azərbaycan ədəbiyyatı materialları əsasında)", *fil.e.d. Məhəmmədəli Mustafayev* "Heca vəzni və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri", *fil.ü.e.d. Pərvanə İsayeva* "Faciə janrı və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri", *fil.ü.f.d., dos. Simuzər İsmayılova* "Lirik-epik janrlar: poema", *fil.ü.f.d., dos. Rasim Qurbanov* "Azərbaycan şifahi xalq ədəbiyyatında epik janrlar: tədqiqat tarixi və müasir elmi-nəzəri fikir", *fil.ü.f.d. Aqşin Dadaşzadə* "Dram: janr xüsusiyyətləri təsnifatı", *fil.ü.f.d. Aslan Salmanov* "Ədəbi əsərlərin tekstoloji və nəzəri dərki (S.Vurğunun yaradıcılığı əsasında)", *fil.ü.f.d. Maral Yaqubova* "Epik ədəbi növün

janr təsnifatı və xüsusiyyətləri", *Nizami Vəliyev* "Azərbaycan ədəbiyyatşünaslığında Qərb mənşəli şeir şəkilləri", *Jalə Rzayeva* "Romantik lirikada janrlar və onların tədqiqi problemi", *Leyla Rzayeva* "Musiqili dramatik janrlar: Opera-operetta, melodram, libretto" adlı elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Adı çəkilən tədqiqatlarda ədəbiyyat nəzəriyyəsinin mühüm sahəsi olan ədəbi növ və janr problemi yeni münasibətdə araşdırılmış, Azərbaycan ədəbiyyatşünaslığındakı mövcud boşluqları doldurmaq, ədəbi-nəzəri fikrin dəyişən paradiqmasını və ədəbi-prosesdə dəyişən paradiqmalara ad qoymaq, izah etmək və şərhini vermək əsas məqsədə çevrilmişdir.

Ədəbi-nəzəri fikrin bədii fakta çevik reaksiyasını gecikdirən məqamları üzə çıxarmaq, nəzəriyyənin bütövlükdə ədəbiyyatşünaslıq üçün əhəmiyyətinin böyüklüyünü təsdiq etmək üçün nəzəriyyə ilk növbədə özü-özünü tanımalıdır. Bu istiqamətdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində prof. Tahirə Məmmədin rəhbərliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilən "Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemlər" adlı layihəni xüsusi vurğulamaq istərdik. Elmin İnkişaf Fondunun 2013-cü ilin əsas qrant müsabiqələri üzrə "Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemlər layihəsi" qalib layihə olmuşdur. 2015-ci ilin mart ayından layihə rəhbəri və iştirakçılar (f.ü.e.d., prof. Rəhilə Qeybullayeva, f.ü.e.d. Nailə Muradəliyeva, f.ü.f.d., dos. P.İsayeva) layihə üzərində işləyirlər. Layihənin Rusiyada, Qazaxıstanda, ABŞ-da təqdimatları keçirilmişdir. Ədəbiyyat nəzəriyyəsinin tarixi inkişaf xətti-

ni, mərhələlər üzrə təsnifatını, Azərbaycanda ədəbiyyat nəzəriyyəsi elminin müstəqil elm sahəsi kimi formalaşmasının əsaslarını və s. məsələlərin araşdırıldığı layihə nəzəriyyə sahəsindəki boşluqları doldurmaq potensialına malikdir. 2017-ci ildə layihə üzərində yekun işlər aparılmış, iki cild halında çapa təqdim olunmuşdur.

Təqdim olunan məruzənin obyektində ədəbiyyat nəzəriyyəsi dayandığı üçün, 2017-ci ildə bütöv ədəbiyyatşünaslıq miqyasında akademik səviyyədə çap olunmuş kitablara seçici yanaşmaq, müəllif mövqeyində nəzəri düşüncənin ağırlıq daşıdığı, ədəbiyyat nəzəriyyəsinin qanunauyğunluqları və prinsipləri baxımından əhəmiyyət kəsb edən əsərlərə yer vermək məcburi hal alır.

2017-ci ildə akademik İsa Həbibbəylinin " Ədəbi şəxsiyyət və zaman" (Əsərləri, 10 cilddə, II cild. Bakı, "Elm və təhsil", 2017, 1068 səh.) adlı tədqiqat əsəri çap olundu. Bu iri həcmli əsərdə ilk başlıq "Ədəbiyyat və zaman" adlanır və ilk abzas ədəbiyyatın tərifi ilə başlayır. "Ədəbiyyat-həyatı *bədii lövhələr və surətlər vasitəsi* ilə, f*ərdiləşdirmiş* və *ümumiləşdirmiş* şəkildə əks etdirən, t*ərbiyəvi* əhəmiyyətə malik olan söz sənətidir." (kursiv – Y.M.) Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı və elmi-ictimai fikri ilə yanaşı, Qərb və Şərq ədəbiyyatı, ədəbi-mədəni əlaqələrin müxtəlif istiqmətlərinə dair professional və nəzəri səviyyəyə malik elmi əsərlərin, o cümlədən tarix, siyasət, incəsənət, folklor və mətbuat sahələrində yazılmış bir çox əsərlərin müəllifi akademik İ.Həbibbəylinin müxtəlif ədəbi dövrlərlə bağlı mülahizə və şərhlərində, ayrı-ayrı ədiblərə, əsərlərə müraciətlərində daima sistemli, konseptual nəzəri yanaşma müşahidə olunur. Dünyanı, gerçəkliyi dərk etmə-

nin xüsusi forması olan ədəbiyyatı öyrənən, sistemləşdirən, sxem və modellər hazırlayan, mətnin özündən doğan və bir sonrakı mətndə oxucunu idarəetmə qabiliyyətinə malik metod və prinsipləri müəyyənləşdirən ədəbiyyat nəzəriyyəsi mürəkkəb və qapalı təəssürat oyadır. Akademik İsa Həbibbəyli də öz nəzəriyyəçi həssaslığı ilə bunu sezir, müşahidə edir və öz qənaət və rəylərini mövzusundan və predmetindən, ən əsası sahəsindən (ədəbiyyat tarixi və ya ədəbi tənqid sahələrindən biri olmasından) asılı olmayaraq yazdığı müxtəlif səpkili əsərlərinin strukturuna yerləşdirir. Ədəbiyyat nəzəriyyəsinin Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında və formalaşma prosesindəki əhəmiyyətini dönə-dönə vurğulayır. İsa Həbibbəylinin ədəbiyyat nəzəriyyəsinə, ümumilikdə ədəbiyyatşünaslıq elminə konseptual-dinamik və müasir baxışını səciyyələndirən mülahizələri maraqlıdır. Doğacaq mübahisələrə, gələcək təkziblərə və müzakirələrə qapalı olmayan mülahizələrin müəllifi nəzəri-estetik və bədii-fəlsəfi düşüncənin dinamik xarakterinə inanır. Ədəbiyyat nəzəriyyəsini statik qapalı struktur deyil, dinamik, özü-özünü yeniləməyi bacaran, ətraf təsirləri açıq sistem kimi izləyən alim, digər elm sahələri kimi, ədəbiyyatşünaslıq elminin də inkişaf edən zamanla birlikdə daim dəyişdiyini, yeniləşdiyini və zənginləşdiyini, inkişaf edən, dəyişən və yeniləşən ədəbiyyatla birlikdə ədəbiyyatşünaslıq elminin üfüqlərinin genişləndiyini çox dəqiq müşahidə edir və öz münasibətini bildirir. Akademik İsa Həbibbəyliyə görə, ədəbiyyat bütöv bir sistemdir və bu sistemin öyrənilməsinə və nəzəri konsepsiyasının hazırlanmasına onun ən kiçik və ən əsas elementindən başlamaq lazımdır. "Ədəbi-tarixi yaddaş və müasirlik"

(Bakı, "Nurlan", 2007, s.472) adlı kitabında qeyd edirdi ki, ədəbiyyatın tərifi ədəbiyyatşünaslıq elminin əlifbasıdır və ədəbiyyat barəsindəki digər elmi qənaət və mülahizələr ədəbiyyatın nə demək olduğunu müəyyən edən tərifdən sonra gəlir. Ədəbiyyata aid tərif xüsusi yaradıcılıq sahəsi olan bədii ədəbiyyatın özünəməxsus, ən ümdə, ən zəruri xüsusiyyətlərini və fərqli cəhətlərini özündə əks etdirməlidir. Ədəbi-tarixi yaddaşın müasirlik müstəvisindən dəyərləndirildiyi bu tədqiqat əsərindən on il sonra, alım bu dəfə təqdiqatın obyektinə ədəbi şəxsiyyət və zaman modelinin özünü qoyur. Alimin ədəbi şəxsiyyət və zaman modelinin tərtibində önə sürdüyü meyarları müəyyən başlıqlarda qruplaşdırmaqla nəzərdən keçirmək olar:

- *Zaman-ədəbiyyat-zaman çevrəsində şəxsiyyət dominantdır.*

Ədəbiyyat zamanın atmosferinin təyinatçısıdır, böyük yazıçıların və ədəbiyyatın yetişməsi zamanın diktə etdiyi yüksək idellarla mümkündür. İsa Həbibbəylinin fikrincə, yazıçının ədəbi şəxsiyyətə çevrilməsi isə zamanı düşündürən və qabaqlayan böyük ideallar səviyyəsinə çatması ilə baş tutur. Zamanın ictimai-siyasi məzmunu, mədəni-tarixi ruhu ədəbi cərəyanları, janrları, mövzuları, üslubları, qəhrəmanları yaradır, ədəbiyyat isə öz müqabilində zamanın dəyişməsinə təkan verir. İsa Həbibbəylinin böyük ədəbiyyat və zaman münasibətləri haqqındakı nəzəri görüşləri obyektiv və ümumiləşdirilmiş mühakimələrdən ibarətdir: "Böyük ədəbiyyat həmişə Zamanla dialoqda olub, lakin onu yalnız ifadə etməklə qalmamış, irəliyə doğru inkişafa işıq salmışdır.

Böyük ədəbiyyat Zamana münasibətdə çox ciddi tərəf müqabildir. Qarşılıqlı münasibətlərdə ədəbiyyat ağırlıq təşkil edəndə Zaman irəli gedir.

Zamanın böyük idealları özünün böyük yazıçısını və ədəbiyyatını yetişdirir.

Yazıçı Zamanı düşündürən və qabaqlayan böyük ideallar səviyyəsinə çatdıqda ədəbi şəxsiyyətə çevrilir. Ədəbi şəxsiyyət – möhtəşəm ədəbiyyat məbədinin yükdaşıyan divarı, onu çiyinlərində saxlayan dayanıqlı sütun, Zaman və ədəbiyyatı irəli dartan at gücüdür." (İ.Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. B., 2017, səh.3)

- *Klassik ədəbiyyatda Nizami (və digərləri) şəxsiyyəti ilə meyardır.*

Nizami Gəncəvi Azərbaycandan dünyaya modelini şərh edərkən İsa Həbibbəyli bu modelin bir-birinin içinə keçmiş dörd fərqli qatına diqqət yetirir: 1. Nizami Gəncəvi bütün bəşəriyyətə məxsusdur, Şərq və Qərb kontekstində ədəbi şəxsiyyətdir. 2. Nizami Şərq şairidir. 3. Türk-müsəlman dünyasının şairidir. 4. Və Nizami Gəncəvi Azərbaycan xalqının şairidir. (Müəllif bunu təsbit edən məqamları 10 bənddə sıralayır) "Marağalı Əvhədi", "Cahana sığmayan şair" (İ.Nəsimi), "Məhəmməd Füzulinin yaradıcılığında aşiq" "Ürfani şeirin Şəmsi" başlıqları altında klassik ədəbiyyatda meyarlaşan şəxsiyyətlər və onların yaradıcılığının yönverici xüsusiyyətləri tədqiq olunur.

- *Zaman şəxsiyyəti, şəxsiyyət ədəbiyyatı dəyişir*

Akademik İsa Həbibbəylinin qənaətinə görə "Zamanın ictimai-siyasi xarakteri və konkret bir epoxada baş vermiş böyük tarixi-mədəni hadisələr ədəbi cərəyanları, janrları, mövzuları, üslubları, hətta qəhrəmanları meydana çı-

xarır və inkişaf etdirir. Yeni Zaman özünün yeni ədəbi axınlarını və ədəbiyyatını yaradır. Böyük ədəbiyyat da öz növbəsində Zamanın yetişməsinə, inkişafına və dəyişməsinə imkan verir". Onun təqdimatında ədəbiyyatın erkən yeni dövründəki dəyişmələr də ədəbi şəxsiyyət amili ilə birbaşa bağlıdır. XVII əsrdə ənənəvi poetik qütbün öz ağırlığını saxlamasına rəğmən, klassik lirika və epik-didaktik şeir üslublarının paralleliyi Azərbaycan şeirində yeniləşmə meylləri kimi müəllifin diqqətini cəlb edir, bu meyllərin poetik təzahür formalarına, metod-üslub xüsusiyyətlərinə diqqət yetirir. Şeirdə "hind səpkisi" üslubu Saib Təbrizinin sənətkar kimliyi, ideya-estetik mövqeyi, ədəbi şəxsiyyəti ilə bağlı şəkildə şərh olunur. XVIII əsrin erkən realizminin formalaşmasında Vaqifin, realizm epoxasının başlanmasında Axundzadənin ədəbi şəxsiyyətinin istiqamətvericiliyini səciyyələndirmək, klassik və yeni ədəbiyyat arasındakı sərhəddə Axundov-Füzuli münasibətinin mübahisəli tərəflərinə yenidən nəzər salmaq, ədəbi dövrlərarası keçidlərdə inkar və təsdiq məqamlarının labüdlüyünü vurğulmaq, Məhəmməd Tağı Sidqi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Rəşid bəy Əfəndiyev kimi adların ədəbi şəxsiyyətə çevrilmə mexanizmini şərh etmək kimi məsələlər məhz "zaman şəxsiyyəti, şəxsiyyət zamanı dəyişir" paradiqmasında birləşir, bədii fikrin formalaşmasında müəllif dominantlığını və autentikliyini önə sürür. Mirzə Fətəli Axundzadənin Məhəmməd Füzuliyə münasibətində İsa Həbibbəylinin aşağıdakı elmi qənaəti uzun illər ərzində bu mövzuda irəli sürülmüş çoxsaylı mülahizələrdən tamamilə fərqli olan yeni nəzəri baxışın ifadəsidir: "Mirzə Fətəli Axundzadənin fikrincə, Məhəmməd Füzuli klassik roman-

tik şeirin ustadı, yeni realist ədəbiyyatın nazimdir". (Bax: İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Bakı, 2017, səh.86)

- *Ədəbiyyatda milli özünüifadə şəxsiyyət mövqeyi ilə üst-üstə düşür.*

Cəlil Məmmədquluzadənin milli demokratik kimliyi, , Mirzə Ələkbər Sabir dünyagörüşünün türk-müsəlman dünyasını dəyişə və yeniləşdirə bilən satirik potensialı, Məhəmmədağa Şahtaxtlının milli özünüifadədə proqramlılığı və məqsədliliyi, Məmməd Səid Ordubadinin mənsub olduğu xalqın milli-mənəvi bütövlüyünü əsərlərində dolğun və real şəkildə əks etdirmək qabiliyyəti, Əliqulu Qəmküsarın realist satirik şeirinin və publisistikasının böyük vətəndaşlıq cəsarəti, Eynəli bəy Sultanovun maarifçi-realist düşüncəli tənqidi realizmi "Ədəbi şəxsiyyət və zaman" monoqrafiyasının əsas tədqiq hədəfləri sırasındadır. Bütün bunları birləşdirən ümumi cəhət isə milli şüurun bədii inikasının ortaq məqamlarına diqqət çəkməkdir.

- *Romantik ədəbiyyatda şəxsiyyət amili əsas göstəricidir.*

Hüseyn Cavidin romantik sənətkarlığının möhtəşəmliyində şəxsiyyətinin rolu, Abbas Səhhətin şair-rəssam ədəbi kimliyinin fərdi üslub xüsusiyyətləri, Məhəmməd Hadi yaradıcılığında intibah düşüncəsinin və fəlsəfəsinin miqyası, "Füyuzat" jurnalı ətrafında toplanmış şəxsiyyətlərin romantik mövqeyində üzə çıxan meyarlarla, "Molla Nəsrəddin" jurnalının naşir və təmsilçilərinin fikirləri ilə ortaqlıq təşkil edən məqamlar, bu məqamların ədəbi şəxsiyyətin romantik kimliyində realist, realist kimliyində isə romantik elementlərin üzə çıxması şəklində təzahürü İsa Hə-

bibbəylinin diqqət mərkəzində dayanan məsələlərdir. Romantizmin "dahi sənətkar" paradiqması ilə ədəbi şəxsiyyətin dahiliyi arasındakı zəncirvari əlaqənin mahiyyəti fərdi yaradıcılıq faktları əsasında üzə çıxarılır.

- *Ədəbiyyatşünaslıq elminin formalaşmasında şəxsiyyət dominantdır.*

İsa Həbibbəylinin diqqət mərkəzinə çəkdiyi Firudin bəy Köçərlinin Azərbaycan ədəbiyyat tarixçiliyi elmindəki "patriarx" statusu, bədii ədəbiyyatın şəxsiyyətlərinə ədəbiyyatşünaslığın şəxsiyyətinin münasibətinin mahiyyəti bu dominantlığın əsas göstəricisinə çevrilir.

- *Şəxsiyyətin mühacirliyi ədəbiyyatın mühacirliyidir.*

"Ədəbi şəxsiyyət və zaman" monoqrafiyasında Məmməd Əmin Rəsulzadənin mühacirət dövrü irsindəki azərbaycançılıq, istiqlalçılıq mövqeyi, Ceyhun Hacıbəylinin bədii yaradıcılığına şəxsi taleyinin birbaşa təsiri, Əli bəy Hüseynzadənin yaradıcılığında türkçülük anlayışının modelləşməsinin şəxsiyyətlə bağlılığı, Məhəmməd Əsəd bəyin həyatında və bədii irsində mühacir kimliyinin yaratdığı dolaşıq məqamlara elmi-nəzəri portret şəklində münasibət göstərilir, zamanın ictimi-siyasi müstəvisində doğma yurdu tərk etmiş şəxsiyyətlərin mühacirəti məhz ədəbiyyatın mühacirətləşməsinin başlıca səbəbi kimi nəzərdən keçirilir.

- *İdeologiyanın süni şəkildə tətbiq olunduğu mühitdə şəxsiyyətin özünüqoruması ədəbiyyatın yaşama imkanıdır* .

İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşmə konsepsiyasına əsasən sovet hakimiyyəti illərində yaranan ədəbiyyatı iki istiqamətə ayırmaq lazımdır: 1. Azərbaycan sovet ədəbiyyatı, yəni haki ideologiyaya üstünlük

verən ədəbiyyat. 2. Sovet dövrü Azərbaycan ədəbiyyatı, yəni həmin mərhələdə yaranan gerçək böyük ədəbiyyat. Müəllif bu cəhətdən xalq şairi Səməd Vurğunun yaradıcılığındakı azərbaycançılıq motivlərinin şərhinə xüsusi fikir vermişdir. İsa Həbibbəylinin təqdimatında Səməd Vurğunun "Azərbaycan epopeyası"nın XX əsr ədəbiyyatımızda azərbaycançılıq idelalının proqramına çevrilməsində şəxsiyyətin mövqeyi, Şəhriyar poeziya məktəbinin formalaşmasında şəxsiyyət amili, Mirzə İbrahimovun sovet cəmiyyəti daxilində ümummilli idellara xidmət göstərən kimliyi, Mir Cəlal Paşayev şəxsiyyətinin yazıçı, alim və müəllim bütövlüyünün yaradıcılığında əksi, Rəsul Rzanın bədii irsində ənənə və yeninin miqyasının şəxsi dünyagörüşlə bağlılığı, İlyas Əfəndiyevin lirik-psixoloji üslubunun yazıçı şəxsiyyətinin ideologiyadan uzaq durma məqsədindən qaynaqlanan tərəfi, İslam Səfərlinin şeirlərində yaşadığı mühitin özündən doğan romantik səciyyəli pafosdan lirizmə keçidin şəxsiyyət dünyagörüşü ilə bağlantısı, Hüseyn İbrahimov şəxsiyyəti və sənətinin bütövlüyü, Əyyub Abbasovun bədii irsində tarixi həqiqətlərə bədii forma vermək cəhdindəki vətəndaş mövqeyi, Məmməd Arazın bədii irsinin və şəxsiyyətinin birlikdə obrazlaşa bilməsi, xalqın düşüncəsində dəqiq sərhədləri olan modelə çevrilməsi, Cavad Cavadlının şeirlərindəki sürgün mövzusunun şəxsi tərcümeyi-halı ilə bağlılığı kimi mövzularda müəllifin metodoloji mövqeyi müəyyənləşir, dəqiqləşir. İsa Həbibbəyli haqlı olaraq bu fikirdədir ki, Sovet dövrünün ədəbiyyatı inkar edilməməli, ideoloji təzyiqin ağırlıq təşkil etdiyi mühitdə şəxsiyyəti, dolayısı ilə ədəbiyyatı qoruma cəhdləri ədəbi-nəzəri təhlilin gündəmindən düşməməlidir.

- *Paradiqma dəyişikliyi şəxsiyyətə, şəxsiyyət də ədəbiyyata təsir edir.*

Anarın yaradıcılığının müstəqilliyə qədərki və müstəqillik sonrası məqamlarının inkişaf ardıcıllığı, sözün azadlığından azadlığın sözünə keçidin incə, həssas poetik təzahürləri, Elçinin özü və sözü arasındakı əlaqənin bədii, fəlsəfi, estetik, psixoloji tərəfləri, dəyişən paradiqmaları duyma qabiliyyəti akademik İsa Həbibbəylinin mülahizələrində nəzəri ad qazanır, təsnif olunur, elmi-nəzəri cəhətdən modelləşir. Nəriman Həsənzadənin mənzum-poetik dramaturgiyasının şairin lirikasının epik əlamətləri ilə bağlılığı və tarixi mövzuların müasir interpretasiyasında yazıçı şəxsiyyətinin vətəndaş tərəfinə, Fikrət Qocanın şəxsiyyətindəki "müdriklik" mövqeyinə münasibət bildirilir. Müasir Azərbaycan nəsrində paradiqma dəyişikliyini təkcə bədii irsində deyil, eyni zamanda öz şəxsiyyətində göstərmiş yazıçı İsa Muğannanın İsa Hüseynovdan başlanan həyat yolu və bədii dünyagörüşünün vəhdəti də tədqiqatda nəzəri şərhə cəlb edilir.

- *Şəxsiyyət üçün müstəqillik şəraiti, yaradıcılıq azadlığı vacib şərtdir.*

Müstəqillik dövrü ədəbiyyatının formalaşmasında ənənənin rolu, milli-tarixi yaddaşın bərpasının vacibliyi, milli vətənpərvərlik ruhunun önəmi, Azərbaycan insanının obrazının bədii təcəssümü kimi faktlarla yanaşı, dünya miqyasında ədəbiyyatla tanışlıq, qarşılıqlı təsirlənmə, bu təsirlənmədə şəxsiyyətin rolu və s. məqamlar müəllifin diqqət mərkəzində dayanır. Müstəqillik şəraitində metodoloji plüralizm, ənənə və yeni qarşıdurmasının üzə çıxma şəkilləri, cərəyan müxtəlifliyi, klassik ədəbi irsə münasi-

bətdə qoruyucu duruş sərgiləməyin əhəmiyyəti kimi gündəmin gətirdiyi yeni mövzulara çevik reaksiya verməklə, akademik İsa Həbibbəyli bir nəzəriyyəşi kimi özünün dinamik və konseptual yanaşmasını nümayiş etdirir. Azərbaycan ədəbiyyatı tarixində "ata və oğullar" modelini – Səməd Vurğun və oğullarının timsalında bir irs və varislik səviyyəsində araşdırır, "Hər ikisi Səməd Vurğunu təkrar etmədikləri kimi, bir-birilərini də təkrar etmirlər" qənaətini irəli sürür, lakin "nəsrin ağır artilleriyası" və "şeirin yüyənsiz, sərbəst atı" metaforik yanaşmasında müvafiq olaraq Yusif Səmədoğlunun və Vaqif Səmədoğlunun yaradıcılığında Səməd Vurğunun deyə bilmədiyi mətləblərin üzə çıxma imkanlarını xüsusilə vurğulayır. Yazıçı Hidayət Orucovun əsərlərində vətəndaşlıq mövqeyinin professional şəkildə realizəetmə qabiliyyətini qeyd edir. İsa Həbibbəyli müstəqillik dövründə roman janrının ənənəvi kanonlarını dekonstruksiya edən Kamal Abdullanın postmodernist bədii-estetik düşüncəsinin mahiyyətini şərh edərkən yazıçının ədəbi, elmi və ictimai simasının vəhdət yaratdığına diqqət yönəldir, elmilik və bədiiliyin birgəliyini Kamal Abdulla yaradıcılığının intellektual səviyyəsinin göstəricisi kimi səciyyələndirir. Sabir Rüstəmxanlının şair-vətəndaş kimliyi, Zəlimxan Yaqubun ənənəvi kodlara söykənən poetikası ilə qeyri-adi yaddaşa malik olması arasındakı incə bağ müstəqillik paradiqmasından müşahidə olunur, elmi-nəzəri mülahizələrə çevrilir. Akademik İsa Həbibbəyli günün ədəbiyyatını və ədəbiyyatşünaslığını, elmi-ictimai, publisist fikrini diqqət mərkəzində saxlayır, Elmira Axundova, Rəşad Məcid, Nurəngiz Gün, Hüseynbala Mirələmov, Hikmət Mahmud, Xeyrəddin Qoca, İsa İsmayılzadə,

Elman Həbib, Rüstəm Behrudi, Asim Yadigar kimi adların ətrafında ədəbiyyatda şəxsiyyətə çevrilmənin prinsip və meyarlarına toxunur, çağdaş mühitdə ədəbi simanın tutduğu mövqe ilə yaradıcılığı arasındakı münasibətləri şərh edir.

Akademik İsa Həbibbəylinin adı çəkilən müəlliflərə həsr etdiyi məqalə xarakterli yazılarının strukturunda riayət etdiyi prinsip diqqəti cəlb edir. Ədəbi şəxsiyyətin tərcümeyi-halı verilir, ardınca ədəbi irsi, bu irsə münasibət, mövcud boşluqlar, bu boşluqları doldurmaq üçün təkliflər öz əksini tapır. "Ədəbi şəxsiyyət və zaman" kitabında ayrı-ayrı portret yazıların arasında məntiqi bağ nəzəri mahiyyət daşıyır. Daha doğrusu, bu portret yazılar bir-birindən qopmuş şəkildə deyil, vahid bir süjet xəttini – Azərbaycan ədəbiyyatı tarixini – təşkil edən epizodlar kimi özünü göstərir. Kitaba daxil olan bu portret yazıları alimin son on ildəki araşdırmaları təşkil edir. Alimin təqdim etdiyi Azərbaycan ədəbiyyatının tarixi "süjeti" isə, 2015-ci ildən dolğun nəzəri xarakter alır, yeni dövrləşdirmə konsepsiyası kimi təqdim olunur (İsa Həbibbəyli, "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası" // Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri, Xüsusi buraxılış XXVI cild. Bakı, "Elm və təhsil", 2015, s. 3-8). Konsepsiya AMEA Rəyasət Heyətinin yığıncağında (fevral, 2015) və Astanada – türkdilli xalqların akademik Ədəbiyyat İnstitutlarının toplantısında (5 oktyabr, 2015) və Ədəbiyyat İnstitutunun Elmi şurasında (2017) məruzə şəklində elmi auditoriyaya çatdırıldı. 2017-ci ildə "Poetika.izm" jurnalının 3-cü sayında "Azərbaycan ədəbiyyatı tarixinin dövr-

ləşdirilməsinin elmi təsnifatı" adlı məqalədə təsnifat daha da təkmilləşdirilərək aşağıdakı kimi verilmişdir:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Mifologiya və epos dövrü

2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-XI əsrlər).

3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər).

4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)

5. Erkən realizm dövrü Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər)

6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr)

7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin 90-cı illərindən Azərbaycan sovet hakimiyyətinədək)

8. Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920-1991-ci illər)

9. Milli özünüdərkə qayıdış mərhələsi və keçid dövrü Azərbaycan ədəbiyyatı (1970-1995)

10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı" (Poetika.izm. Bakı, "Elm və təhsil", 2017, s.16)

Ayrıca, akademik İsa Həbibbəyli təqdim olunan mərhələlərlə bağlı geniş və əhatəli məqalələrlə dövrü mətbuatda, "525-ci qəzet"in səhifələrində çıxış etmiş, dövrləşmə konsepsiyasını daha dərindən əsaslandırmaqla yanaşı, mərhələlərin müəyyən edilməsində də müvafiq dəqiqləşdirmələr aparmışdır. "Ədəbiyyat tarixçiliyinin elmi konsepsiyasına doğru", "Etnosdan-eposadək, Ortaq yazılı ədə-

biyyat mərhələsi", "Ortaq başlanğıcdan ölkə ədəbiyyatına və dünya miqyasına doğru", "Anadilli ədəbiyyat epoxası: Həsənoğludan Füzuliyədək", "Maarifçilik və realizm", "Tənqidi realizm epoxası və romantizm" başlıqları altında konsepsiyanın elmi-nəzəri müddəalarını, prinsiplərini, mərhələ bölgüsünün və təsnifat sisteminin əsasını təşkil edən meyar və amilləri yenidən oxucularla paylaşmışdır. Akademikin fikrincə, Azərbaycan Respublikası müstəqilliyə qədəm qoyduqdan sonrakı dövrdə ədəbiyyatımızın dövrləşdirilməsi sovet hakimiyyəti illərində qəbul edilən prinsiplər üzərində cüzi dəyişikliklər edilməklə mövqeyini saxlamış, bu sahədə ciddi bir addım atılmamışdır. Aradan keçən 26 il digər humanitar və ictimai elm sahəsində olduğu kimi, Azərbaycan ədəbiyyatında da dövrləşdirilməsi istiqamətlərinin konkretləşdirilməsi problemini aktual bir məsələ kimi ortaya çıxarmışdır. Alim çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirərkən aşağıdakı prinsiplərin meyar kimi nəzərə alınmasını elmi baxımdan əsaslandırmışdır; Azərbaycançılıq məfkurəsi; Sivilizasiya amili, Ədəbi-tarixi proseslərin reallıqları, Azərbaycanda ədəbi cərəyanlar.

"Ədəbi şəxsiyyət və zaman" kitabı ilə "Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi konsepsiyası" arasında ortaq məqam təkcə, birincinin ikincinin hazırlıq mərhələsi olması ilə müşahidə olunmur, həm də təsnifat sistemində nəzərdə tutulan meyarların gerçəkləşməsində şəxsiyyət və onun zamanduyumuna verdiyi önəmdə də üzə çıxır. İsa Həbibbəyli təqdim etdiyi dövrləşdirmə konsepsiyasını ilk dəfə olaraq "Ədəbi şəxsiyyət və zaman" kitabında ədəbi şəxsiyyətlər haqqındakı portret-oçerkləri müəyyənləşdirdi-

yi inkişaf mərhələləri üzrə oxuculara çatdırmaqla tətbiq edir və sınaqdan çıxarır. Bütövlükdə İsa Həbibbəyli öz nəzəri mülahizələrində ədədbiyyatın və ədəbi dövrün formalaşmasında şəxsiyyət amilinin üstün mövqeyinə inanır, şəxsiyyəti meyar kimi qəbul edir. Alim paradiqmaların dəyişdiyi bir şəraitdə ədəbiyyatşünaslığa yanaşmanın prinsip və meyarlarını tezis və hipotez şəklində qoya bilir. Xüsusilə qeyd etmək lazımdır ki, akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatını sevir, onun nəzəri təfəkküründə bəzən poetik-obrazlı ifadəsində də bu sevgini görmək mümkündür.

2017-ci ildə ədəbi-nəzəri fikirdə yenilik baxımından diqqət çəkən əsərlərdən biri də akademik Kamal Abdullanın "Gizli Dədə Qorqud" silsiləsindən çalışmalarının məntiqi davamı kimi təqdim olunan "Kitabi-Dədə Qorqud poetikasına giriş. Dansökülən variant." (Bakı, RS Poliqraf, 2017, 320 s.) monoqrafiyası oldu. Monoqrafiyada məlum mətnin poetik qatı orijinal üslubda, yeni yanaşma ilə araşdırılır. Monoqrafiyanın strukturundakı fərq oxucunu ilk cəlb edən məqamdır. Kitab müqəddimə, hər biri dörd fəslə ayrılan iki hissədən, əlavələrdən ibarətdir. Təxminən 50 səhifəlik müqəddimədə kitabın adındakı "poetika" və "giriş" sözlərinin funksional semantikasına diqqət yetirilir. Kitabda ortaya qoyulan fikrə görə, poetika bədiipoetik hissənin, həm də təmiz poetik hissənin cəmini təşkil edir, özünə sistemli yanaşma tələb edir. "Poetika" müstəvisinin tam şəkildə deyil, məhz qədim bədillik xüsusiyyətləri müəllif üçün maraqlıdır. Bu məqamda "giriş" sözünün funksional məqsədi aydınlaşır. Kitabi-Dədə Qorqud poetikasının "dansökületi" – müqəddimənin sonrakı səhifələrində

"Dəşti-müstəqimiyyə" kimi təqdim olunacaq mərhələsinə diqqət yetirilir. Bədiipoetik ifadəsi isə qədim mifoloji dövrdə mətni proza və poeziyaya bölməyin mümkünsüzlüyünü izah edəcək yeni terminoloji məzmun daşıyıcısı kimi diqqəti cəlb edir. Bədiilik prozaya, poetiklik isə poeziyaya aid funksiya kimi qədim mifoloji çağda vəhdət şəklindədir. "Bədiipoetik mövcudiyyət"i ümumi Poetikanın daha qədim, ibtidai və primitiv "nümayəndəliyi" kimi izah edən müəllif ardınca poetikanın mərhələ təsnifatına da özünəməxsus aydınlıq gətirir: ən qədim, primitiv və qədim, klassik dövrlərini səciyyələndirir. "Kitabi-Dədə Qorqud" anaxronik mətndir və antik dövrün ən qədim, ilkin, dansökülən mərhələsinin, sonra klassik mərhələsindən başlamış orta çağların astanasına qədər ən müxtəlif bədii-estetik, ictimai-psixoloji, idraki-praqmatik meyar və nümunələr onun poetikasında ya sıxılmış (suggestiv), gizli şəkildə, ya da kifayət qədər aşkar, "açılmış yelpazə" kimi üzə çıxır. "Təbiət-Cəmiyyət (Mədəniyyət)" qarşıdurmasının "Kitabi-Dədə Qorqud" mətnində "Basat Təpəgözü öldürdüyü boy"unda da üzə çıxma mexanizminin ədəbi model kimi təzahürünə diqqət yetirilir. "Kitabi-Dədə Qorqud" un anaxronik strukturunda həm köhnə, həm yeni ədəbiyyat növünün vəhdəti vardır. "Kitabi-Dədə Qorqud"un quruluşu iki mühüm dövrü özündə birləşdirir: mif və yazı dövrü. Birinci ibtidai dövr və məkanı "Dəşti-müstəqimiyyə", ikinci klassik dövr və məkanı isə "Dəşti məcaziyyə"adlandırır. Birinci dövrə təmiz mifoloji, ibtidai bədiipoetik və kvazibədiipoetik elementlər daxildir. İkinci qat isə klassik poetizmləri ehtiva edir, leksik-qrammatik əlamətlərin təzahür bacarığına diqqət çəkir, məsələn "kimi" qoşması. Mo-

noqrafiyada məhz ilk mərhələnin – mifoloji dövrün ibtidai bədiipoetik təsəvvürlərinin, real mətn quruculuğunda istifadə edilən ünsür və vasitələrin sistemli, sistemsiz münasibətləri, mifoloji mətn məkanının konturlarının dəqiqləşməsi, məkanda baş verən "Biruzə" prosesinin – Bədii Təzahürə gələn yolların sirrinin nəzərdən keçirilməsi, klassik poetika sferasında çalışanlara metodoloji mesajların verilməsi qarşıya qoyulmuş məqsəd və vəzifələri əhatə edir. Müəllif məqsəd və vəzifələrin gerçəkləşdirmək üçün fərqli metodoloji yanaşma sərgiləyir. Mifoloji, struktur-semantik, semiotik prinsiplərin tətbiqi, makrokosm hadisələri ilə mikrokosm hadisələri arasındakı izomorfluğun üzə çıxarılması, ikili dixotomiyaların müəyyən edilməsi müəllifin metodoloji yanaşmasının əsasını təşkil edir. Bədiipoetik enerjinin üzə çıxma mexanizmi ştil, qabarma və partlayış mərhələlərində izlənir. Müəllifə görə mifin əsarət dövrü, mifoloji dansökülən, mifoloji günortac, mifoloji qürub yazıyaqədərki dövrün ayrı-ayrı qatlarıdır. Monoqrafiya janrının, elmi-nəzəri mətnin ənənəvi nizamını pozan ricətlərdən istifadə də daxil olmaqla, bu tədqiqat əsəri metodoloji yanaşması ilə də diqqət cəlb edir. Multidisiplinar baxış, bədii mətn poetikası ilə coğrafi hadisələrin fiziki izahı arasında oxşar paradiqma qurmaq, mətnin linqvistik potensialından bədiipoetik enerjinin biruzə şəkillərini görmək və adlandırmaq məqsədilə istifadə və .s tədqiqatın yeniliyini əks etdirir. "Bütöv poetikanın bir sistem kimi araşdırılması hansısa məqamın və ya məqamların unudulmasının qarşısını ala bilməzdi" cümləsindəki müəllif iddiasızlığı fikri ilə başlanan tədqiqatın, Y.M.Lotmana istinadən verilmiş "Mütləq anlaşıqlı mətn eyni zamanda mütləq əhəmiyyətsiz

mətndir" cümləsi ilə bitməsi də müəllif tərəfindən bilərək işlədilmiş akademik priyom kimi anlaşılmalıdır. Çünki mətnin gizlinlərini aşkara çıxarmaq üçün "vacib olan odur ki, o dərindəki gizli qatın sənə nə demək istədiklərinə şübhə etməyəsən, ona inanasan". Əgər tədqiqat öz oxucusunda anlaşılmaz məqamlar yaradırsa, bunun bir səbəbi oxucunun hazırlıqsız "yaxalanması"dırsa, digər səbəbi, tədqiqat mətninin özünün strukturu ilə bağlıdır. İstənilən mətn bütün təfərrüatına qədər anlaşılmaya ehtiyac duymur. Monoqrafiya strukturuna və metodologiyasına fərqli yanaşma gətirən bu əsər 2017-ci ilin ədəbi-nəzəri fikrində seçilən hadisə kimi yadda qaldı.

Akademik Muxtar İmanov (Kazımoğlunun) rus dilində çap olunmuş "Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" (Bakı, "Elm və təhsil", 2017, 360 s.) adlı monoqrafiyası da diqqəti cəlb edən tədqiqatlardan biri oldu. Monoqrafiya"Giriş", dörd bir-birini tamamlayan fəsil, "Nəticə" və "Biblioqrafiya"dan ibarətdir. Kitabın "Giriş" bəhsində müəllif "öldürücü gülüş", "islahedici gülüş", "mərhəmət oyadan gülüş" anlayışlarının folklor mətnləri kontekstində tutduğu mövqeyə diqqət çəkir, didaktiklik və komiklik paradiqmalarını folklorun əsas antitezası olan xeyir və şər qarşıdurmasının fərqli təzahür formaları kimi izlənilməsinin labüdlüyündən danışır. Müəllifin fikrincə, folklorda "xalq gülüşü", "xalq yumoru" kimi ifadələrin yerinə "folklorda komizm", "komik folklor nümunələri" definisiyalarından istifadə etmək də mümkündür. Müəllif tədqiqatına arxaik dünyagörüş sistemində xalq gülüşünün mənşəyindəki magik başlanğıcı müəyyənləşdirmək məqamında *günəş, işıq, od, gül* kimi qavrayışların semantikası-

na münasibət bildirməklə, xalq gülüşünün mifoloji qaynaqlarını araşdırmaqla başlayır. Xalq gülüşünü formalaşdıran komik situasiya və ya qarşıdurmanın izahında müəllifin fikrinə görə komik folklor nümunələrində xeyir və şər arasındakı sədlər xeyli dərəcədə azalır, pislə yaxşı qaynayıb-qarışır və onları bir-birindən ayırmaq o qədər də asan olmur. Müəllif xeyir-şər antitezasının sərtliyini folkor mətnləri üçün qeyri-xarakterik halı hesab edir, hansısa qüvvəni ifşa etməyin xalq gülüşü üçün aparıcı cəhət olmamasını folklorda komik konfliktin səciyyəsi kimi izah edir. Foklorun komik məzmunlu janr müxtəlifliyində padşah, qazı, tacir, keçəl, Molla Nəsrəddin, Bəhlul Danəndə və s. obrazların konkret qəliblərə sığmamasının, komik qarşıdurmanın "yumşaqlığını" kollektiv mərasim psixologiyası ilə bağlayır. Gülüşün magik mahiyyəti ilə onun estetik mahiyyəti arasında əlaqəni xalqın komik folklor mətnlərini həyatvericilik ideyası əsasında qurmasında, folklor mətnlərində gülüşün həyatverici məzmun daşımasında görür. Komik obrazlarının genezisi müstəvisində dərvişlər-magiya və kələkbazlıq, Qorqud, Burqut və Bəktaşi, Qızılsaçlı qəhrəman və Keçəl bir-biri ilə əlaqəli şəkildə təhlil edilir. Bəktaşı dərvişlərlə Molla Nəsrəddin və Bəhlul Danəndə kimi komik obrazlar arasındakı struktur-semantik oxşarlığı oyunbazlıq paradiqması ilə əlaqələndirir və nəzəri cəhətdən əsaslandırır. Taxta qılınc taxan bəktaşi dərviş, qarğı at minən Bəhlul Danəndə və axmaq donuna girən Molla Nəsrəddin komik situasiya və funksional mövqe baxımından genetik oxşarlıq məqamından təhlil edilir. Keçəl obrazında xeyirxah fövqəltəbii qüvvələrin, demonik varlıqların və qızıl saçlı qəhrəmanın əlamətləri müşahidə edərkən də, mü-

əllif müxtəlif komik obrazlar arasında genetik yaddaşın mahiyyətinə nəzər salır.

Muxtar Kazımoğlu monoqrafiyada mifoloji parodiyanın üzərində ayrıca dayanır və "hökmdar və təlxək", "bahadır və qorxaq", "doğru və yalan", "ağıllı və axmaq" struktur və semantik cəhətdən bu parodiyanın müxtəlif formaları kimi təqdim edilir. Foklorun ciddi qəhrəmanlarının lətifə, qaravəlli və nağıllarda komik yöndə təsvir edilməsi ilə yaradılan parodiyanı yazılı ədəbiyyatdakı parodiyadan fərqləndirir. "Kəndirbaz və yalançı pəhləvan münasibəti" folklorun parodiya formalarının izahında kilid açar kimi təqdim olunur. Hökmdar və təlxək motivinin araşdırılması baxımından Teymurləng–Molla Nəsrəddin sərgüzəştlərindən bəhs edən lətifələrin açıqlayıcı yönünə diqqət çəkir, Molla Nəsrəddinin Teymurləngi ərkyana münasibət çərçivəsində tənqid etməsi, onun zülmkarlığını, allahlıq iddiasına düşməsini, özündən zəif adamları ətrafına yığmasını gülüş hədəfinə çevirməsini formul kimi digər folklor mətnlərində izləyir, Çingiz xan–Maykı, Hüseyn Bayqara–Əlişir Nəvai, Şah Abbas–Kəlniyyət paralellərində bu formulun təzahür formalarına diqqət yetirir. Folklorda komik qorxaq və tənbəl obrazların yaranmasının təkanverici gücü olaraq bahadır obrazlarının parodiyası aktını görür, aktın funksionallığını təlxək-hökmdar formulu ilə izah edir. Təlxək hökmdarın aqilliyinin imitasiyasından, qorxaq isə hökmdarın bahadırlığının imitasiyasından yaranır. Mifoloji pardoiyanın başqa bir forması olan "doğru" və "yalan" üstündə qurulan mətnlərin formalaşma mexanizmini isə folklorda "ciddi" və komik obrazların yaranma ehtiyacının mahiyyəti ilə bağlayır. Uydurma üstündə qurulan qaravəl-

linin "gerçək" üstündə qurulan nağıl və dastanın parodiyasına çevrilmə prosesində komik məzmunlu qaravəllinin tragik məzmunlu nağıl və dastanların danışılmasına təkan vermə potensialı üzərində dayanır. Folklorun üç fərqli axmaq tipində – axmaq yerinə qoyulan şəxs; özünü axmaqlığa vuran şəxs; sadəlövh, sadədil olub axmaqcasına hərəkət edən şəxs – parodiya əlamətlərinin nisbiliyinə münasibət bildirir, bunu semantik məzmunun digər parodik formullarla bağlılığı ilə izah edir. Müəllif tərəfindən parodik formaların qəlibləşmə və formullaşma mexanizminin nəzəri cəhətdən əsaslandırılması maraq doğurur. Monoqrafiyada qəhrəmanlıq eposunda gülüşün mövqeyi də araşdırılır və qəhrəmanlığın aparıcı olduğu bu müstəvidə komizmin müəyyən əlamətlərlə üzə çıxması fikri üzərində dayanılır. Həmin əlamətləri elmi-nəzəri cəhətdən əsaslandırmaq, təsbit etmək üçün metodoloji yanaşma kimi müəllif "dəlilik", "dəlisovluq" "kələkbazlıq" anlayışlarının semantik məzmununu açmaq üsulunu seçir. "Dədə Qorqud" və "Koroğlu"da dəliliyin obraz müxtəliflyindəki oxşar məqamlarına, assosiativliyinə diqqət yetirir. Qeyd edilən motivlərin epos poetikasında təzahür şəkillərinə və yönvericilik qabiliyyətindən bəhs edərək "Koroğlu" dastanında epos strukturu üçün səciyyəvi olan birbaşa ideallaşdırma əvəzinə, kontrast ideallaşdırmanın üzə çıxmasını məhz bu motivlə bağlayır. Qazan xan, Beyrək, Uruz, Qanturalı və s. kimi "Dədə Qorqud" qəhrəmanlarında ideallaşdırma birbaşa səciyyə daşıdığı halda, Koroğlu obrazının bu şəkildə, yəni kontrast ideallaşdırılmasını obrazın sosial mənşəyi (ılxıçı oğlu olması) ilə bağlayır, fikrini isə nağıllarda keçəl obrazının inkişaf formulu ilə izah edir. Muxtar Kazımoğlunun

"Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" adlı monoqrafiyasında adından göründüyü kimi gülüş iki mühüm aspektdən araşdırılılır. Gülüşün genetik başlanğıcı, arxaik kökləri, poetik potensialı, müxtəlif folklor mətnlərində təzahür formaları, gülüşün özünün struktur-semantik bütöv kimi daxil olduğu mətnin janr-üslub bütövlüyünə birbaşa və dolayı təsirləri, janr müxtəlifliyində kəsb etdiyi fərqlərlə yanaşı, oxşar cəhətləri, bu oxşar cəhətlərin formullarla üzə çıxarılması və s. monoqrafiya müəllifindən məsələyə çoxplanlı yanaşmanı, konseptual və dinamik nəzəri düşüncənin tətbiqini tələb edir. Buna görə də Muxtar İmanov metodologiya baxımından mifoloq-folklorşünas-ədəbiyyatşünas üçbucağından ibarət nəzəri müstəvi qurur, bu da tədqiqatın sistemliliyinin əsas göstəricisinə çevrilir. Şifahi xalq ədəbiyyatında gülüşün struktur-semantik izahını nəzəri model şəklində təqdim edir və bu model sonrakı tədqiqatların metodoloji bazasına çevrilə bilir.

Kamran Əliyevin "Çağdaş foklorşünaslığın problemləri" adlı məqalələr toplusu (Bakı, "Elm və təhsil", 2017, 364 s.) əsasən 4 başlıq altında toplanmış silsilə məqalələrdən ibarətdir. ""Dədə Qorqud" eposunun qəhrəmanları və bədii strukturu" silsiləsinə daxil olan məqalələrdə dastan bütöv mətn – xalq düşüncəsinin unikal nümunəsi olaraq vahid bir sistem kimi tədqiq olunur. "Kitabi-Dədə Qorqud" mətninin bütövlüyünü sübut edən məlum göstəricilərlə, vahid "süjet" xəttini şərtləndirən amillərlə yanaşı fərqli dəlillərin olduğunu bildirir. Ayrı-ayrı boylarda *xanımlar və onların portretlərinin etnopoetik oxşarlığı*, rəqəm simvolikası və işləklik səviyyəsi, boylarda xəbərləşmənin özünəməxsus çalarları və s. dastanın bütöv mətn ki-

mi dərkini asanlaşdıran və aydınlaşdıran məqamlar kimi təqdim edilir. Dastanda Təpəgözün mifik planda qələbəsi – onun yenidən dirilmək təşəbbüsü ilə Aruz Qocanın Beyrəyi öldürməsi hadisəsi arasındakı əlaqəni mətn poetikasının ardıcıllığı kimi izah edir. Etnosun təbiəti ilə onun poetik təfəkkürü arasındakı əlaqənin mahiyyətini izah edən fakt kimi dastanda şeir quruluşu və at yerişinin oxşar tərəflərindən bəhs edir. Türk şeirindəki dördlüyün atın dördnala yerişi, çarpaz qafiyə sisteminin atın yortma yerişi ilə ahəng təşkil etdiyini müşahidə edir. "Koroğlu" eposunun poetikası mövzusunda təqdim olunan məqalələr silsiləsində isə dəliqanlılıq, dəli nərə, dəlisovluq, dəli könül, dəli aşıq qavramlarının poetik funksionallığı, semantik yükü konkret faktlarla şərh olunur. Folklor və yazılı ədəbiyyat arasındakı münasibətlərin müxtəlif təzahür formalarından bəhs edən məqalələrdə isə romantizmin folklorla, miflə bağlantısı, müasir janrların folklor janraları ilə əlaqələri və s. problemlər araşdırılır. Kitabda foklorşünaslıq elminin formalaşmasında meyar olan şəxsiyyətlərə aid məqalələr xüsusi bölmədə təqdim olunmuş, eyni zamanda mərasim və bayramların foklorda kəsb etdiyi semantik məzmununa, funksionallığına həsr olunmuş yazılar da burada öz əksini tapmışdır. Kamran Əliyevin "Çağdaş folklorşünaslığın problemləri" adlı kitabı epizodik məqamlar şəklində bütöv folklorşünaslıq elminin aktual məsələlərini gündəmə gətirir, folklorun öyrənilməsinin prinsipləri ilə yanaşı, folklor haqqında yazılan əsərlərin də nəzəri potensialına, folklorşünaslıq elminin akademik səviyyəsinə də münasibət bildirilir. Bu mənada tədqiqatın adı öz daxili strukturu ilə bütövlük yarada bilir.

2017-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin əməkdaşı Pərvanə İsayevanın "Faciə janrının poetikası və tədqiqi problemləri" (Bakı, "Elm və təhsil", 2017, 208 s.) adlı kitabı çap olundu. Kitabda faciə nəzəriyyəsi və faciəvilik konsepsiyasının fəlsəfə ilə bağlantısına diqqət yetirilir. Dünya filoloji və fəlsəfi fikrində faciənin janr kimi əsaslandırılmasının tarixinə nəzər salınır, Azərbaycan ədəbiyyatşünaslığında isə milli ruhun dərin qatlarını üzə çıxarmaq mənasında faciə üçün məxsusi milli formanın yaranma tarixinin gənc olmasına münasibət bildirilir. Müəllifin fikrincə, Şərq tipli bir cəmiyyətin bədii düşüncəsini əks etdirən Azərbaycan ədəbiyyatında XIX əsrə qədər rus və Avropa ədəbi-nəzəri fikrindəki ölçülərə uyğun faciə məzmunlu əsərlər üçün zəmin olmamışdır, buna görə də faciə ilə bağlı nəzəri fikrin təşəkkülü də gec baş tutmuşdur. Faciə janrının ilk monoqrafik tədqiqi Yaşar Qareyevin "Faciə və qəhrəman" monoqrafiyası ilə Azərbaycan nəzəri fikrində faciə poetikasının təməlinin qoyulmasına diqqət yetirilir. Mehdi Məmmədovun "Azəri dramaturgiyasının estetik problemləri" (1968), Hüseyn İsrafilovun "Azərbaycan dramaturgiyasının inkişaf problemləri" (1988), Zaman Əsgərlinin "Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsi" (1985), "Azərbaycan faciəsinin poetikası" (1991), Aydın Talıbovun "Faciə. Janrın təyininə dair" (1990) adlı tədqiqatlar əsasında apardığı təhlillər nəticəsində belə bir qənaətə gəlir ki, faciə janrının nəzəri, estetik və ədəbi-tarixi problemləri sistemli və konkret formullarla 1960-cı illərdən başlayaraq ardıcıl şəkildə öyrənilmişdir. Pərvanə İsayevanın müəllif yanaşmasında poetika məhz janrın struktur-semantik bütövlüyü,

semantik paraqiqmaların struktur elementinə çevrilmə mexanizmi kimi səciyyələnir. Bu tədqiqatda müəllif faciə poetikasının özünə və faciə poetikasının nəzəriyyəsinə bələdlilik nümayiş etdirir, bu iki tərəf arasındakı münasibətlərin nəzəri mahiyyətinə diqqət çəkir, münasibətdən doğan nəzəri düşüncənin tarixi dinamikliyini geniş şərh edir.

Tehran Əlişanoğlunun "Milli nəsrdə Azərbaycan obrazı: tarix və müasirlik kontekstində" (Bakı, "Elm və təhsil", 2017, 616 s.) adlı Mirzə Cəlil, Mir Cəlal, Süleyman Rəhimov, Seyid Hüseyn, Sabit Rəhman, Mirzə İbrahimov, Anar, Elçin, Sabir Əhmədli, Sabir Rüstəmxanlı, Mövlud Süleymanlı, Aqil Abbas, Kamal Abdulla və başqalarının müxtəlif nəsr əsərləri əsasında ayrı-ayrı illərdə yazılmış məqalələr toplusundan ibarət irihəcmli tədqiqat əsəri isə ədəbiyyat nəzəriyyəsinin iki sahəsi baxımından təqdim olunan məruzənin predmetinə çevrilə bilir. Birincisi nəsr hadisəsi, ikinci obraz. Kitabda müəllifin nəsrimizin son yüz ilinə aid araşdırmaları, məqalələri, tənqidi yazıları toplanmışdır. Kitabın annotasiyasında da vurğulandığı kimi bütün bu yazıları vahid problematika – milli insanın obrazı birləşdirir. Müəllif bu vahid əraziyə Mircə Cəlilin ironiyası ilə daxil olur. Milli nəsrin tənqidi realist mərhələsinin daxilində modernizmə xas xüsusiyyətlərin varlığını Cəlil dünyagörüşündəki Nitşesayağı mühakimələri aşkara çıxarmaqla təsdiqləməyə çalışan müəllifin vahid ərazidəki səyahəti postmodern dönəmə qədər gəlib çıxır. Milli nəsrdə Azərbaycan obrazı, əslində həm də Azərbaycan nəsrinin obrazı kimi səciyyələnmiş olur. Azərbaycan nəsrinin obrazlaşması, nəsrin milli xarakterinin dövrlər üzrə kəsb etdiyi məzmun, müxtəlif ictimai-siyasi vəziyyətlərdə millili-

yin mövqeyi, millilik və qloballaşma paradokslarında nasir obrazı və s. kimi məsələlər tədqiqatın əsasını təşkil edir.

2017-ci ildə ədəbiyyat nəzəriyyəsinin qanunauyğunluqlarının tətbiqi baxımından məruzənin predmetinə çevrilən əsərlərin bir qismi də konkret müəllif yaradıcılığına həsr olunmuş tədqiqatlardan ibarətdir. Belə ki, Azərbaycan ədəbiyyatı tarixinin ayrı-ayrı dövrlərini təmsil edən yazıçı və şairlərin ümumi yaradıcılığı və ya hansısa konkret əsərinin elmi-nəzəri təhlilinə həsr olunmuş tədqiqat əsərləri hər zaman yazılır və yazılmağa davam edir. Ədəbiyyatşünaslığın müxtəlif sahələrini özündə əks etdirən monoqrafik struktura malik əsərlərdə yazıçı və şairlərin poetik irsi məhz nəzəriyyənin müəyyənləşdirdiyi prinsiplərlə təhlil olunur.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin Azərbaycan Memarlıq və İncəsənət Universitetinin Azərbaycan dili və pedaqogika kafedrası ilə birgə keçirdiyi "Molla Pənah Vaqif irsinin elmi-nəzəri dərki" adlı, ədibin anadan olmasının 300 illiyinə həsr olunmuş elmi-nəzəri seminar konkret müəllif yaradıcılığına yanaşmada metodoloji plüralizmi əks etdirmək baxımından diqqəti cəlb etdi. (Bakı, 2017) Seminar materiallarının çap variantına yazdığı, "Azərbaycan ədəbiyyatında erkən realizm: tarixi və yaradıcısı" adlı ön sözdə akademik İsa Həbibbəyli Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında dərindən öyərnilməsinin vacibliyinə toxunur, Azərbaycan şeirinin mənzərəsinin mövzu və forma baxımından dəyişmiş şairin ədəbi kimliyinə münasibət bildirir. Professor Tahirə Məmməd Vaqif yaradıcılığını məhəllələşmə və realizm kontekstində dəyərləndirir, sənətkarın öz adı ilə

mərhələni, hadisəni səciyyələndirmə qabiliyyətinə, divan ədəbiyyatının əsas cərəyanlarından biri kimi məhəlləşmənin Vaqif irsində təzahür formalarına elmi-nəzəri şərh verir. Ənənəvi anlamlarda, situasiyalarda ciddi dəyişmələr yaratmaq, dini mənşəli obrazlara yeni məcrada müraciət, şeirlərdə yerli toponimlərin boy göstərməsi, lirik qəhrəmanın yeni şəkildə təqdimatı, aşiq-məşuq modelində gözəlin reallaşması və s. Tahirə Məmməd tərəfindən məhəllələşmənin təzahür formaları kimi təqdim olunur. Nailə Muradəliyevanın Vaqif yaradıcılığında peyjaz və təbiət duyumundan, Aslan Salmanovun Vaqif ilə onun bədii obrazı, Səməd Vurğunun "Vaqif"i arasındakı əlaqədən, Aqşin Dadaşzadənin Vaqif irsinin nəzəri tədqiqi ilə bağlı yazılarında və digər məqalələrdə müasir nəzəri fikrin ədəbiyyatın tarixi faktına və dövrünə münasibət akademik səviyyədə öz əksini tapmışdır.

Akademik Nizami Cəfərovun "Elçin. Yazıçının yaradıcılıq yolu" kitabı (Bakı, 2017) konkret müəllifə həsr olunmuş tədqiqat əsəri kimi 2017-ci ilin yadda qalan əsərlərindən birinə çevrildi. Elçin mətnini "dış" yox, "iç struktur"dan, daha dərin subyektiv və ya "intim" qatlardan öyrənməyə cəhd edən müəllif Elçinin ayrı-ayrı əsərlərinə, yaradıcılıq yolunun ayrı- ayrı dövr və ya mərhələlərinə, eləcə də ümumən yaradıcılığına hər dəfə yeni səviyyədə bütöv bir mətn kimi baxarkən müasir filoloji fikrin normativ, yaxud klassik kanonlarını, poetexnoloji tədqiqat üsul və anlayışlarını geniş tətbiq etməklə yanaşı, tədqiqatçı-araşdırıcı subyektivizmi qarşısında müəyyən meydan açmaqdan da çəkinmir. Bunu Elçin mətninin özünün müxtəlif təzahür səviyyələrində tədqiqatçıya həm normativ miqyaslarda

təhlil aparmağa, həm bu normativlərə yenidən baxmağa, həm də hər cür normativin fövqünə qalxaraq virtuozluq göstərməyə hərtərəfli imkanlar verməsi ilə bağlayır. Elçin yaradıcılığının klassik bir hadisə-fenomen kimi şərhini verir, yazıçının bədii irsinin diaxroniyası ilə sinxroniyası arasında güclü və təbii əlaqənin mahiyyətinə diqqət çəkir. Nizami Cəfərov kitabda Elçin yaradıcılığını üç mərhələ, üç fəsildə təqdim edir, nəzəri təhlildən keçirir: 1) Altmışlardan yetmişlərə; 2) Səksənlərdən doxsanlara; və 3) Klassikin müasirliyi. Alimin fikrincə, Elçin bir yazıçı kimi özünü altmışlardan yetmişlərə gedərək təsdiq etdi, səksənlərdən doxsanlara doğru Azərbaycan ədəbi-ictimai fikrinin klassiki olaraq böyük şöhrət qazandı. Keçən əsrin sonu, yeni əsrin əvvəllərindən isə onun yaradıcılıq fenomenologiyasını müəyyən edəcək ən uyğun ifadə olaraq "klassikin müasirliyi"ni seçir. Eyni zamanda yazıçının genotipinin əlamətlərini belə sıralayır: Azərbaycan şifahi xalq ədəbiyyatına – folkloruna dərindən və elmi izaha çətin gələn təbii bir inersiya ilə bağlılıq, mənsub olduğu xalqın böyük ədəbiyyat yaradıcılığının təcrübəsini özünəməxsus istedadla, intellektlə, yaradıcı instiktlə mənimsəmə qabiliyyəti, dünya ədəbi-estetik təfəkküründən gələn ümumbəşəri dəyərlər – bu dəyərlərin lazımi dərinliyi və genişliyi. Nizami Cəfərov Elçinin yaradıcılıq yolunu mətndən çıxış etməklə, mətnin ötürdüyü informasiya və informasiyanın ifadə şəklinin yazıçını genotipologiyası ilə bağlı şəkildə təhlilə cəlb edir.

Sənətkar və onun yaradıcılığı müstəvisində Qəzənfər Paşayevin "Hüseyn Kürdoğlunun poetik dünyası" (Bakı, "Sabah", 2017, 288 s.) adlı əsərini qeyd etmək istərdik. Monoqrafiya strukturunda, bir qədər fərqli formada və ori-

jinal yanaşmada təqdim olunmuş əsərdə Hüseyn Kürdoğlunun tərcümeyi-halı, mühiti və taleyi geniş araşdırılmış, şairin bədii-poetik irsinin şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı və klassik şeir ənənələri ilə əlaqələri təhlil edilmişdir. Qəzənfər Paşayev Şamil Salmanova da istinadən Hüseyn Kürdoğlunun poeziyasını "neoklassik poeziya" kontekstində dəyərləndirir. Kitaba ön söz yazmış akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi, alim ədəbiyyatşünaslıq elmində ənənə şəklini almış "Şairin lirikasının janr (yaxud sənətkarlıq) xüsusiyyətləri" məlum modelindən imtina edərək, Hüseyn Kürdoğlunun şeir yaradıcılığının daxili imkanlarına əsaslanmaqla onun lirikasında aparıcılıq təşkil edən hər janrı ayrıca bölmədə təhlil edib dəyərləndirmişdir. Tədqiqatda elmi-nəzəri və akademik üslubun normativliyi bilərəkdən pozulur, şairin poetik yaradıcılığının müəllifə yüklədiyi psixoloji-emosional ovqat önə keçir, bu özünü monoqrafiyanın bölmələrinə ad seçərkən də göstərir. Qəzənfər Paşayev yanaşma üslubunu və tərzini müdafiə edir, oxucuya ünvanlanan son sözü əvəz edən hissədə kitabı yazma səbəb və məqsədini açıq şəkildə qeyd edir. Bununla yanaşı, tədqiqatda ədəbiyyat nəzəriyyəsi elminin indiyə qədər əldə etdiyi elmi qənaət və nəticələrin tətbiqi aydın şəkildə görünür, şairin şeirlərinin janr və forma müxtəlifliyinin şərhində müəllifin nəzm sistemləri haqqında geniş, əhatəli bilgisi diqqəti cəlb edir. Bu xüsusilə özünü, cinaslı və cinassız dördlüklər, cinaslı və cinassız bayatılar, təcnislər, təsniflər, qoşmalar, gəraylılar, qəzəllər, rübailər, ağılar, şeir-məktublar, ithaflar, satirik və yumoristik şeirlər, lirik, lirikepik poemalar və s. janrların Hüseyn Kürdoğlu yaradıcılığında alternativlərini göstərmək

və əsaslandırmaq məqamında özünü doğruldur. Monoqrafiyada müəllifin- Qəzənfər Paşayevin Azərbaycan şeirinin vəzn və şəkilləri ilə bağlı nəzəri bilgisi öz əksini tapmışdır.

Əlizadə Əsgərlinin "Fərdi üslubun poeziyası" (Bakı, Vektor Beynəlxalq nəşrlər evi, 2017, 152 s.) adlı monoqrafiyası müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından birininin – Paşa Qəlbinurun yaradıcılığına həsr olunub. Tədqiqatçı şairin yaradıcılığını "mühit və fərd" və ya "variant və invariant" nəzəri qəlibində deyil, əks prizmadan araşdırır. Şairin məxsus olduğu poetik dövr və ya nəslin təsvirindən deyil, məhz üslubun özündən çıxış edir, tədqiqatın başlığını da "variant"ın "törədici" funksiyasına yox, məhz "invariant"ın "yaradıcı" funksiyasına əsaslanaraq seçir. Paşa Qəlbinurun poeziyasında sintezləşdirməni sezir, bunu poetik düşüncə tərzinin fərdiyyəti, təsvir-ifadə üsullarının orijinallığı, bənd-qafiyə quruluşu, janr formaları axtarışlarının spesifikliyi ilə izah edir. Şairin yaradıcılığında rəng simvolikası, bədii ifadə və təsvir vasitələri, eyham, işarə, simvollardan istifadəni, müxtəlif cərəyanların əlamətlərini (sürreallıq, ekzistensiallıq), obraz, predmet, mövzu müxtəlifliyinə münasibət bildirərkən birbaşa tekstin öz potensialından çıxış edir, kontekstin təsir dairəsinə müdaxilə etmədən, şeirlərin Azərbaycan poetik ənənələri ilə bağına nəzər salmadan sırf poetik özünüifadə üzərində dayanır. Müəllifin fikrincə, Paqşa Qəlbinur ada, obyekt və predmetə görə şeir yazmır, motiv, məna, dəyər, ideyaməğzə əsaslanır, psixoloji ovqata meyl edir, ümumini konkretləşdirmək, mənanı daraltmaq səciyyəvi hal alır. Bədii düşüncənin metaforik imkanları, məcazlar sistemi haqqında nəzəri proqram əsasında şairin şeirlərini geniş

təhlil edir. Şairin poetik məcazlar sistemində ideya-estetik cəhətdən qüsurların da olduğunu ara-sıra vurğulayır, bu zaman alim mətnin "necə" danışmasından çox, "nə"yi danışmasına və "məqsəd"inə diqqət yetirir, ciddi ideoloji mətləblərdə şairdən ciddi münasibət tələb edir. "Şairi saxlamaq", daha doğrusu, şairi üslubunda "aşkara çıxarmaq" cəhdi monoqrafiyanın əsas səciyyəsinə çevrilir.

Ötən il nəşr olunan kitablar arasında konkret müəllifin konkret əsərinə həsr olunmuş tədqiqat kimi Nizami Tağısoyun "Elçinin "Baş" romanı struktur- funksional təhlil müstəvisində" (Bakı, "Təhsil", 2017, 271 s.) monoqrafiyasını qeyd etmək olar. Monoqrafiyada romanın süjet konstruksiyası, süjet və süjetdənkənar elementləri, tarixi fon və bədii təxəyyülün qarşılıqlı münasibətləri, qəhrəman problemi, ideoloji xüsusiyyətləri geniş təhlilə cəlb edilir, romanın janr mənsubiyyətinin və ədəbi cərəyan kontekstinin müəyyənləşdirilməsinə çalışılır. Müxtəlifliklərin bir arada mövcudluğu, monoqrafiya müəllifini janrı konkretləşdirməkdə, bədii-estetik düşüncənin dəqiq istiqamətini müəyyənləşdirməkdə fərqli nəticələrə gətirib çıxarır, "Sərbəst" roman şəklini, postrealist və postmodernist aspektlərin mətndə iştirakını, praqmatik, pozitiv paradiqma əlamətlərinin varlığını təsdiq edir. Adından da göründüyü kimi, müəllif romanın struktur-funksional təhlilini aparırkən müəllif autentikliyinin, müəllifin süjetqurma məharətinin üstündə dayanır, birbaşa mətn və onun müəllifindən çıxış edir.

Filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlunun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" adlı məqalələr toplusu (I kitab, Bakı, "Avropa" nəşriyyatı, 2017, 288 s.) ədə-

biyyat haqqında nəzəri fikrin kontekstual tərəflərinə diqqətimizi çəkdi. Müəllifin müxtəlif illərdə yazdığı elmi-nəzəri və publisistik araşdırmalarının toplanıldığı bu kitab adından da göründüyü kimi mədəniyyətdə incəsənətin, incəsənətdə ədəbiyyatın rolunu, mövqeyini göstərməyə yönəlmişdir. Rasim Nəbioğlunun fikrincə, cəmiyyət, mədəniyyət və incəsənətin bir-birinə münasibəti ümuminin xüsusiyyə, xüsusinin isə təkcəyə olan münasibəti kimidir. Müəllif cəmiyyət-mədəniyyət-incəsənət üçlüsünün qarşılıqlı təsirlərindən yaranan müstəvidə ədəbiyyat, ədəbiyyat nümayəndələri və faktları haqqında fəlsəfi-kultoroloji, psixoloji şərhlər verir, estetik ideal, estetikliyin mahiyyəti, bədii fikrin estetik əsasına dair nəzəri mülahizələr irəli sürür. Sənətkarın bədii amalını onun yaradıcılığının kristal qəfəsinə bənzədir və həmin amalın məzmununu anlamağın sxemini təqdim edir. İctimai-siyasi mühit, ədəbi-mədəni mühit, bədii-estetik və ideya-nəzəri qaynaqlar, sənətkarın temperament tipinin psixoloji-etik səciyyəsi bu sxemin əsas xətləri kimi təqdim olunur. Rasim Nəbioğlu sənətkar və yaradıcılığı modelində yazdığı istənilən məqalədə, rəydə, essedə məhz bu sxemdən çıxış edir, bu sxem əsasında sənətkarın estetik mövqeyini və yaradıcılığının estetikasını üzə çıxarmağa çalışır.

Akademik səviyyədə ədəbiyyat nəzəriyyəsi elminin inkişaf göstəricilərini özündə əks etdirən "Poetika.İzm" jurnalının 2017-ci ildə 3-cü nömrəsi çap olundu. Akademik İsa Həbibbəylinin elmi-təşkilati fəaliyyəti və bu sahədə ardıcıl və səmərəli xidmətlərinin nəticəsi olaraq AMEA Nizami adına Ədəbiyyat İnstitutunda 2014-cü ildən nəşr olunan jurnalın "Poetika.İzm" adlandırılması heç də təsa-

düfi deyil. Ədəbiyyat nəzəriyyəsinin müxtəlif problem və məsələlərini aydınlaşdıran məqalələrin çap olunduğu jurnalın bu cür adlandırılması ədəbiyyat nəzəriyyəsinin özülünü, məğzini təşkil edən poetika anlayışının mahiyyətinin elmi mühitdə, akademik səviyyədə dəqiqləşdirilməsi üçün seçilmiş uğurlu bir vasitədir. Bunu həm də poetika terminin bəzən yanlış istiqamətləndirmələrə məruz qalmasının, heç bir əlaqəsi olmayan anlayışlara ad olaraq verilməsinin qarşısını almaq cəhdi kimi də səciyyələndirmək olar. "Poetika.İzm" jurnalında ədəbiyyat nəzəriyyəsinə dair məqalələr ayrı-ayrı bölmələr üzrə çap edilir, "Janr, struktur, forma", "İzm", "Ədəbi kontekst", "Tarixi poetika", "Ədəbi təhlil. Mətn poetikası", "Dünya ədəbiyyat nəzəriyyəsindən tərcümələr" və digər rubrikalarda 2017-ci ildə 23 adda məqalə və tərcümə mətni işıq üzü gördü. "Poetika.İzm" jurnalı əsasən ədəbiyyat nəzəriyyəsinin müasir problemlərini və konseptual məsələlərini optimal nəzəri və təcrübi kontekstdə elmi-metodoloji cəhətdən ifadə edən məqalələrin dərcinə üstünlük verir, ədəbiyyata, ədəbi irsə münasibətdə metodoloji plüralizmi dəstəkləyir.

Arxada qalan ildə ədəbiyyat nəzəri fikrin ümumi mənzərəsini əks etdirən akademik tədqiqatların sayını artırmaq, hər biri haqqında ətraflı məlumat yazmaq məruzənin həcmi ilə uyğunlaşmır. Akademik səviyyədə ədəbiyyat nəzəriyyəsinin ümümi vəziyyətini görmək üçün kifayət qədər fakta istinad olduğunu düşünürük.

2017-ci ildə Ədəbiyyat nəzəriyyəsinin tədrisi və təlimi ilə bağlı, sırf metodik və informativ məzmunlu tədqiqat əsərinə rast gəlinmədi. Halbuki ədəbiyyat nəzəriyyəsi sahəsində ən ciddi boşluq məhz burada özünü göstərir. Belə

ki, orta və ali məktəb arasında ədəbiyyat nəzəriyyəsi ilə bağlı vahid, sistemli fikir hələ də formalaşmayıb. Ali təhsil müəssisələrində müstəqil şəkildə fəaliyyət göstərən nəzəriyyə profilli kafedralar yoxdur. Bakalavr və magistr səviyyəsində ədəbi-nəzəri fikrin tədrisində istər vəsait, istərsə də tədrisin metodoloji prinsipləri ilə bağlı müəyyən boşluqlar var. Bunun da səbəbi, nəzəriyyəyə ikinci dərəcəli münasibətdən, bədii mətnlərin təhlilində təsvirçilik ənənəsinin çox vaxt üstünlük təşkil etməsindən qaynaqlanır. Çıxış yolu kimi, orta, ali təhsil səviyyəsində ədəbi-nəzəri fikrin akdemik nəzəriyyə ilə bağlantı qurmasını göstərmək olar.

Ötən ildə elmi-publisistik səviyyədə ədəbiyyat nəzəriyyəsinin predmetləşə bildiyi yazılar təbii ki, oldu. Xüsusilə, dövri mətbuatda, rəsmi ədəbiyyat orqanlarında gündəmin ədəbi ruhunu çözmək, bədii fakta çevik reaksiya vermək cəhdlərində, yenini adlandırmaq və izah etmək məqamında nəzəriyyədən dəstək almaq təbii qanunauyğunluq kimi görünür. İl ərzində yazılmış yüzlərlə tənqidi məqalənin, esse, rəy və ya müsahibənin hamısında nəzəriyyə vardır demək doğru deyil. Əslində, konkret bir neçə məqama toxunmaqla nəzəriyyə və tənqid çərçivəsində vəziyyət haqqında ümumi təsəvvür yaratmaq mümkündür. Bu baxımdan Elçinin "Söz azadlığı tənqidimizə nə verib?" başlıqlı silsilə yazılarını qeyd etmək olar. Bu yazıları seçməkdə məqsəd toxunulan mövzuların məhz nəzəriyyə və tənqid çərçivəsində olmasıdır. Elçinin fikrincə, "kütlə zövqü"-"müəllif zövqü"-"tənqid zövqü" arasındakı üzvi birlik, vəhdət bizim "Söz azadlığı" dövrümüzün ən ciddi bədii-estetik və nəzəri problemlərindən biri, hətta birincisidir.

Çünki müəllifə görə, "Söz azadlığı" müəllif zövqü ilə kütlə zövqünün üst-üstə düşməsi nəticəsində "yaranan" yazıların meydana çıxması, eyni səviyyəli zövqlə yazılmış məqalələrlə (məqaləciklərlə) ədəbi prosesdə işıqlandırılması (qiymətləndirilməsi!) üçün də əlverişli şərait yaradır. Tənqidi fikri kütlələşmədən uzaq durmağa, metodoloji konkretliliyə, bədii mətn faktlarına münasibətdə imitasiyadan qidalanan söz oyunçuluğuna deyil, məhz mahiyyətdən çıxış edən yazılara üstünlük verməyə çağırır. (https://525.az/site). "Primitivliyi təmtəraqlı adların arxasında gizlətmək, ona intellektual don geyindirmək mümkün deyil – suda quru taxta kimi o saat üzə çıxır" deyə "intellektual asılılıq" sindromunun tənqidi fikri dayazlaşdırdığını önə sürür. Dünya ədəbiyyatının Azərbaycan ədəbi prosesində tanınması və dərkində xüsusi həssaslıq tələb edir, rus və qərb mənşəli fikirlərin təkrarından qaçmaq, təmiz, yaradıcı və nəzəri erudisiyaya söykənən təhlil mexanizminin vacibliyini vurğulayır.

Ümumiyyətlə, ədəbi prosesdə cərəyan müxtəlifliyini adlandırmaq, müstqəillik dövründə müxtəlif ədəbi nəsillərin gətirdiyi və ya gətirməyə çalışdığı janr-üslub dəyişikliklərini müşahidə və analiz etmək məqamında elmi-tənqidi fikrin dolaşıqlıq yaşadığını inkar etmək olmaz. Tənqidin nəzəri əsasları olmayanda, ədəbiyyatşünaslığın akademik prinsiplərinə riayət etməyəndə mətnin "nə"dən danışması ön plana keçir, əsl ədəbiyyat hadisəsi olan mətn strukturu diqqətdən kənarda qalır.

Ədəbiyyat nəzəriyyəsi, ədəbiyyatın tərifindən başlayaraq onun mahiyyətini, qanunlarını, kateqoriyalarını, kəmiyyət və keyfiyyət göstəricilərini, məqsədinin və funksi-

yasının nə olduğunu, gerçəklə, cəmiyyətlə və insanla münasibətinin səciyyəsini, ədəbi dəyər məsələlərini, ədəbi əsərin ərsəyə gəlmə şərtlərini mövzu olaraq seçən və işləyən yanaşmalardan ibarətdir. "Fikrimizcə, ədəbi tənqidin bədii əsərləri dəyərləndirmə ölçüləri və prinsipləri ədəbiyyat nəzəriyyəsinin qanunauyğunluqlarına əsaslanmalıdır. Hətta ədəbiyyat tarixinin dövrləşdirilməsi, ayrı-ayrı inkişaf mərhələlərinin özünəməxsusluqları da müəyyən olunarkən ədəbiyyat nəzəriyyəsinin prinsiplərindən çıxış edilməlidir. Ümumiyyətlə, (ədəbiyyat nəzəriyyəsi) ədəbiyyatşünaslıq elmini müstəqil elm səviyyəsinə çatdıran əsas şöbədir" (Həbibbəyli İsa. Ədəbiyyatşünaslıq elminin şöbələrinə yeni baxış. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007, s.476). 2017-ci ildə ədəbiyyat nəzəriyyəsinin səviyyəsinə ümumi baxış göstərdi ki, bu gün Azərbaycanda ədəbiyyat nəzəriyyəsində yeni tendensiyaların və meyillərin tətbiqi müşahidə olunur, ədəbiyyatın elmi-nəzəri dərkində dövrün ab-havası ilə səsləşməsinə mane olan səbəblərdən biri kimi ənənəvi metodologiyanın böhranının natamam dərki tədricən qalxmaq üzrədir. Bütövlükdə cəmiyyətin modernləşməsinin fəlsəfi və metodoloji problemləri, azərbaycançılıq ideologiyasının müxtəlif fəlsəfi aspektlərini bilmədən yeni ədəbi-nəzəri konsepsiya formalaşdırmağın qeyri-mümkünlüyü elmi mühitdə qəbul edilir və çıxış yolları axtarılır.

Xanım ZAİROVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN-QƏRB ƏDƏBİ ƏLAQƏLƏRİ–2017

Ədəbi əlaqələr müxtəlif millətlər arasında coxcəhətli mədəni əlaqələrin meydana gəlməsinə, milli və bəşəri dəyərlərin qovuşaraq daha geniş məzmun kəsb etməsinə şərait yaradan mühüm sahələrdən biridir. Bu baxımdan, Azərbaycanın müxtəlif xalqlarla ədəbi əlaqələri ədəbiyyatlarımızın qarşılıqlı şəkildə inkişafına geniş zəmin yaratmışdır. O cümlədən, Azərbaycanın Avropa mədəniyyətinə inteqrasiyası milli-mənəvi dəyərlərimizin daha da zənginləşməsinə, bədii ədəbiyyatın geniş yaradıcılıq imkanları qazanmasına yardım etmişdir. Bu səbəbdən də ədəbiyyatların qarşılıqlı əlaqələr zəminində inkişafının tədqiqi ədəbiyyatşünaslığın qarşısındakı aktual məsələlərindən biridir.

"Hər bir xalqın ədəbiyyatı milli zəmində artıb inkişaf edir, müəyyən ölkənin, müəyyən xalqın daxili qanunauyğunluğu və tarixi həyatı ilə şərtlənir, öz orijinal bədii ənənələrini davam etdirir. Hər bir milli ədəbiyyat təcrid olunmuş şəkildə deyil, digər ədəbiyyatlarla yaradıcı əlaqədə və qarşılıqlı hərəkətdə inkişaf edir, onlarla zənginləşir. Həmin milli ədəbiyyatların başqa ədəbiyyatlarla həqiqi qarşılıqlı əlaqələrini araşdırmadan onun dəyərli keyfiyyətlərini, milli xüsusiyyətlərini tam və dərindən dərk etmək mümkün deyil" (Ломидзе Г.М. Пути развития советской многонациональной литературы. Москва, 1967, 114).

Məruzəmizdə ədəbi əlaqələr bir neçə istiqamətdən nəzərdən keçirilmişdir:

1. Bədii tərcümə (xarici dillərdən Azərbaycan dilinə və Azərbaycan dilindən xarici dillərə)
2. Dissertasiya və elmi məqalələr
3. Beynəlxalq konfranslar, simpoziumlar.
4. Elmi müəssisələr, Birliklər arasında əlaqələr, müqavilələr, birgə layihələr
5. Yazıçı və şairlərlə, ədəbiyyatçılarla, səfirlərlə görüşlər

Müxtəlif xalqların ədəbiyyatlarının qarşılıqlı təsirinin öyrənilməsində, ədəbi əlaqələrin beynəlxalq ünsiyyət formasına çevrilməsində bədii tərcümənin mühüm rolu var. Tərcümə ədəbi əlaqələr sisteminin tarixi keyfiyyətlərini bilavasitə ehtiva edir. Bədii tərcümə müxtəlif millətlərin ədəbiyyatlarının qarşılıqlı öyrənilməsində və ədəbi əlaqələrin inkişafında xüsusi əhəmiyyətə malikdir.

Dilimizə çevrilən əsərlər içərisində epik növün janrları çoxluq təşkil edir. Tərcümələrin bir qismi müxtəlif qəzet, jurnal və toplularda oxuculara təqdim olunmuşdur. Azərbaycan dilinə tərcümə edilən əsərləri belə təsnif etmək olar:

a) Bədii tərcümələr (nəsr və poeziya nümunələri)
b) Nobel mükafatçıları haqqında yazılar
c) Dünya yazıçılarının ədəbi-nəzəri görüşlərini ifadə edən məqalələri
d) Dahilərin məktubları
e) Dünya ədəbiyyatı haqqında ədəbi mozaika

Bədii tərcümə nümunələrinə bu sahədə xüsusi çəkiyə malik olan ARNK yanında Tərcümə Mərkəzinin nəşrlərin-

də, habelə Mərkəzin "Xəzər" jurnalında, "Aydınyol" qəzetində, Azərbaycan Yazıçılar Birliyinin nəşrləri olan "Azərbaycan", "Ulduz", "Dünya ədəbiyyatı" jurnallarında və "Ədəbiyyat qəzeti"nin səhifələrində təsadüf olunur. Həmçinin, edebiyyatqazeti.az, aydinyol.az, literaz.com, simsim.az, avanqard.net, manera.az, kult.az, kulis.az, axar.az saytlarında da Qərb ədəbiyyatı nümayəndələrinin bədii əsərlərindən tərcümələrə və bədii tərcümə məsələlərinə dair yazılarına yer ayrılmışdır.

ARNK yanında Tərcümə Mərkəzinin nəşr etdiyi kitab və topluları, xüsusilə də mərkəzin "Azərbaycan ədəbiyyatı antologiyası"nı, Azərbaycan ədəbiyyatı nümunələrini müxtəlif dillərə tərcümə etməsi və dünyaya təqdim etməsi, dünya ədəbiyyatının nümunələrini ölkəmizdə işıqlandırması, Yazıçılar Birliyinin Dünya Ədəbiyyatı seriyasından olan nəşrləri və topluları, "Parlaq imzalar" və "Qanun" nəşriyyatının nəşrləri də xüsusi vurğulanmalıdır.

Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin fəaliyyəti də diqqətələyiqdir. 2017-ci ildə Mərkəzin "Dünya ədəbiyyatı" jurnalının birinci sayı İngiltərə, ikinci sayı isə Moldova ədəbiyyatına həsr edilmişdir. Hər iki nömrədə bu ölkələri təmsil edən ədiblərin olduqca maraqlı əsərləri yer almışdır.

İngiltərə ədəbiyyatına həsr edilmiş dərgidə poeziya, proza və dramaturgiya nümunələrinin tərcümələri ilə yanaşı, ingilis ədibi, Nobel mükafatçısı Tomas Sternz Eliotun ədəbi yaradıcılıq barədə yazıları və Nobel nitqi də yer almışdır. Bundan əlavə, bu ildə Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində İngiltərənin görkəmli yazıçısı Culian

Barnsın "Aqibət duyğusu" romanı (tərc. S.Hüseynli) nəşr edilmişdir.

1. Moldova ədəbiyyatına həsr edilmiş dərgidə yer alan "Azərbaycan-Moldova ədəbi əlaqələrində yeni səhifə" başlıqlı material ölkələrimiz arasındakı bugunki ədəbi əməkdaşlıq əlaqələrinə həsr edilmişdir. Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində Moldovanın görkəmli şairi Arkadie Suçevyanunun "Qağayı ilə göndərilən məktub" bilinqva (ikidilli) şeirlər toplusu (tərc. S.Babullaoğlu və Qismət) və tanınmış yazıçı İqor Volnitskinin "Mənə ölməyi öyrət" (tərc. A.Yaşar) romanı nəşr edilmişdir. Həmçinin, Moldovada Azərbaycan nəsri antologiyası çapa hazırlanır. Kitaba akademik İsa Həbibbəyli "Ön söz" yazmışdır.

Eyni zamanda qeyd olunmalıdır ki, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində "Nabokovun mühazirələri" və "Ədəbiyyatsız dünya" (tərc. Qismət) nəşr edilmişdir. 2017-ci ildə "ATV kitab" layihəsi çərçivəsində kitabların çap olunmasında Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi yaxından iştirak etmişdir.

2. Dissertasiyalar və elmi məqalələr

2017-ci ildə Azərbaycan-Qərb ədəbi əlaqələri həm də dissertasiya və elmi məqalələr səviyyəsində də tədqiq olunmuşdur. Sədaqət Səlimova "Fransiz dilçiliyi tarixində türkologiya məsələlərinin tədqiqi", Gülnarə Əliyeva "F.M.Dostoyevski və H.Cavid yaradıcılığında humanizm problemi", Ləman Pənahova "XX əsr Böyük Britaniya postkolonial ədəbiyyatında multikulturalizm", Aqşin Əliyev "Valter Skott və XX əsrin I yarısı Azərbaycan tarixi romanı", Röya Mürşüdova "Çağdaş Azərbaycan və alman

ədəbiyyatında roman janri (1980-2005-CI ILLƏR)", Aliyə Əhmədova "Toni Morrisonun poetikasi", Gilə Hüseynli "Çağdaş Amerika bədii ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətləri (Don Delillo və Pol Oster yaradıcılığı əsasında)", Günel Cənnətova "Ingilisdilli yəhudi ədəbiyyati II Dünya müharibəsindən sonraki Amerika ədəbiyyati kontekstində", Natiq Adilov "İngilis-amerikan ədəbiyyatinda Hun mövzusu" filologiya üzrə fəlsəfə doktorluğu; Sevinc Rzayeva "Reseptiv estetika və XX əsr almandilli ədəbiyyat", Həmidə Əliyeva "Qərbi Avropa ədəbiyyatında yaxın Şərq mövzusu (Epik poeziya materialları əsasında)" Leyla İmaməliyeva "Rus və Azərbaycan ədəbiyyatlarında hekayə janrının tipologiyası (XIX əsrin sonu – XX əsrin əvvəlləri)" filolgiya üzrə elmlər doktorluğu üzrə dissertasiya yazmışlar.

Azərbaycan-Qərb ədəbi əlaqələrinin inkişafında AMEA Nizami adına Ədəbiyyat İnstitutunun da xidmətləri çox olmuşdur. Ədəbiyyat İnstitutunun "Ədəbi əlaqələr", "Ədəbiyyat məcmuəsi", "Poetika.izm" toplularında Qərb ədəbiyyatına, ədəbiyyatşünaslıq məsələlərinə həsr olunmuş elmi məqalələr dərc olunmuşdur.

3. Beynəlxalq konfranslar, simpoziumlar

Beynəlxalq filoloji konfrans və simpoziumların da ədəbi əlaqələrin inkişafında xüsusi rolu var. Bu baxımdan Ədəbiyyat İnstitutunun əməkdaşlarının 2017-cı ildə istər Azərbaycanda, istərsə də xarici ölkələrdə (Türkiyə, Qazaxıstan, Türkmənistan, Tatarstan, Özbəkistan, Macarıstan, Bosniya, Hersoqovina, Belçika , Çin, İran, İordaniya, Pakistan, Gürcüstan) keçirilən beynəlxalq ədəbiyyatşünaslıq konfranslarında və simpoziumlarında, beynəlxalq sərgilər-

də iştirakı vurğulanmalıdır. 2017-ci ildə AMEA Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən bir sıra beynəlxalq elmi konfranslar – "Məhdimqulu Fəraqi – dostluq və qardaşlıq nəğməkarı", Özbəkistanın xalq şairi Camal Kamalın anadan olmasının 80 illiyi münasibətilə "Camal Kamal və Azərbaycan Ədəbiyyatı", Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin vəfatının 600 illiyinə həsr olunan "Ey Nəsimi, cahanı tutdu sözün...", "Əzəli dostluq riştələri: Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələri" – xüsusi əhəmiyyət kəsb edir.

4. Elmi müəssisələr, Birliklər arasında əlaqələr, müqavilələr, birgə layihələr

Hazırda elmi müəssisələr arasında bağlanmış bir sıra müqavilələr, memorandumlar, protokollar da ədəbi əlaqələrin inkişafına təkan verir. Belə ki, "Əzəli dostluq riştələri: Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələri" adlı konfrans zamanı AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti və Azərbaycanın Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzi arasında qarşılıqlı anlaşma haqqında üçtərəfli memorandum (8 dekabr 2017) imzalanmışdır. Digər müqavilə isə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və İLESAM (Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyi) arasında əməkdaşlıq müqaviləsidir (27 aprel 2017). Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi ilə Moldova Yazıçılar Birliyi arasında da əməkdaşlıq memorandumu imzalanmışdır. Qeyd olunan sənədlərdə ədəbi əlaqələrin inkişafına xidmət edən, bədii ədəbiyyatın tərcüməsi və təbliği istiqamətində layihələrin reallaşdırılmasına dair müddəalar da öz əksini tapmışdır.

5. Yazıçı və şairlərlə, ədəbiyyatçılarla, səfirlərlə görüşlər

Müxtəlif xarici ölkələrin Azərbaycandakı səfirləri və səfirlik nümayəndələri, şair və yazıçılarla görüşlər ədəbi əlaqələrin inkişafında mühüm rol oynayır. 2017-ci ildə Ədəbiyyat İnstitutunda Kolumbiya yazıçısı, professor, Q.Q.Markes yaradıcılığının tədqiqatçısı Conrado Zuluaga, iranlı yazıçı Mustafa Məstur və İran İslam Respublikasının Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi ilə, ARNK yanında Tərcümə Mərkəzində Kolumbiya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili xanım Marta Galindo və konsulu xanım Kelly Chaib De Mares, Argentina Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin mədəniyyət məsələləri üzrə müşaviri Eduardo Cavallero, Çex Respublikasının Azərbaycan Respublikasındakı səfirinin müavini cənab Petr Vaqner, Fransa Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin Əməkdaşlıq və mədəniyyət müşaviri cənab Yohan Şitterer, Ukrayna Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Oleksandr Mişenko, Kuba Respublikasının Azərbaycandakı səfiri cənab Alfredo Nieves Portuondo, Rumıniya Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri cənab Dan İanku və xanımı Mihaela İanku, Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Viktor Sederkenye, İspaniya Krallığının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili cənab İqnasio Sançes Taboada, Almaniyanın Vürtsburq Universitetinin professor Ziqlinde Hartman ilə görüşlər keçirilmiş, ölkələrimiz arasında ədəbi və mədəni

əlaqələrdən, qarşılıqlı dostluq münasibətlərindən bəhs edilmiş, ədəbiyyatşünaslıq və bədii tərcümə məsələləri, qeyd olunan ölkələrin ədəbiyyatlarının Azərbaycan dilinə tərcüməsi və nəşri, habelə Azərbaycan ədəbiyyatı nümunələrinin bu ölkələrdə nəşri, Beynəlxalq kitab sərgilərində təqdimatı, kitabların xarici ölkələrin aparıcı kitabxanalarına yerləşdirilməsi kimi məsələlər müzakirə edilmiş, belə görüşlərin gələcəkdə ölkələrimiz arasında ədəbi əlaqələrin daha da genişlənib möhkəmlənməsinə təkan verəcəyi vurğulanmışdır.

2017-ci ildə Azərbaycan-Qərb ədəbi əlaqələri daha da inkişaf etmiş, bədii tərcümə vasitəsilə Qərb ədəbiyyat nümunələri Azərbaycan oxucusuna, habelə Azərbaycan ədəbiyyatı nümunələri xarici ölkələrin oxucularına təqdim edilmiş, elmi tədqiqat işləri yazılmışdır.

Eşqanə BABAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCAN VƏ TÜRK ƏDƏBİ ƏLAQƏLƏRİ

Azərbaycan və türk xalqları arasındakı ədəbi-mədəni əlaqələr son vaxtlar daha da sürətlə inkişaf edir. Xüsusən, türk, özbək, qazax, türkmən, qırğız və s. türk xalqaları arasındakı ədəbi əlaqələrin inkişafı ürəkaçandır. Bu səpkidə elmi-nəzəri konfranslar, görüşlər keçirilmiş, dissertasiya, monoqrafiya və məqalələr dərc olunmuşdur. Ədəbi əlaqələrin inkişafında akademik İ.Həbibbəyli, professorlardan Q.Paşayev, M.Əliyev, Ə.Rəsulov, R.Əskər, A.A.Aydın, E.Quliyev, M.Hacıyeva, A.Babayev, T.Məlikli, N.Araslı, J.Əliyeva, N.Tağısoy, F.Bayat, fil.e.d A.Ülvi, Y.Qasımbəyli, R.Əhmədov, filologiya üzrə fəlsəfə doktorlarından E.Babayeva, İ.Osmanlı, X.Hümmətova, F.Vəliyeva, A.Turan, S.Sadiyev, T.Teymurov, M.Həsənov, E.Məmmədova, X.Qafqazlı, S.Qasımlı, R.Quliyev, S.Gündoğdu, B.Osmanova, X.N.Əskər, A.Xəndan, N.Mustafayeva, F.Dursunova, K.Nəcəfova, Q.Şəhriyar və başqaları xidmət göstərmiş, xeyli sayda analitik məqalə və tədqiqatlarla çıxış etmişlər.

2017-ci ildə də Azərbaycan-Türkiyə arasında ədəbi-mədəni əlaqələr olduqca sıx olmuşdur. Bu səpkidə çoxlu məqalələr yazılmış, beynəlxalq elmi-nəzəri konfranslarda məruzələr dinlənilmişdir. Görkəmli türkoloq professor Ə.Rəsulovun "Yeni türk edebiyatında nesir kavramı" ("Türk filologiyası"), "Türkü türkə tanıdan türkoloq"

(T.Məlikov. Əsərləri, 3 cilddə) və s. kimi məqalələri olduqca maraq doğurur.

Ədəbi əlaqələrimizin inkişafında misilsiz xidmətləri olan professor A.Abıyevin 2017-ci ildə "Tanınmış şair və filosof Rza Tofiq" adlı məqaləsi nəşr olunmuşdur. Məqalədə, Türkiyənin tanınmış şairi və filosofu Rza Tofiqin ədəbi fəlsəfi yaradıcılığından söhbət edilir, şeirləri təhlil edilir, Rza Tofiq yaradıcılığı haqqında fikir və mülahizələr yürüdülür.

Ədəbi əlaqələrimizin inkişafında xüsusi yeri olan alimlərimizdən biri də Ramiz Əskərdir. 2017-ci ildə ildə, R.Əskərin "Yusuf Balasaguni ve Kutadgu Bilig Bibliyografyası. (Bakı: BXQR, 336 s.), "Qutadğu Bilig hikmətləri" (Bakı: 2017, BXQR, 136 s.) və s. kitabları, 10-dan yuxarı məqaləsi dərc olunmuşdur.

İnstitutun Türk xalqları şöbəsinin əməkdaşı, professor N.Tağısoy müxtəlif qəzet və jurnallarda ədəbi əlaqələr mövzusunda məqalələr dərc etmişdir. Bunlardan, "Azərbaycan ədəbiyyatının digər türk xalqları ədəbiyyatı ilə əlaqələri" ("Ədəbi proses–2016", s.92-432) "Qazax ədəbiyyatı" ("Kaspi" qəz., 14 yanvar, s.9), "Üç qazax akınının yaradıcılığından yarpaqlar" ("Kaspi" qəz., 1 aprel, s.21), "Son dövrlər Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin mənzərəsi" ("Kaspi" qəz., 1 iyul, s.12), "Azərbaycan-qazax ədəbi əlaqələri" ("Xalq cəhbəsi", 7 sentyabr, s.14), "Qaraçay ədəbiyyatında poema janrı" ("Xalq cəhbəsi", 30 sentyabr, s.4) və s. adlarını qeyd edə bilərik. Bu məqalələrin arasında təkcə türk, qazax, özbək deyil, eyni zamanda Azərbaycan-Qaraçay ədəbi əlaqələrinə də həsr olunmuş

tədqiqatlar geniş yer tutur. Məsələn, Tağısoylu "Abrek həyatı Qorxmaz Qorxmazovun "Qisas qılıncı" roman dilogiyasında" ("Xalq cəhbəsi", 28 sentyabr, s.14) adlı məqaləsində Qaraçay nəsrinin inkişaf xüsusiyyətlərinə nəzər salaraq "Qisas qılıncı" romanını tədqiqat obyektinə çevirir. "H.Bayramukovanın və O.Xubiyevin nəsr yaradıcılığında maarifçilik və ziyalı problemi" ("Ədalət", 16 sentyabr, s.14) adlı məqaləsində Qaraçay ədəbi-nəsrindən bəhs edir. Qeyd edək ki, N.Tağısoylu ilk dəfə olaraq qazax xalq qəhrəmanlıq dastanı olan "Koblandı-batır"ı azərbaycan dilinə tərcümə edərək nəşr etmişdir.

Türk xalqları ədəbiyyatı şöbəsinin əməkdaşı, fil.ü.f.d. T.Teymurovun "Muxtar Auezovun "Abay" romanında obraz yaradıcılığında bədii təfərrüatın rolu" adlı məqaləsində ("Ağamusa Axundov və Azərbaycan filologiyası" Beynəlxalq konfransın materialları, 24-25 aprel) M.Auezovun "Abay" romanında obrazlar sistemi, bədii təfərrüat və bədii detal problemi tədqiq edilir.

Fil.ü.f.d. X.Hümmətovanın da ədəbi əlaqələrin inkişafı istiqamətində bir sıra məqalələri dərc olunmuşdur. Bunlardan, "Hacı Bayram Vəli Şeirlərində Özünüdərkin Struktur Troyektoriyası" (Akademik Tarih ve Düşünce dergisi, c. 4, S:12, s.37-53), "Bayramiliyin ideya qaynağında səfəviyyə təriqəti" (Uluslararasi Haci Bayram Velî sempozyumu, 03-04 may), "Qazax adət-ənənəsi Muxtar Auezovun yaradıcılığında" (Azərbaycan Dövlət və Mədəniyyət Universiteti. Müqayisəli ədəbiyyatşünaslığın aktual problemləri. Respublika elmi-nəzəri konfransı. 4 aprel 2017), "Mir Həmzə Seyid Nigari yaradıcılığında Qarabağ həqiqətləri-

nin poetik əksi" (III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Sempozyumu. 17-18 mart 2017) və s. adlarını qeyd edə bilərik. Hümmətovanın diqqəti cəlb edən məqalələrindən biri də "Məhdimqulu Fəraqi şeirində təlvin: psixoloji və arifanə haldəyişmələri" (Görkəmli Türkmən şairi Məhdimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. Elmi-tədqiqi məqalələr. Bakı, "Elm və təhsil", 2017) adlanır. Məqalədə, Fəraqi poeziyasında psixoloji nüanslara, şüuraltı məsələlərə və yuxu motivinə diqqət yetirilir. Məqalədə göstərilir ki, bu arifanə haldəyişmələr, yuxu vasitəsi ilə oxucuya çatdırılır. Təlvində olan şairin bu halını isə tədqiqatçı, möminlərin meracına bənzədir.

Fil.ü.f.d. F.Vəliyevanın "Quş dili bilən Süleyman obrazı XIII əsr anadilli türk poeziyasında" (Ədəbiyyat məcmuəsi, s.211-217), "Fərhad və Şirin: İnvariant və yazılı ədəbiyyat" (Poetika.izm, s.120-127) və s. kimi məqalələri nəşr olunmuşdur.

Müəllifin də Azərbaycan-Türkiyə ədəbi əlaqələri istiqamətində məqalələri dərc olunmuşdur. Bunlardan "Nəcib Fazil Qisakürəyin "Aynadakı yalan" romanında sufi-fəlsəfi ideyalar" (Ədəbi əlaqələr, s.128-134), "Necip Fazıl Kısakürek`in eserlerinde estetik ve metafizik derinlik" (Mevsimler, e-dergi, kasım-aralık, S:12, s.1-4.), "X.Ə.Adıvarın "Sinəkli baqqal romanında doğu-batı sentezi" (I İnternational Scientific of the Turkic Peoples in the Changing Vorld, Kazan, 12-15 aprel, s.73-75), "Mevlananın Necip Fazıl üzerine etkisi" (The Program Of The International Scientific-Practical Conference "East And West: Literature And

Artistic Culture" 19-21 October, s.34-40), "Salxım söyüdlərin kölgəsində romanında Axıska-Türkləri " (Uluslararası Ahiska türkleri sempozyumu, Erzincan Universitesi, 11-13 Mayıs, s.75-81), "Intellectual Trends In The Tatar Prose At The- The Beginning Of The XX Century: The Peculiarities Of The Creativity Of Zulfat Hakim" (Вісник Національної академії керівних кадрів культури і мистецтв // Вестник Национальной академии руководящих кадров культуры и искусств – Культурология, №4 (2) (2017), s.271-275) və s. adlarını qeyd edə bilərik.

Türk xalqlarına töhfə olan əsərlərdən biri də professor Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" (Bakı, 2017, 632 səh.) dərsliyidir. Kitabda bütün türk xalqlarının əsas nümayəndələri və mərhələləri öz əksini tapmışdır. E.Quliyevin bu səpkidə xaricdə "Şehriyar yaratıcılığında milliyyetçiliğin sergilenme biçimleri" (3. Uluslararası Muhammed Hüseyin Şehriyar Bilgi Şöleni, Bursa.Türk Ocakları Derneği Bursa Şubesi. Mart 2017, səh.3-13), "Şehriyar şiirimizin ebedi şöhret zirvesi"(Uluslararası Türk Kültürü teşkilatı. Türk dünyası Kültür ve sanat dergisi. Ankara, 2017, say 52, seh.24-27), "Gengiz Aytmatov yaratıcılığı türk bedii nesrinin kamil ornegi kibidir" (Büyük türk bilgi şölenleri Cengiz Aytmatov. Özet kitab, Bursa, 2017, seh.45-47) məqalələri, ölkə daxilində isə "Məhəmmədhüseyn Şəhriyar – şeirimizin ədəbi şöhrət zirvəsi" ("525-ci qəzet", 25 fevral, səh.11-12), "Əhməd Yəsəvi yaradıcılığında islami dəyərlər" ("İslam həmrəyliyielm və təhsildə:hədəflər və çağırışlar" respublika elmi konfransının materialları. Bakı, 2017, səh.143-145.) və s. məqalələri

dərc olunmuşdur. Qeyd edək ki, professor E.Quliyev ədəbi əlaqələrimizin və Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərə görə TÜRKSOY-un "Xas Hacib" (16 fevral) və "Molla Pənah Vaqif" medalları (7 dekabr) ilə təltif edilmişdir.

2017-ci ildə ədəbi əlaqələrimizə həsr olunana araşdırmalardan fil.ü.f.d. Azər Turanın da əsərləri diqqətimizi cəlb edir. A.Turanın "Ədəbiyyat qəzeti"ndə dərc olunan "Söylə, ey Tanrı, dizlərin nerədə..." başlıqlı məqaləsi Cənab Şəhabəddin yaradıcılığına həsr olunmuşdur. Bu araşdırmada türk poeziyasında simvolizm və dekadantizmin təzahürləri məsələləri tədqiq olunmuşdur. Onun Əhməd Haşim barədə "Batan ayın kənarında sətirlər..." məqaləsində isə türk poeziyasında impressionizm məsələləri araşdırılmışdır. "Rəqs edən dilin şairi – Yahya Kemal Bayatlı", "Türk poeziyasında modernizm dalğası" (Nəcib Fazil Kısakürəyin yaradıcılığı əsasında), "Zaman gecədir... Məkan küçədir", "Dünya poeziyasının türk şahzadəsi" və s. məqalələri də diqqəti cəlb edir. Bunlardan başqa, tədqiqatçının Orxan Vəli poeziyasına həsr olunmuş "Bir qəribə şair – Orxan Vəli", Edip Cansevərdən bəhs edən "Fazla şiirden öldü Edip Cansever", Cahit Sıtkı Tarancı haqqında "Orhan gibi vaktinde gitmek varken…", Cemal Süreya barədə "Lalәlidən dünyaya gedən bir tramvaydayız". Fuad Köprülü barədə "Professor", Çingiz Dağçı yaradıcılığına həsr olunmuş "Sən dəniz qoxuyursan, Çingiz Dağçı", eləcə də "Çingiz Aytmatovun ağ buludu" və b. məqalələri də dərc olunmuşdur. Qeyd edək ki, fil.ü.f.d. A.Turanın 2017-ci ildə nəşr olunun "XX əsr – fəryadın metafizikası" kitabında

da türk və Avropa ədəbiyyatı nümunələrinin müqayisəli təhlilləri ilə yanaşı Mahmud Kaşqarlının "Divanü luğat ittürk" əsəri barədə "Hz. Yusifə bənzədilən kitab", Əlişir Nəvai barədə "Sultanın süd qardaşı şair", repressiya qurbanı, türkoloq Xalid Səid Xocayev barədə "Şəhid türkşünas" yazıları yer almışdır. Onun "Alp Ər Tonqa" yazısı isə xüsusi ilə diqqəti cəlb edir.

Fil.ü.f.d., dos. N.Mustafayevanın "Azərbaycan ədəbi prosesində F.Köprülü", "Qardaş köməyi" Türkiyə araşdırmalarında", "Nəsimi yaradıcılığı Türkiyə araşdırmalarında", "Ə.Ağaoğlunun yaradıcılığı Türkiyə elmi düşüncəsində", "Axundzadə yaradıcılığı türk ədəbiyyatşünaslığında", "B.Vahabzadə yaradıcılığı Türkiyə ədəbiyyatşünaslığında", "İsmayıl Hikmet araşdırmalarında Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyat tarix bilimi məsələləri"və s. kimi məqalələri nəşr olunmuşdur. Bu məqalələrdə Azərbaycanın görkəmli şair və yazıçılarının türk ədəbi-nəzəri fikrində yeri məsələsi tədqiq olunmuşdur.

Fil.ü.f.d. Səriyyə Gündoğdunun da "Azərbaycan basınında Balkan savaşları (Şəlalə dərgisi əsasında), (I Beynəlxalq İpəkyolu Simpoziumu, Nevşehir), "XX əsrin əvvəllərində Azərbaycanda çıxan "Şəlalə" dərgisində dil məsələləri", (AMEA, Milli Azərbaycan Tarix Muzeyi, "Türk İncəsənəti, Tarixi və Folkloru" VII Beynəlxalq konfransı, Bakı, 11-15 aprel), "Osmanlı dövlətində modernləşmə prosesində qadın problemləri: ədiblərin qələmindən" (1908-ci il, "Tanin" qəzeti əsasında), (Z.Bünyadovun Xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual məsələləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəl-

xalq elmi konfrans, 16-17 oktyabr, Bakı), "II Məşrutiyyət dönəmində yayınlanan Tanin qəzeti və qurucuları", (AMEA Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq Filologiyası Məsələləri), "II Məşrutiyyət dönəmində ədəbi cərəyanlar" və s. kimi məqalə və tezisləri nəşr olunmuşdur. Tədqiqatçının "XX əsrin birinci yarısında dilin milliləşmə məsələsi ("Türk Yurdu" dərgisi əsasında)" başlıqlı məqaləsində XX əsrin birinici yarısında, xüsusilə Türkiyədə Cümhuriyyət qurulduqdan sonra türk dilinin sadələşməsi və milliləşməsi məsələlərinə toxunulmuşdur. "İctimai-ədəbi düşüncənin başlıca mətbuat orqanları" adlı məqalədə isə II Məşrutiyyət dönəmində əldə edilən istiqlalla bərabər geniş demokratik hərəkatın güclənməsiylə yeni mətbu orqanlarının yaranmasından və onların ideoloji fəaliyyətinin ədəbi əsərlərdə əks olunmasından bəhs edilir. Xüsusən də, "Tanin", "İqdam", "Sebilür Rəşad", "Türk Yurdu" və s. kimi mətbu orqanlar araşdırmanın tədqiqat obyektinə çevrilir.

Fil.ü.f.d. Rəşid Quliyevin 2017-ci ildə nəşr olunan "Əhməd Həmdi Tanpınarın bədii publisistikası", "O həm də şair idi...", "Əhməd Hamdi Tanpınarın epik nəsri" məqalələrində isə XX əsr türk ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Ə.H.Tanpınar yaradıcılığı tədqiq edilir.

Fil.ü.f.d. Barat Osmanovanın "Mühiddin və onun türk ədəbiyyatı haqqında düşüncələri", Rza Tofiq yaradıcılığına həsr olunmuş "XX əsrin filolosof türk şairi" və "İsmayıl bəy Qaspıralı – böyük ictimai xadim" adlı məqalələri nəşr olunmuşdur. Tədqiqatçının "Mühiddin və onun türk

ədəbiyyatı haqqında düşüncələri" adlı məqaləsi xüsusi ilə diqqəti cəlb edir. Qeyd edək ki, 1923-cü ildə Türkiyədən Azərbaycana dəvət olunmuş Mühiddinin Azərbaycanda maarifin inkişafında xeyli xidmətləri olmuş, institutda dərs deməklə yanaşı, qəzet və jurnallarda da türk ədəbiyyatı haqqında məqalələrlə də çıxış etmişdir. Bu məqalədə ilk dəfə olaraq Mühiddinin ədəbi və elmi fəaliyyəti haqqında məlumat verilmişdir.

Bunlardan başqa, Emiliya Xəlilovanın "1900-1910-cu illərdə Azərbaycan dövrü mətbuatında türk fololoqiyası", Xanım Abdullayevanın "Klassik türk nəsrinin spesifik xüsusiyyətləri", "N.Kamalın "Cəzmi" romanında Şərq tarixinin bədii inikası" və s. kimi məqalələri nəşr olunmuşdur.

Ötən ildə olduğu kimi Azərbaycan-özbək ədəbi əlaqələri 2017-ci ildə də sürətlə inkişaf etmişdir. Bu səpkidə "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" adlı beynəlxalq elmi konfransın materialları (Elmi redaktoru: akademik İsa Həbibbəyli, məsul redaktoru və nəşrə hazırlayanı f.e.d. A.Ülvi // Bakı, "Elm və təhsil", 2017, 72 səh.), "Səməd Vurğun və türk dünyası" (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Səməd Vurğun ev-muzeyinin birgə keçirdikləri "Səməd Vurğun və türk dünyası" adlı elmi-praktik konfransın materialları (Elmi redaktoru: İsa Həbibbəyli, məsul redaktoru və nəşrə hazırlayanı f.e.d. A.Ülvi) // Bakı, "Avropa" nəşriyyatı, 2017, 94 səh.)), "Prof.dr. M.Fuad Köprülü. Əlişir Nəvai (risalə)" (Tərc.edən və redaktoru: A.Ülvi, fil.e.d. (Elmi redaktoru: İsa Həbibbəyli) // Bakı, "Elm", 2017, 26 səh.) və s. kimi kitablar nəşr olunmuşdur. Bunlardan başqa, f.e.d. A.Ülvi-

nin "Azərbaycan klassikləri Ə.Caminin "Baharıstan" təzkirəsində (Azərbaycan MEA Xəbərləri, Bakı, "Elm", №1, 2017, səh.09-14.), "Camal Kamal: Dünya 60-cılarının görkəmli özbək nümayəndəsi" (AMEA Nizami adına Ədəbiyyat İnstitutu "Ədəbi əlaqələr", 2017, №XI, səh.107-114), "Əbdürrəhman Cami: ədəbi irsindən iki təzkirəsi haqqında – "Nəfahət ül-üns" və "Baharıstan"" ("Elm və həyat" dərgisi, №2, 2017, səh.46-55) və s. məqalələri özbək-Azərbaycan ədəbi əlaqələrinə həsr olunmuşdur. Məqalələrin böyük əksəriyyəti Əlişir Nəvai irsinə həsr olunmuşdur. "Təzkirələr işığında və ya ilk təzkirələrçilər haqqında bəzi qeydlər (Əbu Mənsur əs-Saolibi, Nizami Aruzi Səmərqəndi , Buxaralı Məhəmməd Ovfi, Şeyx Əhməd ibn Xudayət Tərazi)" adlı tədqiqatda ilk dəfə olaraq sistemli şəkildə Ə.Nəvainin "Məcalis ün nəfais" təzkirəsindən bəhs edilir. Məqalədə təzkiräçilik tarixi izlənir, ədəbi faktlar elmi ictimaiyyətimizə təqdim olunur. A.Ülvinin "Əlişir Nəvainin ədəbi şəxsiyyəti və irsi" adlı məqaləsində isə dahi mütəfəkkirin yaradıcılıq yolu tədqiq edilir. Məqalədə diqqəti cəlb edən nüanslardan biri də, Nəvainin əsərlərindən Nizami, Nəsimi və s. Azərbaycan klassikləri haqqında olan hissələrin seçilərək şərhlərlə təqdim olunmasıdır. A.Ülvinin Qaraqalpakıstanda "Tamaddun nuri" jurnalında nəşr olunan "Müstəqillik illərində Azərbaycan-özbək ədəbi əlaqələri" adlı məqaləsində iki qardaş xalqın ədəbi əlaqələrinə yeni məfkurə işığında nəzər salınmışdır. A.Ülvi, yalnız Nəvai yaradıcılığında Azərbaycan klassiklərini tədqiq etmir, eyni zamanda bir çox klassiklərin yaradıcılığında da Nəvai izlərini axtarır. Onun "Z.M.Baburun "Baburnamə"

əsərinin Bakı nüsxəsinin təsviri və əsərdə Əlişir Nəvai haqqında" adlı məqaləsi bu baxımdan diqqəti cəlb edir. Onu da qeyd edək ki, A.Ülvi "Kitab dünyası" (Özbəkistan), "Təlmih" kültür-sənət-ədəbiyyat (Türkiyə) və s. jurnallarının redaksiya heyətinin üzvüdür. Tədqiqatçının nəşr etdirdiyi məqalələrdən 20-si Nəvai və klassik özbək ədəbiyyatı, 10-u isə müasir özbək ədəbiyyatı ilə əlaqədardır.

Özbək-Azərbaycan ədəbi əlaqələrinin inkişafında rolu olan alimlərimizdən biri də fil.e.d. Y.Qasımbəylidir. O, il ərzində müxtəlif jurnal və qəzetlərdə (Rəsul Rza və altmışıncılar // "525-ci qəzet", may, "Şairin sevgi və əbədiyyət dastanı." "Azərbaycan" jurnalı, №7-8, 2017. Vətənin tən yarısı // "Kaspi" qəzeti, 13 may, "Vətəni köksünə sıxana alqış" // "Azad Azərbaycan", 8 fevral, "Rəsul Rza və Vladimir Mayakovski", "525-ci qəzet", "Azərbaycan ruhunun və dilinin nəğməkarı" // "Bütöv Azərbaycan" qəzeti, 15-16 sentyabr və s.) elmi publisistik məqalələrlə çıxış etmişdir. Tədqiqatçı, "Camal Kamalın poeziyasında lirik lövhələr" adlı məruzəsində isə böyük özbək şairi Camal Kamal yaradıcılığına nəzər yetirərək, poeziyasının spesifik xüsusiyyətlərindən bəhs etmişdir.

Professor Nizami Tağısoyun da "Müasir dövr Azərbaycan-özbək ədəbi əlaqələri" ("Ədalət" qəz., 24 iyun, s.12-13) mövzusunda yazdığı məqalə ədəbi əlaqələrimizin inkişafı, problemləri və bugünkü durumu baxımından maraq doğurur. Fil.ü.f.d., dos. Təranə Həşimova da, "20. yüzyılın başlarında Rusya İşğalı döneminde Türkiye edebiyatının etkisinde Azerbaycan ve Özbek edebiyatında akımlar" (VII Uluslararası Karadeniz sempozyumu, s.231-236),

"XX əsrin 60-cı illərində Azərbaycan və Özbək şeirində ortaq inkişaf xüsusiyyətləri" (Şərq filologiyası məsələləri, s.386-401), "Çağdaş Azerbaycan ve özbek şiirinde ortak gelişme enlemleri: Dil konusu (60`lı yıllar)" ("Karadeniz" dergisi, S:34, s.11-22) və s. 10-a yaxın məqalələri dərc etmişdir. T.Həşimovanın "Müstəqillik dövründə Azərbaycan və Özbək şeirində səsləşmə və paralellər" adlı məqaləsində Müstəqillik dövründə Azərbaycan və Özbək poetik əlaqələrindən, poeziyada mövzu və ideya paralellərindən bəhs olunur. Azərbaycan və Özbək şeirində eyni ictimai-siyasi vəziyyətin şərtləndirdiyi milli, ictimai-siyasi mövzulu şeirlər tədqiqata cəlb olunur. Müasir özbək şairləri Həlimə Xudaverdiyeva, Azim Süyün, Siracəddin Səyyid sənəti ilə Hüseyn Cavid, Xəlil Rza Ulutürk şeiriyyətində səsləşmələr poetik nümünələrin müqayisəsində təqdim olunur. Tədqiqatçının "Özbək şairi Tahir Qəhhar yaradıcılığının bədii xüsusiyyətləri; bədii tərcümədə millilik" məqaləsində isə müasir Özbək şairi Tahir Qəhharın yaradıcılığının bədii xüsusiyyətləri, Azərbaycan şerindən tərcümələri tədqiq olunur. Məqalədə diqqəti cəlb edən məqamlardan biri də şairin şəxsi arxiv materiallarından istifadə olunmasıdır.

Azərbaycan-türkmən ədəbi əlaqələri istiqamətində də mühüm işlər görülmüşdür. "Görkəmli Türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında" (Bakı:Elm və Təhsil, 2017, s.312) mövzusunda məqalələr toplusundan ibarət kitab nəşr olunmuşdur (toplayan və nəşrə hazırlayanı İsmixan Osmanlı). Töhfə Talıbovanın Azərbaycan-Türkmən ədəbi əlaqələrinə həsr edilmiş "Müstəqillik dövrü Azərbaycan-Türkmənistan

ədəbi əlaqələri" adlı dissertasiyası uğurla müzakirə olunmuşdur. Bundan başqa, prof. M.Əliyev, X.Hümmətova, İ.Osmanlı, T.Talıbovanın və s. məqalələri (Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. Elmi tədqiqi məqalələr. Bakı, "Elm və təhsil", 2017) dərc olunmuşdur. Bu sahədə diqqəti cəlb edən məqalələrdən biri də professor Məmməd Əliyevin "Məhtumqulu şeirinin qafiyə zənginliyi" ("AMEA-nın xəbərləri", №1, s.96-107), "Molla Pənah Vaqif və Məhtimqulu Fəraqi poeziyasının özəllikləri" ("Ədəbiyyat" qəzeti, 18 noyabr) və s. kimi məqalələridir. Professsor M.Əliyev bu məqalələrində böyük türkmən şairi M.Fəraqinin poeziyasını Azərbaycan ədəbiyyatı ilə müqayisələr kontekstində təhlil edir, Vaqif və Fəraqi yaradıcılığındakı paralelliklər üzərində durur.

Ədəbi əlaqələrimizin inkişafına töhfə olan tədqiqatlardan biri də fil.ü.f.d. N.Əskərin "Batı Versiyonu İçerisinde Antep ve Maraş Ağzı Köroğlu Destanı" (Uluslararası Gaziantep Tarihi Sempozyumu (Millî Mücadele Döneminde Gaziantep). Özetler Kitabı. – Gaziantep, 2017, s.184-186.) mövzusunda məqaləsidir. Tədqiqatda "Koroğlu" dastanının şərq və qərb versiyaları haqqında məlumat verilmiş, qərb versiyasına aid olan Anadolu variantlarından bəhs olunmuşdur. N.Əskər "Doğudan Batıya bir Avrasya destanı: Köroğlu" (Xoca Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Üniversiteti "Uluslararası Sosyal Bilimler Kongresi: Türkistan Forumu III. Küreselleşme Sürecinde Türk Dünyasının Geleceği, Fırsatlar ve Tehditler". 26-28 aprel 2017-ci il, Qazaxıstan) adlı məqaləsində isə türk dünyası-

nın bütün yerlərində aşıq repertuarında olan "Koroğlu" dastanının yaranma, yayılma arealından, ortaq və fərqli motivlərindən bəhs etmişdir.

2017-ci ildə Azərbaycan-türk xalqları arasında ədəbi əlaqələrə aid bir sıra dissertasiya işləri yazılmışdır. Bunlardan Mehman Həsənovun "Çingiz Aytmatov və Azərbaycan ədəbiyyati" (25 aprel 2017-ci il), İnci Qasımlının "Əlaəddin Çələbinin "Kitabi-taci-ədəb" əsərinin tekstoloji tədqiqi və müqayisəli mətni" (15.09.2017), Ofeliya Babayevanın "Müasir Türkiyə türk poeziyasında ənənə və novatorluq (Sezai Karakoç yaradıcılığı əsasında)" (4.10.2017), Gülüstan Həsənovanın "XX əsrin 40-cı illəri türk poeziyasında yeni mərhələ kimi" (29 noyabr 2017) və s. dissertasiyaların adlarını qeyd edə bilərik. Qeyd etdiyimiz bu tədqiqatlar ədəbi əlaqələrimizin inkişafına böyük töhfədir.

Ədəbi əlaqələrin inkişafında keçirilən beynəlxalq elmi konfransların, bağlanılan müqavilələrin mühüm əhəmiyyəti vardır. Belə ki, aprel ayında İLESAM-la (Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyi) – Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu arasında əməkdaşlıq müqaviləsi, may ayında isə Türkiyənin Mövlana Mübadilə Proqramının Protokolu imzalanmışdır. Bunlardan başqa, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti və Azərbaycanın Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzi arasında qarşılıqlı anlaşma haqqında üçtərəfli memorandum imzalanmışdır.

30 may 2017-ci ildə isə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Azərbaycan Respublikasının

Özbəkistandakı Səfirliyi yanında Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Özbəkistanın xalq şairi Camal Kamalın anadan olmasının 80 illiyi münasibətilə "Camal Kamal və Azərbaycan ədəbiyyatı" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Elmi Konfransı giriş sözü ilə akademik İsa Həbibbəyli açmış, millət vəkili Qənirə Paşayeva Camal Kamal haqqında çıxış etmişdir. Konfransda "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri" şöbəsinin müdiri, f.e.d. Almaz Ülvi "Ədəbiyyatın 60-cılar nəslinin görkəmli özbək nümayəndəsi Camal Kamal", Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin həmsədri, Əlişir Nəvai adına Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin baş müəllimi, fil.ü.f.d., dosent Gülbahor Aşurova "Camal Kamalın həyat və yaradıcılığı haqqında", Əlişir Nəvai adına Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin baş müəllimi, pedaqoji elmlər doktoru, prof. Roza Niyozmetova "Ədəbiyyat tədrisinin aktual məsələləri haqqında", f.e.d. Yaşar Qasımbəyli "Camal Kamalın poeziyasında lirik lövhələr", Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı Sənubər Səmədova "Camal Kamal yaradıcılığında Azərbaycan izləri", Özbəkistanın xalq şairi, tədqiqatçı alim Camal Kamal "Nizami Gəncəvinin "Xəmsə"si haqqında" adlı məruzələrlə çıxış etmişlər.

Bundan başqa, institutda "Əzəli dostluq riştələri:Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələri" adlı nəzəri konfrans da keçirilmişdir (8 dekabr, 2017). Giriş sözü ilə konfransı akademik İsa Həbibbəyli və Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri

Şerzod Fayziyev açmışdır. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov "Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələri: həyata keçirilən layihələr, perspektivlər", filologiya elmləri doktoru Almaz Ülvi Binnətova "Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə son 2 ildə Daşkənddə özbək dilində çap olunan kitablar haqqında" adlı məruzələr etmişlər.

Digər qurumlarda da beynəlxalq elmi konfranslar, dəyirmi masalar keçirilmişdir. Azərbaycan Dövlət Pedoqoji Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti və Kastamonu Universiteti ilə birlikdə "Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş I Beynəlxalq elmi konfrans keçirmişdir (12-14 oktyabr). Konfransda ictimai-siyasi, iqtisadi, ədəbi-mədəni əlaqələrə həsr olumuş məruzələr dinlənmiş, Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmlənməsi mövzusunda müzakirələr aparılmışdır.

Ədəbi əlaqələrin inkişafında tərcümələrin də rolu misilsizdir. 2017-ci ildə müxtəlif türk xalqlarından tərcümələr edilmiş, antologiyalar hazırlanmışdır. Fatma Barbarosoğlunun "Külək ovu" (Minə Candan), "Son 15 dəqiqə" (Arzu Həsənli), Ç.Aytmatov "Dəniz kənarı ilə qaçan alabaş" (Xeyrulla Əliyev), Ahmet Efe "Anadolu nağılları" (Nərmin Dadaşova) və s. əsərləri tərcümə edilərək Azərbaycan oxucusuna təqdim edilmişdir. "Türk ədəbiyyatı" (nəsr) antologiyası da Q.Alxanova, K.Ələkbərova və S.Nağıyev tərəfindən tərcümə edilərək nəşr edilmişdir. XIX-XXI əsr Türk ədəbiyyatının mənzərəsini ilk dəfə küll halında Azərbaycan oxucusuna təqdim edən kitabda 50-

dən yuxarı tanınmış Türkiyə ədibinin əsərləri yer almışdır. Yeri gəlmişkən, tərcümə sahəsində "Qanun" nəşriyyatı və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin xidmətini xüsusi qeyd etməyi məqsədəuyğun hesab edirik. Mərkəzin direktoru Afaq Məsud ədəbi əlaqələrin inkişafındakı uğurlu fəaliyyətinə görə TÜRKSOY-un medalına da layiq görülmüşdür (05.06.2017).

Ədəbi əlaqələrin inkişafında Dünya Gənc Türk Yazarlar Birliyinin də xidmətləri böyükdür. Birliyin "Türk Dünyası gənc yazarlarının (əsərlərindən ibarət antologiyanın nəşri və s.) Bakı Toplantısının keçirilməsi" adlı layihə çərçivəsində bir sıra türksoylu ölkə və topluluqlarla silsilə tədbirləri həyata keçirilmişdir. Bunlardan biri də "Şeir çələngi" antalogiyasının çap olunmasıdır. Gənc yazarlardan Şəfa Vəli, Nofəl Ümid, Gülnar Səma, Rübabə Sahib və Sərvər Kamranlının tərtibçisi olduğu, "Ön söz"ünü millət vəkili Cavanşir Feyziyevin yazdığı "Şeir çələngi"ndə iştirakçıların III Bakı Toplantısında öz ölkələrindəki ədəbi mühit, ədəbi gələnəklər və perspektivlərlə bağlı layihə çərçivəsində keçirilmiş toplantı və konfranslarda etdiyi məruzələrin mətni, eləcə də gənc şairlərin şeirləri yer almışdır. Antologiya Əkbər Qoşalının redaktorluğu ilə nəşr olunmuşdur. Ötən il birliyin "Yeni Qazax şeiri antologiyası" (Ə.Qoşalının baş redaktorluğu ilə) da nəşr olunmuşdur. Antologiyaya daxil olan şeirlər Qazaxıstanlı yazıçılar Dr. Gülnaz Faizulla, Gülnaz Satbay, Azərbaycanlı yazıçılar Rəsmiyyə Sabir, Təranə Turan (Rəhimli), Gülnar Səma (Qasımlı), Afaq Şıxlı, Əkbər Qoşalı, Elxan Zal Qaraxanlı,

İbrahim İlyaslı, İntiqam Yaşar və Ruslan Dost Əli tərəfindən tərcümə edilmişdir.

Bunlardan başqa, onu da xüsusi ilə vurğulayaq ki, "Ədəbiyyat", "525-ci qəzet", "Azərbaycan" jurnalı və s. mətbuat orqanları, eyni zamanda internet portallarında da mütəmadi olaraq ədəbi əlaqələrimizə həsr olunmuş məqalələr nəşr olunmuşdur. Türkiyədə dərc edilən "Mövsümlər", "Təlmih" və s. aylıq sənət-ədəbiyyat jurnallarının da adlarını qeyd etməyi məqsədəuyğun hesab edirik.

Qeyd edək ki, keçən illə müqayisədə ədəbi-mədəni əlaqələrin inkişafında bir az da sürətlənmə müşahidə edilir. Xüsusən, türk, özbək, türkmən, qırğız, qazax ədəbi əlaqələrinin inkişafı olduqca yüksəkdir. Amma təəssüflər olsun ki, digər türk xalqları arasında (noğay, kumuk və s) ədəbi-mədəni əlaqələr ötən illərdə olduğu kimi, 2017-ci ildə də olduqca zəifdir.

Vüqar ƏHMƏD
Filologiya üzrə elmlər doktoru, professor

NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTUNDA ƏDƏBİ-BƏDİİ PROSES–2017

Elmi təfəkkürlə bədii təxəyyül müəyyən çağlarda və məkanlarda qoşa qanada çevrilmiş, biri digərini zənginləşdirə-zənginləşdirə tamamlamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda belə bir elmi-ədəbi mühit həmişə olmuş, bu günün ədəbi prosesinin ləyaqətli faktına çevrilmişdir.

Müstəqillik illəri Azərbaycan ədəbiyyatnın bədii və elmi axtarışlarının dərindən, fundamental bir şəkildə öyrənilməsi, tədqiqi, əksi bu elm məbədgahının adı ilə sıx bağlıdır və şübhəsiz müasir dövrün ictimai və mənəvi gerçəkliyinin mühüm sahələrinə və qatlarına nüfuz etməkdədir. Başqa sözlə, Ədəbiyyat İnstitunda çox mühüm filoloji mühütlə həmahəng maraqlı və cəlbedici bir bədii-poetik mühit də mövcuddur. Belə bir dəyərli prosesi kənarda qoymaq, görməzliyə vurmaq, əslində dövrümüzün sənət və sənətkarlığa baxışlarına, gücünə, onun həyatımızda tutduğu mövqeyinə, oynadığı ədəbi-estetik rola, ədəbi prosesin tamlığına xələl gətirmiş olardı... Ona görə də belə bir prosesin öyrənilməsi, toplanıb nəşr edilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, ədəbi proses bütövlükdə real, canlı ədəbi həyatı təcəssüm etdirir, ədəbi inkişafın, ədəbiyyatın müxtəlif meyil və təmayüllərini, nəsillərin qarşılıqlı əlaqə-

lərini özündə əks etdirir. Ədəbiyyatımızın uğur və kəsirləri, qüvvətli və zəif cəhətləri, müasirliyin irəli sürdüyü ən aktual məsələlər, cəmiyyətin ictimai əxlaqı, ədəbi şəxsiyyətin ümumdövlət, ümumxalq miqyaslı mənəvi sərvətə çevrilən ideal və arzuları, düşüncələri haqqında real və möhtəşəm ədəbi, elmi, bədii həqiqətlər ədəbi prosesin müstəvisində əksini və həllini tapır.

Əlbəttə, yazılan bütün əsərləri ədəbi prosesə daxil etmək olmaz. Mütəmadi olaraq yazılan bədii nümunələrin estetik tutumu, keyfiyyəti, poetik səviyyəsi, ədəbi çəkisi olmalıdır ki, ədəbi prosesin faktına çevrilsin. Yüksək sənətkarlıq tələblərilə yazılan və nəşr edilən əsərləri izləmək, onları ictimaiyyətə təqdim etmək tənqid və ədəbiyyatşünaslığın vəzifələrindən biridir. İstedad və sənətkarlıqla yazılan əsərlər ədəbi qiymətini almalıdır.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının janr müxtəlifliyini aydın surətdə təsəvvür etmək və ayrı-ayrı janrlar üzrə əsas inkişaf meyillərini görüb-göstərmək baxımından "Ədəbi proses" hadisəsi dəqiq və etibarlı bələdçi funksiyasını yerinə yetirir".[1]

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, burada çalışan ədəbiyyatşünas alimlər, tənqidçilər daim ədəbi prosesin inkişaf dinamikasının izlənməsi, tənzimlənməsi, təhlili, tənqidi və təbliğində böyük rol oynayırlar. Bu gün də həmin tarixi ənənə davam etməkdədir.

Eyni zamanda, Ədəbiyyat İnstitutunda çalışan tənqidçi və ədəbiyyatşünaslar elmi-tədqiqat işləri ilə bərabər, bu

[1] İsa Həbibbəyli. Janr zənginliyi və gənc qvardiya, AMEA Ədəbi proses–2015. Bakı, "Hədəf", 2016, s.6.

və ya digər miqyasda, səviyyədə və müəyyən (az-çox) məhsuldarlıqla (bütün mədəni dünyada, həmçinin Azərbaycanda çoxdan yazıçı-alim, alim-şair tipi vardır), bədii ədəbiyyat nümunələri yaratmışlar və bu gün də müxtəlif janrlarda əsərlər yazırlar. Bu bədii məhsullar da, onların elmi yaradıcılığı kimi ədəbi prosesin bir parçasıdır.

Son beş ildə Ədəbiyyat İnstitutunda baş verən canlanma, inkişaf, tədqiqat problematikasının əhatəsi, gənc alimlərə qayğı göz önündədir. İnstitutun rəhbərliyinin burada elmi-təşkilatçılıq fəaliyyəti, filoloji fikri yeni, daha yüksək mərhələyə qaldırmasını vurğulamaqla yanaşı, qeyd edək ki, əməkdaşlarımızın illər boyu kölgədə qalan bədii yaradıcılıq işlərinin ortaya çıxarılması və nəşri məsələlərinə münasibəti olduqca müsbət bir hal kimi elmi-ədəbi ictimaiyyət tərəfindən qarşılanmaqdadır.

İki il bundan öncə Ədəbiyyat İnstitutunun direktoru, hörmətli ədəbiyyatşünas alim, akademik İsa Həbibəylinin təşəbbüsü ilə İnstitutun nəzdində "Elmi Şuranın 29 oktyabr 2016-cı il tarixli qərarı ilə "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyi" yaradıldı. "Birliyə" rəhbərlik etmək mənə tapşırıldı. Birliyin ətrafında qırx nəfərə yaxın ədəbiyyatşünas alim cəmləşdi. Bu birlik üzvləri həm tədqiqatçı kimi olduqca istedadlı, tanınmış, nüfuzlu alimlər, həm də eyni zamanda, bədii ədəbiyyatın müxtəlif janrlarında qələmlərini sınayaraq müəyyən uğur qazanmış şairlər, nasirlər, publisistlər və tərcüməçilərdir.

Tez bir zamanda Birlik üzvlərinin ədəbi-bədii materiallarının toplanmasına və onların əsərlərinin tərəfimizdən növ və janrlar üzrə (nəsr, poeziya və tərcümə) təsnif olunmasına başlandı.

Bu mühüm işdə məqsədimiz institutumuzdaki ədəbi prosesi üzə çıxarmaq, burada fəaliyyət göstərən alimlərin bədii yaradıcılıq nümunələrini izləmək, araşdırmaq və təhlil etməkdən ibarətdir. Ötən il və 2017-ci ildə alimlərimizin bədii məhsulları "Ədəbiyyatşünaslıq, plyus bədii yaradıcılıq" (I kitab) almanaxında oxucuların ixtiyarına verildi.[1]

Mərdəkanda AMEA-nın Dendiralogiya İnstitutunda akademik İsa Həbibbəylinin rəhbərliyi altında "Fizika və lirika" konfransında kitabın təqdimatı yüksək səviyyədə keçirildi, deyərdim ki, ədəbi hadisəyə çevrildi.

Ədəbiyyat İnstitutundakı ədəbi-bədii prosesi yaradan alim-şəxsiyyətlərdən söz açmaq istəyirəm. Bu sırada İsa Həbibbəyli, Məmməd Əliyev, İmamverdi Həmidov, Qurban Bayramov, Asif Rüstəmli, Vüqar Əhməd, Mənzər Niyarlı, Ülkər Hüseynova, Esmira Fuad (Şükürova), Rasim Qurbanov (Nəbioğlu), İradə Yusifova, Cavanşir Yusifli, Bahar Bərdəli, Nizami Tağısoy, Mərziyyə Səlahəddin, Salidə Şamədqızı, Leyli Əliyeva, Şahbaz Şəmioğlu, Xuraman Hümmətova, Fəridə Hicran, Təranə Məhəmmədqızı, Təhminə Bədəlova, Nərgiz Cabbarlı, Fidan Abdurəhmanova, Almaz Ülvi, Qəndab Əliyeva, Xədiçə İsgəndərli, Qürbət Mirzəzadə, Baba Babayev, Gülbəniz Babayeva, Aynurə Paşayeva, Elnarə Zeynalova, Aytən Rüstəmzadə, Lütviyyə Əsgərzadə, Gülnar Səma, Solmaz Həyatova, Mehman Həsənov, Əflatun Baxşəliyev, Zəkulla Bayramlı,

[1] Bax: "Plyus bədii yaradıcılıq" (Ədəbi almanax) I kitab. Bakı, "Elm və təhsil", 2017.

Zöhrə Allahverdiyeva, Cavidə Məmmədova və başqalarını göstərmək olar.

Hər bir bədii əsər gərgin yaradıcılıq axtarışlarının, yaradıcılıq prosesinin nəticəsində əmələ gəlir. Bu prosesin mahiyyətini başa düşmək, yaranan sənət əsərlərinə düzgün, obyektiv qiymət vermək, müəllifin başlıca ədəbi məramını, əsərin ideyasını anlamaq, qəhrəmanların hərəkət və davranışlarını dürüst müəyyənləşdirmək, bədii sənətkarlıq cizgilərini, əsərin poetik xüsusiyyətlərini, məzmun və forma gözəlliyini dəyərləndirmək mühüm cəhətlərdəndir ki, topladığımız bədii materialı bu mövqedən ümumi şəkildə nəzərdən keçirməyə cəhd edək... Tanınmış tənqidçi və ədəbiyyatşünas, prof. Yaşar Qarayev vaxtilə yazırdı: "Ədəbi proses anlayışı müəyyən hüdudlarda tamlıq və bütövlüyü, vəhdət və sistemi, baş verən, cərəyan etməkdə olan canlı ədəbi gerçəklyi nəzərdə tutur. Çılpaq, empirik fakt həqiqəti ilə yox, məhz prosesin həqiqəti ilə nə dərəcədə uğurlu məşğul ola bilməsi onun müasirlik və profesionallıq simasını müəyyən edən meyar seçilə bilər."[1] Bu baxımdan, Ədəbiyyat İnstitunun əməkdaşları tərəfindən yaranan bədii məhsul öz müasirlik və profesionallıq siması olan, sosial məzmunlu, müstəqillik dövrü mənəvi həyatımızla sıx bağlı olan bədii faktdır.

***

Ədəbiyyatşünas və tənqidçi şairlərimizin yaradıcılığına ümumi bir nəzər saldıqda görürük ki, onlar ədəbiyyatın

[1] Bax: Ədəbi proses–76. Bakı, "Elm", 1977, səh.11-12.

əbədi-əzəli mövzuları ilə yanaşı, müasir həyatın sosial problemlərinə, insanı düşündürən məsələlərə daha sıx müraciət edirlər.

Ümumi xətt-leytmotiv Vətəndir, onun ağrı-acılarıdır, itirilmiş torpaqlarımızın həsrətidir, insanın mənəvi borcu, xeyrə-şərə, həqiqətə,gözəlliyə münasibəti, hər kəsi narahat edən ictimai, sosial, siyasi qayğılardır... Şübhəsiz, bütün əsərlər, şeirlər məhəbbətdən doğur: Allaha, Vətənə, Anaya, Sevgiliyə olan eşq. Bu əsərlərin əksəriyyətində həyatın mənası və məqsədi haqqında, bəşəriyyətin yolları haqqında, varlığın əbədi həqiqətləri haqqında müasir düşüncələr və duyğular ifadə edilir... Təbitin dərki, insan kamilliyi, sevgi, inam, nakamlıq, sədaqət, intizar, iztirab, Qarabağ itkisindən irəli gələn dərd, kədər, Vətən uğrunda vətəndaşlıq mübarizəsi, müstəqil dövlətin vətəndaşı olmaq qüruru motivləri bu əsərlərin əsas qayəsidir...

"Poeziya hər deyəndə ələ gəlməyən, tapılmayan bir nəsnədir, hətta ən qüdrətli şairlərin yaradıcılığı da bu uğursuzluqdan yan keşmir, keçə bilmir. Poeziya hər şeydə var, o hər şeydir, ancaq hər şey poeizya deyildir".[1]

Məsələ burasındadır ki, bu topluda təqdim etdiyimiz müəlliflərin bir çoxu heç də şairlik, yazıçılıq iddiasında deyillər. Amma bədii fakt faktlığında qalır və bu əsərlərin əksəriyyəti həm onların müəlliflərinin ədəbi zövqləri barəsində təsəvvür yaradır, həm də bu filoloq-alimlərin, tənqidçilərin bədii istedadlarını da üzə çıxarır...

[1] Cavanşir Yusifli. Poeziya–2016. Ədəbi proses–2016, IV cild. Bakı, "Hədəf", 2017, s.34.

Poeziya – şeir yaradıcılığı bütün ədəbi prosesdə olduğu kimi, Ədəbiyyat İnstitunda yaranan bədii nümunələr sırasında zənginliyi və məzmunu ilə öndədir. Müasir Azərbaycan poeziyasının inkişafında və zənginləşməsində bu poetik nümunələrin əhəmiyyətini qeyd etməklə, nəzərə çatdıraq ki, İnstitutumuzda poetik yaradıcılıqla müxtəlif nəsillərin nümayəndələri uğurla məşğul olurlar...

Görkəmli ədəbiyyatşünas alim akademik İsa Həbibbəyli AMEA-nın vitse-prezidenti olmaqla və Ədəbiyyat İnstitutuna rəhbərlik etməklə yanaşı, bədii ədəbiyyat sahəsində də qələmini uğurla işlədir. Onun şeirlərindəki emosionallıq və ictimai şüurla sıx bağlı olan rasionallıq diqqəti daha çox cəlb edir. Onun bədii yaradıılığını səciyyələndirən əsas cəhətlərdən biri də, torpağa, ana yurda, müstəqilliyimizə və dövlətçiliyimizə hədsiz bağlılıq və iftixar hisslərinin coşğun tərənnmüdür.

Filologiya elmləri doktoru, professor *Nizami Tağısoyun* poetik yaradıcılığı da diqqətə layiqdir. O, qələmini müxtəlif mövzularda lirik-epik janrlarda işlədir. Onun şeirləri yüksək ideya-bədii məziyyətləri ilə oxucu zövqünü oxşayır. Nizami müəllimin çap olunmuş şeir nümunələrində "şair bərabərsizliyə, nadanların aqillərə həyat dərsi, əxlaq dərsi vermək istədiklərinə qarşı çıxır, eyni zamanda darda olan Vətəni xilas etməyin yeganə yolunu igid oğullarımızın səf-səf düzülüb ölüm-dirim mübarizəsinə qoşulmaqda görür".[1]

[1] İdris Hacızadə. Ön söz. Nizami Tağısoy. Axtaracaqsan məni. Bakı, "Araz", 2000, s.7.

Boş yerə paylanıb vətən torpağı,
Tutub dörd bir yanı qaniçən yağı,
Talanıb bağçası, bostanı, tağı,
Dünya məndən aldığını bilirəm,
Amma mənə verdiyini bilmirəm.

Nizami Tağısoyun bu yaxınlarda ("Mənim Azərbaycanım", Bakı, "Elm və təhsil", 2018, 128 s.) şeir kitabı nəşr edilibdir. Həmçinin onun rus dilində "Moy Azerbaycan" ("Mənim Azərbaycanım") adlı şeirlər və poemalar kitabı şair-tərcüməçi Gürcüstan, Azərbaycan, Rusiya Yazıçılar Birliyinin üzvü Giya Paçxataşvilinin tərcüməsində oxuculara təqdim olunmuşdur. Kitabda müəllifin müxtəlif səpkili şeirləri ilə yanaşı, "İgid ana ilə qorxaq oğlun dastanı", "Mənim Azərbaycanım", "Nəvəm mənə Xocalıdan danışdı" və "Bakı haqqında elegiya" poemaları yer almışdır.

Filologiya üzrə fəlsəfə doktoru, İnstitutun Qədim dövr Azərbaycan Ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, şairə *Leyli Əliyeva* incə qəlbli, sözü duyan və sözə məhəbbətlə yanaşan bir ziyalı, ingilisdilli filologiyada klassik ədəbiyyatımızın tədqiqi problemləri ilə məşğul olan Azərbaycan qadınıdır. Şeirləri 1972-ci ildən dövri mətbuatda çap olunur. Leyli xanım poeziyanın müxtəlif janrlarında qələmini sınamışdır. Leyli xanım əsasən, heca vəznində şeirlər yazsa da, qələmini əruzda da sınayır. 2017-ci ildə Leyli xanım folklor janrı olan incə ruhlu, zərif bayatılar qələmə alıb:

Mən aşiq bar olalı,
Bağbandım bar olalı.

Ağlaram için-için,
Yar yada yar olalı.

***

Dağ başın çənsiz neynim,
Sünbülü dənsiz neynim.
Günlərim xoş keçərsə,
Xoş günü sənsiz neynim.

İndiyədək bir çox elmi-publisistik və bədii əsərləri, kitabları işıq üzü görmüş filologiya üzrə fəlsəfə doktoru, Türk xalqları ədədiyyatı şöbəsinin aparıcı elmi işçisi *Fəridə Hicranın* (Vəliyeva) şeirlərində Qarabağ niskili ilə yazılmış şeirləri üstünlük təşkil edir. Onun yurd həsrəti ilə döyünən kövrək qəlbində vətən sevgisi elə böyükdür ki, inanırsan ki, o qəlbə bu sevgidən artıq heç nə sığmaz. Fəridə xanım yazır:

Siz allah bu dərdi
almayın məndən
İndi mən bu dərdlə
Əkizləşmişəm.
İçimə od salıb
Vətən həsrəti
Onun alovunda
Tək isinmişəm
Siz Allah bu dərdi
Almayın məndən
Ağdam deyə-deyə
Qoyun dağlanım
Hər gün Qarabağa

Layla çalaraq
Gündə bircə dəfə
Gizli ağlayım.

Tanınmış tənqidçi-ədəbiyyatşünas *Qurban Bayramovun* da şeir yaradıcılığında müxtəlif mövzularla yanaşı, Vətən, Qarabağ mövzusu qırmızı xəttlə keçir. Filologiya üzrə fəlsəfə doktoru, İnstitutun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi Qurban Bayramov ədəbi yaradıcılığa 1958-ci ildən şeirlə başlamışdır. Tələbəlik illərində Xəlil Rzanın, Zahid Xəlilin ədəbi dərinəklərində iştirak etmişdir. Onun şeirlərini Xalq şairi Osman Sarıvəlli, tənqidçi-ədəbiyyatşünas Əhəd Hüseynov, Qasım Qasımzadə, Atif Zeynallı, Əhməd Elbrus təqdir etmişlər. Özü şerlərinin nəşrinə biganə, soyuq yanaşsa da, adlarını çəkdiyim ədiblər və qələm dostları onun yetmişdən çox şeirini mətbuatda və müxtəlif toplularda dərc etdirmişlər... O, 1984-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür və bir neçə dəfə bu Birliyin İdarə Heyətində təmsil olunmuşdur...

Qurban müəllimin şeirlərində üslubi cəhətdən həm hecanın, həm sərbəstin kəskin ritm dönüşlərini, misraların fikri-hissi qovuşuğunu və ardıcıllığını aşkar müşahidə etmək mümkündür. İctimai ehtiras, lirik-publisist pafosun yaratdığı həyəcan, gerçəkliyə fəal vətəndaşlıq münasibəti onun şeiriin poetikasında başlıca elementlərdəndir...

Qurban Bayramovun vətənpərvərlik mövzusunda yazdığı şeirlərini oxuduqca belə bir fikrə gəlirsən: o, elmi bilikləri ilə bədii təxəyyülünü birləşdirə bilir və gözəl ədəbi-estetik sintez yaradır. "Bura Vətəndir" mahnısından təsir-

lənərək yazdığı aşağıdakı kövrək misralar da, Qurban Bayramovun Qarabağ itkisindən yaranan ağrı dolu qəlbindən oxucu ürəyinə süzülür:

Bura vətəndirmi, balam?!..
Qarabağsızam, Şuşasızam,
Qarabağın toy evi Ağdamsızam,
Pənah xanın gor evi İmarətsizəm,
Vətənim olan yerdə vətənsizəm,
Cibimdə kimlik vəsiqəsi,
amma kimsəsizəm!..
Ağdamsızam, Şuşasızam, Xansızam,
Sızım-sızım sızıldayan bir sazam...

Lütviyə Əsgərzadə İnstitutda "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində aparıcı elmi işçidir. Elmi fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşqul olan L.Əsgərzadə "Dünya başdan-başa nağılmış demə" (2003), "İçimdə hönkürdü dözüm" (2003), "Bir dilim ay işığı" (2005), "Mənə elə gəlir ki..." (2009) və "Qaranlığa söylədiklərim" (2009) adlı şeirlər kitablarının müəllifidir. Lütviyyənin şeirləri məhəbbət duyğuları üstündə köklənib. Burada sevginin tərənnümündən çox insanın daxili aləminin iztirabları önə çıxır. "Lütviyyə xanımın şeirlərindən görünür ki, o ötüb keçmiş ömrün ağrılarını çəkə bilmir və o ağrılardan da gözəl bir şey yoxdur onun üçün."

Bir gün olacaq, bilirəm,
Ümidlərim çiçək açacaq...
Yuxularım çin olacaq!
Bir gün olacaq, bilirəm,

Könlüm xoşbəxtlik donu geyəcək,
Dodaqlarım güləcək!

Təranə Məhəmmədqızı (Abdullayeva) "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Üç şeir kitabının müəllifidir. Şeirlərin əksəriyyəti nakam bir ömrün-lirik qəhrəmanının fəci hiss və düşüncələrini, həyata bir qədər də bədbin münasibətini, emosional ovqatını ifadə edir. "Təranə Məhəmmdəqızı şeirlərinə şəxsi yaşantılarını yansıtmaqdan başqa heç bir məsuliyyət yükləmir, "mən şairəm" deyə böyük iddialarda bulunmur – sadəcə yazır". (Mətanət Vahid)[1]

Elə hey qan-qada, elə hey savaş,
Bir tərəfdə qılınc, bir tərəfdə baş.
Bir bağlı sandıqdı mənə bu cahan,
Ya da ki, tilsimdən çıxmayan bir daş

Filologiya üzrə fəlsəfə doktoru, tənqidçi-ədəbiyyatşünas alim "Ədəbi tənqid" şöbəsinin aparıcı elmi işçisi dosent, *Qürbət Mirzəzadə* eyni zamanda 80-ci illərdən dövrü mətbuatda şeirləri ilə ara-sıra çıxış edir. Tələbə ikən Universitetdə fəaliyyət göstərən poeziya dərnəyinin fəal üzvlərindən biri olmuş, eyni zamanda, dinlənilən şeirlərin müzakirəsində gənc tənqidçi kimi fəal iştirak etmişdir. Tənqidçi kimi ilk məqalə və resenziyaları da həmin vaxtdan dövrü mətbuat səhifələrində dərc olunmuşdur. Firuz Sa-

[1] Təranə Məhəmmədqızı. Baharda düşən yarpaq. Bakı, "Avropa", 2016, s.7.

dıqzadənin, Ağa Laçınlının bilavasitə rəhbərliyi ilə fəaliyət göstərən dərnəklərdə oxunan şeirlərin çapa hazırlanmasında yaxından iştirak edib. "Tayı-bərabəri yoxdu bu yazın" adlı .... ilk şeiri Universitet qəzetində 1987-ci ildə çap olunub. 2017-ci ildə "FAB"-ın keçirtdiyi şeir müsabiqəsinin qaliblərindən biri olmuşdur.

Saf insani hisslər və duyğular, insanın qurub-yaratmaq əzmi, Vətəni, insanları, dərin, ülvü sevgiyə, yaşamağa-yaratmağa sövq onun şeirlərinin əsas mövzusu və ideya istiqamətlərindən biridir. Bununla yanaşı, onun şeirlərində uğurlu satirik notlar da müşahidə edilir:

Sərhədə bölünüb: hava, su, torpaq,
Bura hava xətti, ora su xətti.
Burda nə şərikli, burda nə ortaq,
Dünya başdan-başa demə sərhəddi.

Bəzən yaş da yanıb quru oduna,
Bu necə sitəmdi, bu necə dərddi,
Çay var böhtan atıb onun adına
Sərhəd eləyiblər, indi sərhəddi.

Əflatun Baxşəliyev "XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisidir. Xeyli müddətdir ki, poetik yaradıcılıqla məşğuldur, bir neçə şeir kitabının müəllifidir. Əflatunun yaradıcılığında sevgi, ana məhəbbəti, təbiət gözəlliklərini əks etdirən bədii nümunələr çoxluq təşkil edir. Başqa şairlərimiz kimi Əflatun da öz yaradıcılığında folklor qaynaqlarından qidalanır. Şifahi xalq ədəbiyyatından bəhrələnən şair bu ədəbiyyat sahəsində qələmini sınayaraq qoşma, gəraylı və bayatı janrlarında

əsərlər qələmə almışdır. Şifahi xalq ədəbiyyatına bağlı şairin bu səpkili şeirlərində ictimai-siyasi motivlər, vətənə bağlılıq və vətən həsrəti daha qüvvətlidir:

Gərək el qədrini dada biləsən
Yağ üstündən balı yaxmağa nə var?!
Yalan danışıram, tutulur dilim,
Doğru danışıram, sözüm yerimir.[1]

Xədicə İsgəndərli (Murad) Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktorudur. Xədicə Muradın şeir yaradıcılığında poetik-prozaik vəhdətdə yaranmış mənsur şeirlər də vardır. "Bulaq üstə bitən susuz laləyəm" mənsur şeirlər toplusu onun bu mövzuda yazdığı ilk kitabıdır. Burada toplanmış mənsur şeirlərdə müəllifin yaşantıları, hissləri, ilahi sevgiyə olan münasibət, nakam məhəbbətdən bəhs olunur. "Xədicə Muradın varlığı şeirlərində yazdığı poetik misralarda əks-səda verir".[2]

Sevgini axtardım güldə, çiçəkdə,
Şövq ilə açılmış tər bənövşədə.
Bilmədim, bilmədim bütün kainat,
Sevgiylə dopdolu imiş, sən demə.

Gülbəniz Babayeva "Mətbuat tarixi və publisistika" şöbəsində aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru-

[1] Əflatun Baxşəliyev. Taleyimin dan yeri. Bakı, "Sabah", 2013, s.32.
[2] Daşdəmir Əjdəroğlu. "Sözlə oynayan, sözlə yaşayan Xədicə Murad". "Bulaq üstə bitən susuz laləyəm". Bakı, 2008, s.2.

dur. O, elmi və pedaqoji fəaliyyətlə yanaşı, həm də bədii yaradıcılıqla məşğul olur. Gülbəniz xanımın şeirlərinin mövzusu əsasən ənənəvi saf məhəbbətdir. O, eyni zamanda, sələfləri və xələfləri kimi dünyanın etibarsızlığı, təzadları, ziddiyyətləri barədə "Dünyadı" adlı şeirində olduğu kimi poetik çəkildə təcəssüm etdirə bilir:

Neçə qərinələr, zamanlar ötüb,
Avandı tərsinə yazan dünyadı,
Göylərin fövqünə ucalan kəsin
Adın yer üzündən pozan dünyadı.

İradə Yusifova İnstitutda "Dünya ədəbiyyatı və komparativistika" şöbəsində elmi işçi vəzifəsində çalışır. İradənin xarakterindəki mülayimlik, həzinlik, deyərdim ki, onun şeirlərinə də hopmuşdur. 2016-cı ildə İradə xanımın qələmə aldığı şeirlərlə 2017-ci ildə bizə təqdim etdiyi şeirlərdə mövzu yaxınlığı diqqəti cəlb edir. İradə Yusifova da poeziyanın əbədi-əzəli mövzularından olan ana, məhəbbət haqqında fikir və əhvali ruhiyyəni əks etdirən silsilə şeirlər yazmışdır.

Ana gözəl ana, cəfakeş ana,
Səni çox sevdiyimi deyə bilmədim
Bu dünya bir yana, sən başqa yana,
Sənin dəyərini qəlbdə gizlədim.

Sən örnək bir ana, gözümün nuru,
Sən müdrik bir böyük, nəslin qüruru.
Böyüdüb, köçürüb, toyun eyləyib,
Necə yuva qurdun balalarına.

İstedadlı yazıçı, şair, ədəbiyyatşünas *Bahar Bərdəlinin* (Məmmədova) imzası oxuculara yaxşı tanışdır. Bahar xanım filologiya üzrə fəlsəfə doktoru, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisidir.

Şair-publisist Əlirza Xələfli həmkarı Bahar Bərdəlinin "Qayıtmısan..." şeirlər kitabına "Ağrıları yaşadan poeziya" adlı "Ön söz"də onun yaradıcılığının bədii-poetik məziyyətlərini belə səciyyələndirir: "Baharın şeirləri özünün mənsub olduğu ədəbi nəslin taleyi ilə və həm də yaşadığı dövrün, zəmanənin özü ilə bağlıdır. Elə bəri başdan demək yerinə düşərdi ki, onun poeziyası-bəzən ağrılı, bəzən düşüncəli, bəzən müdrik notlarla süslənmiş lirikası öz yaşından qabağa getmir. Bəlkə, daha çox gənclik, ötüb-keçən çağların aşıladığı hiss və duyğuları qoruyub saxlamaq gücündədir."[1] Həqiqətən də, B.Bərdəlinin şeirləri çoxçalarlıdır, hikmətli məzmunu ilə düşündürücüdür:

Əsrlərin daş yaddaşı,
Tarixlərin qəm sirdaşı,
Karvanların köç yurddaşı,
Qədim Bərdə, yurdum mənim,
Ulu diyar, Bərdəm mənim!

Gülnar Səma "Mətbuat tarixi və publisistika" şöbəsinin kiçik elmi işçisidir. Gənc şairə Gülnar Səma "Gül" adlı şeirlər toplusunu 2016-cı ildə oxucuların müzakirəsinə verimişdir. Kitaba müxtəlif mövzuları əhatə edən 50-dən artıq şeir daxil edilmişdir. Gülnar Səmanın poeziya yaradıcılığında mövzu əlvanlığı dərhal diqqəti cəlb edir. Şairin li-

[1] Bahar Bərdəli. Seçilmiş əsərləri. I cild. Bakı, "Nurlan", 2017, s.7.

rik şeirləri axıcıdır, rəvandır, tutumludur, oxunaqlıdır. Şairin kitabındakı şeirlərin mayasını halallıqda, el-obaya bağlılıqda, Vətən təəssübkeşliyində, dostluqda, məhəbbətə sədaqətdə, ülvi hisslərdə axtarmaq lazımdır. Buna "Göycək Fatimə", "Bir namə", "Ürəksiz olanda", "Arzular", "20 illik azadlıq" və s. şeirləri bariz nümunədir:

Turan törəməsi, türk balasıyıq,
Dünya tarixində biz qalasıyıq,
Xəzər dəniziyik, Qız qalasıyıq,
Şərəflə çağlayır, damarda qanım,
Odlar ölkəsidir, Azərbaycanım.[1]

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin doktorantı, filologiya üzrə fəlsəfə doktoru *Qəndab Əliyevanın* 2017-ci ildə "Səni elə sevdim ki!.." şeirlər kitabı işıq üzü görüb. Kitaba "Ön söz" yazan görkəmli şairimiz Musa Yaqub Qəndabın şeirlərini bədii-poetik cəhətdən belə səciyyələndirir: "Şeirlərdə obyekt bir olduğundan mən onlarda üslub, ifadə tərzi, qafiyə, rədif – yəni, texniki cəhət axtarmadım. Doğrudur, burada az da olsa, başqa sevgilərə – vətən, ana və s. aid şeirlər də var, lakin şeirlərin əksəriyyəti lirik qəhrəmanın pıçıltılarına həsr olunub. Mən bu qəhrəmanın simasında əsrimizin Leylisini gördüm. Gördüm ki, Qəndabın ölməyən, bitməyən, dünya durduqca duran sevgisi təzə Leylilərlə, Məcnunlarla təzələnən əbədi sevgidir.

İndicə gözümü qapadıb ölsəm,
Bilirəm, bu sevgim ölməyəcəkdir.

[1] Gülnar Səma. İçimdəki söhbətlər. Bakı, "Nurlan", 2011, s.38.

Bir qöncə çiçəklə, körpə ürəklə,
Yenidən cücərib, dirçələcəkdir![1]

Filologiya elmlər doktoru, professor *Asif Rüstəmli* İnstitutumuzda "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiridir. Orta məktəb çağlarından bədii ədəbiyyata, söz sənətinə bağlanıb, şeirə çevrilən poetik düşüncələri və hissləri mətbuat səhifələrində görünməyə başlamışdır. "İnsan ürəyi" adlı ilk şeiri 1971-ci ilin iyun ayında Ağdam rayon qəzetində dərc edilib. Asif Rüstəmlinin "Cığır" adlı şeirini şair Tofiq Mütəllibov 1973-cü ilin yanvar ayında "Azərbaycan gəncləri" qəzetinin poeziya icmalında yüksək dəyərləndirmişdir. Asif Rüstəmlinin şeirləirni oxusuqca bir məsələnin şahidi oldum ki, onun coxşahəli elmi-ədəbi tədqiqatı qədər bədii təfəkkürü də zəngindir. Məlimdur ki, ana müqəddəs varlıqdır, şairlər üçün tükənməz mövzu mənbəyidir. Asif Rüstəmli də özünəməxus biçimdə ananın poetik obrazını yaradır və bu parlaq obrazı şairin anasının müqəddəs ruhuna həsr etdiyini "Ana" şerində aydın görürük:

Ağzı dualıydın, sözü müqəddəs,
Getdin... Xatirələr nura bürünür.
Hər sözün-söhbətin aldığımız dərs,
Hayana baxırıq yerin görünür...

Solmaz Həyatova "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində aparıcı elmi işçidir. Bir sıra şeirləri mətbuatda nəşr edilmişdir. Solmaz xanımın "Ay üzlü mələk", "Qara-

[1] Qəndab Əliyeva. Səni elə sevdim ki... Bakı, "Mütərcüm", 2017, s.5.

bağ", "Təbrizim", "Həsrət", "Zəhra balam", "Ana" və s. kimi şeirləri saf bir sevgidən, zərif-lətif duyğulardan xəbər verir.

Töküldü saçıma bahar yağışı
Qəlbimdə kövrəldi sevgi naxışı
Hərənin bəxtinə bir gözəl düşdü,
Mənim də bəxtimə təkcə sən düşdün.

Zəkulla Bayramlı "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktorudur. Hələ gənc yaşlarından yaradıcılıqla məşğul olan Zəkulla Bayramlı mətbuatda vaxtilə öz şeirləri və başqa publisistik yazılarıyla müntəzəm çıxış etmişdir. 2015-ci ildə Zəkulla Bayramlı ilk dəfə seçmə şeirləri ilə oxucuların görüşünə gəlib. Professor Məhərrəm Qasımlı Zəkulla Bayramlının "Səni kimə deyim, kimə söyləyim" kitabına yazdığı "Ön söz" də onun yaradıcılığının bədii-poetik məziyyətlərini belə səciyyələndirir: "Şeirlərindən görünür ki, o yazdıqlarını yaşamağı, içindən keşirməyi bacaran bir şairdir. Şeirlərində ictimai-siyasi motivlər, vətən, yurd ağrı-acıları özünü göstərsə də, mən onun yaradıcılığında lirik-romantik duyğuların, təmiz fədakar və saf sevgi çalarlarının üstün olduğunu gördüm".[1]

Yadındamı bir xoş bahar;
Ömrümüzə yağdı ilk qar.

[1] Zəki Bayramlı. Səni kimə deyim, kimə söyləyim. (Şeirlər). Bakı, "Elm və təhsil", 2015, s.4.

Həm sevildim açıq-aşkar,
Həm gizlicə sevdim səni.

***

Ədəbiyyatşünas alimlərimizin şeir yaradıcılığı haqqında fikrimizi yekunlaşdıraraq deyə bilərik ki, onların qələmə aldıqları poeziya nümunələrinin əksəriyyəti ictimai-siyasi mühitlə nəfəs alan, bu mühitin bədii təcəssümünə nail olan, yaşadıqları dövrün hadisələrinə çevik, mütəmadi reaksiya verən, vətənpərvərlik duyğuları ilə coşub-daşan, milli və əcnəbi ədəbi prossesi izləyərək onlardan yaradıcı şəkildə bəhrələnən müəlliflərin dəyərli əsərləridir və müasir Azərbaycan ədəbi prosesinin ayrılmaz bir hissəsidir. Bu müəlliflərin yaradıcılığında istər tarixi, istər sosial, istər təbiət, istərsə də dini-fəlsəfi mövzuda və məzmunda şeirləri çağdaş poeziyamızın nümunələrindən hesab edilə bilər...

Nəsr – Ədəbiyyat İnstutunun bir çox əməkdaşı müasir nəsrimizin humanist mündəricəsini əhatə edən əsərlər yaratmağa müvəffəq olmuşlar. Nəsrin müxtəlif janrlarında qələmə alınan bu əsərlərdə müasir insanın xarakterik cəhətləri, qayğıları, onların taleləri, tarixilik, tarixi keçmişimizin obyektiv bədii dərki, xüsusən, Qarabağın erməni işğalından azad etmə əzmi başlıca ədəbi-bədii motiv olaraq qalmaqdadır...

"Əvvəlcə onu qeyd edək ki, fikrimizcə, ... çap faktı hələ ədəbiyyat faktı demək deyil! Ədəbiyyat adına nəşr olunmuş elə "əsərlər" var ki, onlar, ümumiyyətlə, təhlilə gəlmir və ən yaxşı halda uğursuz bir mətn hesab oluna bilər (təbii ki, mətn geniş bir anlayışdır və burada sözügedən

məna-mahiyyətdən söhbət gedə bilməz). Bu kontekstdə ədəbi tənqid seçim etməli və ədəbiyyat faktı olan materialı təhlil-tədqiq predmeti kimi almalıdır."[1]

Böyük tənqidçi V.Q.Belinskinin fikri bu cəhətdən daha mənalıdır: "…Ədəbiyyata az-çox dəxli olan hər bir şey ədəbiyyat tarixinə girmir. Bunlardan bir çoxları ədəbiyyatın statistikasını aparan idarəyə daxil olur ki, ora əsla, ixtisar etmədən, bütün kitablarla və bütün yazıçılarla məşğul olub, rəqəmlər və yekunlar çıxarır ki, bunlar bəzən çox maraqlı və ibrətli olur… …Zaman çox böyük tənqidçidir. Onun qanadları insanın bütün gördükləri işləri havaya sovurub, xırmanda yalnız az miqdarda dən qoyur, zir-zibili isə yelə verir."[2]

Bu prinsipi əsas götürərək diqqəti daha çox nisbətən uğurlu əsərlərə yönəldəcək, gəldiyimiz yekun nəticələri isə ümumiləşdirmə yolu ilə tezis şəklində təqdim etməyə çalışacağıq.

Qeyd etdiyimiz kimi, tədqiqatçı-alim və ədəbiyyatşünaslarımızın bir çox qələm məhsulları milli ədəbiyyatımızın, ədəbiyyat tariximizin tərkibinə daxil olmağa, onun üzvü bir hissəsinə çevrilməyə layiq sənət əsərləridir.

Ədəbiyyat İnstitutunda çalışan elmi işçi heyətinin nəsr əsərlərinə nəzər saldıqda görürük ki, onların əksər hissəsində süjet və təhkiyə real həqiqətlərə söykənir. Bu qələm məhsulları ideya və qəhrəman, janr və üslub, məzmun və bədii təcəssüm baxımından epik növün tələblərinə lazımi səviyyədə cavab verən nümunələrdir.

---

[1] Aynur Xəlilova "Povest–2016: Gözləntilər, gerçəkliklər" Ədəbi proses–2016. IV cild. Bakı, "Hədəf", 2017, s.73.

[2] Belinski V.Q. Məqalələr. Bakı, 1961, s.107, 113.

SSRİ-nin dağılmasından və istiqlal qazanmağımızdan, Qarabağın işğalından sonra dövrün meydana gətirdiyi yeniliklər, münaqişə, müharibə atmosferi, beynəlxalq böhran, mənəvi təbəddlülatlar nəsr əsərlərində də özünü epik bir vüsətlə büruzə verir.

Bu cəhətdən İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru *Elçin Mehrəliyevin* nəsr və publisistik yaradıcılığı maraqlıdır. O, bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamışdır. Bir sıra əsərləri "Azərbaycan gəncləri", "Bakı", "Savalan", "Azərbaycan müəllimi", "Azərbaycan", "Ulduz", "Ədəbiyyat və incəsənət" kimi dövrü mətbuat orqanlarında dərc edilmişdir. "Hekayə və nağıllar" (1982), "Pərvin" (1989), "İttiham" (1991), "Hər kəs öz taleyini yaşayır" (1998), "Doxsanıncı illər" (2004), "Tale döyüşü" (2011) adlı kitabları var. Onun əsərlərində saf məhəbbət, insan taleyi, torpaq sevgisi, yurd həsrəti, Qarabağ mövzusu kimi motivlər daha çox publisistik səpkidə özünü qabarıq surətdə əks etdirir. Onun "Məhəbbət qocalmır", "Qartalla üz-üzə" əsərləri bu cəhətdən daha təsirlidir...

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru *Mənzər Niyarlı* tanınmış yazıçılardandır. Mənzər xanım 40 ildən çoxdur ki, yazıb yaradır. Onun yazdığı əsərlərin orijinallığı ondadır ki, o gerçək həyat materiallarına realistcəsinə çox istinad edir. Mənzər xanımın hekayələrində fərqli, özünəməxsus cazibədarlıq, harmoniya var. Hekayələrinin süjet xətti dinamik şəkildə inkişaf edir, oxucunu həvəslə finala yetişdirir. Onun povest və hekayələri öz təhkiyəsi və şirinliyi ilə oxucunu ələ alır. Müəllifin nəsrində psixoloji

məqamlar üstünlük təşkil edir. Eyni zamanda Mənzər Niyarlı qadın psixologiyasına, qadın aləminə dərindən bələddir. Yazıçının "Yola dikilən gözlər", "Yarımçıq məzuniyyət" və "Səhv atılan addımlar" povestlərində bunun əyani şahidi oluruq.

Mənzər xanımın hekayələri insan qəlbinə, ruhuna təsir edir. Xüsusilə də "Qürbətə aparan yollar" hekayəsində obrazın keçmişi ilə bu günü üz-üzə qalır və dramatik, fəci bir gərginlik yaradır. Insan bir vaxt səhv buraxır və bu səhvdən doğan günah onun həm özünü, həm də başqalarının taleyini korlayır.

Tənqidçi-ədəbiyyatşünas Mərziyyə Nəcəfova Mənzər xanımın nəsrinin özəlliklərini belə səciyyələndirir: "Mənzər xanımın qələmindən çıxan hekayələr, istər sovet dövründə, istərsə də müstəqillik illərində həyatı düşüncələrin, qəlbdən gələn həqiqətlərin, səmimi inandırıcı duyğuların təcəssümüdür. Onun cılğın bir ehtirasla təsvir və tərənnüm etdiyi insanlar, hadisələr təbiidir, realdır. Oxucunu düşündürür, maraqlandırır. İnsan psixologiyasına yaxından bələd olan müəllif yaratdığı obrazların xarakterini müəyyən edir, real yaşantıları verməklə cəmiyyətdəki hadisələrə cazibədar bədii dillə münasibət bildirir".[1]

"Əsər dilinə görə daha yaxşı təsir bağışlayır. Nəsrdə poetik dil eksperimentləri aparmaq, məsələn 70-80-cı illər nəsri üçün çox aktual idi. O mərhələnin nasirləri dilin poetik qatına çox fikir verirdilər. İfadə və təsvir formaları üzərində xüsusi olaraq işləyirdilər. Müasir nəsrdə isə əksinə,

[1] Mərziyyə Nəcəfova. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı, "Ecoprint", 2017, s.109.

süjetə diqqət yetirilir. Hadisələrin axarına və nəqlinə...”[1] Mənzər xanımın nəsində bu cəhətlərin hər ikisi – bədii dili də, süjet və təhkiyyəsi də maraqlıdır...

Mərziyyə Səlahəddin (Nəcəfova) “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent, AYB-nin üzvüdür. Bir neçə elmi və bədii kitabların müəllifidir. Qarabağda doğulan Mərziyyə xanımın bədii yaradıcılığının ana xətti Qarabağ mövzusudur. Mərziyyənin povest və hekayələrində xalqımızın başına gətirilən bəlalar, bu bəlaların törətdiyi faciələr inandırıcı bədii boyalarla təsvir edilir.

Real həyat həqiqətlərini canlandıran müəllifin nəsr əsərləri oxucu üçün dərin maraq doğurur. Mərziyyə xanımın bədii yaradıcılığında ümumilikdə düşündürücü dərin bir kədər var. Nasirin “Şəhid anası”, “Saat səsi” povestlərini həyəcansız oxumaq qeyri-mümkündür. Onun yaradıcılığında humanizm, vətənpərvərlik ruhu çox güclüdür. “Mərziyyənin hekayələrinin əsas mövzusu Qarabağ savaşı, vətən yolunda şəhid olanların qəhrəmanlıqlarıdır. Mərziyyə dəfələrlə döyüş bölgələrində olub, yazılarında təsvir etdiyi hadisələrin və personajların çoxunu yaxından müşahidə etmək imkanı qazanıb...”[2]

Şahbaz Şamıoğlu Ədəbiyyat İnstitutunda “Azərbaycan mühacirət ədəbiyyatı” şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktorudur.

---

[1] Nərgiz Cabbarlı. Çağdaş dövrün roman bumu və nəticələri. “Ədəbi proses–2016”. IV cild. Bakı, “Hədəf”, 2017, s.37.

[2] Vilayət Quliyev. “İki adı yaşatmaq borcu” Ön söz. Mərziyyə Səlahəddin. “Sənsiz düşüncələrim”. Bakı, “Oğuz eli”, 1999, s.3.

Şahbaz vətənpərvərlik mövzusunda Qarabağın işğalına həsr etdiyi bir hekayəsini mənə mütaliə və fikir bildirmək üçün təqdim edib. Hekayəni birnəfəsə oxudum. Şahbaz Şamioğlunun "Ocaq daşı" hekayəsi Qarabağda erməni faşistləri tərəfindən qətlə yetirilən körpələrimizin müqəddəs ruhlarına ithaf olunur. Şahbaz gərgin süjet quraraq hekayədə ermənіyə nifrəti bir başa, açıq-açığa yox, real tarixi olayların bədii əksinə nail olmaqla verə bilib.

Məmməd Əliyev filologiya üzrə elmlər doktoru, professordur. Nizami Gəncəvi adına Ədəbiyyat institutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləməklə eyni zamanda, "Türk xalqları ədəbiyyatı" şöbəsinə rəhbərlik edir. Məmməd Əliyevin "İsmixanın Şabran xatirələrindən" "Rəssam" adlı yumoristik hekayəsi doğulub boya-başa çatdığı bölgədə eşitdikləri, gördükləri əsasında qələmə alınıb. Əsər real hadisələrə söykənir.

Filologiya üzrə elmlər doktoru *Almaz Ülvi* İnstitutun "Azərbaycan Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin müdiridir. Almaz Ülvi müxtəlif illərdə "Ədəbiyyat və incəsənət", "Xalq qəzeti"nin "Ədəbiyyat və incəsənət" şöbəsində (1997-2016) müxbir kimi fəaliyyət göstərib. O, mətbuatda çalışdığı bu 32 il ərzində publisistik, elmi, ədəbi, tarixi mövzuda yazdığı maraqlı, aktual məqalələri ilə yanaşı, bədii yazıları - esse və sənədli hekayələrini də dərc etdirib.

"Təndir günü" – essesində doğma ocaqlarından, eveşiklərindən didərgin salınmış və ucqar bir dağ kəndində binə salmış insanların taleyindən bəhs edir.

Köçlərini saldıqları bu kəndin cəmi bir təndiri var. Burada hər gün bir ailə çörək bişirsə də, bütün kənd (15

ailəlik bu didərginlər) qadınları təndir başına toplanardı. Hər kəs hansı obadan, hansı kənddən gəldiklərini, başlarına gələn hadisələrdən, faciələrdən, bir sözlə, dərdlərindən söz açardılar. Sanki təndirə çörək yox, dərd-qəmlərini yapırdılar.

Müəllifin məqsədi, didərgin qadınların dillərindən eşitdikləri faciələri qələmə almaqla əslində, xalqın başına gələn hadisələri bədii dillə də olsa, tarixin yaddaş səhifələrinə köçürməkdir. Məlumdur ki, belə hadisələr tarix boyu dəfələrlə olub, çox təəssüf ki, o hadisələr haqqında bir sətir də olsa, zamanında yazılmayıb. Bir növ, xalqın düçar olduğu ağır tale izsiz-tozsuz yaddaşlardan silinib. Amma qan yaddaşı unudulmur...

"Solmaz çiçəyim" – esse xarakterlidir. İşğal altında olan torpaqlardan – doğulduğu dağlardan dərdiyi Solmaz çiçəyinə olan sevgidən söz açılıb. Uşaqlıq illərinin nostalji hisslərinə dolaraq qələmə alınan bu yazının estetik məzmunu aktualdır, yaralı könülə məlhəm olaraq bədii obraza çevrilib. Əsərdəki torpaqdan boy alan müxtəlif rənglərlə dünyaya boylanan çiçək solmaz rəngi-rufu, ətri-qoxusu, gözəl dəməti ilə qərib ruhun həmdəmi, uzaq illərinin yadigarı, dağlarının havası ilə əziz xatirədir. Yaralı dağlardan dərilən bu çiçəklər əslində xoş günlərin yadigarı kimi dəyərlidir.

"Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin sədri, "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, filologiya elmlər doktoru, professor *Vüqar Əhmədin* bədii yaradıcılığı respublikada və xaricdə yaxşı tanınır. "Vüqar Əhməd yaradıcılıq dövründə tanınmış ədəbiyyatşünas-şair olmaqla yanaşı, həm də roman və hekayələr,

dram əsərləri, publisistik məqalələr qələmə almışdır. Vüqar Əhməd nəsr dünymıza hekayə ilə gəlib. Çox qədim dövrlərdən geniş yayılmış bu janrda formaca dinamik, mənaca yığcam hadisələri ümumiləşdirən, dil baxımından sadə surətləri ilə seçilən hekayələr qələmə almışdır".[1]

Eyni zamanda, Vüqar Əhmədin şeirləri də dövrü mətbuatda müntəzəm çap olunmuş, sözlərinə nəğmələr yazılmışdır. 2017-ci ildə alim-yazıçının 2 kitabı işıq üzü görüb. "Elmi-ədəbi portretlər" Ədəbiyyatşünaslıq, plyus" tərtib etdiyi və ön söz yazdığı toplusu ədəbi ictimaiyyətin diqqətinə səbəb olmuş və geniş təqdimatı və müzakirəsi keşirilmişdir.

"Yeni dövr ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri doktoru *Baba Babayev* satirik nəsri araşdırır və eyni zamanda satirik hekayələr qələmə alır. Bizə belə gəlir ki, klassiklərimizin satirik əsərlərini tədqiq etməsi ona bu janrda nümunələr yazmağa həvəs oyadıb. Baba müəllim satirik janrda yazdığı hekayələrdə bədii uğur qazana bilib. Onun lirik-psixoloji üslubda da "Qatillər bağışlanmır" hekayəsində əsərin ideya-məzmunu mənəvi-əxlaqi zəmində açılır. Baba Babayev mütəmadi olaraq müxtəlif səpkili hekayələri ilə dövri mətbuatda çıxış edir. "Tənha qarğalar" hekayəsində də ifşa etdiyi ictimai nöqsanlar, insanlardakı mənfi sifətlər yumoristik səpkidə gülüş doğurur.

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru *Esmira Fuad* (Şü-

[1] Rasim Nəbioğlu, Müşfiq Cabiroğlu. Vüqar Əhmədin yaradıcılıq yolu. Bakı, "MBM", 2013, s.243.

kürova) "Sevgi məktubları" silsiləsindən "Unutdun məni"... hekayəsi formaca esse xarakterlidir. Hekayənin leytmotivi nakam sevgini tərənnüm edən sevgi məktublarıdır. Hekayədə təxəyyülə söykənən nakam eşqin epistolyar bədii əksi orijinallıqla qələmə alınmışdır.

"Ədəbi tənqid" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru *Fidan Abdurəhmanova* elmi fəaliyyət göstərməklə yanaşı, bədii yaradıcılıqla da məşğuldur, 2007-ci ildən Azərbaycan Yazıcılar Birliyinin üzvüdür. İki hekayələr kitabi işıq üzü görübdür – "Göyərçin və büllur" (2005), "Xəyal gəmisi" (2010). Hekayələri – "Ulduz", "Azərbaycan", "525-ci qəzet", "Kredo" kimi mətbuat orqanlarında dərc olunmuşdur. Fidan Abdurəhmanovanın həmcinin usaqlar ücün yazdığı hekayələri də xüsusi maraq doğurur. Uşaqlar üçün nəşr olunan "Göyərçin", "Bala dili" dərgilərində onun uşaq hekayələrinə rast gəlmək olar. Bu il nəşr olunan topluya onun "Müdafiə günü" və "Sərçənin arzusu" adlı iki hekayəsi daxil edilmişdir. Bu hekayələr göstərir ki, müəllif uşaq aləmini, psoxologiyasını yaxşı bilir, onların ruhunu yaxından duyur...

Salidə Şərifova "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisidir. AYB-nin üzvüdür. Rusiya Yazıçılar Birliyinin Q.R.Derjavin adına medalı ilə təltif edilmiş və M.A.Şoloxov adına beynəlxalq mükafatın laureatıdır. 2017-ci ildə Salidə xanım "Ləzzəti-söhbət" adlı povesti ilə oxucuların görüşünə gəlib. Bu povestdə ədəbi camedə baş verən hadisələr və ədəbiyyatçılardan söhbət gedir.

Zəhra Allahverdiyeva "Nizamişünaslıq" şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır. Filologiya üzrə fəlsəfə

doktoru, dosentdir. Elmi faəliyyətlə bərabər, bədii yaradıcılıqla da məşğul olur. "Dəniz laylası" adlı şeirlər kitabının müəllifidir. 2017-ci ildə qələmə aldığı "Türkün tarixi ululların yaddaşında" memuar povesti Azərbaycan xalqının soy-kökünə dair məlumatlarla zəngindir.

Bizim ədəbiyyatşünas alimlərin nəsr əsərləri haqqında yekun olaraq deyə bilərik ki, bu povest və hekayələrin ideya-bədii dəyəri onlardakı istedad və səmimiyyətin gücündədir. Yazıçı-alimlərin nəsri öz təbiiliyi və səmimiyyəti ilə seçilir. Nəsrlə yazılmasına baxmayaraq, bu əsərlərdə epiklirik ruh, romantik vüsət vardır. Əsərlərin dili axıcı, şəffaf və oxunaqlıdır. İnanıram ki, milli və əcnəbi ədəbiyyatı təhlil və tədqiq edən alimlərimizin istər poeziya, istərsə də nəsr əsərləri çağdaş ədəbi tariximizin səhifələri ola biləcək...

Bədii tərcümə faktları – Məlumdur ki, bədii tərcümə olduqca mühüm ədəbi yaradıcılıq növüdür və bir dildə olan əsərin başqa dildə təcəssümüdür. Bədii tərcümə tərcümə olunan əsərin obrazlar düzümünü başqa dilin ifadə vasitələri ilə ekvivalent ifadə etmək kimi mürəkkəb yaradıcılıq prosesidir. O, orijinal yaradıcılıqdan tərcümə obyektindən asılı olması ilə fərqlənir. Bədii tərcümə sahəsində qədimdən bir-birinə zidd iki baxış hökm sürür: orijinalın mətninə yaxınlıq; oxucuların bədii qavrayışına yaxınlıq. Hər iki təmayülün dialektik vəhdəti daha səmərəli olur. Tərcümə olunan əsərin dilini bütün incəlikləri ilə, həmçinin ədəbi ana dilini dərindən bilmək, əsərdə haqqında bəhs olunan ölkənin, xalqın həyatına, tarixinə və ədəbiyyatına, milli psixologiyasına və mənəviyyatına, tərcümə olunan müəllifin bütövlükdə yaradıcılığına bələd olmaq bədii tər-

cümənin əsas şərtlərindəndir. Azərbaycanda bədii tərcümənin tarixi qədimdir. Hələlik ilkin orta əsrlərdən dilmizə tərcümə faktları məlumdur və günümüzə qədər bu proses davam etməkdədir.

1950-ci illərdən başlayaraq ədəbiyyatşünaslığın yeni bir sahəsi – bədii tərcümə nəzəriyyəsi yaranmağa başlamışdır. Ədəbiyyatşünaslığımızda bədii tərcümənin tarixinə, nəzəri və təcrübi problemlərinə həsr olunmuş monoqrafiyalar nəşr olunmuş, dissertasiyalar yazılmış, diskussiyalar keçirilmişdir. Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunda Elmi informasiya və tərcümə şöbəsi fəaliyyət göstərir. Respublikamızda bu işlə məşğul olan mərkəzlər mövcuddur... Əvvəllər bədii tərcümə orijinaldan deyil, ikinci dil – rus dilindən edilirdi. İndi Azərbaycanda böyük tərcüməçilər ordusu fəaliyyət göstərir və yaxşı cəhət budur ki, tərcümlər orijinaldan edilir.

Bizdə son zamanlar tərcüməçilik sistemli şəkildə inkişaf edir. Respubilka Prezidentinin sərəncamı ilə dünya ədəbiyyatının, Nobel mükafatçılarının əsərləri tərcümə edilir və bu bədii tərcüməyə xüsusi dövlət qayğısıdır; təbii ki, bu, çox önəmli hadisədir. Məlumdur ki, hər hansı bir xalqın mədəniyyətinin başqa xalqların milli mədəniyyəti ilə təması, onların təcrübəsini mənimsəməsi, bu təcrübəni müvafiq şəkildə dəyişdirib öz milli ənənəsi ilə əlaqələndirməsi onun inkişafına yalnız yeni qüdrət və canlanma gətirə bilər...[1]

[1] Bax: Füzuli Əsgərli. Bədii tərcümə prinsipləri. Bakı, "ADPU-nun nəşriyyatı", 2009, 226 səhifə.

Tərcümənin özünəməxsus prinsipləri mövcuddur. Bunlardan ən başlıcası tərcümə zamanı əsərin milli koloritini saxlamaqdır ki, bu proses obyektiv çətinliklərlə qarşılaşır. Bu zaman tərcüməçi əsərin orijinalına diqqət yetirməli və çalışmalıdır ki, tərcümə əsərin orijinalında verilən səviyyədə olsun və edilən dəyişikliklər mənaca səhvə və təhriflərə gətirib çıxarmasın. Bu cəhətdən İnstitutumuzda tanınmış tərcüməçilər pleyadası mövcuddur və onların tərcüməçilik fəaliyyətləri haqqında da qisaca danışmaq istəyirik.

Ədəbiyyat İnstitutunda elmi işçi heyətinin tərcüməçilik fəaliyyəti onların yaradıcılıqlarının müəyyən və mühüm bir qismini təşkil edir. Onlar başqa xalqalrın ədəbiyyatından bədii əsərləri ana dilimizə çevirməklə ədəbi əlaqələrimizi genişləndirirlər.

Onlardan İmamvrerdi Həmidov, Nərgiz Cabbarlı, Cavanşir Yusifli, Təhminə Bədəlova, Aynurə Paşayeva, Ülkər Hüseynova, Elnarə Zeynalova, Aytən Rüstəmzadə, Xuraman Hümmətova, Nizami Tağısoy (Məmmədov) və başqalarının adlarını çəkə bilərik.

İnstitutun əməkdaşlarından tənqidçi və professional tərcüməçi, filologiya elmləri doktoru, "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin baş elmi işçisi *Cavanşir Yusifli* Azərbaycan Dillər Universitetini bitirib. Bir müddət Belçikanın "Medecins sans frontieres" humanitar təşkilatında tərcüməçi işləyib. 1998-ci ildən "Turan-98" tərcümə firmasının direktorudur. Tərcümə nəzəriyyəsinə yaxından bələddir və "Bədii mətnin sirləri" (Bakı,"Mütərcim", 1998) kitabının müəllifidir. Əsasən fransız, ingilis və rus dillərindən tərcmələr edir. Onun Patrik Züskind, Rolann Bart, Alber

Kamyü, Jan Eşnoz, Pol Eluar, Mişel Uelbek və başqalarından etdiyi tərcümələr maraqla qarşılanmışdır. Ötən illərdə olduğu kimi 2017-ci ildə də dünya ədəbiyyatından Vislava Şmborska "Üç qərib söz", "Korların nəzakəti", Ejen Qilvik "Ucalıqlar" və bir sıra bədii nümunələri dilimizə çevirmişdir.

Ədəbiyyat nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru *Rasim Nəbioğlu* (Qurbanov) "İngilis-rus-Azərbaycan dillərində danışıq kitabçası"nın, ingilis dili və ədəbiyyatına dair bir sıra tədris və metodik vəsaitlərin, tərcüməşünaslıq sahəsində məqalələrin müəllifidir. O, ingilis ədəbiyyatından U.Şekspir, L.Hyuz, C.Törber kimi müəlliflərin şeirlərini, hekayə və yumoristik novellalarını, habelə B.Şounun və U.Həzlitin ədəbi-tənqidi əsərlərini dilimizə çevirmişdir. Bu almanaxda Rasim Nəbioğlunun tərcüməsində ingilis yazıçısı, şairi Tomas Hardinin "Qoca Endrinin musiqi karyerası" adlı hekayəsini oxuculara təqdim edirik. Almanaxa həmçinin onun görkəmli musiqişünas, professor Abbasqulu Nəcəfzadənin 60 illik yubileyinə həsr etdiyi "Ustad-maestr" adlı orijinal şeiri də daxil edilmişdir.

İnstitutumuzdakı ədəbiyyatşünas alimlərimizdən tərcümə ilə məşğul olan yaradıcı insanlardan biri də "Ədəbi-tənqid" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru *Nərgiz Cabbarlıdır*. O, Prezident sərəncamı ilə dərc olunan 150 cildlik dünya ədəbiyyatı kitabxanasından Luis Sinklerin "Seçilmiş əsərləri", Fransuaza Saqanın "Seçilmiş əsərləri", Dünya yazıçılarının nağılları, Rünoske Akutaqavanın "Seçilmiş əsərləri", Günter Qrassın "Seçilmiş əsərləri", Marsel Prustin "Svana doğru" kitablarını tər-

cümə etmişdir. Nobel mükakafatçısı Svetlana Aleksiyeviçin "Müharibə qadın simalı deyil", Falih Rıfkı Atayın "Atanız Atatürk", Çingiz Aytmatovun "Kassandra" əsərlərinin tərcüməçisidir. Səkkiz tərcümə kitabının müəllifi olan Nərgiz Cabbarlı 2017-ci ildə də xarici ölkələr ədəbiyyatından seçmələri Azərbaycan dilinə çevirmişdir.

İmamverdi Həmidov "Qədim dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri vəzifəsində çalışır, filologiya üzrə elmlər doktoru , professordur. İ.Həmidov Xaqani Şirvaninin ərəbcə şeirlərini, Əli ibn Əbi Talibin divanından seçmələri, Valibinin Məcnun haqqında xəbərləri və şeirləri, Oman poeziyasından nümunələri ərəb dilindən Azərbaycan dilinə tərcümə etmişdir . Eyni zamanda o, Nəsiminin, S.Vurğunun şeirlərindən nümunələri ərəb dilinə tərcümə etmişdir. Xüsusilə İmamverdi müəllimin sətri tərcümə olmasına baxmayaraq Xaqaninin Həzrət Əliyə ithaf olunan şeirlərini ərəb dilindən – orijinaldan bədii şəkildə tərcümə etməsi yüksək peşəkarlıq nümunəsidir.

Ülkər Hüseynova İnstitutunun "Elmi nəşrlər və proqnozlaşdırma" şöbəsində baş mütəxəssis vəzifəsində işləyir. 2006-cı ildə "Dahi qafqazlılar" seriyasından Lütfi Zadənin həyat yoldaşı xanım Fey Zadənin "Qeyri-səlis məntiqin atası ilə həyatım və səyahətlərim" əsərlərini ruscadan Azərbaycan dilinə tərcümə edib. 2013-cü ildə "Sabah" nəşriyyatında çap olunmuş "Ana bətnindəki uşaq şəxsiyyətdir" kitabında müxtəlif illərdə respublika mətbuatında çap olunmuş tərcümələri toplanmışdır.

Filologiya elmləri doktoru, professor İfrat Əliyeva vaxtilə bir məktəbdə oxuduğu sinif yoldaşı barəsində qələmə aldığı məqalədə yazır: "Ülkər xanım özünün savadı,

mühakiməsi, qavrama qabiliyyəti ilə çoxumuzdan fərqlənirdi. O, bütün fənləri eyni məhəbbətlə sevir, sinif yoldaşlarından fərqli olaraq, çoxlu bədii və tarixi əsərlər oxuyardı... Ülkərin iti qələminə məktəb illərindən bələd idim. Sevinirəm ki, uzun illər "Elm və həyat" jurnalında müxtəlif vəzifələrdə çalışan uşaqlıq rəfiqəm gözəl tərcüməçi, böyük dünyagörüşə və intellektə malik olan jurnalist kimi bir zirvəyə yüksələ bildi".[1]

Hazırda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycan Parlamentinin ilk sədri Əlimərdan bəy Topçubaşovun "İstanbulda diplomatik söhbətlər" əsərini rus dilindən azərbaycancaya çevirib çapa hazırlayır.

"Nizamişünaslıq" şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru *Təhminə Bədəlova* peşəkar tərcüməçidir. Onun tərcümələrinin əhatəsi geniş və mündəricəsi zəngindir: Ş.Anderson, Bredberi, Kiplinq, İrvinq Şou, Heminquey, Stendal, Dikkens, N.İ.İbsen, Balzak, J.Vern, Meterlink, Hüqo, Flober və digərləri... Təhminə xanımın tərcümələri rus, ingilis, fransız, Amerika və digər xalqların ədəbiyyatının nəsr nümunələrini peşəkar səviyyədə əhatə edir.

İnstitutumuzun "Qədim dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin elmi işçisi *Elnarə Zeynalova* 2016-cı ildə İraq yazıçısı Süleyman əl-Bəkrinin "Taleyin ironiyası, yaxud sürgündə eşq macəraları" adlı povestini (prof. M.Qəmbərli ilə birlikdə) Azərbaycan dilinə tərcümə etmişdir. Elnarə Zeynalova hekayə, novella, romanları ilə məşhur olan Yu-

[1] İfrat Əliyeva. Ucalığa qovuşan illər. "Azərbaycan", 2011, s.6.

suf İdrisin "Ziyarətçi" hekayəsini ərəb dilindən tərcümə edərək oxuculara təqdim etmişdir.

Aynurə Paşayeva İnstitutun "Mətbuat tarixi və publisistika" şöbəsində elmi işçişidir. İlk tərcümə əsəri Yaqub Qədri Qaraosmanoğlunun "Kiçik Neron" hekayəsi "Ədəbiyyat qəzeti"nin 2015-ci il 14 mart tarixində çap olunmuşdur.

Gi de Mopassanın "Koko" hekayəsi ilk dəfə 1884-cü ildə çap olunmuşdur. Aynurə Paşayeva bu əsəri Avstraliyada 2016-cı ildə çap olunmuş Gi de Mopassanın "Qısa hekayələr" (Avstraliya: The University of Adelaide Library University of Adelaide South Australia, 2016) kitabından tərcümə etmişdir.

Cavidə Məmmədova "Dünya ədəbiyyatı və komparativistika" şöbəsinin aparıcı elmi işçisidir. Bədii tərcümə ilə də məşğul olan C.Məmmədova T.S.Eliotun, C.Coysun, D.H.Lourensin, R.Qreyvzin, Z.Sassunun, R.Brukun, E.Hyumun, R.Kiplinqin, U.B.Yeytsin, T.Hardinin,U.Ouenin, İ.Rozenberqin, R.Genonun, M.Lingsin və digər bir çox şair və yazıçının bədii və elmi əsərlərini ingilis dilindən tərcümə etmişdir.

Aytən Rüstəmzadə "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçidir. Bədii tərcümə ilə orta məktəbdə oxuduğu illərdən məşğul olur. Mixail Zoşşenkonun "Stəkan"və "Xəstəlik tarixçəsi" adlı hekayələrini rus dilindən tərcümə etmişdir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin böyük elmi işçisi *Mehman Həsənov* 40-dan artıq elmi məqalənin, bir monoqrafiyanın, bir neçə tərtib və tərcümə kitabının müəllifidir. Məqalələri

Türkiyə, Rusiya, Polşa, Qazaxıstan, Qırğızıstanda nəşr olunub. Mehman Həsənovun Cingiz Aytmatovdan bəhs edən məqlələri Azərbaycandan başqa Türkiyə, Rusiya və Polşada çap olunmuşdur. Elmi fəaliyyəti ilə birlikdə Mehman Həsənovun Çingiz Aytmatovun əsərlərindən etdiyi tərcümələr də dövrü mətbuatda işıq üzü görmüşdür. 2016-cı ildə görkəmli yazıçının "Üz-üzə" povesti Mehman Həsənovun tərcüməsində oxuculara təqdim olunmuşdur. "Mehman Həsənov Çingiz Aytmatovun layiqli və zəhmətkeş tədqiqatçısı olduğu kimi, həm də böyük sənətkarı daha dərindən hiss edən tərcüməçilərindən biri olduğunu nəzərə çarpdırır".[1]

Xuraman Hümmətova filologiya üzrə fəlsəfə doktoru, "Türk xalqları ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçidir. 2011-ci ildə tatar xalqının böyük oğlu Qabdulla Tukayın anadan olmasının 125 illiyi Kazanda dövlət səviyyəsində təntənəli surətdə qeyd edildi. Bu münasibətlə Azərbaycanın bir sıra elm adamları bu konfransa dəvət olunmuşdular. Həmin tədbirin iştirakşılarından biri, filologiya üzrə fəlsəfə doktoru Xuraman Hümmətova Qabdulla Tukayın "Samanbazarı, yaxud yeni Kəsikbaş" poemasını Azərbaycan dilinə ilk dəfə tərcümə edərək çapdan buraxmışdır. "X.Hümmətova Kəsikbaş haqqındakı türk xalqları arasında yayılan əfsanənin hələ də yaşadığını, bu əfsanəni öz poemasının letmotivinə çevirən sənətkarın ona satirik don geydirərək xalqına təqdim etməsini müəllif oxuculara ətraflı təqdim edə bilmişdir. Qabdulla Tukay Kəsikbaşın si-

[1] İsa Həbibbəyli. "İnsan mənəviyyatının böyük ədəbiyyatı". Çingiz Aytmatov. "Üz-üzə" povesti. Bakı, "Elm və təhsil", 2016, s.11.

masında tatar xalqının başına gətirilən faciələri göstərmiş və bu yolla onların gözlərindən qəflət pərdəsini açmağa nail olmuşdur."[1]

Tərcümə əsərləri həm milli mədəniyyətlərin yaxınlaşması, həm də millətlərin qarşılıqlı ünsiyyəti üçün zəmin yaradan vasitədir.

Ədəbiyyat İnstitutundakı ədəbi proses ölkə miqyasında formalaşan, inkişaf edən milli ədəbi prosesin tərkib hissəsidir, çünki çağdaş Azərbaycan ədəbiyyatı dərin tarixi köklərə, ənənələrə, milli zəminə malikdir və coğrafiyası çox genişdir.

Tənqidçi və ədəbiyyatşünas alimlərimizin bədii yaradıcılığı onların elmi-araşdırma fəaliyyətini və Ədəbiyyat İnstitutunun bütöv mənzərəsini tamamlayır.

[1] Almaz Ülvi. www.muallim.edu.az/www.

Fidan ABDURƏHMANOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİ EKSPERİMENT VƏ BƏDİİ HƏQİQƏT

Təcrübə göstərir ki, ədəbi prosesdəki imzaları, əsərləri sadalamaqla cari prosesin əsas meyillərini doğru müəyyənləşdirmək olmaz. Bunun üçün ədəbi proses nəhrində diqqəti cəlb edən bədiilik baxımından yeni görünən poetik eksperiment səciyyəsi daşıyan ayrı-ayrı nümunələrin ümumiləşmiş mahiyyətini üzə çıxarmaq lazımdır. Bəzən bir şeir yaxud bir hekayə, nəzəri-estetik baxımdan tutumlu tənqidi məqalə ilin ədəbi prosesi haqqında təsəvvür verə bilər.

İllərin təcrübəsindən aydın olur ki, poeziya və hekayə ədəbi gəncliyin ən çox üz tutduğu janrdır. Bütün illərdə olduğu kimi ötən ilin də ədəbi mənzərəsində diqqəti daha çox şeir və hekayələr cəlb edir. Bunun səbəbi gözlənilməz dəyişikliklərlə zəngin olan zəmanəmizdə baş verən hadisələrə vaxtında və çevik cavab vermək cəhdidir. Buraya son zamanlar gənclərin xüsusi maraq göstərdiyi fəlsəfi-psixoloji esseləri də əlavə edə bilərik. Əslində, müasir esse özündə şeirlə hekayənin üslub sintezini verir. Müasir esselərin bir çoxu mənsur şeirə oxşayır.

Ötən ilin ədəbi prosesindəki üzərində müşahidələr göstərir ki, gənc yazıçılar yaşadıqları zamanla psixoloji dialoqa girməyə, zamanın mahiyyətini, onun insan üzərindəki təsirlərini müəyyənləşdirməyə çalışırlar, burada, əgər belə demək mümkünsə, dəb xatirinə psixoloji cəhətdən narahat görünmə meyli də olur. Ənənəvi pozitiv və neqativ

bölgü ilə yanaşsaq, insanların hərəkət və davranışlarında neqativ hallar axtarmaq meyli pozitiv imkanları ortaya çıxarmaq cəhdindən güclüdür. Buna görə də hekayələrdə işıqlı bədii detallardan daha çox ölüm, əcəl, uğursuz tale, kölgə, kabus kimi vahimə gətirən simvollar üstünlük təşkil edir. Bunu nə ilə izah etmək olar?

Bu, hər şeydən əvvəl gənc yazıçıların özünü tapa bilməməsindən, həyatı qavramada əlvanlıq meylinin zəifliyindən, uğursuz ailə kultundan, ümumən, gənc nəslin zaman və tarix qarşısında vahimə keçirməsindən irəli gəlir. "Vəhşi kapitalizm istər gənc, istərsə də yaşlıların şəxsi inkişafına ümumi anlayışla mənəvi kasıblaşmasına xidmət edir. Fikrimizcə, cəmi 10 faiz insan ədəbiyyata digərlərindən fərqlənmək üçün yox, şəxsi inkişafına lazım olduğu üçün zaman ayırır" (Viktoriya Lermanskaya).

Ötən il "Mən toz dənəsiyəm" hekayəsi ilə IV Beynəlxalq Mahmud Kaşğarlı hekayə müsabiqəsində Azərbaycan üzrə birinci, on altı türkdilli dövlət və toplumları arasında II yerə layiq görülən Mətanət Vahidin hekayələri fərqlənir. "Mən toz dənəsiyəm" hekayəsindən başqa, "Sarı ovqat", "Yarpaq adam", "Yük atı", "Ovucundakı güzgü", "Qara qarışqa qədər", "Beh", "Üçüncü göz", "Üç balığın nağılı" adlı esseləri ("Azərbaycan", №1, 2017) diqqəti cəlb edir. "Qripin olmadığı yer" ("Azərbaycan", №12, 2017) hekayələri həm də balaca oxucular üçün nəzərdə tutulmuşdur. Bu hekayələrdə günümüzün aktual problemlərindən, hətta, xəstəliklərindən də bəhs olunur. "Bala dovşan kötüyün üstünə çıxıb əvvəlcə ata-anasından, sonra da bütün meşə sakinlərindən üzr istədi.

Mən qripə görə bütün meşədən küsmüşdüm. Düşünürdüm ki, daha rahat, daha təhlükəsiz, daha isti bir meşə taparam. Getdim, bir gün anladım ki, dünyanın ən gözəl yeri, ən isti yuvası, ən təhlükəsizi elə mənim doğulduğum bu meşəymiş...

Əziz körpələr, xəstəliklər, yanğınlar olsa belə, torpağınızı tərk etməyin. Xəstəliklərlə mübarizə aparın, aza qane olub ehtiyaca qalib gəlin, yanğın olanda odu söndürün, amma yalvarıram, meşənizi, evinizi, döğmalarınızı heç vaxt, heç vaxt tərk etməyin...” (“Azərbaycan”, №12, 2017).

Gənclik özü dinamik və çevik xüsusiyyətə malik olduğu üçün əksər nümunələrdə mövzu etibarilə bu dinamizm özünü göstərir. Gəncləri başına toplayan iki maraqlı dərgi “Ulduz” və “Ustad” jurnallarında toplanan hekayələri və şeirlər mövzu və ideya baxımından rəngarəngliyi ilə diqqəti çəkir. “Ustad” jurnalı – Şəmil Sadığın “Qəzetbaz”, Müşfiq Xanın “Ölməyinizi qadağan edirəm”, Tural İsmayılovun “Mən, o və...”, Şəfa Vəlinin “Mavi yalın oğlanları”, Ceylan Mumoğlunun “Xilasedici qurbağa öpüşü” və s. hekayələri dərc edib. Ayxan Ayvazın 10 hekayəsinin daxil edildiyi “Buri” və Çinarə Ömrayın “Məcnunxana” kitabları ötən ilin oxucuları tərəfindən maraqla qarşılanmışdır.

Ötən il gənclərlə yanaşı, postmodernist gənclərə örnək yazıçı Kamal Abdullanın “Adaşlar”, “Platon, deyəsən, xəstələnib”, “Sirri-zəmanə”, “Mağara”, “Mənə uçmağı öyrət”, “Kölgə”, “Göyəzən dağının ilahəsi”, “Sağlıq”, “Edam vaxtını dəyişmək olmaz”, “Səsimdən yapış” hekayələri və “Edam vaxtını dəyişmək olmaz” kitabı çap olunub. Şüur axını əsasında yazılmış bu hekayələrin səciyyəvi xüsusiyyəti onların simvolik-metaforik tərzdə ifadə olunmasıdır.

Burada dünyanın o üzündən baxmaq meyli hiss olunmaqdadır. Və bu proses gənclərin də yaradıcılığında hiss olunmaqdadır.

Qloballaşan zəmanəmizdə sürətlə gedən proseslər müasir bədii təfəkkürün də exspressivliyini tələb edir. Belə ekspressivliyə isə lirika və novella uyğundur.

Ədəbiyyat qəzetində gənc şair Rəşad Nağı Mustafanın "Günel" adlı şeiri ("Ədəbiyyat qəzeti", 9 dekabr 2017) çap edilib. Şeir nə sərbəst, nə də heca vəznindədir. İkisinin qarışığındadır. Mövzusu təzə deyil, daşa divara ağaca sevgisinin adının yazılması bizim poeziyamızda kifayət qədərdir. Onun şeirlərinin başlıca nöqsanı məncə nəsr təfəkkürü ilə yazılmasıdır. Şeiri hekayə kimi oxuyursan. Müasir ədəbi gənclik bunu tərz kimi qəbul edir. Lakin şeirin başlıca məziyyəti lirizm və romantikadır.

Küçənizin başında bir məsciddə var hələ
azanı eşidəndə dilimin altda bir az
zümzümə eləyirəm.
Axı dilin altında necə zümzümə etmək olar?

Yaxud

Quşlar divardan məktub götürə bilmir axı,
Alın yazılarını bura nahaq yazırlar...
Görəsən minarədən
özümü yerə atsam,
mənə günah yazılar?

Burada bədii məntiqin onunla bağlı poetik harmoniyasının pozulduğu göz qabağındadır.

Şairin bir vəzifəsi də daha zəngin sözləri toxum kimi "kasıb" sözlərin cərgəsinə səpməkdir ki, bundan da məqsəd hər sözə layiq olduğu yeri tapmaqdır. Şeiri yalnız birinci tip sözlərlə ifrat dərəcədə yükləmək olmaz, çünki yalnız əlahiddə məqamlarda söz hiss edilmədən bu cərgəyə qoşulur və bununla da dilin və sivilizasiyanın bütün tarixi işıqlanır (T.S.Eliot). Şair olmaq sözün ən yaxşısını tapıb işlətmək deyil, sözün çatdırmaq istədiyin mənaya, ifadə etmək istədiyin hiss və duyğuya ən münasibini tapıb işlətməkdir. Söz də paltar kimidir, onu geyinənə yaraşanıdır. Sözün gözəlliyi mənanın ifadə tərzində görünməyindədir.

Bu isə mənanı bayağılaşdırır. Tural Turan orijinal düşüncə sahibidir. Onun dünyaya özünəməxsus baxış bucağı var. "Kişmişi gülüş", onun barəsində bir şair kimi danışmağa imkan verir. Lakin o öz deyimlərini ifrat dərəcədə mücərrədləşdirir.

Dilindən asılan intihar ipləri
Dodaqlarında qırılar.
əkizi var, oxşarı yox;
bu nə gülüşdür ilahi,
yarı var, yarı yox...

Son illər poeziyada gənclərin üz tutduğu mövzudur – ümidsizlik, ölüm, intihar... Yaxşıdır ki, bu əbədi mövzulardan çıxış yolu kimi gənc ədəbiyyat tanrıya-Allaha müraciət formasını seçir. Tanrı dərgahına, kamillik məqamına son mənzil seçmək isə bizim orta əsrlər sufi poeziyasının əsas xüsusiyyəti idi.

Fuad Cəfərlinin intiharı isə təbiətin hadisəsidir (“Ədəbiyyat qəzeti”, 27 may 2017).

Gecənin qaranlığında intihar edən ulduzla,
Səhərin alatoranlığında qaratoyuqla,
Günün günortasında gecənin alovu ilə...

Fuad Cəfərli gələcəyə inamla baxaraq qarın kamilliyə çatacağına, insanın qəlbinin torpağı qızdıracağına, ayın səfərlərdən canı qurtaracağına inanırdı. O sabahı görməsə də, tanımasa da, inanırdı sabaha:

İnanıram sabaha!
İnanıram ki, qəlbimiz torpağın üzünü qızdıracaq.
Sular daşı belə sevəcək,
Qar kamilliyə çatacaq.
Üstündən ərimək adlı lənəti götürüləcək...
İnanıram ki, rüzgar inadından əl çəkib
Qucağını pəncərə təki açacaq,
İnsan günəşlə dostlaşacaq
.....amma bu dostluq kölgənin qəlbini qırmayacaq.

Bir neçə kəlmə də lirik poeziyanın mahiyyətini səciyyələndirən özünüifadə haqqında demək istərdim: şair məni olduqca zəifdir, cəsarətsizdir.

Müasir ədəbi prosesdə gənc yazarların yaradıcılığını təhlil edən orijinal düşüncə sahibi tənqidçi Həmid Herisçi yazır: “Bu gün nə varsa, baş-ayaqdı. Tərsdir. Misal üçün gənclər ağsaqqalıq edir, mətbuatda bütöv bir millətə ağıl duası yazırlar. Ağsaqqallar isə susurlar. Qəribə yerdəyiş-

mədir. Buna deyirlər əsl "postmodernist situasiya". Millətini aşağılayır, özünü dartır".

Ədəbi prosesdə yeni "demokratik" meyar kimi qəbul olunan – "mənə xoş gələn yaxşıdır" prinsipi bədilik meyarını üstələyir. Ötən il ərzində Gülsadə İbrahimli, Hədiyyə Şəfaqət, Şahanə Müşfiq, Xuraman Hüseynzadə, Cahan Gülsünin də imzaları seçilir. Gülsadə İbrahimlinin "Dostla söhbət" şeirində cəmi bir misra "susulacaq sözüm var" diqqəti cəlb edir, bütövlükdə isə şeir ənənəvi dənizlə söhbət şablonundan ibarətdir. Hədiyyə Şəfaqətin üç misralıq adsız bəndləri yuxuda danışan adamın qırıq-qırıq xatirələrinə bənzəyir. Konkret səciyyələndirsək, deyə bilərik ki, estetik idealı məlum deyil, Cahan Gülsün uşaqlıq xatirələrinin nostalgiyası ilə yazır. "Atama" və "Anama" şeirlərində ata da, ana da, hətta tut ağacından asılmış yelləncək də var. Lakin bütün bunları birləşdirən poeziya yoxdur. Rebusa bənzər söz düzümü var. Bununla isə şeir yaratmaq olmaz.

Ayrıca götürülmüş şəkildə 2017-ci ilin dramaturgiyasından bir proses kimi danışmaq mümkün deyil. Ümumi dramaturgiya kontektsinə nəzər saldıqda ortada olan əsərləri xalq yazıçısı Elçin, Əli Əmirli, Firuz Mustafa, Afaq Məsud kimi tanınmış müəlliflər yazmışlar. Ötən ilin ədəbi məhsulu kimi iki faktı qeyd etmək olar: Qanturalının "Qabaqda gedən zəncirli" və Pərvinin "Qadınlar", "Sonuncu" əsərləri. Bu əsərlərin müəllifləri bütün rəğbətimizə baxmayaraq, ağır janra yüngül münasibət nümayiş etdirirlər. Niyə belə olur? Çünki dram yazmaq üçün qloballaşan zamanın qlobal konfliktlərini müəyyən etmək lazımdır. Bu konfliktlər isə beynəlxalq xarakter daşıyır. Əslində, bu gün

dünyanın özü böyük bir tragediyadan ibarətdir. Bu tragediyanın adı isə Muharibə ola bilər. Başını partlamamış amerikan bombasının üzərinə qoyub yatan suriyalı uşaq tragik qəhrəman deyilmi?! Avropada it kimi dəyənəklə döyülən, taleyi naməlum müsəlman mühacirlər dram qəhrəmanı ola bilməzmi? Dünyada islam mədəniyyətinin paytaxtı olan ecazkar Bağdadın ingilis siyasətinin bir aldanışına qurban getməsi dram mövzusu deyilmi? Deməli, dram üçün vacib olan ən başlıca şey dramatik konfliktlər kifayət qədərdir. Sadəcə, onları görüb janrın poetikasına uyğun yaza bilən istedadlı gənclər mövcud deyildir. Heç uzağa getməyək, ən böyük dram, ən barışmaz konflikt bizim öz içimizdədir. Biz öz içimizdən asılmışıq. Öz içindən asılan adam əsl dram faktı deyilmi?

Bütün bu təhlillərdən çıxan nəticə nə ola bilər: 2017-ci ildə gəncliyin bədii yaradıcı işığı ləng gedib. Oxucunu həyəcanlandılran və düşündürən əsərlər yazılmayıb. Ümumən, bədii axtarışlarda bir süstlük və durğunluq var. Lakin ədəbiyyatın taleyi ümidsiz deyil. Hesab edirik ki, postmodernist yöndə aparılan eksperimentlər öz bəhrəsini verəcək. Ən azı güclü Şərq və Azərbaycan bədii fikrinin ənənələri gələcək ədəbiyyatımızı doğru yola istiqamətləndirəcək. Eksperiment canlı ədəbi prosesin başlıca hərəkətverici qüvvəsidir. Lakin eksperiment o zaman ədəbi prosesin təkamülünə yol açır ki, o bədii həqiqətlə nəticələnir.

MÜNASİBƏT

Tehran ƏLIŞANOĞLU
AMEA-nın müxbir üzvü

ƏDƏBİ PROSES HƏRƏKATI: PRAKTİKADAN GERÇƏKLİYƏ

(AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "İlin ədəbi yekunları")

Belə. Bugün bizdə "Ədəbiyyat varmı, yoxmu"dur? İlin "Ədəbiyyat adamı" kim(lər)dir? İlin hekayə müsabiqəsi; ən yaxşı dram əsəri; roman mübahisəsi; povest varmıdır-yoxmudur... – janr (ədəbiyyat) çəkişmələrinin sonucu nədir? Bəs "Söz azadlığı tənqidimizə nə verib"dir? Xalq şairləri, yoxsa Xal*q/x*ın şairi? Ədəbiyyat və "olmadığı yerlər" arasında demarkasiya xətti nerədən keçir? Qərbmi, Şərqmi? Cavidin, Vurğunun, Müşfiqin sözünü bugün kim deyir, kimlər danışır? Bəs Ələkbər Sabirin, Mirzə Cəlilin?.. "İlin alimi"ni nə, nəmənə və hansı instansiya müəyyən edir? İlin ədəbi sensasionu, motivasionu, ədəbi hadisəsi...

Və s. və s. və s. bu kimi – ədəbi mentalitet, istiblişment, agent və agenturanın müxtəlif mərtəbə və diapazonlarda səsləndirdiyi, yaydığı, şəbəkələndirdiyi çoxsaylı sual və cavab (sual-cavab) axtarışlarına iyun ayının 4-də (2018-ci il) AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Hüseyn Cavid, 115, 4-cü mərtəbə, Elektron Akt zalında keçirdiyi növbəti "İlin ədəbi yekunları"ndakı çıxışında İnstitutun direktoru akademik İsa Həbibbəyli geniş

bir jestlə son qoymuş oldu. "Ədəbi proses hərəkatı"nı publik olaraq bəyan və Ədəbiyyat İnstitutunu onun hamisi elan etdi: "Doğrudan da, bu ilin səviyyəsindən baxanda hazırkı mərhələdə "Ədəbi proses" yaradıcılıq müşavirələri əhatə dairəsinin və iştirakçılarının genişliyinə, müzakirələrin miqyasına, əks-sədasına və problemlərinin masştabına görə elmi-ədəbi hərəkat səviyyəsinə çatmışdır. Bu, müasir Azərbaycan ədəbiyyatını illər üzrə bütün yönləri ilə təhlil edib dəyərləndirən ardıcıl və sistemli bir elmi-ədəbi hərəkatdır. "Ədəbi proses" marafonu müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mahiyyətini açan, səciyyəsini müəyyən edən, modellərini meydana qoyan, gələcək inkişaf yollarını göstərən hərəkatdır..."

"Əhatə və genişlik" öz yerində... 2017-ci ilin ədəbi yekunlarına toplaşmış məclisdə AYB-nin katibi Rəşad Məcid iştirak edirdi; "Ədəbiyyat qəzeti"nin baş yazarı Azər Turan vardı; "Azərbaycan" jurnalını baş redaktorun müavini qismində Südabə Ağabalayeva təmsil edirdi. Və bir də yer-yerdən ədəbi tənqidçilər: məşhur Rüstəm Kamal (BSU), məşhur Məti Osmanoğlu (BDU), məşhur Təyyar Salamoğlu (ADPU) və qeyriləri. Qeyriləri içrə əsas ədəbi qüvvələri Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu təşkil edirdi, şəksiz. Başda "Ədəbi tənqid" şöbəsinin iradəçisi (müdiri) Vaqif Yusifli olmaqla azman tənqidçilər: Cavanşir Yusifli, Elnarə Akimova, Nərgiz Cabbarlı... və sıradan bir çox digər peşəkar, habelə həvəskarlar; mən (Tehran Əlişanoğlu) qarışıq, gəlin razılaşaq ki, cüzi istisnalarla ölkənin tüm ədəbi tənqidçi korpusu buradaydı...

Hərçənd ki, əvvəlki illərdən fərqli gözə yazarlar az dəyirdi. Nə var, nə var illər öncə yazarlardan biri Ədəbiyyat

İnstitutunun dəhlizləri uzunu qapıları döymədən gəzişib, burda ölüm sukutunun hökm sürdüyünə qərar vermişdi. Hələ də zərb-məsəl kimi yadda qalan o əyyamların bəlkə bugün, əksinə, həyat dolu, canlı, gur səs-küylə əvəzlənməsindən ürküb-çəkinib də məclisdən qaçaq düşmüşdülər. Amma hər halda yazarlar sarıdan da konsensus vardı; başlıca, Azər Turan çıxışında qeyd elədi ki, ölkənin baş yazarı Anar müəllimin məsələdən xəbəri var... Hələ iki gün qabaq, "Ədəbiyyat qəzeti"nin 2 iyun 2018-ci il tarixli Xüsusi buraxılışında yaradıcılıq müşavirəsinin geniş proqramı ilə yanaşı, məruzələrin yığcam variantları da dərc olunmuş, "ədəbi proses hərəkatı" bununla xeyli qabağa düşmüşdü.

Bu yerdə gəlirik, akademik İsa Həbibbəylinin vurğuladığı: "müzakirələrin miqyası, əks-sədası və problemlərin masştabı" məsələsinə. "Ədəbiyyat qəzeti"nin Xüsusi buraxılışında geniş ədəbi auditoriyalara təqdim etdiyi məruzələrə (mənzərələrə) bir daha diqqət edin. Akademik İsa Həbibbəyli, "Ədəbi proses hərəkatı. İcmal tənqidindən monoqrafik dərinliyə"; Elnarə Akimova, "2017-ci ilin ədəbi təqvimi – keçmiş davamedici zaman"; Vaqif Yusifli, "Poeziya... poeziya... 2017"; Cavanşir Yusifli, "İlin ədəbi tənqidi: Zaman kontekstində baxış"; Aynurə Mustafayeva, "İlin dramaturji mənzərəsi"; Nərgiz Cabbarlı, "Roman janrı – yeni texnologiyalar, yeni poetik xüsusiyyətlər"; Maral Yaqubova, "Ədəbiyyat nəzəriyyəsinin səviyyəsinə ümumi baxış"; Lalə Həsənova, "Azərbaycan rusdilli nəsri"; Günay Qarayeva, "Uşaq nəsri və dramaturgiyasının müasir durumu və perspektivləri"; Esmira Fuad, "2017-ci ilin epik şeiri: tənəzzül, yoxsa inkişaf?"; Eşqanə Babayeva, "Azərbaycan və türk ədəbi əlaqələri"; Nizami Hüseynov,

"Bölgələrdə ədəbi həyat"; Pərvanə Məmmədli, "Cənubda ədəbi proses"; Aygün Bağırlı, "Poeziyada görünən uşaq dünyası"; Nərmin Cahangirova, "Müasir hekayəyə bir nəzər"; Xanım Zairova, "Ədəbi proses–2017. Azərbaycan və Qərb ədəbi əlaqələrinin izi ilə"; Mərcan Sofiyeva, "Bədii tərcümə – mədəniyyətlərin təması"; Vüqar Əhməd, "Elm və bədii yaradıcılığın qovuşuğunda"; Elçin Mehrəliyev, "Publisistika: meyillər, problemlər, axtarışlar". Əgər israrən diqqət etdinizsə: məgər akademikin iddia etdiyi "miqyas və əks-səda" məsələsi zatən aşkarca görünmürmü?!

Bu gün yaşadığımız postmodern durumda ədəbi proses iddialıları, proses subyektləri çox-çoxdur; geniş TV-auditoriyaların, internet-şəbəkələrin, KİV-bumunun, QHT-özfəaliyyətlərinin sərhədsiz və "qaydasız döyüş" sınırlarını bir anlıq yada gətirəndə, hətta deyərdim: bugün "hərəkat"a flaqmanlığı boynuna almağın özü belə riskli görünür. Bu əsnada ədəbi prosesdə Ədəbiyyat İnstitutunun flaqmanlığını "Ədəbiyyat qəzeti"nin ardınca "Ədəbi 525" də tanıdı. AYB-nin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışında "Ədəbi proses" müşavirələrini nəinki özlüyündə "hadisə" adlandırdı, hətta bir az da qabağa gedib, ümumən "İlin ədəbi hadisələri"ni təyin etməkdə münsiflik statusunu məmnuniyyətlə Ədəbiyyat İnstitutuna tərk etməyi təklif elədi. "Ədəbiyyat qəzeti"nin baş redaktoru, qəzetə gəlişi ilə özü bir hərəkat ("azər-turançılıq"!) başlatmış Azər Turan da, istər "xüsusi buraxılış"dakı "Baş redaktordan" yazısında, istərsə də çıxışında "Ədəbi proses" müşavirələrini Vissarion Belinskinin "1847-ci il rus ədəbiyyatına bir nəzər" icmalı ilə müqayisə edərək, "Ədəbi hadisə" istəmək, gözləmək və ən nəhayət yaratmaq mis-

siyasını məhz Ədəbiyyat İnstitutundan umduğunu bəyan etdi. Məşhur tənqid uzmanı, 2017-ci ilin nəticələrinə görə, Ədəbiyyat İnstitutunun təsis etdiyi "İlin alimi" mükafatının qalibi Rüstəm Kamal daha böyük ümumiləşdirmə apararaq, "böyük şəxsiyyətlər olan yerdə böyük ideyaların yarandığı"nı, son illərdə məhz akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Ədəbiyyat İnstitutunun bütövlükdə ölkədə Azərbaycan ədəbiyyatına sahib çıxdığını və ədəbi ideyaların, təhlillərin, proqnozların gerçəkləşdirilməsində "lokomotiv" rolunu çəkinmədən, qəti vurğuladı.

Akademik İsa Həbibbəylinin 2013-cü il Ədəbiyyat İnstitutuna gəlişindən bəri təşəbbüskar və aparıcı missiyasını çıxış edənlərin cəmisi – tənqidçi Elnarə Akimova da, filologiya doktoru Mahirə Quliyeva da, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu da, "Ədəbi tənqid" şöbəsinin yönəltməni Vaqif Yusifli də, Mühacirətşünaslıq lideri Nikpur Cabbarlı da bir daha, bir daha yada salmağı lazım bildi. Hətta qonaq qismində məclisdə iştirak edən Misir Mədəniyyət Mərkəzinin müdiri Əhməd Sami Elaydi İnstitutda müasir Azərbaycan ədəbiyyatı naminə tüm çalışmaları təxirsiz əcnəbi dillərə, o cümlədən ərəbcəyə çevirib dünyaya (o sıradan Ərəb dünyasına) bəyan etməyi vacib bildi.

Akademik İsa Həbibbəyli müşavirəyə diqqət və önəm verən, toplaşan, onu tanıyan və tanıdan bütün ədəbi aləmə Ədəbiyyat İnstitutu adından sayğı və minnətdarlığını ifadə etdi. Xüsusən də böyük səmimiyyətlə müşavirəyə ayrıca qəzet (Xüsusi buraxılış) yapmış "Ədəbiyyat qəzeti" və onun baş yazarına. Ki, bəlkə 1960-cı illərin sıx elmi-ədəbi kontaktlarını, həmin dövrdə Ədəbiyyat İnstitutu elmi məclislərinin qəzetdə görünən xülasə-icmallarını və sonralar

da ara-sıra davam edən bu növ istisnaları çıxsaq, ölkənin yeganə ədəbiyyat qəzeti tarixində ilk dəfədir ölkənin baş elm məbədgahına bu səviyyədə, bu miqyasda diqqət ayırır. Qəzetin üz qabığında AMEA binasının simvolik şəkli, habelə səhifələrində Ədəbiyyat İnstitutundan tarixi fotolar yer almaqla, "İlin ədəbi yekunları" 19 yazıda(n) geniş, ətraflı, təfərrüatlı plastika və panoramını tapır. Ümumən, "Ədəbiyyat qəzeti"nin son zamanlar gündəm çərçivələrinə sığmayıb, genişliyə açılması, əvvəlcə ölkənin baş yazarı Anarın 80, daha sonra Xalq yazıçısı Elçinin 75 illiyinə və hazırda Ədəbi proses hərəkatına Xüsusi buraxılış həsr etməsi, əlavə vurğu salması yaxşı haldır, təqdiredicidir, ümumi ədəbi gəlişməyə stimul verir, dividend gətirir. O cümlədən akademik İsa Həbibbəyli o məqamı da xatırlatdı ki, bu il Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun da 85 yaşı tamam olur və əslində, "Ədəbi proses hərəkatı"nın tarixən və tarixi gəlişməsinə, xüsusən də aktuallanmış son beş ilinə ayna tutan hazırkı yaradıcılıq müşavirəsi də il boyu davam tapan həmin yubiley tədbirləri sırasındandır.

Akademik İsa Həbibbəyli çıxışını (habelə Xüsusi buraxılışda dərc olunan "Ədəbi proses hərəkatı..." məqaləsində) həmin prosesin hələ qırx il öncədən start götürən tarixinə qısa bir ekskursla başladı. Ədəbi proses hərəkatının təməli 1976-cı ildə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri, akademik Məmməd Cəfər Cəfərovun xeyir-duası və ümumi rəhbərliyi ilə, "Müasir ədəbi proses" şöbəsi və şöbəyə başçılıq edən ünlü tənqidçi və ədəbiyyatşünas Yaşar Qarayev tərəfindən qoyulmuş, az qala on il – 1976-1984-cü illərdə, sovet quruluşu ilə birgə proses əvvəlki ölçülərində səngiyib

sönənəcən davam tapmışdır. Əslində, bu – bütün ideoloji rəng və retuşları ilə birgə həm də elə müasir ədəbiyyatımızın təməl tapdığı tarixdir. "Ədəbi proses–76", "Ədəbi proses–77", "Ədəbi proses–78", "Ədəbi proses–79", "Ədəbi proses-80", "Ədəbi proses–81-82", "Ədəbi proses–83-84" topluları – ədəbi proses hərəkatının yarandığı dövrün bütöv bir kitabxanasını yaratdı. Akademikin qeyd etdiyi kimi: "Dövrün (hətta sonrakı mərhələlərin də) heç bir nəşrində 1976-1984-cü illərin ədəbi prosesi həmin illərin ədəbi gedişatına həsr olunmuş ədəbi növlər üzrə icmallarda olduğu qədər özünün real, geniş və sistemli əksini tapa bilməmişdir..."

"Hərəkat" eyni zamanda bu mənzərəni analitik şəkildə ədəbi ictimaiyyətə təqdim edə bilən kadrları – bütöv bir tənqidçi korpusunu yetirdi. Akademik İsa Həbəbbəylinin yada saldığı kimi: "Ədəbi proses müşavirələrində ardıcıl olaraq ədəbi növlər üzrə çıxış etmiş elm adamları... – Yaşar Qarayev ədəbi tənqid, Şamil Salmanov, Şirindil Alışanlı poeziya, Akif Hüseynov, Vaqif Yusifli və Vilayət Quliyev nəsr, Arif Səfiyev dramaturgiya sahəsində ixtisaslaşmış, – ölkə ədəbiyyatında gedən proseslərə təkan verə bilən mütəxəssislər kimi qəbul olunmuşlar..." Həmin köhnə qvardiyanı 4 iyun 2018-ci il tarixli elmi tədbirdə filologiya elmləri doktoru Şirindil Alışanlı təmsil edirdi və o cümlədən çıxışında həmin tarixi dövrün bir az da doğru-dürüst bərpasına cəhd etdi. Doğrudur, o zamanlar ədəbi proses hərəkatını Kommunist Partiyasının özü, MK bürosunun "Ədəbi tənqid haqqında" qərarı ilə başlatmışdı, ol zamanlar başqa cür olmurdu da; amma həmişəki təki qərar və qətnamələrdən özünəxas şəkildə yararlanan milli cə-

miyyətimiz və ədəbiyyatımız olmuşdu. Çıxışçı müqayisə üçün, o zamanlardakı senzura, həcm və fikir qəliblərini də yada saldı. İndi olmayan yerdən söz deməyə nə var, ol zamanlar, demə, olan yerdən deyilən sözlərə görə hətta cəzalandırırmışlar da; və faktik olaraq Məmməd Cəfər müəllimin onu təqiblərdən necə qurtardığını yada saldı. Çıxışda: hanı ol zamanlar, – deyə, zəif bir nostalji də duyulurdu; "Ədibin evi"nin bugünlərdə keçirdiyi Mir Cəlal adına hekayə müsabiqəsinin sözçüsü kimi də danışan Şirindil Alışanlı müsabiqəyə 300-dən artıq daxil olmuş mətnlər içərisində əsl hekayə axtarışının müşküllərini də auditoriya ilə bölüşdü...

Nostalji notları hardasa Məti Osmanoğlunun da çıxışında vardı; həmin 1970-ci illərin ikinci yarısı, "Müasir ədəbi proses" kursunun təhsil sisteminə də girdiyi çağlarda bu fənni ilk dəfə, ol zamanlar yeganə olan universitetdə, tələbələrə Bəxtiyar Vahabzadə tədris etmiş; böyük şairlə başlayan o polemik ruh, ədəbi mübahisələr, tənqid havacatı bu günəcən də məşhur tənqidçinin nəzərlərindən çəkilməmişdir. Sonrakı çıxışlarda da "hərəkatın tarixi"ni dürüstləşdirmək səyləri oldu; Yaşar Qarayev 1990-cı illərdə İnstitutda "Müasir ədəbi proses" şöbəsini (hazırda "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı") bir daha bərpa etməklə "hərəkat"ı dirçəltməyə cəhd edir, 2000-ci illərdə akademik Bəkir Nəbiyevin zamanında da şifahi müşavirələr şəklində "İlin ədəbi yekunları" ara-sıra rezonanslar doğurur. Və yalnız 2013-cü ildən, İnstitutda akademik İsa Həbibbəyli tərəfindən "Ədəbi tənqid" şöbəsinin yaradılması ilə, "proses" əvvəlki güc və formatda, üstəlik müstəqillik faktorunun artırdığı ikiqat şiddətlə gəlişməyə başla-

yır: "Ədəbi proses–2013", "Ədəbi proses–2014", "Ədəbi proses–2015", "Ədəbi proses–2016", "Ədəbi proses–2017" topluları getdikcə artan əhatə və siqlətlə işıq üzü görür...

Bir var "proses" barəsində eləcə danışasan, "varmıdır-yoxmudur?" deyib nostalji xəyallara dalasan. Bir də var prosesin özünü yaradasan, performativ olaraq, ilbəil təqdim edəsən, dərininə gedəsən, ardıcıl gəlişdirəsən, bütün sual-cavabları ilə birgə bilavasitə onu hərəkata çevirəsən... Akademik İsa Həbibbəylinin yəmin etdiyi kimi: "Həqiqətən də "Ədəbi proses–2014" geniş mənada ədəbi proses hərəkatında mühüm bir dönüş mərhələsi olmuşdur. "Ədəbi proses–2014"dən başlanan proseslər 2015 və 2016-2017-ci illərin ədəbiyyatının təqdimatında daha da genişlənmiş və dərinləşdirilmiş, sistemli xarakter almışdır. "Ədəbi proses–2015"də janrlar üzrə təhlillərin marafonuna satira, 2016-da uşaq şeiri ilə uşaq nəsrinin ayrı-ayrılıqda təmsil olunması, ədəbiyyatşünaslığın ədəbiyyat nəzəriyyəsi və ədəbi əlaqələr sahələri də qoşulmuşdur. Necə deyərlər, "Ədəbi proses–2017"də artıq "Ədəbi proses" qatarı 19 vaqonla (məruzə ilə) yola çıxmışdır. Bu, ədəbi proses hərəkatının inkişafında pik nöqtəsidir və ədəbiyyatın dərinliklərinə və ən uzaq hədəflərinə doğru yürüşün müzəffər marafonudur. Məruzələrin sayca çoxluğu yaradıcılıq mühitində ədəbi növlərin demək olar ki, bütün əsas janrlar üzrə yaşadığı keyfiyyət dəyişikliklərini izləməyə imkan açır..."

Akademik İsa Həbibbəyli çıxışında (habelə "Xüsusi buraxılış"da çap olunmuş geniş nitqində) "hərəkat"ın yalnız tarixini nümayiş etdirməklə qalmadı, nəzəriyyəsinə də vardı, qırx il öncəki "ədəbi proses"lə müstəqillik dövrü hə-

rəkatının fərq və incəliklərinə baş vurmaqla, konkret nəzəri proqramını şərh etdi. Göstərdi ki, ümumən nəzəriyyəsiz "proses" bircə addım da irəliləyə bilməz; elə 2017-ci ilin ədəbi yekunları da bununla seçilirdi ki, əksər məruzələrdə bu və ya digər qədər bir nəzəriyyə duzu vardı...

Artıq mətbuatda dərc olunmuş məruzələr ("Ədəbiyyat qəzeti"nin xüsusi buraxılışı, 2 iyun 2018-ci il) bütün polemik ruhu ilə birgə mənim yadımda ən çox məhz doğurduğu bir sıra nəzəri təəssüratlarla qaldı. Görən, ədəbiyyatımız klassik (Şərq) zəminini unudub tapındığı Qərb stixiyasında çoxmu israr edəcək?; ya hər halda (hazırda yüz illiyini bayram etdiyimiz) klassik sintezmi qalib gələcək? (Elnarə Akimova). "Poeziya, poeziya..." – görən, bugün İrandan da, Turandan da, Amerikadan, Azərbaycandan, Avropadan da yazan şairlərimizin şeirlərində "XXI əsr Azərbaycan insanının öz obrazını görmək" bizə nəsib olacaqmı? (Vaqif Yusifli). Azərbaycan ədəbi tənqidinin "Roma Papasından artıq olmaq" istəyinin sirri, görən, nədədir? (Cavanşir Yusifli). Bəs "çağdaş elmi idrakın mütləq heç nə tanımadığı" hazırkı zamanın həqiqəti nədən ibarətdir? (Maral Yaqubova). Görən, "dünyanın min illər əvvəl sahib olduğu dialoqa girmək, müzakirə müstəvisi yaratmaq mədəniyyəti"nə bizim mental düşüncəmizdə də yer tapılacaqmı? (Aynurə Mustafayeva) Neçə illərin "model" axtarışlarından sonra ən nəhayət, roman texnologiyalarının nəsrimizdə qələbəsindən danışa bilərikmi? (Nərgiz Cabbarlı) və s.

Məruzələr ümumi razılıqla yanaşı, müəyyən tənqid notları doğurduğu kimi, bir sıra yarımçıq məqamlara, problemlərə, suallara da meydan açdı. Nədən Cənub ədəbiyyatı artıq dünya kontekstində göründüyü, yer aldığı hal-

da biz bu barədə ürək genişliyi ilə danışmırıq? (Pərvanə Məmmədlinin məruzəsindən) Ədəbi gəncliyin yaş senzi nerədən keçir?; nədən bu sıradan eyni adlar, imzalar ildən ilə, məruzədən məruzəyə adlayır, gəncliyin bir "qocalması" da olmurmu ya? (Fidan Abdurəhmanovanın məruzəsinə irad) Ədəbi publisistikanın bir sərhədi varmıdır – bədii, jurnalistik (qəzet), ya elmi publisistika? (Elçin Mehrəliyevin məruzəsinə sual) Bəs esseistikanın: tənqidmi, publisistikamı, yoxsa nəsr? (Çıxışlardan) ... Müzakirələr eninə və dərininə, perspektivlərə də rəvac verdi; yeni məruzə mövzuları irəli gəldi. Klassik ədəbiyyat (janrlar) bugün necə yaşayır? Esseistikanın bugünü ayrıca diqqət istəmirmi? İlin ədəbi tənqidi, ədəbiyyat nəzəriyyəsi hədəfdədirsə, ədəbiyyat tarixçiliyi nədən kənarda qalmalıdır? – və s. kimi.

Sonda hətta məclisin özünün formatı söhbət predmeti oldu. Elmi sessiya, konfrans, ya yaradıcılıq müşavirəsi? Fikir səsləndi ki, Ədəbiyyat İnstitutunda hər il İlin yekunlarına dair müşavirələr elmi problem və məruzələrin siqləti və istiqaməti etibarilə ədəbiyyatşünaslıq konfransına çəkir. Polemik fikrə münasibət bildirən akademik İsa Həbibbəyli ədəbi proses hərəkatının təkcə elmi auditoriyalarla hüdudlanmayıb, daha böyük əhatədə ədəbi ictimaiyyəti ehtiva etdiyini, səciyyəsinə görə konfransdan bir qədər yuxarı, qurultaydan bir az aşağı – məhz yaradıcılıq müşavirəsi formatına uyğun gəldiyini iqrar etdi. Nədən olmasın?!

Doğrudur, səkkiz saata qədər davam edən müşavirədə(n) ədəbi prosesin son bir ilinin, ya beş ilinin, hətta hardasa həm də qırx ilinin irəli sürdüyü, ortaya çıxardığı, həllini axtardığı bütün problemlərə cavab gözləmək qeyri-real olardı. Başlıcası, ortada "hərəkat" vardı, tüm problemlərin

həllini də ona etibar etmək olardı. Akademik İsa Həbibbəylinin vurğuladığı kimi: daha çox yeni tənqidçilər nəslinin təmsil olunduğu, tədricən köhnə qvardiyanı əvəz edən "gənc qvardiya"nın aparıcılığı ilə gerçəkləşən "ədəbi proses hərəkatı"na. Hərəkatda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun flaqmanlığı heç kəz heç kəsdə şübhə doğurmurdu.

"Ədəbiyyat qəzeti", 23 iyun 2018
"525-ci qəzet", 23 iyun 2018

Mahirə QULİYEVA
Filologiya üzrə elmlər doktoru

MƏMNUNLUĞUMU GİZLƏTMƏK İSTƏMƏZDİM...

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu 2018-ci il iyun ayının 4-də "Ədəbi proses–2017" mövzusunda Yaradıcılıq müşavirəsi keçirdi. Bir növ 2018-ci ilin elmi bucağından 2017-ci ilin ədəbi prosesinə, biri digərini tamamlayan janrların təhlilinə nəzər salındı. Ənənə şəklini almış bu proses Ədəbiyyat İnstitutunun tarixində uzun, həm də yaddaşlarda xoş xatirələrlə həkk olunan bir inkişaf yolu keçmişdir. Məsələnin ən maraqlı tərəfi isə bu prosesin ilk öncə təməlini qoyan və prosesi ardı-arası kəsilmədən davam etdirən alimlərimizin yad edilməsidir. İnstitutumuzun 85 illik yubileyi ərəfəsində bu prosesin təkamül yolunun gedişində mühüm rolu, əməyi olan alimlərimizin bir çoxu, zənnimcə elə hamısı Quranın "Hicr" ("Daşlı Sahə") surəsinin 9-cu ayəsində, hətta Quran kəlməsi yerinə işlədilən "zikr" sözünün müvafiq mənası ilə xatırlandılar. Bu zikr kəlməsinin müəyyən məna tutumu ilə elmdə bizə örnək olan, cismən var olmasalar da, əsərləri ilə mənəviyyatımızı zənginləşdirən, hətta məktəb yarada bilmiş müəllimlərimiz və alimlərimizə sevgi dolu sayğılarımızı bildirməklə yanaşı, Allahın rəhmətini də qazanmağa çalışmışıq. Geniş dinləyici auditoriyası olan Yaradıcılıq müşavirəsində iştirak edən qonaqların tərkibi də özəl idi. Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid və "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan da bu tədbirdə iştirak edirdi. Bu

məqamda Azər Turanın bir fikrini xatırlatmaq yerinə düşərdi: "Yazıçılar Birliyi və Akademiyanın Ədəbiyyat İnstitutu vahid yaradıcılıq prosesinin qoşa qanadıdılar."

Azər Turana gəlincə, məncə, bizim ona bir təşəkkür borcumuz var. Bu da qəzetin baş redaktorunun "Ədəbiyyat qəzeti"nin bütöv bir nömrəsini "Ədəbiyyat qəzetinin xüsusi buraxılışı" adı ilə "İlin ədəbi yekunları" başlığı altında "Ədəbi proses–2017"yə ithaf etməsinə bağlıdır. Məqaləni yazmazdan öncə, düşünürdüm ki, qəzetin baş redaktoru və redaksiya heyətinə təşəkkürümü epiloq şəklində yazım. Sonra fikrimdən daşındım. Nədən?! Məncə, səbəbi ilə hamı razılaşacaq. Ədəbiyyat İnstitutunda elə bir tədbir, elə bir konfrans və ya müşavirə yoxdur ki, bu şəxslər orda iştirak etməsinlər. Onlar Ədəbiyyat İnstitutunun nailiyyət və qayğılarına, uğur və sevinclərinə qəlbən bağlı olduqlarını öz əməlləri ilə çox möhtəşəm şəkildə büruzə verirlər. Əti dırnaqdan ayırmaq olmaz, deyiblər. Bu baxımdan yanaşdıqda adı çəkilən hər iki şəxs Ədəbiyyat İnstitutunun fəxri əməkdaşları kimi də dəyərləndirilə bilər.

Azər Turanın institutumuzla bağlı söylədiyi fikirlər deyilənləri bir daha təsdiqləyir: "Ədəbiyyat qəzeti" hər il davamlı olaraq ilin ədəbi yekunlarına həsr olunmuş ənənəvi müşavirənin materiallarını dərc edirdi. Amma bu dəfə məruzələri həmişəki kimi... pərakəndə şəkildə deyil, bir özəl sayda təqdim etmək qərarına gəldik və sözü Ədəbiyyat İnstitutuna verdik."

Bax, elə bu sözə görə sizə minnətdarıq.

Oxucular haqlı olaraq məni qınayaraq "bu iş, elə "Ədəbiyyat qəzeti"nin ümdə vəzifəsi deyilmi?!" – deyə bilərlər. Vəzifəsidir... Amma icraçı işini yerinə yetirərkən,

ona sevgi dolu əməyini qatırsa, özəl münasibət bəsləyirsə, bunu qiymətləndirməmək olmaz.

Ədəbiyyat özünün müxtəlif janrlardan yazılmış mövzuları ilə insan əxlaqını kamilləşmə zirvəsinə yönəldir, dünyanı isə mənəviyyat və vicdan hesablarına hazırlayır. Bu anlamda "Ədəbi proses"in mahiyyətinə dəyər verməyə heç bir ehtiyac qalmır.

İclasda, "Ədəbi proses"in əvvəlki dönəmlərinin fəal iştirakçılarından olan professor Şirindil Alışanlı əvvəllər bu prosesin bir janr ətrafında keçirildiyini xüsusi vurğuladı. Son illərin ədəbi prosesində isə məruzələr bütün janrlar ətrafında yazılmışdır. Ədəbi prosesin məhz bu şəkildə fəaliyyəti akademik İsa Həbibbəylinin adına bağlıdır.

Müxtəlif janrlar üzərində qurulmuş çoxçalarlı məruzələr və onların müəllifləri haqqında məlumat qəzetdə öz əksini tapıb. Hər bir məqalə, müəllifinin təfəkkür, düşüncə tərzinin məhsulu olmaqla yanaşı, həm də böyük zəhmət və müşahidələrinin nəticəsidir. Bəzi məqalə müəllifləri heç bir müzakirəyə ehtiyacı olmayan, aksiomlaşan qənaətlərə gəliblər. Məruzələr içərisində "İcmal tənqidindən monoqrafik dərinliyə" məqaləsi başda olmaqla, filologiya üzrə elmlər doktoru Elnarə Akimovanın "İlin ədəbi mənzərəsi" məqaləsi həm mövzusunun çoxyönlülüyü, əhatəliyi, həm də ədəbi proses haqqında sistemli məlumatların təqdimi baxımından böyük əhəmiyyətə malikdir.

Məqalə, ölüm labüd olsa belə, ölümlərini qəbul edə bilmədiyimiz yazar və alimlərimizin yad edilməsilə başlanır. Müəllif, məqaləsinin ümumi mənzərəsini müsabiqələr, mükafatlar, elmi həyat, ədəbi həyat, nəsr, poeziya, tərcümə, esse, tənqid və ədəbiyyatşünaslıq üzərində qurur.

Onun cəlbedici yazı tərzi də marağımıza səbəb oldu. Beləki, Elnarə xanım nəzər diqqətimizə çatdırmaq istədiyi məsələni ritorik sual üstündə quraraq, dinləyici və oxucusunu fikrən mətləbə yönəldir. E.Akimovanın məsələlərin təhlilinə yanaşma tərzi də birmənalı və özünəməxsusdur: "Biz keçmişin estetik mədəniyyətini müasir təsəvvürdən çıxış edərək dərk edirik. Bu həm düzdür, həm də dərindən səhvdir."

Bu təhlildə müəllif "səhv"i və "düzü" bir məqama gətirərək mütəqabilləşdirmiş, özünəməxsus yanaşma tərzini dolğun ifadə edə bilmişdir.

Və ya onun "... kimisə tarixi ədəbi prosesin inkişaf kontekstindən ayırıb, tədqiqat predmetinə çevirmək metodoloji yalnışlıqdır."

Bəli, bu yanaşma tam real yanaşmadır və bizim buna ehtiyacımız var.

Tənqidçi E.Akimova akademik İsa Həbibbəylinin ədəbiyyat tarixçiliyi istiqamətində ilboyu nəşr etdirdiyi məqalələri əldə əsas tutaraq yazır: "... tarixi-ədəbi prosesin xarakter və çalarlarını dərk etmədən, müasir prosesi təhlil etmək və qiymətləndimək, onun şərhinə və dərkinə girişmək metodoloji baxımdan doğru deyil."

Müəllif "Elmi həyat" başlığı altında institut rəhbərliyinin təşəbbüsü ilə xaricdə çap olunan kitablar və tanınmış alimlərin yubiley mərasimləri haqqında da məlumat verir.

2017-ci il həmçinin Molla Pənah Vaqif və Hüseyn Cavid ili kimi də yadda qaldı, yazır Akimova. İl boyu Molla Pənah Vaqifin 300, Hüseyn Cavidin 135 illiyi ilə bağlı müxtəlif tədbirlər, konfranslar, elmi sessiyalar keçirilmiş və məqalələr toplusu çap olunmuşdur.

Zənnimcə, Molla Pənah Vaqifin 300 illiyi münasibətilə dünya dillərində çap olunmuş şeirlər kitabını, onun ön sözünün müəllifini və hətta İstanbulda Turizm Nazirliyi və Milli Kitabxananın birgə iştirakı ilə TÜRKSOY tərəfindən kitabın təqdimat mərasimini də qeyd etmək zəruri idi. Vaqifin 300 illiyi münasibətilə AMEA-ın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qərarı ilə "Molla Pənah Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağında" adlı kitab da nəşr olunmuşdur.

İnsana qanad verən, onu hərəkətə gətirən, ruhuna ruh qatan poeziyadır. Məqaləsinə fransız yazarı Jül Renarın "Yenə şeir, hey şeir. Bir misra da poeziya olaydı!" – sözlərilə başlayan filologiya elmləri doktoru Vaqif Yusifli poeziya ilə şeir arasındakı uçurumu ürək ağrısıyla qeyd edərək, mərhum şairimiz Fikrət Sadığın bir şeirini söylədi. Bununla da şeir və poeziyanın kəsişən, lakin Azərbaycan xalqı tərəfindən məqbul sayılmayan tərəflərini göstərdi:

Mən sayım, sən sadala
Gör kimlər şeir yazır
Mühəndislər, polislər
Həkimlər şeir yazır.
Bunu bildim, tanıdım
Ta kimlər şeir yazır?!
Elmdən yorulanda
Alim də şeir yazır.

Vaqif müəllim, sizi çox gözəl başa düşürəm. Hətta öz həyatından küsənlər də, mənfəəti azalanlar belə indi şeir yazır. Amma, onu da qeyd edək ki, ariflər poeziya ilə şeirin fərqini gözəl bilir və dünyaya şairlik naxışı ilə gələn bu

insanlar öz alın yazılarına peşman olmurlar. Fikrimi Səməd Vurğunun sözləri ilə ifadə etsəm, daha düzgün olar:

Arifləri dindir ki, nədir şeir ilə sənət!
Şair yaranan ömrə peşiman ola bilməz!

Nədənsə, indi "şeir həvəskarları" ifadəsi leksikonumuzdan çıxarılıb. Çox təəssüflər edirəm!

Amma şeir yazıb, onun mizan-tərəzisini pozanlara, şairlər cərgəsinə can atanlara bir ləff sözüm var:

Şairəm, dinlə gör nə deyir ilham:
Mən söz xiridarı, söz sərrafıyam

Dünyada hər kəsin öz sənəti var,
Şairin əlində söz sənəti var.

Şahiddir gecələr od tökən ürək,
Sözlər qələm ilə güləşən pələng.

... Sən özün bilirsən, mənim əzizim
İşimiz, gücümüz ayrıdır bizim,

Dünyada nə qədər iş var, sənət var.
Birindən yapışar aqil adamlar.

Hər kəs öz yerini tapsa həyatda,
Sanki xəzinə var, başının altda.

Məsələ burasındadır ki, özünü üç və ya dörd ixtisasın sahibi kimi göstərənlər, əslində hər şeydən xali olanlar, "sevdiyi sənəti intixab edə bilməyənlərdi." Sellər, çaylar

daşanda, (yəni aqil insanlar bunu oxuyanda) bu sayaq şeirlər yuyulub atılacaq. S.Vurğunun sözləri ilə desək:

Qəlbin, ürəyin odlarına yanmasa bir söz
Dillərdə, ağızlarda o dastan ola bilməz!

Bütün bunlara rəğmən Vaqif Yusifli Azərbaycan şeirinin mütərəqqi tərəflərini də sevərəkdən qeyd etdi, poetik ustalığı ilə seçilən cavan, hətta sənətə bağlı olan qocaman şairlərin Azərbaycan sənətinin başında durduqlarını, əsl poeziyanı layiqincə çiyinlərində daşıdığını vurğuladı:

Sən Allah, bu gülü yasa aparma
Bu gül ləçəyində başqa həyat gör
Bu qızıl güllərdən mənə qanad hör...

Məqalə müəllifi haqlı olaraq bu şeir parçasını insanın iç dünyasına hopan bir kəlam, bir poetik ahəng kimi dəyərləndirir.

Məqalədə nəzər diqqətimizi cəlb edən məsələlərdən biri də Yusiflinin 50-60 yaşlı şairlərin fərqli bir özəlliyə malik olmalarını qeyd etməsi, şeirimizin yaşarı ənənələrinə üz tutmasıdır:

Bu dünya Nizami dünyası imiş,
Bu dünya Nəsimi dünyası imiş,
Gör hara gəlmişəm ürək eyləyib?!

Müəllif yazır ki, Zirəddin Qafarlının bu şeiri ənənəyə bağlı zəncirin qırılmaması kimi dəyərləndirilməlidir.

Mən düşünürəm ki, istər poeziya olsun, istərsə də nəsr, əgər kökünə, milli zəminə, əvvəlki dönəm ədəbiyyatlarına bağlı deyilsə, onun ədəbiyyata gəlişi, yaşamı Bakı yelinə bənzər...

Vaqif Yusifli poeziyamızın bir sıra nöqsanlı yönləri ilə yanaşı şərbəst şeirə də münasibətini bildirdi: "Bəzən unudulur ki, sərbəst şeirdə də ritm olmalıdır, obrazlı ifadələr işlənməlidir, sərbəst şeir danışıq səviyyəsinə endirilməməlidir..."

Düşünürəm ki, sərbəst şeir yazmaq daha böyük məharət tələb edir. Əks halda nəsrin şeirdən fərqi nədir?!

Müəllif tanınmış ustad şairlərin haqqında məlumat verməklə yanaşı, gənc şairlərimizin bu sahədə bir addım irəlidə olduqlarını da qeyd etməyi unutmadı.

Məqalə boyu poeziyada iki təzadlı tərəflər haqqında mülahizələr yürüdən Vaqif müəllim şeir və poeziya arasında uçurum yaradan həqiqətləri də gizlətmədi: "... Şeirimizdə bəzi istisnaları nəzərə almasaq, fəlsəfi ruh, fəlsəfi düşüncə arealı zəifləməkdədir."

Mən düşünürəm ki, poeziya vurğunu olan Vaqif Yusifli öz poetik qəlbini dinlədiyi üçün məqaləsini müsbət notlarla bitirməyi qərarlaşdırdı. Onun Fikrət Qocanın "Dağınıq duyğular" poemasının son misralarını nümunə gətirməsi Azərbaycan poeziyasının zirvəsini göstərir:

Uğrunda ölüb-dirilmişik.
Azadlığın dadını
Hələ indi bilmişik,
Bir də ölən deyilik!!!
Biz hamımız bir canda

Bütöv Azərbaycanda
Yaşamağa gəlmişik!

Cavanşir Yusiflinin tənqidlə bağlı məqaləsini oxuyanda bir alimin yanğılı-acılı hayqırtılarının şahidi oldum. Sözü, fikri demək istəyən, haqqı-ədaləti bərqərar etmək istəyən, lakin onu kimsənin ədavət şəklində qəbul etməməsi üçün çıxış yolu axtaran bir alimin səsini... Müəllifin səmimi şəkildə reallığı əks etdirməsi mənə ləzzət etdi: "Kimsə tənqid eşitmək istəmir, yaxud kimsə tənqidi dinləmək qədər səmimi ola bilmir..."

Cavanşir müəllim fikrini ehtiyatla söyləsə də, bir alim olaraq mövqeyindən də dönmür: "... başqa sözlə, nə qədər əli qələmli varsa, o qədər də "tənqid" var."

Onu da qeyd edək ki, Şərqin ən seçilmiş, hətta qızıl suya salınmış və Kəbə divarlarından asılan şeir nümunələri Ukaz bazarlarında səsləndirilərək müəyyən tənqidçilərin ələyindən keçmişdir. Ədəbiyyatı formalaşdıran, düzgün məcraya yönəldən tənqiddir. Ancaq nəzərə almaq lazımdır ki, tənqid müəyyən adab qaydalarına riayət üstündə qurulmalıdır.

Cavanşir müəllim, Füzulidən gətirdiyiniz misal / Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz/ ürəyimdən bir tikan çıxartdı.

Cavanşir Yusifli fikrini daha bir maraqlı məqamla davam etdirərək yazır: "... Cəmiyyət və onun həyatı ilə əlaqəsi olmayan ədəbi proses bir qayda olaraq dekorasiyalara qaçır, müxtəlif "izm"lərin arxasında gizlənir, bu gizlənpaç oyununda uduzan şübhəsiz ki, ədəbi mətnlər olur, bir də oxucu - müəllifin aldatdığı oxucu.

Cavanşir müəllim, bu "izm"ləri nə dedin!!! O da lazımdır, amma yerində və məqamında....

Mən "Ədəbi proses–2017"dən yazmağı təsadüfən qərara almadım. Bəzən tənqid obyekti kimi ərsəyə gələn bir iş "bəy tərifi" ilə yola salınır. Əksinə, bəzən isə tərifəlayiq bir əsər tənqid obyekti olaraq kölgəsiz ağacın altında gömülür. Həyatdır da!

"Ədəbi proses–2017"də belə məqamların yer alması, artıq alimlərin mövcud elmi-ədəbi hərakata öz münasibətini tutarlı şəkildə bildirilməsi ilə nəticələnməyə başlayıb.

Müəllifin milli tənqidin vəziyyəti barədə söylədiyi fikirlər bu gün ədəbiyyatın meyarı kimi çıxış edən ədəbiyyatın vəziyyətini açıq-aydın göstərir: "... milli tənqiddə bədii əsərlərin ciddi araşdırılma ənənəsi itmək üzrədir. Səbəblərdən biri: tənqid təfəkkürü mutasiyaya uğrayıb, müstəqilliyini itirib, tənqid bazarlıq meydanına çevrilib."

Cavanşir müəllim, yeri gəlmişkən bir zarafat eləyim. Bəlkə tənqidin əsası Şərqdə "Ukaz" bazarında qoyulduğundan tənqid bazarlıq meydanına çevrilib. Lakin o bazar elmə, bu bazar isə elmsizliyə xidmət edir.

Maral Yaqubovanın "Ədəbiyyat nəzəriyyəsinin səviyyəsinə ümumi baxış" adlı məqaləsinə biganə qala bilməzdim. Çünki mən özüm 47 ildən artıqdır ki, klassik Azərbaycan, ümumən Şərq nəzəriyyəsi ilə məşğulam. Müəllifin yazdıqlarını ümumən məqbul qəbul etsəm də, onun bir abzaslıq fikri ilə qətiyyən razılaşmıram: "Məlumdur ki, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsi respublika miqyasında nəzəri fikrin akademik, eyni zamanda ədəbiyyat nəzəriyyəsi profilli yeganə elmi tədqiqat mərkəzidir. Ədəbiyyatın

ümumi nəzəri məsələlərinin, klassik Azərbaycan və Şərq ədəbiyyatlarının nəzəri problemlərinin, bədii tərəqqinin inkişaf qanunauyğunluqlarının kompleks tədqiqi, ədəbi-bədii tənqidin metodlaşdırılmasının araşdırılması; Azərbaycan ədəbiyyatının tarixi poetikasının tədqiqi, bədii obrazlarının, janr və bədii ifadə vasitələrinin təkamülünün araşdırılması şöbənin tədqiqat istiqamətini təşkil edir. Lakin nədənsə, "Ədəbi proses–2017"də adıçəkilən məqalədə şöbənin qeyd olunmuş istiqamətləri tam şəkildə öz əksini tapmır. Bu, iradımın birincisi. İkinci iradım isə, klassik Azərbaycan və Şərq ədəbiyyatının ümumi nəzəri məsələlərinin öyrənilməsinin şöbənin adına bağlılığınadır. Məqalədə bu aspektdə heç bir tədqiqat işi öz əksini tapmır.

Əziz oxucular! Klassik ədəbiyyatın nəzəriyyəsini, yəni Şərq nəzəri sistemini yazmaq üçün öncə şərq dillərini, Qurani-Kərimi bilmək ən ümdə məsələlərdəndir. Şərq nəzəri sisteminin, bir sistem olaraq, Azərbaycanda heç kimin düşünə bilməyəcəyi qədər uzun tarixi bir yol keçdiyini və ilkin mənbələrin tərcümələri əsasında ərsəyə gəldiyini qeyd etmək istərdim. İlk öncə, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan "Elmlərin açarı" əsəri, sonra azərbaycanlı alim Məhəmməd Qəzvininin ona yazmış olduğu "Xülasə" əsəri və nəhayət, Sədəddin Təftəzaninin "Xülasə" əsərinə aydınlıq gətirən iki – "Mufəssəl" və "Muxtasar" əsərlərinin tərcüməsi ilə ərsəyə gəlib. Bu, işin birinci mərhələsi. İkinci mərhələdə isə, bədiiyyatın söz və məna gözəlliklərinin klassik ədəbiyyat üzərində araşdırılmasıdır. "Klassik Şərq bəlağəti və Azərbaycan ədəbiyyatı" kitabım, yəni 11 kitabdan ikincisi 15 illik əməyimin nəticəsi kimi işıq üzü görüb. Bir məqamı da

qeyd etmək istərdim. Bizim Azərbaycan klassik ədəbiyyatının öyrənilməsi və nəşrində zamanın fövqündə duraraq çoxlu işlər görmüş alimlərimiz – Həmid Araslı, Məmməd Arif, Mirzağa Quluzadə, Mir Cəlal Paşayev, Məmməd Cəfər, Əziz Mirəhmədov, Pənah Xəlilov kimi alimlərimiz var. Hələ mən Yaşar Qarayev, Bəkir Nəbiyev və İsa Həbibbəylini demirəm. Onda hər bir əsəri mahiyyət etibarı ilə bir şöbənin əməyinə bərabər tutulan bu alimləri necə dəyərləndirək?!

Akademik İsa Həbibbəylinin "İcmal tənqidindən monoqrafik dərinliyə" ifadəsini "Ədəbi proses–2017"ə şüar qəbul edərək, reallıq və həqiqətləri qorumaq lazımdır.

Bölgələrdə ədəbi həyat məsələsinə ədəbi prosesdə yer ayrılması, zənnimcə ən lazımlı məqamlardandır. Çünki, ümumi ədəbiyyatın formalaşmasında bu bölmənin xüsusi yeri var.

Professor Vüqar Əhmədin "Elm və bədii yaradıcılığın qovşağında" adlı məqaləsi də alimlərimizin elmlə yanaşı, bədii ədəbiyyatdakı potensialını göstərmək baxımından əhəmiyyətlidir. "Yaradıcılıq Birliyi"nə rəhbərlik edən Vüqar Əhməd məqaləsini maraqlı bir cümlə ilə bitirir: "Bizim ədəbiyyatşünas alimlərin nəsr əsərləri haqqında yekun olaraq deyə bilərik ki, bu povest və hekayələrin ideya-bədii dəyəri onlardakı istedad və səmimiyyətin gücündədir.

Mən də düşünürəm ki, filoloq bədii ədəbiyyatı, ədəbiyyat isə filoloqun təfəkkür tərzini tamamlayır. Bu anlamda elmi-ədəbi yaradıcılıq istiqaməti əməkdaşlarımızın bir-birinə yaxın olmasını, bir-birinin iç dünyasını tanıması baxımından ən gözəl vasitədir.

Göründüyü kimi, "Ədəbi proses–2017"də müxtəlif janrların qısa, lakin dolğun mənzərəsi öz real əksini tapıb. Bu anlamda janrların müəyyən qisminin həyatın nəbzindən geri qaldığı da söylənildi. Zamanla əsərlərinin oxucuları olduğumuz yazarlar və şairlər bu gün alim təhlilinin qənaətlərini yenidən nəzərdən keçirərək, əsərlərinə bir daha diqqət yetirməlidirlər. Bu anda Füzuli və Hüseyn Cavidin beytləri yadıma düşdü:

Mən kiməm? – Bir bikəsü biçarəvü bixaniman,
Taleim aşüftə, iqbalım nikun, bəxtim yaman.

... Qoymadı dövrani-çərx öz halimə xürrəm məni,
Şad ikən aləmdə çərx etdi əsiri-ğəm məni. (Füzuli)

Və ya:

Sormayın əsla, kimim bən? Ya nəyim?
Şimdi bən bir qayğısız divanəyim. (Cavid)

Zamanın hər bir dövründə "dövrani-çərx"in özəllikləri nəzərə alınmalıdır. Bu gün sürətli qatarın sərnişinləri olan gəncliyin ruhunu, zamanın nəbzini əldə əsas tutaraq əsərlər yazmaq mütləqdir.

BƏLƏDÇİ

Ədəbi proses hərəkatı: icmal tənqidindən monoqrafik dərinliyə – **akademik İsa Həbibbəyli** ... 3
2017-ci ilin ədəbi təqvimi – keçmiş davamedici zaman – **fil.ü.f.d. Elnarə Akimova** 29
Poeziya... Poeziya – **fil.e.d. Vaqif Yusifli** 68
2017-ci ilin epik şeiri: tənəzzül, yoxsa inkişaf? – **fil.ü.f.d. Esmira Fuad** 102
Bir ilin hekayələrinin hekayəti – **fil.ü.f.d. Nərmin Cahangirova** 147
Roman janrı – yeni texnologiyalar, yeni poetik xüsusiyyətlər – **fil.ü.f.d. Nərgiz Cabbarlı** 170
Dramaturgiya haqqında monoloq – **fil.ü.f.d. Aynurə Mustafayeva** 198
Cənubda ədəbi proses – **fil.ü.f.d. Pərvanə Məmmədli** 207
Ədəbi tənqidin vəziyyəti və vəzifələri – **fil.e.d. Cavanşir Yusifli** 227
Bədii tərcümə bir dildə – **elmi işçi Mərcan Sofiyeva** 244
Bölgələrdə ədəbi həyatın daha bir addımı – **k.e.i. Nizami Hüseynov** 280
2017-ci ilin uşaq nəsri və dramaturgiyası – **fil.ü.f.d. Günay Qarayeva** 305
Poeziyadan görünən uşaq dünyası – **fil.ü.f.d. Aygün Bağırlı** 330
Publisistika: meyillər, problemlər, axtarışlar – **fil.e.d. Elçin Mehrəliyev** 341

Ədəbi proses–2017

Azərbaycanın rusdilli nəsri–2017 – **fil.ü.f.d. Lalə Həsənova** 370
Ədəbiyyat nəzəriyyəsi–2017 – **fil.ü.f.d. Maral Yaqubova** 382
Azərbaycan-Qərb ədəbi əlaqələri–2017 – **fil.ü.f.d. Xanım Zairova** 422
Azərbaycan və türk ədəbi əlaqələri – **fil.ü.f.d. Eşqanə Babayeva** 430
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ədəbi-bədii proses–2017 – **fil.e.d. Vüqar Əhməd** 448
Ədəbi eksperiment və bədii həqiqət – **fil.ü.f.d. Fidan Abdurəhmanova** 485

Münasibət

Ədəbi proses hərəkatı: praktikadan gerçəkliyə *(AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "İlin ədəbi yekunları")* – **AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu** 493
Məmnunluğumu gizlətmək istəməzdim... – **fil.e.d. Mahirə Quliyeva** 505

QEYDLƏR

ƏDƏBİ PROSES–2017

Bakı – "Hədəf" nəşrləri – 2018

"HƏDƏF" nəşrləri

Məsul redaktor: Töhfə Talıbova

Nəşriyyat redaktorları: Maral Poladova,
Mehparə Axundova

Texniki redaktor: Rəşid Kərimli

Kitab sahibkar ***Kərimov Rüfət Nurəddin oğlunun***
sifarişi ilə ***"Hədəf"*** *nəşrləri mətbəəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.

Formatı: 60x84 $^{1}/_{16}$.
Tirajı: 300.
Həcmi: 32,5 ç.v.
Sifariş № .....